
Rahib Əkbərov, Sadıq Səlimov



Azərbaycanın dövlət və hüquq tarixi

QANUN 2003

Az2

Elmi redaktor: *İbrahim İsa oğlu İsmayılov, hüquq elmləri doktoru, professor*

Rəyçilər: *Vaqif Ziyəddin oğlu Piriyev, tarix elmləri doktoru, professor*

Ağababa Qasım oğlu Rzayev, hüquq elmləri doktoru, professor

34(09)
Ə 39

Rahib Abdulla oğlu Əkbərov, t.e.n., dosent
Sadıq Məmmədzaman oğlu Səlimov, h.e.n., dosent
Azərbaycanın dövlət və hüquq tarixi. "Qanun" nəşriyyatı, Bakı, 2003-ci il, 532 səh.

259250

Azərbaycanın dövlət və hüquq tarixi kitabı ibtidai icma dövründən XXI əsrin əvvəllərinə qədər Azərbaycan ərazisində mövcud olmuş dövlətlərdən, onların ictimai quruluşundan, dövlət quruluşundan və hüququn inkişaf xüsusiyyətlərindən bəhs edir. Kitab tələbələr, müəllimlər, elmi işçilər, hüquq-mühafizə dsistemində çalışan kadrlar və geniş oxucular üçün nəzərdə tutulmuşdur.

Q 0700070001 - 048 03-048
AB022051

Az2

© Qanun, 2003
© R.A. Əkbərov
© S.M. Səlimov

MÜNDƏRİCAT

Giriş.....5

I Fəsil. Azərbaycanda ibtidai icma quruluşunun ümumi xarakteristikası, ictimai hakimiyyət və davranış normalarının formalaşması.....7

II Fəsil. Azərbaycan ərazisində ilk quldarlıq dövlətlərinin dövlət və hüquq tarixi.....19

III Fəsil. Erkən feodalizm dövründə Azərbaycanın dövlət və hüquq tarixi (III-VII əsrlər).....35

IV Fəsil. VII-IX əsrlərdə Azərbaycanın dövlət və hüquq tarixi.....47

V Fəsil. X-XII əsrlərdə Azərbaycanın dövlət və hüquq tarixi.....96

VI Fəsil. XIII-XIV əsrlərdə Azərbaycanın dövlət və hüquq tarixi.....119

VII Fəsil. XV əsrdə Azərbaycanın dövlət və hüquq tarixi.....135

VIII Fəsil. XVI-XVII əsrlərdə Azərbaycanın dövlət və hüquq tarixi.....149

IX Fəsil. XVIII əsrdə Azərbaycanın dövlət və hüquq tarixi.....183

X Fəsil. XIX əsrdə Azərbaycanın dövlət və hüquq tarixi.....202

XI Fəsil. Azərbaycanın dövlət və hüquq tarixi XX əsrin əvvəllərində (1900-1917-ci illər).....253

XII Fəsil. Azərbaycan demokratik respublikasının (I respublikanın) dövlət və hüquq tarixi (1918-1920-ci illər).....284

XIII Fəsil. 1920-1936-cı illərdə Azərbaycan Sovet Sosialist Respublikasının (II respublikanın) dövlət və hüquq tarixi.....342

XIV Fəsil. II Dünya müharibəsi ərəfəsində və müharibə illərində Azərbaycanın dövlət və hüquq tarixi (1937-1946-cı illər).....421

XV Fəsil. 1946-1985-ci illərdə Azərbaycanın dövlət və hüquq tarixi.....451

XVI Fəsil. Azərbaycanın dövlət və hüququ (1985-1991-ci illər).....489

XVII Fəsil. Müstəqil Azərbaycan Respublikasının (III respublika) dövlət və hüququ (1991-2003-ci illər).....500

İstifadə olunmuş ədəbiyyat və mənbələr.....527

Giriş

Dünyanın bir çox xalqları kimi, Azərbaycan xalqının da dövlət və hüquq tarixinin öyrənilməsi indiki dövrdə, yenidən müstəqillik bərpa edildikdən sonra daha böyük əhəmiyyət kəsb edir. Azərbaycanın ümumi tarixi kifayət qədər tədqiq edilsə də, dövlət və hüquq tarixinin öyrənilməsinə son illərə qədər diqqət nisbətən az olmuşdur.

Azərbaycan ərazisində sinifli cəmiyyətin və dövlətin yaranması e.ə. III minilliyin sonundan başlamış, ilkin siyasi birləşmələr – tayfa ittifaqları yaranmışdır. E.ə. I minilliyin əvvəllərindən isə Manna, Midiya, Atropatena, Albaniya kimi müstəqil dövlətlər tədricən formalaşmışdır. Quldarlıq dövrü dövlətlərini əvəz etmiş feodal dövlətləri – Şirvanşahlar, Atabəylər, Elxanilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər və Azərbaycan xanlıqlarının dövlət və hüquq tarixinin siyasi hadisələrlə qarşılıqlı əlaqədə öyrənilməsi tarixi - hüquqi proseslərin aşkara çıxarılmasında vacib şərtlərdəndir. Hüququn mənbələrinin yaranması, xüsusilə də VIII-IX əsrlərdən Azərbaycanda yaranan müsəlman hüququ hüquq münasibətlərinin inkişafında əhəmiyyətli rol oynamışdır.

Azərbaycanın dövlət və hüquq tarixi öz öyrənmə predmetinə görə hüquq elmidir. Azərbaycanın dövlət və hüquq tarixi ümumdövlət və hüquq tarixinin tərkib hissəsidir. Bu fənn müstəqil hüquq elmi kimi dövlət və hüquq hadisələrini, dövlətin və hüququn özünün yarandığı tarixi şəraiti, onun inkişaf qanunauyğunluqlarını, cəmiyyətin müxtəlif tarixi pillələrində rolunu və yerini araşdırır.

Azərbaycanın dövlət və hüquq tarixi fənni Azərbaycan ərazisində dövlət və hüququn əmələ gəlməsi və inkişaf tarixi haqqında elm sahəsidir. Dövlətin yaranması və s. məsələlərlə Azərbaycan tarixi də məşğul olur. Lakin Azərbaycanın dövlət və hüquq tarixi bütövlükdə tarixi hadisələri deyil, yalnız dövlət və hüquqla, habelə cəmiyyətin quruluşu, ölkəmizdə mövcud olmuş hüquq və qanunvericilik sistemləri ilə bağlı olan müddəaları araşdırır. Azərbaycanın dövlət və hüquq tarixi yaranan dövlətləri xronoloji ardıcıllıqla onların ictimai quruluşunu, dövlət quruluşunu, yəni idarəçilik formalarını, dövlətin mərkəzi və yerli orqanlarının səlahiyyətləri və onların qarşılıqlı münasibətlərini, inzibati-cəza orqanlarını, məhkəmə quruluşunu, hüququn əsas

cəhətlərini - hüququn mənbələrini, hüququn əsas institutlarını – mülkiyyət hüququnu, öhdəlik hüququnu, ailə və nikah hüququnu, vərəsəlik hüququnu, cinayət və cəza və məhkəmə prosesinin yaranması və inkişafını araşdırır. Beləliklə, Azərbaycanın dövlət və hüquq tarixinin predmetini ictimai-iqtisadi formasiyalar daxilində, konkret zaman çərçivəsində, dövr ardıcıllığı ilə Azərbaycan dövlətləri, onların dövlət idarəçiliyi və hüquq institutlarının yaranması, fəaliyyəti və inkişafı, bu inkişafın mahiyyəti və xüsusiyyətlərinin ümumi qanunauyğunluqlarının araşdırılması əsasında öyrənilməsi təşkil edir.

Azərbaycanın dövlət və hüquq tarixi humanitar elmlər sırasına daxildir. Bu mənada o, hər şeydən əvvəl dövlət və hüquq nəzəriyyəsi, ümumdövlət və hüquq tarixi, eləcə də siyasi və hüquqi təlimlər tarixi fənləri ilə sıx bağlıdır. Göstərilən fənlərlə yanaşı, Azərbaycanın dövlət və hüquq tarixi Azərbaycan fəlsəfəsi, Azərbaycan ədəbiyyatı və Azərbaycanın siyasi və hüquqi təlimlər tarixi ilə də qarşılıqlı əlaqədədir.

Azərbaycanın dövlət və hüquq tarixinin vəzifələrinə Azərbaycan ərazisində təşəkkül tapan dövlətlərin yaranması, ictimai və dövlət quruluşları, hüququn mənbələri haqqında məlumat vermək, Azərbaycan ərazisində ən qədim zamanlardan XXI əsrə qədər olan dövrdə mövcud olmuş dövlətlərin idarəçilik və hüquq sistemlərinin mahiyyətini öyrənmək, Azərbaycan ərazisində mövcud olmuş dövlətləri və onların hüquq sistemlərini müasir tarixi nailiyyətlərlə müqayisə etmək, zəngin tarixə malik Azərbaycan xalqının dövlətçilik və hüquq ənənələrinə qarşı yönələn müxtəlif xarici saxtakarlıqlara və təfriqələrə qarşı mübarizə aparmaq daxildir. Bu baxımdan Azərbaycan Respublikasının hörmətli prezidenti cənab Heydər Əliyev dəfələrlə tarixçilər və dövlətşünaslar qarşısında çox ciddi bir vəzifə qoymuşdur ki, Azərbaycanın dövlət tarixi yenidən obyektiv, ədalətli, doğru-düzgün yazılsın, konyuktur xarakterdə yazılmasın. Bu ideya dərs vəsaitində qırmızı bir xətlə keçir.

Dərs vəsaiti Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra dövlətçiliyin ümumbəşəri dəyərləri əsasında daha geniş demokratik prinsiplərlə qurulması, qorunması və inkişaf etdirilməsi, dövrün, zamanın meydana gətirdiyi səciyyəvi xüsusiyyətləri baxımından yazılmışdır.

I FƏSİL

Azərbaycanda ibtidai icma quruluşunun ümumi xarakteristikası, ictimai hakimiyyət və davranış normalarının formalaşması

Azərbaycan tarixi elmində artıq sübut olunmuşdur ki, ölkəmizin ərazisi insanın ən qədim məskənlərindən biridir. İlk əmək alətinin hazırlanması ilə insanın təbiətə fəal təsiri başlamışdır. Heyvanlar aləmindən insanlığa keçid ibtidai icma quruluşunda böyük dönüş idi. Daşdan alət hazırlanmasına başlanıldıqdan sonra bioloji qanunauyğunluğu **ictimai** qanunauyğunluq əvəz etdi. Azıx mağarasından tapılan maddi mədəniyyət qalıqları Quruçay dərəsində yaranan daha qədim mədəniyyətin davamı kimi özünü göstərir. "Quruçay mədəniyyəti"nin tarixi isə milyon yarım ildən çox yaşla hesablanır. Daş dövründə cəmiyyətin sonrakı inkişafına əsaslı təsir göstərən bir çox böyük kəşflər olmuşdur. Bəşəriyyət yaşayış vasitələri əldə etmək sahəsində inqilab edərək prinsipcə yeni təsərrüfata, əkinçilik və maldarlıq məhsullarının istehsal üsuluna keçir.

İbtidai icma cəmiyyəti öz inkişafında aşağıdakı mərhələləri keçmişdir: 1) **ibtidai sürü icması;** 2) matriarxat (ana nəsil icması) və patriarxat (ata nəsil icması) dövrlərinə bölünən **nəsil qəbilə quruluşu** və; 3) **kənd icması.**

İbtidai insan sürü icması qədim daş dövrünün böyük bir hissəsini, yəni 1,5 milyon ildən artıq bir vaxtı əhatə etmişdir. Bu mərhələdə insanlar daşlardan sadə əmək alətləri hazırlamışlar. İbtidai sürülər kimi yaşayan insan icması yığıcılıq, ovçuluq və balıqçılıqla məşğul olmuşdu. Tədricən insanların fiziki inkişafındakı təkmilləşmə onun əmək vərdişlərinin formalaşmasına da təsir göstərmişdir. İbtidai insan icması kiçik qruplaşmada birləşmiş kollektivlərdən ibarət olmuşdur.

Son paleolit mərhələsi təxminən 40 min il bundan əvvəl başlamışdır. İnkişaf etmiş insan kollektivi birgə fəaliyyət göstərə biləcək

daimi qruplarda birləşmiş, ibtidai sürü icması ibtidai nəsli qəbilə quruluşu ilə əvəz olunmuşdur. Azərbaycan ərazisində müasir insan tipinin formalaşması başa çatmış, şüurlu birgəyaşayış qaydaları insanın sosial obyekt kimi çıxış etməsinə imkan vermişdir.

ÖN ASİYA ƏRAZİSİNDƏ TAYFALAR, TAYFA İTTİFAQLARI VƏ DÖVLƏTLƏR (E.Ə. III-II MİNİLLİKLƏRDƏ)



10-12 min il bundan əvvəl başlanmış mezolit dövründə insanların əmək fəaliyyətində, dünyagörüşündə dəyişiklik baş verir. Oturaq həyat tərzinə keçid, ovçu, yığıcı qəbilələrin heyvanları əhilləşdirməyə, ox və yayın köməyi ilə qəbilənin ərzaq ehtiyatını artırmağa və nəhayət ilkin **əkinçilik vərdişlərinə** nail olmağa başlanılır.

Bütün bunlar daha möhkəm və inkişaf etmiş əmək kollektivinin yaranması ilə nəticələndi. Yəni, insanların qan qohumluğu ilə təşkil edilmiş birliyi – nəsli qəbilə quruluşunun əsasları formalaşdı. Nəsli qəbilə quruluşunda insanlar matriarxat, ana nəsil xətti üzrə qohumluq əlaqələri əsasında birləşmişdilər. Bu həm də nəsil qəbilə icmasının birinci mərhələsi idi. Azərbaycan ərazisində mövcud olmuş yaşayış məskənlərində ibtidai icma kollektivləri üçün möhrədən tikilmiş böyük qəbilə evləri və ana nəsli üçün xarakterik olan çoxlu gil qadın heykəlləri (bütlər) tapılmışdır.

Matriarxat dövründə qohumluq ana xətti ilə müəyyən edilir, kişilər arvadın qəbiləsinə keçir, qadın qəbilənin bütün həyatında böyük rol oynayırdı. Qəbilə daxilində nikah (ekzoqamiya) qadağan olunmuşdu. Qohumlar arasında nikahın qadağan olunması qaydası getdikcə inkişaf edirdi. Cinslər arasında əmək bölgüsü və yaşa görə əmək bölgüsü güclənirdi. Qəbilə daxilində ictimai həyatda neandertal adamlardan miras qalmış instinktlərin qarşısı alınırdı. Sosial-ictimai həyat tərzi və dünyagörüşündə də dəyişiklik baş vermişdi. İnsanların həyat şəraiti yaxşılaşmış, ölüm azalmış, ömür uzanmışdı (əvvəllər neandertal insanlar orta hesabla 21 yaşında ölürdülər).

Qəbilədaxili nikahın (və ya qarışıq nikahın) qadağan olunması, digər qəbilədən olanlarla nikah münasibətinə daxil olma ibtidai icma cəmiyyətində yeni birliklərin – **tayfa** ittifaqlarının formalaşmasının əsasını yaradır. Artıq qonşu qəbilədən olan qonşular bir-birinə kömək edir, özgə qəbilədən (üçüncü bir qəbilədən) olanlardan birlikdə müdafiə olmağa çalışırdılar. Qəbilə adətləri isə təhqir və ölümə görə qan intiqamını və beləliklə nəslin şərəfini qorumağı əsas məqsəd hesab edirdilər.

Nəsli qəbilə icmasının ikinci mərhələsi olan patriarxatlığa (ata nəsli icması) keçid iqtisadiyyatın müxtəlif sahələrinin, ilk növbədə maldarlıq və əkinçiliyin inkişafı, təsərrüfatda, habelə ictimai həyatda kişilərin mövqeyinin möhkəmləndirilməsi ilə bağlı idi. Azərbaycan ərazisindəki arxeoloji abidələrdən tapılmış maddi mədəniyyət nümunələri eneolit dövründən başlayaraq ana nəslinə mənsub əlamətlərin artıq aradan çıxması və yeni ata nəsli münasibətlərinin yaranmasını

izləməyə imkan verir. Belə ki, təsərrüfat və sənətkarlıq kişilərin ixtiyarına keçir. Əmək bölgüsündəki dəyişikliklər qadınlarla kişilərin ictimai vəziyyətini dəyişdirir. Təsərrüfat və istehsalatda həlledici rol oynayan kişi ailədə və ictimai həyatda böyük üstünlüyə malik olur. Tədricən qadın öz əvvəlki mövqeyini itirir və onun rolu **ev təsərrüfatı** ilə məhdudlaşır. Əvvəllər əkinçiliklə qadınlar məşğul olurdusa, indi maldarlıq kişilərin məşğuliyyətinə çevrilir. Köçəri maldarlığın inkişafı isə bu prosesi daha da sürətləndirdi. Uşaqlar ata qəbiləsində qalır, qohumluq ata xətti ilə müəyyən edilirdi. Ata öz əmlakından övladlarına verməyə çalışırdı. Azərbaycan eneolit dövrü yaşayış yerlərində ailəyə mənsub mənzil və anbarların xüsusi divarla başqalarından ayrılması müşahidə edilmişdir. Hesablanmışdır ki, belə evlərdə 5-7 nəfərdən ibarət qoşa nikaha əsaslanan ailə üzvləri yaşamışdır.

Əkinçiliklə məşğul olan qəbilələr təsərrüfat sahələrində ibtidai şum alətləri olan sümük toxalardan istifadə etməyə başlamışdılar. Yerin şumlanması əkinçiliyin inkişaf səviyyəsini əks etdirir. Əkinçiliyin ilk addımlarında ən təkmilləşmiş şum aləti daş toxa olmuşdur. Maldarlığın inkişafı, qaramaldan qoşqu qüvvəsi kimi istifadə edilməsi daha mütərəqqi əkinçilik formasını – **xış əkinçiliyini** meydana çıxarmışdı. Bu dövrdə qaramaldan qoşqu qüvvəsi kimi istifadə edilməsi şum əməliyyatındakı kimi taxıl döyümü əməliyyatında da böyük irəliləyişə səbəb oldu. Kişilərin fiziki qüvvəsindən istifadəyə əsaslan xış əkinçiliyinə keçid patriarxat münasibətlərini daha da möhkəmləndirdi və həm ailə daxilində, həm də qəbilə icmasında onların rolunun artması ilə nəticələndi.

Ata nəslinə keçid qəbilədə nikah-ailə münasibətlərinin xarakterinə təsir etdi. Hələ matriarxat mərhələsində qoşa nikahlı ailələr yaranmışdı. Belə qoşa nikahlı ailənin mövcudluğu məhsulun bu ailələr arasında bölünməsini sabitləşdirdi. Patriarxat ailədə artıq nikaha sədaqət yalnız kişinin müstəsna hüququ kimi təsbit olunur. Qadın isə nikaha daim sadiq olmalı, əks halda zinaya görə onu çox ağır cəza gözləyirdi. Bununla belə, nikah münasibətləri pozulduqda uşaqlar ananın himayəsinə keçirdi. Nikahın belə forması yeni elementləri üzə çıxarırdı. Əmlaka varislik hələ də ana xətti üzrə müəyyən edilirdi.

Nəsli qəbilə icmasında kişinin hökmran mövqeyə çıxması, əmlakı varislikdə əvvəllər mövcud olmuş qaydaların ləğv edilməsi ilə nəticələnir. Belə ki, nəslin davamçıları (qardaşlar, bacılar) onun daxilində olmaqla mirasa sahiblik hüququ əldə edirlər. Ərə getmiş qadın öz ata əmlakından məhrum olur. Beləliklə, **mirasa varisliyin** ata (arvad üçün ər) xətti sistemi tətbiq edilir.

Patriarxal ailənin yaranması, qoşa nikahın (monoqamiya) forması, prinsip etibarilə çoxarvadlılığı və çoxərliliyi istisna edirdi. Ailənin başçısı qeyri-məhdud hakimiyyətindən istifadə edərək ailə üzvləri və ailə əmlakı üzərində sərəncam hüququ əldə edirdi.

Patriarxat mərhələsində ibtidai icma quruluşunun dağılması prosesi başlayır. Maldarlığın inkişafı ilə iqtisadi inkişaf zəminində ictimai münasibətlərdə də əsaslı dəyişikliklər yaranmışdır. Maldarlıq təsərrüfatının və xüsusən xırda buynuzlu heyvanların sürətli artımı nəticəsində müxtəlif tayfaların əlində böyük sürülər, sərvətlər cəmlənmişdir. Mal-qaraya baxmaq üçün işçi qüvvəsi tələb olunurdu. Bu məqsədlə düşmənlərdən dustaqlar tutaraq onları işləməyə məcbur edirdilər. Qul təbəqəsinin formalaşması belə başlamışdır. Bu isə öz növbəsində ayrı-ayrı tərəflər arasında arasıkəsilməz toqquşmalara səbəb olmuşdur. Heyvandarlıqda sürətlə inkişaf bu sahəyə əhalinin bir qisminin cəlb edilməsi və onların əkinçilikdən əl çəkərək yalnız maldarlıqla məşğul olması tarixdə **birinci ictimai əmək bölgüsünün** yaranmasına gətirib çıxartdı. Maldar tayfaları əkinçilikdən ayrıldı. Təsərrüfatın iki böyük sahəsi müstəqil inkişaf etməyə başladı.

Nəsli qəbilə quruluşunun ata xətti və onunla birlikdə kişilərin rolu daima artırdı. Maldarlığın sürətlə inkişafı isə şəxsi tələbatdan artıq məhsul istehsalına şərait yaradır, məhsul mübadiləsinin genişlənməsinə, maldar tayfaların varlanmasına səbəb olurdu. İzafi məhsul istehsalı maldar tayfalarının öz daxilində də əmlak bərabərsizliyini artırır, tayfanın var-dövlətinin ayrı-ayrı şəxslərin əlində cəmlənməsinə səbəb olurdu. **Əmlak və sosial bərabərsizliyin** təşəkkülü və dərinləşməsi yaşayış məskənlərinin xüsusiyyətində də öz əksini tapmışdır. Sərvət hərisliyi, başqa tayfaların malını, ərazisini zəbt etmək təhlükələrinin artması üzündən yaşayış məskənlərinin ətrafına hasar

çəkilir və möhkəmləndirilirdi. Tayfa icmaları öz ərazisini və əhalisini başqalarının təcavüzündən qorumaq qayğısına qalırdı.

Əkinçilik və maldarlıq təsərrüfatlarının genişlənməsi yeni ictimai münasibətlərin formalaşmasına zəmin yaratmış, nəsli qəbilə birləşmələri əsasında böyük tayfaların yaranmasına səbəb olmuşdur. Digər tərəfdən ovçuluq və balıqçılıq kimi ənənəvi təsərrüfat sahələri öz əvvəlki əhəmiyyətini itirmiş, iqtisadiyyatın yalnız yardımçı sahəsinə çevrilmişdir.

Metalın kəşfi və tətbiqi iqtisadi-ictimai münasibətlərdə dəyişikliklərlə müşayiət olunurdu. Əkinçilikdə metal alətlərinin tətbiqi ayrı-ayrı sənət sahələrinin ixtisaslaşması, qadın əməyinin ev təsərrüfatı ilə məhdudlaşması patriarxal münasibətlərin daha da dərinləşməsinə səbəb oldu və beləliklə, təsərrüfatda və istehsalda həlledici rol oynayan **kişilərin ailədə və ictimai idarəetmədə** böyük üstünlüklərini təmin etdi.

Sənətkarlıq məhsullarına artan tələbatı ödəmək üçün bu və ya digər sənət sahəsi ilə məşğul olan şəxslər ixtisaslaşaraq sırf peşələrə yiyələnir, digər işlərdən əl çəkir, bütün diqqətini yalnız öz sənətinə verirdi. Sənətkarlıqla məşğul olan xüsusi silk formalaşırdı. Sənətkarlıq başqa təsərrüfat sahələrindən ayrılaraq müstəqil inkişaf edirdi. Beləliklə, **ikinci böyük ictimai əmək bölgüsü** – əkinçilikdən sənətkarlığın ayrılması baş verirdi. İctimai əmək bölgüsü və onunla bilavasitə bağlı olan əmək alətlərinin təkmilləşdirilməsi əmək məhsuldarlığının yüksəlməsinə təkan verdi. Sosial-ictimai və iqtisadi həyatda dəyişiklik əmlak və ictimai bərabərsizliyi daha da artırmış, ibtidai icma quruluşunun əsaslarını sarsıtmış böyük tayfa ittifaqı birlikləri yaratmışdır.

Böyük, qüvvətli tayfalar tədricən çoxsaylı işçi qüvvəsinə malik olur, varlanır, sərvətlərini artırır, digərləri isə kasıblaşırdı. Nəsli qəbilənin ümumi əmlakı və hərbi qənimətlər varlanmış qəbilə ağsaqqalları və hərbi başçılar tərəfindən mənimsənilirdi. **Xüsusi mülkiyyət** və sosial bərabərsizlik üçün geniş zəmin hazırlanırdı.

Nəsli qəbilə icmasında ictimai hakimiyyət ibtidai demokratiya kimi xarakterizə edilir. Bilavasitə özünüidarə orqanlarını yaradan qəbi-

lə icmasında hakimiyyət sırf ictimai xarakter daşıyır. Dövlət mövcud olmasa da, cəmiyyətin yaranması, insana özünün ictimai varlıq kimi inkişaf səviyyəsinə uyğun olan təbii özünüidarəyə əsaslanan, mülkiyyətin və əməyin ümumiliyi mövcud olmuş birlik formalaşdırmağa imkan verir. Həm də birlik digər zərurətdən – ibtidai icma quruluşunda əmək alətlərinin qeyri-təkmil, əmək məhsuldarlığının isə aşağı olması ilə ibtidai insanın yaşayış tələbatını ödəyə bilməməsilə bağlı idi.

Dövlətəqədərki cəmiyyətin təşkilinin əsasını nəsli qəbilə icması və tayfaların birliyi formalaşdırmışdır. Qəbilə icması qan qohumluğuna, habelə mülkiyyətin və əməyin ümumiliyinə əsaslanan insanlar birliyidir. Tayfa daha mütəşəkkil olmaqla təsərrüfat vahidi, istehsal vasitələri mülkiyyətçisi, ümumi əməyin təşkilatçısı kimi çıxış edir.

İnsanlar qəbilədə ərazi birliyinə deyil, şəxsi qohumluq əlaqələrinə, iqtisadi, mənəvi, dini və digər mənafeləri naminə toplaşır və ittifaq yaradırlar. Qəbilələr daha böyük ittifaqlarda – tayfalarda birləşirdilər. Qəbilə birliyinin ali forması tayfa idi. Tayfa ittifaqlarının yaranması ilə **dövlət rüşeymlərinin** çalarları özünü büruzə verir.

Nəsli qəbilə icmasında **ictimai hakimiyyətin,** həmçinin məhkəmə hakimiyyətinin ali orqanı bütün kişi və qadınların iştirak etdiyi, patriarxat mərhələsində isə yalnız kişilərin müstəsna hüququ olan qəbilənin ümumi yığıncağı idi. Yığıncaq təsərrüfat məsələlərini həll edir, **hərbi rəisləri** seçir, icma üzvləri arasında mübahisələrə baxır, xəyanət, qorxaqlıq, qəbilə daxilində qətllərlə nəticələnən cinayətləri **məhkəmə orqanı** kimi araşdırır və s. məsələlərə baxırdı.

İctimai hakimiyyətin digər orqanı olan **ağsaqqallar şurası** icmanın ailə başçılarından təşkil olunmuşdu. Ağsaqqallar şurası qabaqcadan ümumi yığıncaqda baxılacaq məsələlər barəsində öz aralarında məsləhətləşmələr aparırdılar. Bütün vəzifəli şəxslər qəbilə yığıncağında dəyişdirilə bilərdilər.

Bir neçə qəbiləni birləşdirən tayfalarda və ya tayfalar ittifaqında ali orqanlar qəbilə ağsaqqalarından təşkil olunmuş **ümumi xalq yığıncağı və tayfa şurası** idi. Tayfanın xalq yığıncağı müntəzəm toplanmadığından tədricən nüfuzlu qəbilə nəslindən olan tayfa şurasının rolu artırdı. Xalq yığıncağı qəbilələrin hərbi başçılarını seçirdi. Tayfa şurası

və hərbi rəis vəzifələrini varlanmış nəsli qəbilə əyanları elə keçirir və nəticədə vəzifələrin seçilməsi prinsipini onların **vərəsəliklə** tutulması prinsipi əvəz edirdi. Nəsli qəbilə icmasında ictimai hakimiyyət bütün cəmiyyət üzvünə, bu və digər nəslə və ya tayfaya məxsus olan şəxslərin əlində cəmləşirdi. Bununla belə cəmiyyəti idarə etməli olan xüsusi insanlar, silki və xüsusi aparat hələ tam formalaşmamışdı.

Qohumlar və tayfa üzvləri arasında münasibətlər **adətlər** vasitəsilə tənzimlənirdi. Adətlər ibtidai icma cəmiyyətində müəyyən davranış qaydalarını və sosial normaları təmin edirdi. Belə adət normaları uzun zaman ərzində dəfələrlə tətbiq olunma nəticəsində vərdişə çevirilmiş və insanların təbii həyati ehtiyacına dönmüşdü. Onlar tayfa üzvlərinin əməyini, məişətini, əxlaq normasını, mənəviyyatını, ailə münasibətlərini, ümumiyyətlə ictimai münasibətləri nizamlayırdı. Adətlərin çoxu qəbilə icmasında kök salmış əxlaq, din, mərasim və ayinlərlə bağlı olmuşdur. Onlar isə cəmiyyətin bütün üzvlərinin maraqları, və iradəsini ifadə edirdi. Adətlər qarşılıqlı hörmət və mövcud ənənələrə uyğun qorunurdu. Nəsli qəbilə quruluşu hüquqi baxımdan hüquq və vəzifələrin nə olduğunu bilmirdi. Eyni zamanda icma üzvləri **vərdiş** hesabına könüllü olaraq adətləri icra edir, zərurət olduqda isə onlara əməl olunması bütün qəbilə tərəfindən məcburi olaraq təmin edilirdi. Adətləri pozulmaq təhlükəsindən qoruyan xüsusi orqan mövcud olmamışdır. Bununla belə, adəti pozanlara qarşı bütün qəbilə və tayfa tərəfindən inandırma, bəzən isə məcburetmə vasitələri tətbiq edilirdi. Cəmiyyət üzvlərinin hüquq və vəzifələri arasında heç bir fərq qoyulmamışdır, hüquq vəzifə kimi, vəzifə isə hüquq kimi qəbul edilirdi. İbtidai icma cəmiyyətinin inkişaf mərhələsində əhalinin artımı, təsərrüfatın bütün sahələrinin, o cümlədən əkinçiliyin, xüsusilə də maldarlığın inkişafı, yeni otlaq sahələri əldə etmək, tayfanın ərazisini genişləndirmək meylləri, özgə tayfa ərazilərini zəbt etmək və beləliklə, qəfil hücumların qarşısın almaq yox, həm də qonşu tayfaları birləşdirmək məqsədilə müharibələr aparmaq adi hala çevrilirdi. Xüsusi mülkiyyət yarandıqdan sonra isə qarətçi müharibələrə daha çox üstünlük verilirdi. Belə müharibələr ali hərbi rəisin hakimiyyətini və ona tabe olan hərbi rəislərin mövqeyini daha da

möhkəmləndirmişdi. Seçkili ali hərbi rəis vəzifəsi tədricən irsi yolla müəyyən edilirdi. Beləliklə, **irsi** müəyyən edilən **şah hakimiyyətinin** əsasları yaradılırdı.

Tuncun kəşfi, texnikanın və əmək məhsuldarlığının inkişafı fərdi peşə sahələrinin daha da artmasına səbəb oldu. İbtidai icma qurluşundakı əməyin kollektiv forması ayrı-ayrı sahələrin inkişafına əngəl törədirdi. Nəticədə istehsal qüvvələri ilə istehsal münasibətlərinin kollektiv mülkiyyət və kollektiv əmək sistemi arasında ziddiyyət yaranırdı. Azərbaycan ərazisində yaşamış Kür-Araz mədəniyyəti əhalisi sənətkarlığın müxtəlif sahələri ilə məşğul olmuş, ənənəvi sənət nümunələrini yeni dövrün tələbləri səviyyəsində yaratmış və inkişaf etdirmişdir. Xüsusilə dulusçuluq, metallurgiya və metalişləmə böyük tərəqqi etmişdir. Sənətkarlıq məmulatlarını əvvəllər peşə sahibləri özləri satırdısa, sonra artıq peşə sahiblərinin öz arasından çıxmış xüsusi silk – **tacirlər** bu işlə məşğul olurdu. Beləliklə, ibtidai icma cəmiyyətində **üçüncü böyük əmək bölgüsü** yaranırdı. Bu isə ətraf ərazilərdə (tayfa ittifaqları və ya dövlət rüşeymləri) iqtisadi-mədəni əlaqələrin yeni inkişaf mərhələsi idi. Sənətkarlıqda peşə bölgüsünün təşəkkülü ayrı-ayrı sənət sahələrinin mükəmməlləşməsinə, əmək məhsuldarlığının yüksəlişinə şərait yaratdı. Başqa sahələrdə, xüsusilə məhsulun istehsalçılara çatdırılmasından azad olmuş sənətkar məhsulun kəmiyyəti ilə yanaşı onun keyfiyyətinə də xüsusi diqqət verirdi.

Yeni yaranmış şəraitdə böyük patriarxal ailələrdən ayrılmış, valideynlərindən və övladlarından ibarət olan fərdi ailələr fərqlənirdi. Belə ailələr tərəfindən hazırlanmış məhsul artıq əvvəllər olduğu kimi ümumi istifadəyə verilmir və nəsil daxilində bölüşdürülərək onun mülkiyyətinə keçirdi. Nəsli icma dağılır və nəticədə ibtidai icma cəmiyyətinin sonuncu mərhələsi olmuş **kənd icması** və ya qonşu icması yaranır.

Kənd icmasının səciyyəvi cəhəti kollektiv və xüsusi mülkiyyətin birlikdə mövcud olmasında idi. Hər bir fərdi ailənin öz evi, həyətyanı sahəsi və dövriyyədə olan əmlakı mövcud olmuşdur. Torpaq isə kənd icmasının ümumi mülkiyyəti olmaqda davam edirdi. Hər bir ailə işçilərinin və ya ailə üzvlərinin sayından asılı olaraq icma torpaq-

larından torpaq payı alınaraq ailə üzvləri tərəfindən əkib – becərilir və alınan məhsul ailənin xüsusi mülkiyyətinə keçirilirdi. Beləliklə, fərdi əmək bölgüsünün yaranması icma üzvünün təklikdə istehsalla məşğul olmağa, eyni zamanda fərdi qaydada məhsulu satmağa başlamasına, nəticədə isə **xüsusi mülkiyyət institutunun** formalaşmasına gətirib çıxarırdı.

Xüsusi mülkiyyətin yaranmasında **dinin** böyük rolu olmuşdur. İbtidai icma cəmiyyətində tətbiq olunan qadağanlar əvvəllər tayfa başçılarının, sonra isə icmanın digər üzvlərinin əmlaklarını qorumaq məqsədilə edilmişdir. Qadağanlar sistemi özgəyə məxsus əmlakdan istifadəyə icazə vermirdi. İbtidai dini təsəvvürlər ictimai-iqtisadi sahədə baş vermiş dəyişikliklərə, əhalinin dünyagörüşünə və ətraf aləmə münasibətdə öz təsirini göstərmişdir. Dini görüşlər, **astral** təsəvvürlər Azərbaycan ərazisindəki qəbir abidələrinin quruluşunda, dəfn mərasimində (tayfa başçıları və kahinlərin təntənəli dəfn olunması) xüsusi ibadət binalarının olmasında, qayaüstü və maddi mədəniyyət nümunələrinin səthində həkk olunmuş kompozisiyalarda əks olunmuşdur. Tayfa başçıları üçün ucalmış kurqan abidələri, buradakı təntənəli dəfn mərasimi dinin rolunun artdığını sübut edir. Ayrı-ayrı şəxslərin varlanması, tayfa ağsaqqallarının nüfuzunun artması, dünyəvi və hərbi işin, bəzən isə dini rəhbərliyin də onların əlində cəmləşməsi bu şəxslərin ilahiləşdirilməsinə şərait yaradırdı. Axirət dünyasına inam daha da güclənirdi. Bu dini etiqad və mərasimlərin sabit və ardıcıl forma almasında da müşahidə edilirdi. Cəmiyyət üzvlərinin, kişi və qadınların rolu və yeri dini etiqadlarda aydın əks olunmuşdur. Əvvəllər patriarxat mərhələsində qadınların rolunun yüksək olmasına aid tapılmış çoxsaylı qadın heykəlciklər (statuet) bir sübut idisə, patriarxat dövründə kişinin təsərrüfatda, ictimai-siyasi həyatda rolu ona sitayişi artırır, kişi bütlərinin yaranmasına səbəb olurdu. Dinin rolu artdıqca, dini hakimiyyət də möhkəmlənirdi. Dini hakimiyyət funksiyalarını isə tayfaların kahinləri yerinə yetirirdi.

Əmək bölgüsünün yaranması, xüsusi mülkiyyətin inkişafı cəmiyyətin silklərə bölünməsini gerçəkləşdirirdi. Varlılar və kasıblar təbəqəsi yaranırdı. Beləliklə, ibtidai icma quruluşunun daxilində dərin dəyişiklik baş verirdi. Birincisi, cəmiyyət iki sinfə ayrılır, ikincisi cə-

miyyət üzvlərinin qan qohumluğuna əsaslanan əlaqələri dağılır və ərazi prinsipi bölgüsünə əsaslanan əlaqələri yaranır. Bu cəmiyyət bir-biri ilə daim mübarizə aparan siniflərə və ya üçüncü bir qüvvənin (**dövlətin**) hökmranlığına şərait yaradan cəmiyyətə çevrilir. Nəsli qəbilə quruluşu öz dövranını başa çatdırırdı.

F. Engels dövlətin nəsli qəbilə quruluşundan fərqlənən üç əlamətini göstərmişdir. Birincisi, əhalinin ərazi prinsipi üzrə bölünməsi idi. Yəni insanlar istədiyi ərazidə yaşama hüququnu seçə bilərdilər. Bu isə öz növbəsində qan qohumluğuna əsaslanan qəbilələrin dağılması demək idi. İkincisi, ictimai hakimiyyətin yaranması prinsipinə görə. Sinfi və siyasi xarakterə malik olan ictimai hakimiyyət xalq kütlələrindən tamamilə ayrılır və istismar olunan təbəqələrə qarşı yönəlir. Üçüncüsü isə ictimai hakimiyyəti maddi cəhətdən təmin etmək məqsədi ilə əhalidən vergi toplanması əlamətinə görə fərqlənirdi. Dövlətin göstərilən səciyyəvi cəhətləri və əlamətləri, hansı ki, onu nəsli qəbilə quruluşundan fərqləndirirdi – hər üç əlaməti dərhal və eyni vaxtda yaranmamışdı. Hələ çox uzun müddət sinifli cəmiyyətdə köhnə qəbilə quruluşunun qalıqları saxlanılmışdır. Bu qalıqlara uzun müddət və gərgin mübarizə aparıldıqdan sonra qismən və hissə-hissə son qoyulmuşdur.

Dövlət yarandıqdan sonra onunla birlikdə **hüquq** da yaranır. Hüquq sinfi cəmiyyətdə ictimai münasibətləri tənzim edən əsas spesifik formaya çevrilir. İbtidai icma quruluşunda cəmiyyətin bütün üzvlərinin marağını ifadə edən hüquq sinifli cəmiyyətdə iqtisadi və siyasi cəhətdən hökmran olan hakim sinfin mənafeyini müdafiə edirdi. İlk dövrlərdə hüquq normaları adətlər idi. Hüquqi adətlər insanlar tərəfindən müəyyən hərəkətlərin dəfələrlə təkrarlanması nəticəsində təşəkkül taparaq, sabiq norma kimi möhkəmlənən və dövlət tərəfindən sanksiyalaşdırılan davranış qaydasıdır. Dövlət yalnız onun mənafeyinə cavab verən adətləri sanksiyalaşdırırdı. Sanksiyalaşdırılmış adətlər ümumməcburi davranış qaydaları xarakteri kəsb edir. Sinifli cəmiyyət yarandıqdan sonra hakim sinif özünün xüsusi mülkiyyət hüququnu daim əsaslandırmağa çalışmışdır. Məhz ona görə də yeni adətlər cəmiyyətin bütün üzvləri tərəfindən könüllü qəbul edilmir və müqavimətlə qarşılanırdı.

Bəşəriyyət tarixində, o cümlədən Azərbaycanda ibtidai icma cəmiyyətinin dağılması, sinifli cəmiyyətin nə vaxt yaranması, eyni zamanda ibtidai icma cəmiyyətinin sinifli cəmiyyətlə birgə mövcud olub-olmamasını və ya bu prosesin nə qədər davam etdiyini söyləmək çətindir. Lakin xüsusilə kənd icmalarının meydana çıxması, torpaq üzərində kənd icma mülkiyyəti ilə yanaşı xüsusi mülkiyyətin yaranması, ictimai işlərdə birgə idarəçilik sinifsiz cəmiyyəti sinifli cəmiyyətə daha yaxın edirdi. Azərbaycan Şərqin bir hissəsi olduğundan elmdə mövcud olmuş Asiya istehsal üsulu bizim üçün maraq doğurur və həmin fikrin müəyyən əlamətləri Azərbaycan ərazisində həm sinifsiz, həm də sinifli cəmiyyətdə özünü büruzə vermişdir. Asiya istehsal üsulunun əsas əlamətlərinə görə əsasən istehsal vasitələri və torpaq üzərində xüsusi mülkiyyət olmamış, yalnız icma torpaq sahibliyi mövcud olmuşdu. Digər tərəfdən xüsusi mülkiyyət fiziki mülkiyyətçi kimi dövlətin simasında cəmlənmiş, dövlət isə öz növbəsində icmanı istismar etmişdir. Beləliklə, qədim Şərq cəmiyyətində iki sinfin – dövlət və icma sinfinin mövcud olması fikri irəli sürülür. Qullar isə sinif kimi yox, ev kölələri kimi təqdim olunurdu. Lakin məlumdur ki, icma öz varlığını həm quldarlıq, həm də feodalizm cəmiyyətində qoruya bilmişdir. Buna görə də xüsusi mülkiyyət və istismarçı siniflərin olmamasını söyləmək düzgün olmazdı. Digər tərəfdən isə dövlət heç vaxt ictimai sinif olmamışdır. Şərq ölkələrində isə antik cəmiyyətlərdən fərqli olan bir cəhəti qeyd etmək olardı ki, quldarlıq burada klassik formaya yüksəlməmiş, ev bu hakimiyyəti nizamlayan köləliyinə əsaslanan kölelik nisbətən daha çox üstünlük təşkil etmişdir.

Beləliklə, dövlətəqədərki cəmiyyətdə ictimai hakimiyyət və davranış normaları cəmiyyətin sosial, ictimai, iqtisadi, mədəni və mənəvi inkişaf səviyyəsinə – onun üzvlərinin səviyyəsinə uyğun olaraq mövcud olmuşdur.

II FƏSİL

Azərbaycan ərazisində ilk quldarlıq dövlətlərinin dövlət və hüquq tarixi

İbtidai icma quruluşunun dağılması və ilkin siyasi birləşmələrin meydana gəlməsi. Azərbaycan ərazisində ibtidai icma quruluşu mərhələlərlə on min illər davam etmişdir. Eramızdan əvvəl III minillikdə tuncun mənimsənilməsi ilə **əmlak və sosial bərabərsizliyin** əlamətləri artmış, patriarxal münasibətlər güclənmişdir. Təsərrüfatda və ümumiyyətlə, tayfanın idarə olunmasında kişilərin rolunun güclənməsi ilə ana nəsli (matriarxat) quruluşu aradan çıxmış, onun yerini ata nəsli (patriarxat) tutmuşdu. İqtisadi inkişaf zəminində ictimai münasibətlərdə də əsaslı dəyişikliklər yaranmışdı. Tayfalar arasında rəqabət güclənmişdi. Eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərində Azərbaycanda yeni mədəniyyət inkişaf etmiş və şərti olaraq "Kür-Araz mədəniyyəti" adlandırılmışdır. Kür-Araz mədəniyyəti Cənubi Qafqaz, Şərqi Anadolu, Cənubi Azərbaycanın geniş ərazisində təmsil olunmuşdu. Cənubi Azərbaycanda, xüsusilə onun qərb torpaqlarında sinifli cəmiyyətin yaranması prosesi e.ə. IV minilliyin sonu - III minilliyin əvvəlində başlamışdı. Cənubi Azərbaycanın qərb torpaqları İkiçayarasının quldarlıq cəmiyyətinə yaxın olduğundan orada baş verən iqtisadi-ictimai dəyişikliklər həmin əraziyə güclü təsir göstərmişdir.

E.ə. III minilliyin birinci yarısından Cənubi Azərbaycanda İkiçayarası Şumer dövlətləri ilə iqtisadi-siyasi münasibətdə olan erkən dövlət qurumları meydana gəlmişdir. Azərbaycanın bu hissəsində artıq sinifli cəmiyyət yaranmışdır. E.ə. III minilliyin əvvəlində Azərbaycanın şimalında sosial və mülki bərabərsizlik hələ meydana gəlməmişdi. Kollektiv icma mülkiyyəti qalmaqda davam edirdi. Lakin tədricən ümumi mülkiyyətə malik olan nəsli icmalardan ev icmaları yaranmışdı. İqtisadi özəyini ailə mülkiyyəti təşkil edən ev icmaları

kənd icmalarında birləşirdilər. Xüsusi mülkiyyətin yaranması ibtidai icma quruluşunun dağılmasına və sinifli cəmiyyətin meydana gəlməsinə səbəb oldu.


Azərbaycanda erkən tayfa ittifaqlarının meydana gəlməsi və dövlət halında birləşməsini mənbələr əsasında dəqiq müəyyənləşdirmək mümkün deyil. Lakin e.ə. III minillikdə İkiçayarasına yaxın bir ərazidə yerləşən qədim Azərbaycan tayfalarında erkən siyasi münaqişələrin olması və dövlət qurumları barədə Şumer-Akkad mixi yazılarında əks olunmuşdur. Bu qaynaqlar Aratta ölkəsinin, kuti, lullu və su tayfalarının olduğunu qeyd edirdilər. Aratta Cənubi Azərbaycanda e.ə. III minilliyin birinci yarısında meydana gəlmiş ilk dövlət qurumu idi. Onun ərazisi Urmiya gölünün cənub və cənub-şərq hissəsini əhatə edirdi. Aratta əhalisinin əsas məşğuliyyəti əkinçilik idi. Əkin sahələrinin məhsuldar olması Şumerlə taxıl mübadiləsini genişləndirirdi. Maldarlıq da xeyli inkişaf etmişdi. Aratta əhalisi sənətkarlığın müxtəlif sahələri ilə məşğul idi. Burada məbəd və saray tikən, onun divarlarına qiymətli metal və daşlardan naxış vuran mahir ustalar vardı.

Aratta ölkəsini **ensi** rütbəsi daşıyan hökmdar idarə edirdi. Mərkəzi dövlət idarələri şəhərdə yerləşir, mərkəzi aparat vasitəsilə dövlətin idarə olunması hökmdar sarayından istiqamətləndirilirdi. Qəbilə əyanları nəslindən olan əsilzadə təbəqəsinə daxil olan **maşmaş** ölkənin kahini və vəzir vəzifəsini aparırdı. Sarayda kiçik hökmdar rütbəsi daşıyan **sukkal,** rəis vəzifəsini daşıyan **uqula** və başqa dövlət idarəsinin qulluqçuları olmuşdur. Arattada dövlət idarəsində mirzələr də çalışırdılar. Mənbələrdən məlum olur ki, hökmdar yanında məşvərətçi orqan olan Şura fəaliyyət göstərirdi. Ölkə inzibati cəhətdən vilayətlərə ayrılırdı. Vilayətləri canişinlər idarə edirdilər. Onlar arasında qasidlər vasitəsi ilə daim əlaqə saxlanılırdı. Məhkəmə funksiyasını kahinlər icra edirdilər.

E.ə. III minilliyin sonunda Aratta, Kutium, eləcə də Lulubum dövlətləri süquta uğrayaraq xırda hakimiyyətli vilayətlərə parçalanır.

Manna dövləti

E.ə. I minilliyin əvvəllərində Cənubi Azərbaycan ərazisində, Urmiya gölü ətrafında ilk iri dövlət qurumu Manna dövləti meydana gəldi. Mannanın adı mixi yazıda ilk dəfə e.ə. 843-cü ildə III Salmanasar kitabəsində çəkilmişdir. Mannanın inkişaf etmiş iqtisadiyyatı onu Yaxın Şərqin iri dövlətlərindən birinə çevirmişdir. Lakin Manna bütün Cənubi Azərbaycan torpaqları üzərində hakimiyyətini bərqərar edə bilməmiş və hələ də müstəqil siyasət aparan vilayətlər mövcud idi. Zamua - lullubilər ölkəsi Mannanın mərkəzi torpaqları idi.



Assuriyanın hərbi müdaxilələri Manna hökmdarlarını ölkəni vahid mərkəzdə birləşdirməyə vadar edirdi. Digər tərəfdən, e.ə. IX əsrdə meydana gəlmiş Urartu dövləti Mannaya qarşı işğalçılıq siyasəti yürüdərək tez-tez basqınlar təşkil edirdi. Manna özünün bütün sərhədləri boyunca müdafiəyə məcbur olmuş və bəzi dövrlərdə bu mübarizə onu zəiflətmişdir. Lakin elə dövrlər olmuşdur ki, Manna güclü qonşu dövlətlər arasında gedən çəkişmələrdən və onların daxili vəziyyətlərinin ağırlaşmasından faydalanaraq öz ərazisini bərpa edə bilmişdir.

Manna özünün ən böyük yüksəliş dövrünə hökmdar İranzunun (e.ə. 740-719-cu illər) hakimiyyəti illərində çatmışdır. İranzu Manna dövlətində mərkəzləşdirmə siyasəti apararaq vilayətləri mərkəzi aparata tabe etdi və ölkədə **canişinlik** sistemi yaratdı. İranzu şərqdə və şimalda Mannanın hakimiyyətini möhkəmləndirdi. Canişinləri mərkəzi hakimiyyətdən asılı etdi. Dövlətin mərkəzləşdirmə siyasəti Mannanın bəzi canişinlərinin mənafeyinə uyğun gəlmirdi. Belə ki, Mannanın Zikirtu vilayətinin canişini Mettati əhalini mərkəzi hakimiyyətə qarşı üsyana qalxmağa təhrik edirdi. Nəhayət, e.ə. 719-cu ildə Mannanın Şuandahul və Durdukka şəhərlərinin əhalisi Mettatiyə arxalanaraq İranzuya qarşı üsyan qaldırdılar. Mettati öz döyüşçü və süvariləri ilə onlara yardım etdi. Lakin hökmdar İranzuya qarşı hazırlanmış üsyan Assuriyanın köməyi ilə yatırıldı.

İranzunun vəfatından sonra onun oğulları arasında hakimiyyət uğrunda mübarizə başlandı. Ölkənin daxilində siyasi hərc-mərclik, mərkəzdən ayrılma meylləri gücləndi. Manna bu dövrdə Assuriyanın siyasi ağalığını tanıyır və ona xərac verirdi. Manna Assuriyaya tam sadiq qalırdı. Belə ki, e.ə. 616-cı ildə Assuriya Midiya və Babilistan ilə mübarizədə təklənən zaman Manna hərbi dəstələri ilə ona köməyə gəldi. E.ə. 590-cı ildə Manna güclü Midiya dövlətini tanımış, lakin daxili müstəqilliyini saxlamışdı. Bundan sonra Mannanın adı tarixdən silindi.

Mannanın ictimai quruluşu. Manna dövlətinin əhalisinin əsas hissəsini hüquqi cəhətdən **azad icma** üzvü olan kəndlilər təşkil etsə də, tədricən ibtidai icma qalıqlarının aradan çıxması, məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar olaraq cəmiyyətin iki əsas silkə – hakim

quldarlar və qullar təbəqəsinə ayrılması prosesi sürətlə inkişaf edirdi. Bu dövrdə köləliyin əsas mənbəyi hərbi əsirlər idi. Lakin borca görə qula çevrilənlər də mövcud olmuşdur. Qulları alıb satmaq olardı.

Hakim sinfin yuxarı təbəqəsinə çar, daim onun əhatəsində olan qəbilə nəslindən olan əyanlar və kahinlər daxil idilər. Manna çarları böyük saraylarda yaşayırdılar. Çar əhatəsinin sarayda xüsusi otaqları var idi. Təsərrüfat ehtiyatları üçün əsas binalara bitişik çoxlu köməkçi otaq tikilirdi. Bunların bir qismində taxıl və şərab saxlanılan nəhəng qablar mövcud idi. Təsərrüfatda qul əməyindən geniş istifadə olunurdu.

Manna əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur. Mannada taxıl anbarlarının olması barədə məlumat vardır. Taxıl saxlamaq üçün xüsusi binalar mövcud olmuşdur. Böyük anbarlar dövlətə məxsus idi. Yəqin ki, quraqlıq vaxtı əhaliyə bu anbarlardan taxıl paylanırmış. Çar Ullusun ordunu ərzaqla təmin etmək üçün xüsusi un və şərab anbarları düzəltdirmişdi. Şərab iri həcmli küplərdə saxlanılırdı. Mannada suvarma kanalları şəbəkəsi bağlar və üzümlüklər salmağa imkan verirdi. Əkinçiliklə yanaşı maldarlıq da təsərrüfatın ən mühüm sahələrindən idi. Mannada mal-qara saxlanılan xüsusi vilayətlər mövcud idi. Dəvəçilik də inkişaf etmişdi. Lakin maraqlıdır ki, dəvəni vergi siyahısına daxil etmirdilər.

Manna əhalisinin bir hissəsi **sənətkarlıqla** məşğul olurdu. Ölkənin şəhərlərində sənətkarlıq emalatxanaları mövcud idi.

Dövlət quruluşu. Manna dövlətinə çar başçılıq edirdi. Burada hakim yuxarı təbəqənin hakimiyyəti mövcud olmuşdur ki, bu da erkən quldarlıq dövlətlərinə məxsus olan xarakterik cəhət idi. Çar hakimiyyətini məhdudlaşdıran **ağsaqqallar şurası** mövcud olmuşdur. E.ə. VIII əsrin ikinci yarısında Mannada hakim ailənin artıq irsi hakimiyyəti mövcud idi. Məhz həmin dövrdən ağsaqqalar şurasının olması formal xarakter daşımış, hökmdara və onun qəbul etdiyi qərarlara həlledici təsir göstərməmişdir. Manna çarı qonşu dövlətlərin hökmdarları kimi dövlətin təkbaşına başçısına çevrildi. Onun hakimiyyəti qeyri-məhdud idi. İzirtu şəhərində mərkəzi dövlət aparatı müxtəlif əyan və məmurlar tərəfindən idarə olunurdu.

Mannada torpaqlar dövlətin **ümumi mülkiyyəti** idi. Çar dövlətin torpaqlarının baş mülkiyyətçisi sayılırdı. Dövlətdə icma torpaqları ilə yanaşı, icma üzvlərinə məxsus həyətyanı torpaqlar da mövcud idi.


Şərqin quldarlıq dövlətlərində olduğu kimi Mannada da xüsusi mülkiyyət zəif inkişaf etmişdir. Mərkəzi aparatda **maliyyə-vergi** sistemi yaxşı təşkil edilmişdir. Belə ki, mənbələr ölkədə müntəzəm taxıl və digər maddi ehtiyatların anbarlarda toplanıldığı barədə məlumatlar verirdilər.

Manna dövləti inzibati cəhətdən vilayətlərə bölünmüşdü. Vilayətləri mərkəzdən göndərilən canişinlər idarə edirdilər. Lakin bəzi vilayətlərə canişinlər yerli hərbi əyanlar arasından təyin edilirdilər. Vilayətlərdə hökmdarın göstərişlərini icra edən və dövlət işləri ilə məşğul olan idarələr mövcud olmuşdur.

Midiya dövləti

Midiya haqqında ilk məlumat e.ə. IX əsrə aiddir. Onun ərazisini xırda vilayət hakimləri idarə edirdirlər. Midiya ilə Manna ərazisinin sərhədləri Mannanın Gizilbunda vilayətindən keçirdi. Assur hökmdarları Midiya ərazisinə soxularaq, yerli hakimləri ondan asılı vəziyyətə salırdılar. E.ə. VIII əsrin ikinci yarısında Assuriyanın Midiya ərazisinə müdaxiləsi nisbətən çoxaldı. Midiyada vahid dövlətin yaranması hökmdar Deyokun (e.ə. təxminən 712-675-ci illər) adı ilə bağlıdır. Lakin bu proses Assuriya və digər tayfalarla mübarizə şəraitində davam edirdi. Bir müddət (e.ə. 653-625-ci illər) Midiya skitlərin hakimiyyəti altına düşdü. Kiaksar (e.ə. 625-585-ci illər) Midiyada skit ağalığına son qoydu. Özlərini şah adlandıran xırda vilayət hakimləri mərkəzi hakimiyyətə tabe edildi. Babilistan dövləti ilə birlikdə Midiya Assuriyanın şəhərlərini zəbt edib e.ə. 604-cü ildə Assuriya imperiyasını məhv etdilər və torpaqlarını Midiya və Babilistan arasında bölüşdürdülər. Çox güman ki, Azərbaycan siyasi cəhətdən Midiyanın təsiri altına düşmüşdü. Kiaksarın vəfatından sonra hakimiyyətə onun oğlu Astiaq (e.ə. 585-550-ci illər) gəlir. Onun haki-

miyyətinin son illərində Midiyanın daxili və xarici vəziyyəti mürəkkəbləşir. Əhəməni sülaləsindən olan II Kir Midiyaya soxulur. O, üç il (e.ə. 553-550-ci illər) davam edən müharibədə qalib gələrək Ekbatanı tutur. Midiya Əhəməni dövlətinə birləşdirilir.



İctimai quruluş. Qədim Midiyada sinfi təbəqələşmə nəticəsində silki fərqlər yaranmağa başladı. Əhali əsasən **azad adamlara** və **qullara** bölünürdü. Artıq dünyəvi və dini zadəganlar silki formalaşmışdı. İcma torpaqları və xüsusi torpaqlar əsasən icma üzvü olan azad kəndlilərin ixtiyarında idi. Onlardan torpaqdan istifadəyə görə vergi

alınırdı. Orduya əsgər vermək kəndlilərin borcu idi. İqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq əmtəə təsərrüfatı yaranır, sənətkarlıq və ticarət tərəqqi edir, ibtidai icma qalıqlarına son qoyulurdu. Quldarlıq münasibətləri dövlət və məbəd təsərrüfatında özünü daha geniş büruzə verirdi. Ümumdövlət əhəmiyyətli tikintilərdə və qurğularda müharibədə tutulan əsirlərdən daha çox istifadə edilirdi. Məbədlərin də özlərinə məxsus torpaqları və təsərrüfatı mövcud olmuşdur. Midiya dövlətində qullar ən aşağı ictimai təbəqəni təşkil edirdilər. Qul əməyindən sənətkarlığın, ticarətin və təsərrüfatın müxtəlif sahələrində istifadə edilirdi. Borc köləliyi mövcud olmuşdur.

Dövlət quruluşu. Midiya dövlətinə **şah** başçılıq edirdi. Mərkəzləşdirilmiş dövlət yarandıqdan sonra o, "şahlar şahı" titulunu qəbul etdi. Şah hakimiyyəti faktiki olaraq qeyri-məhdud idi. Orduya komandanlıq, xarici və daxili siyasət, yüksək vəzifələrə təyinat, ali məhkəmə hakimiyyəti onun səlahiyyətinə daxil idi. Lakin şahın fəaliyyətinə **"mobedan-mobed"** adlanan baş kahinin təsiri böyük idi. Şah mühüm dövlət məsələlərində onunla məsləhətləşirdi. Dövlət aparatında **maliyyə** idarəsi də əhəmiyyətli idi.

Midiya inzibati cəhətdən **satraplığa** (vilayətlərə) ayrılmışdı. Bu vilayətlərə şahlar başçılıq edirdilər. Vahid dövlət yaradıldıqdan sonra isə vilayətləri mərkəzdən göndərilən canişin idarə edirdi. Midiya şahları canişinlərin hərəkətlərinə nəzarət etmək üçün şahın "gözləri və qulaqları" adlandırılan xüsusi adamları vilayətlərə göndərirdilər.

Midiya şahları ordunun təşkilinə xüsusi diqqət verirdilər. Kiaksar Midiya ordusunu yenidən təşkil etmək üçün **islahat** keçirdi. İslahata görə ordunun iki – piyada və süvari növü yaradılırdı. Piyada qoşunda nizəçilər və oxatanlar dəstəsi ayrılırdı. E.ə. VII əsrin ortalarında Qafqazda və Ön Asiyada hökmranlıq etmiş türkdilli xalqların da daxil olduğu Skif padşahlığı Kiaksarın ordusunun yenidən təşkil edilməsinə yardım etmişdir. Belə ki, mənbələrin məlumatına görə Kiaksar hərbi işdə bir çox cəhətləri skiflərdən öyrənmişdir. Midiyalılar onlardan süvari döyüş üsulunu mənimsəmişdilər.

Atropatena dövləti (e.ə. IV - b.e. III əsri)

Tarixi mənbələrdə deyilirdi ki, Midiya iki hissəyə bölünür. Birinci hissəsi Böyük Midiya adlandırılır ki, bunun paytaxt şəhəri Ekbatan idi. İkinci hissəsi Midiya Atropatenasıdır. Bu öz adını hərbi sərkərdə Atropatdan almışdır. Atropat Əhəmənilər dövründə satrap (canişin) olmuşdur. Əhəmənilər dövlətinin varlığına son qoyulduqdan sonra Makedoniyalı İsgəndər Atropatı Midiya satrapı vəzifəsində saxlamışdı. İsgəndərin ölümündən sonra Atropat Midiya satrapı vəzifəsindən kənar edildi. E.ə. 323-cü ildən etibarən Atropat Urmiya gölü hövzəsi vilayətini, yəni gələcək Azərbaycanı özünə tabe etmiş və oranın hökmdarı olmuşdu. Atropatilər sülaləsi təqribən üç əsr yarıma yaxın bir dövr ərzində ölkəni idarə etdi. Atropatena eramızın III əsrinin əvvəllərinə qədər Parfiya dövlətinin tərkibində qaldı. Bu dövrdə Azərbaycan ərazisində kaspi, matien, mük, mard, mar, kadusi, anarik və başqa tayfalar olmuşdur. "Atropatenlər" anlayışı, yəqin ki, Azərbaycanın bütün əhalisinə şamil edilirdi. Etnik və dil şəraiti müxtəlif olan Azərbaycanın əhalisi türk və iran ləhcələrində danışan etnoslardan ibarət olmuşdur. Beləliklə, tayfaların xalq halında birləşməsi prosesi başlanmışdır.

İctimai quruluş. Atropatenada quldarlıq sistemi haqqında məlumat verən ilk mənbə **"Matikan hazar - Dadistan"dır ("Min məhkəmə qərarları kitabı").** Burada torpaq sahibləri əsas etibarilə qul əməyindən istifadə edirdilər. "Min məhkəmə qərarları kitabı"nda qullar "bəndək" və ya "ənşəhrik" adlandırılırdı. Atropatena dövləti yarandığı zaman artıq quldarlıq quruluşunda xeyli dəyişiklik yaranmışdı. Qulların sayı əvvəlki dövrlərə nisbətən çox olmuşdur. Lakin ümumdünya quldarlıq quruluşunun da böhranı başlamışdır. Qulların azadlığa buraxılması və onlara pekuliya verilməsi halları çoxalmışdır. Əhalinin digər bir qrupunu təşkil edən azad adamlar hər cür siyasi hüquqlardan məhrum idilər. Onların torpaq sahələri olmadığına görə bu hüquqlardan istifadə edə bilmirdilər. Asılı əhali qrupunu isə əkinçilər təşkil edirdilər. Əmək alətlərindən, torpaq paylarından məhrum edilən bu təbəqə ağa torpaqlarını və məbədlərə məxsus tor-

paqları əkib-becərirdilər. Ölkədə əhalinin xüsusi qrupunu **tam hüquqlu** vətəndaşlar təşkil edirdi. Tam hüquqlu vətəndaşlar dövlət idarələrində işləyən məmurlar, mirzələr, kahinlər, tacirlər, azad sənətkarlar və əkinçilərdən ibarət idi. Hüquqi cəhətdən onların hamısı bərabər hüquqlu olmaqla vərəsəlik hüququna malik idilər. Əhalinin belə qrupları əsasən şəhərlərdə yaşayırdılar.




Dövlət quruluşu. Atropatena dövlətinə hökmdar (şah) başçılıq edirdi. Atropatenanın ilk hökmdarı görkəmli dövlət xadimi Atropat olmuşdur. Mahir siyasətçi və uzaqgörən diplomat olan Atropat Makedoniyalı İsgəndərlə hərbi mübarizənin əbəs olduğunu yaxşı bilirdi. Məhz onun səyi ilə yeni yaranmış siyasi qurum öz müstəqilliyini qoruyub saxlaya bildi.

Midiya ərazisi inzibati cəhətdən satraplıqlara bölünürdü. Satraplıqları hakimiyyət orqanlarının yaxın adamları olan canişinlər idarə edirdilər. Mərkəzi dövlət idarələri ölkənin baş şəhəri Qazakada yerləşirdi. Hökmdar mülki və hərbi hakimiyyəti öz əlində cəmləmişdi. Ali məhkəmə funksiyası da onun səlahiyyətində idi. Satraplıqlarda məhkəmə hakimiyyətini canişinlər yerinə yetirirdi. Təsərrüfatın idarə olunması, vergilərin yığılması, mükəlləfiyyətlərin yerinə yetirilməsi, satraplıqların sərhədlərinin təhlükəsizliyi və qorunması, maliyyə siyasətinin həyata keçirilməsi canişinlərin səlahiyyətlərinə aid edilirdi. Onların sərəncamında hərbi qarnizonlar da mövcud idi.

Albaniya dövləti (e.ə. VII - b.e. III əsri)

E.ə. VIII əsrin əvvəllərində kimmer və sakların Azərbaycanda məskunlaşması onların gələcək Albaniya ərazisində xırda dövlət təşkilatlarının formalaşmasına təkan verdi. Albaniyada yaşayan tayfalar Əhəmənilərin hakimiyyətini nominal da olsa tanıyır, mərkəzə xərac verir, müharibələr zamanı Əhəməni ordusunu hərbi dəstələrlə təchiz edirdilər. Əhəmənilərin süqutundan sonra güman etmək olar ki, Albaniyada artıq ordu yaradılmışdı və dövlətin vahid mərkəzdə birləşdirilməsinə başlanmışdı. Yəqin ki, Albaniyada xırda vilayət hökmdarlarının vahid mərkəzdə birləşdirilməsinin gedişi artıq Əhəmənilərin hakimiyyəti dövründə başlamış və İsgəndərin imperiyası dağılan zaman başa çatmışdır. Strabonun məlumatına görə, ölkəni artıq bir hökmdar idarə edirdi. Əvvəllər isə hər tayfanın öz hökmdarı vardı. Albaniya dövlətinin sərhədləri bu birləşmə gedişində möhkəmlənmiş və Albaniya ölkəsinin siyasi birləşməsi yaranmışdı. Sonrakı ərəb mənbələri qonşu əraziləri də bir inzibati bölgüyə daxil

edib, onu Azərbaycan adlandırırdılar. Albaniya ərazisi Arran adı altında bu inzibati bölgüyə daxil olmuşdur.



İctimai quruluş. Əhəmənilər dövlətində mövcud olan quldarlıq ictimai-iqtisadi münasibətləri Albaniyaya da təsir edirdi. Albaniyada əhali əvvəlki dövrlərdə olduğu kimi əkinçilik və maldarlıqla məşğul olurdu. Aran - düzən hissəsində əkinçilik süni suvarma üsulunda aparılırdı. Albaniyada geniş məbəd torpaqları mövcud olmuşdur. Burada işlədilən **herodullar,** demək olar ki, heç bir hüquqa malik deyildilər. Bir mülahizəyə görə herodullar məbədə təhkim olunmuş kəndlilər, digər fikrə görə məbəd təsərrüfatının əsas istehsalçıları idilər. **Maqların** torpaqları məhsuldar ərazilərdə yerləşirdi. Ölkə əhalisinin əksəriyyətini təşkil edən əkinçilər şəxsən azad olsalar da,

əslində qullar kimi torpağa bağlı olub, mülklə birlikdə alınıb satılırdılar. Əkinçilik inkişaf etdikcə kəndlilərin istismarı artırdı. Əkinçilər dövlət və əyanlara məxsus torpaqlarda mükəlləfiyyətlər yerinə yetirirdilər. Hökmdar dövlətə sədaqətli əyanlara torpaq sahələri ayırırdı. Torpaqların icarəyə verilməsi halları çoxalmışdı ki, bu da quldarlıq istehsal üsulunun tənəzzülə uğraması ilə bağlı idi.

Albaniya 5-8-ci əsrin əvvəlində

Dövlət quruluşu. Albaniya dövlətinə çar başçılıq edirdi. Strabon yazırdı ki, indi onlarda (albanlarda) bir çar bütün tayfaları idarə edir. Çar hakimiyyəti varislik yolu ilə atadan oğula keçirdi. Dövlət aparatında müxtəlif vəzifələr daşıyan məmurlar, mirzələr, kahinlər, hərbi rəhbərlik, maliyyə sahəsində çalışan müfəttişlər mövcud olmuşdur. Albaniya ərazisi inzibati cəhətdən vilayətlərə bölünürdü. Vilayət mərkəzi olan şəhərlər sosial-iqtisadi cəhətdən xeyli inkişaf etmişdi. Ölkə daxilində çox sıx iqtisadi-ticarət münasibətləri mövcud olmuşdur.

Albaniyada zərdüştilik dini geniş yayılmışdır. Maqlar dövlətin idarə edilməsinə böyük təsir edə bilirdilər. Ordunun təşkilinə xüsusi diqqət verilirdi. Mənbələrin məlumatına görə, romalılarla döyüşə albanlar 60000 (altmış min) piyada və 22000 (iyirmi iki min) süvari qoşun dəstəsi çıxara bilmişdilər.

Qədim Azərbaycan hüququnun mənbələri. Qədim Şərq ölkələrində olduğu kimi, Azərbaycan ərazisində yerləşən tayfaların adətləri hüququn ilkin mənbəyi olmuşdur. Dövlətlər yarandıqdan sonra isə adətlərlə yanaşı şah fərmanları, sərəncamlar, müxtəlif normativ sənədlər hüququn yaranmasında əhəmiyyətli rol oynamışdır. Heç şübhəsiz ki, Hammurapi qanunları Azərbaycanın qədim dövlətlərinin hüququnun inkişafına təsir göstərmişdir.

Zərdüştiliyin müqəddəs kitabı olan Avesta öz məzmununa görə o zamankı ictimai quruluşun, Yaxın və Orta Şərq ölkələrində hüquqi institutların öyrənilməsində mühüm mənbədir. Zərdüşt təliminə görə dünyada iki qüvvə vardır. Həqiqətin və xeyrin təcəssümü olan Ahuraməzda ilə şər qüvvələri təmsil edən Anqromanyu arasında

əbədi mübarizə gedir. İnsanlar Anqromanyu və onun köməkçiləri olan divlərə qarşı mübarizə aparmalı idilər. Zərdüşt təliminə görə, şər ilə xeyir, yalan ilə həqiqət arasında ölüm-dirim mübarizəsi gedir. Avestanın ən qədim hissəsini qatlar təşkil edir. Qatlar Avestanın Yasna bölməsində təmsil olunmuşdu. Yasna maldarlıq təsərrüfat sahəsini təbliğ edir. Ara müharibələri nəticəsində əhalinin mal-qarası, davarı, əmlakı alan edilirdi. Burada müharibə törədənlər yalançı, div, Anqromanyunun tərəfdarları kimi təqdim edilmişdir. Avestanın digər bölməsi "Yaşt" adlanır. Burada ayrı-ayrı ilahilərə həsr olunmuş himn və mahnılar toplanmışdı. Yaştlar eyni zamanda Qayamarta sitayiş etməyi tövsiyə edir. Yaştlarda Zərdüştün şərəfinə mədh söylənilir. Zərdüşt ilk xeyirxah fikir sahibi, ilk kahin, döyüşçü və maldar, divlərdən (köhnə dinlərdən) birinci üz döndərən, Ahuraməzdaya birinci sitayiş edən kimi qələmə verilmişdir. Zərdüşt köhnə dinlər mövcud olan şəraitdə yeni dinin yaradıcısı kimi çıxış edir.

Avestanın üçüncü bölməsi Videvdat (Vendidad) adlanır. Bu hissə nisbətən sonrakı dövrlərdə meydana gəlmişdir. İctimai quruluşun və hüquq institutlarının daha tam mənzərəsi burada verilmişdir. Bu kitabın 22 farqardında (fəslində) divləri kənar etməyə qabil olan dini ayinlərə, əkinçiliyə və maldarlığa, müqavilələr bağlanmasına və müqavilə şərtlərinin pozulmasının hüquqi nəticələrinə, cinayət və cəzaya, nikahın bağlanmasına, ər-arvadın ailə vəzifələrinə və s. aid digər göstərişlər şərh olunur. Vendidad məzdailik təlimindən və qanunlar külliyyatından ibarətdir. Bu külliyyat Ahuraməzda və Zərdüşt arasında dialoq formasında şərh edilmişdir. Zərdüşt təlimi dinə sitayiş etməyə, əkinçiliklə məşğul olmağa, ailə qurmağa, zəhmət çəkməyə dəvət edir, torpağa qulluq etməyə çağırır. III fəsildə əkinçilik nemətindən, bəzi cinayətlər üstündə cəzalardan bəhs edir. Vendidadın IV fəslində müqavilələrin müxtəlif növlərindən, öhdəliklərin yerinə yetirilməsi, oğurluq, dələduzluq, zorakı hərəkətlər və adam öldürmək üstündə cəzadan, ailə və nikah məsələlərindən; V fəsildə dəfn mərasimləri və bu ayinlərin pozulması üstündə cəzadan, Ahuraməzdanın əməllərindən, divlər əleyhinə qanunun əzəmətindən, qadın doğduqdan sonra paklanması ayinindən; XII fəsildə məzdaçının ölümün-

dən sonra onun qohumlarının vəzifələrindən, qohumluğun 10 dərəcəsindən, hər bir dərəcənin ayinləri və vəzifələrindən; XIII-XIV fəsillərdə faydalı heyvanları öldürmək üstündə verilən cəzadan, ziyanverici heyvanı öldürmək üçün isə mükafatdan; XV fəsildə din və əxlaq əleyhinə cinayətdən, ataların vəzifələrindən; XVIII fəsildə həqiqi və saxta məzdaçılardan, onlar arasında ittifaqın cinayət hesab olunmasından; nəhayət, XXII fəsildə Əhirmənin gətirdiyi fəlakətlər barədə Ahuraməzdanın Zərdüştə nağıl etməsindən danışılır. Zərdüşt öz əzəməti, gözəlliyi, xeyirxahlığı ilə başqa qanunlardan üstün olan Məzda qanunlarını tərifləyir.

Avestada Zərdüşt kahinləri atravan adlanırdılar. Avesta kahinlər zümrəsinə mərkəzi yerlərdən birini verərək, bu zümrəni birincilər sırasında göstərir. Avesta Ahuraməzdanın dili ilə bu zümrəyə Zərdüşt qanunlarını təbliğ etmək və onları həyata keçirmək kimi yüksək bir vəzifə verir. Əslində məhz elə maqlar zərdüştiliyin təbliğatçıları kimi çıxış edirdilər. Dini hakimiyyətə malik olan maqlar ictimai-siyasi mühitə böyük təsir göstərirdilər.

Qədim Azərbaycan dövlətlərində ictimai münasibətləri tənzimləyən kifayət qədər inkişaf etmiş hüquqi normalar olmuşdur.

Mülkiyyət hüququ mülkiyyətçini daşınar və daşınmaz əmlakın tam hüquqlu sahibi kimi müəyyən edirdi. Mülkiyyətin sahibi mülkiyyətə istədiyi kimi sərəncam vermək hüququna malik olmaqla onu özgəninkiləşdirmək, bağışlamaq, müvəqqəti istifadəyə vermək və s. hüquqlara malik idi.

Kifayət qədər inkişaf etmiş öhdəlik hüququ bir sıra əqdlərin bağlanılmasında istifadə edilirdi. Müqavilələrin bağlanılmasında təntənəli and içmək, tərəflərin şifahi razılığı, yazılı təsdiq olunma, əllərin sıxılması və digər üsullar da mövcud olmuşdur. Müqavilə öhdəliklərinin yerinə yetirilməməsi üçün dəqiq cəza növləri sistemləşdirilmişdir. Şifahi bağlanan müqavilələrin pozulmasına görə 300 qamçı cəzası verilirdi. Günahkarın yaxın qohumlarının da məsuliyyəti müəyyən edilirdi.

Cinayət və cəza sistemi Qədim Azərbaycan hüququnda kifayət qədər dəqiq tənzimlənmişdir. Həm insanlar, həm də heyvanlar cinayətin subyekti ola bilərdi. Cinayətin subyektinə şəxsin ictimai və di-

ni etiqadının təsiri böyük idi. Cinayətin subyektiv cəhətləri dəqiq müəyyən edilmişdir. Cinayətin təsnifat dərəcəsindən asılı olaraq cəza təyin edilirdi. Qəsdən və qəsdən olmadan, ilk dəfə və təkrar, ehtiyatsızlıqdan, səhlənkarlıqdan və s. törədilən cinayətlər fərqləndirilirdi. Cinayətin növləri bunlardan ibarət idi: a) dövlət və din əleyhinə olan cinayətlər; b) şəxsiyyət əleyhinə olan cinayətlər; c) əmlak əleyhinə olan cinayətlər; ç) mənəviyyat əleyhinə olan cinayətlər; d) təbiət (torpağın, suyun, odun və s.) əleyhinə olan cinayətlər. Aşağıda göstərilən cəza sistemi mövcud idi: a) ölüm cəzası; b) həbsxana cəzası; c) bədən cəzası; ç) günahın yuyulması; d) qan intiqamı. Dini cinayətlərə tayfaların dini bütlərə etiqad etməsi, "dinsizlərin" dini etiqadı olanlarla evlənməsi və s. aid edilirdi.

Şəxsiyyət əleyhinə edilən cinayətlər sırasına insanın həyatına və sağlamlığına xəsarət yetirilməsi, həmçinin həkimlər tərəfindən edilən müvəffəqiyyətsiz müalicələr (cərrahiyyə, abort və sairə) daxil idi.

Əmlaka aid cinayətlərə aşağıdakılar aid edilirdi: oğurluq, soyğunçuluq, quldurluq, fırıldaqçılıq, özgə əmlakını aldatma yolu ilə mənimsəmək və s. Mənəviyyat əleyhinə olan cinayətlər ciddi təsnif edilirdi. Təbiət əleyhinə edilən cinayətlərin obyektinə torpaq, su, od, bitkilər aid edilirdi.

Məhkəmə prosesi açıq çəkişmə xarakteri daşıyırdı. Hökm çıxarmaq üçün prosesdə bir sıra məsələləri aydınlaşdırmaq lazım gəlirdi. Bunlara müttəhimin günahı, günahın forması (qəsdən törədilən cinayətlər, cinayətin affekt vəziyyətində törədilməsi və s.), həmçinin müttəhimin ictimai və dini mənsubiyyəti daxil idi.

III FƏSİL

Erkən feodalizm dövründə Azərbaycanın dövlət və hüquq tarixi (III-VII əsrlər)

Atropatena və Albaniyada feodal münasibətlərinin təşəkkülü. III-V əsrlərdə Azərbaycan ərazisində feodal torpaq sahibliyinin yaranması başlanmışdı. Erkən feodalizmin yarandığı dövrdə də quldarlıq quruluşunun bir çox xüsusiyyətləri hələ də qalmaqda davam edirdi. Azad icmaçıların sayı getdikcə azalır və feodaldan asılı olanların sayı artırdı. Feodal münasibətlərinin yeni səciyyəvi cəhətləri yaranırdı. Əvvəllər torpaq hökmdara, dini təşkilatlara, ayrı-ayrı quldarlara və icmalara məxsus idi. Belə torpaqlarda qulların, məcburi əmək adamlarının, yəni hərbi əsirlərin, borca düşmüş adamların, müflisləşmiş əkinçilərin və icma üzvlərinin əməyindən istifadə edilirdi. Qul əməyinin az məhsuldar olduğu və ümumiyyətlə əməyin nəticələrində onun marağı olmadığı məlumdur.

Ölkədə baş verən siyasi dəyişikliklər torpağın yüksək təbəqəli əyanların ixtiyarında cəmləşməsini sürətləndirirdi. Hökmdar torpaqları xidmət əvəzinə hərbçilərə və dövlət məmurlarına paylanırdı. Xüsusi xidmətə görə paylanmış torpaqlar feod ("mülk") adlanırdı. Feodal torpaqlarında kəndli əməyindən geniş istifadə edilirdi. Kəndlilər müxtəlif mükəlləfiyyətlər yerinə yetirirdilər. Kəndli feodaldan asılı vəziyyətdə idi, çünki o, feodalın torpağını becərməli, məhsulun müəyyən hissəsini torpaq sahibinə verməli idi.

Erkən feodalizm dövründə **dövlət** mülkiyyəti forması üstünlük təşkil edirdi. Lakin Atropatenanın və Albaniyanın ayrı-ayrı vilayətlərində dövlətə məxsus torpaqların hökmdar nəslinin nümayəndələri arasında bölüşdürülməsi xüsusi torpaq sahibliyinin inkişafına təsir edirdi.

Albaniyada torpaq üzərində xüsusi feodal mülkiyyəti iki formada mövcud idi. Birincisi, icma torpaq sahibliyinin dağılması və torpaqların dövlət tərəfindən hakim sinfin nümayəndələrinə mülk hüqu-

qunda paylanması nəticəsində meydana çıxmış şərtsiz və ya irsi torpaq sahibliyi (**"dastakert"**); ikincisi, torpaqların dövlət tərəfindən hakim sinfin nümayəndələrinə vassal xidməti müqabilində müvəqqəti olaraq paylanması nəticəsində meydana çıxmış şərti torpaq sahibliyi (**"xostak"**).

Adurbadaqanda da bu dövrdə icma torpaqları, hökmdarın şərti mülkiyyət kimi bəxşiş verdiyi xüsusi sahibkar torpaqları, vilayətlərin irsi sahibləri olan iri feodalların torpaqları və məbəd torpaqları mövcud idi. Lakin III əsrin birinci rübündə İranda hakimiyyətə gələn Sasanilərin Adurbadaqanı imperiyanın vilayətlərindən birinə çevirmələri ilə əlaqədar olaraq, feodal münasibətləri də imperiyanın vilayətlərdə yeritdiyi siyasətə uyğun olaraq inkişaf edirdi.

İctimai quruluş. Sasanilər imperiyasının vilayətinə çevrilmiş Adurbadaqanda əhalinin dörd silki mövcud idi: 1) **kahinlər**; 2) **döyüşçülər**; 3) **katiblər**; 4) **vergi verənlər**. Dördüncü silk əkinçilərdən, maldarlardan, sənətkarlardan və ticarətlə məşğul olanlardan ibarət idi. Atropatenanın əməkçi əhalisinin əsas hissəsini icmalarda birləşmiş azad kəndlilər təşkil edirdi. Torpaq və can vergisindən əlavə əhalidən şəhər hasarlarının tikilməsi və təmiri, kanalların təmizlənməsi və yenilərinin çəkilməsi və s. üçün vergilər alınırdı.

Torpaq və can vergiləri aşağıdakı qayda üzrə təyin olunurdu: hər mahalın əkin sahəsinin məhsuldarlığından və onun mövqeyindən (şəhərə yaxın və əksinə, uzaq olması ilə əlaqədar) asılı olaraq məhsulun üçdə biri, dörddə biri, hətta altıda biri həcmində toplanırdı. Vergilərin bu qayda ilə toplanması bir sıra çətinliklər törədir və əkinçilərin narazılığına səbəb olurdu. Dövlət məmurları vergilərin toplanması zamanı özbaşınalıq edirdilər.

Sasani hökmdarı Xosrov Ənuşirəvanın dövründə vergi sistemi nizama salınır. Əkin sahələrindən asılı olaraq aşağıdakı qaydaya görə vergi təyin edilirdi: bir **"cərib"** (2400 kv. m.) əkin sahələrindən ildə 1 dirhəm, həmin miqdarda olan üzümlüklərdən 8 dirhəm, yoncalıqlardan 7 dirhəm, çəltiklikdən 1 dirhəm, farsda olan hər dörd xurma ağacından 1 dirhəm, hər assuri xurmasından 1 dirhəm, habelə hər 6

zeytun ağacından ildə 1 dirhəm toplanması barədə sərəncam verildi. Bu qanundan məlum olur ki, əvvəllər natura şəklində alınan vergilərin bir hissəsi indi pulla alınırdı. Əkinçi əhalinin ödədiyi ağır vergilərdən biri də atların bəslənilməsində istifadə edilən arpa vergisi idi ki, onun da miqdarı buğda vergisi ilə bərabər olurdu.

Əkinçilərlə yanaşı vergi verənlər təbəqəsinə sənətkarlar da daxil idi. Sənətkarlardan ildə bir dəfə can vergisi toplanırdı. İmperiyanın əyalətlərindən, o cümlədən Azərbaycandan külli miqdarda belə gəlir şahənşah xəzinəsinə daxil olurdu. Şah Xosrov Ənuşirəvan peşə sahibləri və sənətkarlardan alınan can vergisini nizama salmaq barədə qanun vermişdi. Bu qanuna uyğun olaraq peşə sahibləri və sənətkarlar 20 yaşından 50 yaşına qədər vergi verməli idilər. Sənətkarları əmlak dərəcəsinə görə bir neçə təbəqəyə bölürdülər. Birinci dərəcəyə ən varlı sənətkarlar daxil edilirdi ki, onlardan ildə 12 dirhəm vergi alınırdı. İkinci dərəcəyə aid edilən sənətkarlar da imkanlı təbəqə idilər və ildə 8 dirhəm vergi verirdilər. Üçüncü dərəcə üçün ildə 6 dirhəm təyin olunmuşdu. Rəiyyətlərdən isə ildə dörd dirhəm vergi alınırdı. Rəiyyətlər torpaq işləri ilə yanaşı sənətkarlıqla da məşğul olurdular. Vergi qanununa dəqiq əməl etmək, onun vaxtlı-vaxtında xəzinəyə daxil olmasını təmin etmək məqsədilə imperiyanın ərazisi bir neçə hissəyə ayrılırdı. **"Ustan"** və yaxud **"kur"** adlandırılan bu hissələr öz növbəsində bir neçə rayona ayrılırdı. Vergi toplayanlara **"gəbə"** deyilirdi. Ümumiyyətlə, torpaq və can vergisi toplayan şəxslər **"vastruyuşanasarlar"** adlanırdı. Tacir və sənətkarlardan can vergiləri toplayan şəxslər isə **"hütuxşbaz"** (peşə və sənət sahiblərinin rəisi) ləqəbi daşıyırdılar.

Atropatenada və Sasani hakimiyyəti tabeliyində olan vilayətlərdə hakim feodal sinfi də bir neçə qrupa bölünürdülər. Bu qruplara şahzadələr, əmirlər, iri feodallar, ruhanilər, katiblər (mülki və maliyyə işləri ilə məşğul olanlar) daxil idilər. Hər silkin daxilində işləri idarə etmək üçün başçılar təyin edilirdi. Belə ki, ruhaniləri **"mobadan mobad"**, hərbçiləri **"spahbaz"**, idarə işçilərini (dəbir) isə **"dəbirbəz"** idarə edirdi. Ölkənin ən məhsuldar torpaqları şahənşah və onun sülaləsindən olan ən yaxın qohumlarına məxsus idi. Belə ki, yararlı torpaq sahələri ən qüdrətli 7 ailənin ixtiyarında idi.

Əyanlardan sonra həmin dövrdə torpaq mülkiyyətinə sahib mülkədarlar say etibarilə ikinci yerdə dururdular. Belə torpaq mülkiyyətçiləri **azatlar, kəndxudalar** və yaxud **dehqan** adlanırdılar. Azatlar Sasani ordusunda süvari qoşunun əsas özəyini təşkil edirdi. Onlara müstəqil silah almaq hüququ verilmişdi. Azatların bir çoxu əsilzadə hüququna da malik idi. Dehqanlar əyanların ən aşağı pilləsini təşkil edirdi. "Dehqan" termini sasani hakimiyyətinin son dövründə daha geniş yayılaraq, ərəblərin də dövründə işlənilirdi. Onlar öz malikanələrində yaşayırdılar. Sasani əyalətlərinin əyanları və siyasi xadimləri dehqan nəslindən olduqlarına görə fəxr edirdilər. **"Şəhr"** adlanan mahal hakimləri dehqanlardan təyin edilir və **"şəhrik"** adlanırdı. Onların əsas işi vergi toplamaqdan ibarət idi.

Albaniya cəmiyyətində feodalizmin inkişafına tədricən dövlətdən və dövlətin təsirilə də əyanlardan asılı vəziyyətə düşmüş icmaların təbəqələşməsi prosesi böyük təsir göstərmişdir. Bu proses ölkənin ictimai quruluşunda əhəmiyyətli rol oynamışdır. Belə ki, alban çarları öz vassalları olan **azatlara** və **nahararlara** kəndlər, bütöv vilayətlər bağışlayır, azad kənd icmalarının dövlətdən və zadəganlardan asılı vəziyyətə düşməsinə şərait yaradırdılar. Beləliklə, IV-V əsrlərdə dövlətin torpaq fondu tədricən azalır, onun çox hissəsi feodal malikanələrinə – **patronomiyaların** mülkiyyətinə keçirdi.

487-488-ci illərdə Albaniya çarı III Vaçaqan tərəfindən çağırılmış **Aluen** məclisi əhalinin təbəqələrə bölünməsini və onların hüquqi vəziyyətini müəyyən edirdi. Hakim silk olan alban feodalları **(azatlar)** bir neçə qrupa bölünürdü ki, bunlardan ən yüksəkdə vilayət hakimləri – **nahararlar** idi. Feodal münasibətlərinin möhkəmlənməsi ilə nahararlıqlarda bütün hakimiyyət feodal patronomiyaları başçılarının əlində cəmləşirdi. VI əsrdən etibarən nahararlıqların başçısı vəzifəsinin adını ifadə edən terminlər arasında "işxan" sözü daha çox işlənirdi. İşxan titulu "hakim", "sahibkar", "cənab" mənasında işlənirdi.

Albaniyada da feodal iyerarxiyası mövcud idi ki, bu da **"Dərəcə fərmanı"**nda – **Qaxnamakda** öz əksini tapmışdır. Hər bir feodal-azat patronomiyası "Dərəcə fərmanı"na uyğun olaraq sıra düzümü ilə yazılırdı. İlk on patronomiya iri, qalanlar isə kiçik sayılırdı. Patro-

nomiyaların başçıları Albaniya hökmdarı masası arxasında da həmin qaydada əyləşirdilər. Patronomiyanın "Rütbə və şərəfi" onun iqtisadi qüdrəti, siyasi mövqeyi və verdiyi ordunun sayı ilə müəyyənləşdirilirdi. "Dərəcə fərmanı" azat iyerarxiyasında qayda yaradır, hər bir azat patronomiyasının ölkənin ictimai-siyasi həyatında mövqeyini və yerini təyin edirdi.

Albaniya azatları alban və İran hökmdarlarının vassalı sayılırdılar. Onlar hökmdarlara qoşun verməli, sarayda özünün sosial vəziyyətinə müvafiq vəzifələrdə xidmət etməli, yaxud müharibə vaxtı müxtəlif inzibati dövlət funksiyalarını yerinə yetirməli idilər. Azatlar ruhanilərlə birlikdə can vergisindən azad olunurdular.

Feodal torpaq mülkiyyəti dövlət və icma mülkiyyəti formaları ilə rəqabət şəraitində formalaşırdı. Dövlət torpaq mülkiyyətinə dövlət **domeni (mülki)** ilə yanaşı divan torpaqları (o cümlədən yerli xanədan) daxil idi. Feodalizmin ilkin dövründə (III-V əsrlərdə) torpaq mülkiyyətinin dövlət (hökmdarın şəxsində) forması üstünlük təşkil edirdi. Lakin sonralar ordunun, dövlət aparatının, yerli strukturların saxlanılmasında divan torpaqları da əhəmiyyət kəsb edirdi.

Xüsusi feodal torpaq mülkiyyəti isə öz növbəsində iki yolla formalaşırdı: 1) Feodalın şəxsi mülki olan torpaq üzərində irsi mülkiyyət (**"dastakert"**). Torpaq mülkiyyətinin bu forması torpaq üzərində icma mülkiyyəti formasının pozulması, habelə torpaqların hakim sinfin nümayəndələrinə malikanə hüququ əsasında mülk kimi bağışlanması yolu ilə yaranırdı. 2) Şərti torpaq mülkiyyəti (**"xostak"**). Xostak hərbi xidmət və yaxud məmurluq xidməti müqabilində dövlət tərəfindən müvəqqəti istifadə üçün verilən torpaq mülkiyyəti forması idi. Vassallıq xidməti üçün verilən torpaqların sonralar çox vaxt "dastakert"ə, yəni şəxsi mülkiyyətə çevrilməsi ənənəsi mövcud idi.

Şərtsiz mülkiyyət sahibləri – çarın saray məmurları (patronomiya), feodallaşan zadəgan nəsilləri **(azatlar, naxapetlər, azqapetlər)**, yeni yaranmış feodal əsilzadələr (mülkədarlar – **nahararlar, işxanlar**), hökmdar və knyaz sarayında qulluq etməklə irəli çəkilmiş varlı kəndli təbəqəsinin bir hissəsi idi. Şərti mülkiyyət sahibləri isə hərbçilər, kiçik dövlət vəzifəsində olan zadəganlar və kilsə xadimləri idi.

Albaniyada əsas vergi verən əhali qrupunu kənd icmalarında birləşən feodaldan asılı kəndlilər – **şinakanlar** təşkil edirdi. Feodal torpaq sahibliyi inkişaf etdikcə icma üzvlərinin tədricən əsarət altına düşməsi feodaldan asılı kəndlinin formalaşmasını sürətləndirirdi. Şinakanlar kilsə istismarından əlavə ikiqat zülmə məruz qalırdılar. İcma kəndliləri can vergisindən başqa məhsulun beşdə birini təşkil edən torpaq vergisi, sənətkar və tacirlər isə gömrük haqqı kimi rüsum verirdilər.

Albaniyada toplanan dini-kilsə vergiləri aşağıdakılardan ibarət idi: can vergisi - **has**, kilsə gəlirlərinin onda biri - **tasanord**, məhsul vergisi - **ptux**, ölənin ruhunun rahatlanması üçün alınan vergi - **pohetsatur**.

Atropatenanın dövlət quruluşu. Atropatena bəhs edilən dövrdə siyasi müstəqilliyini itirərək Sasanilər imperiyasının şimal əyalətini təşkil edirdi. Sasanilərin Atropatakan adlandırdıqları Atropatena imperiyanın ən mühüm əyalətlərindən biri hesab olunurdu. Atropatakan hökmdarları rəsmi olaraq şah rütbəsi daşıyırdılar. Sasani hökmdarları isə özlərini **"şahənşah"** (şahlar şahı) adlandırırdılar. Sasani şahlarının şəxsiyyəti çox yüksək tutulurdu. Sasanilərin qüdrətli şahları ölkənin bütün inzibati qurumlarına, o cümlədən ordu və məhkəmələrə başçılıq edirdilər. Onlar tərəfindən verilmiş bütün sərəncamlar qeydşərtsiz icra edilirdi. Şah özünü xalqa göstərmirdi. Hətta ən nüfuzlu əyanlar da şahı görmək hüququna malik deyildilər. Şahla yaxın adamları arasında pərdə asılır və həmin pərdənin qorunması **"xürrəm baş"** adlanan əsilzadəyə tapşırılırdı. Şahın hüquq və vəzifələri haqqında deyilirdi ki, şah dini qayda-qanunlara riayət etməli, əxlaqlı və pak olmalı, bağışlamalı, qisas almamalı, təbəələrinə qarşı məhəbbət göstərməli, səxavətli, ədalətli olmalıdır. Şahdan sonra ən yüksək mənsəbi **şəhrdarlar** tuturdular. Şəhrdarlar (**spəhbodlar**) nisbətən müstəqil olub əyalətləri idarə edir, müharibə zamanı isə öz silahlı qüvvələrini şah orduları ilə birləşdirib onlarla birlikdə döyüşlərdə iştirak edirdilər.

V əsrdən etibarən Sasani imperiyası inzibati cəhətdən dörd **mərzbanlığa** bölünürdü. Şəhrdarlar məzrbanlarla əvəz edilirdi. On-

lara mülki və hərbi səlahiyyətlər verilirdi. Böyük əyalətlərə başçılıq edən mərzbanlar isə şah adlanırdılar. Atropatenanın paytaxtı Qazaka II Xosrov Pərvizin dastakerti olmuşdur.

Sasanilər imperiyasına mənşəcə fars olan şahlar başçılıq edirdilər. Sasani hökmdarları öz doğma yurdlarını İran (İran-şəhr), digər işğal edilmiş əraziləri isə qeyri-İran (Ən-İran) adlandırırdı.

İmperiya mərkəzi hakimiyyətin divanları tərəfindən idarə edilirdi. Sasanilər dövründə **xərac, ordu, çaparxana** divanları, həmçinin müxtəlif idarələr: **hüquq, maliyyə, gəlir, xəzinə, atəşgədə** (silah), **vəqf, xeyriyyə** və s. mövcud idi. Sasani şahları bir neçə müxtəlif **möhürə** malik idilər. Bu möhürlərə gizli yazışmaları, adi məktubları göndərən divana aid olan möhürü, habelə cəza hökmlərini, mükafat və hədiyyələri, rütbə və vəzifələri təsdiqləyən, verginin toplanması üçün mövcud olmuş möhürləri göstərmək olar. Poçt, zərbxana, çəki ölçüsü və dövlətin xalisə torpaqlarına baxan idarə də mövcud olmuşdur.

Sasanilər imperiyasının əsas dayağı ordu idi. Sasanilər mütəşəkkil dövlət aparatına və orduya arxalanaraq mərkəzləşmiş dövlət təşkil edə bilmişdilər.

Albaniyanın dövlət quruluşu. Albaniyada dövlətə çar başçılıq edirdi. Alban çarı ölkənin dini hakimiyyətinin qanunvericisi və məşvərətçi orqanlarına rəhbərlik edir, kilsə məclislərini çağırır və ölkənin bütün silahlı qüvvələrinin baş komandanı sayılırdı. Hələ ilkin feodalizm dövründə mülkiyyətin dövlət formasının üstünlük təşkil etməsi dövlətin mərkəzləşməsinə, mülki və kilsə həyatında hökmdara müstəsna hüquqlar verilməsinə gətirib çıxardı. V-VI əsrlərdə Albaniya idarəçiliyində **hazarapet, haramanator, sparapet** kimi vəzifələr vardı. Erkən Sasanilər dövründə sasani ordusunun başında da hazarapet (minbaşı) dururdu. Sonralar şah xəzinəsinin qoruyucusu və mehtərbaşı da belə adlanırdı. Albaniyada isə hezarapet vəzifəsində olan şəxs dövlət gəlirləri idarəsinə başçılıq edirdi. Haramanator vəzirlik və bütün dövlət işlərinə rəhbərlik edən əsas vəzifələrdən biri idi. Sasanilərdə süvari qoşunun başçısına verilən sparapet titulu isə Albaniyada bütün hərbi qüvvələrin başçısına aid edilirdi.

Albaniya inzibati-ərazi baxımından **qavarlara və nəhənglərə** bölünürdü. Kürün sol sahilini əhatə edən sol sahil Albaniyası inzibati

cəhətcə yalnız qavarlara ayrılırdı. Onlardan bəziləri həm də yepiskopluq mərkəzləri idi. Sağ sahil Albaniyası isə dörd böyük nəhəngə – vilayətə ayrılırdı. Vilayətlərin hər biri daha kiçik kənd-kilsə inzibati vahidinə bölünürdü.

Albaniyada çoxlu şəhərlər mövcud olmuşdur. Şəhərlər yerli hakimlər – **qordzakallar** tərəfindən idarə olunurdu. Şəhərlərin hər birinin ümumi yığıncaqları toplanırdı. Bütün şəhər əhalisinin iştirak etdiyi həmin yığıncaqlar ciddi siyasi məsələlər haqqında və şəhər təsərrüfatı barədə qərarlar çıxarırdı.

Hüququn əsas cəhətləri. Erkən feodalizm dövründə həm Atropatenada, həm də Albaniyada hüququn mənbələri adətlərlə yanaşı **Avesta, Matikan, kilsə kanonları, şah** və **çar fərmanları** olmuşdur.

Atropatenada mülkiyyət hüququ. Bəhs edilən dövrdə şah torpağın baş mülkiyyətçisi idi. Quldarlıq sisteminin aradan çıxması və feodal münasibətlərin yaranması ilə əlaqədar olaraq ənənəvi icma mülkiyyəti ilə yanaşı xüsusi mülkiyyət də inkişaf edirdi. Məbəd və kilsə torpaqları yeni şəraitə uyğun olaraq genişlənirdi. Əyanlara məxsus olan dastakert mülkiyyətçinin sərəncamında idi. Bu torpaqlar sahibi tərəfindən özgəninkiləşdirilə bilərdi. Xostak torpaq mülkiyyəti isə hərbi xidmətə görə əyanlara verilən şərti torpaq sahibliyi idi.

Öhdəlik hüququ. Müqavilə öhdəlikləri və deliktlərdən (təqibat) yaranan öhdəliklər fərqlədirilirdi. Avestaya görə müqavilələrin bağlanmasının **altı növü** qeyd edilirdi. Müəyyən sözlərin oxunması ilə bağlanan və dəyəri çox da böyük olmayan əşyalar üzərində bağlanan birinci müqavilə növləri şifahi (**verbal**) bağlanırdı. İkinci müqavilə daha böyük qiymətli olan şeylər haqqında idi. Bu müqavilə tərəflərin razılığı ilə (**real**) bir-birinin əlini sıxmaları ilə bağlanırdı. Üçüncü müqavilə bir baş heyvan qiymətində olan əşya üçün, dördüncü bir qoşqu heyvanı dəyərində əşya üçün, beşinci insan dəyərində olan əşya, altıncı müqavilə isə torpaq dəyərində olan şeylər üçün bağlanırdı. Müqavilə öhdəlikləri pozulduqda onun aradan qaldırılması yolları da müəyyən edilirdi. Əgər müqavilənin birinci növü pozulmuşsa, onun ikinci növünün bağlanması bu pozuntunu aradan qaldırır. Yaxud bir baş qoşqu heyvanı dəyərində müqavilə bağlanması bir baş heyvan dəyərində pozulmuş müqaviləni əvəz edə bilər.

Qədim Çin hüququnda olduğu kimi şəxsi aldatma yolu ilə müqavilənin pozulması üçün günahın yuyulması vəzifəsi yaxın qohumların üzərinə düşür. Məsələn, aldatmaqla şifahi müqaviləni pozan adamın yaxın qohumlarının 300 bağışlanmaq tövbəsi, əl sıxmaqla bağlanmış müqaviləni pozanın ən yaxın qohumlarının isə 600 bağışlanmaq tövbəsi etmələri tələb olunur. Müqavilə bağlanarkən aldatmağa görə müxtəlif cəza növləri müəyyən edilir. Şifahi müqavilədə aldatmağa görə tikanla 300 dəfə, yaxud qamçı ilə 300 dəfə zərbə vurulması, əl sıxmaqla bağlanan müqavilədə yalan üçün 600 dəfə tikanla və 600 dəfə qamçı ilə zərbə vurulması və s. nəzərdə tutulur.

Ailə və nikah hüququ. Nikah bağlanarkən tərəflərin razılığı tələb olunurdu. Nikah valideynlərin, onlar olmadıqda isə qardaş və bacıların, sonra isə qəyyumların razılığı ilə bağlanırdı. Nikah yaşı tərəflər üçün 15 yaş müəyyən edilirdi. Qadının ailədə hüquqi vəziyyəti kişinin hüquqları ilə bərabər tutulurdu. Birinci arvadın sağlığında ikinci nikaha daxil olmaq qadağan idi. Ailədə uşaqların tərbiyəsinə xüsusi diqqət verilirdi. Qızların tərbiyəsinə, əxlaqi və dini qaydalara əməl etmələrinə, müxtəlif peşələrin öyrənilməsinə və s. ciddi nəzarət edilirdi.

Cinayət hüququ. Cinayətlərin bir neçə növü fərqləndirilirdi. Dövlət əleyhinə, din əleyhinə, təbiət qüvvələri əleyhinə edilən hərəkətlər ən ağır cinayət hesab edilirdi. Məzda qanunları əleyhinə cinayətlər ağır cinayətlər sırasına aid edilir və bunun üçün cinayətkarın bədən üzvləri kəsilirdi. Təkrar cinayət törədildikdə cəza artırılırdı. Təbiət qüvvələri, heyvanlar əleyhinə edilmiş hərəkətlər cinayət hesab edilirdi.

Proses. Proses zərərçəkmişin şikayəti əsasında başlanırdı. Sasani dövründə baş maqupat məhkəməsi ali apellyasiya instansiyası sayılırdı. Burada **maqupat** işə təkbaşına baxırdı. Məhkəmədə sübut növləri kimi ordaliya və andiçmədən istifadə edilirdi. Yalan and içmək ağır günah hesab edilirdi.

Albaniyada hüququn əsas cəhətləri. Alban çarı III Vaçaqan tərəfindən çağırılmış Aluen qurultayının qərarları hüququn mənbəyi kimi böyük rol oynamışdır. 21 bənddən ibarət olan kanonları dörd

qrupa bölmək olar: 1) ruhaniliyə, kilsə xidmətçilərinin qarşılıqlı münasibətlərinə, ruhanilərin hüquq və vəzifələrinə aid olan kanonlar; 2) ruhanilərlə əyanların münasibətlərini nizamlayan kanonlar; 3) ruhanilərlə adi xristianların münasibətlərini nizamlayan kanonlar; 4) sırf hüquqi xarakter daşıyan kanonlar.

Mülkiyyət hüququ. Albaniyada torpaq üzərində dövlət mülkiyyəti, xassə mülkiyyəti, şərti torpaq mülkiyyəti, xüsusi mülkiyyət, dini təşkilatların mülkiyyəti və icma mülkiyyəti mövcud idi. Dövlət torpaqlarında asılı icarəçilərin və az da olsa qul əməyindən istifadə edilirdi. Məbəd torpaqları iri təsərrüfata malik idi.

Kənd icma üzvləri bu təsərrüfatlarda müxtəlif mükəlləfiyyətlər yerinə yetirməklə bərabər kilsənin xeyrinə çoxlu vergilər ödəməli idilər. Xalq tərəfindən keşişə gətirilən torpağın bəhrəsi aşağıdakı qaydada verilməli idi: varlı adam dörd cərib buğda, altı cərib arpa və on altı bardaq şirin çaxır. Kasıb əkinçi varlı verən taxılın yarısını, çaxırdan isə bacardığı qədər. İcma üzvü olan, lakin nə bağı, nə də əkin yeri olmayandan heç bir şey alınmırdı. Göstərilən normalardan artıq vergi vermək isə əhalinin özündən asılı idi. Lakin qeyd edilirdi ki, artıq vergi ödəməklə cəhənnəmdən xilas olunmasında həmin şəxs yaxşı bir imkan əldə edir. Həmçinin təsərrüfatlardan bir qoyun, üç qoyunun yunu və bir parça pendir verilməlidir. Atı olan bir dayça, iribuynuzlu heyvanı olan isə bir buzov verməli idi.

Kilsənin xeyrinə adlı-sanlı əyan və çar nəslindən olan şəxs ömrü boyu öz əliylə öz canı üçün bir yəhərli-qayışlı at və ya nə bacarsa verməlidir. Əgər həmin şəxs bunu sağlığında özü verə bilmirsə, o, öləndən sonra bunu onun ailəsi etməlidir.

Dini iyerarxiyaya uyğun olaraq kənd keşişləri monastırların xeyrinə vergi ödəyirdilər. Kənd keşişləri ildə iki dəfə yepiskopa "hörmət" göstərməli, müqəddəs kitablar üzrə ondan din nizamlarını öyrənməli və adəti üzrə ona ildə bir dəfə hədiyyə aparmalı idi.

Albaniyada kəndli-icmaçı öz torpaq sahəsini və bağını satmaq, girov qoymaq, icarəyə vermək və nəhayət vərəsə təyin etmək hüququna malik idi. Yerli əsilzadələr hər bazar günü, nökərləri ilə birlikdə ibadət üçün Baş kilsəyə gedib ibadət keçirməlidirlər. Onlar kilsəyə verdikləri üşrün yarısını Baş kilsəyə, yarısını da öz kilsələrinə verməli idilər. Ölənlərin ruhu üçün də kilsə vergisi alınırdı.

Ailə və nikah hüququ. Nikahın bağlanması, həmçinin boşanma kanon hüququnun səlahiyyətləri daxilində idi. Eyni zamanda yalnız bir nikaha daxil olmağa icazə verilirdi. Nikahın pozulması yalnız müəyyən səbəblərə görə ola bilərdi. Kim öz arvadını səbəbsiz boşayıb ikinci arvadla kəbinsiz yaşayırsa, çar divanına gətirilməli və işgəncələrdən sonra ölüm cəzasına məhkum olunmalıdır. Kanon qanunları hətta uzaq qohumlarından evlənməyi qadağan edirdi. Heç kəs öz qohumu olan əmi və bibi nəvəsi ilə evlənə bilməz və qardaşının da arvadını ala bilməzdi. Qadınların hüquqları dövlət və kilsə qanunları tərəfindən qorunurdu.

Cinayət və cəza. Cinayətləri bir neçə qrupa bölmək olar: dövlət əleyhinə olan cinayətlər, dini və etik xətalar, şəxsiyyət əleyhinə olan cinayətlər, əmlak hüquqları əleyhinə olan cinayətlər.

Dövlət əleyhinə, çar və onun ailəsinə qarşı xəyanətə görə müqəssir çar divanında mühakimə edilirdi. Cinayət etmiş şəxs ağır işgəncələrdən sonra ölüm cəzasına məhkum edilirdi. Əmlak hüquqları əleyhinə olan cinayətlərə oğurluq və soyğunçuluq aid idi. Əgər rahiblik edən və ya rahib vəngdən (monastırdan) bir şey oğurlayarsa və bu əhvalat açılarsa, həmin adam mühakimə olunmalı və öz yerindən qovulmalıdır, ona ayrılan torpaq payı isə kilsənin xeyrinə alınmalıdır.

Əgər fiziki zorakılıq göstərməklə hər hansı bir şəxs digərinə xəsarət yetirirsə, həmin adam yepiskopun yanına gətirilir və onlar qanunlar əsasında cəzalandırılır.

Albaniyada xristianlıq dini möhkəmləndikdən sonra kilsə mənəviyyat əleyhinə edilən cinayətlərlə ciddi mübarizə aparırdı. Cadugərlərə müraciət etmiş şəxs həbs edilib işgəncə verildikdən sonra öldürülürdü. Ölüləri üçün yas saxlayan şəxsləri həbs edib çar divanında mühakimə edib cəzalandırırdılar. Kim ölmüş heyvanın ətini, həmçinin qırx günlük pəhriz zamanı ət yeyirsə və ya bazar günü kilsəyə ibadətə getməyib işləyirsə, keşiş onu dindarların gözü qabağında cəzalandırırdı.

Əgər dindarlardan kimsə keşişi və ya ondan vəzifədə aşağı olanı bir şeydə günahlandırarsa və onlar etiraf etməli olsalar ki, bu ittiham ədalətli və düzdür, onda yepiskop onlara cəza verirdi və onlar kilsədə tövbə etməlidirlər. Onlar həqiqəti gizlədərlərsə, lakin şahidlər

bunun əksini təsdiqləyərlərsə, ittiham olunanlar qanunlar əsasında cəzalandırılıb kənddən qovulurdular.

Aquen kanonlarının 16-cı bəndində deyilirdi ki, əgər keşiş öz etimada layiq olan peşə yoldaşları və şagirdləri tərəfindən bir cinayətdə günahlandırılarsa, o, kilsədən çıxarılıb kənddən qovulmalıdır.

Proses. Məhkəmə prosesi həm cinayət, həm də mülki işlər üçün vahid idi. Proses, bir qayda olaraq, iddiaçının (zərərçəkənin) şikayəti əsasında aparılırdı. Məhkəmə iddiaçının ərizəsini, cavabdehin və şahidlərin ifadələrini dinləyirdi. Şahid ifadələrinə üstünlük verilirdi. Prosesin sonunda məhkəmə qərar qəbul edirdi.


IV FƏSİL

VII-IX əsrlərdə Azərbaycanın dövlət və hüquq tarixi

Azərbaycan ərəb xilafətinin hakimiyyəti altında. Xilafət ordularının Qafqaza hücumu ərəfəsində Azərbaycanda siyasi vəziyyət mürəkkəb idi. Ölkə Sasani hakimiyyəti altında qalmaqla imperiyanın şimal canişinliyinin tərkibinə daxil idi. Nominal müstəqilliyini saxlamış Albaniyada 705-ci ildə Mehranilər sülaləsinin hakimiyyəti Xilafət tərəfindən ləğv edilir.

Ərəblərin hücumlarına qədər Azərbaycan əhalisi Bizans-Sasani müharibələrindən, habelə şimal tayfalarının hücumlarından çox əziyyət çəkirdi. Ona görə də İslam dininə və ərəblərin onlara verəcəyi əmin-amanlığa inam və ümid böyük idi. İlk vaxtlar ərəblər vergi və töycüləri aldıqdan sonra adət-ənənələrə toxunmur və mümkün qədər əmin-amanlığı qoruyurdular. Digər tərəfdən isə Ərəb Xilafəti işğal etdiyi ərazilərdə xristianlığı qəbul etmiş xalqlara, o cümlədən Cənubi Qafqaz xalqlarına islamı zorla qəbul etdirməyə cəhd göstərmirdi. Yalnız Quran və Sünnənin göstərişinə müvafiq olaraq "əhli-kitab" (xristianlarda - Bibliya, iudaistlərdə - Tövrat) olmayanlar arasında islam dini zorla qəbul etdirilirdi. İslam dini bütpərəstlər, atəşpərəstlər, həmçinin mənəviyyat və əxlaqa zidd olan, ibtidai icma dövründən qalma qrup nikahı və yaxın qohumlar arasında nikah formalarını hələ saxlamaqda olan ayrı-ayrı tayfalar arasında yayılırdı. Ərəb mənbələri xürrəmiləri "kefcil və sərxoşlar" kimi təqdim edir, Babəkin 20 ildən artıq başçılıq etdiyi azadlıq hərəkatını ləkələməyə çalışır və vətənin müdafiəsinə qalxmış xalqla "kafirlər" anlayışı eyniləşdirilirdi. Akademik Z. Bünyadov xürrəmilər hərəkatının elmi təhlilini verərək çox haqlı olaraq göstərirdi ki, "sərxoşluğa, pozğunluğa və əxlaqsızlığa yol verən hər bir azadlıq hərəkatı əvvəlcədən tezliklə pozulmağa məhkum olardı". Ona görə də xürrəmilər üsyanı "başıpozuq" qüvvələrin hərəkatı deyil, yeni işğalçılara qarşı mərdliklə, çox çətin aparılan, vətənin müdafiəsinə yönəlmiş azadlıq hərəkatı idi.

Sonralar davamlı olaraq baş verən üsyanlar isə artıq islamı qəbul etmiş xalqın dinə qarşı deyil, ərəb feodal əyanların özbaşnalıqlarına qarşı çevrilmişdir.*



Ərəb xilafətindəki vergi və töyçülərin miqdarı Sasanilər dövründəkindən xeyli az idi. Lakin sonralar Xilafətin soyğunçu vergi siyasə-

---

** Bax! Z. Bünyadov: Azərbaycan VII-IX əsrlərdə. B., 1989.*

ti və məmurların özbaşınalığı, dəhşətli istismar və hüquqsuzluq, yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması, ərəbləşdirmə siyasəti və başqa səbəblər əhalinin narazılığını artırmışdı.

VIII əsrin ortalarında Əməvilər sülaləsinin siyasətinə qarşı həm Xilafətdə, həm də onlara tabe olan asılı ölkələrdə kəskin mübarizə gedirdi. Xilafətə qarşı Azərbaycanda çıxışlar 748-752-ci illərdə geniş vüsət aldı. Üsyanda əhalinin bütün təbəqələri iştirak edirdi və onlara yerli feodal-əyanlar başçılıq edirdilər.

VIII əsrin axırı - IX əsrin əvvəllərində Ərəb Xilafətinə qarşı xürrəmilər hərəkatı başladı. Xürrəmilər cəmiyyətdəki bütün ədalətsizliklərin kökünü sosial bərabərsizlikdə görürdülər. Onların birinci üsyanı 778-ci ildə olmuşdur. Bu üsyandan 30 il sonra, 808-ci ildə xürrəmilərin ərəblərə qarşı daha güclü bir üsyanı başladı. 816-cı ildə Cavidanın ölümündən sonra xürrəmilərə Babək başçılıq etməyə başladı. Xürrəmilər Xilafət orduları üzərində parlaq qələbələr çalırdılar. IX əsrin 30-cu illərinin əvvəlləri azadlıq müharibəsinin ən müvəffəqiyyətli dövrü idi. 837-ci ilin avqustunda ərəb qoşunları Bəzz qalasını tutdular. Üsyan, azadlıq hərəkatı amansızlıqla yatırıldı və 838-ci il martın 14-də xəlifə Mötəsimin hökmü ilə Babək edam edildi. Lakin mübarizə bəzi yerlərdə hələ də davam edirdi.

Arran və Azərbaycan ərəb xilafətinin tərkibində

İcimai quruluş. VII-IX əsrlərdə əhali əsasən iki təbəqəyə bölünürdü: hakim feodal sinfi və feodaldan asılı olan kəndlilər. Feodallara məxsus torpaqlarda kəndli əməyindən geniş istifadə edilirdi. Kəndli feodaldan asılı vəziyyətdə idi, çünki o, feodalın torpağını becərməli, məhsulun müəyyən hissəsini torpaq sahibinə verməli idi. Bununla yanaşı, kəndli təsərrüfata (evi, həyətyanı torpağı, mal-qarası, əmək alətləri) malik idi, lakin onun əsas gəliri icarəyə götürdüyü feodal torpağı ilə bağlı idi. Torpaqsız kəndlilər hüquqi cəhətdən feodaldan tam asılı olmaqla, onun torpağa təhkim edilməsi prosesi artıq bərqərar olurdu.

Əhalinin xüsusi silkini təşkil edən sənətkarlar əsasən şəhərlərdə yaşayırdılar. Hər peşədən olan sənətkarlar bir küçədə və ya bir məhəllədə yerləşirdilər. Şəhərlərdə tacirlər də xüsusi silk təşkil edirdilər.

Sosial nərdivanın ən aşağı pilləsində heç bir hüququ olmayan **qullar** dururdu. Onların sayı müharibələr nəticəsində xüsusilə artırdı. Orta əsrlərdə hələ də böyük qul bazarlarının mövcud olduğu məlumdur. Belə ki, ölkəyə gətirilən əmtəə, habelə qul, heyvan və hər cür əşya üzərinə qoyulan rüsumlar xəzinəyə çox böyük gəlir verirdi.

Azərbaycan istila edildikdən sonra Xilafətin vergi siyasəti burada da tətbiq edilirdi. Belə ki, Əməvilər dövründə vergilər hər həyətdən dörd dirhəm, üç modi (müdd - 3,264 kq.) ələnmiş buğda, heyvan tükündən bir ip və bir əlcək alınırdı. **Arranın** xristian əhalisi xəlifənin xəzinəsinə iki vergi – cizyə və xərac verirdi. Xristian əhalidən vergi təzyiq göstərilmədən, bağlanılan müqavilə əsasında alınırdı. Müsəlmanlardan yalnız onda bir vergisi (üşr) alınırdı. Kilsələrin vəqf təsis etmək hüququ qəbul edilmişdi. Xristian əhali haqqında bir qədər güzəştə getmək halları yalnız xəlifə II Ömərin (717-720) hökmranlığı zamanında nəzərə çarpmağa başladı.

Xəlifə Hişamın hakimiyyəti illərində Azərbaycan və Arranda ərəblərin vergi siyasəti əsaslı dəyişikliyə uğradı. O vaxta qədər müsəlman hüququ cizyə ilə xərac arasında fərq qoymurdusa, indi yerlərdəki əməvi hakimləri xəracı xəzinəyə böyük gəlir gətirən əsas vergilərdən biri hesab etməyə başladılar. 725-726-cı illərdə Hişamın sərəncamına görə Azərbaycanda əhali, torpaq, mal-qara və hər cür digər əmlak yenidən siyahıya alındı. Siyahıya alınmadan sonra əhalinin üzərinə ağır vergi qoyuldu. Həmin sərəncamdan sonra tətbiq edilən yeni vergi sistemində əhalidən başqa, rahiblərdən də vergi alınması nəzərdə tutulurdu. Mənbələr qeyd edirdi ki, xəlifə əmr etdi: rahiblər siyahıya alınsın. Buna görə onları siyahıya aldılar, onların hər birindən cizyə almağa başladılar və bu rahiblərdən alınan ilk cizyə oldu. Əhalinin üzərinə **sənaye** və **sənət** məmulatı vergisi, həmçinin **kəbin** kağızı vergisi kimi əlavə vergilər də təyin edilirdi.

Vergilərin artırılması təkcə yoxsulları deyil, hətta Arranın bir çox əyan və varlı adamlarını da müflisləşdirdi. Bu çətinlikləri zimmilər daha çox hiss edirdilər. Çünki onlar təkcə Xilafətə deyil, yerli feodallara da vergi verirdilər. Vergi verənlərdən alınan böyük məbləğlər xəlifə xəzinəsinə tam daxil olmurdu, çünki əyalətin əmiri və onun məmurları onlara tapşırılan əyaləti şəxsən varlanmaq üçün bir mənbə hesab edirdilər. Xəlifələr bu cinayətlərin qarşısını almağa cəhd edir

və çox vaxt məmurlara qarşı çox sərt tədbirlər görürdülər. Xəlifə I Müaviyə (661-680) hətta xüsusi nəzarət orqanı (dar əl-istixrac) yaratmışdı; bu orqanın vəzifəsi hər hansı bir əyalətdə məmurlar arasında rüşvətxorluq hallarını aşkara çıxarmaqdan ibarət idi. Lakin bu tədbir az kömək edirdi. Dövlət xəzinəsi məmurlarının etdiyi cinayətlərin qarşısını almaq məqsədilə bu vəzifələrə ərəblərin əvəzinə yerli feodalları təyin etməyə başladılar, çünki bunlar xəzinə işlərinə yaxşı bələd idilər və gizlədilən məbləğləri verməyə onları asanlıqla məcbur etmək olardı. Lakin bu tədbir də nəticə vermədi, çünki əksəriyyəti islam dinini yalnız zahirdə qəbul edən yeni məmurlar öz imtiyazlarını əldə saxlamaq üçün ərəblərə can-başla qulluq edib, onlarla əlbir olub, öz keçmiş təbəələri olan əkinçiləri qarət etməyə başladılar.

Çoxlu ağır vergilər torpaq sahiblərini çox tez iflasa uğradırdı, buna görə də onlar məcbur olurdular ki, öz torpaqlarını ərəb tayfasının – ərəb iri torpaq sahibləri və dövlət qulluqçularının hamiliyinə versinlər. Bu torpaqlar **hami** və ya **ilca** kateqoriyasına daxil edilib qeydə alınırdı. Torpağın əsl sahibləri məhsulun bir hissəsini hamilərə verirdilər ki, onlar torpaq sahibini məmurların zülmündən qorusunlar, torpağın özü isə sahibinin adına qeydə alınırdı. Məsələn, Marağa əhalisi öz torpaqlarını Mərvan ibn Məhəmmədin himayəsinə vermişdi. Həmin qayda ilə Azərbaycan əhalisindən bir çoxları öz kənd və torpaqlarını onları mühafizə etmək üçün buraya köçmüş ərəb tayfalarının himayəsinə verirdilər. Azərbaycana köçmüş ərəblər "nə qədər bacarırdılarsa, bir o qədər torpaq tuturdular. Onlardan bəziləri torpağı ərəb olmayanlardan (**əcəmlərdən**) satın alırdılar. Bundan əlavə mühafizə etdikləri kəndləri onlara güzəşt edirdilər, beləliklə, həmin kənd əhalisi onlar üçün işləyirdi".

Əməvilər dövründə Xilafətin şimal sərhədlərində hələ də istilaçı hərbi səfərlər edilirdi və ərəblər hər hansı bir vilayəti tutduqda bütün vilayət üzərinə bac qoymaqla kifayətlənirdilər. Ərəblər Dağıstan vilayətlərindən – Qumuxdan və Tumandan ildə 100 qul, 100 kəniz və 20 min batman buğda alırdı; Kəbəçidən 50 kəniz, Qaraqaytaqdan 500 qul və 20 min batman buğda, Kür və Miskinçidən 14 min batman buğda və 40 min dirhəm, Şirvandan 20 min batman buğda və 50 min

dirhəm alırdı. Bütün bu vəsait müəyyən yerdə saxlanılır və Dərbənd şəhəri əsgərlərinə maaş verməyə xərclənirdi.

Xərac, cizyə və digər vergi və gəlirlərin miqdarı haqqında bir sıra orta əsr müəlliflərinin verdiyi məlumatın mövcud olmasına baxmayaraq, Əməvilər dövründə Azərbaycan və Arran torpaqları üzərində qoyulmuş vergilərin məbləğini dəqiq müəyyən etmək mümkün deyildir. Abbasilər dövründə ölkələr barədə reyestr yox idi və bu barədə yalnız ayrı-ayrı məlumat qalmışdı. Azərbaycan və Arran haqqında daha ətraflı məlumata yalnız X əsrdən başlayaraq Abbasi xəlifələrinin hökmranlığı dövründə mənbələrdə təsadüf edilir.

Əməvilər hökmranlığının son dövründə Xilafətin əyalətlərində, xüsusilə Azərbaycan və Arranda belə bir vəziyyət əmələ gəldi ki, ölkədə hər bir hakim öz bildiyi kimi ağalıq edərək, əhalini qarət edib sıxışdırır, onu müflisləşdirir və öz əməlləri üçün mərkəzi hakimiyyət qarşısında, demək olar ki, heç bir məsuliyyət daşımırdı. Əməvi xəlifələri və onların yerlərdəki hakimləri əhalidən yalnız vergi toplamaqla məşğul olur, iqtisadi inkişafın artmasına qayğı göstərmirdilər. Əhali vergi təzyiqinin ağırlığına dözməyərək kütləvi surətdə kəndləri tərk edir; torpaqsız kəndlilərin (**sülukların**) sırasını artırırdı. Süluklar iri torpaq sahibləri olan feodallar üçün işləyirdilər. Feodallar kəndlilərin tərk etdiyi bütün torpaqları, demək olar ki, tutur və ya alıb tədricən öz mülklərinə qatırdılar. Bu proses Azərbaycanda feodalizmin daha da inkişafına və Xilafətin mövqeyinin zəifləməsinə səbəb olurdu. Belə ki, yerli iri torpaq sahibləri olan feodallar (**mütəcəlliblər**) daha mərkəzi hakimiyyətin nümayəndələri ilə hesablaşmır və tədricən müstəqilliyə can atırdılar. Lakin Abbasilər hakimiyyətə gəldikdən sonra belə separatizm hərəkətlərinin qarşısı Xilafətin silahlı qüvvələri tərəfindən dərhal alındı.

Abbasilərin verdiyi vədlərə baxmayaraq, yeni sülalənin dövründə də Azərbaycan və Arran kəndli kütlələrinin vəziyyəti çox tez bir zamanda Əməvilərin dövründə olduğundan daha da pis oldu. M. Kalankatuklu yazır ki, Abbasilərin hakimiyyət başına keçməsi "bizim vətənimiz **Ağvan** üçün bədbəxtlik idi, çünki ərəblər öz iyrənc qarətçiliyi üzündən Partav paytaxtını Ağvan knyazlarından aldılar və öz

hökmranlıqlarının keçmiş paytaxtı Suriya Dəməşqində olduğu kimi indi Ağvan Partavında özlərinə iqamətgah qurmuşdular ki, torpağın bol nemətlərini sorsunlar".

Əməvilərin dövründə bütün vergilər nağd pulla ödənilirdisə, Abbasilər dövründə vergilərin yalnız bir hissəsi nağd pulla alınırdı. Bu sistem xüsusilə ikinci Abbasi xəlifəsi əl-Mənsur (754-775) dövründə işə düşmüşdü. Vilayətlərdən vergilərin gəlməsinə nəzarət etməkdə poçt (bərid) idarəsinin xüsusi rolu var idi. Poçt idarəsinin başçısı sahib əl-Bərid hər gün məhsulların qiymətləri barəsində məlumat verirdi. Lakin Azərbaycan əhalisi daha xəlifənin xəzinəsinə nağd pulla vergi ödəmək iqtidarında deyildi. Vergiləri ödəmək üçün əhalidə nağd sikkə, habelə gümüş və qızıl kifayət etmirdi. Zorakılıq və zülmü ilə hamını təngə gətirmiş və hətta ölülərdən də vergi tələb etməklə əhalini dilənçi kökünə salmışdılar. Xəlifə əl-Mənsurun dövründə əhalidən adambaşına çoxlu gümüş tələb olunurdu. Knyaz nəslindən olanlar ona bəxşiş olaraq at və qatır, gözəl paltar, qızıl və gümüş gətirirdilər. Sonralar xərac sistemində dəyişiklik edildi. Nağd pul vergisi olan **misahə**, natural vergi – **müqasimə** ilə əvəz edilir. Suvarılan torpaqlardan məhsulun yarısı, **daliya** və **girbə** ilə suvarılan yerlərdən məhsulun üçdə biri, **dulab** (suvarma çarxları) ilə suvarılan torpaqlardan dörddə biri alınırdı. Meyvə ağaclarına, zeytun bağlarına və üzümlüklərə də xərac qoyuldu.

Xəlifə Harun əl-Rəşidin (786-809) hökmranlığı dövründə Azərbaycandan ildə 4 milyon dirhəm, Muğan və Karxanın hərəsindən 300 min dirhəm alınırdı. Bu dövrdə vergilərin miqdarını tənzimləmək üçün hüquqşünas Əbu Yusif xəlifə üçün xüsusi olaraq **"Xərac haqqında kitab"** ("Kitab əl-Xərac") yazmışdı. Əbu Yusifin kitabında vergi sistemi tamamilə Xilafətin mənafeyini ifadə edirdi. Əbu Yusif göstərir ki, çox vaxt əyalətlərin hakimləri bir adamdan tələb olunan xərc həddini aşan "bir məbləğ" tələb edirdilər; vergi ödəyən şəxs bu artırılmış məbləği vermək iqtidarında olmadıqda onu döyür, sıxışdırır və mal-qarasını aparırdılar. Bununla belə, əhalidən vergi və qalıqların alınması qaydaları barədə belə yazılırdı ki, cizyə verməyə məcbur etmək məqsədilə zimmilərdən heç birini döymək olmaz. Onları bu məqsədlə günün altında saxlamaq və ya onlara başqa cəza-

lar vermək olmaz, ya da onların üzərində nifrət doğura biləcək şeylər asmaq olmazdı. Əslində isə vergi yığarkən adamları qızmar günəş altında saxlayır və başlarına yağ tökürdülər.

Kəndlinin vergi məbləğini vergi məmuruna verməsi üçün ərəblər təhqiredici bir mərasim uydurmuşdular; bu mərasim tabe ölkələrin əhalisinə nisbətən ərəblərin qüdrəti və hakim vəziyyətdə olduqlarının simvolu olmalı idi. "Zimmilər vergi ödəmək təyin edilən gün şəxsən cizyə almağa məmur edilən əmirin yanına gəlməli idilər. Əmir uca bir taxtın üstündə oturardı. Zimmi verəcəyi vergi məbləğini açıq ovuc içərisində saxladığı halda əmirə yanaşardı. Əmir bu məbləği elə götürərdi ki, əli vergi ödəyən şəxsin ovucunun üstündə olardı, zimminin əli isə altda qalardı. Sonra əmir onun peysərinə şillə vurardı, əmirin əlaltılarından biri isə onu kobud hərəkətlə qapıdan qovardı. Camaata bütün bunlara tamaşa etməyə icazə verərdilər". Əbu Yusif xəlifə Harun ər-Rəşidə məsləhət görüb deyir ki, xərac üçün dirhəm verən şəxs heç bir vəchlə döyülə bilməz və onu cəza olaraq ayaq üstə saxlamaq olmaz. Vergi toplayanlar xərac verənləri məcbur edirdilər ki, günün altında qalsınlar, onları bərk döyürdülər, onların boynundan səhəng asırdılar.

Kəndli kütlələrini istismar etmək formaları arasında yardarlıq icarəsi xüsusi yer tuturdu. Torpaq sahibləri torpağı xırda sahələrə bölür və bunları yardarlıq icarə şərtləri – **müzaraə, müsqət, qəbalə** və i.a. əsasında yardarlara verirdilər. Yardarlara **akkar, şərik, amil, münasif** və i. a. deyirdilər. Torpaq məhsulun altıda bir və yeddidə bir hissəsinə müqabil icarəyə götürülürdü. Kəndlilərin ağır vəziyyəti Harun ər-Rəşid dövründə xüsusilə inkişaf edən **iltizam** sisteminin Xilafətdə genişlənməsi nəticəsində daha da ağırlaşırdı. Bu sistem ilkin Frank monarxiyasındakı **benefisiya** sisteminə oxşayırdı. Lakin iltizam sistemi istismarı daha da artırdı. İltizamçılar öz hakimiyyətindən sui-istifadə edərək, heç bir şeylə hesablaşmır və vergi ödəyənlər silkini qarət edirdilər. İltizamçıların qanunsuz hərəkətləri o qədər kobud idi ki, Əbu Yusif xəlifəyə müraciət edərək iltizam verilməməsini məsləhət görürdü. İltizamçılar iltizam məbləğindən artıq yığmaq üçün buna yalnız rəiyyətlə rəhmsiz rəftar etmək, onları bərk döymək, qızmar gü-

nəş altında saxlamaq, boyunlarından daş asmaq, onlara əzab, işgəncə vermək yolu ilə nail ola bilər, buna görə də xərac verənlər ödəməli olmadıqları şeyləri verdikləri üçün var-yoxdan çıxırlar.

Əbu Yusif xəlifənin diqqətini xüsusilə vergi yığanlara cəlb edir, çünki xəlifə xəzinəsinin dolması bu məmurların bacarıqlı və namuslu olmasından asılı idi. O, belə hesab edir ki, xərac yığan **"qanunşünas, bilici, mötəbər adamlara məsləhət edən, qüsursuz"** olmalıdır, xərac yığmağı düz və etibarlı adamlara tapşırmaq lazımdır. Çox vaxt vergi yığanları bir çox elə adamlar əhatə edir ki, vergi verənlər hesabına varlanmağa can atırlar. Bu adamların bütün fikri ona yönəlmişdir ki, istər xəracdan, istərsə də təbəələrin əmlakından bir şey qopardıb özləri üçün mənimsəsinlər. Onlar bu məqsədlə zorakılığa, ədalətsizlik və zülmə əl atırlar. Vergi yığanlar bir kəndə gedəndə kənd əhalisindən həmişə tələb edirdilər ki, onları yedirib-içirtsinlər, əhalini buna məcbur edir və bələliklə, camaat böyük əziyyət çəkirdi.

Nağd pul vergisi misahədən başqa, xəracın digər növləri də mövcud olmuşdur. **Mühasibə** xəracı məhsulla alınan vergi idi. Əkin məhsullarından natura ilə müqasimə xəracı alınırdı. Dövlətlə şəxsiyyət arasındakı münasibətlə müəyyən edilən xərclərə görə alınan **muqlata** sultanın (xəlifə) torpaqlarında alınan xərcin sonuncu kateqoriyasına daxil idi.

Xəlifə Harun ər-Rəşidin hökmranlığı dövründə cizyə ildə bir dəfə kişilərdən alınırdı, həm də bunun üçün əhalidən puldan başqa daşınan əmlak da qəbul edilirdi. Heç kəsin zimmiləri cizyədən azad etməyə hüququ yox idi. Hətta vergi alınması vergi ödəyən silkin açıq təhqir olunması demək idi. Belə ki, zimmilərdən can vergisi alınanda onların hamısı yoxlanmayınca boyunlarından qurğuşun damğa asılmalı idi.

Xilafət dövründə alınan vergilərdən biri də **xüms** idi. Bu vergi zəkatdan, yəni "islamdan əvvəlki vergilərdən gizlədilmiş hesab edilən bütün əmlakdan", mədənlərdən, kafirlərə qarşı vuruşmalarda tutulub qul halına salınan əsirlər də daxil olmaqla, qənimətdən, əsir qadın və uşaqlardan, habelə daşınan əmlakdan alınırdı.

Zəkat və ya sədəqə mal-qaradan alınırdı. 4-dən 9 başa qədər dəvədən 6 aylıq bir köşə, ya da bir illik iki keçi; 10-dan 14 başa qədərdən 2 quzu; 15-dən 19 başa qədərdən 3 qoyun və i.a. alınırdı.

İnək və camışdan 30-dan 39 başa qədərdən 6 aylıq bir qaramal; 40-dan 50 başa qədərdən 2 quzu; 200-dən 399 başa qədərdən 3 qoyun və i.a. alınırdı.

Əkin və meyvədən - təbii suvarılan sahələrdən onda bir, süni suvarma sahələrindən isə məhsul çəkiləndən sonra iyirmidə bir alınırdı.

Qızıl və gümüşdən - 200 dirhəmdən çox olan məbləğdən və 20 misqal qızıl və gümüşdən məbləğin qırxdan biri, ya da onun dəyəri alınırdı.

Müsəlman olmayan tacirlərdən alınan vergi **iki cür** idi: zimmilərdən ildə bir dəfə tacirin əmtəəsinin dəyəri 200 dirhəmdən artıq olardısa, bu dəyərin onda biri alınırdı. Xilafətdən kənar ölkələrdən gələn tacirlərdən əmtəələrinin dəyəri 200 dirhəmdən artıq olarsa, onun dəyərindən onda biri alınırdı.

Şirvanda (Bakıda) bütün yuxarıda göstərilənlərdən başqa neft mənbələri və duz mədənləri üzərinə **vergi** qoyulmuşdu. Mənbələrin məlumatında deyilirdi ki, hələ xəlifə Mənsurun dövründə Azərbaycan hakimi Yəzid ibn Useyid "öz adamlarını Şirvanda neft və duz çıxaranların yanına göndərdi və bu adamlar onlardan vergi aldılar; sonralar o, vergi alınmasını xüsusi adamlara tapşırdı. Hicri tarixi ilə 150-ci (733-cü) ildə Dərbənddə neft anbarlarının tikilməsi Şirvanda (Bakıda) neft mədənlərinin çoxluğunu təsdiq edirdi. Mənbələrin məlumatına görə, Bakı o zaman böyük bir şəhər idi. O, Şirvan vilayətlərindən biri hesab edilirdi. Burada neft mədənlərində icarə haqqı gündə min dirhəmə çatırdı. Xəzərlərə qarşı vuruşma zamanı ərəblər bu neftdən istifadə edirdilər. Hətta xəlifə Şirvanın neft və duz mədənlərinin yarısını vəqf olaraq Dərbənd döyüşçülərinə vermişdi.

Xəlifə xəzinəsinin Azərbaycandan aldığı xərac ildə 4 milyon dirhəm olmuşdur. Muğandan 300 min dirhəm alındığını nəzərə alsaq, Arandan ildə təqribən 3 milyon alınırdı, 3 vilayətdən birlikdə alınan məbləğ isə ildə təqribən 8 milyon dirhəm idi.

Dövlət quruluşu. Azərbaycan Ərəb Xilafəti tərəfindən işğal edildikdən sonra burada əvvəlki idarəetmə aparatı saxlanılmışdır. Xilafət işğal etdiyi əraziləri idarə etmək üçün vilayətlərdə canişinlik sistemi yaratdı. İlkin dövrlərdə beş belə vilayət mövcud idi. Azərbaycan dördüncü vilayətin tərkibində idi. Bir müddət sonra Azərbaycan üçüncü əmirliyin tərkibinə qatıldı.

Abbasilərin dövründə Xilafət 83 quradan (əyalətdən) ibarət olan 14 vilayətə bölünürdü; bunlar da daha kiçik inzibati vahid olan nahiyələrə (mahallara) bölünürdü. Nahiyə 12 rustakdan (rayondan) ibarət olub, hər birinə 12 kənd daxil idi. Orta əsr ərəb müəllifi İstəxrinin verdiyi məlumatda deyilirdi ki, biz Ermənistan, Arran və Azərbaycanı xəritədə birləşdirir və ona bir ölkə kimi baxırıq. İbn Hövqəl isə onun dediklərini təsdiq edərək, Azərbaycan, Arran və Ermənistanın ümumi xəritəsini yaratmış və bunu "Azərbaycan xəritəsi" adlandırmışdır. O, Xəzər dənizinin də xəritəsini çəkərək, bütün sahil ərazisini Dərbəndədək Azərbaycan adlandırmışdır. Xilafətin işğalına qədər Azərbaycanın paytaxtı Ərdəbil idi və Sasani mərzbanının iqamətgahı burada yerləşirdi. Ərəblər isə paytaxtı Marağa şəhərinə köçürtdülər.

Vilayətlərə xəlifənin canişini olan əmir başçılıq edirdi. O, eyni zamanda vilayətin qoşunlarının komandanı idi. İnzibati idarəyə də canişin rəhbərlik edirdi. İnzibati idarə **divan** adlanırdı. Əmirin rəhbərliyi altında xüsusi tapşırıqları icra edən məmurlar – amil (mülki hakim, vergi toplanışına nəzarət edən) və qazı (məhkəmə idarəsinin rəisi), yəni dini məhkəmə hakimi olurdu. Qazı vəqf işlərinə nəzarət edir və amilin hərəkətlərindən narazı olan şəxslərin şikayətinə baxırdı.

Xilafətin mərkəzi ilə vilayətləri arasında rabitə yaratmaq üçün **bərid** adlanan poçt yaradılmışdı. Bərid göndərmələri yaxşı qoyur, xəbərlər vaxtında çatdırılırdı. Xilafətin müəyyən məntəqələrində poçt stansiyaları və əvəzetmə vasitələri var idi. Bunların köməyi ilə qasidlər Xilafətin mərkəzi ilə ucqarlar arasında nisbətən tez rabitə yarada bilirdilər. Xəlifənin və vilayət hakimlərinin əmrləri və göstərişləri çox böyük sürətlə göndərilirdi və mərkəzi hakimiyyətin yerlərə gedən rəsmi nümayəndələri xəlifə ilə operativ şəkildə rabitə saxlaya bilirdilər. Stansiyalar bir-birindən bir bərid, yəni **dörd fərsəx** (28 kilometr) məsafədə yerləşirdi, bu da qasidin bir mənzil at sürməsinə imkan verirdi. Hər bir stansiyada inzibati məmurlar ştatı var idi. Vilayətlərin paytaxtlarında valilərin yanında poçt direktorları vəzifəsi mövcud olmuşdur, lakin bunların vəzifəsi təkcə poçt-inzibati işlər deyil, həmçinin Xilafətin paytaxtına **siyasi məlumat** göndərmək idi. Çünki paytaxtda olan **divan ül-bəridin** vəzifəsinə canişinlər, qazılar, hərbi

rəislər, amillər və başqalarının fəaliyyəti haqqında məlumat toplamaq, ümumiyyətlə, yerlərdəki hakimiyyət orqanlarının fəaliyyətinə **göz qoymaq** da daxil idi. Poçt məntəqələri müdirləri yeni cari məlumat əldə etmək üçün hər yerdə **casuslar** qoyurdular. Fəal, işləyən əsl **gizli polis** əmələ gəlmişdi ki, bu da hər cür digər quruluşlardan daha da artıq, müstəbid üsuli-idarə üçün zəruri idi. Beləliklə, poçt idarəsi rəisləri və bunlara tabe olan poçt məntəqələri rəisləri vilayətlərdə siyasi polis (**şurta**) vəzifəsini icra edirdilər.

Arrandakı xəlifə canişini dəftərxanasının quruluşu və işi haqqında mənbələrin məlumatında deyilirdi ki, **məhkəmə idarəsində** girişin sağında şurta başçısı (sahib əş-şurta), solda qazı və əmir, xəzinədar oturur, bunlar mühakimə edir, hökm çıxarır və bütün ölkədən vergi alırlar. Onlar bu işə eyni vaxtda, saat doqquzda başlayır və ertəsi gün qərar çıxarırlar.

Canişinlik mərkəzindən başqa, inzibati və hərbi aparatların vilayət və mahallarda öz şöbələri var idi. Lakin ərəblər vilayətlərdə, mahallarda, şəhər və kəndlərdə olan aparatı ərəb kadrları ilə birdən-birə təmin edə bilməzdilər. Buna görə yerli məmurlar və əyanlardan istifadə olunurdu.

Ərəb dilində yazı işləri iki divanda – **xərac** və **cund** divanlarında görülürdü. Bu divanlara bilavasitə xəlifənin özü nəzarət edirdi. Azərbaycan və Arranda olan divanlara gəldikdə Azərbaycanda yazı işləri pəhləvi dilində, Arranda isə yunan dilində aparılırdı. Sasanilərə və Bizansa tabe olan bu ərazilərdə inzibati idarə aparatı əvvəlki kimi qalmış və yazılar hələ də həmin dillərdə yazılırdı. Lakin tədricən ərəb dili üstünlük təşkil etməyə başlamışdı.

Azərbaycanda və xüsusilə Arranda ərəblərin inzibati siyasətində, Xilafətin şimal sərhədlərində olan əsas şəhər və məntəqələrdə ərəb hərbi qarnizonlarının (**rəbatların**) təşkili əhəmiyyətli yer tuturdu. Həmin qarnizonları saxlamaq xərcləri Xilafətin vergi sistemindən əziyyət çəkən Azərbaycan əhalisi üzərinə düşürdü.

Hüququn əsas cəhətləri

Müsəlman hüququnun yaranması və inkişafı. Məhəmməd peyğəmbər müsəlman ərəb icmasının başçısı və islamın yayıcısı kimi bu yolda miladi tarixlə 610-cu ildən 632-ci ilə qədər fəaliyyət göstərmişdir. Peyğəmbər sağlığında müsəlman icmasını (**ümmətini**) ilahi göstərişlərə müvafiq olaraq idarə edirdi. Lakin Məhəmməd peyğəmbər vəfat etdikdən sonra məlum oldu ki, Qurandakı əmrlər bütün dövlət məsələləri ilə ictimai münasibətləri həll etmək üçün kifayət etmir. Çünki elə ictimai münasibətlər meydana çıxmışdır ki, həmin münasibətləri nə Quranda göstərilən normalarla, nə də peyğəmbərin hədisləri, göstəriş və məsləhətləri ilə həll etmək mümkün olmamışdı. Peyğəmbərin vəfatından çox keçməmiş islamın iki qolu – **sünnilik** və **şiəlik** yaranmış və sonradan həmin qolların özündə də müxtəlif məzhəblər meydana çıxmışdır. Çünki islam dünyanın bir çox yerlərinə yayıldıqdan sonra müxtəlif yeni ictimai münasibətlərin həlli zərurətinin meydana çıxması, hər bir qolun, yəni sünnilik və şiəliyin ayrı-ayrı məzhəblərə bölünməsinə, məzhəb ardıcıllarının da hüquq məsələlərinin həllində ciddi fikir ayrılıqları yaratmalarına gətirmişdir. Müxtəlif dövrlərdə həmin məzhəblərin ardıcılları və məzhəblərin özləri müxtəlif olmuş, bəzi məzhəblər yarandığı vaxtdan öz mövcudiyyətini mühafizə etsə də başqa məzhəblər zamanın sınaqlarına davam gətirə bilməmiş, müəyyən vaxtdan sonrra öz ardıcıllarını itirərək mövcudiyyətinə son qoyulmuş və ya ardıcılları tamamilə az olduğundan fəaliyyətləri çox məhdudlaşmışdı.

İslamın **sünni** (sünnə - ərəbcə "yol" deməkdir) qolu dörd əsas dini-hüquqi məzhəb üzərində formalaşmışdır ki, həmin məzhəblər də öz yaradıcılarının adı ilə **hənəfilik, malikilik, şafiilik və hənbəlilik** məzhəbləridir. Ümumiyyətlə, islamın məzhəblərə ayrılması müəyyən fikir ayrılığı yaratmışdır. Lakin qeyd etmək lazımdır ki, müxtəlif ictimai münasibətlərin, hüquqi məsələlərin həllində müsəlman hüquq məktəblərinin rolu danılmazdır.

Hənəfi sünni məzhəbinin təsisçisi Əbu Hənifə (699-767-ci illər) dini hüquq üsulu kimi Quranda və sünnədə dəqiq cavabı olmayan hü-

quq məsələlərini şəriət çərçivəsində bu mənbələrdəki digər məsələlərin həll edilməsi barəsindəki kəlamlarla qiyas (bənzətmə) yolu ilə müqayisə edib araşdırmışdır. Əbu Hənifə bununla yanaşı **rəy** (şəxsi fikir) və **istehsanı** (dini başçının fikrini) da əsas götürürdü.

Maliki məzhəbinin banisi Malik ibn-Ənasdır (715-795-ci illər). Malikilər hədislərin dəyişdirilməsini qeyri-mümkün hesab edir, onlara ciddi əməl olunmasını tələb edirlər. Onlar Quranın mücərrəd surətdə təfsir olunmasını pisləyir, hənəfilərə nisbətən hüquqi qiyas (bənzətmə) üsulunu məhdudlaşdırmağı üstün tuturlar.

Şafii məzhəbinin banisi Əbu Abdullah əş-Şafiidir (767-820-ci illər). Şafiilərin hüquq sistemi hənəfilərlə malikilərin dini-hüquq təlimləri arasında bir növ orta mövqe tutur. Əslində malikilərin təliminə daha yaxındır. Sünni məzhəbləri arasında şiəliyə yaxın olanı da məhz şafilikdir Şafii məzhəbi bənzətmə əsasında mühakimə yürütməyin, yəni qiyasın və fikir müstəqilliyinin (**şəxsi rəyin**) tətbiqini məhdudlaşdırır.

Hənbəli məzhəbinin banisi Əhməd ibn-Hənbəldir (780-855-ci illər). Hənbəli məzhəbi XIV əsrədək müsəlman aləminin ictimai həyatında əhəmiyyətli rol oynamışdır. Hənbəlilər ifrat mühafizəkardırlar, Quranı və hədisləri hər cür yozmaq cəhdlərinin əleyhinə çıxırlar. Şəriətin dini mərasim və hüquq normalarına ciddi surətdə riayət olunmasını tələb edirlər.

Müsəlmanlar bu dörd mömin sistemin banilərindən hər birini **müctəhidi mütləq,** yəni bənzətmə (qiyas) əsasında mühakimə yeritmək prinsipini və işlətdiyi başqa metodları Quran tətbiq edərək, öz şəxsi rəyini (**ictihad**) ifadə etməyə mütləq iqtidarı olan alim adlandırırlar. Bu banilər fiqhin (müsəlman hüquq sisteminin) əsas prinsiplərini müəyyən etmişdilər. Bu prinsiplərdən çıxan nəticələri (**füru**) sonralar şərh edənlər isə mütləq müctəhid olmayıb, dini məktəblərdən birinin müctəhidi sayılırlar.

İslamın ikinci böyük qolu **şiəlikdir**. Şiəlik sözü ərəbcə firqə, qrup deməkdir. Şiəlik Məhəmməd peyğəmbərin əmisi oğlu və qızının əri Əli ibn Əbu Talibin xəlifəliyə gəlməsi uğrunda gedən mübarizə nəticəsində meydana gəlmişdir.

Şiəliyin ən çox yayılmış məzhəbi **imamilikdir**. İmamilər peyğəmbər nəslindən olan 12 imama inanıb onun ardınca getməyi, qarşıya çıxan məsələləri həll edəcək normalar Quranda və ya icmada olmadığı halda müctəhidin rəyinə əsaslanmağın zəruriliyini qəbul edirdilər. İmamın (ərəbcə qabaqda gedən deməkdir) paklığını etiqad edir, **beytülmala** verilən əmlakın, vəqf mülkiyyətinin bir qismini peyğəmbər nəslindən olan seyidlərə verilməsini məqbul sayırlar.

Şiəliyin ən mürəkkəb qolu olan ismailiyyə müxtəlif təlimləri özündə birləşdirdiyi üçün ayrı-ayrı yerlərdə batinlik, məzdəkilik, qərəmətlik, təlimlik, mülhidilik və başqa adlar altında özünü göstərmişdir.

Şiəliyin zeydilik məzhəbi imaməti Əli və onun oğulları Həsən və Hüseynin üzərindən götürür. İmam həddi-büluğa çatmış, ağıllı, mömin, kəlamlı, yəni Üsul əd-Dini yaxşı bilən saleh və etibarlı şəxs olmalıdır.

Müsəlman hüququ ümumi şəkildə **şəriət** (ərəbcə su içiləcək yerə gedən yola deyilir) adlanan elmlər sistemində toplanır.

Şəriət elmləri 6 sahəyə ayrılır: 1) Elm-ət-təfsir (Quranın izah edilməsi barədə elm); 2) Elm-ül-hədis (Məhəmməd peyğəmbərin şəriət məsələlərinə dair söylədiklərini və göstərişlərini öyrənən elm); 3) elm-ül-fiqh (müsəlman hüquq elminin öyrənilməsi); 4) elm-üsul əl-fiqh (fiqhin mənbələrini öyrənən elm); 5) elm-ül-kəlam və ya üsul-əd-din (islamın nəzəri əsaslarını öyrənən elm); 6) elm-ül-fəraiz (mərhumun mirasının varisləri arasında bölüşdürülməsi qaydalarından bəhs edən elm).

Şəriəti müsəlman hüququ (fiqh) ilə eyniləşdirmək doğru deyildir. Belə ki, şəriətdə istər dünyəvi, istərsə də dini problemlər islam nöqteyi-nəzərindən şərh edilir. Burada təsərrüfat həyatının, əxlaq və etika normalarının, müsəlman mərasimləri və bayramlarının tənziminə dair qanunlar, dindarların davranışı və bütün müsəlman icmasının həyat tərzini müəyyən edən başqa müddəalar vahid sistem halında birləşmişdir. Şəriət sözü ilə hökm sözü bir növ eyniyyət təşkil edir, düzgün çıxarılmış hökmə "şəridir" deyirlər. Şəriət onun ehkamlarına uyğun olmayan halların hamısının ziddinədir, hətta hər hansı bir hal həqiqətə uyğun olsa belə, şəriət ehkamına müvafiq deyilsə, şəriət onun ziddinədir, onu təqib edir. Şəriətin hüquqdan fərqi ondadır ki,

o, mükəlləfin (yəni fəaliyyət qabiliyyəti olan şəxs) törətdiyi əməlləri mühakimə etməklə yanaşı, ona batini fikirləri üçün o biri dünyada cəza veriləcəyini müəyyən edir. Bu mühakiməni axirət günündə İlahi həyata keçirəcəkdir.

Şəriət ehkamı Allahın hökmünə bərabər tutulduğundan bizim bu gün anladığımız mənada izah edilməsinə yol verilmir, çünki insanın öz əqli və məntiqi izah qabiliyyəti cəhətdən məhdud olması dinlə təsbit olunmuşdur. Şəriətə görə mükəlləf yetkinlik yaşına çatmalı, anlaqlı olmalıdır.

Şəriət hökmləri iki böyük qrupa bölünür: **ruhani-mərasim** hökmləri və **mülki-siyasi** hökmlər. Sünnilərdə şəriət hökmlərini **ibadət** (allah qarşısında qulluq), **müamilət** (mülki hüquq məsələləri) və **üqubat** (yəni cəzalar) kimi üç qismə bölürlər. Şiələrdə isə **ibadət** (yəni ikitərəfli hüquqi münasibətlər), **itaət** (təktərəfli hüquqi münasibətlər) və **ehkam** (digər hüquqi hökmlər) kimi üç bölgü aparılır.

Müsəlman hüququ – fiqh (ərəbcə dəqiq anlayış, bilik mənasını verir) şəriətin tərkib hissəsidir. Fiqh müfəssəl mənbələri tədqiq etməklə şəriət ehkamlarının əməli köklərindən bəhs edən elm olub qanunvericilik işlərində fərziyyə və layihələr tərtib edərkən müvəffəqiyyət qazanmağa xidmət edir. Fiqh şəriətin mənbələrini tədqiq etməklə onun əməli işləri üzrə ehkamlardan bəhs edir, şəriətdən istifadə etməklə nəticə əldə etmək və hökm çıxarmağa xidmət edir. Fiqh şəriətin elmi ehkamının müfəssəl sübutlarından bəhs edən elmdir. Buna görədir ki, ilk vaxtlar fiqh sözü elm sözünə, fəqih sözü isə alim sözünə bərabər tutulmuş, sonradan alim (ülamə) sözü ancaq Quran təfsirçilərinə, fəqih sözü isə dini hüquq bilicilərinə aid edilmişdir.

Hüququn mənbələri. Şəriət və müsəlman hüququnun əsas dörd mənbəyi aşağıdakılardır: 1) **Quran**; 2) **Sünnə** (Məhəmmədin kəlamları və hərəkətləri); 3) **Qiyas** (bənzətmə); 4) **İcma** (görkəmli hüquqşünaslarının və ilahiyyatçıların müştərək rəyi). **Fitva** (ali ruhani şəxslərin yuridik qərarları), **Adətlər** (ürf - ərəblərin və islama etiqad bəsləyən başqa xalqların adət və ənənələri) və **Qanun** (əmr edilən doğru yol) müsəlman hüququnun inkişafında müəyyən əhəmiyyət kəsb etmişdir.

İslam ənənələrinə görə şəriətin əsas mənbələri Quran və sünnədir. Bütün digər mənbələr bunlara zidd olmamalıdır. Şəriətə əsasən müsəlman hüququnun xristian (kanon) hüququndan və digər qanunvericilik sistemlərindən fərqləndirən prinsipial cəhəti ondan ibarətdir ki, bu hüquq sistemləri uzun əsrlər boyu qüvvədə olsa da, onlarla yanaşı mövcud olmuş dünyəvi hüquq normalarını heç vaxt bütünlüklə əvəz etməmişlər. Halbuki müsəlman dünyası, o cümlədən Azərbaycan islam dini yaranandan XIX əsrin axırlarınadək müsəlman hüququndan başqa heç bir digər qanunvericilik sistemi tanımamışdır.

Bütün islam dininin və hüququnun nəzəri əsası və mənbəyi "Quran"dır. Quran ərəbcə "qərəə" sözündən - "oxumaq" və ya bir çox hallarda "ucadan ibarə ilə oxumaq" mənasına gələn söz kökündən əmələ gəlmişdir. Quran 114 fəslə və ya ərəbcə surəyə bölünür. Quranın ayələrinin sayı 6211-ə bərabərdir. Quranda surələrin əksəriyyəti insanları Allahın varlığına və təkliyinə inandırmağa xidmət edir. Məhəmməd peyğəmbərin şəxsi ailə məsələləri, özünün rəhbərlik etdiyi islam cəmiyyətinin və bütün müsəlmanlar arasında meydana çıxan mübahisəli ictimai münasibətləri həll etmək üçün yaradılmış normalar Quranda toplanmışdır. Quran təfsirçilər tərəfindən sözbəsöz şərh edilmişdir. Quranın əsasən 2, 4 və 5-ci surələrində hüquqi normalar geniş verilmiş, digər surələrdə hüquqa dair normalar çox azdır.

Sünnə Quranda təsadüf edilən "əcdadın sünnəsi" və "Allahın sünnəsi" ifadələri, dinsiz olduqları üçün cəzalandırılmış xalqlara qarşı allahın rəftarı mənasındadır. Lakin Qurandan kənarda "sünnə" sözü Məhəmmədin hərəkət və əməlləri, həmçinin onun dedikləri mənasında işlədilir. Sünnələri Məhəmmədin əshabələri yayırdılar, çünki müvafiq bir təsadüf düşəndə onlar Məhəmmədin necə hərəkət etdiyini, nələr dediyini və hətta bir şey deməyib susduğunu xatırlayıb deyirdilər və bunların hamısı müəyyən şəraitdə bir nümunə vəzifəsini görə bilirdi. Beləliklə, sünnə "allahın kəlamını" tamamlamaq vəzifəsini çox tez görməli oldu və istər ona uyğun olsun, istər onu təfsir etsin, istərsə də yeni hökmlər tətbiq etsin – bu fəqrlərdən asılı olmadan həmin vəzifəsini gördü.

Fiqhdə **qiyas** (bənzətmə) üsulundan da istifadə olunurdu. Şafiilər rəy və qiyasın hər ikisinə müəyyən miqdarda əhəmiyyət verirdilər.

Lakin əsas olaraq Quran və sünnə mənbə hesab edilirdi. İcma isə yalnız o zaman mənbə olur ki, onun tətbiqi narazılığa, ixtilafa səbəb olmasın. İxtilaf olarsa, Qurana yaxın olan hal qəbul edilir, yəni Qiyasa müraciət edilir.

Hüququn mənbəyi kimi icma fəqihlərin ümumi razılığa gələrək qəbul etdiyi qərar, normalardır. İcma hələ məzhəblər yaranmamışdan müsəlman üləma və füqəhasın gəldiyi rəyə görə təsbit edilmiş qaydaların toplusudur. İlk dövrlərdə yalnız Mədinə şəhəri alimlərinin ümumi rəyi ilə müəyyən olunan normalar mənbə hesab edilsə də, sonralar digər müsəlman ölkəsi və şəhərləri alimlərinin ümumi razılığı da "İcma" hesab edilmişdir. İcma qanunları füru əlfiqhə (konkret hüquq institutlarına) dair yazılmış əsərlərdə toplanırdı.

Fitva vermək islam dinində ən çətin peşə hesab olunmuşdur. Fitva verməyə ixtiyarı olan fəqihlərə **müfti** adı verilirdi. Müfti olan hər bir kəs ilk növbədə müftilikdən imtina etməli, fitva verməyi boynuna götürməməlidir, çünki kifayət qədər biliyi olmayan şəxs fitva verə bilməz. Fitva verən bütün xalqı bərabər tutmalı, hökmdar belə, tələb etsə, fitvanı dəyişdirməməlidir. Müfti yalnız qanun naminə fitva verməli, səhv tapmaq, lağlağaçılıq etmək niyyəti ilə sual verənlərə cavab verməməli, daha az biliyə malik olan üləmaları sıxışdırmamalı, onları imtahana çəkməməlidir, çünki bu cür əməllər haram sayılır. Müfti fitva verəndə iki mənalı sözlər işlətməməli, qarşısında deyilən sözləri dəqiq araşdırdıqdan sonra fitva verməlidir.

Müsəlman hüququnun mənbələrindən biri olan **ilahi qanun** (hüquq) sonralar fəqihlər tərəfindən inkişaf etdirilib tamamlanmışdır. Bu qanun insanın göstərdiyi fəaliyyətin xarici təzahürlərinə aiddir. İnsanların hərəkət və əməlləri həm dini, həm də mülki sahədə beş kateqoriyaya (ehkama) bölünmüşdür. Dini sahədə: 1) vəzifə (namaz, həcc); 2) məsləhət görülən (məndub) hərəkətlər; 3) icazə verilən (mübah) hərəkətlər; 4) namünasib (məkruh) olsa da, cəza verilməyən hərəkətlər; 5) qadağan (haram) hərəkətlərə görə cəza verilir. Mülki sahədə isə: 1) düzgün (səhih) hərəkətlər; 2) düzgün olmayan (batil) çürük hərəkətlər; 3) icazə verilən (caiz) hərəkətlər; 4) təsirli (yəni nüfuz edən) hərəkətlər; 5) rabitəli (lazım) hərəkətlər. Hal-hazırda yalnız fiqh məcmuələri qanun hökmündədir.

Adətlər (ürf) islamın ilk dövrlərində islam ehkamına zidd olmadıqca istifadə edilmiş və hüquq mənbəyi kimi qəbul edilmişdir. Xüsusən, Mədinə şəhərinin adət hüququndan ilk dövrlərdə geniş istifadə edilmişdir. Lakin sonralar adətlərin islama müvafiq gələnləri sünnələrlə, hədislərlə əhatə etdirilərək hüququn mənbəyi olmuşdur.

Mülkiyyət hüququ. Müsəlman hüququ torpaq üzərində mülkiyyət formalarına və ya onun əldə edilmə üsullarına dair geniş olmayan müddəalar həsr etmişdir. Hüquq yalnız sahibsiz və istifadəsiz torpaqları əldə etməyin xüsusiyyətlərini və qaydalarını normalaşdırır. Torpaq üzərində mülkiyyətin əldə edilməsi formaları müsəlman hüququnun obyektinə o zaman çevrilir ki, o, qanunla nəzərdə tutulan hər hansı bir ictimai münasibətin yaranması, dəyişməsi və ya xitam edilməsinə səbəb olsun və bundan sonra mülki hüququn obyekti olsun.

Müsəlman hüquqşünasları torpaq üzərində mülkiyyəti özlərindən əvvəl mövcud olmuş şəkildə qəbul edir və dəyişildiyi zaman hüququn tənzim obyektinə çevirir. Başqa halda mülkiyyət müsəlman hüququnun tənzim obyekti deyildir. Yeni torpaqlar işğal edildiyi zaman belə torpağın mülkiyyətçisi aradan çıxmış olarsa, həmin torpağa yeni sahibkarlıqdan söhbət gedə bilər.

Azərbaycanda istifadəsiz, bataqlıqlar altında qalmış, şoranlaşmış torpaqlar mülkiyyətin heç bir kateqoriyasına daxil deyildi. Müəyyən əmək sərf olunduğu halda "ölü torpaq"lardan istifadə etmək mümkün idi. Ölü torpaqlar iki yerə bölünürdü: birincisi uzun müddət istifadə olunduqdan sonra sahibinin köçməsi və ya müharibələr nəticəsində əhalinin qırılması ilə boş qalan, lakin suvarma sistemi, yolu və başqa əkinçilik imkanları mövcud olan istifadəyə yararlı torpaqlardır. İkincisi isə heç zaman istifadə olunmamış, təsərrüfatçılıq imkanları son dərəcə məhdud olan, böyük əmək və sərmayə qoyuluşu tələb edən torpaqlardır.

Fiqhə görə ölü torpaqlara yiyələnmək üçün dini rəhbərin razılığı olmalı idi. Lakin torpaq üzərində mülkiyyət hüququ tədricən dövlətə keçmiş, dövlətin torpaq idarəçiliyinə baxan orqanları olmuşdur. Xilafətdəki torpaqlar beş əsas kateqoriyaya bölünürdü: 1) Sultan (xəlifə) mülkləri (diya əssultaniyyə); 2) iqta torpaqları; 3) mülk torpaqları; 4) vəqf torpaqları; 5) icma torpaqları.

Sultan torpaqları Əməvilərdən Abbasilərə keçmişdi. Bu torpaqlar alqı yolu ilə, ya da ölənin, yaxud vəzifədən kənar edilən məmurların mülklərini müsadirə etmək yolu ilə tədricən artırdı. Sultan torpaqları çox geniş idi və böyük gəlir verirdi. Bu torpaqları idarə etmək üçün bir neçə divan yaradılmışdı.

İqta torpaqları. Yararlı torpaqların əksəriyyəti bu kateqoriyaya daxil idi. Xəlifə (sultan) belə torpaqları müəyyən şəxslərə verir və həmin torpaq üzərində nəzarəti ona tapşırırdı, yəni torpaq iqta sahibinin mülkü olurdu. Lakin torpaq sahibliyi hüququna həmişə riayət edilmirdi və iqta geri alınıb yenidən xüsusi divana verilə bilərdi. Formal olaraq xəlifə təkcə xassə torpaqlarından iqta bağışlaya bilməzdi, lakin çox vaxt buna riayət edilmirdi. İqta sahibləri hərbi mükəlləfiyyət daşımırdılar, lakin bunun əvəzinə vergi verirdilər. Onlar öz torpaqlarında olan kanal, yol və körpüləri təmir etməyi öhdələrinə götürmüşdülər. İqta torpaqları nəzəri cəhətdən iki kateqoriyaya bölünürdü ki, bu da iqta torpağına hansı hüquqa görə sahib olmaqdan asılı idi.

Bağışlanan iqta şəxsin tam sahibliyinə çevrilirdi və irs olaraq keçirdi. Bu iqta sahibi üşr verirdi. Bu növ iqta, adətən, becərilməyən torpaqlardan, ya da sahibi ölmüş və vərəsəsi olmayan torpaqlardan verilirdi.

İcarə edilən iqta (icarə) irsən keçmirdi. Adətən hərbçilərə verilirdi. Xərac torpaqları da bu kateqoriyaya daxil idi. Şəxsin cəmiyyətdəki mövqeyindən asılı olaraq ona verilən iqtaların aşağıdakı növləri mövcud idi: 1) mülki (şəxsi) iqta; 2) xüsusi (xassə) iqta; 3) hərbi iqta; 4) xəlifə iqtası.

Mülki iqta çox geniş yayılmışdı və məmurların tutduqları vəzifələrdən asılı olaraq verilirdi. Yüksək vəzifələrə təyin olunduqdan sonra məmura iqta verilirdi, lakin o, vəzifədən çıxarıldıqda iqta ondan geri alınır və onun yerinə keçən şəxsə verilirdi.

Xüsusi iqta şairlərdən başqa, xüsusi bir xidməti və ya xüsusi istedadı olan şəxslərə verilirdi. Onun sahibləri torpağın tam sahibi olub, onu irs olaraq verə bilərdi. Abbasilər xilafətində bütöv vilayətlərin bağışlandığı müşahidə olunmuşdu. **Babək üsyanı** darmadağın edildikdən sonra xəlifə Mötəsim belə bir iqta adı ilə Azərbaycan, Arran və Ermənistanı **Afşinə** vermişdi. Digər belə bir iqta, Bab əl-Əb-

vab (Dərbənd) şəhəri və ətraf vilayətləri ilə birlikdə iqta kimi Yəzid ibn Məzyədə verilmişdi. Həmçinin Gəncə şəhərində "Xaldiyyə" adlanan məşhur malikanələr də ona bəxş edilmişdir. **Herik** (dinc) saxlanan torpaq bu növ iqtaya daxil idi. Torpaq sahibi onu becərmək üçün kəndlilərə icarəyə verir, onları toxum, kənd təsərrüfatı alətləri və suvarma vasitələri ilə təchiz edirdi. Şəxsən özü hər il xəzinəyə müəyyən məbləğ pul verirdi, əvəzində isə torpağa nəzarət etmək və onu irs olaraq vermək hüququna malik idi. Belə iqta sahibləri başqa vergilərdən azad idilər.

Hərbi iqta başqa torpaq növləri – xassə iqta, xəlifə malikanələri və xəzinə torpaqları hesabına verilirdi. Qoşuna vəqf torpaqlarından iqta verilirdi. Hərbi iqta irsən də həmişəlik verilmirdi, bu iqta sahibinin mülkiyyəti deyildi. Hüquqşünas Əbu Yusif iqtanı satın alına bilən, satıla bilən və irs olaraq verilən bir əmlak kimi başa düşürdü. İqta torpağını irs olaraq və ya pul ilə əldə etmiş olan şəxsdən onu geri almağa heç kəsin ixtiyarı yox idi.

Mülk torpaqları. Torpaq üzərində müxtəlif növ ayrıca sahiblik var idi. Onlardan biri müxtəlif şəxslərə və icmalara bağışlanan xəlifə iqtası idi. İşğal altında olan torpaqların canlanması, mərkəzi hökumətin həvəsləndirməsi və köməyi ilə bataqlıqların qurudulması və bu torpaqların əkilməsi həmin torpaq sahiblərinə tam sahiblik hüququ verirdi. Mülk torpaqlarının mənbələrindən biri də məhz belə torpaqlar idi. Həmin kateqoriyadan olan torpaqların digər mənbəyi dövlət torpaqlarının satın alınması idi. Məmurlar və vəsaiti olan digər şəxslər özləri üçün xəlifə mülklərini (dövlət torpaqlarını) əldə edir və torpaqların daimi sahibi olaraq ondan nisbətən sabit gəlir götürürdülər. Həmin kateqoriyadan olan torpaqların sahibləri əlavə vergi verməli və öz torpaqlarından keçən kanalları bərpa etmək xərcini öz üzərinə götürməli idilər. Mülkiyyətçinin sahibliyində olan daimi mülk torpaqları da mövcud idi. Mülk torpaqlarını alıb-satmaq, özgəninkiləşdirmək və irs olaraq vermək olardı. Bu torpaqların sahibi hərbi xidmətdən azad edilirdi.

Vəqf torpaqları. Torpaq mülkiyyətinin əsas növlərindən biridir. Vəqf torpaqlar dedikdə dini təsisatlara təhkim edilən torpaq mülklə-

ri nəzərdə tutulur. Bu torpaqlar müqəddəs yerlər (Məkkə və Mədinə) üçün, qazilər ("din uğrunda mübarizlər"), məscid və qalalar tikmək və başqa ehtiyaclar üçün ayrılırdı. Bu torpaqlar içərisində zorla tutulanlar, yəni əvvəlki sahiblərindən müsadirə edilən, habelə dinc yolla əldə edilmiş torpaqlar da var idi.

Sülh müqaviləsi əsasında əldə edilən vilayətlərdən, habelə silah gücünə tutulanlardan əhali üçün saxlanılan torpaqlar nə desyatin, nə də xərac alınan torpaqlara məxsus deyildi. Bunlar dövlət torpaqları (**ərzi malikiyyə**), ya da xəzinə torpaqları (ərzi əmiriyyə) adlanır və əhalinin mülkiyyətinə verilməyərək, **beyt ül-mal** (xəzinə) üçün saxlanılmış, sonra qanunsuz icarə yolu ilə icarəyə verilmişdir ki, torpaq sahibləri bunları becərib xərac (müqasimə) versinlər. Bu kimi torpaqlar onların sahibinin mülkiyyətini təşkil etmir: onlar nə bu torpaqları sata bilər, nə ala bilər, nə bağışlaya bilər, nə də vəqf edə bilərlər, yalnız bircə sultan (xəlifə) torpaq sahibinə mülkiyyət hüququ verə bilər. Torpaq sahiblərindən biri öləndə onun oğlu atasının yerini tutur və torpaqdan istifadə edir, əks təqdirdə həmin torpaq beyt ülmala qaytarılırdı. Vergi verilən torpaqdan istifadə edən şəxs onu üç il və ya daha artıq müddətdə becərməzsə, torpaq ondan alınıb başqasına verilir. Torpaq sahibi öz torpağını başqasına vermək istəsə, bu arzusunu yalnız sultanın icazəsi ilə edə bilərdi.

İcma torpaqları. Kəndlərdə əhaliyə məxsus torpaqlar, otlaqlar, biçənəklər, çəmənliklər, örüşlər, meşələr, suvarma arxları, qəbiristanlıq və i.a. icma torpaqları idi. İcmanın hər bir üzvünün bu torpaqlar üzərində ümumi mülkiyyət hüququ var idi.

Öhdəlik hüququ. Müsəlman hüququnda hüququn sahələrə bölünməsi olmadığından öhdəlik hüququ da özünün institutları ilə fiqhə daxil edilmiş və ayrıca normalaşdırılmışdır. Fiqhdə müqavilələrdən və deliktlərdən törəyən öhdəliklərlə yanaşı, mükəlləfin Allah qarşısında da öhdəçiliklərini tənzim edən normalar olmuş və onlar aşağıdakı beş hüquq institutunda toplanmışdır: təharət (təmizlik), namaz qılma, oruc tutma, zəkat vermə, həccə getmə.

Müsəlman hüququnda ticarət **alqı-satqı** müqaviləsi kimi yox, daha çox geniş ictimai hadisə kimi təqdim olunur. Bu da onunla izah

edilir ki, Məhəmməd peyğəmbərin hələ cavan yaşlarından ticarət etməsi, Quranın özündə belə ticarətdən gələn gəlirdən, onun bölgüsündən dəfələrlə söhbət açılması bu sahəyə nə qədər ciddi fikir verilməsini sübut edir.

Ticarətdə satılan əmlak hər şey ola bilər, quldan başlamış ən kiçik əşyalara qədər hər şey alqı-satqı müqaviləsinin obyektidir. Lakin şəriət ticarət sövdələşmələrini 6 halda qadağan (haram) hesab edir. Bunlar aşağıdakılardır: 1) "haram" malların (şəriət buraya donuz ətini, alkoqollu içkiləri və başqa məhsulları aid edir) alqı-satqısı; 2) qəsb edilmiş malların alqı-satqısı; 3) satıcının özünə məxsus olmayan əmlakın alqı-satqısı; 4) qadağan edilmiş ehtiraslı oyunlarla (məsələn, qumarla) bağlı ticarət mübadiləsi; 5) sələmçiliklə (riba ilə) əlaqəsi olan ticarət sövdələşmələri; 6) bir-birindən ayrılması mümkün olmayan "qarışıq malların" (məsələn, başqa piylərlə qarışdırılmış yağlar) satılması.

Çirkli əşyaları satmaq da qadağandır. Məsələn, əgər yağ palçığa bulaşmışdırsa və onu təmizləmək mümkün deyildirsə, həmin yağın yemək üçün satılmasını şəriət qadağan (haram sayır) edir. Lakin bu yağ yanacaq kimi satıla bilər. Malın "qarışığı" olduğunu satıcı bütün hallarda alıcıya bildirməlidir. Əgər müştərisi çox olan dərmanlar və ya ətriyyat məmulatları qeyri-müsəlman ölkələrindən gətirilmişdirsə və onların hazırlanması zamanı şəriət nöqteyi-nəzərindən "murdar" əşyalardan istifadə edilib-edilmədiyi məlum deyildirsə, belə məmulatların alqı-satqısı mümkündür. Lakin "kafirlər" ölkəsində və ya hər hansı bir "kafirlərdən" satın alınmış heyvan yağı və piyi ilə ticarət etmək qadağandır (haramdır). Belə yağın və piyin alqı-satqısına yalnız o halda yol verilir ki, qeyri-müsəlman ölkələrindən və ya "kafirlərdən" alınmış yağ və piy şəriət qaydaları ilə kəsilmiş heyvanın yağı, piyi olsun. Əgər tülkü şəriət qaydaları ilə öldürülmüşdürsə, yaxud özü ölmüşdürsə, onun dərisini alıb-satmaq qadağandır. Alkoqollu içkilərin alqı-satqısı da qadağandır. Qəsbkarlıq yolu ilə ələ keçirilmiş əşyaların da satılması haramdır. Məsələn, başqasından zorla alınmış əşyanı satan adam satış pulunu əşyanın əsl sahibinə qaytarmalıdır. Çalğı alətlərinin (hətta uşaqlar üçün nəzərdə tutulan alətlərin) alqı-satqısı qadağandır.

Qadağan edilmiş ticarət sövdələşmələri **"batil"** (etibarsız sayılır) adlandırılır. Heykəllərin və abidələrin alqı-satqısı da batildir. Üzərində canlı varlıqların təsvirləri olan məmulatların (məsələn, sabunun) alqı-satqısına icazə verilir və belə hesab olunur ki, həmin məmulatlar işlədilərkən bu təsvirlər silinib yox olacaqdır.

Qumarda udulmuş və ya başqasından oğurlanmış əşyanın alqı-satqısı qadağandır, əgər belə əşyanı alan olmuşdursa, o, həmin əşyanı əsl sahibinə qaytarmalıdır.

Sələm faizi (**riba**) almaq, eləcə də qəlp qızıl satmaq ciddi surətdə qadağan edilir. Bundan bəhs edən hədisdə deyilir ki, sələmçiliklə məşğul olmaq və faiz almaq zinakarlıqdan yetmiş qat artıq günahdır.

Şəriət əmtəə mübadiləsinə bu şərtlə yol verir ki, bu zaman sələmçilik mövcud olmasın. İslam dininin müdafiəsi altında olmayan kafirdən borc faizi almaq olar. Səciyyəvi haldır ki, şəriət valideynlərlə övladlar arasında borc faizi almağa yol verir. Bu hüquqi hiylə əslində tətbiq edilmir, bundan, adətən, valideynlər öz övladlarını ticarət işlərinə cəlb etmək məqsədilə istifadə edirlər. Nəticə etibarilə uşaqlardan alınan borc faizi ailənin daxilində bir cibdən başqa cibə keçir.

Fiqhə görə ticarət müqaviləsi əsasən real müqavilədir və razılaşdırılmış mal alqı-satqısı yerində həyata keçirilməlidir. Bəzən **konsensual** müqavilə də bağlanılmasına icazə verilirdi. Müqavilələr əsasən şifahi və şahidlərin iştirakı ilə bağlanılırdı.

Satıcı malın dəyəri ilə razılaşdığını formal hərəkətlə "razıyam", "halallaşdıq" və s. sözlərlə, alıcı isə "qəbul etdim", "mən bu malı aldım" sözlərini deməklə və yaxud da susmaqla malı bəyəndiyini bildirməlidir. Satıcı malın qüsurlarını bildirməli idi. Əks halda alıcı aldadıldığına görə malı geri qaytara bilərdi. Malın geri qaytarılması vaxtını tərəflərin müəyyən etməsindən asılı olaraq mal dərhal və yaxud sonra qaytarıla bilər. Alıcı qüsuru olan malı geri qaytarmaqdan başqa dəymiş zərərin ödənilməsini, malın eyni növ dəyərə malik başqası ilə dəyişdirilməsinə qüsurların aradan qaldırılmasını və yaxud da dəyərin müvafiq miqdarda aşağı salınıb artıq verilmiş hissəsinin geri qaytarılmasını tələb edə bilərdi. Satıcı bu şərtlərdən birini qəbul etməyə borcludur.

Şərikli əmlakın satılması və alınması üçün şəriklərin hamısı, ya bilavasitə özü və yaxud da nümayəndələri vasitəsilə iştirak etməli, müqavilə şərtləri ilə tanış olub rəyini bildirməlidir. Şərikli mal yalnız bütün şəriklərin razılığı olduqda satıla bilər.

Fiqhdə **icarə** müqaviləsi mühüm yer tutur. İcarə müqaviləsində obyekt mülkiyyətçinin idarəçiliyində olduğundan icarəçi sahibkar kimi çıxış edə və ya özünü göstərə bilməz. İcarə müqaviləsinin xarakterik cəhəti daim işlətməklə bağlıdır. İcarəyə götürülən obyekt ya işlədilir, ya da üzərində iş görülür. İcarəyə götürmüş şəxs ya özü, ya da onun sərəncamında olan başqa şəxslər icarə obyektini işlədir, yaxud da üzərində işləyir. Məsələn, qoşqu heyvanını, atı, dəvəni, torpaq sahəsini və s. ancaq icarəyə götürmək olar.

Kirayə müqaviləsi konsensual müqavilədir. Malın və pulun təqdim edilməsi tərəflərin razılaşdığı vaxtda və şərtlərlə həyata keçirilir. Müqavilə bağlayan tərəflər bir-birinə kələk gəlməməli, özlərinə məxsus olmayan və yaxud da müqavilə bağlanan zaman öz idarəçiliyində, sərəncamında olmayan mal və ya pulun verilməsi barədə müqavilə bağlamamalıdır.

Kirayə verilən malın bütün zəruri göstəriciləri bəlli olmalıdır. Kirayə verən şəxs müqavilə obyektinin zahirən görünməyən, gizli keyfiyyətlərini, xüsusiyyətlərini, lazım gələrsə, istifadə edilmə xüsusiyyətlərini qarşı tərəfə bildirməlidir. Əks təqdirdə, gələcəkdə baş verə bilən bədbəxt hadisələr, dəymiş ziyanlar üçün məsuliyyət daşıyır.

Müqavilə bağlandıqdan sonra kirayə verən şəxs malı eyni növ və ya keyfiyyətdə olan başqa mal ilə dəyişdirməyə haqlı deyildir.

Kirayə götürülmüş əmlakın kirayəyə götürən tərəfindən kirayə verilməsinə yol verilmir. Müstəsna hallarda malın sahibinin razılığı ilə kirayəyə verilə bilər, bu da yeni kirayə müqaviləsi bağlanılması deməkdir. Xüsusi qulluğa ehtiyacı olan malın, heyvanın, quşun kirayəyə verilməsinə yol verilmir. Haram hesab olunan şeylər, istifadə edilməsi faydasız olan mal və ya vəsait kirayə müqaviləsinin obyekti ola bilməz.

Müqavilə bağlanması formal sözlərin, "kirayə üçün filan malı verdim, keyfiyyətləri də filandır" deməsi, kirayəyə götürənin isə malı qəbul etməsi, müqavilə ilə nəzərdə tutulan məbləği ödəyəcəyini iq-

rar etməsindədir. Kirayə müqaviləsi aşağıdakı hallarda xitam edilir: 1) tərəflərin razılığı ilə; 2) kirayəyə götürülmüş əmlak təyinatı üzrə istifadə olunmursa; 3) malın və ya əşyanın vəziyyəti qəsdən və yaxud ehtiyatsızlıq üzündən pisləmib xarab edilərsə; 4) kirayə haqqı vaxtlı-vaxtında ödənilmirsə; 5) müqavilə ilə mal və ya əşyanın təmiri kirayə götürənin üzərinə qoyulduğu halda zəruri təmir işləri aparılmırsa; 6) kirayə verən malın və ya əşyanın təmirini aparmır, işlək hala gətirmirsə; 7) mal və yaxud əşya kirayə götürəndən asılı olmayan səbəbdən sıradan çıxarsa, yararsız hala düşərsə.

Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda tərəflər dəymiş zərəri və yaxud ödənmiş kirayə haqqının artıq hissəsini qarşı tərəfə qaytarmalıdır.

Borc vermə müsəlmanın ən yaxşı əməllərindən sayılır. Borc vermək nəcib iş sayılır və həm şəriət, həm də fiqhdə təqdir edilir. Bu barədə Quranda və hədislərdə çoxlu göstəriş vardır. Hədislərin birində deyilir: "Kim öz müsəlman qardaşına borc versə, öz sərvətini daha da artıraraq, mələklərin mərhəmətini qazanacaqdır. Öz müsəlman qardaşına borc verməkdən imtina edənlərin cənnətə getməsi qadağandır" (108, surə 2281).

Borc müqaviləsi yazılı və şifahi ola bilər, onun müddəti tərəflərin razılığı ilə müqavilə bağlanan zaman şərtləndirilir. Borc alan borcunu harada xərcləyəcəyini müqavilədə göstərməli deyildir, lakin başqasına olan borcu ödəmək üçün borc almağa yol verilir.

Şəriətin borc verilməsini təqdir etməsinin sosial və psixoloji məqsədi vardır. Burada sinfi barışıq ruhunda varlılarla yoxsullar arasında "mehriban" münasibətlər yaratmağa cəhd göstərilir.

Borcun qaytarılma vaxtı və borc verilən pulun miqdarı dəqiq göstərilməlidir. Məsələn, pulun qaytarılması üçün vaxt qoyulmuşdursa, borc alan onu vaxtında qaytarmalıdır, lakin borc verən vaxt tamam olmamış borcun qaytarılmasını tələb etməməlidir. Heç bir səbəb olmadan borcun qaytarılmasını ləngitmək şəriətə görə "günahdır", lakin əgər borclunun yaşadığı evdən və zəruri ev əşyalarından savayı heç nəyi yoxdursa, borc verən məbləği tələb etməli və onun qaytarılmasını səbrlə gözləməlidir. Əgər borc alan borcunu qaytarmaq iq-

tidarında deyildirsə, lakin işləmək imkanı vardırsa, borcunu əməyi ilə ödəməlidir. Şəriətin bu qanunu orta əsrlərdə olduğu kimi indi də varlılara borcluların əməyindən istifadə etmək imkanı verir.

Əgər borclu ona borc vermiş adamı itirmişdirsə, şəriət borcun mənimsənilməsinə icazə verir, lakin göstərir ki, həmin məbləğ yoxsullara paylanmalıdır. Əgər şəxs müəyyən borc məbləğini qızıl və ya gümüşlə borc almışdırsa, bundan sonra onların qiyməti qalxmış və ya düşmüşdürsə, qaytarılmalı olan məbləğ tərəflər arasında razılaşdırılır.

Verilmiş borcun məbləği üçün **müamilə** (faiz) alınmasının qəti surətdə qadağan olunması da feodal-patriarxal xarakterli bəsit iqtisadi əlaqələrin şəriətdə inikası ilə izah olunmalıdır. Əgər borc verən onu artıqlaması ilə geri alacağı (məsələn, 10 ədəd qoyun əvəzinə 11 ədəd qoyun, 1 pud buğda əvəzinə 1 pud 2 kiloqram buğda) barədə şərt qoyularsa, bu müamilə (faiz, riba) hesab olunur və qadağan edilməlidir, çünki haramdır.

Şəriət qanunlarına görə müamilə almaq qəti qadağandır, lakin borc alanın borc verənə hər hansı formada hörmət edə biləcəyi istisna edilmir. Məsələn, sələmçi və ya borc verən borc alanın evinə qonaq çağırıla bilər. Şəriət belə hərəkətləri təqdir edir (müstəhib). Lakin şəriət normaları içazə verilən (halalın) müamilə ilə qarışdırılmasını qadağan edir. Əgər borc verən borcun əvəzində aldığı mükafatı öz ehtiyaclarına sərf edirsə, bu faiz əlavəsi kimi qiymətləndirilir və qadağan edilir (haram sayılır). Məsələn, şəriət mükafat kimi verilən pul ilə paltar almağı və xüsusən də həmin paltarda namaz qılmağı qadağan edir.

Fiqhdə müqavilələrin təmin edilməsində **girov, zaminlik, vəkalətdən** vasitə kimi istifadə olunur. Quranda verilmiş borcun müqabilində girov tələb etməyə və saxlamağa icazə verilir. Tərəflər borca dair müqavilələrdən əlavə girova dair **müqavilələr** də bağlamalıdırlar. Girov qoyulan əmlak borcu təmin edəcək həddə olmalıdır, buna görə hər bir halda borc verən girovu bəyənməli, şərtləri qəbul etməlidir. Borcu təmin edə bilməyəcək, dəyəri borcdan çox aşağı olan hər hansı şeyin girov qoyulmasından söhbət gedə bilməz.

Haram hesab olunan mallar istisna olmaqla, bütün mübadilə dəyəri olan şeylər **girov** qoyula bilər. Girov qoyulan şeydən istifadə edil-

məsi, xarab edilməsi girovun şərtlərinin pozulması deməkdir ki, buna görə girov qoyan müvafiq miqdarda ödəniş tələb edə bilər. Girov qoyulmuş əşya girov saxlayanın təqsiri üzündən məhv olarsa, borc həmin əşyanın dəyərindən çıxıla, qalan hissə isə qaytarıla bilər, əks halda, yəni girov qoyulmuş əşya girov saxlayanın təqsiri olmadan məhv olarsa, borclu kreditora olan borcunu qaytarmalıdır.

Girov qoyulan şeyin keyfiyyəti və əlamətləri, cinsi şahidlərin iştirakı ilə qeyd edilməlidir ki, sonradan borc ödənilmədikdə girov qoyulan şey satılarsa, dəyişdirilməsi mümkün olmasın, həqiqi dəyəri bilinsin. Əgər qul girov qoyulmuşdursa, borc qaytarılmadığı halda girov saxlayan borcun əvəzinə qulu oğulluğa götürə və yaxud azad edə bilər, kəniz ilə evlənə və ya şəriət qaydalarına əməl etməklə onu başqasına ərə verə bilər.

Girov qoyan və ya girov götürən ölərsə, onun hüququ və vəzifələri müvafiq həcmdə hüquqi varislərinə keçir, varislər öhdəçilikləri icra etmək istəməsələr, bunu qarşı tərəfə bildirməlidir. Girov qoyulmuş əmlakın təsadüfi tələf olması riski malın sahibi üzərindədir, mübahisə doğurduğu halda tərəflərdən hər hansı birinin iddiası ilə qazı məsələni həll edir. Girov saxlayan həm də varis olarsa, girov qoyulmuş əmlakın borca müvafiq hissəsi varisə verilir, qalan hissəsi isə ümumi vərəsəlik qaydalarına uyğun şəkildə həll edilir.

Müsəlman hüququnda öhdəliklərin icrasını təmin etməyin üsullarından biri də **zaminlik** hesab olunur. Zəmanət müqaviləsinə görə bir şəxs (zamin) kreditor qarşısında başqa bir şəxsin (borc alanın) borcunu ödəməyəcəyi təqdirdə onun əvəzinə maddi məsuliyyət daşıyacağını öhdəsinə götürməlidir.

Əgər zamin olmaq istəyən varsa, o, borc verənə bildirir ki, borc alanın əvəzinə borcu qaytarmaq məsuliyyətini öz üzərinə götürməyə hazırdır. Borcverən razıdırsa, borclunun razılığı tələb edilmir. Müsəlman Şərqinin hüquq təcrübəsində olan belə qaydalar qərb hüquqşünaslığı sistemində yoxdur. Səciyyəvi haldır ki, zamin olmaq və borclunu verəcəyi borclardan xilas etmək niyyətinə düşmüş şəxs şəriətdən asılı olaraq bu barədə borclunu xəbərdar edə, yaxud etməyə də bilər. Bir qayda olaraq, borclu onu bu borclardan kimin xilas etdiyini bilir, lakin ola bilsin ki, ömrünün axırınadək həmin şəxsi tanımasın. Bu məsələ təcrübədə aşağıdakı kimi həyata keçirilir.

Bir nəfər varlı eşidir ki, tanıdığı adamlardan biri borclarını verib qurtara bilmir. Borclunu utandırmamaq üçün həmin varlı borc verənlə razılaşıb borclunun verəcəyi məbləği ödəyir. Yoxsullara sədəqə verməyin humanist hisslərlə bağlı olan belə forması əksər hallarda müsəlman mərhəməti adı ilə yoxsulların əsarət altına alınması məqsədilə istifadə edilir.

Əgər zamin olan adam borc verənə sadəcə olaraq bildirərsə ki, borclu borcu qaytarmazsa, onun əvəzinə borcu ödəyəcəkdir, bu zaminlik etibarsız sayılır. Şəxs zaminliyi yalnız o şərtlə öz üzərinə götürə bilər ki, borc verən, borclu, borcun növü və məbləği dəqiq və konkret müəyyən edilmiş olsun. Əgər borc verən alacağı borcu zaminə bağışlayırsa, borcludan verəcəyi məbləği tələb etməyə ixtiyarı yoxdur. Əgər şəxs borclunun icazəsi olmadan onun borclarını ödəyirsə, belə şəxsin borcludan heç nə tələb etmək ixtiyarı yoxdur.

Şəriətdə işlədilən **"kəfalət"** termini o deməkdir ki, zamin borc verənin borcunu onun tələbi ilə istənilən vaxt qaytaracağına təminat verir. Zaminlik haqqında öhdəlik götürən şəxs "kəfil" adlanır.

Beş halda kəfalət ləğv edilmiş hesab olunur: 1) zamin duran şəxs əmanəti iddiaçıya qaytardıqda; 2) borc vermiş iddiaçının borcu ödənildikdə; 3) borc vermiş iddiaçı öz tələbindən imtina etdikdə; 4) borclu vəfat etdikdə; 5) iddiaçı zamin duran şəxsi zaminlikdən könüllü surətdə azad etdikdə.

Şəriət borclunu borc verəndən zorakılıqla gizlətməyi qadağan edir. Əgər belə bir hal baş verərsə, bu işi görən şəxs borclunu borc verənin ixtiyarına verməlidir.

Saxlanc üçün əşya verən, əşyanı saxlamağa götürən həddi-büluğa çatmış və anlaqlı olmalıdır. Əgər şəxs əşyanı qoruyub saxlayacağına əmin deyildirsə, əşyanı qəbul etməlidir. Əşyanı saxlanca vermiş şəxs onu istədiyi vaxt geri götürə bilər.

Şəriət qaydalarında əşyaların saxlanc üçün verilməsi əşyadan istifadə olunmasının **"ariyət"** adlanan xüsusi formasıdır. Bu, əşyanın istifadəyə verilməsi və əvəzində heç nə tələb edilməməsi deməkdir. Əgər əşyanın sahibi vəfat edərsə, əşyanı müvəqqəti istifadəyə götürmüş şəxs onu mərhumun varislərinə qaytarır. İstifadə edilməsi şəriət tərəfindən qadağan edilmiş əşyaların (məsələn, qızıl və gümüş əş-

yalarının) ariyət verilməsinə icazə verilmir. Ev heyvanlarının südündən və yunundan istifadə üçün onların ariyət verilməsi mümkündür. Əşyanı müvəqqəti istifadəyə götürən şəxsin onu sahibinin icazəsi olmadan başqasına icarəyə və ya istifadəyə vermək ixtiyarı yoxdur. Əgər şəxs ona verilmiş əşyanın oğurluq olduğunu bilərsə, o, əşyadan istifadə etməməli, onu aldığı şəxsə deyil, əsl sahibinə qaytarmalıdır.

Şəriət çərçivəsində feodal hüququnun rəsmiləşdirilməsi həm də hüquqi təsisatlar, o cümlədən **vəkillik** təsisatı yaradılmasını nəzərdə tuturdu. Xüsusi mülkiyyətin inkişafı, iqtisadi əlaqələrin və ticarət əlaqələrinin genişlənməsi, onların müdafiəsi sistemini mürəkkəbləşdirmiş və bu, peşəkar hüquqşünaslar təbəqəsinin təşəkkül tapmasına gətirib çıxarmışdır.

Görülməsi başqasına həvalə edilən iş **"vəkalət"**, bu işin icraçısı, etibar edildiyi şəxs isə **"vəkil"** adlandırılırdı. Şəxs öz evinin satılmasını, nikah müqaviləsi bağlanmasını və başqa işləri özgələrinə tapşıra bilərdi. Vəkil başqa şəhərdə yaşadığı hallarda ona etibarnamə göndərilirdi.

İslam qanunlarına görə, ihram (Məkkədə həccə getmək üçün geyilən xüsusi paltar) geyinən adam etibarlı şəxs və vəkil ola bilməzdi.

Etibarnamə sahibinin icazəsi olmadan vəkilin işi başqa vəkilə həvalə etməyə ixtiyarı yox idi. Əgər iş bir neçə icraçıya tapşırılmışdırsa, onlardan biri öldükdə və işdən imtina etdikdə, başlanmış işin icraatı dayandırılmırdı.

Əgər vəkil və ya müdafiəçi ölərsə, yaxud ruhi xəstəliyə tutularsa, sövdələşmə öz hüquqi qüvvəsini itirir.

Xüsusi mülkiyyəti qəsdlərdən qoruyan şəriət onların hüquq və vəzifələrini səylə dəqiqləşdirir, həm də adətən vəkil kateqoriyasına etibarnamə almış şəxslər və vasitəçilər aid edilir. Onların da hüquqları ciddi surətdə reqlamentləşdirilir. Məsələn, şəxs satılası paltarı kiməsə vermişdirsə, vasitəçi isə onu satmaq əvəzinə özü geyib köhnəltmişdirsə, onda o təzə paltar almalı, yaxud həmin paltarın dəyərini onun sahibinə ödəməlidir.

Vəkilin xidmətlərindən nikah, talaq, ticarət, razılaşma, girov qoyma ilə əlaqədar əqdlərin bağlanmasında, borc alınması və borcun qaytarılmasında, həccə getmədə, zəkatın verilməsində istifadə olu-

nur. Vəkalət müqaviləsi də konsensual müqavilədir, müddəti tərəflərin razılığına əsasən vaxt, zaman ölçüləri ilə, yaxud da baş verməli olan hal, hadisə ilə müəyyənləşdirilir. Məsələn, nikah müqaviləsi bağlanarkən evlənənlər üçün vəkil təyin edilmiş şəxsin vəkaləti ilə, ticarət müqaviləsi bağlanmasına vəkil edilmiş şəxsin vəkaləti müqavilənin bağlanması alış-verişin baş verməsi və ya konkret bir tarixin keçməsi ilə sona yetmiş olur.

Müsəlman hüququnda **qəyyumluq** fəaliyyət qabiliyyəti olmayan və ya məhdudlaşdırılmış şəxslər – ruhi xəstə, fasiq (əyyaşlıqla, içkiyə qurşanan adam), əxlaqsızlıq edənlər, borc alıb borcu ödəməyənlər üzərində təyin edilir. Qəyyum azyaşlılar üzərinə təyin edilibsə, azyaşlı·həddi-büluğa çatdıqdan sonra üzərindən qəyyumluq götürülür, sərbəst işə buraxılır. Buna görə də azyaşlının həddi-büluğa çatması anının müəyyən edilməsinin böyük əhəmiyyəti vardır. Müsəlman hüququnda qızların mükəlləf olma yaşı 9, oğlanlar üçün isə 15 yaş hesab edilmişdir. Lakin tam mülki-hüquqi subyekt kimi fəaliyyət qabiliyyətinə çatma yaşı 25 yaş müəyyən edilmişdir.

İflasa uğramış şəxslər üzərində qəyyum bir növ təminat rolu oynayır. O, özünün və himayəçisi olduğu müflisin hüquqlarını qorumaq üçün bütün qanuni hərəkətləri edə bilər, mal satılarkən borcları ödəmək üçün məhkəmə araşdırmalarında müflisin iştirakını təmin etməsi daha düzgün hesab olunur.

Qəyyum müsəlman, azad, ağıllı, həddi-büluğa çatmış, etibarlı, təmiz əxlaqa malik şəxs olmalıdır. Yaxın qohumların qəyyum olması daha məqsədəuyğun hesab olunur, lakin qəyyumluq altında olan şəxs ilə borc, girov və sair mülki münasibətdə olanların qəyyum təyin edilməsi yaxşı hal hesab edilmir.

Ailə hüququ. Nikah (**əqd**) məfhumunu şəriət aşağıdakı qaydada izah edir: "Nikah elə bir müqavilədir ki, qadın nikahla bağlandığı kişi üçün daha naməhrəm, "haram" sayılmır". Lakin kişinin və qadının razılığı nikah bağlamaq üçün kifayət deyildir. İstər daimi, istərsə də müvəqqəti nikah üçün kəbin düsturu oxunmalı və nikah müqaviləsi bağlanmalıdır.

Kəbin düsturunu bəylə gəlin, yaxud onların vəkil etdikləri şəxslər ifadə edirlər. Vəkil həm kişi, həm də qadın cinsindən olan şəxslər

ola bilər. Nikah müqaviləsi bağlanmazdan əvvəl nişanlıların bir-birini hətta xəlvəti görməsi də qadağandır.

Kəbin düsturunu, bir qayda olaraq, ərəb dilində əvvəlcə gəlin, sonra isə kişi ifadə edir. Gəlin deyir: "Zəvvəctükə nəfsi aliyə-siddəq əl-məlum" ("Müəyyən məhr (nikahlıq) əsasında özümü sənə arvad sayıram"). Bəy cavab verir: "Qəbültü ət-təzvic" ("Kəbin kəsməni qəbul etdim").

Vəkil edilmiş şəxslər də düsturu ifadə edirlər. Düsturu əvvəlcə gəlin, sonra isə bəyin vəkili ifadə edir. Şiə müsəlmanlarında siğə (müvəqqəti nikah) də eyni qaydada icra olunur, lakin nikah müqaviləsinin müddəti göstərilir.

Nikah müqaviləsi bağlamaq üçün şəriət aşağıdakı **4 şərtə** riayət olunmasını tələb edir:

1) kəbin düsturu ərəb dilində tələffüz edilməlidir. Onun başqa dillərdə oxunmasına ancaq müstəsna hallarda (nə bəylə gəlin, nə də onların vəkilləri ərəb dilini bilmədikdə) icazə verilir;

2) düsturu ifadə edənlər (bəylə gəlin və onların vəkil etdikləri şəxslər) yetkinlik yaşına çatmış və anlaqlı olmalıdır;

3) düstur tələffüz edilərkən bəyin və gəlinin adları çəkilməlidir. Məsələn, əgər kəbin düsturunu qızın əvəzinə onun atası ifadə edirsə və o, bəyə bu sözlərlə müraciət edirsə: "Qızlarımdan birini sənin arvadın hesab edirəm", bu halda kəbin müqaviləsi etibarsız sayılır, çünki kişinin hansı qızını ərə verdiyi aydın olmur;

4) bəylə gəlin nikaha məcburiyyətlə deyil, könüllü razı olmalıdır. Qızın oğlanı zahirən bəyənmədiyi, lakin nikaha razılığı aşkar edildiyi halda müqavilə etibarlı sayılır.

Şəriətdə qızı atasından və ya ata tərəfdən babasından asılı vəziyyətə salan xüsusi bir qayda vardır. Yetkinlik yaşına çatmış bakirə qız kəbin kəsdirmək üçün atasından və ya ata babasından icazə almalıdır. Ananın və qardaşın icazəsinə ehtiyac yoxdur. Əgər qızın atası və babası yoxdursa və bakirə deyildirsə, o, bu adamların razılığı olmadan kəbin kəsdirə bilər.

Şəriət subaylığı və rahibliyi elə böyük qəbahət sayır ki, hətta ruhi xəstələrin evlənməsinə də icazə verir. Bunun üçün şəriət normalarında maddi məsrəflər də nəzərdə tutulur.

Qadının da boşanma haqqında məsələ qaldırmaq hüququ vardır. Əgər o, ərə getdikdən sonra ərinin ya anlaqsız olduğunu, ya kişilikdən məhrum olduğunu (xədim) bilərsə, boşanma məsələsini qaldıra bilər. Qeyd edilən fiziki və əqli nöqsanlara və qüsurlara malik kişi, yaxud qadın talağı rəsmiləşdirmədən ayrılırlar. Etika normalarını və psixoloji amilləri nəzərə alan şəriət tələb edir ki, fiziki və əqli nöqsan üzündən boşanmalar elan edilməsin. Əgər qadın ərinin cinsi taqətsizliyinə görə nikahın pozulmasını tələb edirsə, ər başlığın yarısını verməlidir. Əgər ər qadınla nikah əlaqəsində olmamışdırsa, boşanmada arvada heç nə düşmür. Əksinə, nikah əlaqəsində olmuşdursa, boşanan qadın başlığın hamısını alır.

Əgər qadın ərinin tələblərini yerinə yetirirsə, ancaq ər xərclik vermirsə, qadın imkan daxilində ərinin icazəsi olmadan onun əmlakından götürüb xərcləyə bilər. Əgər bu mümkün deyildirsə və arvad öz xərcini özü qazanmağa məcbur olarsa, o, ərinə itaət etməyə bilər.

Sosial-iqtisadi ehtiyaclar, şəriətin ailə-nikah münasibətlərinə aid hüquq normalarında da özünü göstərirdi. Ər hər dörd gecədən birini daimi qanuni nikahda olduğu qadının yanında keçirməlidir. Ərin öz qanuni arvadına 4 aydan artıq baş çəkməməyə ixtiyarı yoxdur.

Kəbin zamanı başlığın məbləğinin müəyyən edilməməsi nikahın hüquqi qüvvəsini itirmir. Belə halda ər arvadına boşanmazdan əvvəl ona ümumi qayda ilə qəbul edilmiş məbləğdə mehr verməlidir.

Siğə (müvəqqəti nikah) şəriətin ailə-nikah müqavilələrinin biri olmuşdur. Bu nikahda tərəflər bir-birindən əmlak asılılığında olmur, başlıq verilməsi, dini tələblər üzrə qadını saxlamaq, onun üçün lazımi şərait yaratmaq, nikahda olan arvadlar kimi günlərini növbə ilə ayırmaq tələb olunmur. Bu nikahda qadın sərbəst olur, kişinin ondan evdə oturmaq, hansısa bir işi görməyi tələb etmək ixtiyarı yoxdur. Bu nikah forması erkən islamiyyətdə mövcud olmuş, sonra ortodoksal sünnizm tərəfindən sıxışdırılmışdır. Şiələr arasında sonralar qalmaqda davam edirdi. Siğə olunan qadınlar daimi nikahda olan qadınlardan daha geniş hüquq və azadlıqlara malik olurlar. Bununla yanaşı, siğədə olan qadın daimi qadının ərindən tələb etdiklərini tələb etmək hüququna malik deyildir. Siğə olunan qadının formal surətdə ərinin ica-

zəsi olmadan evdən kənara çıxmaq hüququ vardır, lakin bu, ərin mənafeyinə xələl gətirərsə, qadın həmin hüquqdan məhrum edilir. Siğə də əri 4 aydan artıq arvaddan ayrı qalmaq hüququndan məhrum edir.

Şəriətin əxlaq normaları yad kişi və qadınların bir-birinə baxmağını qadağan edir. Kişilərə naməhrəm qadının nəinki üzünü və ya əllərini, saçlarını belə görmək qadağandır. Yad kişinin və qadının, hətta ibadət üçün olsa belə, adamsız yerdə ikilikdə olması qadağandır.

Nikahsızlığa və rahibliyə qarşı ciddi mübarizə aparan şəriət nikah pozulması və ailənin dağılması üçün asan şərait yaradır. Kişi heç bir izahat vermədən aşağıdakı sözləri arvadına üç dəfə: "Sən mənim arvadım deyilsən" və ya "Allaha and olsun ki, sənin kürəyin mənim üçün anamın kürəyi kimidir" və s. deməklə arvadını boşamış olur.

Boşanma məsələsində kişi qadından daha çox hərəkət sərbəstliyinə malikdir, hərçənd ki, eyni hüquqlar qadına da verilmişdir. Arvadından ayrılmaq istəyən kişinin qarşısında şəriətin qoyduğu yeganə şərtlər bunlardır: kişi anlaqlı olmalıdır və arvadını boşamaq üçün heç kəs tərəfindən məcbur edilməməlidir.

Nikahın pozulması da onun bağlanması kimi ərəb dilində düstur ifadə edilməsi vasitəsilə həyata keçirilir. Fərq ondadır ki, boşanmada düsturu birinci kişi ifadə edir. Düstur belədir: "Zövcəti Fatimatü taliqa" ("Arvadım Fatimə azaddır"). Şəriətə görə, kişinin boşanma haqqında arzusu rədd edilmədiyi üçün arvadın bu təklifi qəbul etməkdən savayı çarəsi qalmır.

Əgər kişi arvadını xəyanətdə təqsirləndirdiyinə görə onu boşadığını bildirirsə, qadının bir qayda olaraq, buna etiraz etmək hüququ vardır. Belə halda ərdən arvadın müqəssir olduğunu təsdiq edən şahidlərin ifadəsi tələb olunur. Ər arvadın təqsirini sübut edə bilmədikdə, o, müsəlman qadınına böhtan atdığına görə cəzalandırılır.

Şiələrdə istifadə edilən siğə nikah formasında boşamaya ehtiyac yoxdur. Siğənin müddəti bitdikdən sonra müvəqqəti nikah öz-özünə pozulmuş hesab olunur. Lakin kişinin siğə etdiyi arvadı nikah müddəti qurtaranadək boşamağa ixtiyarı vardır. Boşanmış arvad da əri ölmüş arvad kimi dərhal ərə gedə bilməz. Bunun üçün şəriət aşağıda-

kı qaydanı müəyyən etmişdir: boşandıqdan dərhal sonra üç aybaşı - təmizləmə dövrünü gözləməlidirlər. Əri ölmüş qadının iddə müddəti "4 ay 10 gündür", əgər bu müddətdə qadının hamilə olmaması aşkara çıxarsa, o, istədiyi şəxsə ərə gedə bilər; həmin müddətdə hamilə olması müəyyən edilmiş olarsa, hamilə həmin müddətdə ərə getməməlidir, doğduqdan sonra ərə gedə bilər.

Şəriətə görə boşanmanın dörd əsas növündən istifadə edilir: **bəin** boşanma (qəti boşanma); **racə** boşanma (ərin arvadının yanına qayıtması qaydası); **xəal** boşanma (ərin arvad tərəfindən pulla ələ alınması yolu ilə); **mübaraət** boşanma (əlçəkmə vasitəsilə boşanma).

Bəin boşanma zamanı ər əvvəlki arvadını ancaq yeni nikah müqaviləsi bağlamaq yolu ilə geri qaytara bilər. Belə boşanma qəti boşanma hesab olunur.

Boşanmanın ən təhqiramiz növü üç dəfə təkrar olunan talaqdır. Kişi "sən mənim arvadım deyilsən" sözlərini üç dəfə təkrar edən kimi ərlə arvad bir-biri üçün "nəməhrəm" olurlar.

Əgər arvad əvvəlki ailəsini bərpa etmək arzusunda olarsa, o, başqasına ərə getməli, ondan boşanmalı və yalnız bundan sonra əvvəlki ərinin yanına qayıtmalıdır. Həm də bu halda islam dini saxta nikahı qəbul etmir. Bir qayda olaraq, ər özü öz arvadı üçün yalançı ər tapırdı.

Racə sözün əsl mənasında boşanma deyildir. Bu sözün mənası "qayıtmaq" deməkdir. Bu boşanmanın mənası ondan ibarətdir ki, ər arvadını boşadıqdan sonra təqsirini etiraf edir və arvadının yanına qayıtmaq, yaxud onu öz yanına gətirmək istədiyini bildirir. Belə boşanma zamanı ər arvadı ilə barışmaq və ailəyə qayıtmaq hüququnu itirmir. Racə boşanma zamanı, bir qayda olaraq, arvad ərinin evini tərk etmir.

Xəal elə boşanma növüdür ki, bu zaman arvad ərini varidatla ələ almağa çalışır, özünə verilmiş azadlığın müqabilində ərini maddi cəhətdən mükafatlandırmaq istəyir. Müsəlman boşanmasının bu növü şəriət normalarında cinslərin bərabərsizliyini aşkar surətdə əks etdirir.

Ər boşanmanın səbəbini izah etmədən belə, qanuni arvadından ayrıla bilər, arvad isə boşanmaq istədiyini bildirərkən, bunun üçün tutarlı səbəblər göstərməlidir.

Əgər ər arvadını boşamaq istəmirsə, arvad isə boşanmaq istəyirsə, ancaq şəriət nöqteyi-nəzərindən boşanmaq üçün heç bir əsası və səbəbləri yoxdursa, məsələ xəal qaydasında həll edilir.

Əlçəkmə yolu ilə boşanma (**mübaraət**) müəyyən dərəcədə xəal boşanmasına bənzəyir. Lakin bunların arasında fərq də vardır. Hər iki halda ərindən boşanan arvad ərin razılığının müqabilində ona mükafat (maddi) verir. Fərq isə ondan ibarətdir ki, xəal boşanma zamanı təşəbbüsü qadın irəli sürür, ər isə buna razı olmur və yalnız arvadından maddi mükafat almaq şərtilə razılıq verir. Mübaraət boşanma zamanı isə ərlə arvad hər ikisi buna razı olur, lakin ər birinci olaraq qarşıya şərt qoyur və maddi mükafat tələb edir. Halbuki xəal boşanma zamanı bu mükafatı arvad özü təklif edir. Mübaraət boşanma ərin arvaddan onun cehizini qoparıb almağa çalışan bir adam olduğunu göstərir. Boşanmanın bu forması müsəlman nikahının və boşanmasının sosial və sinfi xarakterini açıq göstərir. Bir çox hallarda ər arvadının var-dövlətinin bir hissəsini mənimsəmək şərtilə öz arvadını boşayır.

Mübaraət boşanma zamanı ərin arvaddan onun mehrinin (kəbin kəsilərkən ər tərəfindən arvadı üçün təyin edilən pul, nikahlıq) dəyərindən artıq tələb etmək ixtiyarı yoxdur.

Xəal boşanma zamanı isə şəriət mükafatın mehrin dəyərindən artıq olmasına icazə verir, çünki boşanmaq istəyən qadındır və mükafatın məbləğini də özü müəyyən edir. Xəal da, mübaraət də eyni qaydada, yəni boşanmanın növü, mükafatın məbləği və növü göstərilməklə rəsmiləşdirilir.

Şəriətdə boşanma qaydaları ən xırda təfərrüatına qədər nəzərdə tutulmuşdur. Məsələn, şəriət normaları ilə müəyyən edilir ki, ruhi xəstənin arvadını ərin atası və ya ata babası boşatdıra bilər. Əgər kişi bir qadını aldadıb boşatdırmış və sonra özü onunla evlənmişdirsə, şəriət normaları baxımından belə boşanma düzgün hesab olunur, lakin islamın etik normalarına görə bu çox ağır günah sayılır.

Əxlaqa zidd olan hərəkətlərin hamısını qanunvericilikdə nəzərdə tutmaq mümkün olmadığına görə, şəriət də bir çox hallarda əxlaq prinsiplərini pozanları sadəcə olaraq lənətləyir və bununla da kifayətlənir.

Fiqhdə uşaqların, süd əmizdirmə və süd əmizdirən ana və dayələrin hüquq və vəzifələrinə xüsusi diqqət yetirilirdi. Uşaq anası xəstə olduqda, hamilə olduqda və yaxud ananın uşağı əmizdirməsi üçün başqa səbəblərdən imkanı olmadıqda əmizdirilməyə verilməlidir. Həmçinin ananın südünün uşağa düşməməsi, ona zərər verməsi aşkar olduqda da o, anasının südü ilə əmizdirilməyib, başqa qadına verilməlidir.

Uşağı əmizdirənin onun süd anası hesab edilməsi və bundan yaranan hüquqi nəticələri şəriət üzrə tənzim edilirdi.

Quranda uşaqların əmizdirilmə müddəti "tam iki il" müəyyən edilmişdir, lakin bu aşağı həddə kimi götürülür. Uşaq süddən imtina edənə qədər əmizdirilməlidir.

Əgər birinin uşağı beşə nəfər olarsa və yaxud beş uşağı oğulluğa götürərsə, onların hər biri üçün ayrıca dayə tutub əmizdirə bilər. Bu halda hər bir uşağı əmizdirən dayə o biri uşaqların da süd anası hesab olunur, çünki həmin uşaqlar qardaş hesab olunduqları kimi, qardaşlarının süd anası onların da süd anası hesab olunur və müəyyən edilmiş bütün qadağanlar qardaşların və süd əmizdirənlərin hamısına şamildir. Eyni qaydada süd əmizdirənlərin başqa kişilərdən olmuş doğma övladlarının əmizdirilənlərlə olan münasibətləri tənzim olunur. Bütün bu cür qardaş və bacılar bir-birinin süd qardaş və bacısı hesab olunur.

Uşağı əmizdirən qadın, dayə təmiz əxlaqlı, müsəlman, islam ehkamlarını yaxşı bilən, ağıllı, səliqəli, müəyyən bilik sahibi və peşəkar şəxs olmalıdır və onların Quranın avazla oxunuşunu, musiqini bilməsi daha arzu ediləndir. Dayəyə veriləcək haqq yerli adətlərlə müəyyən edilmiş həddə olmalıdır.

Vərəsəlik hüququ. Vərəsəliyin iki növü: qanun və vəsiyyət üzrə vərəsəlik nəzərdə tutulur. Qanun üzrə vərəsəliyin özünəməxsus qaydası var idi. İlk növbədə ölənin əmlakından onun dəfni ilə bağlı xərclər üçün vəsait ayrılır. Sonra onun sağlığında olan borcları qaytarılır. Bütün ödənişlərdən sonra qalmış əmlak vərəsəliyə verilir. Vərəsəlik hüququnun xüsusiyyəti isə ondan ibarətdir ki, vərəsələrə miras qoyan şəxsin vəzifələri deyil, əmlak hüquqları keçirdi.

Əgər şəxs ölərkən etdiyi vəsiyyətdə əmlakın üçdə birindən artığı göstərilmişdirsə, vəsiyyət üzrə varis onu almaqdan imtina etməli, fə-

raiz üzrə varis qanunla ona sahib olmalıdır. Fəraiz üzrə varis üçdə birdən artığa edilmiş vəsiyyəti nəzərə alıb, həmin hissədən imtina edirsə, vəsiyyətlə varis olan həmin hissəyə sahib olmağa haqlıdır, amma nəzərə alınmalıdır ki, bu halda vəsiyyətnamə hüquqi rol oynamır, əksinə fəraiz üzrə varis sanki həmin əmlakı bağışlamış olur.

Müsəlman hüququna görə vəsiyyət edən şəxs vəsiyyətnamədə nəzərdə tutulan şəxsin vəsiyyəti qəbul etməsi barədə fikrini qabaqcadan bilməli, onun şərtlərini eşitməlidir, çünki vəsiyyəti qəbul edən şəxs həmin andan öz üzərinə bir sıra öhdəlikləri götürmüş olur, bununla da həmin öhdəliklərin icrası üçün nəzərdə tutulan maddi, fiziki və mənəvi zərərlərə razılaşmış olur. Həmin öhdəliklərə ölmüş şəxsin dəfnini təşkil etmək, qəbirüstü əşyaları hazırlamaq, mərhumun uşaqlarının zəruri tələbatının ödənilməsi, qulları ilə bağlı işlərin görülməsi, borclarının ödənilməsini təşkil etmək və s. daxildir.

Vəsiyyətnamədə həmçinin mərhumun uşaqlarına baxılması, oğlunun evləndirilməsi, başqa **nəfqə** (xərclik) verilməsi üçün müəyyən tədbirlər həyata keçirilməsi, boşanmış arvadın əmlakının ayrılıb verilməsi kimi məsələlərin həlli də göstərilə bilər. Vəsiyyət olunmuş şəxs vəsiyyətnamədə göstərilən bütün hallarla tanış olmalı, vəsiyyəti qəbul etməsini bildirməlidir. Belə hallarda ola bilər ki, vəsiyyətnamədə göstərilən işlərin görülməsi üçün xərclər alınacaq irsdən qat-qat artıq olsun, buna görə də vəsiyyət qəbul olunmaya da bilər. Həmçinin ola bilər ki, vəsiyyət olunmuş şəxsin fiziki və maddi imkanları mərhum qarşılıqlı öhdəliklərini yerinə yetirməyə kifayət etməsin. Daha bir sıra problemlər ortaya çıxa bilər ki, vəsiyyət olunmuş şəxs vəsiyyəti qəbul etməz, buna görə də tərəflərin qabaqcadan razılaşması vacibdir. Yalnız tərəflərin razılığından sonra qarşılıqlı öhdəlikləri əhatə edən vəsiyyətnamə qanuni hesab olunur. Tərəflərin öhdələrinə düşən vəzifələrin icrasını təmin etmək üçün şahidlərin də iştirakı müqavilənin bağlanmasında vacibdir.

Vəfat etmiş şəxsin əmlakı bölünərkən onun arvadlarının yaşayış yeri məsələsi də həll olunmalıdır. Mümkündür ki, fəraiz və vəsiyyət üzrə pay bölgüsü aparıldıqdan sonra mərhumun yaşayış evi başqa varislərin mülkiyyətinə keçsin, arvadına ev çatmasın, belə hallarda ar-

vada özünə yaşayış yeri tapmaq imkanı verilməlidir, bir il müddətinə mərhumun arvadını, uşağı olub-olmamasından asılı olmayaraq, yaşayış evindən çıxarmaq olmaz.

Mərhumun borcları ödəndikdən, dəfn və yas başa çatdırıldıqdan sonra fəraiz və vəsiyyət üzrə pay bölgüləri həyata keçirilir. Bütün varislər paylarını götürdükdən sonra kimsə, o cümlədən varislərin heç biri mərhumun əmlak və ya qeyri-əmlak xarakterli öhdəlikləri üçün məsuliyyət daşımır, yenidən meydana çıxmış hallar üzrə yaranan borcların da riski varislərin üzərinə düşmür. Əksinə, vərəsəlik üzrə pay bölgülərindən sonra varislərdən hər hansı biri və ya kənar şəxs mərhumun əmlak öhdəliklərinə cavab verməyi boynuna götürərsə, həmin vəzifəni öz hesabına yerinə yetirməlidir.

Fəraiz. Payların düzgün bölünməsini təmin etmək hər bir müsəlmanın, pay sahibləri və onların yaxın adamlarının borcudur. Əgər payların yaranmasında müəyyən çətinliklər yaranarsa, fəraiz qaydalarını yaxşı bilən bir şəxslərə – qazıya, müctəhidə müraciət olunmalıdır.

Müsəlman vərəsəlik hüququnda fəraizlə varis olmanın **dörd** əsas şərti vardır. Həmin şərtlərin üçü xüsusi, biri isə ümumi şərt hesab olunur. **Birinci şərt** qohumluq əlaqələrinin mövcud olmasıdır. Bu şərtə görə varis mərhumun ata və ana tərəfdən qohumu olmalıdır, yəni atası, anası, bacısı, qardaşı, övladı və s. Qohumların sayı və dərəcəsi Quranda çox az müəyyən edilmişdir, lakin sonradan daha uzaq qohumlar, əmioğlu, dayıoğlu, xala, bibi, dayı, əmi və sair də varis ola biləcək qohumlar sırasına daxil edilmiş, ata və ana qohumluq xətləri ayrılaraq hüquqları, pay normaları, varislik ardıcıllığı müəyyənləşdirilmişdir.

İkinci şərt mərhumla nikah münasibətində olmaqdır. Yalnız müsəlman hüquq normaları ilə müəyyən edilmiş qaydada bağlanmış nikah müqaviləsi varis olmanın əsasıdır. Müsəlman ailə hüququ ilə kişinin dörd arvadı ola bildiyi kimi, dördü də varisi ola bilər, qadınların isə yalnız bir əri ola bildiyindən bir də varisi olmalıdır. Hər bir halda nikah münasibətində olan şəxs ölənin varisidir, o cümlədən kəniz öz ağası ilə nikah münasibətinə girmişsə, varislik hüquqlarını daşıyır.

Üçüncü şərt ölmüş şəxslə dostluq və yaxınlıq münasibətində olmasıdır. Müsəlmanın ən savablı əməllərindən biri də qul azad et-

məkdir. Azad edilmiş qul özünün keçmiş ağasının yaxın adamı, dostu hesab olunur, buna görə də qohumluq və nikah əsasları üzrə varislərdən sonra azad edilmiş qullar öz ağasının varisi olur. Azad edilmiş qullara, kənizlərə xüsusi status verilərək mütəq və mütəqə adlandırılır. Sonralar qul və kənizlər mövcud olmadıqları zaman onların yerini mərhumun dostları tutmuşdur. Həmin əsasa görə mərhumun dostları da varis ola bilər. Fiqh normalarına əsasən xəstə, ağlıkəm, azyaşlı qulları azadlığa buraxmaq qadağandır, amma varisliyi təmin etmək üçün həmin qulları da azad edib əmlak vermək olar.

Dördüncü şərt ümumi xarakter daşıyır və ümumi şərt hesab olunur. Ümumi şərtin mahiyyəti bundan ibarətdir ki, əgər mərhumun yuxarıda qeyd olunan əsaslar üzrə varisi yoxdursa, yəni nə qohumluq, nə nikah münasibətləri üzrə varisi yoxdur və azad edilmiş qul da mövcud deyilsə, miras əmlakı beytül-mala verilib yoxsullara, dilənçilərə, şikəstlərə və sair ehtiyacı olub islamın zəkat verilməsi caiz gördüyü şəxslərə sərf olunmalıdır. Göründüyü kimi axırıncı şərt varislikdən çox varisin olmamasına görə malın ümumcəmiyyət mənafeyinə sərf olunmasını nəzərdə tutur.

Müsəlman cinayət hüququ. Müsəlman cinayət hüququ müasir baxımdan cinayətin zərər vurduğu obyektlərə görə xarakterizə edilərsə, əsasən iki böyük sahə nəzərdə tutulur. **Birincisi,** bütün islam cəmiyyətinin mənafeyini təmsil edən, buna görə də cinayətkar əməlin bütün müsəlmanların mənafeyinə zərbə vurulmasını qəbul edən obyektlər, məsələn, mürtədlik, şərab içmə, zinakarlıq və s. **İkincisi,** konkret şəxslərin mənafeyinə zərbə vuran cinayət əməlləri, məsələn, adam öldürmə, təhqir, oğurluq və sair. Bu iki obyekt arasındakı fərqlər də mütləq deyil, şərtidir, əslində şəxslərə qarşı cinayət edilməsi özlüyündə bütün cəmiyyətə zərər vurduğu kimi, cəmiyyətə vurulmuş zərbə də dolayısı ilə şəxslərin mənafeyini tapdalayır, maddi və ya mənəvi cəhətdən onların vəziyyətini pisləşdirir. Cinayətkar əməlin qəsd etdiyi obyektin əhəmiyyətliliyi cəzanın ağırlığına təsir etsə də, əsas həddi deyildir. Hər iki obyektin cəmiyyət üçün əhəmiyyətli olmasının nəticəsidir ki, cəza müəyyən edilməsi və yaxud baş vermiş nəticələrin aradan qaldırılması üçün tədbirlər müəyyən edi-

lərkən fərq qoyulmur və yaxud hansınınsa üstünlüyündən danışılmır. Cinayət əməlinin yönəldiyi obyekt və predmetlərin fərqləndirilməsi də fəqihlərin müzakirə mövzusu olmamışdır, əsas götürülən yalnız budur ki, cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməl həyata keçirilmiş və nəzərdə tutulmuş zərəri vurmuşdur.

Fiqh cinayət təqibatı və cəza müəyyən edərkən obyektin islam cəmiyyəti üçün əhəmiyyətinə və roluna qiymət verir. Şəriət haram sayılan, pislənən, təqdir edilən başqa əməllər kimi cinayət əməllərini də Allahın qoyduğu hüdudların pozulması kimi qiymətləndirir. Quranda isə göstərilmişdir ki, "ilahi nizam" vardır və onu pozmaq olmaz. Belə deməklə sosial-hüquqi və ailə-məişət münasibətlərinin pozulmasının ən müxtəlif formaları üzərində qadağanlar nəzərdə tutulur ki, bu münasibətlərin xeyli hissəsi də islamaqədərki norma və göstərişlə bağlıdır. Müsəlman hüququ bütünlüklə özündən əvvəlki tarixi dövrdə hökm sürmüş və sonradan Məhəmmədin "ilahi nizamına" uyğunlaşdırılmış qanunlarla tənzimlənmişdir.

Şəriətin müəyyən etdiyi cinayət əməlləri və digər əməllər üstündə bütün cəzalar aşağıdakı 4 əsas növə ayrılır:

1) eyni cür hərəkətlə (talion prinsipi), yəni qətl üstündə qətl ilə, təhqir üstündə təhqirlə, yaralamaq üstündə yaralamaqla və başqa bu kimi hərəkətlərlə (həm də şəriət zərərçəkən şəxsin özünün, onun qohumlarının qisas almasını mümkün hesab edir, yaxud Allah tərəfindən cəza verilməsinə ümid bağlayır);

2) tökülmüş qana görə qan bahası və ya cərimə (diyə). Bunlar həm qətl üstündə, həm də yaralama və ya xəsarət yetirməyə görə alınır;

3) bənzətmə (qiyas) əsasında qanunun müəyyən etdiyi cəza;

4) qazının öz bildiyi kimi müəyyən etdiyi cəza.

Diyə qanunu – tökülmüş qana görə qan bahası alınmanın forma və metodları üzərində daha ətraflı dayanmaq lazımdır. Bu qanunda müsəlman Şərqində cəzalandırmanın səciyyəvi xüsusiyyətləri və spesifikliyi özünü göstərir, halbuki cəzanın axırıncı iki növü xeyli dərəcədə cinayət qanunvericiliyinin hamıya məlum olan forma və normalarına bənzəyir. Quranda isə cəzanın ancaq iki növü – qisas və diyə haqqında məlumat verilir.

Qan intiqamı Qurana və şəriətə islamaqədərki ərəblərin və başqa xalqların qədim adəti kimi daxil olmuşdur. Burada həmin adət qadağan edilmirsə də, o, xeyli dərəcədə məhdudlaşdırılır, yəni ancaq müqəssirdən qisas almaq olar. İslamaqədərki dövrdə ərəb tayfaları arasında qan intiqamının geniş yayılması bir adamın öldürülməsinə görə bəzən yüzlərlə adamın və hətta bütöv tayfaların qırılmasına səbəb olurdu. Bütpərəstlərin adətini lənətləndirən Quran qan intiqamının qan bahası ilə – diyə ilə əvəz edilməsinə üstünlük vermişdir.

İslam qanunvericiliyinə görə, əgər bir şəxs qərəzli vəziyyətlə və haqsız surətdə başqasını öldürərsə, ölənin qohumları və ya qəyyumları hər şeydən keçib qətli bağışlaya bilər və ya qətl üstündə qatildən qan bahası – diyə tələb edə bilər. Əgər qətl qərəzsiz törədilmişdirsə, ölənin qohumları təqsirkarı, ümumiyyətlə, öldürə bilməzlər, yalnız qan bahası ala bilərlər.

Şəriət qətlə görə qan bahasının aşağıdakı növünü müəyyən edir:

100 baş altıyaşar dəvə;

200 cöngə;

1000 qoyun;

200 hüllə (orta əsrlərin erkən vaxtlarında hüllə adlanan naxışlı parça Yəməndə hazırlanırdı və hər hüllə iki paltarlıqdan ibarət idi);

1000 misqal qızıl;

1000 dirhəm (gümüş sikkə).

Erkən feodalizm dövrünün bütün qanunları kimi burada da natural ödəmə nəinki təkcə spesifik mallar və məhsullarla, həm də onların məhəlli qiyməti ilə əlaqədar müəyyən edilirdi.

Qan bahası olan diyə islamın erkən mərhələsində qətl üstündə ödənilirdi. Sonralar isə bədənin ayrı-ayrı hissələrinin zədələnməsi üstündə də diyə ödəməyin aşağıdakı növləri (qətl üstündə diyə əsasında) müəyyən edilmişdi:

1) tam diyə - hər iki gözün və onların qapaqlarının zədələnməsilə əlaqədar olaraq insanın tamamilə kor edilməsi üstündə;

2) qulaqların və ya qulağın kəsilməsi və bunun nəticəsində insanın kar olması üstündə cinayətkardan qətl üçün alınan diyənin yarısı məbləğində cərimə alınır; qulağın sırğalıq hissəsinin kəsilməsi üstündə üçdə bir diyə məbləğində cərimə tutulur;

3) burunun (dibindən və ya ucundan) və ya dilin kəsilməsi üstündə yarım diyə məbləğində cərimə müəyyən edilir;

4) dişlərin vurulub salınması üstündə günahkardan 1/40 diyədən 1/20 diyəyədək cərimə tutulur;

5) bir və ya iki qolun kəsilməsi üstündə yarım diyə cərimə müəyyən edilir;

6) hər barmağın kəsilməsi üstündə 1/10 diyə cərimə müəyyən edilir;

7) bel sümüyünün sındırılması üstündə (əgər müalicə etmək mümkün deyildirsə) təqsirkar tam diyə dəyərində cərimə ödəyir;

8) qadının hər iki döşünün kəsilməsi üstündə tam diyə məbləğində, bir döşün kəsilməsi üstündə yarım diyə dəyərində cərimə tutulur;

9) əgər ayaq pəncəsi və ya ayaq barmaqları kəsilmişdirsə, kəsilmiş hər barmaq üstündə 1/10 diyə cərimə müəyyən edilir;

10) kişinin axtalanması üstündə müqəssir tam diyə cərimə ödəyir;

11) ruhi xəstəliyə səbəb olma ilə nəticələnən zərbə üstündə tam diyə cərimə müəyyən edilir;

12) eybilmə qabiliyyətinin və ya kişiliyin itirilməsi ilə nəticələnən xəsarət üstündə tam diyə məbləğində cərimə müəyyən edilir.

Qərəzli olmayan qətl üstündə bir diyə cərimə ödəmək və bir qulu azad etmək lazım gəlir. Əgər cinayətkar qulu azad edə bilmirsə, iki ay oruc tutmalıdır. Əgər bu da mümkün deyilsə, 60 nəfər yoxsulu doydurmalıdır. Həm də qərəzli olmayan qətl zamanı təqsirkarın günahı bağışlanmış olsa da, bu cəzalar məcburidir.

Bir qədər sonralar müsəlman hüququ ev heyvanlarının öldürülməsi və ya onlara xəsarət yetirilməsi üstündə də diyə cəriməsi müəyyən etmişdir. Məsələn, heyvanı yaralayan və onun ətini qoparan şəxs heyvanın sahibinə onun tam dəyərinin yarısı qədər cərimə verməlidir. Ov itini öldürən şəxs itin sahibinə adi gümüş pul ilə 21 misqal cərimə verməlidir.

Müsəlman hüququ uşaqların tərbiyəsi və təlimində cismani cəza verilməsini mümkün hesab edir. Tərbiyəçi və ya müəllim uşaqlar tərbiyə alanadək onları döyə bilərdi. Lakin şəriət tələb edir ki, bu zaman cəza uşağın xəsarət almasına qədər çatdırılmamalıdır.

Şəriət nöqteyi-nəzərindən ən böyük günah sayılan cinayətlərdən biri zinadır. Öz yaxın qadın qohumları ilə, məsələn, anası, bacısı və başqa məhrəm qohumlar ilə zina (qeyri-qanuni cinsi əlaqədə olmaq) üstündə müsəlman edam edilməlidir.

Əgər müsəlman ilk dəfə zina etmişdirsə, 100 qırmanc zərbəsi ilə cəzalandırılır. Bu əməlin üç dəfə təkrar edilməsi hər dəfə 100 qırmanc zərbəsilə cəzalandırılır, lakin dördüncü dəfə cinayətkarı ölüm cəzası - edam gözləyirdi.

Əgər zina edən tamamilə sağlam arvadı olan yetkin yaşlı müsəlmandırsa, bu əməli üstündə onu daş-qalaq edirdilər. Arvadı ilə zina edən şəxsi görmüş ər onların hər ikisini öldürmək ixtiyarına malikdir. Lakin əgər o, bu əməl üstündə arvadını öldürməzsə, sonra arvadı onun üçün haram sayılmır.

Xristian rahiblərdən fərqli olaraq müsəlman mistikləri – sufilər və dərvişlər üçün mütləq nikahsızlıq anlayışı yoxdur. Lakin dərvişlərin bir çoxu subay ömür sürmüşdür.

Əgər kişi ilə qadın zinaya və ya hər hansı bir başqa cinayətə imkan yaratmışlarsa, onları vasitəçi kimi 75 qırmanc zərbəsi ilə cəzalandırırdılar. Əgər vasitəçilik edən kişidirsə, üstəlik onun başını ülgüclə qırxır və daz başla küçələrdə və bazarda gəzdirir, sonra isə yaşadığı məhəllədən qovurlar. Əgər bir şəxsin zinaya hazırlaşdığı məlum olarsa, şəriətə görə belə adam edam edilməlidir.

Əgər bir şəxs başqasının təhriki və ya əmri ilə günahsız bir adamı öldürmüşdürsə, qatili edam etmək, təhrikçini isə ömürlük zindana salmaq lazımdır.

Oğulun atanı və ya ananı, yaxud da atanın və ya ananın oğulu öldürməsi ilə bağlı hüquqi prinsip feodal münasibətlərinin müdafiəsinin maraqlı cəhətlərindən biridir. Atasını öldürən edam edilməlidir. Əgər ata oğulu öldürmüşdürsə, diyə ödəyir və məhkəmənin qərarı ilə qırmanc cəzası alır. Lakin bu halda diyənin kimə ödənilməsi şəriətdə aydın izah edilməmişdir. Görünür ona görə ki, valideynlərinin mirasını almaq məqsədilə uşaqların onları öldürməsi halları valideynlərin onları öldürməsi hallarından daha çox olmuşdur. Əgər ata öz oğlunu anlaqlı vəziyyətdə olduğu vaxt öldürmüşdürsə, şəriət belə

hesab edir ki, ata əslində törətdiyi qətllə özünü cəzalandırmışdır. Bu halda islamın əxlaq prinsipləri orta əsr Şərqinin təsərrüfat iqtisadi həyatı ilə bağlıdır. Xüsusi mülkiyyət və onun prinsiplərindən irəli gələn əxlaq normaları övladları (və başqa varisləri) maddi, mənəvi və hüquqi cəhətdən valideynlərdən asılı vəziyyətə salırdı. Valideynlər bütün əmlakı zorakılıq yolu ilə onlardan almağa çalışan övladlarından gizli saxlayırdılar. Övladlar bəzi hallarda öz valideynlərini öldürməyə cəhd göstərirdilər.

Övladların valideynləri öldürmək fikrinə düşməsi şəraitin pisləşməsi, həmçinin Yaxın və Orta Şərq xalqlarının islamaqədərki adətləri, ənənələri və əxlaq normaları ilə bağlıdır.

Əgər bir şəxs yetkinlik yaşına çatmış namuslu müsəlman kişini və ya qadını zinakar, bic (vələdüzzina) adlandırmaqla təhqir etmişdirsə, həmin şəxs paltarı çıxarılmadan 80 qırmanc zərbəsi ilə (adətən, qırmanc cəzası verilərkən cinayətkarı qurşağadək soyundururlar) cəzalandırılır. Əgər yetkinlik yaşına çatmış sağlam düşüncəli müsəlman heç kəsin təhriki olmadan alkoqolik içki içərsə, onu da yuxarıdakı cəza gözləyir, əgər o, bu əməlini təkrar edərsə (cinayətin dördüncü dəfə təkrarından sonra) şəriət normaları onun edam olunmasını tələb edir.

Sünnilik məsləkinin hüquqi məktəbləri, eləcə də şiə məzhəbi xüsusi mülkiyyəti müdafiə edərkən oğurluğun qarşısının alınmasına və oğruların ciddi cəzalandırılmasına xüsusi diqqət yetirirlər.

Səciyyəvi haldır ki, müsəlman hüquq məktəblərində oğurluğa sövq edən səbəblərin və oğurlanmış əşyanın dəyərinin aydınlaşdırılmasına hər şeydən az fikir verilir. Oğurluğa görə, prinsipcə mühakimə edirlər, nə oğurlanmasının isə (kibrit və yaxud bir kisə qızıl) dəxli yoxdur.

Birinci dəfə edilən oğurluq üstündə sağ əlin dörd barmağını kəsib ovucu və baş barmağı saxlayırlar. Təkrar oğurluq üstündə şəriət sol ayağın pəncəsini yarıyacan kəsməyi tələb edir. Üçüncü dəfə oğurluq üstündə isə insanı ömürlük həbs cəzası gözləyir. Həm də əgər cəza alanın həbsxanada saxlanmaq üçün vəsaiti yoxdursa, bu xərclər həbsxananın əmlakından götürülür. Əgər oğru həbsxanada da bu əməlini davam etdirərsə, şəriət onun edam olunmasını tələb edir.

Şəriətə görə, oğurluq üstündə cəza tədbirlərinin son dərəcə amansız və qəddar olması xüsusi mülkiyyətin müqəddəsliyi və toxunulmazlığı haqqında islamın hüquqi və əxlaqi prinsiplərindən irəli gəlir. Bu prinsiplər isə hakim siniflərin əmlakının qorunması hüququna əsaslanır ki, bu da bir daha şəriətin sinfi xarakterini sübut edir.

Şəriətin xüsusi mülkiyyəti müdafiə etməsi özünü qəsb məsələsində də göstərir. Qəsb, yəni başqa şəxsin mülkiyyət hüquqlarından məhrum edilməsi dəhşətli günahdır və bunun üstündə günahkarı şəriətə görə ağır əzab-əziyyət gözləyir.

Bununla əlaqədar olaraq müsəlman qanunşünaslar Məhəmməd peyğəmbərin aşağıdakı kəlamını misal gətirirlər: "Əgər birisi başqasının bir qarış torpağını zorla əlindən alarsa, Qiyamət günü bir qarış torpaq yeddi qat tuca (ələmə) çevriləcək və onun çiyinlərinə düşəcəkdir".

Şəriət məhz nəyin qəsb edilmiş hesab olunmalı olduğunu ətraflı surətdə müəyyənləşdirmişdir. Məsələn, adamlara məsciddən, mədrəsədən, körpülərdən, bazarlardan, yəni hamının istifadəsi üçün nəzərdə tutulan ictimai tikililərdən istifadə etməsi qadağandır və bu cür istifadə qəsb hesab olunur.

Əgər dindar məsciddə yer tutub oraya başqalarını buraxmırsa, yaxud başqası üçün qabaqcadan yer tutursa, bu da qəsbdir. Əgər borc verən borc alanın bir əşyasını girov kimi özündə saxlamışdırsa və sonra girovu qaytararkən müqabilində bir şey tələb edərsə, bu da qəsb sayılır. Əgər birisi zorakılıqla başqasından əşya almışdırsa, o, həmin əşyanın dəyərini ödəməlidir, əks təqdirdə bu da qəsb hesab ediləcəkdir (zorla alınmış əşyalardan əldə edilən gəlir həmin əşyaları zorla alana deyil, əşyanın əsl sahibinə məxsusdur). Əgər iki nəfər birlikdə qəsbkarlıq etmişdirsə, bunun məsuliyyəti hər ikisinin üzərinə düşür.

Şəriət qızıldan və gümüşdən qab-qacaq hazırlanmasını qadağan edir. Buna görə də əgər biri başqasının belə qab-qacağını əlindən almışdırsa, həmin qab-qacaq itmiş və ya korlanmışdırsa, qəsbkar həmin məmulatın hazırlanmasına çəkilmiş əmək üçün haqq ödəmir, lakin ona işlənmiş qızılın və ya gümüşün dəyərini ödəməlidir.

Şəriətin bu müddəası əsasında hər bir şəxs başqasının qızıl və ya gümüş qab-qacağını əlindən alıb oradaca sındırarsa, yaxud digər qadın bəzək məmulatlarını başqasının əlindən alıb korlayarsa, şəxs hə-

min qızılın dəyərini, həm də onun hazırlanmasına sərf edilmiş əməyin haqqını ödəməlidir.

Qeyd etmək lazımdır ki, qəsb ilə oğurluq arasında ciddi fərq vardır. Oğurluq gizli, məxfi iş olduğu halda, qəsb başqasının əmlakını açıq-aşkar zorla onun əlindən almaq deməkdir. Qəsb barəsində şəriət normalarının xarakteri ilə əlaqədar olaraq tapılmış əşyalarla necə rəftar etmək haqqında şəriətin tövsiyələrini də bilmək maraqlıdır. İslam qanunvericiliyi əşyaların və sərvətlərin toplanması (tapılması) ilə əlaqədar çoxlu vəziyyəti nəzərdən keçirir və tapıntılarla necə rəftar etmək barəsində tövsiyələr verir.

Şəriət tapılmış sərvətlərdən istifadə edilməsi barəsində Yaxın və Orta Şərq xalqlarının qədim adət-ənənələrindən bəhrələnmişdir. Məsələn, şəriətdə deyilir ki, əgər birisi sahibinin kim olduğunu göstərən heç bir əlaməti olmayan qiymətli əşya tapmışdırsa, tapıntı onun mülkiyyətinə çevrilir. Lakin tapan şəxs bunun müqabilində naməlum sahibi əvəzinə sədəqə verməlidir. Şəriət əşyanı tapıb onun sahibini tapmayan şəxsin tapıntını həmişəlik öz mülkiyyəti hesab etməsinə yol vermir. Əgər əşyanın əsl sahibi məlum olarsa, onu tapan şəxs həmin vaxtadək tapıntını tamamilə xərcləmiş və ya işlədib korlamışdırsa, əşyanın dəyərini sahibinə ödəməlidir.

Əgər tapılmış əşya o qədər də qiymətli deyildirsə, bir qayda olaraq, məsciddə saxlayırlar ki, sahibi onu tapa bilsin. Əgər əşyanın üzərində sahibini tapmağa kömək edən nişanə vardırsa, əşya tapıldığı gündən başlayaraq bir həftə ərzində məscidin yanında gündə iki dəfə tapıntı haqqında elan verilir. Bu elan il ərzində təkrar edilir. Birinci ay həftədə bir dəfə, sonra isə ayda bir dəfə elan təkrar olunur. Əgər il tamam olanadək əşyanın sahibi aşkar edilməzsə, əşyanı tapmış adam onu işlədə bilər, lakin, əlbəttə, unutmamalıdır ki, sahibi üzə çıxanda əşyanın dəyərini mütləq ona ödəməlidir.

Əşyanı tapıb bunu heç kəsə bildirməyən şəxs şəriətə görə böyük "günah"a batmış olur. Əgər əşyanı tapan şəxs yetkinlik yaşa çatmamışdırsa, yaxud anlaqsızdırsa, onun əvəzinə valideynləri və ya qəyyumları elan verməlidirlər. Əşya və varidat tapmış şəxs bunun sahi-

binin tapılmayacağını yəqin etmişdirsə, tapdığını sədəqə kimi yoxsullara paylaya bilər.

Şəriət tapıntı haqqında elanda tapılmış əşyanın müfəssəl təsvirini qadağan edir, çünki belə halda əşyanın yalançı sahibləri meydana çıxa bilər.

Qəsb məsələsinə gəldikdə isə şəriətdə onun haqqında çox ətraflı şəkildə bəhs edilməsi göstərir ki, müsəlman cəmiyyətində aşkar zorakılıq, başqasının əmlakın açıq-aşkar ələ keçirmək şəraiti hökm sürmüşdür. İstər varlılar, istərsə də yoxsullar, köməksiz adamlar çoxlu qəsblərə (zorakılıqlara, soyğunçuluqlara) məruz qalmışlar.

Məhkəmə və proses. İslam aləmində ədalət mühakiməsi, ibtidai formadan başlayıb inkişaf etmiş, özünün mühakimə formasına çatmışdır. Ədalət mühakiməsinin həyata keçirilməsinə dair fiqhin normaları da bu təkamülün nəticəsidir. Müsəlman icmasının başçısı olan Məhəmməd məhkəmə məsələlərini şəxsən özü həll edirdi. Onun vəfatından sonra xəlifələr ən yüksək məhkəmə instansiyası rolunda çıxış etmişlər. Yerlərdə isə ədalət mühakiməsini həyata keçirən qazılar vəzifəsi, məhkəmə orqanları sistemi yaradıldı. İctimai asayişlə "şurta" adlanan polis sistemi məşğul olurdu.

İlkin məhkəmə təhqiqatları əslində yerli adət hüququ əsasında aparılırdı. Tayfa başçıları olan şeyxlər kimi Məhəmməd peyğəmbər aralarında münaqişə olan tərəflərin iştirakı ilə hökm çıxarırdı. Məhkəmə təhqiqatı aparılan yer bilavasitə məscid idi.

İslamın ilkin dövrlərinin məhkəmə istintaqının səciyyəvi cəhəti vəkillərin olmaması idi. Qazı şikayətçi ilə müttəhimin şəxsən gəlməsini bilavasitə tələb edirdi. Şəriət məhkəməsində "iddiaçı" və "müttəhim" terminləri eyni sözlə - "müddəi" sözü (zərər çəkən şəxs) ilə ifadə edilir. İş araşdırılıb qurtardıqdan və hökm çıxarıldıqdan sonra şəxs müqəssir adlandırılırdı. İbtidai məhkəmə istintaqının digər fərqləndirici cəhəti məhkəmə prosesinin fasiləsizliyi prinsipinin və yazılı kargüzarlığın olmaması idi. Qazı eyni bir iclasda, bir qayda olaraq, məhkəmə istintaqını başa çatdırıb qəti qərar çıxarır və bu, onun təcrübə və məharətinin əlaməti hesab olunurdu.

İş şifahi surətdə, camaat qarşısında, heç bir rəsmiyyətçiliyə yol verilmədən istintaq edilir. Onun qiymətləndirilməsi və hökmün çıxarılması bütünlüklə qazıdan asılı olurdu.

Sonralar polis orqanları olan şurtalar inzibati xətalarla bağlı işləri həll edirdilər. Polis işçiləri konkret şəraitdən asılı olaraq şəriət məhkəməsinin razılığı ilə, habelə müstəqil surətdə fəaliyyət göstərirdi. Məşhur ərəb tarixçisi ibn Həldun xəbər verir ki, adamların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məsələləri qazının müdaxiləsi olmadan yalnız şurta həll edirdi.

Qazılar yerlərdə əsas hakimlər kimi qalmışdır. Onlar şeyxülislama – bütün şəriət məhkəmələrinin sultan tərəfindən təyin edilən başçısına tabe idilər. Bütün şəriət məhkəməsi sisteminə şeyxülislam başçılıq edirdi və o, ali şəriət instansiyası hesab olunurdu.

Məhkəmələrdə şahid ifadələrinə böyük üstünlük verilirdi. Şahid məhkəmədə ona məlum olan halları düzgün söyləməli, hadisəni təhrif etməməlidir. Şahid hadisəni şəxsən görməli idi. Mənbəyi olmayan şəhadət əsaslı sayılmırdı. Dəli, azyaşlı, kafir, qumarbaz, haram oyun oynayan, şərab içib sərxoşluq edənlər, tənbur çalan, eyş-işrətlə məşğul olanların şahidliyi məqbul sayılmırdı. Yaxın qohumların, bir-biri ilə düşmənçilik edənlərin biri digərinin əleyhinə şahidlik etməsi də qanunsuzdur.

Müsəlman hüququna görə iki qadın bir kişi şahidini əvəz edə bilər. Zina, qəsb və başqa bir sıra ağır cinayət işlərində eşitmə ilə şahidlik düzgün hesab olunmur, yalnız gözü ilə görən adam şahid ola bilər. Məhkəmə prosesində and içməkdən də istifadə edilirdi.

V FƏSİL

X-XII əsrlərdə Azərbaycanın dövlət və hüquq tarixi

Azərbaycanın xilafət hakimiyyətindən azad olması və yeni müstəqil feodal dövlətlərin yaranması. IX əsrdə Xilafətdən asılı ölkələrin ərazilərində azadlıq müharibəsinin genişlənməsi, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən feodalların müqaviməti Abbasilər imperiyasının dağılmasına və Azərbaycanda da bir sıra müstəqil feodal dövlətlərin yaranmasına səbəb oldu. Belə dövlətlərdən biri Şirvanda təşəkkül tapan Şirvanşah-Məzyədilər (861-1027-ci illər) dövləti idi.

861-ci ildə xəlifə Mütəvəkkil öldürüldükdən sonra Xilafətdə iğtişaş başlandı. Bundan istifadə edən Yezid ibn Məzyədin nəvəsi Heysəm ibn Xalid Şirvanın müstəqilliyini elan edib, mərkəzi hakimiyyətlə əlaqəni tamamilə kəsdi. O, Məzyədilərdən birinci şəxs idi ki, Şirvanşah titulunu qəbul etdi. Məzyədilər sülaləsinin hakimiyyətinin ilk dövründə Şirvanşahların sərhədləri cənubda Kür çayı, şimalda Dərbənd və Samur çayı, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizi ilə əhatə edilirdi. Məzyədilərin uğurlu siyasəti nəticəsində müxtəlif dövrlərdə Şəki, Beyləqan və Bərdə Şirvanşahların tabeçiliyinə keçmişdi.

XI əsrin əvvəllərində Şirvanda Məzyədilər sülaləsini Kəsranilər (1027-1382-ci illər) sülaləsi əvəz etmişdir. Kəsrani sülaləsinin şahı I Fəriburzun (1063-1096-cı illər) hakimiyyəti dövründə Şirvanda siyasi vəziyyət ağırlaşdı. Belə ki, Şəddadi hakimləri tez-tez Şirvana hücumlar edirdilər. Bu hadisələrdən əvvəl isə Ön Qafqazda hakimiyyəti ələ keçirən səlcuq türklərinin Şirvanda da təsiri gücləndi. Şirvanşahlar daxili istiqlaliyyətlərini saxlamaq şərti ilə səlcuqların vassalına çevrildi. Şirvanşah titulu ləğv edildi. Onun hakimlərini məliklər adlandırmağa başladılar.

Sacilər dövləti. Xilafətə qarşı mübarizə şəraitində Azərbaycan ərazisində yaranan feodal dövlətlərdən biri də paytaxtı Ərdəbil şəhəri olan Sacilər dövləti (889-942-ci illər) idi. Dövlətin banisi Əbu Sac

Divdad Xilafət ordusunun məşhur sərkərdələrindən olmuşdur. Mənşəcə türk olan Əbu Sac Divdad və onun oğlanları Məhəmməd və Yusif Abbasi hakimlərinin rəğbətini qazanmışdılar. Lakin sonralar yaranmış əlverişli şəraitdən istifadə edən bacarıqlı sərkərdə Yusifin (903-927-ci illər) hakimiyyəti illərində Sacilər öz müstəqillikləri uğrunda inadlı mübarizə aparırdılar. Azərbaycanın cənub vilayətlərində hakimiyyətini təsdiq etməyə məcbur olan xilafət eyni zamanda Saciləri Abbasilər xəzinəsinə hər il 120 min dinar verməyə məcbur etdi. Yusifin hakimiyyəti illərində dağılmış Dərbənd divarları bərpa edilmiş, təsərrüfat xeyli canlanmış, sənətkarlıq, ticarət və mədəniyyətin inkişafı üçün zəmin yaranmışdır. 942-ci ildə Sacilər sülaləsinin hakimiyyətini Salarilər əvəz etmişdir.


AZƏRBAYCAN
IX ƏSRİN İKİNCİ YARISINDA
– X ƏSRDƏ
SƏNARİYƏ
Tiflis
Xunan
Lori
Kür
ERETİ
Qax
Şəki
Şabır
Şəki
QƏBƏLƏ
Şamaxı
ŞƏDDADİLƏR
DÖVLƏTİ
Gəncə
TƏSİR
ARAN
Goyçə
İrəvan
GELAKUNİ
XAÇIN
(971-1088)
ŞİRVANŞAHLAR
DÖVLƏTİ
Bakı
Kür
QUŞTASFƏR
MUĞAN
Beyləqan
Araz
Varsan
Maku
SÜNİK
QARABAĞ
NAXÇIVAN
Naxçıvan
Əlincə
Bəcirəvan
Bərzənd
QARADAĞ
Qarasu
Əhər
Əhər
Xoy
SALMAS
Salmas
Təbriz
Lənkəran
Astara
Ərdəbil
TALIŞ
DƏNİZİ
Urmiya
MARAĞA
RƏVVADİLƏR DÖVLƏTİ
(813-990)
Zəncan
SACİLƏR DÖVLƏTİ
(879-941)
Qəzvin
SALARİLƏR DÖVLƏTİ
(941-981)
SİSƏR
Həmədan
ŞƏRTİ İŞARƏLƏR
9 əsrin ikinci - 10 əsrin birinci yarısında Azərbaycanın sərhədləri
Qalalar

Azərbaycan 9-cu əsrin ikinci yarısı 10-cu əsrdə

Salarilər dövləti. Salarilər sülaləsi Gilan vilayətində hökmranlıq etməklə Sacilər dövlətindən asılı vəziyyətdə idi. Dövlətin təməlini qoyan Mərzuban ibn Məhəmməd 942-ci ildə Sacilər hakimi Deysəmi məğlub edərək, paytaxtı Ərdəbil şəhəri olan Salarilər dövlətini (942-981-ci illər) yaratdı. Salarilərin şimal sərhədi Dərbəndə qədər uzanırdı. Mərzuban ibn Məhəmməd çətin mübarizə şəraitində dövləti möhkəmləndirməyə çalışırdı. O, vilayətlərdən alınan vergiləri nizama saldı, maliyyə işlərinə nəzarəti artırdı. Mərzubanın oğlu İbrahimin hakimiyyəti illərində (961-981-ci illər) Salarilər dövləti xeyli zəiflədi. Məzyədilər, həmçinin Dərbənd və Gəncə vilayəti Salarilər dövlətinin tərkibindən çıxdı. 981-ci ildə isə Rəvvadilər sülaləsi Ərdəbili tutaraq Salarilərin hakimiyyətinə son qoydular.

Rəvvadilər dövləti. Rəvvadi sülaləsindən Qaradağ hakimi Əbülheyca yaranmış şəraitdən istifadə edərək Salarilərə tabe olmaqdan imtina edərək, hakimiyyəti ələ aldı və Rəvvadilər dövlətinin (981-1065-ci illər) əsasını qoydu. Dövlətin paytaxtı Ərdəbildən Təbrizə köçürüldü. Rəvvadilər dövləti Əbu Mənsur Vəhsudanın hakimiyyəti (1020-1059-cu illər) dövründə xeyli gücləndi. Dövlətin ərazisi genişlənməklə yanaşı onun nüfuzu da artdı. Səlcuq hakimi Toğrul bəy 1054-cü ildə Təbrizə gəldiyi zaman Rəvvadi hakimi Vəhsudan siyasi hakimiyyəti əlində saxlamaq məqsədilə səlcuqların vassallığını qəbul etməyə məcbur oldu. 1065-ci ildə isə Təbrizə səlcuq hakimi təyin edildikdən sonra Rəvvadilər dövləti öz müstəqilliyini itirərək, səlcuqların hakimiyyətini qəbul etdi.

Şəddadilər dövləti. X əsrin II yarısında Dvində hökmranlıq edən Şəddadilər sülaləsi Gəncəni Salarilərdən alaraq öz dövlətini yaratdı (971-1088-ci illər). Paytaxtı Gəncə olan Şəddadilər dövlətinin ərazisi əsasən Kür və Araz çayları arasındakı torpaqları əhatə edirdi. Şəddadilər dövləti Fəzlun (985-1030-cu illər) və Şavurun (1050-1067-ci illər) dövründə xeyli gücləndi. Feodal münasibətləri yaxşı inkişaf etmiş, Gəncə şəhəri tərəqqi edən ölkənin paytaxtına çevrilmişdi. Səl-

cuq sultanı Məlikşah Gəncəni tutaraq axırıncı Şəddadi hakimi III Fəzlunu əsir apardı. Beləliklə, 1088-ci ildə Şəddadilər dövlətinin tarixi sona çatdı.

Səlcuqların Azərbaycanı işğal etməsi. Sultan Toğrul bəyin başçılıq etdiyi səlcuq qoşunu XI əsrin ortalarında Xəzər dənizinin cənubundan Azərbaycana daxil oldu. Rəvvadi və Şəddadi hakimləri siyasi hakimiyyətlərini saxlamaq məqsədilə pul və hədiyyələr verməklə müqavimətsiz onlara tabe oldular. Səlcuqlar 119 il (1038-1157-ci illər) hakimiyyətlərini qoruyub saxlaya bildilər. Səlcuq sultanlarının həyata keçirdiyi sosial-iqtisadi və hərbi tədbirlər feodal münasibətlərini daha da möhkəmləndirdi, sənətkarlığın, ticarətin, mədəniyyətin inkişafına müəyyən qədər kömək etdi. Lakin Məlikşahın oğlanlarının dövründən, xüsusilə də Sultan Səncərin (1118-1157-ci illər) hakimiyyəti illərində dövlət tənəzzül etdi. Səlcuq imperiyasının zəifləməsi nəticəsində Azərbaycanda feodal dövlətlərinin müstəqilliyi üçün imkan yarandı. Bu feodal dövlətlərdən Şirvan feodal dövləti və Azərbaycan Atabəyləri dövləti xüsusi əhəmiyyət kəsb edirdi.

Şirvanşahlar yaranmış vəziyyətdən istifadə edərək müstəqil hökmdarlara çevrildilər. Xüsusən Axsitanın (1149-1203-cü illər) dövründə Şirvan dövləti xeyli güclənmiş və Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizənin mərkəzi olmuşdur. Səlcuqlara qarşı mübarizədə Şirvanla o dövrdə xeyli güclənmiş Gürcüstan arasında yaxınlıq yarandı. Axsitan həmçinin iqtisadiyyatın, mədəniyyətin inkişafına daim kömək edirdi. Şirvanşahların nəinki quru qoşunları, habelə dəniz donanması mövcud olmuşdu. XII əsrin 30-cu illərində **Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər) yarandı.** Atabəylər dövlətinin yaradıcısı zəmanəsinin ağıllı diplomatı və uzaqgörən dövlət xadimi Şəmsəddin Eldəniz (1136-1175-ci illər) idi. XII əsrin 60-cı illərindən Şəmsəddinin apardığı siyasət nəticəsində dövlət tamamilə müstəqil quruma çevrildi. XII əsrin sonu və XIII əsrin əvvəllərində həm gürcü çarlarının, həm Xarəzm şahlarının və həm də monqolların hücumları Atabəylər dövlətini zəiflətdi. Atabəy Özbək (1210-1225-ci illər) ölkənin müdafiəsini təşkil edə bilmədi və Əlincə qalasına qaçdı. Bununla da Eldənizlər sülaləsinin tarixi sona çatdı.

İctimai quruluş. X-XII əsrlərdə feodal münasibətləri daha sürətlə inkişaf edirdi. Müstəqil feodal dövlətlərinin sülalələri hakim feodal sinfinin ən yuxarı pilləsini təşkil edirdi. Feodal iyerarxiyası nərdivanının orta pilləsində iri feodalların dehqanlar və azatlar deyilən vassalları dayanırdı. Məhsuldar torpaqlar onların əlində cəmləşmişdi.

Cəmiyyətin ən böyük sinfi olan kəndlilər iki təbəqədən ibarət idi. Onlardan birincisi uluc adlanan asılı kəndlilər, ikincisi azad kəndlilər idi. Uluclar əhalinin əksəriyyətini təşkil edirdilər. Kəndlilər dövlətə və feodallara məxsus olan torpaqlarda çalışırdılar. Torpaq payı olmayıb, istehsal alətlərindən məhrum olan, torpaq sahibinin təsərrüfatında işləməyə məcbur olan kəndlilər **əkər** adlanırdı.

Sənətkarlıq əsasən şəhərlərdə cəmləşmişdi. Məhz şəhər əhalisinin də əksəriyyətini sənətkarlar təşkil edirdi. Şəhərdə bir sıra məhəllələr var idi ki, onların əhalisi sənətin bir sahəsi ilə məşğul olurdu. Dəmirçilər, toxucular, dabbaqlar və s. məhəllələr mövcud olmuşdur. Şəhər sənətkarları içərisində feodalların zülmündən qaçmış kəndlilərə rast gəlmək olurdu. Sənətkarlar feodallardan asılı idilər. Onların istehsal etdikləri ən yaxşı məmulat feodalların tələbatı üçün sərf edilirdi. Şəxsi əmlak təhlükəsizliyini təmin etmək cəhdi, bəzi istehsal sahələrinin mürəkkəbliyi müxtəlif qrup sənətkarları **sex təşkilatlarında** birləşməyə məcbur edirdi. Bu təşkilatlar **həmkarlar** (yəni bir peşə sahəsində çalışan adamlar) adlanırdı. Həmkarlar nəinki sənətkarların istehsal və məişət hüquqlarını müdafiə edir, eyni zamanda onları feodal istismarına qarşı mübarizədə birləşdirirdi. Belə bir birləşməyə seçki yolu ilə ağsaqqal və ya baş usta seçilirdi. Onun ustalar içərisindən köməkçiləri olurdu. Həmkarlar şəhər həyatında, onun müdafiəsində, verginin bölüşdürülməsində və toplanmasında böyük rol oynayırdı. XII əsrdən başlayaraq sənətkar birlikləri **əxilər,** ("qardaşlar") adlanırdı.

Sex təşkilatının nizamnaməsinə uyğun olaraq onun quruluşunun özünəməxsus şagirdlik dərəcələri var idi ki, bu dərəcələri keçmək bir o qədər də asan deyildi. Odur ki, sex quruluşu, bir tərəfdən peşəkar sənətkarlığın təkmilləşməsinə kömək edirdisə, digər tərəfdən sənətkarlıqla məşğul olan adamların artmasını məhdudlaşdırırdı. Peşə nəsildən-nəsilə irsən keçirdi.

Şəhər əhalisinin bir hissəsini də tacirlər təşkil edirdi. Əmtəə məhsullarının istehsalının artması ölkənin daxili bazarının genişlənməsinə səbəb olmuşdur. Ticarətlə birlikdə pul dövriyyəsi də genişlənirdi. XII əsrdə Atabəylər və Şirvanşahlar öz adlarına pul kəsirdilər.

Şirvanşahlar və Atabəylər dövlətlərində torpaq üzərində müxtəlif **mülkiyyət** formaları inkişaf etmişdi. Şahın və ya hökmdarın ailəsinə və sülalə üzvlərinə mənsub torpaqlar **xass** adlanırdı. Dövlətə məxsus torpaqlara isə **divan** torpağı, mülkü deyilirdi. **Tac** torpaqları, yaxud seçilmiş (xass) torpaqlar və başqa torpaqlar sultanın və Atabəyin ixtiyarında idi. Onlar həmin torpaqları istədikləri kimi idarə edirdilər. Tac torpaqlarından yalnız hakim sülalənin nümayəndələri iqta pay torpağı ala bilərdi. Sultan və Atabəy nəslindən olmayan şəxslərə isə başqa torpaqlardan iqta ayrılırdı. Tac torpaqları əmlak ("mülk"ün cəmi, yəni "torpaq yeri", "gəlir yeri") sözünə xass (xüsusi, seçilmiş) sözünü əlavə etməklə **əmlak əl-xass** adlanırdı. Azərbaycan Atabəyləri dövlətində atabəy Şəmsəddin Eldənizin daimi yaşayış yeri olan Naxçıvan vilayətinin torpaqları tac (xass) torpağı idi. Hökmdarların saraylarına zəruri olan ərzaq və heyvanlarına lazım yem bu xass torpaqlarından götürülürdü.

Yerli hakim sülalələrin qadınlarına və qızlarına evlənməklə də xass torpaqları əldə etmək olurdu. Xarəzmşah Sultan Cəlaləddin atabəy Özbəyin arvadı Məlikə xatunu aldı və bununla da Xoy, Salmas və Urmiyanı ətrafları ilə xass torpaqlarına birləşdirdi. Bütün belə evlənmələr mülk sahibləri olan bu qadınların təşəbbüsü nəticəsində baş verirdi, çünki sultan nəslinə kəbinli olmaqla, onlar mülklərinin toxunulmazlığını təmin edir, sultan məmurlarının bu mülklərə təcavüz etmələrinin qarşısını alır, onların torpaqları tac (xass) torpaqları olaraq qalırdı.

İqta torpaq mülkiyyəti. İqta sözünün ilkin mənası "paylanmış", "bölünmüş", "ayrılmış", "kəsik", "pay" adlanmaqla ərazilərin ayrı-ayrı idarə altına verilməsi demək idi. Sonralar isə feodal mülkiyyət formalarının inkişafı ilə bağlı olaraq iqta termininin də mənası dəyişdi. Səlcuqlar dövründə qoşun başçılarına – əmirlərə hərbi xidmətlərinə görə haqq, ödənc kimi iqta torpağı verildiyindən, iqta buyuruq şəklində çox geniş yayılmışdı. İqta xidmət torpağı kimi verildikdə

ondan gələn gəlir (müəyyən məbləğdə pul şəklində) və onun sahibinin (muqta və ya iqtidar) dəstəsində döyüşçülərin sayı müəyyənləşdirilirdi. Muqta sahibi (iqtidar) iqtasında olan əyalətdə dövlətin nümayəndəsi hesab edilirdi. Səlcuqilərdə mərkəzi hakimiyyətin zəifləməsi ilə bağlı olaraq muqtanın müstəqilliyi artırdı.

Hər hansı bir əmir iqta alıb iqtidar olanda ona **yazılı tapşırıq** verilirdi. Bu tapşırıqlarda göstərilirdi: "Onlara həvalə edilmiş vergiləri rəiyyətdən xoşluqla alsınlar, onların canları, malları, arvad-uşaqları əmin-amanlıqda olmalıdır. Ev-eşiklərinə dəyilməməlidir. İqtidarlar onların yolu üzərində maneə olmamalıdırlar. Rəiyyət şah dərgahına gedib, öz vəziyyətini danışmaq istəsə, ona əngəl törətməməlidirlər. Hansı iqtidar bunun əksinə getsə, onun əlini gödəltmək, iqtanı ondan almaq, onu tənbeh etmək lazımdır ki, başqalarına da ibrət olsun. Onların hamısı bilməlidir ki, dövlət və rəiyyət yalnız şahındır, iqtidarlar isə valilər, darğalar kimi rəiyyət üzərində başçı təyin edilmişlər, şah başqaları ilə necə rəftar edirsə, onlar da rəiyyətlə elə rəftar etməlidirlər. Rəiyyət onlardan razı qalmalıdır ki, onlar da axirətin əzabəziyyətindən azad olsun".

Atabəy Qızıl Arslanın iqta mülklərinin xidmət haqqı kimi əmirlərə verilməsi haqqında bir sıra fərmanları (**mənşur**) məlumdur. Lazım gələndə iqta torpaqlarını geri almaq səlahiyyətini dövlət özündə saxlayırdı.

X-XII əsrlərdə geniş yayılmış xüsusi torpaq mülkiyyətini qeyd etmək lazımdır. Belə mülkiyyət növlərinə **əmlak, əsbab, müstəqallat** və **daiət** anlayışları aid edilir. Əmlaka aid bir sənəddə deyilir ki, dönük müsəlman dinsizlərin (kuffar) yanına qaçarsa, onun əmlakı müsadirə edilməlidir.

Xüsusi torpaq mülkiyyətinin sahibi (məlik) iqta torpaqlarında fərqli olaraq onu sata, bağışlaya, dəyişdirə, girov qoya və ianəyə verə bilərdi. Mülk sahibi öz torpaq mülklərində məhkəmə işlərinə baxır, vergilərin tam və düzgün yığılmasına və göndərilməsinə görə məsuliyyət daşıyırdı.

Vəqf mülkiyyəti də xüsusi əhəmiyyət kəsb edirdi. Dini müəssisələrin xeyrinə verilən ianələr vəqf adlanırdı. Nəzir və qurbanlıq

əmlakları da belə adlanırdı. İanə vermək ianəçinin (vaqif) öz şəxsi işi idi. Gəliri məscidlərin, məqbərə, mədrəsə, zaviyə, xanəgah və başqa ictimai tikintilərin, həmçinin onlarla əlaqəsi olan adamların saxlanmasına xərclənən sahələr dini ianələr idi. İanəçi özünün tikdirdiyi məscidi vəqfə çevirə bilərdi.

Vəqfləri ianəçilərin özləri tərəfindən seçilmiş **mütəvəllilər** idarə edirdi. Həmin mütəvəllilər vəqfin gəlirindən aylıq alırdılar. Şəxs mal və mülkiyyəti vəqfə çevirərkən ona sənəd də verilirdi. Naxçıvanın şihnəsi Seyfəddin Aybəyə verilmiş sənəddə deyilir ki, onun mülk və malikanələri, Naxçıvanda təqaüdü (idrar) olduğu təsdiq edilir. Onun özünün tikdirdiyi səviyəyə xüsusi vəsaitdən xərcləndiyi təsdiq edilir. İanəyə qoyduğu malların idarəsini o, öz üzərinə götürür. Onun ölümündən sonra bu işi onun oğlu, ondan sonra isə oğlunun uşaqları və uşaqlarının uşaqları yerinə yetirməlidir, bu şərtlə ki, ana tərəfindən olan qohumlar bunda iştirak etməməli, uzaq qohumlar təcrid edilməməli, iki tərəfdən heç biri üstünlük qazanmamalıdır; bu şərtlə ki, ianənin idarəsində (**təvliyyat**) ən böyüyü, ən biliklisi və ən xeyirxahı, sonra ən bilikli və ən böyüyü, sonra ən böyüyü və ən xeyirxahı, sonra ümumiyyətlə, ən böyüyü başçı (**müqdəm**) olmalıdır ki, varidatın artığı uzaq qohumlar arasında bərabər paylaşdırıla bilsin. Nəsil tamamilə kəsiləndən sonra bu hüquq ana tərəfin qohumlarına, ondan sonra isə ən yaxında yaşayan yoxsul müsəlmanlara keçir.

Vəqf mülkiyyətinə aid sənədləri qanunla elə tənzim etmək lazımdır ki, divanın səlahiyyətli maliyyə müfəttişləri (**mütə sərrifan**) ianə yerlərinin (**mavadiəl-vəqfiyat**) toxunulmazlıq hüququnu pozub, onun işlərinə qarışa bilməsinlər, bu təqaüd (irrar) və təminat vasitələrini (təsviq) etiraf edib, hər il yeni sənəd (hüccat) tələb etməsinlər. Onlar maneələr yaratmamalı, payları (qisəm), toplanmış pulları (avarid), cari vəsaitləri (muan), sərəncamları (təhəkkülat), sənədləşdirilmiş bütün ianə və mülklərə aid vergi kağızlarını və ya qəbzləri (həvalat) qadağan, ya da ləğv etməməlidir. Sənəddə göstərilmiş həmin ianə və mülklərdən hər hansı bir şey, hər hansı bir bəhanəyə görə müsadirə olunmamalı, vəkillər (vükəla) və kəndlilər (əkər) kömək istədikdə imtina edilməməlidir.

Vergilər. Vilayətlərdən alınan vergilər xüsusi dəftərlər (dəfatir) üzrə həyata keçirilirdi. Bu dəftərlərdə vilayətin varının hesabatını aparmaq, onun gəlir və çıxarını qismən aydınlaşdırmaq olurdu.

XII əsrdə və XIII əsrin başlanğıcında xərac əsas vergi kimi öz əhəmiyyətini saxlayırdı. Onu pul və ya natura şəklində alırdılar. Vergilər vergi qanunu əsasnaməsi və dəftərlərə salındıqdan sonra alınırdı. Xarəzmşah Cəlaləddin Manqburnun maliyyə məmurları başdanbaşa bütün mülkləri müsadirə etməklə və ağır vergilərlə Xoy və Təbriz əhalisinə zülm etdiklərinə görə həbs edilmiş, qanunsuz topladıqları pullar onlardan alınmışdı. Sultanın fərmanı ilə xərac üç il müddətində Təbriz üzərindən götürülmüş və bu haqda xüsusi əmr (tövqi) verilmişdir.

Cizyə (can vergisi). Əvvəllər olduğu kimi müsəlman olmayan əhalidən cizyə vergisi alınırdı. Verginin miqdarı müqavilə ilə müəyyən olunurdu. Qadınlar, uşaqlar, qocalar və qullar bu vergidən azad idi. Rahiblər yalnız yoxsul olduqları halda azad edilirdilər. Bu vergi pul ilə ödənilməli idi, lakin onu natura ilə də ödəmək olardı (ancaq şərabla, ölüb murdar olmuş, ya da başı kəsilməyib bir başqa yolla öldürülmüş heyvanla ödəmək olmazdı). Vergi ödəməyənlərə cismani cəza vermək qadağan edilir, onları yalnız həbsxanaya salmağa icazə verilirdi.

Himayə altında olan **zimmilər** (patronat sistemi) daşınmayan əmlak üçün torpaq vergisi (xərac) verməli idilər. Bu vergi ərzaq şəklində ödənilirdi və müsəlmanlar sonra bu ərzağı öz müvəkkilləri vasitəsi ilə pula çevirirdilər. Zimmilər tam bir sıra öhdəlikləri yerinə yetirməli idilər. Onlar müsəlman qoşununu saxlamaq üçün təzminat verməyə, əlahiddə paltar geyməyə və bu paltarın üstündə fərqləndirici xüsusi işarə və əlamətlər daşımağa (qiyar, əğyar) məcbur idi. Müsəlman məhkəmələrində onların bir şahid kimi verdiyi ifadələr mötəbər sayılmırdı. Zimmilərin biri öldürülsə, qan intiqamı deyil, ancaq pul ilə qan bahası (diyə) alınırdı.

Şəriətdə birdəfəlik alınan iki vergini göstərmək lazımdır. Bunlardan biri faydalı qazıntılardan, dəfinələrdən və sairədən alınan **xüms** (beşdə bir) vergisi və ölən adamın kişi cinsindən yaxın qohum-əqrəbası olmadığı halda onun mirasının bir payına dövlət xəzinəsinin hüququndan ibarət olan **adi vergi** idi.

Uşr (onda bir). Bu vergi xass torpaqlardan və iqta sahiblərindən alınırdı. Vilayətlərdən hər ay uşr vergisi yığılır və xəzinəyə verilirdi. Hətta bəzi hallarda keçmiş illərin hesabına uşr yığılırdı. Bu vergini toplamaq üçün vilayətlərdə xüsusi divan yaradılmışdır.

Haqq (cəm halında - **hüquq**) – divanın xeyrinə yığılan dövlət rüsumu və ya vergisidir. Əsasən köçərilərdən (elatlardan) otlaqlardan istifadəyə görə yığılan (**hüquqi marai**) vergilər də mövcud idi.

Aləf (ulufə - ərəbcə hərfi tərcümədə "qida", "yem", "aləf") qarovulda duran dəstəni və ya rəsmi şəxsi təmin etmək üçün qida və başqa təbii rüsumlar vergisi idi.

Nüzl (cəm halda - nüzul, əksər halda ənzal formasında) - mənzil pulunun növü. Təbəələr hakimiyyətin hər cür nümayəndəsini atları və nökərləri ilə birlikdə yerləşdirib, qeyri-müəyyən müddətə saxlamağı öz üzərlərinə götürməli idilər. Bu əhali üçün ən ağır mükəlləfiyyətlərdən biri idi.

Məunə qanunsuz vergilərdən biri idi. Aləf kimi bir növ "yaşayış yardımı" idi.

İnam xeyirxahlıq ifadə edir. Hökmdarın göstərişi əsasında təbəələrdən haqla birlikdə yığılan ödənc növlərindən biri idi. Təbəələr öz xeyirxahlığını (inam) göstərməli və onlardan tələb ediləcək haqqı göstərməli idilər.

Mənəl - "qazanc". İqta sahibinin xeyrinə yığılan qeyri-müəyyən xüsusi bir vergi.

Marafiq - "əmlak". Təbəələr bu vergini iqta sahibinə ödənc şəklində verirdilər.

Avariz - fövqəladə vergi. İqta sahibi bunu təbəələrdən müəyyən hadisələr baş verdikdə yığırdı.

Qismət (cəm halda qisəm) - "qism", "hissə", "bölmə" iqta sahibinin öz xeyrinə yığdığı xüsusi vergi növü idi.

Təyyarət - "uçağan", "şəhər qapılarında alınan fövqəladə gömrük vergisi növlərindən biri".

Təhəkküman ("təhəkküm"ün cəm şəkli - "mühakimə", "nəzarət"). Dini müəssisələr və mülklər bu vergini ödəməkdən azad idilər. Gömrük (bac) və gözlətmə haqqı (bədraka) da bu vergilərə aid idi.

Dəraib (ərəbcə - "gömrük", "bac", "təzminat"). Təyyarəta bərabər tutulan xüsusi vergi növü. Bəzən də bu sözün altında bir neçə vergi növü gizlənirdi. Ola bilsin ki, şəhərlərdən alınan xüsusi vergilər (dəraibi-şəhr) və qəsəbə vergiləri (dəraibi-qəsəbə) dəraibin müxtəlif növləri idi. Bu vergilər bütün Azərbaycan ərazisindən toplanırdı.

Beləliklə, qeyd etmək lazımdır ki, göstərilən bu vergilər daimi olmamış, hakimiyyət dəyişdikdə başqa bir hakim tərəfindən ləğv edilmiş və yeni müxtəlif növ vergilər tətbiq edilmişdir. Məmurlar da çoxlu müxtəlif qanunsuz vergi tələb edirdilər. Bu vergilərə **dəstərçə** (hədiyyə şəklində götürülən rüsum), **şərab-baha** (şərab içkiləri əldə etmək üçün yığılan pul), nal-baha (nal pulu), **mal-əssilah** (silah almaq üçün vəsait) və s. daxil idi. Ağır töycülərdən biri də **şir-baha** (süd və cehiz pulu) idi. Belə ki, feodal toylarının bütün haqq-hesabı təbəələrin hesabına ödənilirdi.

Dövlət quruluşu. Şirvan dövlətinin başçıları özlərini "şah" adlandırırdılar. Şahın hakimiyyəti qeyri-məhdud monarxın hakimiyyəti kimi idi. Lakin şah daxili və xarici siyasətinin bəzi mühüm məsələləri barədə məşvərətçi orqan olan **Məclis** divanını toplayırdı.

Şirvanşah feodal dövlətində hakimiyət irsi xarakter daşıyırdı. Dövlət şahın və onun varisləri, əyalətlər isə hakim sülalə üzvləri tərəfindən idarə olunurdu.

Hakim sülalənin üzvlərindən təyin olunan ordunun baş komandanı **əmir-ül-ümərа** (əmirlər əmri) titulunu daşıyır, şahdan sonra ikinci şəxs sayılırdı.

Mərkəzi dövlət aparatında **baş vəzir** mühüm rol oynayırdı. O, daxili inzibati və xarici işlərə nəzarət edirdi. Vəzirdən sonra dövlətin gəlirinin hesablanmasına və maliyyə işlərinə baxan şahın möhrdarı **sahibi-divan** mühüm vəzifələrdən sayılırdı. Şahlıq kimi vəzirlik vəzifəsi də çox vaxt atadan oğula irsən keçirdi. Saraydakı mühüm vəzifələrdən biri də **haciblik** idi. Hacib saraydakı inzibati aparatın başçısı idi.


Şirvanşahlar dövlətində iki növ qoşun var idi. Əsas qoşun şahın xüsusi qvardiyasından ibarət idi. Bundan əlavə iri feodalların və vilayət hakimlərinin xüsusi qoşun dəstələri olurdu. Hər iki növdən olan qo-

şunun əsas hissəsini süvarilər təşkil edirdi. Şirvanşahların ilxısında süvari qoşunu təmin etmək üçün 40 min at saxlanılırdı. Döyüşlərdə orduya ümumi komandanlığı şahın özü və ya da **vəliəhdi** edirdi.

Azərbaycan Atabəylər dövlətində hakimiyyət irsi xarakter daşıyırdı. Dövləti Eldənizlər sülaləsi idarə edirdi. Dövlətin banisi Şəmsəddin Eldəniz adlı-sanlı kübar ailədən çıxmasa da, onun varisləri böyük imtiyazlara malik idilər.

Şəmsəddin Eldəniz Səlcuq sultanı Arslan şahın atabəyi idi. O, Səlcuq sultanlığında mühüm dövləti məsələlərdə həlledici səsə malik olmaqla həm də **"məlik"** titulunu daşımağa başlamışdı ki, bu da onun hakimiyyətinin öz torpaqlarında irsi olduğunu göstərirdi. Atabəy Eldəniz xarici siyasət üçün məsuliyyət daşıyır, müharibə elan olunması və qoşun toplanması məsələlərini həll edirdi. O, həmçinin öz adının sikkə üzərində zərb olunması, xütbələrdə xəlifə və sultan adları ilə yanaşı, öz adının da çəkilməsi hüququnu qazanmışdı.

Azərbaycan Atabəyləri dövlətində **ikinci şəxs vəzir** vəzifəsi idi. O, bütün aparatın başçısı sayılırdı və dövlət başçısının birinci müşaviri – məsləhətçisi idi. Ən yüksək dövlət məmuru kimi vəzir yalnız hökmdar qarşısında məsuliyyət daşıyırdı. O, bütün rəsmi mərasimlərdə, diplomatik işlərdə və vassallarla əlaqələrdə hökmdarın səlahiyyətli nümayəndəsi idi. **Divan (əshab əd-divan)** məmurlarının başçısı olan vəzir məmurları vəzifəyə təyin etmək və işdən çıxarmaq hüququna malik idi. Vəzir təqaüdləri, maaşları müəyyən edir, vergi sisteminə və xəzinəyə nəzarət edirdi. O, həmişə Atabəyi səfərlərdə və hərbi yürüşlərdə müşayiət edirdi.



Ümumiyyətlə, vəzir dövlətdə böyük hörmətə malik idi. Mənbələrdən birində deyilirdi ki, dövlət aparatında ən böyük vəzifə vəziratdır, cəmiyyətin bütün işi və insan əməllərinin düzgün gedişi onunla bağlıdır. Vəziratın işinin nəticəsi ölkənin şöhrəti, gözəlliyi, intizamı və dövlətin qanunçuluğa əməl etməsidir.

Vəzir dövlətin idarəetmə qanunlarını və onun gələcəyini bilməlidir. Vəzirlər **sədr, düstur, xoca-yi bozoroq** titullarını daşıyırdılar,

onların vəzifə nişanları isə mürəkkəbqabı (dəvat) və müəyyən mahud parçadan olan çalma idi.

Dövlətdə üçüncü vəzifə böyük və ya **"ulu hacib"** vəzifəsi idi. Hacib (əl-hacib) vəzifəsi ən mühüm vəzifələrdən biri olmaqla onu icra edən şəxs əmir əl-hacib əl-kəbir və ya hacib əl-xass əl həzrət rütbəsini daşıyırdı. O, hökmdarların şəxsi kamerdineri (saray xadimlərinə verilən fəxri ad) olmaqla, dövlət başçısına aid mühüm işlər haqqında ona məlumat verir, onun tələbatı qayğısına qalır və saray mərasimlərini təyin edirdi. Bəzən hacib öz hökmdarlarının yanında elə nüfuz qazanırdı ki, hökmdar ona ikinci bir vəzifə də verirdi.

Hacib hökmdarın göstərişini icra olunmaq üçün şifahi surətdə vəzirə çatdırırdı. Hacib hökmdarla sahibkarlar arasında əlaqə yaradan şəxs idi. Bəzən haciblər qoşuna və hərbi əməliyyatlara da rəhbərlik edirdilər.

Atabəylərin xüsusi təsisatları olan **divan əl-xass** (şəxsi divan) hökmdarın bütün əmlakını idarə edən təşkilat idi. Atabəylərin bütün var-dövləti, o cümlədən dövlətə məxsus olan əmlak əl-xass (şəxsi torpaq mülkü), əşbab əl-xass (şəxsi daşınar əmlak), əmlak xalisat əd-divan (divana tabe olan torpaq mülkü), diya (ağalıq yeri), əkər (malikanə, mülk), müstəqəllat (daşınmaz gəlir) və müstəcərat kimi kateqoriyaları ilə bağlı maliyyə işlərini aparır və onların gəlirini hesablayırdı.

Naxçıvan, Muğan kimi iri vilayətlər (əyalətlər) divan əl xassa və ya divan əl-əlaya (ali divan) tabe idi. Taxt-tac əmlakı hökmdarın mülkiyyəti idi və o öz torpaqlarını iqta şəklində hərbi rəislərə və başqa şəxslərə və ya xüsusi mülkiyyət kimi (mülk) hakim sülalənin üzvlərinə paylaya bilərdi.

Dövlət **dəftərxanası** (divan əl-inşa və ya divan ət-tuqra) həm daxili, həm də xarici yazışmaları yerinə yetirirdi. Onun başçısı **münşi** və ya **tuğrayi** idi. Bu vəzifələrə savadlı, bilikli, dövlət sənədlərini yüksək səviyyədə tərtib edən şəxslər təyin edilirdi. **Maliyyə idarəsi** (divan əl-istifa) və xəzinəyə ali maliyyə məmuru (mustovfi əl-məmalik) rəhbərlik edirdi. O, taxt-tac və xəzinənin maliyyə cəhətdən təmin olunması da daxil olmaqla dövlətin maliyyə sisteminə başçılıq edirdi. Yerlərdə eyni belə idarələr fəaliyyət göstərirdi.

XI-XII əsrlərdə yerli iri feodalları mərkəzi hakimiyyətə tabe etmək və feodal separatizminə qarşı mübarizə aparmaqdan ötrü dövlət idarəçiliyində "canlı girov"lardan istifadə edilirdi. Bu məqsədlə iri feodalların övladları (oğlanları) sultan sarayında bir il müddətinə növbə ilə girov saxlanılırdı. Lakin mərkəzi dövlətin zəifləməsi "girov" üsulunun əhəmiyyətini azaldırdı.

Azərbaycan Atabəyləri dövləti inzibati cəhətdən **vilayət** və **əyalətlərə** bölünürdü. İri vilayətlər öz növbəsində **mahallara** ayrılırdı. Arran, Naxçıvan, Həmədan, Rey böyük vilayətlərdən idi. Hər bir vilayətə **vali** başçılıq edirdi. Valilər əsasən əvvəllər qoşun başçıları olan əmirlər arasında təyin edilirdilər. Rəsmi sənədlərdə valinin xidməti vəzifələri sırasında birinci növbədə təbəələrə qarşı qayğıkeşliyi, islamın qoyduğu qayda-qanunlara əməl olunmasını və onların yayılmasını, təbəələrə qarşı ədalətliliyi, sakitliyi və qaydaları qorumağı, cinayətkarları cəzalandırmaq kimi məhkəmə icraatı funksiyası və s. qeyd edilirdi.

Vali ruhanilərə qarşı diqqətli olmalı və dini işlərdə onların məsləhətlərinə əməl etməli idi. O, mədrəsələrdə müqəddəs vəzifələrə yalnız bacarıqlı imamları təyin etməli idi. Mədrəsəyə nəzarət və onu idarəetmə işi isə valinin öz üzərinə düşürdü. Vali öz vilayətinin dünyəvi hakimi idi. Məhkəmə hakimiyyətinə malik olan vali, hökm çıxararkən və cinayətkarları cəzalandırarkən vicdanlı və düzgün hərəkət etməli idi. Hüquqi cəhətdən dini hakimlər (qazılar) valiyə tabe idilər. Vali onların işinə nəzarət edir, qazılar da həmişə valinin köməyinə arxalanırdı.

Vali vilayətin bütün məmurlarının rəisi idi. Belə ki, onları vəzifəyə təyin edir, rütbələrini artırır və ya kiçildir, işdən azad edirdi. Mülki işlərin aparılmasında onlara nəzarət edirdi. Hər bir vilayətdə və mahalda vergiyığan amil vali tərəfindən təyin edilirdi.

Vilayətlərdə olan hərbi qüvvələrin ali baş komandanı olmaqla valilərə onun tabeliyində olan ərazilərdə, xüsusilə də sərhəd rayonlarda müdafiə tədbirləri görmək həvalə edilmişdir.

Validən sonra vilayətdə ikinci vəzifəli şəxs vəzir idi. Vilayət vəzirləri də sultan tərəfindən təyin edilirdi. Dövləti işlərlə yanaşı, və-

zir yolları qorumalı, zimmi silkindən onların islam məntəqəsindən çıxıb, dinsizlərlə birləşməsinin qarşısını almaq üçün bütün gediş-gəliş yollarını nəzarətdə saxlamalı idi. Gömrük nəzarətini həyata keçirən vəzir düşmən ölkədən (dar əl-hərb) islam ölkəsinə (dar əl-islam) keçmək istəyənləri nəzarət altına almalı, lakin onların ölkədə həddən artıq çox məskunlaşmasına yol verməməli idi. Düşmən ölkəyə (dar əl hərb) keçə bilsə, onda vəzir onun daşınmaz əmlakını müsadirə etməli və onun hamısını vəkil edilmiş şəxslərə verməlidir. Əgər həmin şəxs peşman olub geri qayıtsa, onun əmlakı qaytarılırdı.

Vilayət vəzirlərindən başqa **əyalət** və **şəhərlərdə** də vəzir vəzifəsi mövcud idi. Şəhərləri valinin adından şəhər rəisləri idarə edirlər. Ətraf kəndlər onlara tabe idi. Rəislər əsasən yerli tanınmış nəsildən seçilirdi. Onların vəzifəsi həmişə irsi olurdu. Ətrafdakı mahal və kənd rəisləri şəhər rəisinə tabe idilər. Rəis şəhər və kənd əhalisinin hökmdar qarşısında öz vəzifələrini yerinə yetirərkən qayda-qanuna əməl etmələrinə cavabdeh idi. **Axtarış rəisi** (darğa) adlanan məmur şəhər rəisinə tabe idi. Şəhər rəisi onu bu vəzifəyə təyin edir və dəyişdirirdi. Şəhərdə və mahalda ümumi təhlükəsizlik və sakitliyin təmin edilməsində axtarış rəisinin rolu böyük idi.

Şəhər rəislərindən Təbriz şəhərinin vəziri olmuş Şəmsəddin Tuğrayinin oğlu Nizaməddin şəhərin inkişafı üçün böyük işlər görmüşdür. Mənbələrin qeyd etdiyi kimi o, Təbrizin möhkəmləndirilməsi və müdafiəsinin qeydinə qalmışdır.

Rəislər öz mahallarında dünyəvi hakim idilər, lakin şəriətə görə dini hakimlərlə (qazılarla) və imamlarla razılaşırdılar.

Yüksək rütbəli vəzifələrin irsi olması haqqında tam məlumat olmasa da, vəzir, mustovfi, rəis və başqa bu kimi vəzifələrin də bir ailənin nümayəndələri tərəfindən tutulmasını hesab etməyə əsas vardır.

Mühüm dövlət idarələrindən biri də poçt idi. O, rabitə xidmətlərini yerinə yetirməkdən başqa, casusluq məlumatı da toplayırdı.

Şirvanşahlar və Atabəylər dövlətlərində **sikkə** kəsilməsinə və **tədavülünə** xüsusi diqqət verirdilər. Məhz bu dövrdə Ön Asiya ölkələrində gümüş böhranı baş vermişdir. Gümüş çatışmazlığı şəraitində gümüş pullar mislə əvəz olunmuşdur. Ümumi məzənnə kimi qızıl

tətbiq edilirdi. Onu kəsmək ixtiyarı isə yalnız Böyük Səlcuq sultanlarının ixtiyarında idi. Şərqdə gümüşün çatışmamasının əsas səbəbləri onun X-XIII əsrlərdə Şimal ölkələri ilə geniş ticarət əlaqəsində olan müsəlman dünyası ölkələrindən çoxlu miqdarda daşınması, gümüş mədənlərinin tükənməsi, gümüş ixrac edən ölkələrdə bu metalın azalması olmuşdur.

Ordu. Səlcuq sultanlarının orduları orta əsrlərin ən qüvvətli orduları olmuşdur. Bu ordular müxtəlif tayfalar arasında seçilərək birbaşa sultanın əmrində olan xüsusi ordu, məliklərin və valilərin əmrində olan əsgərlərdən ibarət idi. Əsgərlərə dövlət xəzinəsindən ildə dörd dəfə maaş verilirdi. Qoşunun iki növü – piyada və süvari qoşun toplanırdı. Ordunu idarə etmək üçün "hərbi idarə" adlanan mühüm divan mövcud olmuşdur. Bu idarəyə sahibi-divan başçılıq edirdi. Bu idarə hərbi iqtalara nəzarət etməklə yanaşı, bütün rütbələrdən olan hərbçilərin ərizə və şikayətləri ilə məşğul olurdu.

Məhkəmə. Məhkəmə şəri və ürfi (yerli adət və dövlət qanunları əsasında aparılan məhkəmə) olaraq ikiyə ayrılmışdı. **Şəri** məhkəmələrə qazılar başçılıq edirdi. Qazılar savadlı, fiqhi yaxşı bilən, mömin, nəfsini saxlayan şəxslərdən təyin edilirdi. Valilər qazılara həmişə kömək etməli, onların hörmətini saxlamalı idilər. Məhkəməyə gəlməyənləri, vəzifəli şəxs olsa belə, valilər zor və məcburiyyətlə gətirməyə borclu idilər.

Sultan ölkənin baş hakimi sayılırdı. O, həftədə iki dəfə məhkəmə işləri aparmalı idi. **Ürfi** məhkəmələrdə siyasi cinayətlər, dövlət əmrinə itaət etməmək, inzibati işlər kimi cinayətlər mühakimə edilirdi.

Hüququn əsas cəhətləri

X-XII əsrlərdə Azərbaycan ərazisindəki feodal dövlətlərində (Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Atabəylər) hüququn əsas mənbəyi müsəlman hüququ olaraq qalırdı (Əvvəlki fəsildə müsəlman hüququndan geniş bəhs edildiyindən bu fəsildə yerli xristian əhalinin istifadə etdiyi hüquq instutlarından bəhs edəcəyik).

Bu dövrdə Qafqaz Albaniyasının yerli xristian əhalisinin istifadə etdiyi, albaniyalı mütəfəkkir və hüquqşünas, "Alban salnaməsi" və

"Alban qanunnaməsi" kimi tanınan tarix və hüquq toplusunun müəllifi Mixtar Qoşun 1184-cü ildə hazırladığı "Qanunnamə" hüququn mənbəyi kimi böyük əhəmiyyət kəsb edirdi. Maraqlıdır ki, erməni alimləri və dövlətşünasları Albaniyalı Mixtar Qoşun "Qanunnamə"sinin əvvəlinə "hayos" sözünü əlavə etməklə onu "erməni qanunnamə"si - "Hayos Dastanqrik" kimi təqdim edirlər. (Bax! История государства и права СССР. XV глава, государства и права феодальный Армени (IV-XVIII в) М., 1988. Мнатсаканян С.С. О литературе Кавказской Албаний, Ереван, 1969. Акопян В.А. "Армянская книга канонов". Автореф. дис. д-ра ист. наук. Ереван. 1967.) Əgər ermənilərin təqdim etdiyi kimi Qoş Qanunnaməsi erməni qanunnaməsi olmuşsa, nəyə görə cəmi 81 il sonra, 1265-ci ildə Kilikiyadakı erməni çarlığında Smbat Sparapet (Qundstabl) tərəfindən yeni "Qanunnamə" hazırlanmış və ya bu zərurət nədən yaranmışdı? Və ya Mixtar Qoşun digər mühüm əsərini "Alban salnaməsi" (erməni salnaməsi yox!!!) adlandırması həqiqətən Qanunnamənin Albaniya və Arranın yerli xristian əhalisi üçün hazırlandığını sübut edir. Artıq 1080-ci ildən mövcud olan və kifayət qədər güclü hakimiyyəti olan Kilikiyada erməni qanunnaməsi hazırlanmır? Klikiyada təhsilini davam etdirmiş Mixtar Qoş klikiyalılara qanunnamə hazırlamağa kömək etməyib, Qafqaz Albaniyasında öz missiyasını yerinə yetirir? Mixtar Qoş Qanunnaməsinin ədalətlə icra olunması üçün erməni knyazlarına deyil, "knyazlar knyazı" mömin Həsən oğlu Vaxtanqa müraciət edir. Qoş gələcəkdə alban dövlətini arzu edir və buna ümidini bildirir. Əgər ermənilərin göstərdiyi kimi Qanunnamə "Hayosqrik" "Erməni qanunnaməsi" olmuşdursa, Həmin dövrdə (1184) 100 ildən artıq müddətdə Klikiya erməni dövləti, Ermənistan ərazilərində Leri, Suti, Vanand erməni knyazlıqları mövcud idi və həmin qanunnaməni müstəqil erməni qurumlarında hazırlamaq daha əlverişli idi. Çünki həmin dövrdə albanların bir qisminin islamı qəbul etməsi, digər qisminin isə xristian olaraq qalması, alban dövlətinin mövcudluğuna son qoyulması isə bir tarixi gerçəklikdir. Bundan əlavə Qoş Qanunnaməsinin yazıldığı dövrdəki, hökmdarların və nüfuzlu knyazların adlarını - Alban Xacın diyarından Həsən oğlu Vaxtanqın, Klikiyada Rubenilərin, Gürcüstanda Georginin (Tamaranın

atası), Ermənistanda Qriqorinin patriarxlıq etdiyini xatırlasa da Səlcuqilərə qarşı mübarizə aparan erməni tayfalarından olan Zaxariya və İvan Dolqorikilərin adlarını çəkmir. Mixtar Qoş qanunnaməsinin qədim erməni (qrabar) dilində tərtib olunmasını dəlil kimi gətirmək də heç məntiqə müvafiq deyildir. Və ya qədim və orta əsrlərdə bütün Qafqazda və bütövlükdə Asiya ölkələrində ərəb və ya farsca yazılmış minlərlə elmi əsərlərin hamısının ərəb və fars xalqına mənsub olmasını söyləməyin də heç bir əsası yoxdur. O ki, qaldı Mixtar Qoş Qanunnaməsinin erməni koloniyalarında (Polşa, Gürcüstan, Klikiya və s.) istifadə olunmasına, burada adət hüququndan, xristian xalqlarının hüquq normalarından, heç şübhəsiz ki, Roma hüququndan, müsəlman hüquq normalarından, yəhudi Musa qanunlarından, Talmud və İncildən, ümumdünya kilsə qanunlarından, Alban kilsə kanonlarından və erməni kilsə məclislərinin kanonlarından istifadə edilərək kifayət qədər mükəmməl qanunnamə olması ilə izah olunmalıdır.

Qanunnamə üç hissəyə bölünür: birinci hissə **giriş,** ikinci hissə **kilsə qanunları,** üçüncü hissə isə **dünyəvi qanunlardan** ibarət hazırlanmışdır. Mixtar Qoş özü də istifadə etdiyi mənbələri göstərir: 1) Təbii qanunlar; 2) Xristian xalqlarının qanunları; 3) Məhəmmədiyə qanunları (əgər xristian dininə ziddiyət təşkil etmirsə) və digər yazılı mənbələr: 1) İsa qanunları; 2) Qanun kitabları; 3) Qədim və yeni çağırış (Əhdi - ətiq Bibliyanın 39 kitabdan ibarət birinci bölməsi, e.ə. III-II əsrlərdə tamamlanaraq iudaistlər və xristianlar üçün müqəddəs kanon və Əhdi-cədid - Bibliyanın ikinci xristianlıq bölməsi).

Mixtar Qoş Qanunnaməsində **mülkiyyət hüququ** münasibətlərinə xeyli diqqət vermişdi. İri feodalların təbii sərvətlər, tapıntılar üzərində mülkiyyət hüququ təsbit olunurdu. Alban knyazlarının və hökmdarın torpaqlar üzərində qeyd-şərtsiz mülkiyyət hüququna əsasən təbii sərvətlər – mis, qalay, dəmir filizi, duz, neft və torpaqdan çıxarılan digər faydalı qazıntılar onlara məxsus idi. Yalnız tapılmış əşya hazırlanma müddətinə görə qədim olardısa, onun onda birinin əşyanı tapana verilməsi nəzərdə tutulurdu.

Qanunnamədə **öhdəlik hüququna** dair maddələr də təsbit olunurdu. Alqı-satqı, girəv, icarə, dəyişmə və s. müqavilə növləri möv-

cud idi. Alqı-satqı müqaviləsi zamanı tərəflərin razılığından əlavə satıcının varislərinin də razılığı olmalı və müqavilə aktı kilsədə təsdiq olunmalıdır. Göstərilən şərtlərə əməl edilmədikdə müqavilə etibarsız sayılırdı. Mal-qara, arı pətəyi, xalça, qab-qacaq və məhsul satanlar onların keyfiyyətli və qüsurlu olmamaları üçün and içməli idilər. Dəyirman icarəyə götürülərkən şahidlərin iştirakı ilə ödənc pulu verilir və sonrakı illərdə yaranacaq nöqsanlardan asılı olaraq məsuliyyət müəyyən edilirdi.

Alqı-satqı müqavilələrinin təmin olunmasında girovdan geniş istifadə olunurdu. Girov qoyulmuş şey borc qaytarıldıqdan sonra tam halda sahibinə verilirdi. Əgər borc tam qaytarılmasa, əmlakın bir hissəsi satılmış borc əvəzinə götürülürdü.

Qanunnamədə satılmış əmlakın və mülkün özgəninkiləşdirilməsi üçün müddət də müəyyən edilirdi. Belə ki, torpaq, ev, dəyirman 7 ildən az olmayan bir müddətdə özgəninkiləşdirilə bilməzdi və həmin müddət ərzində keçmiş sahibi onları geri qaytarmaq hüququna malik idi.

Qanunnamədə **ailə və nikah hüququ** kifayət qədər geniş şərh olunmuşdur. Nikah müqaviləsi bir sıra hallarda, o cümlədən yaxın qohumlar, azyaşlılar, başqa dindən olanlar, ağır xəstələr, bir anadan süd əmənlər arasında bağlamaq qeyri-qanuni sayılırdı. Nikaha daxil olma yaşı göstərilməsə də, kişinin qadından böyük olması təsbit edilirdi. Kişinin cinsi taqətsizliyi səbəbindən nikah baş tutmarsa, müqavilə pozulur və qız gətirdiyi əmlakı geri qaytarmalıdır. Lakin qız yenidən ərə getmək istəsə birinci ərinin razılığını almalı idi. Xəstə və əsir düşmüş ər və ya arvad bir-birlərini 7 il gözləməlidir. Ancaq qız ata evində xəstə olub və bunu gizlədərdisə, kişi sağalma müddətini gözləməyib evlənə bilərdi. Əxlaqsızlıq etmiş qadını əri boşamağa haqlı idi. Lakin qadın təqsirini etiraf edib əxlaqsızlıqdan qayıdardısa, əri onu yenidən qəbul edə bilərdi. Uşaq doğmayan arvadı kişi boşaya bilər, lakin arvadın arzusu ilə onu evdə kəniz kimi saxlaya bilərdi. Qadın ərini o zaman atıb gedə bilərdi ki, əri uşaqbazlığa və dinsizlərlə cinsi əlaqəyə (qeyri-xristian) meyl etsin. Qanunnamə bu kimi əməllərə görə qeyri-xristianların cinsiyyət üzvünün kəsilməsini, xristianların isə yalnız cərimə ödəncinin verilməsini nəzərdə tutur-

du. Bakirə olmayan qızı kişi boşamağa haqlıdır, lakin istəsə saxlaya da bilər. Dindarların arvadları əxlaqsızlıq etdikdə həmin qadınlar boşanılır və ömürlərinin axırına qədər ərə gedə bilməzdi.

Qanunnamədə birinci, ikinci, üçüncü, dördüncü dərəcəli qohumlarla evlənməyə icazə verilmirdi. Buraya ana, ata, bacı, qardaşı, əmi, dayı, həmçinin ögey ata, ögey ananın uşaqları daxil edilirdi. Göstərilən qaydaları pozaraq nikah müqaviləsini bağlayan kilsə xadimi rütbələrdən məhrum edilirdi.

Qanunnamədə qanun üzrə və vəsiyyət üzrə **vərəsəlik** fərqləndirilirdi. Vərəsəlik hüququnda müsəlman hüquq normalarından geniş istifadə edilmişdi. Qanun üzrə vərəsəliyə görə mərhumun oğlu varis olmaqla mirasa sahib olurdu. Evdə olan qız tam varis, ərə getmiş qız isə yarı pay alırdı. Vəfat etmiş şəxsin övladı olmazdırsa, ölənin qardaşı, daha sonra isə ata, o da olmazsa atanın qardaşı tam varis hesab olunurdu. Ana, arvad, bacı isə müəyyən qədər pay almaq hüququna malikdirlər. Əgər bütün qohumlar olmasa, miras dördüncü dərəcəli qohumlara çatmalıdır. Qanunnaməyə görə mərhum şifahi (şahidlərin iştirakı ilə) və ya yazılı vəsiyyətnamə tərtib edə bilər. Xəstələnmiş şəxs üç gün ərzində kilsə xadimini çağırıb üç nəfər şahidin iştirakı ilə öz əmlakı, evi, dəfn xərcləri barədə vəsiyyətini elan edə bilərdi. Əgər xəstə sağalarsa, vəsiyyətini tam ləğv edib, onu dəyişdirmək hüququna malik idi.

Qanunnamədə **cinayət hüquq** normalarına da geniş şərh verilmişdi. Qəsdən və qəsdən olmadan törədilən cinayətlər fərqləndirilirdi. Adam öldürmək üçün məsuliyyət 12 yaşdan başlayırdı. Azyaşlılar qanbahasının üçdə biri qədər cərimə olunurdular. 10-11 yaşlılar isə qanbahasının yarısını verirdilər.

Dövlət və din əleyhinə olan cinayətlər ciddi cəzalandırılırdı. Vassal knyazlar hökmdara (çara) qarşı cinayət etsələr öldürülməlidirlər. Lakin onların övladları nəinki məsuliyyətə cəlb olunmurdular, hətta mirasa sahib olurdular. Kilsə möminlərinin, hökmdar və knyazların təhqir olunması ağır cəzalara səbəb olurdu. Əgər hökmdar və knyaz kilsə xadimini təhqir edirsə, rütbədən məhrum edilirdi. Valideynlərini təhqir edənlərə valideynin istədiyi cəzanı təyin edirdilər. Sərxoş

halda ölüm və ya xəsarət yetirmiş şəxs tam məsuliyyət daşımaqla tam həcmdə qanbahası verir və ya ölüm cəzasına məruz qalırdı.

Lakin göstərilən cinayət əməlinə görə əllərin kəsilməsi və cərimə ödəmək də nəzərdə tutulurdu. Ev yandırmaqla ölümə və ya xəsarətə səbəb olmuş cinayət əməli qanbahası, əllərin kəsilməsi və dəymiş ziyanın 2 və ya 4 dəfə ödənilməsi ilə nəticələnirdi. Oğurluq və ya quldurluq etmiş şəxslər ölüm cəzasına məruz qalırdılar. Xristianın oğurlanıb satılması da ölümlə nəticələnirdi.

Qanunnamədə **məhkəmə prosesinə** dair bəzi göstərişlər mövcuddur. Belə ki, məhkəmə hökmlər çıxararkən şəraiti tam öyrənməli və sonra hökm verməlidi. Məhkəmənin tərkibi hakim və katibdən ibarət müəyyən edilirdi.

Qanunnamə vəfat etmiş və varis olmayan şəxslərin əmlakının, həmçinin kilsəyə verilmiş nəzirlərin müəyyən hissəsinin məhkəmələrə verilməsini nəzərdə tuturdu. Qanunnamədə çar əmlakı və mülkiyyəti ilə bağlı cinayət işlərinin araşdırılıb hökm çıxarmaq səlahiyyəti adi məhkəmələrə deyil, hökmdara məxsus olması təsbit olunurdu. Knyazlar hökmdarın razılığı olmadan ölüm cəzası müəyyən edə bilməzdilər. Mixtar Qoş Qanunnaməsi kilsə mühakiməsinə üstünlük verirdi. Məhkəmə prosesində şahid ifadələrinə xüsusi diqqət verilirdi. Şahidlər kişi cinsindən, iki-üç nəfər əxlaqlı şəxslərdən, həddi-büluğa çatmış (25 yaş) xristianlardan olmalı idi. Mürtədlər, kafirlər şahid ola bilməzlər. Qadınlar sərbəst şahid kimi deyil, köməkçi şahid olaraq prosesə çağırılırdılar. İki qadının şahidliyi bir kişinin şahidliyinə bərabər idi. Qadın şahidi 4-6 nəfər olmaqla əxlaqlı, həddi-büluğa çatmış şəxslərdən nəzərdə tutulurdu. Prosesdə and içməkdən istifadə olunurdu. Yalan and içənlərə cəza verilirdi. Əhəmiyyətli işlərə görə yalandan and içmək 5 il, az əhəmiyyətli işlərə görə isə 3 il kilsə xeyrinə işləmək cəzası verilirdi. Mömin və müqəddəs şəxslərin and içməsi qadağan edilirdi. Mötəbər şəxslər kimi onların and içməsi müqəddəs qanunların pozulması kimi ömürlük cəzaya məruz qalmaları ilə nəticələnirdi.

VI FƏSİL

XIII-XIV əsrlərdə Azərbaycanın dövlət və hüquq tarixi

Azərbaycanın monqollar tərəfindən işğal edilməsi. XIII əsrin 20-ci illərində monqollar ölkənin bir sıra yerlərini viran qoyaraq Təbrizə yaxınlaşdılar. Atabəy Özbək öz elçisini sülh xahişi ilə monqolların yanına göndərdi. Danışıqların şərtlərinə görə Xarəzmşahların buradakı hərbi qarnizonu monqollara təslim edildi və əlavə olaraq onlara pul, paltar və mal-qara verildi. Monqollar Muğandan keçərək Tiflis yaxınlığında gürcü ordusunu məğlub etdilər. Onlar yenidən geriyə qayıdaraq Təbrizə hücum etdilər. Təbrizin rəisi Şəmsəddin ət-Tuğrayi monqollara təzminat verməklə şəhərin talan edilməsinin qarşısını ala bildi.

1221-ci ildə monqollar Marağa, Ərdəbil, Sərab, Xoy, Səlmas və Naxçıvan şəhərlərini tamamilə dağıtdılar. Ticarət və sənətkarlıq mərkəzi kimi inkişaf edən Beyləqanın taleyi faciəli oldu. Xərac verməkdən imtina edən şəhər talan edildi və xarabalığa çevrildi.

1222-ci ildə monqollar Gəncəni, sonra isə Şirvanşahların paytaxtı Şamaxını viran etdilər. Beləliklə, monqolların Azərbaycana birinci yürüşü başa çatır.

1231-ci ildə Gəncə şəhər yoxsullarının sənətkar Bəndərin rəhbərliyi ilə güclü üsyanı oldu. Üsyançılar həmin dövrdə Azərbaycanda hökmranlıq edən Xarəzmşah Cəlaləddinlə danışıqlardan imtina etdilər. Lakin üsyan amansızlıqla yatırıldı və onun 30 nəfər rəhbəri edam edildi. Həmin ildə monqol qoşunu Cormoqun başçılığı ilə Azərbaycana ikinci dəfə yürüş edərək qarətlər törətdilər. 1239-cu ildə Dərbəndi tutmaqla monqollar Azərbaycanı bütünlükdə işğal etdilər.

Monqol xaqanı Münkenin qardaşı Hülakü xan 1256-1257-ci illərdə Azərbaycanı tabe etdi. 1258-ci ildə Bağdadı tutmaqla Abbasilər sülaləsinin hökmranlığına son qoyuldu. Hülakülər böyük bir dövləti – Hü-

lakülər dövlətini yaratdılar. Şirvan istisna edilməklə, ölkənin bütün ərazisini bilavasitə monqollar idarə edirdilər. Şirvanşah Fəriburz monqollardan vassal asılılığında olmaq şərti ilə öz taxt-tacını qoruya bilmişdir. XIII-XIV əsrlərdə Hülakülər (Elxanilər) və Qızıl Orda xanları arasında təqribən 100 il davam edən müharibələr Azərbaycanı varyoxdan çıxarmışdı. Xüsusilə, Şirvana böyük ziyan dəymişdi. Elxanilər dövlətinin paytaxtı əvvəlcə Marağa, sonra isə Təbriz olmuşdur.



İctimai quruluş. Azərbaycanda Hülakülər dövlətinin təşəkkül tapması mərkəzi hakimiyyətin güclənməsinə və təsərrüfatın canlan-

masına səbəb oldu. Monqolların torpaq və vergi siyasəti əsasən yerli feodalların torpaq sahələrini zəbt etmək və rəiyyətin istismarı nəticəsində əldə olunan gəlirin mənimsənilməsinə xidmət edirdi. Təkcə feodal və icma torpaqları deyil, vəqf torpaqları da zəbt edilirdi. Bütpərəst monqollar bu torpaqları **incu** və **divan** torpaqlarına çevirirdilər.

Monqollarda hakim feodal sinfin **ən yuxarı** pilləsində xan və onun nəslindən olan şahzadələr dururdu. Köçəri feodallar olan noyonların da imtiyazları böyük idi. Ön Qafqaz ərazisi 110 monqol noyonunun arasında bölüşdürülmüşdü.

İri feodallar əldə edilən gəlirdən müəyyən məbləğ divana verir və qalan pulları mənimsəyirdilər. Elxanilər sülaləsinə məxsus torpaqlar "incuxass" adlanırdı. Divana məxsus torpaqlardan gələn gəlir divanın saxlanmasına sərf edilirdi. Bu torpaqda yaşayan kəndlilər divan üçün müxtəlif mükəlləfiyyətləri icra edirdilər.

Hakim feodallar sinfinə məxsus ikinci qrupa kələntər, darğa, şəhnə, həmçinin ali ruhanilər - sədr, şeyxülislam, qazı, nəqib, möhtəsib daxil idi. Ölkənin iqtisadi və idarəetmə həyatında mühüm rol oynayan həmin feodallar geniş xalq kütlələrini istismar edirdilər.

Tacirlər də hakim sinfin bir qrupunu təşkil edirdi. Şərik tacirlər adlanan qrup bilavasitə hökmdarlardan, baş vəzirlərdən və ya xəzinədən pul almaq yolu ilə ticarətdə əsas rol oynayır və dövlət tərəfindən himayə olunurdular. Onlar vergi və mükəlləfiyyətlərdən azad olmaqla yanaşı, rəiyyətdən pulsuz istifadə üçün minik və yük heyvanları da ala bilərdilər.

Bu dövrdə iri tacirlərin adlarının qabağına şeyx, xacə ləqəbləri artırıldı. Hülakülərin paytaxt şəhərində tacirlərin rəislərinə **"məlikül-tüccar"** deyilirdi. Bu vəzifəyə ən varlı və bacarıqlı tacirlər təyin olunurdu. Məlikül-tüccar bir növ dövlətlə tacirlər arasında vasitəçi rolunu oynamaqla bərabər, ticarətin inkişafında mühüm rol oynayırdı. O, divanda və bəzən ixtilaf olduqda məhkəmədə tacirlərin hüququnu müdafiə etməli idi. Elxanilər dövlətində dövlət işlərində çalışan Məhəmməd ibn Hinduşah Naxçıvani ölkənin abadlaşdırılmasında ticarətin rolundan danışarkən məlikül-tüccarən vəzifəsini belə şərh edir

ki, o, tacirlərin çətinliklərinə kömək edir, onların bütün mübahisələrini şəriət məhkəməsində, ali divanın hüzurunda həll edir, onlara zülm edilməsinə mane olur, tacirlərin digər şəxslərdə olan borclarını alıb özlərinə qaytarırdı.

Əhalinin əksəriyyətini təşkil edən **sənətkarlar** və **kəndlilər** də üç təbəqəyə ayrılırdı: varlılar, orta təbəqə və yoxsullar. Sənətkarlar, xırda tacirlər, müxtəlif peşə sahibləri və kəndlilər vergilərin ağırlığı və dövlət məmurlarının özbaşınalığından əziyyət çəkirdilər. Xırda alverçilər iri tacir və feodallardan sələmlə pul alırdılar. Borcunu vaxtında verə bilməyənləri əmlakı əlindən alınmaqla arvad-uşaqları ilə birlikdə köləyə çevirirdilər.

Sənətkarlar özləri də hüquqi cəhətdən eyni vəziyyətdə deyildilər. Saray və ayrı-ayrı feodalların emalatxanalarında işləyən sənətkarların vəziyyəti daha ağır idi. Burada azad sənətkarlarla yanaşı, qul sənətkarlar da çalışırdı. Dövlət müəssisəsində çalışan sənətkarlarla hüquqi cəhətdən sərbəst sənətkarlar xeyli fərqlənirdilər. Azad sənətkarlar öz sərmayələri ilə hazırladıqları məmulatları axşama qədər karxanada işləməli idilər.

Əhalinin bir hissəsi sənət və peşəsi olmayan tam yoxsullardan ibarət idi. Hülakülər dövlətinin paytaxtında onlar üçün "Yoxsullar evi" tikilmişdir. Burada yoxsullar üçün xörək bişirib pulsuz paylayırdılar. Hülakü xanları Təbrizə daxil olarkən yoxsullara sədəqə verirdilər.

Əhalinin tamamilə hüquqsuz təbəqəsini **qullar** (qulamlar) təşkil edirdi. Qul öz əməyinin məhsulunun hamısını feodala verir, müqabilində cüzi miqdarda çörək və ya un alırdı. Qulların evləri və ailələri var idi. Onlar həmişə evli olmalı idilər. Qul uşaqlarına memarlıq, zərgərlik, kankanlıq, bağbanlıq, rəssamlıq, xəttatlıq və s. sənətlər öyrətməli idi. Qulun uşağı mümkün qədər atasının sənətinə yiyələnməli idi. Qul sənətkarların vəziyyəti azad sənətkarlara nisbətən daha ağır idi. Ağanın qulu satmaq hüququ var idi. Lakin rəiyyətlə belə hərəkət edilə bilinməzdi. Qul muzdurun özünə məxsus olan bağ sahəsi, əkin üçün əmək aləti, iş heyvanı yox idi. Bunları qul sahibi özü verirdi. Əkin sahələrində işləyən muzdur qulların aldığı gündəlik məhsul payı onların geyim xərcinə belə çatmadığı üçün qul sahibi onları geyimlə təmin edirdi.

Ata və ya ana öldükdə oğlanlarından biri atasını əvəz etməli idi. Ölmüş qulun oğlu olmadıqda digər yerdən qul alınıb yerinə qoyulmalı idi. Qadın qul öldükdə digər qulların qızlarından birini arvadı ölmüş qula ərə verməli, o da qul kimi işləməli idi. Yetkinlik yaşına çatmamış, ərə verilməli qız olmadıqda, digər yerdən kəniz alıb ölmüş qadın qulun (kəniz) yerinə qoyurdular. Qulların əməyi müqabilində onlara çatmalı məhsul payının bir hissəsi saxlanılırdı ki, qul öldükdə onun dəfninə xərclənsin.

Qulların hər birinə gündəlik iş norması verilirdi. Yalnız həmin normanı yerinə yetirmiş qula çörək verilirdi. İş vaxtı qulları 10 nəfərlik dəstələrə ayırır, onlardan ən bacarıqlısını dəstələrə başçı təyin edirdilər. Gündə 100 nəfər qul bağda çalışmalı idi. Hər 100 nəfər qula qullardan biri başçı təyin olunurdu. Gündəlik çörəkdən əlavə, başçı qul ildə 100 dinar alırdı. Qulların hər birinə gündə iki batman çörək çatırdı.

Vergilər və mükəlləfiyyətlər. 1254-cü ildə Azərbaycanda 10 yaşından tutmuş 60 yaşınadək bütün kişilər siyahıya alınmışdı. Bu siyahıyaalma vergi və mükəlləfiyyətlərin toplanmasında qayda-qanun yaratmaqla yanaşı əhalinin daha da istismar edilməsinə xidmət edirdi. Bu dövrdə vergilərin və mükəlləfiyyətlərin sayı 40-dan artıq idi. Baş divanda və vergi idarələrində özbaşınalıq hökm sürürdü.

Dövlətin əsas gəliri **qopçur** (can vergisi) və **tamğa** (sənətkar və tacirlərdən alınan vergi) ilə müəyyən edilirdi. Divan rəiyyətdən ildə 10, bəzi yerlərdə 20 və ya 30 qopçur alırdı. Vilayət hakimlərinin yanına müəyyən məsələ ilə əlaqədar elçi gəldikdə bu bəhanə ilə hakim qopçuru əhali arasında bölüşdürürdü. Elçi nə qədər çox gəlsəydi, onların xərci də bir o qədər çox olurdu. Hakim bu vergidən başqa **mühümmat, ülufə, ixracat, təəhhüd, mültəmisat** adı ilə əhalidən xeyli pul və mal toplayırdı. Hülakü əmiri Arqun dövründə Təbrizdə **"bəqayayi-mal"** (qalmış vergilər) adı altında əhalidən xeyli vergi tələb olunurdu. Mənbələrdə deyilir ki, zülm həddini aşmışdı, hər evdə vergi toplayan müvəkkil aman vermədən qızıl tələb edirdi. Hətta dul qadın və yetim uşaqlardan vergi alırdılar. Əhali Arqundan məmurların özbaşınalığına son qoyulmasını tələb edirdi. Nəhayət, Arqun müflis

olmuş xalqın tələblərini yerinə yetirərək əmr edir ki, xəzinədən onlara müəyyən qədər yardım göstərilsin. Arqun qopçur vergisini də qaydaya salır. Belə ki, hər bir şəxsin imkanına görə qopçur təyin edilir. Onun əmrilə varlılardan adambaşına 10 dinar, yoxsullardan isə bir dinar qopçur alınırdı.

Maraqlıdır ki, Hülakülər dövlətində vergi toplanması dövlətin baskaklarına deyil, yerli feodallardan olan otkup (müqaitə) sahiblərinə (iltizamçılara) həvalə edilirdi. Belə ki, Təbriz şəhərində toplanan divan vergisi qopçur və ya tamğa uzun müddət iri feodallara – otkup sahiblərinə verilmiş, onlar istədikləri kimi əhalini vergi və mükəlləfiyyətlərlə istismar etmişlər. İri feodallar əldə edilən gəlirdən müəyyən məbləğ divana verir və qalan pulu mənimsəyirdilər. Otkup sahibləri dövrün hökmdarları tərəfindən fərmanla təyin olunurdular. Bu vəzifə o qədər əhəmiyyətli idi ki, bəzi vaxtlar şəhər tamğaçısı həm də şəhər hakimi vəzifəsini daşıyırdı. Arqun xanın hakimiyyəti dövründə Əmir Əli eyni zamanda tamğaçı, həm də Təbriz valisi vəzifəsini icra edirdi.

Şəhərdə satılmaq üçün gətirilən mallardan darvazada tamğa vergisi alınırdı. Buna görə də darvazaların feodal dövləti üçün xüsusi iqtisadi əhəmiyyəti var idi. Bu darvazalar mühüm gəlir mənbəyi sayılırdı. Darvazalar və hasar şəhərə gömrük vermədən qaçaq mal daxil etməyi və ya aradan çıxarmağı da xeyli məhdudlaşdırırdı. Mallar yoxlanıb tamğa vergisi alındıqdan sonra ticarət karvanlarına şəhərə daxil olmaq icazəsi verilirdi. Ticarət malı şəhərdə satılmayıb, yalnız şəhərdən keçdikdə onlardan **rahdarı** vergisi alınırdı.

Elxani hökmdarları əcnəbi tacirləri ölkəyə cəlb etmək üçün onlara bir sıra güzəştlər verirdilər. Bütün dövlət məmurlarına göstəriş verilmişdi ki, tacirlərə və ticarət karvanlarına yardım etsinlər; yollarda müxtəlif bəhanələrlə onların qarşısını kəsməsinlər, lazım gəldikdə təhlükəsizliklərini təmin etmək üçün onlara mühafizə dəstələri versinlər. Daxili və xarici ticarətin inkişafı nəticəsində Hülakülərin paytaxtı Təbriz şəhərində toplanan tamğa vergisi hesabına əldə edilən illik gəlirin miqdarı da xeyli artmışdı. 1340-cı ildə bütün Azərbaycandan toplanılan 209 tümən gəlirin 115 tüməni Təbriz və onun ətraf nahiyələrinin hesabına idi. Həm də bu yalnız tamğa vergisi idi. Onun

87,5 tüməni Təbrizin özündə toplanmışdı. Beləliklə, sənətkarlıq və ticarətdən toplanan vergi divanın əsas gəlirini təşkil edirdi

Hülakülər ordunun saxlanılması üçün əhalidən **tağar** vergisi alırdılar. Bu verginin həcmi təqribən hər adambaşına 40 kq. buğda, 20 litr şərab və müəyyən qədər pul təşkil edirdi. Köçərilər isə öz malqarasının iyirmidə bir hissəsini tağar verirdilər.

Əhalidən alınan ağır bir rüsum **tərh** idi. Tərh o demək idi ki, əhalidən bazar qiymətindən aşağı qiymətə müxtəlif istehlak şeyləri alır və ya tacirləri dövlətdən bazar qiymətindən yuxarı qiymətə məhsul almağa məcbur edirdilər.

Pul və məhsulla verilən əlavə rüsum və mükəlləfiyyətin ağırlığı əsas etibarilə kəndlilərin və sənətkarların üzərinə düşürdü: onlar **bağ-şümarə** - meyvə bağlarından alınan vergi, **xanei-şümarə** - ev vergisi, monqol xanlarının, xatunların, məmurların və s. saxlamaq üçün **ixracat** və **rüsum** verirdilər.

Əhali ictimai işlərə cəlb edilərək ağır mükəlləfiyyətlər yerinə yetirirdi. Saraylar, qalalar, inzibati binalar, hasarlar, yollar, körpülər salınmasında və s. işləmək məqsədilə sənətkarları, kəndliləri icbari əməyə məcbur edirdilər.

Qazan xanın torpaq siyasəti divan torpaqlarından əkin sahələrinin irsi iqta hüququ əsasında səxavətlə paylanması ilə səciyyələnirdi. Monqol feodallarına əkin yerləri və otlaqlarla yanaşı, həmin torpaqlarda sakin olan kəndlilərə su və suvarma qurğuları birlikdə verilirdi. Qazan xan nəinki yalnız sərkərdələrə, həm də bütöv qoşun hissələrinə iqta bağışlayırdı. Bu mülkiyyət on minbaşılar, minbaşılar, yüzbaşılar və onbaşılar arasında bölüşdürülürdü, onlar isə öz növbəsində sıravi əsgərlər üçün pay ayırırdılar. İqtidarlar xəzinəyə daxil olan vergilərdən əlavə, rəiyyətdən öz xeyirlərinə renta alırdılar. İqta sahibləri dövlətə heç bir vergi vermirdilər; onlar xüsusi mülklər idarəsinə (xass) yalnız bir qədər taxıl təhvil verməli idilər.

Qazan xan feodalların mənafeyi naminə kütləvi qaçqınlığa son qoymaq məqsədi ilə 1303-cü ildə kəndlilərin torpaqlara təhkim edilməsi haqqında **yarlık** (fərman) verdi. Keçən 30 il müddətində öz iqtidarlarını qoyub qaçan rəiyyət zorla əvvəlki yaşayış yerinə qaytarı-

lırdı. Heç bir torpaq sahibinin qaçqınları qəbul edib gizlətməyə ixtiyarı yox idi. Qazan xanın fərmanı birinci dəfə olaraq rəsmi şəkildə kəndliləri torpağa təhkim edirdi. Onlara bir yerdən başqa yerə köçməyi qadağan edirdilər. Bununla yanaşı olaraq elxanın fərmanında deyilirdi ki, iqtidarlar rəiyyətə öz qulları kimi baxmalıdırlar; onları öldürə bilməzlər, onların əmlakını alıb şəxsən feodal üçün işləməyə məcbur edə bilməzlər.

Qazan xanın geniş həcmdə iqta paylaması xüsusi iri torpaq sahiblərinin artmasına kömək etdi, lakin bu tədbir nəticəsində mərkəzi dövlət hakimiyyəti zəifləmiş oldu.

Abaqa xan dövründə (1265-1281-ci illər) saray həkimi, Qazan xan (1295-1304-cü illər) və Sultan Ulcaytu Məhəmmədin (1304-1316-cı illər) hakimiyyəti dövründə isə Elxanilər dövlətinin baş vəziri olmuş Rəşidəddin (1247-1318-ci illər) vergi, mükəlləfiyyət və cərimə növünü, həmçinin miqdarını təyin etmək üçün **"Dəstur əl-məmləkət"** adlı qanunnamə tərtib etmişdi. Mənbələr yazır ki, Rəşidəddin xərac, qopçur, şah və rəiyyətin əmlakı, çaparxanaların qaydaya salınması, tikinti işlərinin genişləndirilməsi, şəhər və kəndlərin abadlaşdırılması, sikkə pul vahidinin qaydaya salınması, xəzinəyə daxil olunacaq vergilərin vaxtında toplanması barədə uzun bir fərman yazdı. Onun surətini ölkənin müxtəlif yerlərinə göndərdi. Fərmanın verilməsinin əsas səbəblərindən XIII əsrin son rübündə Hülakülər dövlətində iqtisadi və siyasi böhranın daha da güclənməsi, vəziyyətdən istifadə edən köçəri feodalların vergiləri artırmaq, əlavə vergilər toplamaq vasitəsilə əhalini qarət etməyə başlaması olmuşdur.

Dövlət quruluşu. Hülakülər dövləti tipik feodal dövləti idi. Dövlətə səlahiyyətləri demək olar ki, məhdudlaşdırılmayan "elxan", "sultan" və ya "padşah" adlanan hökmdar başçılıq edirdi. Taxt-taca yalnız Hülakü xanın nəslindən olan şahzadələr sahib ola bilərdilər. Hülakülər dövlətin ilk vaxtlarında dövlət başçıları (Çingiz xan Yasasına (konstitusiya) uyğun olaraq ümumi toplanmış qurultayda seçilir və Ali monqol xaqanlığı tərəfindən təsdiq edilirdi. Lakin sonralar dövlətin zəiflədiyi və feodal ara müharibələrinin gücləndiyi XIII əsrin sonu XIV əsrin ikinci yarısında xanların qurultayda seçilməsinə demək olar ki, son qoyuldu və tədricən aradan çıxdı. Feodal ara mü-

haribələrində qələbə çalan feodal sülalələri (Çobanilər, Cəlairilər) hakimiyyətə sahib olurdular.

Hülakülər dövləti yarandıqdan sonra **iki idarəetmə** sistemi, yəni monqol dövlətinin və yerli dövlətə məxsus olmuş idarə sistemi birləşdirildi. Məhz bu zəmində təkmilləşdirilmiş dövlət quruluşu formalaşdı. Əslində Hülakülər dövlətində hərbi idarə sisteminə, təsərrüfata nisbətən üstünlük verilirdi. Dövlətin hərbi qüvvələri baş əmirin ixtiyarında idi. **Baş əmir** dövlətin dörd yüksək rütbəli əmiri arasından seçilir və elxan tərəfindən təsdiq olunurdu. Digər üç əmir isə **"qol əmirləri"** adlanırdı. Rəsmi sənədlərdə hökmdarın adından sonra bu dörd əmirin adı, sonra isə vəzirin adı yazılırdı. Baş əmirlər Hülakülər dövlətinin idarəsində həlledici rol oynamış və bəzən də dövlətin faktiki hakimi kimi fəaliyyət göstərmişlər.

Hülakülər dövlətinin idarə olunmasında iki dövlət aparatı təsərrüfat idarəsi üzrə "Divan sistemi" və hərbi-inzibati idarələr üzrə "Əmarət" (əmirlik) əhəmiyyət kəsb edirdi.

Mərkəzi dövlət divanına vəzir və onun naibi başçılıq edirdi. Buraya 20-dən artıq sahə üzrə divanlar tabe idi. Maliyyə sisteminə **mustovfi** baxırdı. Bu sistem maliyyə işləri üzrə divan tərəfindən idarə olunurdu. Bütün dövlət gəlirləri həmin divana daxil olur və xərclənirdi. Divan idarəsinin müavini (**mühəssil**) gəliri toplayır, böyük və kiçik **bitikçilər** (yazar, katib) tərəfindən işlər aparılırdı. Dövlət torpaqları maliyyə divanına tabe edilmişdi. Ümumiyyətlə, mühasibat işləri **7 dəftər** əsasında aparılırdı. Bu dəftərlərdə maliyyə sahəsində baş vermiş gündəlik hadisələr, təsərrüfatın müxtəlif sahələri üzrə hesabatlar, mərkəzi divana aid xərclər, vilayət və şəhərlər üzrə qeydlər, ölkənin qanun toplusu və s. cəmləşmişdi. Paytaxt şəhərinə aid dəftərlər başqa yerlər üçün bir növ ölçü (qiyas) rolunu oynayırdı.

Hülakülər dövlətinin ərazisi inzibati cəhətdən vilayətlərə, onlar isə **"tümən"lərə** bölünmüşdü. Şirvanşahlar isə illik xərac verməklə vassal asılılığından olan müstəqil inzibati vahid idi. Azərbaycanın digər əraziləri isə 9 tümənə bölünmüşdü və hər biri Azərbaycanın iri şəhərlərindən birinin adı ilə (Təbriz tüməni, Ərdəbil tüməni və s.) adlanırdı. Azərbaycan bir vilayət kimi iki nəfər tərəfindən idarə olu-

nurdu. Vilayət hakimlərinin vəzifəsinə hökumətin mənafeyini müdafiə etmək və göstərişləri yerinə yetirmək, sərhədləri qorumaq, təsərrüfatı idarə etmək, xalq hərəkatını və sinfi mübarizəni boğmaq daxil idi. Tümənlər isə dövlətin vergi siyasətini həyata keçirirdi. Tümən əmirləri tabeliklərində olan **nahiyələrə** rəhbərlik edirdilər. Tümən əmiri birbaşa vilayətdəki əmirüəlümarəyə tabe idi. Maraqlıdır ki, Hülakülər nəslindən olan tümən əmirləri isə vilayətdəki əmirüəlümarəyə deyil, birbaşa hökmdara tabe idi.

Dövlətin idarə edilməsində dini hakimiyyətin də xüsusi rolu vardı. Məlumdur ki, ilk elxanların dini siyasətləri yerli əhali ilə gəlmələrin arasında ziddiyyətlər yaratmışdır. Bütpərəst monqollar islama qarşı ciddi mübarizə aparırdılar. Onlar ölkənin baş qazısı vəzifəsini tanımamış, vəqf torpaqlarını zəbt etmiş və islamın dövlət aparatındakı mövqeyini zəiflətmişdilər. Lakin Qazan xanın dini islahatı və islamı yenidən dövlət dini elan etməsi nəticəsində bütpərəst monqolların əksəriyyəti islamı qəbul etdi. Onun fərmanı ilə islamı qəbul etməyən monqollar ölkəni tərk etməli idilər.

Ölkənin dini işlər idarəsinə **qazı-ül-qüzzat** (qazılar qazısı) məsuliyyət daşıyırdı. Onun sərəncamında "qazılər dördlüyü", vilayət və şəhər qazıları işləyirdilər. Baş qazı şəriət qanunları əsasında mühakimə aparır, dini baxışların genişlənməsi, gəlirin artırılması, vəqf əmlakının mühafizəsi ilə məşğul olurdu. Zəkat və cizyə toplanması, əhali arasında nizam-intizamın qorunması, məscid, mədrəsə və tibb sahələrinin idarəsi dini idarələrin öhdəsinə düşürdü.

Qazan xanın məhkəmə islahatı ölkədə hökm sürən hüquqi özbaşınalıqların qarşısını almağa, məhkəmə işlərinin həddən artıq dolaşıq olması "qazı" vəzifəsinin icarəyə verilməsinə və onun mənfi nəticələrini aradan qaldırılmasına yönəldilmişdi. 30 illik müddətə malik olan iddiaların öz hüquqi qüvvəsini itirdiyi elan edilirdi. Məhkəmə rüsumları dəqiqləşdirilirdi. Cinayətkarın cəzalandırılması üçün müvafiq tədbirlərin görülməsi barədə işlərin aparılması tövsiyə olunurdu. Qazan xan məhkəmə islahatını tam həyata keçirə bilmədi.

Ordu. Hülakü qoşunu tümənlərə (on minliklərə), minliklərə, yüzlüklərə və onluqlara bölünmüşdü və müvafiq əmirlər tərəfindən ida-

rə olunurdu. Qazan xanın **hərbi islahatı** ordunun daha da güclənməsinə xidmət edirdi. Onun özünə şəxsən tabe olan xüsusi ordu dəstəsi yaradıldı. Belə ki, hər bir minlik yanında şəxsi mühafizə dəstəsi kimi yüzlük yaradıldı, həmin yüzlük ümumi qoşun sayına daxil olmayıb, şəxsən hökmdara tabe idi. Qoşunun iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün iqta torpaqları paylanıldı. Qoşunun saxlanılması üçün istifadə olunan tağar, yəni vəsait toplanması yeni qaydaya görə vilayətlərdəki anbarlarda toplanılır, sonra ehtiyaca görə paylanılırdı.

Qoşunlar yürüşə çıxmazdan əvvəl yüzbaşılar öz yüzlüyünü sayıb minbaşılara, onlar da tümən başçılarına, tümən başçıları isə öz növbəsində qoşun başçıları olan əmirlərə hesabat verirdilər. Minbaşıların hər birinə iqta verilirdi. Belə mülklərdən ödənc vergisi alınmırdı.

Təbriz sənətkarları monqolların işlətdiyi ayrı-ayrı silah növlərini də düzəltməyi mənimsəmişdilər. Azad sənətkarların istehsal etdiyi silahlar əsirlərin hazırladığı silah növünə nisbətən yüksək keyfiyyətli olurdu. Məhz buna görə də Qazan xan əmr etmişdi ki, alınacaq silahın pulu qoşunun özünə verilsin və onlar istədikləri silahı azad sənətkarlardan ala bilsinlər. Orduda dərzi, çəkməçi, dəmirçi və s. səyyar sənətkarlar da var idi. Onlar qoşunlarla birlikdə hərəkət edir, tələb olunan işləri icra edirdilər. Orduda inaq, bukaul, yasaul, yurdçu, bolarğuçi, bəxşi və s. məmurlar xidmət edirdi. İnaqlar hərbi məsləhətçi idilər. Bukaullar divandan ayrılmış ixracatı və yürüşlərdən əldə olunan gəlirləri hərbi hissələr arasında bölməli, ordu hissələrinin təminatı ilə məşğul olmalı idilər. Düşərgədə, yaylaq və qışlaqlarda padşahın və hərbi hissələrin yerləşdiyi məskənlər – yurdlar yurdçular tərəfindən salınırdı. Bəlarğuçu öz dəstəsi ilə qoşun hissələri çəkildikdən sonra döyüş meydanlarında, yurdlarda qalıb itkin düşmüş, azmış adamları, mal-qaranı və əşyaları toplayıb sahiblərinə çatdırmalı idi. Hərbi kargüzarlıq bəxşilər tərəfindən aparılırdı.

Məhkəmə. Hülakülərin ədliyyə sistemi iki böyük hissəyə ayrılırdı. Şahzadələrə, köçəri feodallara, hərbi hissələrə aid ədalət mühakimləri Çingiz xanın yasasına əsaslanan yarğu məhkəmələrində, yerli əhaliyə aid mühakimələr isə qəza məhkəmələrində şəriət qanun-

ları əsasında aparılırdı. Yarğu məhkəmələrinin şəriət məhkəmələrinin işinə müdaxilə etməsi qanunla qadağan edilmişdi. Məhkəməyə müraciət edən tərəflər hakimə və onun mirzəsinə xüsusi rüsum verməli idilər.

Yarğu məhkəməsinin tərkibinə iri feodallar, hərbçilər daxil olurdu. Ciddi mübahisələrə yarğu məhkəməsində hökmdarların özü baxırdı. Tümənlərdə dünyəvi mühakimə işlərini əmirlər və onların məmurları aparırdılar.

Qazan xanın islahatından sonra dövlət məhkəmələri ilə yanaşı, müsəlmanlar arasında münasibətləri tənzim edən şəriət məhkəmələri öz əvvəlki mövqelərinə qaytarılaraq mühüm əhəmiyyət kəsb etməkdə davam edirdilər. Bütün tümənlərdə şəriət məhkəmələri bərpa edilmişdi. Həmin məhkəmələrdə hakim vəzifəsini qazılar tuturdular. Onların fəaliyyəti üzərində nəzarəti isə hökmdar tərəfindən təyin olunmuş "Qazi-ül-qüzat", yəni qazılar qazısı həyata keçirirdi. Onlar adətən müsəlman hüququnun biliciləri arasından təyin edilirdilər.

Hüququn inkişafı. Monqollar Çingiz xanın yaratdığı dövlətdə birləşənə qədər tayfa adətləri (yasa) əsasında ictimai münasibətləri tənzimləmişdilər. Məhz Çingiz xanın göstərişi ilə 1206-cı ildə monqol qanun və adətlərinin külliyyatı "Böyük Yasa"da sistemləşdirilmişdir. "Böyük Yasa" bütün monqolların böyük qurultayında, 1206-cı ildə təsdiq edilmişdir. Çingiz xan yasasının yalnız müəyyən hissəsi bizə gəlib çatmışdır. Yasa monqollar islamı qəbul etdikdən sonra qüvvədə olmuşdur.

XIII-XIV əsrlərdə hüququn inkişafında Qazan xanın torpaq, vergi, pul, hərbi, din və rabitə islahatlarının mühüm rolu olmuşdur. Hülakülər dövlətində vahid hüquq normaları ilə tənzim edilən iqtisadiyyat vergilərin vaxtında toplanmasına xidmət edirdi.

XIII əsrin ikinci yarısında ölkə daxilində baş verən iqtisadi böhranlar maliyyə sahəsində çətinliklər yaradırdı. Keyxatu xanın (1291-1295-ci illər) dövründə Elxanilərin saray xərcləri həddən artıq çoxalmışdı. Ayrı-ayrı dövlət məmurlarının israfçılıq və rüşvətxorluğu hesabına xəzinə boşalmışdı. Ölkədə Keyxatu xanın xüsusi yarlığı (fərmanı) əsasında qızıl və gümüş alveri dayandırılır. Qızıl və gümüşdən əşya hazırlanmasının qarşısı alınır.

1294-cü il sentyabrın 15-də Keyxatu xanın fərmanı ilə sikkə əvəzinə **"çao"** adlanan kağız pul buraxılır. Təbrizdə bu dövrdə kağızqayırma emalatxanası mövcud idi. Lakin fərman sənətkarlar və tacirlərin böyük etirazına səbəb olur. Hökmdar "çao" qəbul etmək istəməyən əhalini ağır cəza verəcəyi ilə hədələyirdi. Paytaxda kağız pulla alver 2 aydan artıq çəkmədi. Tacirlər dükanlarını bağlayıb şəhəri tərk edirdilər. Bazarda alver tamamilə dayandı. Əhalinin qəti və inadlı müqavimətindən sonra "çao" ləğv edildi və alver yenə də sikkə ilə aparılmağa başlandı.

Qazan xan Keyxatu xan tərəfindən başlanan **pul islahatını** davam etdirdi. Dövlətin ayrı-ayrı tümənlərində işlədilən müxtəlif pullar ləğv edilir. Bütün ölkə üçün vahid pul sistemi yaradılır. Belə ki, müxtəlif əyarlı sikkələrin olması saxta pulların hazırlanması üçün şərait yaradırdı. Qazan xan bunun qarşısını almaq üçün üstündə Allahın adı ilə başlayan, peyğəmbərin və Qazan xanın adı olan, həmçinin Qurandan ayə və on iki imamın adı olan sikkələr buraxılmasına nail oldu. Bütün sikkələrin ölçüsü və həcmi eyniləşdirilirdi. Bu tələblərə cavab verməyən sikkələr zay məhsul kimi dövriyyədən çıxarılırdı. Saxta və aşağı əyarlı sikkələrdən istifadə etmək cinayət əməli sayılırdı. Belə şəxslərə sikkəni haradan aldıqlarını müəyyən etməklə ağır cəza verilirdi. Qazan xanın sikkələrində bir dinarda üç misqal qızıl olmalı idi.

Qazan xanın hakimiyyəti illərində iqta torpaq mülkiyyəti yeni inkişafını tapır. Onun hakimiyyətinə qədər olan dövrdə monqollarda iqta institutu inkişaf etməmişdir. Hülakü qoşununa da xidmət müqabilində, əhalidən toplanan tağar vergisindən müəyyən edilmiş miqdarda ərzaq məhsulları və bəzi hallarda "sər tağar" adlanan adambaşına düşən ərzaq vergisi paylanılırdı. Qoşunun maddi vəziyyətini yaxşılaşdırmaq məqsədilə Qazan xan 1303-cü ildə verdiyi fərmanla onlara iqta paylanılmasına əmr verir. Fərmanda göstərilirdi ki, "qoşunların keçdiyi yollar" üzərində yerləşən torpaqlardan hərbçilər üçün iqta torpaqları ayrılsın. Xüsusilə, sərhəd ərazilərdə belə torpaqlar paylanılırdı. Qızıl Orda xanlarının tez-tez sərhəd ərazilərinə basqın etmələrini nəzərə alaraq Qazan xan ilk növbədə bu bölgələrdən torpaqları iqta kimi paylayırdı.

Qazan xanın fərmanında qeyd edilirdi ki, iqta sahibi torpaqlardan vergi toplamaqda, kəndliləri müəyyən mükəlləfiyyətlər yerinə yetirməyə məcbur etməkdə tam iqtidar sahibi idilər. Lakin iqta torpaqları mərkəzi dövlət aparatının tabeliyinə daxil idi. Mərkəzi hərbi divanın məmuru (**bitikçi ariz**) hər il iqta torpaqlarını təftiş etmək hüququnu özündə saxlamışdır.

Qazan xanın fərmanına əsasən iqta torpaqları püşkatma yolu ilə yüzlüklər və onluqlar arasında bölüşdürülürdü. İqta almış hər bir hərbçi nəinki torpağın, hətta orda yerləşən suvarma sisteminin, otlaqların və nəhayət, kəndlilərin sahibinə çevrilirdilər. Fərmanda xüsusi olaraq qeyd edilirdi ki, "incu" və "divan" torpaqlarında çoxdan yaşayan, qopçur və digər mükəlləfiyyətləri yerinə yetirən kəndlilər yeni sahiblərinə – hərbi iqta almış torpaq sahiblərinə eyni ilə həmin vergi və mükəlləfiyyətləri ödəməlidirlər. İqta sahibi isə öz növbəsində 50 man Təbriz qiyaləsi həcmində dövlətə vergi verməli idi.

Fərmana əsasən hərbçilər mülk sahiblərinə (malik) və vəqflərə məxsus torpaq və suvarma sistemini və ondan gələn gəlirləri mənimsəyə bilməzdilər. Xidmət müqabilində verilmiş iqta vərəsəlik yolu ilə atadan oğula keçirdi. Lakin torpaqların özgəninkiləşdirilməsinə qanunla icazə verilmirdi. Hərbi xidməti buraxıb mülki xidmətə keçən hərbçilərdən iqtalar geri alınırdı.

Qazan xanın ölçü və çəki sahəsində islahatının əhəmiyyəti böyük idi. Ticarətin inkişafının təmin edilməsində pul islahatı ilə yanaşı, ölçü və çəki islahatı da ticarətdə qayda-qanun yaratmaqda, fırıldaqların qarşısının alınmasında, bazarlarda gömrük toplanmasında, həmçinin alqı-satqıda işləri xeyli sadələşdirir və asanlaşdırırdı. Qazan xanın fərmanı ilə çəki və ölçü vahidləri Təbriz şəhərinin çəki və ölçü vahidləri ilə tarazlaşdırılırdı. Qızıl və gümüşün çəkilməsi üçün ustalar tərəfindən 8 bucaqlı çəki daşları hazırlanaraq üzərlərinə möhür vurulmuşdu. Çəki daşları dövlətin müxtəlif ərazilərindən gələn rəsmi şəxslərə verilir və bu barədə xüsusi ayrılmış kitabda qeydiyyat aparılırdı. Təbriz çəki daşı adlandırılan belə daşlar vilayətlər üçün ümumi etalon kimi götürülürdü. Yüklərin çəkilməsi üçün 11 ədəd çəki daşı düzəldilmişdi.

Arpa və buğdanın ölçülməsi üçün hər Təbriz qiyaləsi 10 man çəkidə olmalı, hər man 260 dirhəm, 10 qiyalə bir tağar həcmində olmalı idi. Bütün vergilər həmin ölçülərlə alınırdı. Etibarlı şəxslər və xüsusi vəzifəli şəxs olan möhtəsib birlikdə qiyalələri yoxlayır, saxtakarları cəzalandırmaq üçün qazıların yanına gətirdərək cəza verilməsi üçün tədbirlər görülməsini tələb edirdilər.

Uzunluq ölçü vahidi olan qiyaslar isə Təbriz qiyası etalonunda olmalı idi. Digər qiyaslar ləğv edilir, tətbiqi qadağan olunurdu. Qiyasın hər ucuna möhür vurulurdu ki, saxtalaşdırılması, uzadılıb-qısaldılması mümkün olmasın. Həcm ölçülərini saxtalaşdıran və dəyişdirənlər əlləri kəsilməyə, uzunluq ölçülərini dəyişdirənlər isə edama məhkum olunurdu.

Qazan xan 1304-cü ildə vergilərin nizama salınması haqqında fərman verdi. Vergilərin növü, miqdarı, toplanması üsulu və vaxtı barədə dəqiq qayda-qanun yaradılırdı. Vergi toplanmasının icarəyə verilməsi məhdudlaşdırıldı. Hər bir vilayət, şəhər və kənd üçün vergi siyahısı tərtib edildi. Vergi verənlərin siyahısı müəyyən edilir, hər bir inzibati vahidin ödəyəcəyi verginin məbləği böyük lövhələrə əks etdirilib ictimaiyyətin nəzərinə çatdırılırdı. Vergi yalnız müəyyən edilmiş müddətdə toplanmalı idi. Vergilərin pulla və ya natura ilə ödənilməsi dəqiq müəyyən edilmişdi. Qeyri-qanuni vergilərin toplanması qadağan edildi. Hərbi və mülki məmurların rəiyyət evində qalması qadağan edilirdi. Hələ 1301-ci ildə Təbriz şəhərinin əhalisi bir sıra vergi və mükəlləfiyyətlərdən azad edilmişdi. Bir sıra şəhərlərdə isə sənətkar və tacirlərin vəziyyətini müəyyən dərəcədə yüngülləşdirmək məqsədilə tamğa vergisi ləğv edilmişdi. 1304-cü il fərmanında isə tamğa toplanması bütün ölkə üçün xeyli azaldıldı. Hər vilayətdən toplanan xərac və qopçurun miqdarı qəti müəyyənləşdi. Xəzinəyə daxil olan pul və qiymətli əşyalar siyahıya alınır və möhürlənirdi. Xəzinədən vəsait ayrılması Qazan xanın yazılı göstərişindən sonra buraxıla bilərdi.

Vergilərin yığılması baş divanın sərəncamına verildi və vilayət hakimiyyətinin bu işə qarışması qadağan olundu. Qazan xanın islahatı vergi toplanmasının iltizama verilməsi təcrübəsini ləğv etməsə də,

bu işdə ciddi qayda-qanun yaratdı. Vergi toplanması yalnız üç il müddətinə iltizama verilə bilərdi. Toplanmış verginin istifadə edilməsi üzərində dövlət xəzinələrinin nəzarəti gücləndirildi.

Qazan xanın rabitə sahəsindəki islahatı ölkədə vahid rabitə sisteminin yaradılmasına səbəb oldu. Onun fərmanına əsasən bütün əsas yollarda hər 3 fərsəxdən bir (21 km) rabitə dayanacaqları - "çaparxanalar" yaradıldı. Çaparxanalara əmirlər təyin olundu və onlar lazımi qədər qulluqçu və atla təmin olundu. Çaparlar vergilərin yığılmasında, poçt xidmətində və dövlətlərarası münasibətlərdə xüsusi əhəmiyyət kəsb edirdi. Ona görə də dövlət çaparlarına qızıl möhürlü vəsiqələr verilərək, onların hansı mənzilə getmələrini göstərən məktublar verilirdi. Hökmdardan başqa kimsənin çapar göndərməyə hüququ yox idi. Qazan xanın rabitə sahəsindəki fərmanına qədər çaparlar nəinki qarşılarına çıxan rəiyyət və kimsəsizləri, hətta daha yüksək əmirlərin və feodalların çaparlarını yollar boyu soyur, əmlakını əlindən alıb satırdılar. Fərmandan sonra çaparlara yol yeməkləri kifayət qədər xəzinədən verildiyindən onların yol boyu əhalidən yemək almağı qadağan edilirdi. Ona xəzinədən yol üçün kifayət qədər yemək dəyərində pul ayrılırdı. Tümənlərə məxsus çaparxanalar ləğv edilmiş və vahid mərkəzdən idarə edilən çaparxanalar yaradılmışdı. Qazan xanın fərmanında mövcud paysızlar (xüsusi nişan) ləğv edilir və yeniləri hazırlanırdı.

VII FƏSİL

XV əsrdə Azərbaycanın dövlət və hüquq tarixi


Qaraqoyunlu dövlətinin yaranması. XV əsrin ortalarından başlayan feodallar arasındakı mübarizə Azərbaycanda siyasi pərakəndəliyi daha da gücləndirdi. Elxanilər dövləti süqut etdikdən sonra Şirvanşahlar dövləti Azərbaycanda mərkəzləşmiş dövlətin yaranmasında mühüm əhəmiyyət kəsb etməyə başlamışdı. Qəbələ, Şəki və bir sıra mahallar müstəqillik əldə etdilər. Azərbaycanın cənubunda isə Çobanilər və Cəlairlər sülaləsindən çıxmış ayrı-ayrı monqol feodalları hökmranlıq edirdilər.

XV əsrin əvvəllərində, xüsusilə Əmir Teymurun (1405-ci il) vəfatından sonra Azərbaycanın vahid bir hakimiyyət altında birləşməsi üçün əlverişli şərait yaranmışdı. 1410-cu ildə cəlairi Sultan Əhmədi məğlub edən qaraqoyunlu Qara Yusif böyük bir dövlətin – Qaraqoyunlular dövlətinin əsasını qoydu. Bu dövlətin ərazisinə şimalda Kür çayına qədər Azərbaycan torpaqlarının böyük hissəsi, Ermənistan, Ərəb İraqı daxil idi. Baharlu tayfasından olan Qara Yusif Cənubi Azərbaycanı bilavasitə özü, dövlətin qalan hissəsini isə oğlanları idarə edirdilər. 1468-ci ilədək mövcud olmuş Qaraqoyunlu dövlətinin paytaxtı Təbriz şəhəri idi.

Qara Yusif görkəmli bir şəxsiyyət idi. O, tez bir vaxtda güclü dövlət yarada bilmişdir. Onun əsgərləri mükəmməl silahlanmış süvari qoşundan ibarət idi. Döyüşçülər yaxşı at minməkdə və sərrast ox atmaqda şöhrət qazanmışdılar. Qara Yusif mətanətli və iradəli olmaqla bərabər sərt olmağı ilə məşhur idi. Onun sərtliyi isə tamamilə əməli məqsədlərdən doğurdu.

1412-ci ildə Qaraqoyunlular digər böyük Azərbaycan dövləti olan Şirvanşahları məğlub edərək I İbrahimi əsir aldılar. Lakin böyük xərac hesabına Şirvanşah azad edildi və Qara Yusifin verdiyi fərmanda deyilirdi ki, Şirvan vilayətinin idarəsini, Şəkidən tutmuş Dərbəndə

(Bab-ül-Əbvava) kimi, bütün şəhərləri ilə birlikdə, Əmir Şeyx İbrahimin, əvvəllərdə də hakimlik etdiyi əsas üzrə biz (Qara Yusif) ona bağışladıq. Qoy heç bir kəs bu fərmanın əksinə hərəkət etməsin. 1420-ci ildə Qara Yusif vəfat etdi. Onun oğlanları arasında hakimiyyət uğrunda mübarizə genişləndi. Qaraqoyunlu İsgəndər (1422-1429 və 1431-1435) atası kimi şücaətli döyüşçü olsa da, əmirləri itaətdə saxlaya bilmirdi. Qaraqoyunlu padşahlarının ən qüdrətlisi isə Cahanşah (1435-1467-ci illər) atası Qara Yusif və qardaşı İsgəndərin tam əksi olaraq gözəl təhsilli, dövləti idarə etməkdə istedada malik olan bir şəxs idi.



1467-ci ildə Ağqoyunlu Uzun Həsən Cahanşahı məğlub edərək öldürdü. Bununla da Qaraqoyunlu dövlətinə ağır zərbə endirildi. Cahanşahın oğlanlarının dövləti bərpa etmək cəhdi bir nəticə vermədi. Beləliklə, Qaraqoyunlu dövləti dağıldı və paytaxtı Təbriz şəhəri olmaqla Ağqoyunlu dövləti daha da möhkəmləndi.

Ağqoyunlu dövləti. Ağqoyunlu dövlətinin başında Bayandur tayfası dururdu. Bayraqlarında ağ qoyun şəkli olduğuna görə onlara ağqoyunlular deyirdilər. Ağqoyunlu dövlətinin ən görkəmli padşahı Uzun Həsən ləqəbi ilə məşhur olan Həsən bəy (1453-1478-ci illər) idi. O, istedadlı hökmdar və sərkərdələrdən biri olmaqla əhalini intizama öyrətməyi və itaətdə saxlamağı bacarırdı. Ağqoyunlu dövləti daxili quruluşu etibarilə Qaraqoyunlu dövlətindən o qədər də fərqlənmirdi. Dövlətin tərkibinə Ərdəbil vilayətindən başqa Cənubi Azərbaycan, şimalda Qarabağ, Ermənistan, Kürdüstan, Diyarbəkir, Ərəb İraqı, İran İraqı, Luristan, fars və Kirman daxil idi.

Uzun Həsən islahatçı hökmdar kimi də tanınırdı. Hərbi əyanlar dövlətdə hakim mövqe tuturdular. Onlar Uzun Həsənin mərkəzləşmə siyasətinə qarşı çıxır və daxili müstəqilliklərini saxlamağa çalışırdılar. Uzun Həsənin oğlu Uğurlu Məhəmməd Türkiyə sultanı tərəfinə keçərək dövlətə qarşı təxribat aparırdı. 1473-cü ildə Ağqoyunlular iki dəfə Osmanlılarla müharibə aparmalı oldu. Malatiya döyüşündə qalib gələn Uzun Həsən Tərcan döyüşündə böyük məğlubiyyətə uğradı.

Uzun Həsən Şirvanşah Fərrux Yassar və Ərdəbil şeyxi Heydərlə dostluq münasibətləri yaratmışdı. 1478-ci ildə Uzun Həsən vəfat etdi. Onun oğlanları hakimiyyət uğrunda bir-biri ilə mübarizəyə başladılar. Sultan Yaqub (1478-1490-cı illər) Şirvanşahlarla dostluq münasibətlərini davam etdirirdi. Ağqoyunlu Rüstəm padşahın (1492-1497-ci illər) dövründə bu münasibətlər pozularaq düşmənçiliyə çevrildi. O, Şirvana hücum edərək ölkəni viran etdi.

1497-ci ildə Rüstəm padşahı məğlub edən Uğurlu Məhəmmədin oğlu Əhməd Təbrizdə taxt-taca sahib oldu. Gödək Əhməd adı ilə məşhur olan padşah mərkəzləşmiş dövlət tərəfdarı idi. Feodal əyanların mövqeyini zəiflətmək üçün həmişəlik verilən soyurqalların ləğv edilməsi və digər islahatlar barədə xüsusi fərmanlar vermişdi. Məhz

iri feodalların qaldırdığı üsyan nəticəsində cəmi 7 ay hakimiyyətdə olmuş Gödək Əhməd öldürülür, onun bir çox tərəfdarları məhv edilir. Gödək Əhmədin ölümündən sonra Ağqoyunlu dövləti padşahlıq iddiasında olan Murad və Əlvənd arasında iki yerə bölünür.

Şirvanşahlar dövləti. VI əsrdən paytaxtı Şabran olan Şirvanşahlar dövləti demək olar ki, daim daxili muxtariyyətini saxlamış, Əmir Teymurun vəfatından sonra vahid Azərbaycan dövlətini yaratmağa çalışmışdır. 1382-ci ildə kəsrani Hüşəng öldürüldükdən sonra Şirvanda hakimiyyətə Dərbəndilər sülaləsindən (1382-1538-ci illər) olan I İbrahim (1382-1417-ci illər) gətirildi. Böyük dövlət xadimi və bacarıqlı diplomat olan I İbrahim, dövlətin istiqlaliyyətinin təmin edilməsində, Əmir Teymurun Şirvanı talan etməsinin qarşısının alınmasında böyük səylər və diplomatik uzaqgörənlik göstərmişdir. Bununla da o, öz dövlətini qoruyub möhkəmləndirməyə nail ola bilmişdir.

XV əsrdə Şirvan I Xəlilullahın (1417-1462-ci illər) və Fərrux Yəssarın (1462-1500-ci illər) dövründə də siyasi yüksəlişini keçirirdi. Şirvanşahlar Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin mənafeyinə toxunmadan öz torpaqlarını genişləndirmiş, Dərbənd əyalətləri ilə birlikdə Şirvanın tərkibində olmuşdur. **XV əsr Şirvanın tərəqqisi dövrüdür. Şirvanın vətənpərvər hökmdarları I İbrahim, I Xəlilullah və Fərrux Yəssar ölkənin istiqlaliyyətini xarici düşmənlərdən qorumaqdan başqa,** dövlət daxilində sülh və asayişi də təmin edə bilmişdilər. Məhz Şirvanda daxili, sülalələr arası vuruşmalar olmamışdır.

Hələ XIV əsrin axırlarından başlayaraq, Miranşah Şirvanı müstəqil dövlət kimi tanıdıqdan sonra Şirvan hökmdarları sultan titulunu qəbul etmişdilər. Fərrux Yəssarın dövründə Şirvanşahlar öz adlarından yenidən sikkə buraxdırırdılar. Bu dövrdə Şirvanşahların iqamətgahı Şamaxı və Bakı idi. I İbrahim dövründə Şəki vilayəti Şirvanşahların müttəfiqinə çevrilmişdi. Onun vasitəçiliyi ilə Sidi Əhməd Orlatın oğlu Sidi Şəmsəddin Əli 1498-ci ildə Şəki vilayətində hakim olmaq üçün Teymurdan fərman almışdı. XV əsrdə Qəbələ vilayəti Şirvanşahlara tabe idi.

İctimai quruluş. XV əsrdə Azərbaycan dövlətlərində monqollar hakimiyyəti dövründə olan feodal üsul idarəsi inkişaf etməkdə idi.

Hakim feodal sinfi əsasən **dörd qrup** təşkil edirdi. Bunlardan birincisi qədim yerli oturaq əyanlardan (**məliklər**), ikincisi köçəri tayfaların hərbi əyanlarından (**əmirlər**), üçüncüsü **ali mülki bürokratiyadan ibarət məmurlardan** və dördüncüsü **ali müsəlman ruhanilərdən,** yəni sədrlər, qazılər, seyidlər, üləmalar, nüfuzlu şeyxlər və vəqf əmlakını idarə edənlərdən (mütəvəllilərdən) ibarət idi.

Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində hərbi-köçəri əyanlar siyasi rəhbər rolu oynayırdılar. Qaraqoyunlu dövlətində feodal münasibətləri yüksək inkişaf mərhələsinə çatmışdır. Lakin feodal pərakəndəliyi mərkəzləşmiş dövlətin yaranmasında əsas maneə idi. XV əsrin əvvəllərində Bərdə və Gəncə vilayətləri köçəri Qaraman qəbiləsindən olan əmir Yarəhməd Qaramana məxsus idi. Belə torpaqlar irsi olaraq onun oğlanlarına çatırdı. Ərdəbil vilayəti Çagirlər qəbiləsindən olan Bistam Cagirin feodal mülki idi. Muğanda, Talışda, Qaradağda, Naxçıvanda, Urmiyədə və Azərbaycanın bir sıra yerlərində yerli sülalələrdən olan feodallar irsi torpaq mülkiyyəti immunitetinə malik idilər. Eyni zamanda bunların hamısı xırda dövlət başçısı olub bir-biri ilə çəkişirdi. Bəzi sülalələr isə çox zaman mərkəzi hakimiyyətə tabe olmayıb, dövlətə qarşı mübarizəyə də başlayırdılar.

Ağqoyunlu dövləti daxilində Bayandur, Pornaq, Mövsilu və Qacar tayfaları böyük qüdrətə malik idilər. Bu tayfanın əyanları padşahların mərkəzləşmə siyasətinə qarşı çıxır və çox zaman üsyan qaldırırdılar. Ağqoyunlu padşahları iri feodal əyanlarla mübarizədə müsəlman (sünni) ruhanilərinin köməyinə arxalanırdılar.

Köçəri tayfanın irsi başçısına (Mirielinə) həmişəlik olaraq idarə etmək üçün hər hansı bir mahal verilirdi. Onun varisləri belə mahallara irsi sahiblik hüququna malik idilər. Bu mahal həmin tayfanın ocağı hesab olunurdu. Mahalın torpağı köçəri əyanlar (əmirlər) arasında bölüşdürülürdü. Belə torpaqlarda yaşayan kəndlilər həmin əyanlardan asılı idilər.

Köçəri əyanların və mülkədarların torpağı iki hissəyə ayrılırdı. Kənd icmalarına məxsus olan və kəndliyə yarılığa verilən torpaqlar əyanların əsas gəlir mənbəyi idi. Torpaqların icarəyə verilməsi də

geniş yayılmışdı. Kəndli feodal rentasını ödəməklə yanaşı, məhsulun yarısından beşdən üç hissəsinə qədərini müqavilə əsasında torpaq sahibinə verirdi.

İri feodalların qəsrləri mövcud olmuşdur ki, onun dövrəsi bürcləri olan iki qat divarla əhatə edilirdi. Qəsrlərdə uzun müddətə müdafiə olunmaq üçün ərzaq və silah ehtiyatı toplayırdılar.

XV əsrdə Azərbaycan feodal dövlətlərində XIII-XIV əsrlərdə tətbiq edilən feodal **torpaq mülkiyyəti formaları** saxlanılmışdı. Bu dövrdə dövlət torpağı – **divan,** dövlət başçılarının və ailə üzvlərinin xüsusi torpağı **xassə,** feodalların torpağı isə **mülk** adlanırdı. Mülkədar torpaqları irsi olmaqla nəsildən-nəsilə keçirdi. Mülkədarlarla yanaşı ruhani-feodallara məxsus böyük torpaq sahələri mövcud olmuşdur. Dini idarələrə məxsus vəqf yerləri və torpaqları vəqflərə aid idi. XV əsrdə vəqf mülkləri xüsusilə Təbrizin ətrafında olduqca çoxalmışdı. Kənd icmalarının istifadəsində olan torpaqlara çəmənliklər, meşələr, otlaqlar, biçənəklər və s. aid idi.

XV əsrdə əvvəllər mövcud olan **"iqta"** torpaq mülkiyyəti **soyurqalla** əvəz edilir. Monqollar dövründə yaranan **soyurqal** ilk vaxtlar elxana yaxın olan adamlara bəxşiş kimi verilirdi. Dövlət soyurqal adı ilə müəyyən adamlara torpaq bağışlayırdı. Burada "soyurqal" hökmdarın rəiyyətinə verdiyi hər cür "hədiyyə" mənasında işlənirdi. Soyurqalın Azərbaycanda hökmdar tərəfindən irsi olaraq hərbi xidmətdə olanlara verilən mülk mənasında işlədilməsinə ilk dəfə XIV əsrin son rübündə rast gəlinir, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu padşahları soyurqal verir, bəzi keçmiş soyurqalları isə yenidən təsdiq edirdilər.

Qaraqoyunlu Qara Yusif 1408-ci ildə teymurilər üzərində qəti qələbə çaldıqdan sonra bir çox əmirlərə, o cümlədən Şəmsəddin Ruzəkiyyə verdiyi **soyurqal hüququ** haqqındakı fərmanında qeyd edirdi ki, bütün tümən əmirlərinə və Kürdüstan minbaşılarına, sərdarlarına, hakimlərinə, xidmətçilərinə, ərəblarına, kələntərlərinə, əhalisinə, əyanlarına, kəndxudalarına və məliklərinə və habelə Bidlis, Əxlat, Muş, Xunus və ona tabe olan yerlərin məşhur adamlarına, vətəndaşlarına və sakinlərinə məlum olsun ki, oğulluğa götürdüyüm əmirin mənə olan kəmal-ixlası, birliyi və cansüparlığını nəzərə alaraq, Əmir

Şəmsəddini qabaqkı qayda ilə öz həmtaylarının arasında cürbəcür peşələr və soyurqallarla təmin edirəm. Buna görə də Bidlis, Əxlat, Muş və sair ona tabe olan qalaların və mahalların, hansılar ki bundan əvvəl də Əmir Şəmsəddinin ixtiyarında idi, hökumətliyi, əmirliyi, divan və mal-cəhət hüquqları yenə də ona qaytarılır. Heç kəsin buraya müdaxilə və müşarikəti ola bilməz. Qara Yusifin bu soyurqal haqqında verdiyi fərman bütün feodal əyanlara və vəzifə sahiblərinə xəbərdarlıq edirdi ki, heç kəs bundan sonra əmirin (soyurqal sahibinin) işinə qarışmasın, yerlərinin, qışlaqlarının və əkinlərinin ətraflarına dolaşmasın və onun adamlarını, rəiyyətlərini incitməsin. Hər kəs bu fərmana riayət etməzsə, məsuliyyətə alınacaq və ağır cəzaya məhkum ediləcəkdir. Soyurqal sahibinin sözündən və rəyindən çıxmasınlar, ona itaət edib bütün işlərini, müamilələrini əmirin adamlarından asılı bilsinlər, hər nə desələr onların sözündən çıxmasınlar, o, nə fərman yazarsa, ona əməl etsinlər.

Soyurqal da iqta kimi irsi olaraq nəsildən-nəslə keçən mülk idi. Qeyd etmək lazımdır ki, sonralar Şəmsəddin Ruzəki xəyanətdə ittiham edilərək edam edilsə də, soyurqal bütün XV əsrdə onun nəslinin əlində qaldı. Lakin kütləvi şəkildə paylanılan soyurqallar mərkəzi hakimiyyəti zəiflədirdi.

İqta üsulunda olduğu kimi, soyurqal sahibinə də **maaf,** yəni vergi imtiyazı verilirdi. Bu imtiyazlar rəiyyətlərə deyil, yalnız soyurqal sahibinə aid idi. İmtiyazı olan soyurqal sahibinin rəiyyətləri tərəfindən keçmişdə xəzinəyə (divana) verilən vergilər ləğv edilmirdi, lakin bu vergilərin toplanması hüququ soyurqal sahibinin ixtiyarına keçirdi.

Soyurqal sahibləri iqta sahiblərinə nisbətən daha artıq hüquqa malik idilər. Bir çox hallarda soyurqal sahəsinin geniş olması onu iqtalardan fərqləndirirdi. Soyurqal torpağında mövcud mənsəb sahibləri soyurqal sahibinə tabe idilər. Hətta mərkəzi idarələrin məmurlarına belə, soyurqal torpağına daxil olmaq qadağan edilmişdi.

Soyurqal fərmanlarını Azərbaycanda yalnız padşahlar deyil, onlara tabe olan hakimlər də paylayırdılar. Ərdəbil hakimi Şeyx Heydər Səfəvi 1483-cü ildə yazdığı fərmanla Cura, Macura və Urunkad icmalarını və əkin yerlərini soyurqal olaraq dərviş Şeyx Zahid nəslinə vermişdi.

XV əsrdə oturaq kəndlilər və şəhər əhalisi, XIII-XIV əsrlərdə mövcud olan vergiləri ödəməli və müxtəlif mükəlləfiyyətlər icra etməli idilər. Kəndlilərdən toplanan vergilərin bir qismi xəzinəyə daxil olurdu. Belə kəndlilər divan torpaqlarında çalışırdılar. Mülkədarlara çatan vergilər soyurqal və maaf imtiyazı olan torpaqlardan toplanırdı. Ağqoyunlu Sultan Yaqubun 1488-ci ildə verdiyi fərmanda mədrəsənin xeyrinə veriləcək və icra ediləcək 27 növ vergi və mükəlləfiyyətin adı qeyd olunmuşdu.

Bu vergi mükəlləfiyyətlərinin sırasında **"malcəhət"** və ya **"xərac"** adlanan torpaq vergisi əsas yer tuturdu. Bu vergi üzrə məhsulun bir hissəsi alınırdı. Müsəlman olmayan əhalidən cizyə vergisi alınırdı. Hərbi və mülki mənsəb sahiblərinin və ruhanilərin xeyrinə toplanan müxtəlif rüsum və mükəlləfiyyətlər olduqca ağır idi. Vergi dəftərlərində qeyd olunan bu mükəlləfiyyətlər **"ixracat"** (xərc) adı ilə məşhur idi. **"Ələfə"** və **"ülfə"** qoşuna ərzaq və süvarilərin atlarına ot vermək; **"ulaq"** nəqliyyat mükəlləfiyyəti; **"qunalqa"** yoldan keçən səfirlərə dövlət qasidlərinə, əmirlərə və məmurlara, bunların rəiyyətinə və nökərlərinə ərzaq vermək (bəzən öz evlərində yer vermək); **"işlanbaha"** yerli feodalların və hakimlərin süfrə (ərzaq) xərcləri; **"rəsmulsədarət"** baş ruhaninin nəfinə yığılan rüsum; **"rəsmüluzarət"** vəzirlərin nəfinə toplanan rüsum; **"daruçəki"** yerli inzibati və polis rəisi (darğa) üçün alınan rüsum; **"rüsumiümmal"** maliyyə idarəsi məmurlarının nəfinə toplanan rüsum və s. ixrac və şiltaqat (miqdarı təyin edən adamlardan asılı olan mükəlləfiyyətlər) mükəlləfiyyətlərdən hesab olunurdu.

Kəndlilərdən "peşkəş" adı ilə yerli feodal hakimləri və müxtəlif məmurların nəfinə başqa icbari rüsumlar da toplanırdı. **"Eydi"** müsəlmanların iki bayramı münasibətilə toplanan hədiyyə; **"novruzi"** novruz bayramı münasibəti ilə bayramlıq; **"peşkəş"** müxtəlif səbəblərə görə verilən bəxşişlər; **"saveri"** bəxşişlər; **"səlaməti"** feodalın müəyyən yerə gəlməsi və sair münasibətlə ona verilən hədiyyələr; **"bazdid"** feodalın yola düşməsi münasibətilə ona təqdim olunan hədiyyələr idi.

Bunlardan başqa **"təfavüt"** və **"xarici-saliyanə"** (illik vergiyə əlavə) adı ilə kəndlilərdən əsas torpaq vergisinə (mal-cəhətə) əlavə

olaraq vergilər də alınırdı. O cümlədən mal-qara sürüləri və otlaqlardan istifadə etmək üçün **"məvaşi"** (ərəbcə **"mal-qara"** deməkdir), **"mərai"** (ərəbcə **"otlaqlar"**), taxıl və şərabla alınan rüsum **"təqar"**, müxtəlif səbəblərə görə alınan əlavə rüsum **"əvarizat"** və s. adlı rüsumlar da yığılırdı.

Şəhər əhalisi və kəndlilər **"tərh"** adı ilə xəzinəyə (həmçinin də yerli hakimlərin nəfinə) dövlət qiymətilə, yəni bazar qiymətindən bir neçə dəfə ucuz, icbari surətdə müxtəlif mallar da təhvil verməli idilər. Xəzinənin (həmçinin yerli hakimlərin) rəiyyətdən vergi şəklində yığdığı ərzağı, tacir və sənətkarların bunlardan məcburi surətdə və bazar qiymətindən 4-5 dəfə baha qiymətə almaları haqqındakı qaydaya da **tərh** deyilirdi. Sənətkarlar və tacirlərdən xüsusi vergi (**"tamğa"**) toplanırdı. Bundan əlavə, başqa yerlərə aparılan mallar üçün gömrük ("bac") alınırdı.

Kəndlilər üçün ən ağır mükəlləfiyyət **"biyar"** idi. Qala və başqa ictimai binalar tikilərkən, yol çəkilən zaman, taxta-şalban və başqa inşaat materialları daşınan vaxt və habelə dövlət və yerli hakimlərin nəfinə görülən bütün məcburi işlərə **biyar** deyilirdi. Kəndlilərin mülkədarlar üçün məcburi və müftə işləməsinə də biyar deyilirdi. Mülkədarlar üçün görülən biyar başqalarına nisbətən o qədər də ağır deyildi, çünki onların xüsusi təsərrüfatları çox da böyük deyildi.

Ağqoyunlu hökmdarlarının fərmanlarında kəndli və sənətkarlara aid müxtəlif mükəlləfiyyətlərin adı çəkilir: **"arabaçılıq"** köç əsasında köçəri əyanlara nəqliyyat vəsaiti vermək; **"qapıçılıq"** – qapılarda və yollarda qarovul çəkmək, inşaat işlərində məcburi işləmək; **"çərik"** - feodalların qeyri-nizami qoşunlarında xidmət etmək.

Vergi verən qeyri-müsəlman əhali əvvəl olduğu kimi şəriətlə təyin edilmiş adambaşı vergisi – **cizyə** verirdilər. Cahanşahın dövründə Qaraqoyunlu dövlətində müsəlman olmayan əhalidən alınan cizyə və xəracın miqdarı artırılmışdı.

XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində köçərilərin vəziyyəti rəiyyət kəndlilərinin vəziyyətindən çox yüngül idi. Hərbi xidmətdə olub süvari qoşunun əsasını təşkil edən köçərilər üzərinə yalnız bir neçə vergi qoyulmuşdu. İmtiyazlı tayfalara mənsub olan köçərilər isə vergi və mükəlləfiyyətlərdən tamamilə azad idilər.

XV əsrdə Azərbaycan dövlətlərində sənətkarlığın inkişafı. Sənətkarlar və xırda tacirlər, müxtəlif peşə sahibləri, əhalinin yoxsul təbəqələri vergilərin və dövlət məmurlarının özbaşınalıqlarından əziyyət çəkirdilər. Xəzinəyə və ayrı-ayrı iri feodallara məxsus emalatxanalarda işləyənlər daha çox istismar olunurdular. Bu dövrdə orduda artıq odlu silahdan istifadə edilirdi. Sənətkarlar metaldan odlu və soyuq silahlar, hərbi geyim, müxtəlif sənətkarlıq məmulatı, ev əşyaları, kənd təsərrüfatı alətləri, müxtəlif bəzək şeyləri hazırlayırdılar.

Hələ XV əsrin ikinci yarısında Ağqoyunlu hökmdarı Uzun Həsənin qoşununda 15 min qılınclı süvari, kaman və nizə ilə silahlanmış 33 min piyada, 5 min sipərli (hərbi geyimli) döyüşçü var idi. Təbrizdə o dövrdə "Beşkənd" adlı yerdə böyük bir sahədə silah hazırlanırdı. Burada işləyən sənətkarlardan başqa heç kəsin oradakı "şəhərcikdə" yaşamasına icazə verilmirdi. Bu sənəti öyrənmək istəyən şəxsi həmin yeri tərk etməyəcəyi barədə iltizam vermək şərtilə işə qəbul edirdilər. Uzun Həsənin qoşununda xeyli dəmirçi, yəhər düzəldən, tir hazırlayan sənətkar var idi.

Dövlət quruluşu. XV əsrdə Azərbaycanın ən qüdrətli dövlətləri Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri olmuşdur. Hər üç feodal dövlətinin quruluşu əsaslı fərqlənmirdi. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin başçıları **"padşah"**, Ağqoyunlu padşahları isə eyni zamanda **"sultan"** titulu daşıyırdılar. Uzun Həsən Təbrizdə taxta çıxandan sonra osmanlı və teymuri sultanlarına bərabər hökmdar olmasını qeyd etmək məqsədilə sultan ləqəbini qəbul etmişdi.

Şirvanşahlar dövlətinin hökmdarları özlərini **"şah"** adlandırırdılar. Şirvanın quruluşu ilə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin dövlət quruluşları arasında böyük fərqlər var idi. Burada hərbi-köçəri əyanlar və köçəri tayfalar o qədər də görkəmli rol oynamırdılar. Mülki idarələrin quruluşu sadə, vergi və feodal mükəlləfiyyət qaydaları isə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinə nisbətən daha yüngül idi.

Hakim sülalənin üzvlərindən və ya məşhur əmirlərdən təyin olunan ordunun baş komandanı **əmir-ül-ümara** (əmirlər əmiri) titulunu daşıyır, padşahdan sonra birinci şəxs sayılırdı. İkinci yerdə **sədr-əzam** dayanır, mövlana (ağa) ləqəbini daşıyırdı. O, vəqf mülklərinə,

onlardan vergilərin toplanmasına, mədrəsə və dini müəssisələrə başçılıq edir, məhəkəmə işlərini nizamlayırdı.

Mərkəzi dövlət aparatında sonrakı yeri dövlətin xarici işlərini idarə edən və mülki inzibati idarəyə başçılıq edən **baş vəzir** tuturdu. Dövlət mədaxilini və maliyyə divanxanasına nəzarət edən sahib-divanı və həmçinin padşahın şəxsi möhürünü saxlayan möhrdarı qeyd etmək lazımdır. Fərmanlara basılan bu möhür şahın şəxsi imzasını əvəz edirdi.

Cənubi Azərbaycanı bilavasitə padşahın özü və onun övladları idarə edirdi. Başqa vilayətlər isə sülalə üzvləri sırasından, yaxud görkəmli köçəri tayfaların əmirlərindən təyin olunan canişin tərəfindən idarə olunurdu. Mərkəzi idarələrdə olduğu kimi, vilayət canişinin də özünə məxsus büdcəsi, sarayı və vilayət divanxanası olurdu. Vilayət canişinliyinə tabe edilən vəzifələrdən ən əhəmiyyətlisi bunlardan ibarət idi: ən adlı-sanlı yerli köçəri feodallardan olan və vilayət qoşununa (**çərik**) başçılıq edən baş əmir (**əmir əzəm**), yerli sədr, vəzir, sahib-divan və möhürdar. Əyalət canişinlərinin çoxsaylı məmuru olurdu. Bu canişinlərin yanında mirzələr xidmət edirdilər. Nahiyə (**tümən**) hakimləri vilayət canişininə tabe idilər. Bu canişinlərin çoxu hərbi köçəri əyanlar (əmirlər) silkinə mənsub yerli feodal mülkədarlardan ibarət olurdu.

Ordu. Feodal dövlətinin qoşun hissələri iki hissədən: padşahın xüsusi qoşunundan və vilayət qoşunlarından ibarət idi. Əsasən hər iki qoşun qeyri-nizami feodal əsgəri qüvvələrdən təşkil edilmişdi. Qoşunun ali rəislərinə **əmir** adı verilirdi. Əmiriəzəmdən başqa hər vilayətdə əmirlərin içərisindən "ali əmirlər" də seçilirdi. Kiçik qoşun başçıları **qibtəul** adını daşıyırdılar. İstər əmirlər, istərsə də qibtəullar köçəri əyan silkinə mənsub olurdular. Qoşunun əsgəri hissəsi: 1) **puşandarlardan** - ağır silahla silahlanmış zirehli süvarilərdən; 2) **tirkəşbəndlərdən** - ox atanlardan; 3) **qulluqçulardan** – at və dəvələrə, böyük rəislərin çadırlarında, nəqliyyat vasitələri yanında və s. xidmət edənlərdən ibarət olurdu. Puşandarlara və tirkəşbəndlərə nökər deyilirdi. Ağqoyunlu qoşunu içərisində, müəyyən imtiyazlara malik hissələr kimi, boy nökərlər (boy - "qol", "nəsil", "ailə") –

"nəsli nökərlər" xüsusilə fərqlənirdi. Bunlar ağqoyunluların əsas tayfalarından olan və hakimiyyətdə olan Bayandur elinə aiddirlər.

Puşandarlar "dəmir zireh", tirkəşbəndlər isə möhkəm dəri paltar geyinirdilər ki, bunları nə qılınc zərbəsi kəsə bilir, nə də ox deşə bilirdi. Zirehdən başqa sərkərdə və qoşun başçıları zərif ipək paltarlar da geyinirdilər. Ağqoyunlu döyüşçülərinin hamısı uzun papaqlar qoyurdular. Qulluqçular və bəzən piyadalar məcburi surətdə rəiyyətlərdən, yəni oturaq kəndlilərdən səfərbəyliyə alınırdı. Bunlar qoşun daxilində aşağı dərəcəli və hüquqsuz bir vəziyyətdə olmaqla yardımçı işləri icra edirdilər.

Köçərilərdən ibarət olan döyüşçüləri, adətən, onların aileləri, qulları və mal-qara sürüləri müşayiət edirdi. Məhz buna görə də XV əsrin bütün hərbi təşkilatı köçəri ənənələri ilə sıx surətdə əlaqədar olmuşdur. Qoşun səfərdə olduğu zaman ilin fəsillərindən asılı olaraq, qışlaq və yaylaq yerlərində dayanırdı.

Mənbələr Ağqoyunlu dövlətinin qoşununun ümumi sayını vilayətlərin qeyri-nizami qoşunları ilə birlikdə 100 min nəfərdən, bunun 40 min nəfərinin süvari, 60 min nəfərinin piyada olduğunu qeyd edirdi. Orduda 6 min çadır, 30 min dəvə, 5 min yük qatırı, 5 min yük atı, 2 min ulaq, 20 min minik atı (çəng atı), 2 min minik qatırı, 2 min qaramaldan ibarət sürü, 200 "cins" və "mələz" qızılquş, 3 min tazı, min müxtəlif it, 50 (ovçu) qırğı, 15 min qılıncla silahlanmış döyüşçü, 2 min qılıncdar qul, ox-yayla silahlı min qulluqçu və başqa qulluqçular var idi.

Qoşunu 10 min nəfər "ali və orta ailəyə mənsub qadın", yəni köçəri əyanların və nökərlərin arvad və qızları, 5 min qul qadın müşayət edirdi. Uzun Həsənin ordusunda müxtəlif sənətkarlar, dərzilər, dəmirçilər, yəhər qayıranlar, çəkməçilər, ərzaq tədarükçüləri və əczaçılar da olurdu.

Ağqoyunlu, habelə başqa Azərbaycan dövlətləri qoşunlarının hərbi texnikası və silahı XV əsrin Avropa ölkələri qoşunlarından üstün olduğu halda, osmanlı qoşunlarına nisbətən olduqca geri qalırdı. Bununla belə, orduda az sayda kiçik top və başqa odlu silah var idi.

Hüququn inkişafı. XV əsrdə hüququn inkişafında hökmdar fərmanları və qanunvericilik aktları, xüsusilə də Ağqoyunlu padşahları

Uzun Həsənin "Qanunnaməsi" və Gödək Əhmədin islahatları hüququn mənbəyi kimi təqdirə layiqdir.

Digər tərəfdən XIV əsrin sonları - XV əsrin əvvəllərində Azərbaycanı işğal edərək öz hakimlərini buraya təyin etmiş Əmir Teymurun **"Tüzükat-i Teymuri" ("Teymur Qanunnaməsi")** adlı qanunnaməsinin bütün imperiya ərazisində, o cümlədən Azərbaycanda da hüquqi qüvvəyə malik olması qeyd olunmalıdır.

XV əsrdə Uzun Həsən onun hakimiyyətinə qədər olan vergi və mükəlləfiyyətlərin ağırlığını başa düşürdü. O, ölkədəki təsərrüfat geriləməsini aradan qaldırmaq məqsədilə və feodal əyanlarının mənafeyini nəzərə alaraq vergi və mükəlləfiyyətləri qaydaya salmaq üçün qanunnamə verdi. 1470-ci və 1477-ci illərdə verilmiş həmin **Qanunnamələrdə** toplanan vergilərin miqdarı yenidən müəyyənləşdirilirdi. Uzun Həsənin "Qanunnamə"si XVI əsrin ortalarına qədər, yəni 1557-ci ildə I Şah Təhmasib tərəfindən yeni qanunnamə verilənə qədər qüvvədə qalmışdı. "Qanunnamə"də göstərilirdi ki, dövlət dəftərxanasında qeydiyyatdan keçməmiş, lakin əmək alətləri ilə birlikdə torpağa təhkim edilmiş kəndlilərin öz torpaq sahələrini tərk edib digər ərazilərə köçməsi qadağan idi; kəndlilər bir günlük məsafəni qət edərək təyin olunmuş yerə töycünü çatdırmalı, əgər məsafə bir günlük müddətdən çox olarsa, kəndlilər töycü aparmaqdan imtina etmək hüququna malik idilər; kəndlilər onlara təhkim edilmiş torpaqları o zaman tərk edə bilərdilər ki, onlar təhkim edilmiş torpaqları tam əkib becərsinlər; göstərilən qaydanın pozulmasına görə kəndlilər mövcud qanuna əsasən əlavə töycü ödəməli idilər; becərilməli torpağı becərməyərək onu özbaşına tərk edən kəndli becərmədiyi torpağın əvəzinə torpaq vergisi və töycü ödəməli idi; hər bir yeniyetmə yaşına çatmış zimmi (qeyri-müsəlman) dövlət xəzinəsinə 25 ağça (pul vahidi) ispənc vergisi ödəməli idi; kəndlinin mal-qarası digər kəndlinin əkin sahələrinə və ya bostanına ziyan vurardırsa, mal-qara sahibi 5 qamçı zərbəsi və 5 ağac pul cəriməsi ilə cəzalandırılırdı.

Uzun Həsənin islahatı nəticəsində kəndlilərdən alınan vergilərin miqdarı və mükəlləfiyyətlər dəqiqləşdirilirdi. Bac, rəsmi-məvaşi, rəsmi-mərai, ispənc, çobanbəyi, qapıçılıq, rəsmi-ərusi və s. vergilər

alınması qaydaya salınırdı. Məsələn, mal-qara və qoşqu heyvanlarının hər birinə bir və ya iki ağça rəsmi-məvaşi alınırdı. Lakin vergi islahatı müvəqqəti olaraq rəiyyətin vəziyyətini yüngülləşdirdi, çünki artıq XV əsrin sonlarında rəiyyətin vəziyyəti yenidən pisləşməyə başladı. Uzun Həsənin köçəri hərbçi əyanların özbaşınalıqlarının qarşısını almaq və mərkəzi hakimiyyətə tabe etmək cəhdi müvəffəqiyyətsizliyə uğradı.

Ağqoyunlu Gödək Əhməd 1497-ci ildə mərkəzi hakimiyyəti gücləndirmək məqsədilə ruhanilərə və mülki məmurlara arxalanaraq **islahat** keçirdi. Onun apardığı islahatlar barədə orta əsr mənbələri yazırdı ki, Əhməd padşah rəiyyətləri və əkinçiləri də ədalət qanunları ilə sevindirdi və əmr etdi ki, vəzirlər və divan məmurları xalqı incitməsinlər və kəndlilərdən şəriətlə alınmalı olan vergilərdən başqa; bir dinar və ya bir batman taxıl belə almasınlar. Bəzi vergilər isə, o cümlədən ixracat, şiltaqat, biyar, adambaşı və ailəbaşı vergilər ləğv edilirdi.

Gödək Əhməd hərbi əyanlara həmişəlik verilən soyurqalların ləğv olunması haqqında xüsusi **fərman** vermişdi. Belə ki, iqta sahibliyindən fərqli olaraq, soyurqal sahibi bir sıra əlavə hüquqlara malik idi. Bu imtiyaza görə kəndlilər əvvəllər divan nəfinə verdiyi vergiləri indi torpaq sahibinə (soyurqala) verməli idilər. Soyurqal sahibi nəinki vergi imtiyazına, həmçinin də məhkəmə və inzibati tədbirlər görmək hüququna malik idi. Soyurqal torpağında yaşayan bütün xidmətçilər soyurqal sahibinə danışıqsız tabe olmalı idilər. Mərkəzi dövlət məmurlarına soyurqalda təftiş aparmaq qadağan olunmuşdu. Çünki belə feodallar o qədər qüvvətlənirdi ki, özləri belə soyurqal paylamağa başlamışdılar.

Əhməd padşahın vergi islahatı köçəri hərbi əyanların mənafeyinə ağır zərbə vurdu. Təqribən 20-yə qədər vergi və mükəlləfiyyət ləğv olunmuşdu ki, nəticədə kəndlilərin vəziyyəti nisbətən yüngülləşmişdi. Köçəri hərbçi əyanların gəliri divanxananın gəlirinə nisbətən azaldı.

VIII FƏSİL

XVI-XVII əsrlərdə Azərbaycanın dövlət və hüquq tarixi

Səfəvilər dövlətinin yaranması. Feodal pərakəndəliyi ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olur və məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Ağqoyunlu şahzadələri arasında baş verən ara müharibələri feodal hakimlərin özbaşınalığının artmasına, sənətkarlığın, ticarətin tənəzzülünə səbəb olurdu. Feodal pərakəndəliyi həmçinin yadellilərə qarşı mübarizədə xalqın birliyinin yaranmasına mane olurdu. Azərbaycanın siyasi cəhətdən birləşdirilməsi, mərkəzləşdirilmiş dövlətin yaranması feodal pərakəndəliyini aradan qaldırıb müstəqil Azərbaycan dövlətini möhkəmləndirə bilərdi. Məhz bu vəzifəni Ərdəbil şəhərindən olan Səfəvilər sülaləsinin nümayəndəsi İsmayıl həyata keçirdi.

İsmayıl Azərbaycanın birləşdirilməsinə Şirvandan başladı. Ərəb xilafətinin Azərbaycanda hakimiyyətinə son qoyulduqdan sonra Şirvanşahlar həmişə öz daxili müstəqilliklərini qoruya bilmişdilər. Şirvanşah Fərrux Yasarı məğlub edərək İsmayıl Bakını tutdu. Şirvandakı qələbədən sonra Ağqoyunlular da məğlub edildi. 1501-ci ilin payızında İsmayıl (1501-1524-cü illər) təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi.

Beləliklə, paytaxt Təbriz şəhəri olmaqla Səfəvilər (1501-1736-cı illər) dövləti yarandı. Səfəvilər dövlətinin meydana gəlməsi Azərbaycan iqtisadiyyatının yüksəlişi, şəhərlərin böyüməsi, sənətkarlığın və ticarətin inkişafı, Azərbaycan dilinin, ümumilikdə Azərbaycan mədəniyyətinin inkişafı demək idi. I Şah İsmayılın sələfləri, xüsusilə Şah I Təhmasib (1524-1576-cı illər), I Şah Abbas (1587-1629-cu illər) və digər səfəvi hökmdarları ölkənin tərəqqisi üçün çalışmış, bir sıra dövlət əhəmiyyətli islahatlar keçirmişdilər. XVI-XVII əsrlərdə Səfəvilər dövlətinin Avropa ölkələrilə diplomatik və ticarət əlaqələ-

rinin genişlənməsi ilə əlaqədar olaraq onun nüfuzu artmışdır. Bununla belə, hakim feodal sinfi tərəfindən əhalinin istismarının artdığı bir şəraitdə kütləvi çıxışlar və üsyanlar da tez-tez baş verirdi. 1571-1573-cü illərdə Təbrizdə baş vermiş sənətkarların və şəhər yoxsullarının üsyanı daha güclü idi. I Təhmasib sənətkarlardan alınan vergini ləğv etdi və müvəqqəti olaraq şəhəri bütün dövlət vergilərindən azad etdi.



İctimai quruluş. Səfəvilər dövründə hakim feodal sinfi beş qrupdan ibarət idi: 1) Səfəvi şahları və sülalənin üzvləri; 2) şah qvardiya-

sından olan qızılbaş tayfalarının hərbi əyanları; 3) iri torpaq sahələri və vəqf mülkiyyəti olan ali şiə ruhaniləri; 4) mərkəzi və yerli bürokratiyanın yuxarı təbəqəsi; 5) oturaq əyanlar.



Feodal nərdivanının ən yuxarı pilləsini təşkil edən **Səfəvi şahları** ən iri torpaq mülkiyyətçiləri idilər. Şah və onun sülaləsinin üzvləri ən məhsuldar və gəlirli torpaqların sahibləri olmaqla, Səfəvilərin əski zamanlardan Ərdəbildə və onun ətrafında iri torpaq mülklərinə malik olmuşdular. Əkinçilik və ticarətlə məşğul olan Səfəvi sülaləsi qədim oturaq feodal əyanlarına mənsub idilər.

Şah nəslindən sonra dövlətdə siyasi və hərbi hakimiyyətdə mühüm mövqeyi Azərbaycan **qızılbaş tayfalarının əyanları** tuturdu. İlk Səfəvilər dövlətində ordunun əsas hissəsini onlar təşkil edirdilər. Ordunun yüksək ali rütbələrinə onları təyin edirdilər. Bundan əlavə, əyanların yuxarı təbəqələri hakim sülalənin üzvləri və şahın özü ilə qohumluq münasibətlərində olurdular. Qızılbaş tayfaları və onların əyanları öz xidmətlərinə görə şahdan oturaq kəndlilərin sakin olduğu geniş torpaq sahələri alırdılar. Bu torpaqlara şah hökuməti dövlət mülkiyyəti kimi yanaşırdı. Qızılbaş tayfalarına əmirlər başçılıq edirdilər. Divan dəftərlərində 114 qızılbaş əmirin adı çəkilirdi. Bu əmirlər arasında böyük əmirlər (**ümərayi əzəm**), yüksək vəzifəli xanlar (**xəvanini vələməkan**), kiçik (**xurud**) və böyük (**kəlan**) sultanlar fərqlənirdilər. Böyük əmirlər təbil, bayraq, qoşun və maiyyət sahibləri idilər.

Qızılbaş əmirlərinin tabeliyində olan vassallar və xidmətçilərin (mülazim) sayı barədə məlumat verən qaynaqlar göstərirdi ki, şah sarayında 6 min böyük yüzbaşı (yüzbaşıyan - i əzəm), vəzifəli şəxs, qurçi və s. müalizman vardı. Onların arasında **seçmə yasavullar** və **qurçilər, eşikağaları, cəbbəxana** və **divan yasavulbaşçıları** (yasavulbayişan - i kur və divan), **mirşikarlar və topçubaşılar** var idi. Bundan başqa hər bir tayfa və zümrənin içərisində əmirlik dərəcəsinə yaxınlaşan şəxslər var idi.

Feodallar sinfinin üçüncü qrupunu təşkil edən ali müsəlman **şiə ruhanilərin** də dövlətdə mövqeləri möhkəm idi. Buraya şeyxülislamlar, qazılar, cümə məscidlərinin imamları, vaiz və s. daxil idilər. Şiə ruhanilərin başçısı - sədr dövlətdə şahdan sonra ikinci şəxs sayılırdı. O, şahın şəriət işləri üzrə müavini (navvab) olaraq ictimai-siyasi həyatda əhəmiyyətli rol oynayırdı.

Hakim feodal sinfinin dördüncü qrupunu **mərkəzi və yerli dövlət aparatının nümayəndələri** təşkil edirdi. Hərbi rəislər (şah qulamları) arasından təyin edilən müli bürokratik aparat dövlət siyasətinin həyata keçirilməsində həlledici rol oynayırdı. Mülki aparatda maliyyə idarəsi və maliyyə işçiləri mühüm əhəmiyyət kəsb edirdi.

Feodal sinfin beşinci qrupunu təşkil edən oturaq əyanlar sırasında **məliklər** fərqlənirdilər. Səfəvilər dövründə məlik sözü iki mənada

işlədilirdi: birincisi, əski zamanlardan torpaq mülkiyyəti olan məliklər; ikincisi isə kənd icmalarının başçıları olan məliklər. Lakin belə məliklər o zaman mülklərini saxlaya bilirdilər ki, onlara aid mülkiyyət hüququ şah tərəfindən təsdiq edilsin.

Səfəvilər dövlətində demək olar ki, o dövrə qədər formalaşmış torpaq mülkiyyəti kiçik dəyişikliklərlə olduğu kimi qalmaqda idi: 1) dövlət xəzinəsinə malik torpaqlar (əraziyi divani); 2) şah və onun sülaləsinə məxsus mülklər (əraziyi xassə); 3) hərbi və ya mülki xidmət müqabilində verilən torpaqlar (soyurqal, tiyul); 4) xüsusi mülkiyyətdə olan torpaqlar (mülklər); 5) dini idarələrin mülkiyyəti (vəqf torpaqları); 6) kənd icmalarının mülkiyyətində olan torpaqlar (camaatideh).

Səfəvilər dövləti mərkəzləşmiş feodal dövləti olduğundan onun dövlət torpaq mülkiyyəti fondu xeyli böyük idi. Şirvan və Şəki torpaqları da dövlətin mülkiyyətinə qatılmışdı. Xəzinə torpaqlarından gələn gəlir dövlət xərclərinin ödənilməsinə sərf edilirdi. Xassə torpaqlarından şəxsən şahın adına olan mülkiyyətin gəliri də xəzinəyə daxil olurdu və şahın sərəncamı ilə sülalənin üzvlərinə verilirdi. Şah ölkənin ən münbit torpaqlarını divan və xassə mülkiyyətinə qatmışdı. Üçüncü kateqoriyaya daxil olan torpaqlar dövlət fondundan hərbi və mülki bürokratiya üçün ayrılırdı. Torpaq sahiblərinə mülkiyyət hüququ müvəqqəti, həmişəlik və vərəsəlik əsasında verilirdi. Şəraitdən asılı olaraq belə torpaqlar soyurqal, tiyul və bəzən də iqta adlanırdı.

İlk Səfəvilər dövründə şərti torpaq mülkiyyətinin daha bir formasının – **tiyulun** meydana gəlməsi və XVI-XVII əsrlərdə geniş yayılması feodal torpaq sahibliyinin inkişafında əhəmiyyətli rol oynayırdı. Soyurqal Azərbaycanda XV əsrdə mövcud olduğu şəkildə irsi mülk sayılırdı və vergi, inzibati-məhkəmə toxunulmazlığını nəzərdə tuturdu. Yeni yaradılmış tiyul torpaq sahibliyi isə soyurqalı əvəz etməklə mərkəzləşdirmə siyasətinin mənafeyinə xidmət edirdi.

Tiyulun ilkin iqtaya da uyğunluğu bildirilirdi. Belə ki, Səfəvilər dövründə tiyulun inkişafı onların dövlət torpaq sahiblərinə və bu torpaqlarda işləyən kəndlilərin dövlət aparatının köməyi ilə istismar olunması sisteminə yardım etmək siyasəti ilə bağlı idi. Bu sistem ye-

ni idarəetmə sistemi əsasında qurulsa da, əvvəlki əsrlərdə mövcud olmuş iqta torpaq sahibliyinin ilkin inkişaf pilləsinə yaxın idi. Tiyul sahibi (tiyuldar) ilk dövrlərdə idarəetmə işinə qarışmayıb torpaqdan alınan vergilərin hesabına yaşayıb, dövlət siyasətinə uyğun hərəkət edirdisə, sonralar tiyuldarlar mərkəzləşmə siyasətini heç də həmişə aparmırdılar. Belə ki, Azərbaycanın cənub hissəsinin əmir əl-ümərası Şah I Təhmasibə xəyanət etdi və tayfanın böyük hissəsi ilə birlikdə türk sultanına xidmət etməyə başladı. Lakin peşman olub şahın yanına qayıdan Qazi xan başda olmaqla təkəli tayfası xeyirxahlıqla qarşılandı və I Təhmasib Salyan və Mahmudabadı tiyul kimi Qazi xana bağışladı.

Səfəvilər dövlətində bəylərbəylik inzibati ərazi quruluşu yarandıqdan sonra bəylərbəylərə də geniş səlahiyyət verilmişdi. Belə ki, bəylərbəylər hətta tiyul bağışlamaq səlahiyyətinə malik idilər ki, bu da son olaraq mərkəzləşdirmə siyasətinə mənfi təsir göstərirdi. Şirvan bəylərbəyi Xosrov xanın hökmü (sərəncamı) ilə, Kiş, Nuxu və Şəkərənd kəndləri tiyul torpaq sahibliyi kimi Şəki mahalının məliyinə verilirdi.

Tiyulların bölüşdürülməsi çox vaxt yeni şah taxta çıxdıqdan sonra dövlət vəzifələrinə yeni təyinatlarla eyni vaxtda aparılırdı. Bəzən tiyuldarlar öz tiyullarının bir daha şah tərəfindən təsdiq edilməsinə çalışırdılar.

Tiyuldarların özbaşınalıq etməsi və qanunsuz artıq vergilərin alınması adi hal idi. Bu barədə Şəki mahalının kəndxudaları II Şah Abbasa şikayət etmiş və şahın verdiyi fərmanda qeyd edilirdi ki, tiyuldarlar nəzərdə tutulan və ali divanın müəyyən pul təminatı və rüsumlardan əlavə onlardan beş min tümən artıq pul almışlar. Şirvan bəylərbəyi Xosrov xandan ədalət, haqq və hesabın tələb etdiyi qayda əsasında tədbir görməsi tələb olunurdu.

XVI əsrin ortalarından başlayaraq tiyul paylanması o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Belə ki, böyük tiyullarla yanaşı, kiçik bir kəndin də tiyula verilməsi bəxşiş hüququna verilməsi kimi idi. Həm də yeni bağışlamalar həmin ərazidən yığılan vergi məbləğinin müvəqqəti mənimsənilməsini bildirirdi.

Torpaq sahibliyi və mülkiyyət əsasında formalaşmış mülk (mülk hüququ), daşınmaz əmlaklar üzərində, məsələn, bağlar, üzümlüklər, həyətyanı sahələr, dəyirmanlar, suvarma kanalları və s. üzərində sahibliyi bildirirdi. Bu mülkiyyət sahibləri mülkdən istifadəyə görə dövlət xidmətində olmağa məcbur edilə bilməzdilər. Mülk sahibinə (malik və yaxud mülkədara) əmlakdan istifadəyə görə kəndlilər tərəfindən renta ödənilirdi. Tiyul və soyurqaldan fərqli olaraq mülk əmlakı sərbəst satıla, bağışlana və başqasına varislik əsasında verilə bilərdi. Mülkədar torpaqlarından yığılan məhsulun renta vergisi 10 faizdən 20 faizə qədər təşkil edirdi. Mülk, qeyd edildiyi kimi, torpaq deyil, suvarma sistemləri də ola bilərdi. Fiziki şəxs feodal tərəfindən çəkilmiş kanaldan istifadəyə görə mülk sahibinə mülkiyyətdən istifadəyə görə renta verməli idi.

Səfəvilər dövlətində **vəqf torpaq sahibliyi** və **vəqf mülkiyyəti** çox geniş yayılmış feodal-ruhani mülkiyyəti forması idi. Səfəvilər sülaləsi hakimiyyətə gəlməmişdən əvvəl onların Ərdəbil, Marağa, Muğan və Talış ərazilərində iri vəqf mülkləri mövcud olmuşdur. Əmir Teymur vəfat etməmişdən əvvəl Səfəvilər nəslinə vəqf olaraq müəyyən əmlak və torpaq vəsiyyət etmişdi. Vəqf təsisatı Səfəvilər hakimiyyətə gəldikdən sonra xüsusilə geniş yayıldı. Şiəliyi dövlət dini elan edən Səfəvilər sülaləsindən olan şahlar onun hər yerdə genişləndirilməsində maraqlı idilər. Buna görə də Səfəvilər ruhaniləri öz tərəflərinə çəkməyi zəruri sayır, şiə müəssisələrinin rifahına yardım göstərir, onlara əməli olaraq ruhanilərin sərəncam verdikləri vəqflər bağışlayırdılar.

Vəqflər, adətən, vergi və inzibati toxunulmazlıq hüququndan istifadə edir, çox nadir hallarda müsadirəyə məruz qalırdılar. Bəzən feodallar bu yolla öz mülkiyyətlərini şiə ruhanilərinin etibarlı mühafizəsi altına keçirir və öz soyadının ardınca mütəvəlli (7 vəqf işləri müdiri) vəzifəsini yazdırmaqla xəzinəyə ödəyəcəyi vergilərdən yayınırdılar.

XVI əsrdə vəqfin **sünnəti** və **vacibi** növləri var idi. "Sünnəti" vəqflərinin himayəçisi şahın özü idi və vəqfin gəlirləri onun göstərişi ilə xərclənirdi. Bu zaman o, hamı tərəfindən qəbul olunmuş nor-

maları rəhbər tuturdu, çünki bu vəqfləri vəsiyyət edənlər "bir qayda olaraq, daxil olan gəlirlərin konkret olaraq haraya xərclənməsini" göstərmirdilər. Əldə olunan gəlirlərin konkret olaraq haraya və vəsiyyət edənlərin tələbinə uyğun olaraq xərcləndiyi vəqflər isə "vacibi" adlanırdı.

Bakının Zığ kəndinin Bibi Heybət məqbərəsinin vəqf olunmasını təsdiq edən I Şah Təhmasibin 1547-ci il fərmanı ilə o, vəqf mülkiyyətinin sünnəti növünə aid edilirdi. Fərmanda göstərilirdi ki, Badkuyənin (Bakının) amillərindən divan işlərinə baxanlarından, kələntərləri və kəndxudalarından heç biri, heç bir adla qeyd olunan kəndin ətrafına dolanmayaraq hər hansı tələb etməsinlər. Qeyd olunan ölkənin hakimləri, tiyuldarları və daruqələri yazılmış qayda üzrə qərar verildiyini bilsinlər, ondan kənara çıxmasınlar. Heç bir yaranmış ixracat adı ilə, habelə ələfə, ulufə, ulağ, biyar, şikar və s. tələb etməsinlər. Fərmana hərtərəfli riayət etsinlər və hər il yeni hökm tələb etməsinlər. I Təhmasibin fərmanı məqbərədən gələn gəlirin konkret olaraq Zığ kəndinə xərclənməsi ("sünnəti") göstərilirdi.

Vəqfə əmlak verilməsi nəinki müsəlmanın öz əmlakından başqalarına yardım etməklə savaba çatmasıdır, həm də vəfat etdikdən sonra da özünün yaşaması, yaxşı əməllərinin davam etməsidir. Vəqfə verilmiş əmlakı satmaq, bağışlamaq, dəyişdirmək olmaz. Vəqf əmlakı məscidlərə, mədrəsələrə, üləmalara, yoxsullara və digər zəruri ehtiyacı olan müsəlmanlara sərf olunmalıdır. Vəqfdən zimmilərin istifadə etmələrinə yol verilə bilərdi.

Vəqfə verilmiş əmlak mülkiyyətçinin sərəncamından çıxdığına görə vəqf əmlakı gələcəkdə onun özü üçün sərf olunmasını şərtləndirməyə yol verilmir.

Kənd icmasının – camaatın istifadə etdiyi torpaq **camaat torpağı** adlanırdı. İcmanın başçısı ağsaqqal hesab olunurdu.

O, vergiləri bölüşdürür, toplayır, əvvəzində məhsulun müəyyən hissəsini alırdı. İcmada əkinçiliklə yanaşı, sənətkarlıq da müəyyən yer tuturdu. XVI əsrdə natural təsərrüfatın hökm sürdüyü şəraitdə icma kəndlilərin ehtiyaclarını pulsuz ödəmək üçün sənətkarları icma kollektivi hesabına saxlayırdı. İcma kənd təsərrüfatında əmək alətlə-

rinin geriliyinə səbəb olur, daha da mütərəqqi ictimai münasibətlərin inkişafına əngəl törədirdi.

XVI-XVII əsrlərdə Azərbaycan əhalisinin əsas məşğuliyyəti, əvvəllər olduğu kimi, əkinçilik idi. Kəndlilərin əsas hissəsi dövlətdən, feodallardan və digər torpaq mülkiyyətçilərindən ağır şərtlərlə icarəyə götürdükləri torpaqlarda yaşayır və onu becərirdilər. Yalnız torpaqlar deyil, süvarma kanalları və su ehtiyatları da feodalların mülkiyyəti sayılırdı.

Kəndlilərin bir neçə kateqoriyası mövcud idi. **Birinci** kateqoriyaya varlı kəndliləri aid etmək olar. Əvvəllər icma üzvləri olan bu təbəqə tədricən varlanaraq kiçik torpaq mülkiyyətçilərinə çevrilmişdilər. Həmçinin kəndlə şəhər arasında kənd təsərrüfatı məhsulları ilə ticarət edən, sələmçiliklə məşğul olan, kənddə kiçik inzibati vəzifələr tutan və öz həmkəndlilərini istismar edən kəndliləri də bu kateqoriyaya daxil etmək olar.

Kəndlilərin **ikinci** kateqoriyasını icma üzvü olan azad kəndlilər təşkil edirdi. İri feodallardan asılı olan azad kəndlilər torpaq rentası və xəzinəyə vergi ödəyirdilər. Lakin birinci və ikinci kateqoriyaya aid kəndlilərin sayı Səfəvilər dövründə xeyli azalmışdı.

Kənd əhalisinin əsas hissəsini isə **yarıdar** kəndlilər təşkil edirdi. Onlar feodal torpaqlarında çoxsaylı mükəlləfiyyətlər yerinə yetirirdilər. Yarıdarlar kateqoriyası aztorpaqlı və torpaqsız kəndlilərdən ibarət idi. XVI-XVII əsrlərdə bu kateqoriyadan olan kəndlilər "rəiyyət" adlanırdılar.

Yarıdar kəndlilər öz növbəsində müxtəlif təbəqələrə ayrılırdılar. Əkinçilik texnikası və iş heyvanları olan və özünəməxsus əmək alətləri ilə feodalın verdiyi torpaq payını əkib-becərən kəndlilər **hampa** adlanırdı. Hampanın ən azı cüt adlanan iki öküzə və avadanlığa malik olmağı vacib idi. Cütlərinin saylarından asılı olaraq hampalar böyük və kiçik təbəqələrə ayrılırdılar.

Yarıdar kəndlilərin ikinci kateqoriyasını əmək alətləri olmayan və yalnız feodalın verdiyi avadanlıqla torpağı becərən, əvəzində isə cüzi miqdarda məhsul payı olan kəndliləri **rəncbərlər** adlandırırdılar.

Yoxsul kəndlilərin digər kateqoriyasını (qarovulçular, çobanlar, bağbanlar, qulluqçular) yardımçı kənd təsərrüfatı işləri ilə məşğul

olan və **qara, bekar, qərib, xoşnişin** adlanan kəndlilər təşkil edirdi. Bəzən ümumi əkər adı ilə tanınan bu kateqoriyadan olan yoxsullar məhsulun yalnız 30 faizini ala bilərdilər.

Səfəvilər dövründə kəndlilərin torpağa təhkim edilməsi barədə qaynaqlarda yalnız bir sənəd mövcuddur. 1612-ci ildə I Şah Abbasın ramazan ayında (7 noyabr - 7 dekabr) verdiyi fərmanda qeyd edilirdi ki, bundan sonra kəndlilər 12 il müddətində torpağa təhkim edilə bilərlər.

Azərbaycanda kənd əhalisinin daha bir kateqoriyasını yarımköçəri həyat keçirən **maldar elatlar** təşkil edirdilər. Elatlar Şah ordusuna hərbi xidmətə çağırılırdılar. Hərbi yürüşlər zamanı isə hər bir elat tayfası müəyyən edilmiş sayda süvari qüvvələr çıxarmalı idilər. Lakin oturaq əhaliyə nisbətən elatlardan vergi və mükəlləfiyyətlər çox az miqdarda alınırdı.

Səfəvilər dövründə müsəlman şiə ruhaniləri xüsusi ictimai təbəqə təşkil edirdilər. İctimai-iqtisadi vəziyyətlərinə görə şiə ruhaniləri **iki** kateqoriyaya bölünürdü: 1) ali dərəcəli ruhanilər; 2) aşağı təbəqəyə məxsus din xadimləri. Ali təbəqəyə mənsub olan müsəlman şiə ruhaniləri Səfəvi dövlətinin əsas dini istinadgahı olmaqla yanaşı, həmin dövlətə arxalanırdılar. Səfəvi şahları həm din, həm də dövlət başçıları olduğundan, onlar ali təbəqəyə mənsub olan şiə ruhanilərini maddi və mənəvi cəhətdən müdafiə edirdilər. Seyid nəslindən olanlar şəhərdə yaşayır, çoxlu var-dövlətə, əmlaka malik olmaqla, bütün vergi və mükəlləfiyyətlərdən azad olunmuşdular. Seyidlərin yuxarı təbəqəsinin nümayəndələri yüksək vəzifələr tuturdular. Ali ruhanilər vergilərdən azad olmaqla yanaşı, vəqf əmlakına mütəvəlli təyin edilirlər və seyidlərə mülkiyyət bağışlanırdı. I Şah İsmayılın 1508-ci ildə verdiyi hökmündə bildirilirdi ki, Təbriz şəhərində yerləşən və ardıcıl olaraq seyidlik və dinin cəlalı Seyid Süleymana böyük bağ mülkü verilir. Ayrı bir şəxsin bu bağa iddia etməsi qadağan edilir. Qeyd olunan hökmdarlıq məkanının (Təbrizin) darğası, kələntərləri və divan işlərinə baxan kiçik rütbəli qulluqçuları yazılmış qayda ilə qərar verildiyini bilsinlər.

Mütəvəlli vəqf əmlakından gələn mədaxili toplayır və onun xərclənməsinə şəxsən nəzarət edirdi. Bir çox mahallarda mütəvəlli eyni vaxtda həm də şəhərin kələntəri vəzifəsini aparırdı.

Şiə ruhanilərinin aşağı təbəqəsinə **dərvişlər, rovzəxanlar, azançılar, hafizələr** (Quranı əzbərdən oxuyanlar), **seyidlərin** aşağı təbəqəsi, dəfn mərasimini keçirən **mollalar** daxil idilər.

XVI-XVII əsrlərdə sənətkarlıq təşkilatları. Səfəvilərin hakimiyyəti dövründə sənətkarlıq daha da inkişaf etmiş, monqolların dövründə sənətkarlıqda tətbiq edilən qul əməyi aradan qalxmış, azad sənətkarların rolu daha da artmışdı. Ayrı-ayrı sənət növləri sahəsində müəyyən texniki inkişaf az da olsa, nəzərə çarpırdı. Bir sıra yeni sənət növləri, o cümlədən tüfəng qayırma sənəti meydana gəlir, top qayırma sahəsində texnologiya təkmilləşir. Fərdi işləyən ustalarla yanaşı emalatxanalarda kollektiv işləyən sənətkarların sayı artırdı. Sənətkarlıq məhsullarının keyfiyyətində də müsbət dəyişiklik əmələ gəlmişdi.

Sənətkarların öz sənət və peşəsinə uyğun ayrıca təşkilatları var idi. Onlar öz aralarından inanılmış və mötəbər bir adamı təyin edirdilər. Hər hansı bir sənət sahəsinə şah tərəfindən təyin olunmuş xüsusi **rəis** başçılıq edirdi. Sənətkarlıq təşkilatının rəisi hər ilin ilk üç ayının əvvəlində **nəqibin** yanına gedir, başçılıq etdiyi sənətkarların boniçəsinin (vergilərinin) miqdarını müəyyənləşdirirdi. **Möhtəsib** isə hər ay bir sinfin ağsaqqalı ilə birlikdə satılmalı malların qiymətini qanun əsasında müəyyənləşdirir, ondan bu barədə yazılı iltizam alırdı.

Sənətkarlar təşkilatı başçısı dövlət və ya şəhər inzibati və mülki işçiləri ilə sənətkarlar arasında vasitəçi rolu oynayırdı. Saray sənətkarları birləşmələrinin başçıları isə bilavasitə şah tərəfindən təyin olunub, məvacibi dövlətdən alırdılar. Azad sənətkarlar təşkilatı başçısı təyin olunduğu sənətkarların mənafeyini müdafiə etməyə borclu olduğu halda, əksinə, saray sənətkarları birləşmələri başçıları əlləri altında işləyən sənətkarları amansızcasına istismar edirdilər.

Sənətkarlar sənət növü və ərazi prinsipinə uyğun olaraq birləşirdilər. Bu birləşmə öz hüquqları uğrunda mübarizə aparmaqda sənətkarlara şərait yaradırdısa, digər tərəfdən, dövlət üçün də əhəmiyyətli idi. Belə ki, dövlət təcili xəbərləri **carçıları** vasitəsilə sətənkarlara vaxtında çatdıra bilərdi; hər ilin ilk üç ayı ərzində ayrı-ayrı sənətkarlar üzərinə qoyulacaq verginin miqdarının müəyyənləşdirilməsi-

ni və həmin vergilərin vaxtında toplanmasını asanlaşdırır və sürətləndirirdi; sənətkarlıq məhsullarına dövlət tərəfindən qiymət qoyulması və onun müəyyən edilmiş qiymət əsasında satılmasına nəzarəti asanlaşdırırdı; bayram günlərində müəyyən şənliklər zamanı sənətkarların bir yerə toplanmasını asanlaşdırırdı.

Sənətkarlıq təşkilatlarının yazılı nizamnaməsi olmamışdır. Bu təşkilatlar işlərini, adətən, müxtəlif dini adətlər və şəriət əsasında tənzimləyirdilər. Təcrübəli ağsaqqal ustalar təşkilatlarda rəhbərlik edirdilər. Sənətkarlıq təşkilatı şurası sənətkarlıq təşkilatının daxili işlərinin həllində mühüm rol oynayırdılar. Vergini təyin etmək, vaxtında toplamaq, usta ilə şagird və ya ayrı-ayrı sənətkarlar arasında baş verən ixtilafları həll etmək sənətkarlıq təşkilatı şurasının öhdəsində idi. Sənətkarlıq təşkilatı rəisi **şeyx** və ya **məlik** adlanırdı. Peşələr üzrə də kiçik təşkilatlar mövcud idi. Məsələn, musiqi aləti hazırlayan sənətkarların, çörəkçilərin və s. peşə sahiblərinin təşkilatı olmuşdur.

Müəyyən sənəti öyrənmək məqsədilə usta yanına şagird qoyduqda ilk günlərdə ona müəyyən qədər muzd verirdilər. Usta ilə şagird arasında razılaşmaya əsasən gündəlik işin həcmi, şagirdin yaşı, onun sənətə yiyələnmək dərəcəsi və qabiliyyətini nəzərə alaraq ona müəyyən məbləğdə pul verilirdi. Lakin bu razılığın müddəti göstərilmirdi. Usta istədiyi vaxt şagirdi qova bilər, şagird də istədiyi vaxt ustanın yanından gedə bilərdi. Usta sənətin incəliklərini şagirdə öyrətməklə yanaşı, onu daha artıq istismar etməyə, işlətməyə cəhd göstərirdi.

Sənətkarlar özləri də **dörd** kateqoriyaya bölünürdü. Hər kateqoriyadan olan sənətkarlar iqtisadi və ictimai vəziyyətlərinə görə bir-birindən xeyli fərqlənirdilər. **Birinci** kateqoriyaya daxil olan sənətkarlar tək və ya bir nəfər şagirdi ilə işləyən, emalatxana, yaxud dükan açmağa imkanı olmayanlar idilər. Bunlar əksəriyyət təşkil edirdilər. Bu kimi azad sənətkarlar çox vaxt öz oğlanlarından və ya yaxın qohumlarından birini şagird işlətməklə dolandırırdılar. Onların çoxu səyyar sənətkarlar idi. **İkinci** kateqoriyaya daxil sənətkarlar xırda dükanları və emalatxanaları olanlar idilər. Bunlar **əsnaf** adlanan sənətkarlıq təşkilatına daxil idilər. **Üçüncü** kateqoriyaya daxil olanlar iri emalatxanalara (xüsusilə, şah və ya iri feodalların emalatxanası)

malik olub, özü işləmədiyi halda bir neçə usta və şagirdi işlədən sənətkarlar idilər. **Dördüncü** kateqoriyanı qeyri-azad sənətkarlar təşkil edirdi. Onlar dövlət karxanalarında işləyir və istehsal etdikləri malları şah və ya onun məmurlarına təhvil verirdilər.

XVI-XVII əsrlərdə ictimai vəziyyətinə görə iri və xırda **tacirlər** xüsusi **zümrə** təşkil edirdilər. İri tacirlər şəhərin daxili və xarici ticarətini öz əllərində cəmləşdirmişdilər. Tacirlər **"çələbi"** və ya **"xacə"** ləqəbi daşıyırdılar. İri tacirlərin başçısı məlik-üt-tüccar (tacirlərin başçısı) adlanırdı. **Məlik-üt-tüccar** həm də şahın ticarət işlərinin məsləhətçisi idi. Tacirlər dövlət xəzinəsinə çoxlu gəlir verirdilər. İri tacirlər ticarətdən vergiləri iltizamçı kimi icarəyə götürmək, sələmə pul vermək, ucuz alıb baha satmaq yolu ilə çoxlu var-dövlət qazanırdılar.

Vergilər. XVI-XVII əsrlərdə vergi verən əhali ağır feodal istismarına məruz qalırdı. Vergi və mükəlləfiyyətlərin sayı 50-ə çatırdı. Feodallar vergiləri məhsulla almaqla kifayətlənməyib pulla da ödənilməsini tələb edirdilər. Vergi və mükəlləfiyyətlər birlikdə qarışıq xarakter daşıyan feodal rentasını təşkil edirdi. Üstünlük təşkil edən isə məhsul rentası idi.

Səfəvilər dövlətində alınan vergilərə dair I Şah İsmayılın Dizmar (Qaradağ, Cənubi Azərbaycan) vilayətində ruhanilərin vergilərdən azad edilməsi haqda hökmündə əhəmiyyətli məlumatlar vardır. 1502-ci ilin yanvar ayında verilmiş fərmanda vilayətin divan işlərinin vəzifəli şəxsləri olan əmirlər, hakimlər, darğalar, amillər və mübaşirlərinə hökm edilirdi ki, ruhanilərin (seyidlərin) bir qrupu bütünlüklə vergilərdən azad edilir. Hökmə müvafiq surətdə rəftar edərək maluçəhat, ixracat, xariciyyat, hökmlü və hökümsüz əvarizat adı ilə ələfə, ülufə, qonılqa, ulağ, ulam, bikar, şikar, tərh, dəstəndaz, eydi, novruzi, zərpareyi pişkəş, savari, çerik, ona yarım, məlikanə, mühəssilanə, yüzə dörd, sədrlik haqqı, vəzirlik haqqı, amillərin çalışma haqqı, darğalıq haqları, yetişdirilmiş məhsulun qiymətini müəyyənləşdirmək və torpaq sahəsini müəyyən etmək haqqı, verilmiş vədi yerinə yetirmək haqqı, qala və keşikçixana ixracatı, yüzə bir, yüzə iki və maluxaricə aid oluna biləsi digər divan mükəlləfiyyətləri, şahlıq tələbatından hər hansı ad və qayda ilə olursa-olsun əziyyət ver-

məsinlər (xalqa) və təcavüz etməsinlər. İstər azacıq, istərsə də çoxlu tamah və təvəqqe etməsinlər. Hökmü dəyişmək və əvəz etmək niyyətindən mühafizə olunan və qorunan hesab etsinlər.

Ümumiyyətlə, Səfəvilər dövründə verilmiş fərmanlarda adı göstərilən vergi və mükəlləfiyyətlərdən başqa, şübhəsiz ki, bizə məlum olmayan sənəd və normativ mənbələrdə olan vergi və mükəlləfiyyətlər hesabına siyahı xeyli genişlənə bilər. Belə ki, Səfəvilər dövründə hər evdən beşdə bir icarə haqqı adlanan vergi alınırdı. Xristianlar isə **xane-şomari** adı altında hər evdən **5-8 dukat** pul verməli idilər. 40 baş qoyunu olan adamdan **15 bisti,** hər baş öküz üçün ildə 2 dukat vergi alınırdı. Bağların suvarılması üçün **9 abbası,** bazarda bir at və ya qatır satıldıqda yarım abbası vergi alınırdı. 15 yaşına çatmış qeyri-müsəlmanlar səranə olaraq hər biri 7 livr, 20 yaşına çatmış cavanlar isə **15 livr** verməli idi. Mal-qara başı kəsildikdə hər baş heyvan üçün **2 sel, 6 deynə,** hər bir 100 batmanlıq ticarət yükündən **15 denyə** vergi alınırdı. Gömrük məmurları ticarət mallarını açıb yoxlamadan hər yük üçün 5 sel alırdılar. Bazarda satılan hər bir qoyun üçün **bir kazbeki** alınırdı. Hamam işçilərindən dəllək, güzgü tutan, həcəmət salan, xətənə edən, paltar saxlayan, kisə çəkən, su tökən və digər xidmətçilərdən ələfə, ülufə, qonalğa, alam, biyar, şikari, tərh, dəstəndaz, pişkeş, salamı, eydi, novruzi, tüfəngçi pulu, quş pulu alınırdı. Həmin vergilər I Şah Abbasın hakimiyyətinin sonuna qədər davam etmişdir. Yalnız 1629-cu ilin avqust ayında I Şah Abbasın fərmanı ilə bəzi vergilər ləğv olundu.

Səfəvilər dövlətinin ilk paytaxtı Təbriz şəhərinin iqtisadi inkişafı yarımaqrar xarakter daşıyırdı. Orada sənətkarlıq və ticarətlə yanaşı kənd təsərrüfatı məhsulları da becərilirdi. Təbriz şəhərinə aid vergi və mükəlləfiyyətlər əsasən aşağıdakılardan ibarət idi: 1) tamğa; 2) bac; 3) boniçə; 4) təyin; 5) rəsmemohdes; 6) rəsme-daruçəki; 7) rəsme-kələntəri; 8) təfavüt; 9) rəsme-ərusi; 10) rəsme-nikah; 11) rəsme-şəhnəgi; 12) rəsme-sədarə; 13) rəsme-möhtəsib; 14) rəsme-əsasiyyə; 15) qapıçılıq; 16) bigari; 17) şikari; 18) ələfə; 19) ülufə; 20) ulam; 21) ixracat; 22) siyursat; 23) çərik; 24) həvai; 25) qəlan; 26) qonalğa; 27) ulağ; 28) xanəşomari; 29) sərşomari; 30) sərvarü; 31)

pişkeş; 32) eydi; 33) novruzi; 34) male bağ; 35) rəsme-qapan; 36) rəsme-dəllaiyyə; 37) irtifai; 38) üşr; 39) salami; 40) tüfəngçi pulu; 41) çobanbəyi. Bunlardan əlavə, qumarxanalardan, içki hazırlanan və satılan yerlərdən, musiqiçilər və rəqqasələrdən, xoruz döyüşdürənlər və quşbazlardan, sallaqxanlardan müəyyən miqdar vergi alınırdı ki, Təbrizdə 1534-1535-ci illərdə bu verginin ümumi məbləği on iki min tümənə çatırdı.

Torpaq və gəlir vergisi olan **malcəhət** natura ilə ödənilirdi. Malcəhət ümumi verginin natura ilə üçdə biri və ya beşdə biri həcmində ödənilirdi. Malcəhət torpaq sahibilə (mülkədar) və dövlət arasında bölünürdü. Adətən, mülkədara məhsulun onda biri, bəzən 4/30, dövlətə isə 2/10 və yaxud 6/30 çatırdı. Xərac və bəhrə vergisi də çox vaxt malcəhətlə eyniləşdirilirdi.

Bağbaşı vergisi bağ sahiblərindən məhsulun onda biri həcmində alınırdı. Bəzi mənbələrə görə vergi ağacların sayına, növünə və becərilmə şəraitindən asılı olaraq təyin edilirdi. Məsələn, üzüm tənəklərindən suvarılan sahələrdən 6 dinar, suvarılmayan sahələrdən isə 5 dinar alınırdı. Alma, armud, ərik və bu növ ağaclardan 30 dinar vergi tutulurdu.

Çobanbəyi vergisi örüşdə heyvanları otarmaq üçün alınırdı. Elxanilər dövründə otlaqlardan istifadəyə göpə alınan vergi **qopçur,** Ağqoyunluların hakimiyyəti zamanı **məvaiş** və **mərai** ("otlaq və dördayaqlı"), Azərbaycan xanlıqları dövründə isə **çöpbaşı** adlanırdı.

Dəhyek (onda bir) vergisi Azərbaycanda və qonşu ölkələrdə geniş yayılmışdı. Ərəblər dövründə müsəlmanların mülkiyyətindən alınan üşr vergisinə bərabər idi. Dəhyek iri feodalların torpaqlarından alınırdı. Mülkiyyətçi onda bir vergisini dövlətə ödəməklə, özü kəndlilərdən daha yüksək vergi toplayırdı.

Cütbaşı torpağı əkib becərmək üçün bir cüt qoşqu vasitəsi olanlardan alınırdı. Kənd təsərrüfatı işlərində istifadə edilən, iş heyvanları (öküz, at və s.) sahibləri cütlərin sayına uyğun olaraq vergi ödəməli idilər.

Dəzgahbaşı hər bir toxucu dəzgahı üçün alınırdı. Yalnız əkinçilik və maldarlıqla deyil, həmçinin sənətkarlıq peşələri ilə – darama, toxu-

ma, çarıq materialı biçimi və s. ilə məşğul olan kəndlilərdən alınırdı. Dəzgahbaşı bu baxımdan kustar sənət peşələrindən toplanan vergi idi.

İxracat XVI əsrdə ümumi və müxtəlif vergi mükəlləfiyyətlərinin cəmi mənasında işlənirdi. Dövlət canişinlərinin, hərbi xidmətdə olanların və məmurların tələbatını ödəmək üçün toplanırdı.

Alafa və ulafa - adətən, hər iki vergi bir yerdə alınırdı. Alafa yük heyvanları və atlar üçün alınırdı. Ulafa bir nəfər üçün alınan ərzaq vergisi idi. Sonralar Azərbaycanda "alafa" vergisi "at arpası" adlanırdı.

Konalqa məmurlara kəndlinin evində düşərgə salmaq hüququ verirdi. Kəndli məmuru, onu müşayiət edənləri yedirtməli, yataqla təmin etməli və atlarını yemləməli idi. Konalqa o dövrün ən ağır mükəlləfiyyətlərindən idi.

Təyin şəhər və kəndlərdən xarici dövlətlərin səfirlərinə və qonaqlara xidmət göstərmək məqsədilə pulla alınan vergi idi. Xüsusi qasid vasitəsilə ölkənin mehmandarı qonaqların növbəti dayanacaq yerinə xəbər göndərirdi. Məhz həmin şəhər və yaxud kənd təyin olunmuş yer kimi vergi ödəməli idi.

Ulaq və ulam - hər iki mükəlləfiyyət çapar xidməti ilə bağlıdır. Kəndli şah qasidlərinin ixtiyarına minik, yük, qoşqu atları verirdi. Ulam mükəlləfiyyəti də dövlət poçt xidmətilə əlaqədar idi.

Əvariz daimi olmayan vergi idi. Əvariz feodal və ya hakimiyyət orqanlarına natura, pul və məcburi əmək fəaliyyəti ilə ödənilən vergi idi. Əvariz və ya ixracat adlanan bu vergi özündə bir çox töycü və mükəlləfiyyətləri: alafa, ulafa, konalqa, biyar, ulaq, peşkəş, dast, salami, şiltaqat və başqa vergiləri birləşdirirdi. Vergi və mükəlləfiyyətlərin iki qrupunun birləşdirilməsi, daimi reyestrə daxil edilən, daimi olmayan, fövqəladə və ya rəsmi qeydiyyatda olan töycülərin alınması orta əsrlər feodal dövlətlərinin xarakterik cəhətlərindən biridir.

Rüsum rəiyyətlərdən dövlət məmurları və ruhanilərin xeyrinə çox vaxt natura ilə alınan vergi idi. Buraya rəsm-ül-vəzir (vəzir üçün alınan vergi), rəsm-ül-sədr (sədr üçün alınan vergi), rəsm-ül-nəzirə (nəzir üçün toplanan vergi), rəsm-ül-məsafə (torpaqları ölçənin xeyrinə toplanan vergi) və başqa vergilər daxil idi.

XVII əsrdə rüsum toplanması çox geniş yayılır. Rüsumlar dövlət bürokratik aparatı məmurlarının təmin edilməsi üçün əsas gəlir mənbəyi-

nə çevrilir. Hətta xidmət müqabilində hərbçilərə verilmiş torpaqlar üçün dövlət məmurlarına rüsum ödənilmədikdə onlara pay ayrılmırdı.

Səvari əhalinin hakim sülalənin üzvlərinə, sərkərdəyə, yeni fəth edilmiş yerlərə gələn tanınmış adamlara hədiyyə idi.

Tərh dövlətə və feodala məxsus olan malın bazar qiymətindən yuxarı zorla kəndliyə satılması və yaxud dövlətə və feodala lazım olan malın bazar qiymətindən aşağı qiymətlə alınması idi.

Dəstəndaz dövlət icraedici şəxslərinə aşağı dərəcəsinə xidmətinə görə verilirdi.

Başpulu yetkinlik yaşına çatmış vergi verən kişilərdən alınırdı. Azərbaycan xanlıqları dövründə də əhalidən bu vergi toplanırdı.

XVI-XVII əsrlərdə yazılı mənbələrdə ilk dəfə qeyd edilən vergilərə də rast gəlinir. **"Rəsmi müxdisə"**nin (ixdasa) I Şah İsmayılın 1503-cü ilə aid fərmanında adı çəkilir. Bu terminə (vergiyə) şah Məhəmməd Xudabəndənin 1581-ci il tarixli toxunulmazlıq fərmanında da rast gəlinir. Ağqoyunlu Əlvənd Mirzənin də fərmanında ixdas vergisi işlənilir. Bəzən bu termin "polis zabiti" kimi mənalandırılır.

Şəriətə görə adam öldürmək, göz çıxarmaq, baş yarmaq, namusa toxunmaq cinayətin dörd əsas növü hesab olunurdu. Ona "ehdase ərbəə" (dörd hadisə) deyilirdi. Rəsme-mohdes və ya ehdas əsasən göstərilən dörd cinayət növündən biri törəndikdə cinayətkardan alınırdı. Sonra bu vergi qanunla qadağan olunmuş bir sıra hərəkətləri edən (oğurluq, sərxoşluq, qumarbazlıq, musiqi çalmaq, quşbazlıq, xoruz və camış döyüşdürmək və s.) şəxslərdən də alınırdı.

Rəsm əl-möhür ("möhür haqqı") I Şah Təhmasibin tarixi göstərilməyən fərmanında verilmişdir. Bu adla rəiyyətdən möhür vurulması ilə bağlı olan sənədlərin rəsmiləşdirilməsi üçün toplanan rüsum nəzərdə tutulurdu. Çox güman ki, bu məbləğ möhrdarın ("möhr mühafizəçi") xeyrinə olaraq toplanırdı.

Rüsüm-i darğaki və kələntəri darğanın (polis rəisinin) və kələntərin (şəhər rəisinin) xeyrinə yığılan vergilər.

Mirabi vergi növü kimi I Təhmasibin tarixi göstərilməyən fərmanında verilir. "Mirab" - ərəb-fars sözlərinin birləşməsi "əmir-i ab"ın qısaldılmış forması olub hərfən "əmir, su rəisi", yəni suvarma sis-

temləri rəisini bildirir. Suvarma üçün suyun düzgün bölüşdürülməsinə nəzarət edən məmur belə adlanırdı.

Xırman bəhrə I Şah Təhmasibin İsfahana aid olan, tarixi göstərilməyən fərmanında təsadüf edilir. "Xırman bəhrə" hərfən "biçin, taxıldöymə bəhrəsi" deməkdir. Məlum olduğu kimi taxılın döyülməsi dairə boyu sürülən və taxılı tapdalayan öküzlərin köməyi ilə edilirdi. Güman etmək olar ki, rəiyyət öz taxılını döymək üçün torpaq sahibinin iş heyvanlarından istifadə edirdi və bundan ötrü də "xırman bəhrə" verməli idi.

"Xərc-i xurcun" və **"çuvallıq"** kəndlilər tərəfindən icra edilən mülkiyyət idi. Əhməd Ağqoyunlunun 1497-ci il tarixli fərmanında "xurcunun dəyəri" mənasında göstərilir.

"Çuvallıq" mükəlləfiyyəti I Şah İsmayılın 1505-ci il fərmanında rast gəlinir. Ehtimal etmək olar ki, istər qoşunlarda, istərsə də divan vergi idarələrində mühüm əşya olan çuvalların tədarükü üzrə xüsusi mükəlləfiyyət idi.

Qalle-i ibtiya-i iki ərəb mənşəli sözdən, yəni "taxıl" və ərəbcə "almaq", "alqı" sözlərindən ibarətdir. Söz birləşməsi "taxılın satın alınması, alqısı" kimi tərcümə edilməlidir. İstilaha Yaqub (1479-cu il) və Əlvənd (1490-cı il) Ağqoyunluların fərmanlarında, habelə I Şah İsmayılın (1512-ci il) və I Şah Təhmasibin tarixi göstərilməyən fərmanlarında təsadüf edilir. Əlvənd Ağqoyunlunun digər tarixli başqa bir fərmanında buna bənzər "qalle-tərx" vardır. Sonralar qacarlar dövründə İranda kəndliləri bazar qiymətlərindən yuxarı qiymətlərlə taxıl almağa məcbur edən adət var idi. Buna qalle-tərx deyirdilər. Sonuncu fərmanda "qalle-tərx" istilahından sonra bilavasitə "ibtiya" adı çəkilir. Rəiyyət vergi və mükəlləfiyyətləri arasında "qalle-i ibtiyai"yə rast gələnin yuxarıda göstərilən dörd fərmandan ikisində bu mükəlləfiyyət tərx istilahı ilə yanaşı işlədilir. "Bəhay-i morq" (hərfən "quşun qiyməti, dəyəri") şah Məhəmməd Xudabəndənin 1581-ci il tarixli fərmanında işlədilir. Feodalların tələbi ilə rəiyyətin quş tədarük etməsini bildirən "morq" islahatına Əlvənd Ağqoyunlunun 1498-1499-cu il tarixli və I Təhmasibin tarixi göstərilməyən fərmanlarında rast gəlinir. Sonralar həmin mükəlləfiyyət pul alınması ilə əvəz edilmişdir.

"Ximə", "kah" (hərfən "odun", "ot") I Şah Təhmasibin və Məhəmməd Xudabəndənin fərmanlarında rəiyyət mükəlləfiyyətləri sırasında işlədilir. Rəiyyətin ağac doğraması və feodalları odunla (yanacaqla) və otla təmin edilməsinə müvafiq olan mükəlləfiyyət idi.

Kəndəlik "divarda bürc ucaltmaq" kimi şərh edilir. Qala bürclərinin tikintisi üzrə rəiyyətin icra etdiyi mükəlləfiyyətlərdən biri idi.

Dövlət quruluşu. Səfəvilər dövlətinin quruluşu tipik feodal monarxiyası formasında idi. Dövlətə qeyri-məhdud hakimiyyətə malik olan və eyni zamanda "Səfəviyyə" ordeninin irsi şeyxi sayılan **şah** başçılıq edirdi. Səfəvi hökmdarları dövlət işlərini təkbaşına həll edirdilər. Lakin şahın himayəsində məşvərətçi hüququnda olan **Ali Məclis** (məclisi əla) toplanırdı. Onun 12 nəfər üzvdən (sultanlardan) ibarət nümayəndələri dövlət işlərində təcrübəsi olan şəxslər idilər. Ali Məclisin iclaslarına şah özü rəhbərlik edirdi. Mənbələr iclasların gedişini təsvir edərək qeyd edirdilər ki, şah yerdən çox da hündür olmayan taxtda oturur və arxasında oğulları əyləşirdilər. Şahın dörd müşaviri onunla üzbəüz əyləşirdi. Şah suallar qoyur, onların barəsində danışır. Sultanların fikrini soruşur və onların hər biri söz söyləyərkən ayağa durur, şaha yaxınlaşaraq məclis üzvlərinin onu eşidə bilməsi üçün ucadan danışır. Əgər müzakirə zamanı şah maraqlı bir fikir eşidirsə, bu onun göstərişi ilə yüksək müşavirlər tərəfindən qeydə alınırdı. O, çox vaxt bunu şəxsən qeyd edirdi. Beləliklə, hər kəs növbə üzrə, şahın xahişi ilə öz fikrini söyləyir. Məsələnin mahiyyətinə şahın şübhəsi qalmırsa, həmin məsələ ilk şurada həll edilir. Əgər onun şübhəsi qalırsa, bütün şuranın fikrini dinləyir. Sonra isə məsələni şəxsən nəzərdən keçirir və həll edir.

Səfəvilər dövlətinin ərazisi **iki hissəyə** bölünürdü: **divan** və **xassə** vilayətlərinə. Bu bölgüyə uyğun olaraq iki ayrı-ayrı idarəedici orqan (divan) fəaliyyət göstərirdi. Divani-məmalik "dövlət vilayətləri divanı" və divani-xassə "şah vilayətləri divanı" mövcud idi. Bu idarətmə orqanları Səfəvilər dövlətinin əsas maliyyə idarələri idi. Divani-xassəyə aid olan vilayətlər şəxsən şaha və Səfəvilər sülaləsinin digər nümayəndələrinə məxsus idi. Bu vilayətlər şahın **müvəkkilləri** – vəzirlər tərəfindən idarə olunurdu.

İlk Səfəvilər dövründə idarəetmə aparatında mühüm əhəmiyyət kəsb edən aşağıdakı vəzifələr var idi: **vəkil, əmir əl-ümara** ("əmirlər əmiri"), **qurçıbaşı, vəzir** və **sədr**.

Vəkil şahdan sonra ikinci şəxs sayılırdı. O, istər dünyəvi, istərsə də dini işlərdə Səfəvi şahlarının müavini kimi tam səlahiyyətli idi. Vəkil siyasi və dini tədbirlərin həyata keçirilməsində qayda yaradılması üçün şahın qarşısında məsuliyyət daşıyırdı. Şahın ən etibarlı adamları bu vəzifəyə təyin olunurdular. Bu vəzifəni tutan ilk şəxs məhz İsmayılın tərbiyəçisi (lələsi) - Hüseyn bəy Şamlı olmuşdur. O, İsmayılın Gilanda olduğu 4-5 il ərzində "Səfəviyyə" ordeninin bütün işlərini idarə etmiş "yaxın şəxslərdən" ("əhli-i ixtisas) biri idi. İsmayıl Təbrizi ələ keçirdikdən dərhal sonra Hüseyn bəy Lələ "vəkalət-i nəfsi nəfis-i hümayun", yəni "Əlahəzrətin şəxsi müavini" vəzifəsinə təyin olunmuşdu.

Əmir əl-ümərə Səfəvi qoşununun baş komandanı vəzifəsi idi. Səfəvilərin hakimiyyətlərinin ilk dövrlərində nizami ordu mövcud olmamış, yalnız müharibələr aparıldığı dövrdə iri feodal qoşunu toplanırdı. Hərbi vəzifələr tamamilə Azərbaycan feodallarının əlində olduğuna görə əmir əl-ümərə qızılbaş tayfa əyanlarının inhisarında olan imtiyaz sayılırdı. Bu vəzifəni tutanlar arasında eyni vaxtda həm də vəkil olmuş Hüseyn bəy Şamlını, 1509-1523-cü illərdə əmir əl-ümərə olmuş Məhəmməd bəy Süfrəçi Ustaclını, onun oğlu Bəyazid Soltanı göstərmək olar.

Qurçibaşı "qurçilərin rəisi" - qızılbaş tayfalarının döyüşçülərdən ibarət olan şah qvardiyasının başçısı idi. Mənbələr yazırdı ki, I Şah İsmayılın atası Heydərin ölümündə iştirak edənləri axtarıb tapmağı və təhqiq etməyi qurçibaşı Əbdül bəy Dədəyə tapşırmışdır. Əbdül bəy Dədə Ərdəbil təriqətinin işlərini aparmış məhdud şəxslər idarəsinin – "əhli ixtisas"ın üzvü olmuşdu. Məhz buna görə də qurçibaşı vəzifəsi dövlət əhəmiyyətli vəzifələrdən biri olmuşdur. Lakin sonralar qurçibaşı vəzifəsini siyasi həyatda az nəzərə çarpan adamlar tuturlar. Qurçibaşların əksəriyyəti qızılbaş əfşar tayfasından çıxmışdı. Onlar şah qvardiyasının rəisi vəzifəsini yerinə yetirirdi.

Vəzir mülki bürokratiyanın başçısı idi. I Şah İsmayılın dövründə vəkil və əmir əl-ümərə dövlət idarəçiliyi işlərində vəzirin vəzifəsini

sıxışdırıb, hakim mövqeyə malik olduqlarından, onun rolu əhəmiyyətsiz idi. Ağoyunlu hökmdarlarının vəziri olmuş Şəmsəddin Zəkəriyyə I Şah İsmayıl tərəfindən "vəzarət-i divani əla" vəzifəsinə təyin edilmişdi. I Şah Abbasa qədər vəzir vəzifəsi sırf mülki vəzifə olmuşdur. O, divanın gəlirlərinə, habelə bütün əyalətlərdən xəzinəyə daxil olan məbləğlərə və digər "büyutat"a nəzarət edirdi.

Sədr dini müəssisələrə rəhbərlik edirdi. Onların səlahiyyətləri barəsində deyilirdi ki, sədrlər seyidlərə və əmmaməlilərə himayə göstərməli və onların işlərində nümayəndələr kimi fəaliyyət göstərməli, vəqf idarə etməli və şəriət məqsədləri (məarif) üçün pul verməlidirlər. Şiəliyin yerlərdə möhkəmlənməsinə də sədrlər məsuliyyət daşıyırdılar.

Şəki ölkəsinin sədrliyi vəzifəsi haqqında I Şah Təhmasibin 1550-ci ilin sentyabr ayında vermiş olduğu fərmanda göstərilirdi ki, ağalıq və nəqibliyin pənahı, sədarət busatlı, seyidlik, nəqiblik və etiqadda mükəmməl olan Mir Sultan adı ilə şöhrət tapmış Əbdürrəzzağın tam şiəliyi və dindarlığına etibar və etimad bəslədiyimizə görə, Şirvan ölkələrinin sədrliyini bütünlüklə ona həvalə etmişik. Düzgün təriqəti, öyin və ənənələrini yaymaqla qeyd olunan ölkənin bütün adamlarını düzgün yola rəhbərlik etməyə çalışsın. Qeyd olunan ölkədə sakin olanlar və vətən salanların hamısı öz xüms, zəkat pullarını hər il Şirvan ölkəsində həyata tətbiq edilən qayda üzrə həmin ağalıq pənahına çatdırsınlar ki, sədrlik rəsmini götürdükdən sonra (qalanını) müstəhəq adamlara çatdırsın. Şəki və Şirvan vilayətinin qazıları, möhtəsibləri və şəriət işlərinə baxanları bütünlüklə ona tabe olur və itaət göstərirlər. Şirvan bəylərbəyi Abdulla xan yeni sədrə, təriqət qaydalarını yaymaqda, şəriət işlərinin irəliləyişində qayğı göstərməli idi. Fərmanın sonunda deyilirdi ki, əmirlər, hakimlər, darğalar, vəzirlər və vəkillərdən, habelə onların mülazimlərindən bir nəfərin belə onun işlərinə qarışmaq hüququ yoxdur.

Sədr vəzifəsi və onun səlahiyyətləri Səfəvilər dövlətindən əvvəl meydana gəlmişdir. Belə ki, Teymurilər dövründə, Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti zamanı da sədrlik mövcud olmuşdur.

Mustoufi əl-məmalik - "vilayətlərin xəzinədarı". Baş maliyyə idarəsi idi. Mülki idarə aparatının başçısı olan vəzirin nəzarəti altında

işləyirdi. Vergi işlərinin qaydaya salınmasına, dövlət büdcəsinin tərtib edilməsinə, mükəlləfiyyətlər siyahısının tərtibinə, bəylərbəyilərə, tiyul və kələntərlərin rüsumuna nəzarət edirdi. Onun təsdiqi və möhürü olmadan mülki və hərbi vəzifəli şəxslərə məvacib verilmirdi.

Nazir-i büyutat'- (ərəbcə beyt-ev, bina təsərrüfatı sözünün cəm halı) hər birinə "sahib-i cəm" başçılıq edən 33 karxanadan (emalatxanadan) ibarətdi. Büyutatlardan bir çoxu: mətbəx, qab-qacaq yuyulması üçün bina, müxtəlif anbarlar, kitabxana, tövlə və s. sadəcə olaraq ev təsərrüfatı və məişət ləvazimatı idi. Bununla yanaşı dövlət manufakturası tipli büyutatlar (toxuma emalatxanası, dərzi sexləri, sikkəxana, habelə zərgər, dəmirçi, bədii emalatxana və s.) var idi.

Büyutatşah şah və onun ailəsinin, həmçinin saray əyanlarının yeməyə, paltara, bəzək əşyalarına və s. olan tələbatının ödənilməsinə xidmət edirdi. Səfəvi hökmdarları, saray əyanları, feodallar məişətlərində zərli ipək və məxmər parçalar, qəşəng və yaraşıqlı xalılar, qumaş və s. toxunma malları işlədirdilər.

Eşikağasıbaşı saray məclislərində təşrifat və mərasim qaydalarına baxan məmur idi. Onun vəzifəsi öz tabeliyində böyük xidmətçilər ştatı - yavərlər, təşrifat məmurları, hərəmağaları, qapıçılar, yasovullar, carçılar olmaqla saray toplantılarında və təntənələrində baş təşrifat məmuru kimi fəaliyyət göstərməkdən ibarət idi.

Möhrdar, yaxud möhrdar-i mühr-i hümayun - "Əlahəzrət möhürünün mühafizəçisi". İlk dövrlərdə möhrdar böyük hörmət sahibi sayılırdı. O, vəzirlərin, mustoufilərin, kələntərlərin təyinatları barədə fərmanlara, həmçinin də əmirlərə, hakimlərə və digər bağışlanan soyurqallara, tiyullara aid olan sənədlərə "əlahəzrətin möhürünü basırdı". Möhrdar vəzifəsi tutanların böyük nüfuzu olmuşdur. Belə ki, II Şah İsmayıl taxta çıxdıqdan sonra İbrahim Mirzənin vəzifəsini yüksəldərək eşikağasıbaşı vəzifəsindən şah möhrdarı vəzifəsinə qaldırmışdı.

Mirşikarbaşı şahın ov tədbirlərinin başçısı idi. Ovçubəylər, şahin saxlayanlar (quşçuyan) və başqaları mirşikarlara tabe idilər. Ov yalnız əyləncə üçün keçirilmir, həm də bir növ rəqib üzərinə hücum xarakteri daşıyırdı. Şahdan və onun əhatə etdiyi əyanlardan başqa minlərlə döyüşçünün, heyvanları qovan kəndlilərin iştirak etdiyi, geniş əraziləri əhatə edən böyük sürək ovları əslində hərbi manevrləri xatırladırdı.

Xəlifət əl-xüləfa ("xəlifələr xəlifəsi") qızılbaş tayfalarının imtiyazlı təbəqəsi içərisindən təyin edilir və bir qayda olaraq, türk (azərbaycanlı) olurdu. Səfəvi sülaləsinin şahları onların köməyi ilə yalnız özlərinin arxalandıqları, onları hakimiyyət başına gətirmiş qüvvələrə deyil, həm də öz ardıcıllarının geniş şəbəkəsinə nəzarət edirdilər. Xəlifət əl-xüləfalar böyük səlahiyyətə malik olub "mürşid-i kamilin" (yəni şahın) təriqət işləri üzrə müavinləri sayılırdılar. I Şah Abbasın ölümündən sonra da şahın öz ardıcıllarının "mürşid-i kamili" olması ideyası onun nazirləri tərəfindən tanınmışdı. Lakin sonralar xəlifə əl-xülafə vəzifəsi siyasi hakimiyyətdən uzaqlaşdırıldı və sadəcə olaraq "sufilərin işlərinə dair katibliyə" çevrildi.

Münşi əl-məmali - "dövlət katibi". Şah şurasının sərəncamında xeyli mirzə ştatı olduğuna görə müniş əl-məmalik nüfuzlu əyan idi. O, **vaqiyə-nəvislə** (məclis-nəvis) yanaşı şahın yazışmasının bir hissəsini idarə edirdi. Bu iki vəzifə demək olar ki, bir-birini tamamlayırdı. Vaqiyənəvis dövlət şurası (məclis-i əla) iclaslarını sənədləşdirir, arxivi nizama salırdı. O, sarayın tarixşünası, şahın şəxsi katibi idi, şahın yerli hakimlər və xarici dövlətlərlə yazışmasını təşkil edirdi. Müniş əl-məmalik və onun mirzələri şahın bütün məktublarında (pərvənəcət), fərmanlarda və digər rəsmi sənədlərdə müəyyən olunmuş tuğraları yerinə yetirirdilər.

Müəyyər əl-məmalik – "dövlətin əyar vuranı" dövlət miqyasında pul işinə rəhbərlik edirdi. **Zərbxana müdiri** - "zərrabaşı" ona tabe idi. Zərbxana müdiri sikkə kəsmək hüququ üçün şaha müəyyən məbləğdə pul verirdi. Sikkə kəsmək hüququ üçün vergi **"vacibi"** adlanırdı. Şahın xeyrinə alınan "vacibi" vergisinin miqdarı bir misqal qızıl üçün 30 dinar, bir misqal gümüş üçün isə 2 dinar idi. Daha çox gəlir götürmək məqsədi ilə pul dövriyyəsinin artırılmasına çalışılırdı. Lakin pulun dəyərinin azalması ticarətin pozulmasına və hətta iğtişaşlara səbəb ola bilərdi.

Mühtəsib əl-məmalik – "dövlət mühtəsibi" şəhər bazarlarına nəzarət qoyan, əmtəələrə qiyməti təsdiq edən mərkəzi aparat məmuru. Onun başlıca vəzifəsi ticarətin düzgün aparılmasına, ölçü və çəkilərə əməl olunmasına, fırıldağa yol verilməməsinə nəzarət etmək idi. Şə-

hər bazarlarında gözətçilər əsasən səslərdən ibarət idi. Hər axşam günbatan çağı kəranay, təbil və zurna səsi eşidilirdi. Bu dükandarlara mağazaları bağlamaq vaxtının çatdığını xəbər verirdi. Sonra gecə gözətçiləri – **əsəslər** bazara daxil olurdular. Gecədən bir qədər keçdikdən sonra təbil çalan küçə və bazarda gəzirdi. Qadağan saatından sonra fənərsiz və çıraqsız bazarda görünən adamı gözətçi tutub zindana salırdı. Səhərə yaxın təbil çalınandan sonra gecə gözətçiləri bazar və dükanların qorunmasına məsuliyyət daşımırdı. Mühtəsibin bir neçə müavini var idi. Hər həftənin birinci günü (şənbə) carçı vasitəsilə malların qiymətləri elan edilirdi. Mühtəsib həftə ərzində bu və ya digər malın qiymətini azaldıb-artırmaq barədə öz adamları ilə məşvərət edirdi. Müəyyən olunmuş qiymətdən baha satanları cəzalandırırdılar.

Yasavul mənşəcə monqol "yasa" - "qanun, qayda" sözündədir. Yasavullar mühafizə işlərinə, şahın olduğu yerdə qayda-qanun yaradılmasına məsul idilər. Yasavullar ən hörmətli və möhtərəm əmirlərin oğlanları arasından təyin olunurdular. Onların sayı 10 nəfərə qədər olurdu. Şah yığıncaqlarında (məclis-i xass) yasavullar eşikağasıbaşının yerinə xidmət edirdilər. Açıq yığıncaqlarda isə şahın qarşısında dayanırdılar. Yasavullar onların məvacibini və qulluq yerini təsdiq edən yüksək divan eşikağasıbaşının tabeliyində idilər. Şah yavərlərinin hazırlanması mənəviyyat və möminlik hamilərinin daimi nəzarəti altında olurdu.

Ləşkərnəvis – "qoşun kargüzarı". I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində əmirlər və qoşun arasında böyük nüfuza və hörmətə malik idi. Belə ki, hətta onun "vəzir vəzifəsinin astanasında" durduğunu güman edirdilər. **Mustoufey-i mal** ("zabitanəvis", "müfradənəvis"lə eynidir). Mustoufi əl-məmalikin başçılığı altında xidmət edirdi. Zabitanəvis anlamı "vergiləri yığan" deməkdir. "Avarcanəvis" idarəsindən fərqli olaraq mustoufiyi - malın ştatında olan mirzələr divana daxil olan pul mənbələrini (vücuhat) qeydə alırdılar. Zabitanəvis idarəsinə yığılmalı olan məbləğlər yol vergiləri (vücuh-i rahdarı), tütün ticarəti üçün vergilər, çobanbəyi (mal-qara üçün vergi) və s. idi.

Avaracanəvis. Ona müvafiq olaraq, fərdi qaydada vergi verənlərdən ödəmələr alınır və növbəti ödəmələr elə qaydada yazılırdı ki, ora

əlavələr etmək mümkün olsun. Avaracanəvis də mustoufi əl-məmalikin nəzarəti altında fəaliyyət göstərir və maliyyə idarəsinə aid edilirdi.

Avaracanəvisin aşağıdakı vəzifələri müəyyən edilmişdi. Birinci vəzifə kimi vergi verənlərin adları kitabda qeydiyyatdan keçirilirdi. İkincisi, onlar divan qulluqçularından daxil olan sənədlərin üzərində müxtəlif qeydlər edirdilər. Üçüncüsü, onlar tiyula, həme saleyə və s. aid olan sənədləri (pərvənəcanə) qəbul edir və yola salırdılar. Dördüncüsü, vergi toplanmasını idarə edən vilayət hakimiyyət orqanlarına göndərilən rəqəm və sənədlərin qeydə alınması, yoxlanması onların vəzifəsinə daxil idi.

Sahib-i təücih (təücih "yollamaq, ünvana göndərmək" deməkdir. "Təücih" ödəniş idarəsi idi və tədiyələrin əksəriyyəti alıcılara torpaq üçün verilən pullar və digər gəlir mənbələri təxsisatlarla ödənildiyindən sahib-i təcühə "təxsisatlar sahibi" kimi baxmaq olar. Sahib-i təücihin mirzələr ştatı var idi. O, "şahın sərəncamları" ilə müxtəlif, təsadüfi vergilərin miqdarını müəyyən etmək və vergilərin özbaşına artırılmasına yol verməmək vəzifəsini yerinə yetirən mustoufi əlməmalikə tabe idi.

Mustoufi ərbab-i təhavil ("ərbab-i təhavil təhvildarən"lə eyni mənadadır) - büyutat mustofilərinə həvalə olunmuş sikkə zərb edilməsinə, əmtəə və xammal işlərinə nəzarət edən məmur. O, şah sarayının müxtəlif büyutatları arasında bölüşdürülmüş mülkiyyətin məsul nəzarətçisi idi. Aşağıdakı məsul nəzarətçilər var idi: şah xəzinəsinin müşrifi (**müşrif-i xəzinəyi amere**); tövlə müşrifi (**müşrif-i tövlə**); şahın paltarının saxlandığı yerin və dərzixananın müşrifi (**müşrif-i rəkabxana və qayçaçixana**); dəvələrin saxlandığı binanın müşrifi (**müşrif-i şotorxan**).

Vəzir-i qurçiyan-i əzəm, mustoufi qurçiyan-i əzəm ("Böyük qurçilərin vəziri", "böyük qurçilərin mustoufisi"). Güman edilir ki, bu halda şah qvardiyaçılarının, qurçilərin hərbi dəstələrinin vəziri və mustoufisi nəzərdə tutulur. Onlar qvardiyaçılar dəstəsinin rəisi olan qurçibaşının yanında xidmət edir, qurçibaşı üçün dəftərxana və mühasibat işlərini yerinə yetirirdilər. Bu vəzifədə vəzir katib və maliyyə nəzarətçisi səlahiyyətlərinə malik idi. Yəni təyinatlar üzrə sənəd-

lər hazırlayır, əmrlərə, vəsiqələrə, hesabatlara və s. möhür basır, tapşırıq qeydləri aparırdı.

Mərkəzi idarəetmə aparatının yuxarıda göstərilən vəzifələrindən başqa saray daxilində digər vəzifə ştatları da olmuşdur ki, bunlardan da ən əhəmiyyətliləri **miraxurbaşı** – mehtərlərin rəisi, **mehmandarbaşı** – xarici səfirlərin və hörmətli qonaqların qəbul işlərinə baxan müdir, **süfrəçibaşı** – süfrəyə qulluq edənlərin rəisi, **halvaçıbaşı** – saray şirniyyat ustalarının rəisi, **şərabçıbaşı** – saqilərin rəisi, **münəccimbaşı** – saray münəccimlərinin başçısı və b. qeyd etmək olar.

Səfəvilər dövlətinin mərkəzi və yerli idarəetmə aparatı məmurlarının maddi təminatı və mükafatlandırılması sistemi çox mürəkkəb idi. Əsasən, məmurların və xidməti qulluqçuların məvacibinin ödənilməsi müəyyən yerdən vergilərin hamısını, yaxud bir hissəsini almaq üçün verilmiş xüsusi sənədlər (bərat, həvalə) vasitəsilə həyata keçirilirdi. Bu mükafatlandırma forması Səfəvilər dövlətində geniş tətbiq edilirdi və **tiyul** adlanırdı. XVI əsrin ikinci yarısından etibarən tiyulun iki növü fərqləndirilirdi: "tiyul"un özü və "həmesale" (yəni, "hər il", "bütün ili"). **"Həme sale"** dövlət qulluqçusuna "bütün illər üçün", əgər şəxsi xidmətə görə verilmiş qulluqdan getmirsə, əməli olaraq ömürlük verilən "məvacib" idi. "Həme sale" "yek saledən", yəni "birillik məvacibdən" fərqlənirdi.

Dövlət əyanları vəzifələrinə əlavə olunmuş daimi yığım hüququ ilə təmin edilmişdilər. I Şah Təhmasibin şəxsi mühafizəçiləri kimi fəaliyyət göstərən qurçilər adlanan beş min nəfər əsgərin məvacibi həmişə pulla ödənilmirdi. Mükafatlandırmanın bir hissəsi natura ilə ödənilirdi. Onlara həmçinin geyim və at verirdilər.

Vəzifəli məmurların mükafatlandırılmasında toplanan "bəxşiş"lərdən (rüsum) da istifadə edilirdi. Rüsum yığımları vassallardan və vilayətlərdən icbari qaydada, istər natura ilə, istərsə də pulla çoxlu hədiyyələrdən (peşkəş) tutulan faizlər şəklində mövcud idi. Peşkəş – nəvis xüsusi məmur tərəfindən ayrıca kitabda qeydə alınır və qiyməti müəyyən edilirdi. Şaha hər hansı hədiyyə (peşkəş) verən şəxs şaha (yaxud xəzinəyə) əlavə olaraq öz hədiyyəsinin dəyərinin müəyyən faizini də pulla ödəməli idi. Bu yolla toplanmış pullar mərkəzi aparatın müxtəlif məmurları arasında bölüşdürülürdü.

Yerli idarəçilik. Azərbaycan Səfəvilər dövləti inzibati cəhətdən dörd bəylərbəylikdə birləşmişdi. Bəylərbəylik inzibati ərazi vahidi öz növbəsində əyalətlərdən və mahallardan ibarət idi. Təbriz bəylərbəyini Talış, Astara, Qaradağ, Sərab, Meşkin, Muğan və s. mahallar əhatə edirdi. Çuxursəəd bəylərbəyinin ərazisinə isə Naxçıvan, Araz çayından şimaldakı ərazilər, Araz çayının sağ sahil əraziləri, Maku mahalı daxil idi. Üçüncü bəylərbəylik mərkəzi Gəncə şəhəri olmaqla Qarabağ bəylərbəyliyi idi. Buraya Bərdə, Ağstafa, Kür boyu ərazilər, Kürdən cənubda yerləşən Cavanşir mahalı daxil idi. Dördüncü isə mərkəzi Şamaxı şəhəri olmaqla Şirvan bəylərbəyliyi idi. Bakı, Quba, Dərbənd, Salyan, Şəki, Ərəş mahalları Şirvan bəylərbəyliyin ərazisini əhatə edirdi.

Bəylərbəyliklər daxili idarəetmədə mərkəzi hakimiyyətdən müstəqil idilər. Bəylərbəyi toplanmış verginin müəyyən hissəsini mərkəzi hakimiyyətə verirdi. Onların silahlı qüvvələri (**mülazim** və **çərik**) şahın əmri ilə hərbi yürüşlərdə, yaxud üsyanların yatırılmasında iştirak edirdilər. Bəylərbəyilər bəzən o qədər qüdrətli idilər ki, hətta öz saraylarının zənginliyinə görə şahla rəqabət aparırdılar. İlk Səfəvilər dövründə əmir əlüməraların, yaxud bəylərbəyilərin təyin olunması Azərbaycan tayfa əyanlarının – qızılbaş feodallarının müstəsna imtiyazı idi. Onların hər birinin şah sarayına bənzəyən imarəti olmuşdur.

XVII əsrdə bəylərbəyilər 13 əyaləti idarə edirdilər: Şirvan, Qarabağ, Gəncə, indiki Cənubi Azərbaycan, Çuxursəəd, Qəzvin, Həmədan, Fars, Kirman, Astrabad, Məşhəd, Herat, Qəndəhar.

Vilayət inzibati idarə sistemi bir çox cəhətdən mərkəzi dövlət aparatındakı kimi idi. Qızılbaş əyanları vilayətləri irsi olaraq idarə edirdilər. Lakin şah yeni təyinatları təsdiq etməli idi. İlk Səfəvilər dövründə bəylərbəyilər əsasən hərbi sərkərdələrdən təyin olunurdular. Tədricən sülh şəraitinin yaranması ilə mülki şəxslərdən də bu vəzifəyə aparılırdı. Əyalətlərə isə, bəylərbəyliyə tabe olan qolbəyləri başçılıq edirdi. Daha kiçik inzibati vahid olan mahallara sultan adlanan naiblər rəhbərlik edirdilər. Sultanlar müvafiq əyalətin qolbəyilərinə, bəzən isə birbaşa bəylərbəyinin özünə tabe idilər. XVII əsrdən başlayaraq ən ali hərbi-inzibati rütbə xan, sonra isə sultan və bəy hesab edilirdi.

Bəylərbəyliklərdə maliyyə işləri idarəsinə vəzir başçılıq edirdi. O, həm də bəylərbəyinin müavini idi. Vilayətdən maliyyə işlərinin vəziyyəti barədə vəzir mərkəzi hökumət qarşısında məsul idi. Kəndlərdə dövlətin səlahiyyətli nümayəndəsi kəndxuda idi. O, icmada torpaqdan istifadə işlərinə, suvarma sisteminə, vergilərin bölünməsinə və yığılmasına və s. işlərə rəhbərlik edirdi.

Səfəvilər dövlətində çoxsaylı iri və kiçik şəhərlər dövlətin sosial-iqtisadi və ticarət münasibətlərinin inkişafında mühüm əhəmiyyət kəsb edirdi. Şəhərlərdə ən yüksək vəzifəli şəxslərdən biri də **kələntər** adlanırdı. O, maliyyə işlərinə, o cümlədən vergilərin toplanmasına başçılıq edirdi. Bəzi böyük şəhərlərdə isə kələntərlər bəylərbəyilərə deyil, bilavasitə şahın özünə tabe idilər və onun tərəfindən təyin olunurdular.

Şah fərmanı ilə yerli feodal əyanlarından təyin olunan kələntər hətta bu vəzifəyə keçmək üçün şaha rüşvət verməli idi. Onlar verdikləri rüşvəti qısa bir zamanda şəhər əhalisindən toplayıb daha da varlanırdılar. Kələntər şəhərin vergilərini vergi verməli olan əhali arasında bölüşdürürdü. O, şəhərdə cinayət işlərinə də baxır, müqəssirlərdən cərimələr alırdı. Kələntər şəhər hakimi qarşısında məsuliyyət daşıyırdı.

Şəhərlərin idarə edilməsində tam ixtiyar sahiblərindən biri də **darğa** idi. Şəhərdə hakim olmadıqda onun işləri bilavasitə darğaya tapşırılırdı. O, intizamı qorumaqla yanaşı, cinayət işlərinə də baxırdı. Lazım gəldikdə müqəssirləri cərimə edir və ya həbs edərək zindana saldırırdı. Hətta darğa öz istədiyi kimi hər hansı bir şəxsi edam etdirə bilərdi. Darğa divandan məvacib almaqla, şəhərdən əldə edilən gəlirin bir hissəsini mənimsəyirdi.

Şəhərlərdə hər bir **məhəllənin kəndxudaları** var idi. Məhəllə sakinləri öz aralarından bir nəfər kəndxuda seçib, nəqib və şəhər kələntərinin təsdiqinə verirdi. Məhəllə kəndxudalarının da böyük nüfuzu var idi. Belə ki, şəhərdə ətin qiyməti bir qədər bahalaşdıqda, yaxud hər hansı narazılıq olduqda məhəllə başçıları ilə şəhər dövlət məmurları arasında ixtilaf baş verir və kəndxudalar öz maraqlarını qorumağa çalışırdılar.

Şəhər bazarlarında kəndxudaları feodal əyanları öz aralarından təyin edirdilər. Onlar nəqib tərəfindən təsdiq olunduqdan sonra kələntər tərəfindən təyin edilirdilər. Kələntər istədiyi vaxt məhəllə və bazar kəndxudalarını tutduqları vəzifələrindən çıxara bilərdi.

Hərbi quruluş. Səfəvilər dövlətində vahid nizami ordu yox idi. Ordu müharibə zamanı əyalət hakimlərinin, bəylərbəyilərin ayrı-ayrı qeyri-nizami feodal dəstələrindən (çərik) təşkil edilirdi. Hər tayfanın əmirləri qoşunları özləri gətirib və döyüşdə də iştirakını təşkil edirdilər. Həmin qoşunların döyüşçüləri (mülaziman, nukəran) tayfa başçıları hesabına saxlanılır və təchiz olunurdular. Səfəvilərin hərbi qüvvələri Ağqoyunlu qoşunlarında mövcud olmuş tayfa prinsipləri üzrə qurulmuşdu.

Ordunun ali baş komandanı şah hesab olunurdu. Şah yürüşdə iştirak etmədiyi hallarda, orduya Azərbaycan tayfalarının nüfuzlu əmirlərindən biri başçılıq edirdi.

Səfəvi ordusunun sayı hərbi əməliyyatlar dövründə 120-150 min nəfərə çatırdı. Döyüşdə süvarilərin sayı 60 min təşkil edirdi. Feodal yığma qoşunlarından (çərik) əlavə sayı 4500 nəfərə çatan qurçilərin qvardiya dəstəsi şahın yanında əlahiddə xidmətdə olurdu. Bundan başqa, şahın yanında yasavulbaşının başçılıq etdiyi 700 nəfərlik yasavul dəstəsi də xidmət edirdi.

Bununla belə, qoşunların lazım olan vaxtda və təyin edilmiş yerdə cəmləşdirilməsi heç də asan iş deyildi. Çox zaman əmirlər təkəbbür və ara çəkişmələri üzündən şah qərargahına gecikdiklərinə, yaxud ümumiyyətlə, gəlmədiklərinə görə döyüşlər Səfəvilərin məğlubiyyəti ilə başa çatırdı. Zəif intizam və döyüşün ən həlledici anında tayfa düşmənçiliyinin coşması qızılbaş ordusunun dəfələrlə darmadağın edilməsinə gətirib çıxarmışdı. Ordu əsasən süvarilərdən ibarət olduğundan piyadaların rolu əhəmiyyətsiz idi. Qoşun özünün böyük mütəhərrikliyi, manevr qabiliyyəti ilə fərqlənirdi.

Ordunun silahlanmasında qalxan, qılınc və s. silahlarla yanaşı, odlu silah növündən də istifadə edilirdi. Nazik poladdan nizə, oxqabı və hərbi geyim hazırlanırdı.

Odlu silah kimi **tire-çərxdən** istifadə edilirdi. Tire-çərx atanlara çərxəndazan (çərx atanlar) deyilirdi. Hava oxuna oxşayan tire-çərx dəmirdən düzəldilirdi. İçərisini barıtla doldurub od vururdular.

Odlu silah növlərindən biri də **mancanaq** idi. Onunla daş, od, torpaq atırdılar. Zərbzən və firəngi odlu silahları XVI-XVII əsrlərdə işlədilmişdir. Zərbzən nisbətən kiçik daş atan odlu silah idi.

I Şah İsmayılın hakimiyyətinin ilk illərində belə, onun ordusunda topxana var idi. 1501-ci ildə I Şah İsmayılın qoşunu Bakı qalasını mühasirə edərkən şahın əmrilə top və tüfəngdən istifadə edilmişdi. Bakı qalası divarlarına toplardan daş tullanmışdı.

I Şah Təhmasibin hakimiyyəti illərində top-tüfəng istehsalına xüsusi diqqət yetirilirdi. Hətta Səfəvi ordusunda topçu və tüfəngçi dəstələri təşkil olunmuşdu. 1529-cu ildə I Şah Təhmasib orduya baxış keçirmişdi. Həmin vaxt arabalara yüklənmiş top, firəngi, 100 zərbzən və badlic, 5 min tüfəng var idi.

XVI əsrin sonlarından artıq topların bir yerdən başqa yerə aparılması texnikası təkmilləşir. Topların çarxları olmasa da, onlar arabalar vasitəsi ilə daşınırdı. 1585-ci ildə 15 batman ağırlığında daş atan "Kəlləquş" adlı topu Göyərçinli (Marağa yaxınlığındadır) qalasından Təbrizə gətirirlər. Bu top hələ I Şah Təhmasibin dövründə həmin qalada hazırlanmışdı. "Şahi" adlanan top da olmuşdur ki, on cüt öküz belə onu çəkməkdə aciz idi. 1607-ci il martın 22-də I Şah Abbasın əmrilə Gəncədən Şamaxıya dörd top gətirilmişdi. Bu toplar 30 batmanlıq daş ata bilirdi. Vaxtilə Xoyda tökülmüş "Yoldaş" adlı bir top və İsfahandan bir neçə top 1635-ci ildə İrəvana gətirilmişdi. 1604-cü ildə Təbrizdə 40 batman ağırlığında daş güllə atan "Fəth" və "Nüsrət" adlı iki top, 1610-cu ildə Dümdümə qalasında iki böyük top və bir balmız hazırlanmışdı.

Topları, adətən, dəmirdən deyil, misdən tökürdülər. Təbrizdə barıt da hazırlanırdı. 1571-ci ilə aid olan sənəddə qeyd edilirdi ki, Səfəvi döyüşçüləri "arkebuz", yəni "dayandoldurum" tüfəngindən istifadə edirdilər. Bu silahların lülələrinin uzunluğu 6 qarış (9 düymə) idi və onlar çəkisi 3 unsidən (unsi - 28 qr.) bir qədər az olan qumbaralar atırlar. Döyüşçülər odlu silahı arxada gəzdirir, onları elə asanlıqla idarə

edirdilər ki, bu nə yayı tutmağa, nə də əgər şərait tələb edərsə, yəhərlərinə bərkitdikləri qılıncdan istifadə etməyə mane olmurdu.

1585-ci ildə Təbrizdə qızılbaşların 20 min nəfərdən ibarət tüfəngçi və piyada döyüşçüsü toplanmışdı. Bu qədər silahı Avropa dövlətlərindən almaq mümkün deyildi. Bu tüfənglər məhz Azərbaycan sənətkarları tərəfindən hazırlanırdı. Hazırlanan silahın yaxşı keyfiyyətdə olduğu göstərilir və digər ordulardakından heç də geri qalmırdı.

Məhkəmə sistemi. Səfəvilər dövlətində məhkəmə işləri şəriət əsasında aparılırdı. Məhkəmələrə qazılar sədrlik edirdilər. Qazılar başçısı **qazi-ül-qüzzat** adını daşıyırdı. Onların çox böyük imtiyazları var idi. I Şah Təhmasibin 1527-ci ildə ölkəyə təyin etdiyi yeni qazi-ül-qüzzatı, qoşun qazısı (hərb məhkəmə hakimi) təyin etməklə, ona əvvəlki soyurqallardan əlavə, Azərbaycanda yaşayan qeyri-müsəlmanlardan ildə səranə (adambaşına) adı ilə alınan altı dinar vergi olaraq soyurqal kimi hədiyyə etmişdi. Bu soyurqal heç bir şərt qoyulmadan irsi olaraq qalmış və hər dəfə hakimiyyət başına keçən Səfəvi hökmdarları tərəfindən rəsmiləşdirilmişdir.

Məhkəmənin sədri kimi qazı kəbin kəsmək, talaq vermək, yaş kağızı yazmaq, cinayət və mülki işlərə baxıb hökm çıxarmaq səlahiyyətinə malik idi. İşə şahidlərin, iddiaçı və cavabdehin, məhkəmə üzvlərinin, məhkəmə xidmətçilərinin iştirakı ilə baxılırdı. Məhkəmə prosesində qazı öz səlahiyyətlərindən istifadə edərək işin dəqiq araşdırılmasının təmin edilməsinə çalışırdı.

Qazılığın yüksək ilik və peşə vərdişini tələb etməsinin nəticəsidir ki, çox vaxt qazı vəzifəsinə fiqhə yaxından bələd olan, ailəlikcə qazılıqla məşğul olanlar təyin edilmişlər. Dövlət xəzinəsindən məvacib almasına, həmçinin mütəvəlli olduqları vəqf əmlakı gəlirindən onda bir götürməklərinə baxmayaraq, qazıların qulluq mövqeyindən sui-istifadə etməsi geniş yayılmışdı. Belə ki, vəqf əmlakının gəlirindən min tümən mənimsədiyi üçün I Şah Təhmasibin əmrilə 1557-ci ildə Azərbaycanın qazi-ül-qüzzatı həbs edilərək Ələmut qalasına salınmışdı.

Səfəvilər hakimiyyəti dövründə ali din xadimləri təkcə dini vəzifələrdə deyil, həm də dünyəvi vəzifələrdə işləmişlər. Ölkədə ən ali dini vəzifələr, o cümlədən sədrlik seyidlərdən başqa heç kəsə veril-

mirdi. Sədr bütün şəhərlərdə, o cümlədən Təbrizdə şeyxül-islamı, qazıları, nəqibləri, möhtəsibləri, xütbə oxuyanları, hafizləri, xəlifələri, mütəvəlli və müdərrisləri işə qəbul və ya işdən azad edə bilərdi. Təbriz böyük şəhər olduğu üçün burada bəzən eyni vaxtda üç nəfər qazılıq etmişdir. Vəqf əmlakı sədrlərin nəzarəti və təqdimatı ilə seyidlərə tapşırılırdı. Mütəvəlli vəqf əmlakından gələn mədaxili toplayır və onun xərclənməsinə şəxsən nəzarət edirdi. Bir çox mahallarda mütəvəlli eyni vaxtda həm də şəhərin kələntəri vəzifəsini aparırdı. Möhtəsib qiymətlərə, çəki və ölçüyə nəzarət edir, sərxoşları, quşbazları və s. mənhus işlərlə məşğul olanları cərimə edir və ya cəzalandırırdı. Möhtəsib polis vəzifəsini daşıyırdı. Gecələr isə bu vəzifə şəhnə və ya əsəslərə tapşırılırdı. Onlar möhtəsib kimi gecələr intizamı qoruyur, oğru və sərxoşları cəzalandırır, səhərə kimi küçə və bazarları gəzirdilər. Hər bir şəhnənin bir neçə nəfərdən ibarət mülazimi olurdu. Möhtəsib də dövlət xəzinəsindən məvacib alırdı.

Hüququn inkişafı. XVI-XVII əsrlərdə Səfəvilər dövlətində müsəlman hüququ ictimai münasibətləri tənzim edən əsas mənbə olmuşdur. Səfəvilər dövlətində şiəliyin dövlət din-məzhəbi elan edilməsi müsəlman ruhanilərin dövlətdə və onun idarəetmə strukturlarında rolunu xeyli artırmışdı. Məlumdur ki, müsəlman hüququnda milli fərqlərin nəzərə alınmaması, ehkam xarakteri daşıması nəticəsində bir islam dövlətində yaranmış hüquq normaları bütün islam ölkələrində tətbiq edilirdi. Bundan əlavə, Səfəvilər dövlətində şiəlik məzhəbi ardıcılları hədis əsərlər yazaraq şiəlik ideyalarına üstünlük vermişdilər. Əl-Amili Bəhaəddin Məhəmməd (1609-cu ildə vəfat edib) "Risalə fi bəyan ərbəin hədisən" (40 hədisin aydınlaşdırılması barədə traktat) əsərində peyğəmbərin sağlığında toplanmış 40 hədis şiəlik baxımdan şərh edilirdi. Lakin bu hədis əsərlər sünni hədis əsərlərindən ciddi fərqlənməmiş, yalnız xilafətin Əli ibn əbu Talibə çatmasına dair fikirlərə üstünlük verilmişdir.

Səfəvilər dövlətində hüququn digər mənbəyi kimi şah fərmanları ilə yanaşı, I Şah Təhmasibin "Dəstur-əl-əməl şah Təhmasib", I Şah Abbasın islahatları, I Şah Hüseynin vergi siyasəti böyük əhəmiyyət kəsb edirdi.

I Şah Təhmasib 1555-ci ildə **"Dəstur-əl-əməl"** adlı vergi, mükəlləfiyyət və cərimələrin miqdarını müəyyənləşdirmək haqqında 96 maddədən ibarət qanun verdi. Həmin qanunnamə bir sıra iri şəhərlərdə daş üzərində həkk edilib əhalinin ümumi toplandığı yerdə qoyulmuşdu. Vergi və mükəlləfiyyətlərin miqdarının dövlət tərəfindən qanuniləşdirilməsi vergi toplayan məmurların özbaşınalığını nisbətən məhdudlaşdırırdı. Lakin bu qanunnamə də vergi verən əhalinin vəziyyətində əsaslı dəyişiklik əmələ gətirə bilmədi. 1617-ci ilə qədər qüvvədə qalan qanunnamə iqtisadi inkişaf üçün müəyyən qədər zəmin yaratdı.

I Şah Təhmasib 1565-ci ildə ticarət karvanı yolları keçidində və şəhərlərdə ticarət malları hesabına alınan tamğa vergisinin ləğv olunması haqqında fərman vermişdi. Həmin fərmana əsasən zərrabxanalarda tacirlər tərəfindən qızıl və gümüşün sikkəyə çevrilməsilə əlaqədar alınan vergi də ləğv olunurdu.

I Şah Abbasın islahatları dağıdılmış təsərrüfatın bərpasına, ticarətdə və karvan yollarında qayda yaratmağa, vergi və mükəlləfiyyətlərin toplanmasına və ordunun yenidən təşkilinə yönəldilmişdi. 1611-ci ildə Təbriz əhalisi iki il müddətinə malcəhət və divan vergilərindən azad edildi. 1615-ci ildən başlayaraq I Şah Abbasın əmrilə hər il bir ay ərzində (Ramazan ayında) malü-xərac vergisi ödəmək dayandırılırdı. Bundan əlavə, həmin ildə darucəki və dövlət hesabına alınan ehdas vergisi ləğv olunurdu.

I Şah Abbasın islahatı karvan yollarında ticarət karvanlarının təhlükəsiz hərəkət etməsi üçün də müəyyən tədbirləri nəzərdə tuturdu. Belə ki, tacir malı qarət edildikdə tapılıb sahibinə qaytarılmalı, əks halda hadisə baş verdiyi yerin hakimi onun əvəzini ödəməli idi. Tacirlərdən ticarət mallarını açıb baxmadan hər dəvə yükü üçün 10 abbası gömrük haqqı alınırdı. Toplanmış bu vəsait yolların mühafizəsinə sərf olunurdu.

I Şah Abbas dövlətin maliyyə vəziyyətini yaxşılaşdırmaq və dövlət xəzinəsini doldurmaq məqsədilə dövlət vəzifələrinə təyin olunan məmurlardan **"peşkəş"** adı ilə pul verilməsini demək olar ki, "qanuniləşdirdi".

I Şah Abbasın hərbi islahatına görə bir neçə qoşun növü yaradıldı: 1) **Qızılbaşlar** ordusu 200 min nəfərə çatırdı. Ordunun 60 min nəfəri həmişə döyüşə hazır olurdu. Bütün XVII əsr ərzində qızılbaşlar Səfəvilər dövlətində üstünlük təşkil edirdi. 2) **Qulamlar.** Onların sayı 15 min nəfərə çatırdı. Qulamlar xüsusi şah qvardiyasını təşkil edirdilər. Sonralar bu qvardiyadan Səfəvi şahlarına sadiq olan görkəmli sərkərdələr çıxmışdır. 3) **Tüfəngçilər korpusu.** Onların sayı 12 minə qədər idi. I Şah Abbas ordunun odlu silahla təchiz edilməsinə diqqət verir, hətta Avropa ölkələrindən bu işə mütəxəssislər cəlb edirdi. Tüfəngçilər arasında azərbaycanlılar üstünlük təşkil edirdi. 4) **Topçular dəstəsi.** I Şah Abbasın ordunu yenidən təşkil etmək islahatına uyğun olaraq ordu 500 səhra topu ilə təchiz edildi. 1608-ci il iyun ayının 4-də I Şah Abbasın iştirakı ilə İsfahanda Osmanlı ordusundan və Avropadan 700-ə qədər qənimət alınmış top nümayiş etdirildi. I Şah Abbas yerli ustaların hazırlanmasına çalışmış və toptökən karxanaların sayını artırmışdı. Bu dövrdə odlu silaha, xüsusilə topa tələbat xeyli artmışdı.

I Şah Hüseyn (1694-1722-ci illər) əhalidən alınan vergiləri tənzim etmək məqsədilə 1698-1701-ci illər ərzində əhalinin siyahıya alınması barədə fərman vermişdi. Xüsusi yaradılmış komissiya başda vəzir Tahir olmaqla 1100 nəfər məmurla Gəncəyə gəlmişdir. Siyahıya alınma iki mərhələdə, həm oturaq əhali, həm də elatlar (tərəkəmə) arasında aparılmışdı.

15 yaşına çatmış və ondan yuxarı yaşda olanların hamısı siyahıya alınırdı. Hər bir yaşayış məntəqəsində kəndxudalardan və ağsaqqallardan ibarət komissiya əhalinin qeydiyyatını aparırdı. Nəticədə başpulu (səranə) vergisi üç dəfə artırılır, yeni ixracat-i şahzadə - şahın oğlanlarının saxlanılması üçün və "şeş dinar" - 6 dinar vergiləri tətbiq edilir. Əhalinin siyahıya alınması ilə yanaşı icma torpaqları, əkin sahələri, üzümlüklər və bağlar da siyahıya alınırdı.

Əvvəllər, əsasən vergilərdən azad edilmiş elatların da siyahıya alınması keçirilirdi. Tərəkəmələrin mal-qarası siyahıya alınır və vergi təyin edilirdi.

I Şah Hüseynin vergi islahatı keçirmək adı ilə əhalinin siyahıya alınması siyasəti əhali tərəfindən narazılıqla qarşılanmışdı.

IX FƏSİL

XVIII əsrdə Azərbaycanın dövlət və hüquq tarixi

Azərbaycanın Xəzərsahili ərazilərinin Rusiya tərəfindən işğal edilməsi. Hələ 1700-cü ildən başlayaraq rus çarı I Pyotr yerlərdəki vəziyyəti öyrənmək üçün Cənubi Qafqaza öz nümayəndələrini göndərirdi. 1716-cı ildə xüsusi ekspedisiya Xəzərsahili vilayətlərin ətraflı təsvirini xəritəyə köçürür və yürüşə gizli hazırlıq görülürdü. Bu dövrdə Səfəvilər dövlətində mərkəzi hakimiyyət xeyli zəifləmiş, separatçılıq meylləri artmışdı. 1721-ci ildə Hacı Davud üsyan qaldıraraq Şamaxını ələ keçirdi. Türkiyə sultanı Hacı Davudun Şirvan hakimi təsdiq olunmasına razılıq verdi. Səfəvi dövlətinin paytaxtı İsfahanda isə əfqan qəbilələri şah sarayını ələ keçirərək Sultan Hüseyn başda olmaqla, bütün Səfəvi xanədanını həbsə aldı, təkcə şahın oğlu Təhmasib qaçmağa imkan tapdı. O, İranın şimal əyalətində özünü II Təhmasib (1722-1732) adı ilə şah elan etdi.

1722-ci ilin yazında I Pyotr böyük bir qoşunla Həştərxandan yürüşə başladı. I Pyotr Azərbaycan dilində "Manifest" nəşr edərək Şirvana və Xəzərsahili vilayətlərə göndərdi. 1722-1723-cü illərdə Dərbəndin, Bakının, Salyanın və Rəştin tutulması ilə Xəzərsahili vilayətlərin Rusiyaya birləşdirilməsinin birinci mərhələsi başa çatdı.

Rusiya imperiyası bu ərazilərdə möhkəmlənmək üçün hərbi-diplomatik və inzibati idarəetmə sahəsində tədbirlər gördü. Xəzərsahili ərazilərə yeni qüvvələr və hərbi ləvazimat göndərilmişdi.

1726-cı ildə Niyazabad limanı Rusiyanın inzibati idarəsinə keçdi. 1727-ci ildən başlayaraq kəndlərdən toplanan gəlir rus xəzinəsinə təhvil verilirdi. Salyan rayonunda, Kürün sağ sahilində ruslar tərəfindən qala tikilirdi. 200 nəfərdən ibarət hərbi qarnizon Bakı komendantına tabe etdirildi. Kürün mənsəbindəki balıq ovundan rus xəzinəsinə hər ildə 15 min manat icarə haqqı verilirdi.

İşğal edilmiş bəzi şəhərlərdə rus inzibati idarələri yaradılmış, digərlərində isə köhnə hakimlər – naiblər və sultanlar saxlanılmışdı.

Ruslar Xəzərsahili vilayətləri rus manufaktura sənayesinin xammal bazasına çevirməyə çalışırdılar. Bu məqsədlə bir neçə dövlət təsərrüfatı təşkil edilməsi nəzərdə tutulurdu. Bunların təşkili və idarə olunması komandanlığın nümayəndələrinə həvalə edilmişdi. İşçi qüvvəsi kimi yerli qarnizonların əsgərlərindən və xüsusi səfərbəliyə alınan kəndlilərdən istifadə olunmalı idi.

Rus inzibati idarələri yaradıldıqdan dərhal sonra yerli əhalidən vergi toplanmasına başlanıldı. Cütbaşı vergisi kimi, kotana qoşulan hər bir öküz əvəzində onun sahibi xəzinəyə 50 qəpik, qış zamanı otlaqlardan istifadə etmək əvəzində isə 10-15 manat pul verməyə məcbur edilirdi. Yerli məhkəmə işlərində hakimlik edən rus zabitləri, cəza əvəzində nağd pulla böyük gəlir toplayırdılar, çünki əgər biri başqası ilə dava edərsə və ya müəyyən təqsiri olarsa, onun üzərinə 5 manatdan az olmayan, bəzən isə 100 manata çatan pul cəriməsi qoyulurdu.

XVIII əsrin 20-30-cu illərində Rusiyanın Azərbaycanın Xəzərsahili vilayətlərinə yiyələnmək təşəbbüsü qəti müqavimətə rast gəlir və Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi təxminən bir əsrə qədər ləngidilir.

1723-cü ilin yazında Türk ordusu Kartli və Kaxetiyanı tutduqdan sonra Gəncə, Şamaxı və Bakı üzərinə hərəkət etdi. Türk ordusunun irəliləməsi Rus dövlətinin mənafeyi üçün ciddi təhlükə yaradırdı. 1724-cü il iyunun 12-də Rus hökuməti Türkiyə ilə sülh imzalamaqla, 1723-cü il 12 sentyabr tarixli Peterburq müqaviləsi şərtlərinin təsdiq edilməsinə və Dərbənd, Bakı, Salyan, Lənkəran, Rəşt, Ənzəli və s. Rusiyaya ilhaq edilməsi faktının qəbul olunmasına nail oldu.

1724-cü ilin avqustunda türk qoşunları Naxçıvan, 1725-ci ilin iyulunda isə Təbriz üzərinə böyük qüvvə ilə hücum edir. Təbriz şəhəri tutulduqdan sonra 1725-ci ilin dekabrında Ərdəbil türk ordusu tərəfindən ələ keçirilir. Azərbaycanın işğal olunmuş torpaqlarında türk inzibati idarələri yaradılaraq, çoxlu vergi və mükəlləfiyyətlər təyin edilir.

Əfşar tayfasından çıxmış məşhur sərkərdə Nadir İrandan əfqan tayfalarını qovaraq II Təhmasibi taxtdan salmış və onun dörd aylıq oğlunu III Abbas adı ilə şah elan etmişdi. 1736-cı ilin fevralında Muğanda keçirilən qurultayda vəfat etmiş kiçik yaşlı III Şah Abbasın ye-

rinə Nadir şah seçilir. Beləliklə, Səfəvi sülaləsi hakimiyyətdən kənarlaşdırılır. 1747-ci ildə Nadir şahın ölümündən sonra ayrı-ayrı xan, sultan, məlik və bəylər öz müstəqilliyini qorumağa çalışır və qüvvələri birləşdirərək vahid Azərbaycan dövləti yaratmaq siyasəti aparan xanlara qarşı çıxış edirdilər.

Şimali Azərbaycan xanlıqları içərisindən ən qüvvətlisi Şəki, Qarabağ və Quba xanlığı idi. Cənubi Azərbaycan ərazisində isə Urmiya, Qaradağ, Xoy, Maku xanlıqları daha böyük əhəmiyyətli feodal dövlətləri olmuşdur. Daha kiçik dövlət birləşmələri olan Qəbələ, Ərəş, İlisu, Qazax və Şəmşəddil sultanlıqları, Dağlıq Qarabağ məlikləri xanlıqlardan asılı idilər.

XVIII əsrin II yarısında ictimai quruluş. Hakim feodal sinfinə xan, sultanlar, bəylər, məliklər, ağalar və yüksək rütbəli müsəlman ruhaniləri - şeyxlər, axundlar və qazılar daxil idilər.

Feodal iyerarxiyasına xanlığın ali hakimi olan xan başçılıq edirdi. **Xan** dövlət başçısı kimi ən iri feodal idi. Onun geniş əkin sahələri, saysız-hesabsız mal-qarası, ilxısı, dəyirmanları, karvansarayları, kənd təsərrüfat alətləri, qoşqu heyvanları və s. var idi. Xandan sonra ikinci hakim silkə **sultanlar** və **məliklər** daxil idilər. Sultan tituluna nisbətən kiçik vilayətlərin hakimləri, o cümlədən Salyanın da hakimi məlik idi. Yuxarı Qarabağın hakimləri məlik titulunu daşıyırdılar.

Hakim silkin əsas hissəsini bəylər və ağalar təşkil edirdilər. Bəylər xanlıqda yüksək vəzifələr tutmaqla, xanlardan imtiyazlar əldə edərək, onlara həvalə edilmiş vəzifədən gəlir götürürdülər. Həmçinin, xan onlara ömürlük sahib olmaq şərti ilə kəndlər bağışlayırdı. Azad zümrə kimi bəylər vergi ödəmədən torpaq əldə edə bilər, əkinçilik, ticarət və digər sənədlər üzrə məşğul ola bilərdilər. Bununla belə, bəylər həmişə hərbi xidmətə hazır olmalı idilər. Xanın çağırışı ilə onlar qoşunları ilə birlikdə orduda döyüşə çağırılırdılar. Bəylərin mülki hüquqları vərəsəlik üzrə keçirdi. Vilayət və mahalların bəyləri öz rütbələrinə görə hər il novruz bayramında xan üçün peşkəş gətirirdilər. Xan da öz növbəsində qoşunun bütün adlı-sanlı sərkərdələrinə və minbaşılarına xələt, ənam, at və qılınc bağışlayırdı. Xan, səfərdə olduğu və yaxud ordu ilə getdiyi yerlərdə xidmətdə olan

minbaşıların, yüzbaşıların, bəylərin, ağaların, həmçinin qoşun mirzələrinin, eşikağaların, keşikçilərin və yasavulların bütün məxarici xanın xəzinəsindən verilirdi.

Bəylərin iki qrupu fərqləndirilirdi: irsi və xidmətdə olan bəylər. Birinci qrupa daxil olanlar iri torpaq sahibliyinə malik olmaqla, vaxtilə Səfəvi şahlarından bəylik titulu alanlar idilər. İkinci qrupu xanın yanında xidmətdə olanlar, tiyuldarlar və hərbi sərkərdələr təşkil edirdilər.



Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarında kəndlərin idarəsinə hüququ olanlar **ağa** adlanırdı. Onlar da bəylərin malik olduqları im-

tiyazlar kimi vergi və mükəlləfiyyətlərdən azad idilər. Kəndlərdən gələn gəlirin bir hissəsini özləri üçün istifadə etməklə kənd əhalisi ağaların xidmətində durmağa borclu idi. Ağalara kəndlərin idarəsi bəzən ömürlük və vərəsəliklə verilirdi.

Hakim feodallar sifinə yüksək rütbəli müsəlman ruhaniləri də daxil idilər. Ruhanilər vergi və mükəlləfiyyətlər ödəməkdən azad idilər. Ruhanilərin əsas gəlir mənbəyini vəqf əmlakı və dini rüsumlar – zəkat, xüms, həmçinin təhsil almağa və ziyarətə göndərilənlərdən alınan rüsumlar təşkil edirdi. Bundan başqa, ölkə xanları ali rütbəli ruhanilərə imtiyaz kimi torpaqlar və kəndlər də bağışlayırdılar.

Xanlıqlarda xüsusi imtiyazlı silk olan **maaflar** fərqləndirilirdilər. Maaflar vergi və mükəlləfiyyətlərdən azad edilərək, bunun əvəzində xanın qoşununda xidmət etməli idilər. Onlar xanın qoşununun əsas hissəsini təşkil etməklə, inzibati vəzifələr də daşıyırdılar. Bəzən maaflar öz ictimai vəziyyətlərinə görə bəylərdən sonra aşağı səviyyədə duran kiçik torpaq sahibləri idilər. Maafların üzərinə qoyulan vəzifəni layiqincə yerinə yetirmək üçün xan onlara torpaq sahəsi də bağışlayırdı. Adətən maaflıq nəsli keçirdi.

Azərbaycan xanlıqları dövründə əhalinin əsas kütləsini bir neçə qrupa bölünən kəndlilər təşkil edirdi. Kəndlilərin əksəriyyəti divan, xassə, sahibkar və vəqf torpaqlarında sakin olan **rəiyyətdən** ibarət idi. Rəiyyətlərin öz təsərrüfatı və torpaq sahəsi, əmək alətləri və iş heyvanları var idi. Lakin onlar feodalın xeyrinə vergi verməli və mükəlləfiyyətlər yerinə yetirməyə borclu idilər. Rəiyyətlərin iki kateqoriyası fərqləndirilirdi. Belə ki, dövlət (xəzinə) torpaqlarında və mülkədar torpaqlarında işləyən rəiyyətlər müxtəlif dərəcədə istismar olunurdular. Mülkədar kəndliləri həm xəzinəyə, həm də torpaq sahibi olan bəylər üçün 35 sayda müxtəlif vergi və mükəlləfiyyətlər verirdilər.

Rəiyyətlərdən fərqli olaraq **rəncbərlər** torpağa deyil, şəxsən feodallara təhkim olunmuşdular. Onların xeyli hissəsi kənd icmalarına daxil deyildi. Daha ağır istismara məruz qalan rəncbərlərin öz torpaq payı, alətləri, təsərrüfatı yox idi. Bəylər rəncbərləri hər cür iş görməyə məcbur edə bilərdilər. Rəncbərlər feodalların təsərrüfatında işləyir, taxıl əkir, ipək və pambıq istehsalı ilə məşğul olurdular. Hətta rəncbər-

lərə sahib olmaq haqqında bəylərə rəsmi vəsiqə – **təliqə** də verilirdi. 1811-ci ildə tərtib edilmiş Quba bəylərinə aid olan təlimatda deyilirdi ki, ən azı on evdən ibarət olan kəndlərin hər biri bəyə bir nəfər mehtər, bir nəfər nökər və bir nəfər rəncbər təhkim etməlidirlər.

Rəncbərlər ayrı-ayrı xanlıqlarda müxtəlif öhdəlik funksiyalarını yerinə yetirirdilər. Talış xanlığında rəncbər **əkər** adlanırdı. Onların əməyindən əsas etibarilə çəltik becərilməsində istifadə olunurdu. Xanlar mahal naiblərinə, bəylərə, qazılara və hətta kəndxudalara rəncbər paylayırdılar. Əvəzində katibdən tutmuş kəndxudalara qədər inzibati qulluqda olan şəxslərin çoxu öz xidmətinə görə xəzinədən pul almayaraq, rəncbərlərin əməyindən istifadə edirdilər.

Xanların əmri ilə hər bir rəiyyət rəncbərə çevrilə bilərdi ki, bu da rəncbərlərin sıralarının artmasına səbəb olurdu. Quba, Şəki, Qarabağ və başqa yerlərin xanları çoxlu kəndli torpağını tutub rəiyyəti rəncbərlərə çevirirdilər. Quba və Qarabağ xanlarının fərmanları ilə xeyli kəndli rəncbər kimi bəy və məmurların şəxsi ixtiyarına verilmişdi. Quba xanlarının dərc olunmuş 24 fərmanından 10-da belə hallara təsadüf edilir.

Rəncbərlərin sayı təkcə rəsmi yolla deyil, digər formada da artırdı. Belə ki, öz şəxsi təsərrüfatından məhrum olaraq, məhsuldan pay vermək şərti ilə feodalların torpaqlarını icarəyə götürməyə məcbur olan yoxsullaşmış rəiyyətlər rəncbərə çevrilirdi. Belə hallarda feodallar məhsulun altıda iki hissəsindən ikidə bir hissəsinə qədərini rəncbərlərə verirdilər. Başqa xanlıqlardan gələn qaçqınlar və hərbi əsirlər də rəncbərlərin sıralarını artırırdılar. 1758-ci ildə Şirvan əyanları Quba xanlığının Beşbarmaq mahalına basqın edərək, oradan 200 ailə aparmışdı. Əsirlər torpaq alıb rəiyyət kimi işləyir və yaxud rəncbərlərə çevrilirdilər. Xanlar işçi qüvvəsinə ehtiyac hiss edərək, başqa xanlıqlardan gələn qaçqınları rəncbərlərə çevirir və öz torpaqlarında yerləşdirirdilər.

Rəncbərlər təhkim olunduqları təsərrüfatı özbaşına tərk etmək hüququndan məhrum idilər. Feodallar isə istədikləri kimi rəncbərləri bir yerdən digər yerə köçürə bilərdilər. Feodallıqlarda rəncbərlər institutunun meydana çıxması Azərbaycan kəndlilərinin daha da yoxsullaşması prosesinin nəticəsi idi.

Kənd əhalisinin tərkibinə köçəri elatlar adlanan **maldarlar** daxil idilər. Onlar köçəri tayfa əyanlarından asılı idilər. Elatlar tədricən oturaqlığa keçir, maldarlıqla yanaşı, əkinçiliklə də məşğul olmağa başlayırdılar. Lakin bir sıra vergi və mükəlləfiyyətlərdən azad olduqlarına və əhalinin köçəri hissəsinin vəziyyəti nisbətən yaxşı olduğuna görə bu proses ləng inkişaf edirdi.

XVIII əsrdə **kənd icması** üzvlərinin də vəziyyəti yaxşı deyildi. Bir çox ailələr feodallardan şəxsən asılı idilər. İcmaçıların asılı kəndlilərə çevrilmə prosesi Azərbaycanın, demək olar ki, bütün xanlıqlarında baş verirdi. İcmaçıların nökərlərə çevrilməsi halları da olurdu.

XVIII əsrin ikinci yarısında Azərbaycanda şəhər əhalisinin əsas hissəsini tacirlər, sənətkarlar və şəhər yoxsulları təşkil edirdi. Şəhərlərdə həmçinin xan aristokratiyası xüsusi zümrəyə daxil idi. Ruhanilərin saxlanması da xalq kütlələri üçün ağır bir yük idi.

Səfəvilər dövründə mövcud olmuş feodal torpaq mülkiyyəti formaları Azərbaycan xanlıqlarında daha da inkişaf etmişdi. Xanlığın ərazisində olan bütün torpaqlar xanların mülkiyyəti hesab olunurdu və rəsmi olaraq dövlət torpaqları xanların şəxsi torpaqlarından ayrılmırdı. Divan torpaqları ilə şəxsi xassə torpaqları arasında formal fərq ləğv olunmuşdu. Hər iki torpaq mülkiyyəti hüquqi cəhətdən xan torpaqları hesab edilirdi.

Xidmət əvəzinə verilən torpaqlar **tiyul** adlanırdı. Xan tiyul paylayarkən xüsusi vəsiqə – təliqə verirdi. Tiyulların varislik hüququ xan tərəfindən formal olaraq təsdiq edilirdi. Qarabağ, Naxçıvan, Quba xanları və başqa xanların fərmanlarında tiyul mükafatı renta və ya onun bir hissəsini almaq hüququ ilə bərabər, qışlaqlara və yaylaqlara, habelə qışlaq və yaylaqlarda sakin olan kəndlilərə də aid olurdu.

Quba xanlarının fərmanlarından aydın olur ki, tiyul sahiblərinin – tiyuldarların, onların şəxsi asılılığına verilən adamları öz ixtiyarında saxlamaq hüququ mövcud olmuşdur. Belə hüquqlara başqa dövrlərin tiyul vəsiqələrində də təsadüf edilir; bu hal feodal institutu tiyulun feodal-asılı münasibətlərin dərinləşməsinə doğru təkamülünü aydın sübut edirdi.

Bu dövrdə mülk torpaq sahibliyi olduğu kimi qalmışdır. Mülk sahibləri xana qulluq etməyə borclu deyildilər, lakin əksər hallarda aldıqları gəlirin bir hissəsini vergi olaraq dövlətin xəzinəsinə verməli idilər. Mülk sahiblərinin çox az hissəsi vergi verməkdən azad idi. Mülkədarın bu qrupu mülk xalisə **sahibləri** adlanırdılar. Xanlıqlarda mülk torpaq mülkiyyəti geniş yayılmışdı. Şəriət məhkəmələrinin qərarlarında, bəzən isə xanların fərmanlarında və digər sənədlərdə çoxlu mülk alınıb-satılmasına rast gəlinirdi. Torpaqlarla bərabər, suvarma arxları və kəhrizlər də satılırdı.

Azərbaycan xanlıqlarında vəqf torpaqları və vəqf mülkiyyəti əvvəlki dövrlərdə olduğu kimi qalmaqda davam edirdi. Belə ki, Şuşa məscidlərinin çoxlu torpağı, dükanı və evi var idi. Bakı yaxınlığındakı böyük torpaq sahələri Bibiheybət şeyxlərinin vəqf yerləri sayılırdı.

XVIII əsrdə kənd icmalarına məxsus torpaqlar daha çox **camaat torpaqları** kimi tanınırdı. Məmurlar və adlı-sanlı adamlar, köçəri tayfa başçıları, dövlət vergilərini icarəyə götürənlər, sərmayəçilər və tacirlər tərəfindən camaat torpaqlarının zorla tutulması halları olurdu. Bunun nəticəsində icma torpaqlarının, habelə ayrı-ayrı kəndlilərin mülkiyyətini təşkil edən torpaqların sahəsi getdikcə azalırdı.

Azərbaycan xanlıqlarında vergi və mükəlləfiyyətlər, demək olar ki, əvvəlki əsrlərdə olduğu kimi qalırdı. Məhsul rentası ilə yanaşı, mükəlləfiyyətlə və pulla ödənilən vergi formaları da mövcud idi. Azərbaycan xanlarının saray, məmur, qoşun və başqa ehtiyacları külli miqdarda xərc tələb edirdi ki, bunların əsas ağırlığı rəiyyətin üzərinə düşürdü.

Əsas məhsul vergisi **malcəhət** adlanırdı. Müxtəlif xanlıqlarda malcəhətin miqdarı məhsulun onda bir hissəsindən üçdə bir hissəsinə qədər idi. **Salyana** (yəni, "illik", "hər illik") vergisi Qarabağ xanlığında malcəhətin divan xeyrinə yığılan hissəsini təşkil edirdi. Feodallar otlaqlardan istifadə etmək əvəzində rəiyyətlərdən əlavə vergi – **çöpbaşı** alırdılar. Kəndlilərdən bağ məhsulunun onda bir hissəsinə bərabər **bağbaşı** adı ilə xüsusi vergi toplanırdı. Bayram günlərində rəiyyətlər feodallara hədiyyə – **bayramlıq** gətirməli idilər. Kəndlilərdən həm də toy pulu alınırdı.

Rəiyyət xanlara başqa vergilər verməli və məhsulla ödənilən mükəlləfiyyət yerinə yetirməli idi. O cümlədən darğalıq, töycü, mancanaq pulu, toxucu pulu, dəyirman pulu, dabbaq pulu, duz pulu, qapan pulu, xırdavat pulu, şirəxana pulu, ilxıçı, vəzirlik, at arpası, cizyə, otaq xərci, bağbaşı, dırnaqlıq, cütbaşı, peşkəş, zəkat, xüms, rüsum və s. alınırdı. Bunlardan başqa, şəhər əhalisindən bazar gözətçiləri və vergi yığanlar üçün də müəyyən vergi toplanırdı. Kəndlilər torpaq sahiblərinin xeyrinə ildə üç gündən altı günə qədər biyar və iki gün əvrəz adlı işləyib ödəmə mükəlləfiyyətlərini də icra edirdilər.

Dövlət və feodallardan torpaq icarə edən kəndlilərin vəziyyəti son dərəcə ağır idi. Belə ki, məhsulun ikidə birindən beşdə üç hissəsinə qədəri, bəzi hallarda isə üçdə iki hissəsinə qədəri torpaq sahibinə verilirdi. İcarənin belə forması paydarlıq adlanırdı. İcarə haqqının həcmi müəyyən edildikdə, feodalın icarədarı toxum, inventar və iş heyvanı ilə nə dərəcədə təmin etməsi nəzərə alınırdı. Paydarlığın geniş yayılmış forması məhsulun ikidə birini vermək şərti ilə olan icarə idi. Bu cür icarədarlara **yarıkərlər** deyilirdi.

Azərbaycan xanlıqlarında elatlar da müxtəlif vergi ödəyir və mükəlləfiyyətlər yerinə yetirirdilər. Köçərilər bəylərin sürüsünü otarır, qoyunlarını qırxır, feodalın maldarlıq təsərrüfatında müxtəlif iş görürdülər. Otlaqlardan istifadə etmək əvəzində elatlardan xan xəzinəsi xeyrinə vergilər alınırdı. Xanın qoşunu əsas etibarilə köçərilərdən toplanırdı. Lakin ümumiyyətlə götürüldükdə, elatların vəziyyəti rəiyyətin vəziyyətinə nisbətən yüngül idi. Hakim sinfin mühüm təbəqəsini təşkil edən köçəri tayfa əyanları zəhmətkeş elatları bilavasitə istismar etməkdən daha çox, onların ixtiyarına verilmiş rəiyyətlərdən **renta** almaq yolu ilə gəlir əldə edirdilər. Feodal qoşunun əsas qüvvəsini köçərilər təşkil etdiyindən, elatlar üzərinə daha ağır vergilər qoyulması onların bir əsgər kimi etibarsız edə bilərdi. Əsas vergi olan **çobanbəyi** mal-qara, yağ, pendir və yun ilə alınırdı. Çobanbəyinin bir hissəsi pulla ödənilirdi.

XVIII əsrin II yarısında dövlət quruluşu. Azərbaycan xanlıqlarında dövlətə qeyri-məhdud hakimiyyətə malik olan **xan** başçılıq edirdi. Xanların hakimiyyəti irsi xarakter daşıyırdı. Onların daxili və

xarici siyasəti hakim feodal-torpaq sahibləri sinfinin mənafeyini müdafiə edirdi. Xan qanunverici, icraedici və məhkəmə hakimiyyətinə malik idi. Onun cinayət işləri üzrə ölüm hökmü çıxartmaq və yaxud əfv etmək hüququ var idi.

Azərbaycan xanlıqlarında məşvərətçi statusuna malik olan **divani-şura** fəaliyyət göstərirdi. Divani-şuranın (dövlət şurası) tərkibi xan tərəfindən müəyyən edilirdi. Dövlət şurası xanın göstərişi ilə toplanırdı. Müzakirə edilən məsələlər – müharibə və sülh, vergilərin bölüşdürülməsi, mühüm cinayət işləri və s. məsələlər barəsində xan divan şurası üzvlərini dinləyirdi. Qərar qəbul edilməsində xanın rəyi əsas götürülürdü. Qarabağ xanlığında divani-şuranın tərkibinə İbrahim Xəlill xanın qohumları və adlı-sanlı bəylər daxil idi. Bunlardan hər biri "öz sərvəti, nökərlərinin sayı və dəstgahı etibarı ilə başqa vilayətlərin xanlarına bərabər idi".

Xanlıqların idarəetmə sistemində saray məmurları geniş yer tuturdu. Onların içərisində vəzir xüsusi mövqeyə malik idi. Xanın ən yaxın köməkçisi olmaqla vəzir, bəzən xan səfərlərdə olarkən onu əvəz edirdi.

Xan sarayında vəzirdən başqa **sərkərəli** (maliyyə işlərinə baxan), **eşikağası** (xanın şəxsi təsərrüfatının idarəçisi), əmiraxur (baş mehtər), **sandıqdar ağası** (xəzinədar), **anbardar ağası** və digər vəzifələr də var idi. Xan eşikağasının vasitəsilə şikayətlərə baxırdı. Naxçıvan xanlığında maliyyə işləri ilə 20 nəfər məmur məşğul olurdu. Əhalinin siyahıya alınması, yasavullar vasitəsilə vergilərin toplanması da maliyyə idarəsinə həvalə edilmişdi. Bu sahədə naiblər, kənxudalar və xüsusilə xan tərəfindən təyin olunan sərkərdələr əsas rol oynayırdılar. Natural vergilərin yığılması ilə darğalar məşğul olurdurlar. Onlar polis funksiyasını da icra edirdilər. Yüzbaşılar və kəndxudalar kənd ağsaqqalları hesab olunurdular.

Azərbaycan xanlıqları inzibati cəhətdən **mahallara** bölünürdü. Mahalları naiblər idarə edirdilər. İrəvan xanlığında 14 (Qırxbulaq, Vedibasar, Şərur, Sürməli, Saatlı, Seyidli, Sərdarabad, Talin, Zəngibasar, Abaçan, Dərəçiçək, Dərəkənd, Gərnibasar, Göyçə), Şəki xanlığında 8, Gəncə xanlığında 5, Qarabağ xanlığında 21, Quba xanlı-

ğında 7, Talış xanlığında 6, Naxçıvan xanlığında 5, Xoy xanlığında 11, Urmiya xanlığında 14 mahal var idi. Mahallar öz növbəsində kəndlərə bölünürdü. Kəndlər yüzbaşı və ya kəndxuda, şəhərlər isə **kələntərlər** və yaxud **qalabəyi** tərəfindən idarə olunurdu.

Azərbaycan xanlıqlarının özünün **pul sistemi** mövcud olmuşdur. Onlar zərbxanalar açıb öz adlarından pul buraxırdılar. Naxçıvanda, Təbrizdə, Gəncədə, Pənahabadda, Şəkidə, Şamaxıda, Bakıda və Dərbənddə zərbxanlar var idi. Hər bir xan mis və gümüşdən abbasılar kəsməyə başlamışdılar.

Azərbaycan xanlarının hər birinin müstəqil qoşunu var idi. Xanlar muzdlu qoşuna da üstünlük verirdilər. Digər hallarda isə xan qoşunu maaflar və bəylər - tiyuldarlar tərəfindən göndərilən silahlı dəstələrdən toplanırdı. Naxçıvan xanlığında hərbi işlərə şəxsən xan özü nəzarət edirdi. Xanlığın bütün ordusu 1000 nəfər idi. Bunlardan 800 piyada, 200 atlı idi. Bütün bu orduya bir səhəng, 8 sultan, 16 naib və bir neçə yüzbaşı başçılıq edirdi. 800 nəfərlik piyada **sərbaz** adlanırdı. Orduda möhkəm intizam var idi. Sərbazlar hər hansı bir xəta üstündə dərhal cəzalandırırdılar. Daxili asayişin qorunmasında tüfəngçilərdən istifadə edilirdi. Qarabağ xanlığında elatlar süvari qoşuna daxil idilər. Şirvan xanlığında isə köçəri xançobanı tayfası mühüm bir hərbi qüvvə idi. Şirvan qoşunlarının sayı 6 min nəfərə çatırdı. Şəki xanlığında piyadaların sayı 12 min nəfər idi. Xan qoşununda maaflar da mühüm yer tuturdu. Onlar etibarlı hərbi qüvvə sayılırdılar.

Hüququn inkişaf xüsusiyyətləri. Şəki xanı Məhəmməd Həsən xanın dövründə **"Dəstür-ül-əməl"** adı qanunlar məcəlləsi tərtib edilmişdi. Məcəllədə xanlıqda mövcud olan feodal asılı münasibətlər, silki quruluş, əhalini istismar edən və istismar olunan təbəqələrin hüquq və vəzifələri təsbit edirdi. Xanlıqlardakı qanunvericilik sistemi daha çox patriarxal-feodal münasibətlərinə uyğunlaşdırılmışdı. Məhkəmə işlərinə şəriət və xan tərəfindən verilən ayrı-ayrı qanunlar, həmçinin yerli adətlər əsasında baxılırdı. Ruhani hakimlər – **qazılar** məhkəmə işlərini aparırdılar. Onlar həm mülki, həm də cinayət işləri üzrə hökm çıxarmaq səlahiyyətinə malik idilər. Xanlıqlar dövründə Azərbaycanda qadınların mülki hüquq sahəsində heç

bir hüquqları mövcud olmamışdır. Bu dövrdə Car-Balakən camaatının özünəməxsus idarəetmə quruluşu mövcud idi. Camaatın əsasını təşkil edən **toxumlara** ən möhtərəm və nüfuzlu şəxslər başçılıq edir. Bütün kişilər toxumun bərabər hüquqlu üzvləri sayılırdı. Toxum başçıları onun üzvləri tərəfindən seçilirdilər. Bir neçə toxum birləşib kənd icmalarını təşkil edirdi. Kənd icmalarına onun üzvləri tərəfindən seçilən ağsaqqallar – **koxalar** başçılıq edirdi. **Tabunbaşı** adlanan şəxslər onların birbaşa köməkçiləri idilər. Koxa polis və məhkəmə funksiyalarını, tabunbaşı isə təsərrüfat işlərinin yerinə yetirilməsinə nəzarət edirdi. İnzibati idarəetmə funksiyaları camaat tərkibindən seçilən koxaya, kənd ağsaqqalına, qazıya və maliyyə başçısına məxsus olmuşdur. Müharibə və sülh, vergilərin bölünməsi camaatların ümumi yığıncaqlarının səlahiyyətlərinə aid idi.

Car-Balakən mahalının hüquq sisteminin öyrənilməsində **"Car-Tala Qanunnaməsi"** xüsusi əhəmiyyət kəsb edirdi. Qanunnamə 1751-ci il dekabrın 20-də Ağdam (Zaqatala rayonunun Ağdam kəndi) məclisində qəbul edilmişdi. "Car-Tala Qanunnaməsi" 24 maddədən ibarətdir. Şəriət və yerli adət hüququ normalarının məcmusundan ibarət olan Qanunnamə hər iki hüquq sistemini özündə birləşdirirdi.

"Car-Tala Qanunnaməsi" patriarxal-nəsli quruluşun normalarını özündə saxlayırdı. Digər tərəfdən, yerli əyanların səyi və maraqları baxımından Qannunaməyə yeni hüquq normaları da daxil edilmişdi.

"Car-Tala Qanunnaməsi"nin 24 maddəsindən 21-i cinayət hüquq normalarından bəhs edirdi. Cinayətlərin təsnifatında qəsdən törədilən və qəsdən olmadan törədilən cinayətlər fərqləndirilir, qətlə yetirilmiş şəxsin qohumlarının məlum olan qatili mühakimə etmək hüququ təsbit edilirdi. Qanunnamənin digər maddələrində başqasının arvadının və ya qızının oğurlanması, ərinə xəyanət etmiş qadının daş-qalaq edilməklə öldürülməsi, öz ağasını öldürmüş şəxsin gizlədilməsi, basqın, oğurluq, qəsdən və ya qəsdən olmadan yanğın törətmək, hakimləri pul ilə ələ almaq, hərbi sirləri düşmənə xəbər vermək kimi cinayətlər təsnif edilirdi. "Car-Tala Qanunnaməsi"nin qalan 3 maddəsinə nikah və boşanma məsələləri, əsir düşmüş şəxsin azad edilməsi qaydası, vəfat etmiş şəxsin daşınar əmlakına iddia və qazının qərarından şikayət edilməsinə dair məsələlər daxil idi.

Qanunnamədə cinayət, mülki, ailə və prosessual hüquq normalarına dair məsələlər dəqiq sistemləşdirilməmiş və qarışdırılmışdır. Konkret cinayətlərə görə cəzaların müəyyən edilməsində müxtəliflik mövcud idi. Məsələn, üçüncü maddədə mömin müsəlmanın qətli və ya dava-dalaş zamanı adam öldürmə, təqsirin növündən asılı olmayaraq eyni dərəcədə cəzalandırılırdı. Cərimələrin müəyyən edilməsində də ziddiyyətlər özünü göstərirdi. Qanunnamədə and içməkdən geniş istifadə edilirdi.

Məhkəmə və proses. Xanlığın idarə olunmasında **məhkəmə** orqanlarının rolu mühüm idi. Ən mühüm məhkəmə işlərinə xan özü baxırdı. Məhkəmə sistemində başlıca yeri şəriət məhkəməsi tuturdu. Bəzən məhkəmə funksiyasını mahal bəyləri də icra edirdilər. İstintaq zamanı müttəhimlərə işgəncə verilirdi. Müttəhimləri falaqqaya salır, çubuqla döyür, onların gözlərini çıxarır, əllərini, qulaqlarını, burunlarını kəsir və s. cəza növləri tətbiq edirdilər. Edam və cismani cəzalar xan cəlladları tərəfindən icra edilirdi.

XVIII əsrdə Azərbaycan xanlıqlarının mərkəzi şəhərlərində əsasən 3 pilləli məhkəmələr fəaliyyət göstərirdi: a) xüsusi ağır cinayətlərə baxan ali məhkəmə; b) nikah, vərəsəlik və daha az əhəmiyyətli cinayətləri araşdıran dini-şəriət məhkəmələri; c) şagirdlərlə ustalar arasındakı mübahisələri, həmçinin əhali tərəfindən ustalardan və sənətkarlardan edilən şikayətləri araşdıran əsnaf (sex) məhkəmələri. Əsnaf məhkəmələrinin çıxardığı qərarlardan apellasiya qaydasında şəriət məhkəməsinə şikayət edilirdi. Bütün məhkəmələrdə işlər şəriət (müsəlman hüququ) qanunları əsasında araşdırılır və hökm çıxarılırdı. Cəza sistemi qeyd edildiyi kimi, öz qəddarlığı ilə fərqlənirdi. Günahkarın gözü çıxarılır, əl və ya ayağı kəsilir, onlar vəhşi heyvanların pəncəsinə verilir və s. kimi ağır cəzalar tətbiq edilirdi.

Sənəd

1751-ci il dekabrın 20-də Car Tala bölgəsinin səlahiyyətli Ağdam məclisi aşağıda göstərilən maddələrlə təsbiq olunmuş "Qanunnamə" qəbul etmişdi:

1. Kim qəsdən və ya qəsdən olmadan mömin müsəlmani öldürərsə, onun evi yandırılacaq, meyvə ağacları və üzüm bağları kəsiləcək və məhv ediləcək, o, yaşadığı yurdundan qovulacaq və ona geri qayıtmağa icazə verilənə və o, vilayətdə qəbul edilmiş adət (yerli) və ürfə (ümumi-müsəlman) görə barışanadək (öldürülənin qohumları ilə), yəni 12 tümən qan bahası ödəyənədək qəriblikdə qalacaq.

Əgər qatil qan bahasını (diyə) ödəməmiş vəfat edərsə, onun qohumları qan bahasını ödədikdən sonra doğma yurda qayıda bilərdilər. Lakin əgər qan pulu alınana qədər qatil mərhumun qohumları tərəfindən öldürülərsə, onda qatilin qohumları qan pulu ödəməkdən azad edilir və istədiyi vaxt geri qayıda bilərdilər.

2. Qətlə yetirilmiş mərhumun qatili məlum olmadıqda onun qohumları mərhumun düşmənlərindən hər hansı birini öz arzularına görə şübhəli qatil kimi göstərmək hüququna malik idilər. Bundan sonra mərhumun qohumları, şübhəli bilinən qatilin qohumlarından olan 12 nəfər ağsaqqalın iştirakı ilə 6 nəfər ana, 6 nəfər ata qohumlarından olmaqla şübhəli bilinən şəxsin günahkar olmadığını sübut etmək üçün qohumlardan təharət etməyi (qüsüllanıb su ilə təmizlənmək) və müqəddəs Qurana and içmələrini tələb etmək hüququna malik idilər. Bundan əlavə, cinsindən asılı olmayaraq daha 28 nəfər and içməli idi ki, onların sayı 40 nəfər olsun (yerli adətə görə bu mərasim tatxir adlanırdı).

Əgər mövcud adətlərə görə and içənlərdən 12 nəfər əvvəlcə Qurana, sonra isə üç qat talağa (fiqhə görə üç dəfə talağa deməkdən sonra bəin, mübarə və s. boşanmalardan fərqli olaraq kişi arvadı ilə qəti boşanır və bir daha kəbin kəsdirə bilməzdi, digər tərəfdən talağa and içmək namusa and içmək demək idi), digər qalan 28 nəfər Qurana and içdikdən sonra şübhəli şəxs pak və günahsız hesab edilirdi.

Əgər dava-dalaş (ehtimal ki, tərəflərdən birinə sataşmaqla başlanan mübahisə) zamanı əllərin, daş və ya dəyənəyin işə salınması nəticəsində bir, iki və ya üç nəfər qətlə yetirilərsə, bu zaman qatil məlum olardısa, onda qatil haqqında yığıncağın qəbul etdiyi qərar qüvvəyə minirdi (birinci maddə üzrə); əgər qatili müəyyən etmək mümkün olmazsa və bunu ürf əsasında sübut etmək mümkün deyildirsə, onda yaxın qohumlar şübhəli bildikləri şəxsi elan etmək və ona qar-

şı qan intiqamını tətbiq etmək hüququ əldə edirdilər. Əgər açıq dava-dalaşda (ehtimal ki, adi mübahisə zamanı) kimsə qəsdən və ya qəsdsiz qətlə yetirilərdisə, digər tərəfdən günahkarın özünün etirafı və ya şahid tərəfindən qatilin adı və atasının adını göstərilərdisə, onda qatil heç bir məsuliyyət daşımırdı.

4. Bir dam altında yaşayan, uşaqları, qardaşları və digər qohumları ilə birlikdə ümumi daşınar və daşınmaz əmlaka malik olan şəxslərdən hər hansı biri kimisə qətlə yetirərdisə, onların hamısı məsuliyyət daşıyırdı, yəni ümumi ev yandırılmalı və hamı doğma yurdundan sürgün edilməli idi.

Əgər onlardan hər hansı birinin qatildən ayrıldıqda daşınar və daşınmaz əmlakı olardısa və onların ümumi evlərinə və tüstüsünə heç bir aidiyyəti olmazdırsa, o halda həmin şəxs yalnız bir il müddətinə sürgün edilir və evi isə dağıdılmırdı. Əgər onun evi yandırılardısa, ağacları və üzüm bağları kəsilərdisə (qatilin qohumu kimi), bunu edən şəxs vurduğu ziyanı ödəməli idi.

5. Əgər hər hansı bir kəs özgəsinin arvadını və ya qızını oğurlayırdısa və ya zorla əlindən alırdısa və ya xaincəsinə örpəyini və ya başqa əşyasını oğurlayırdısa, ona qarşı ölüm cəzasına aid edilən cəza qərarı çıxarılır; o çubuq cəzasına məruz qalır, üzü qara rənglə boyanır və bir il müddətinə doğma yurddan qovulurdu; eyni zamanda oğurlanmış qadın və ya qız öz qohumlarına qaytarılır. Vuruşma zamanı öldürülmüş oğrunun qanı bahasının alınması nəzərdə tutulmurdu. Əgər vilayət nümayəndələrinin qərarı ilə qətlə yetirilmiş oğrunun əvəzinə ödənc vermək lazım gələrdisə, onun qohumlarının və digər tərəfin əmlak vəziyyəti nəzərə alınmaqla hər bir kəs üç tümən ödəməli idi.

6. Əgər kişi ismətli qadınla zina edərdisə (zorlama) və ya qadın namuslu kişi ilə zina edərdisə, qadın daş-qalaq edilməklə cümə günü günorta namazından sonra Cardakı məscidin və ya vilayət divanxanasının qarşısında öldürülürdü, subay qadın və ya kişi 100 qamçı cəzası ilə cəzalandırılır, onun üzünə qara rəng yaxmaqla ulaq üstündə tərsinə otuzdurub bütün xalq qarşısında bir neçə dəfə gəzdirirdilər.

7. Kəbin kəsilməsi dörd məzhəbdən biri üzrə kənd qazısı tərəfindən aparılırdı, əgər özgə məzhəblər üzrə bağlanan kəbinlərdən tərəflərin hər hansı birinin narazılığı və ya etirazı olardısa, nikah pozulur və onun bağlanması ədavət, nifaq salmamaq üçün qadağan edilir. Özgə məzhəblərdən olanlar arasında kəbin kəsən qazı və ya digər şəxslər üç tümən cərimə pulu verməli idi.

8. Öz ağasını öldürən adamı gizlədən şəxs 12 tümən cərimə ödəməli idi.

9. Oğurlanmış əşyanı tapan və ya oğurluq edən və ya kimsəni qarət edən şəxs üç tümən cərimə ödəməli idi; həmin məbləğdə cəriməni oğrunu gizlədən, ona qonaqpərvərlik göstərən, ona çörək və ya yol göstərən şəxs ödəməli idi.

10. Öz itmiş əşyasını axtarmaq məqsədilə kəndə gələn şəxsdən işkil (peşkəş, muştuluq) alan üç tümən məbləğində cərimə ödəməli və tapılmış əşyanı sahibinə qaytarmalı idi. Tapılmış əşyanı qaytarmaqdan imtina edən bütöv kənd isə 12 tümən cərimə verməli idi.

11. Şəriət qanunları və yerli adətlərə görə azmış mal-qarasını, oğurlanmış və ya digər şəraitdə itmiş əşyasını tanıyan şəxs dərhal onu tapan şəxsdən geri almaq hüququna malik idi. Əgər şəxs itmiş mal-qaranı öz sahibinə qaytarmaqdan imtina edərdisə, onda onun dəyərini ödəməli idi.

12. Hər kəs, kimliyindən asılı olmayaraq, xırda və ya iriliyindən asılı olmadan özgə əmlakını oğurlayıb və ya qarət edib gizlədərsə, o, sonra muştuluqçu tərəfindən verilən xəbərlə və ya camaat tərəfindən aşkar edilərsə, əşyanı saxlayan şəxs oğru kimi oğurlanmış və ya qarət edilmiş əşyanın üç qatı dəyərini sahibinə ödəməli idi. Əgər oğru carçı vasitəsilə əşyanı tapdığını və ya müəyyən vacib məqsədlə onu saxladığını bəyan edərdisə, öz təqsirini səmimi etiraf etmiş kimi şəriət və ya adətə görə ona cərimə təyin ediləcəkdi.

Əgər hər hansı bir kəsdə oğurlanmış əşyanın, türklərin dilində deyildiyi kimi, nişanı tapılardısa, onda tapılmış xalatın, köynəyin, kəmərin və digər tikilmiş şeylərin, həmçinin silahın və qoşqu heyvanlarının dərisinin olması sübut edilərdisə, onda əşyaların sahibi mülkiyyətini dərhal geri ala bilər və oğru həmin əşyaların "muştuluğu-

nu" və üç qat dəyərini ödəməli idi. Əgər əşyanın bir parçası və ya işlənmiş köhnə materialı və ya dərinin və kəsilmiş mal-qaranın ətinin bir parçası tapılardısa və onun oğurlanmasını sübut etmək mümkün olmazdısa, əşyanı saxlayan şəxs məsuliyyət daşıyır və o, şəriət və adətin müəyyən etdiyi qaydada cərimə ödəməli idi. Əgər oğru muştuluqçunun verdiyi xəbərə görə oğurlanan əşyanı könüllü qaytarmaqdan imtina edərdisə, hökumət divanı oğurlanmış əşyanı tapıb və oğrunu ifşa edərdisə, oğru üç tümən cərimə ödəməli və yuxarıda göstərilənlərdən də çox cəzalandırılmalıdır, əks halda isə o, yuxarıda göstərilən adətə görə cərimə ödəməli idi.

13. Əgər kimdəsə oğurlanmış və ya itirilmiş əşya tapılardısa, o, kiminsə oğlunun onunla birlikdə oğurluqda iştirakçı olduğunu bəyan edərdisə, əgər göstərilən şəxs şübhəli və etibarsız olardısa, yəni həmin adamda əvvəllər hərdən bir və ya heç olmazsa bir dəfə oğurlanmış əşya tapılardısa, bu əvvəlcə müqəddəs Qurana and içməklə, sonra üçqat talağ deməklə həm şübhəli bilinən şəxs, həm də digərləri birinciyə bərabər (sosial vəziyyətlərinə görə) və türkcə deyildiyi kimi "şişpapaq" (burada dələduz) olardısa, onda göstərilən şəxsin oğurluqda iştirakı sayılır (və qanuna cavab verməli idi). Əgər şübhəli (oğurluqda iştirakda) vicdanlı, etibarlı və ədalətli şəxs kimi tanınırdısa, oğurluqda, xəyanətdə heç vaxt günahlandırılmamışdırsa, onda təharət etməli və and içməli (təzgi üzrə), digərlərində belə şübhəli bilinərdisə və onu sübut etmək mümkün olmazdısa, onlarda oğru olmadıqlarını sübut etmək üçün vilayət adət hüququna (təzgi üzrə) müvafiq olaraq and içməli idilər.

14. Əgər hər hansı bir kənddə oğurluq edilərdisə və oğru başqa kəndə qaçardısa və oğurlanmış əşyanı qaytarmaq məqsədilə oğrunu təqib edənlər və izləyənlər qaçırılan əşyanın kəndə çatana qədər izləyərək oğrulardan axırıncı qaçanın oğurlanmış əşyanı kəndin görünən küçələrindən birinə atdığını görərdisə və əgər əşya təqibçilər tərəfindən götürülərdisə, oğurluq edənlər vilayətdə qəbul olunmuş qaydaya görə təharət və adət üzrə təzgi etməli idilər. Əgər oğurlanmış əşya dalana (çıxışı olmayan küçəyə) atılardısa, oğrular oğurlanmış əşyaya görə məsuliyyət daşıyır, cərimə kimi bir qoşqu heyvanı

artıqlaması ilə ödəyirdilər. Eyni cür məsuliyyəti oğurlanmış əşyanı hasardan evin həyətinə və ya bağa atanlar da daşıyırdı.

15. Əgər hər hansı yaşayış binasında və ya hər hansı bir pəyədə oğurlanmış əşya tapılardısa, onun sahibi əşyanı götürərək onun üç qat dəyərini ödəməyi tələb etmək hüququna malik idi, lakin o öz iddiasını təmin etməkdən ötrü bir şahidin iştirakı ilə ürf məhkəməsi və hökumət divanında and içməyə borclu idi.

16. Əgər kiminsə dustaq saxladığı yeniyetmə və sağlam adam vardırsa, həmin əsirin ağasından (qeyri-müsəlman olandan) onun azad edilməsi və öz vətəninə qaytarılması üçün əvəz alardısa və həmin əsir ikinci dəfə yenidən kiməsə əsir düşərdisə o, axırıncı sahibinə məxsus idi və birinci ağası onun üçün əvəz aldığına görə yenidən ona sahib olmaq hüququnu itirirdi.

17. Əgər iki mübahisə edən tərəf şəriət məhkəməsinə şikayətlə şikayət edərdisə və hakimiyyət orqanları iddiaçıya özünün doğruluğunu sübut etmək əmrini verir, cavabdehdən isə and içməyi tələb edirdi, lakin iddiaçıya bir ay müddətindən gec olmayaraq əsassız yubandırmaq, yəni şahid gətirməyi gecikdirmək qadağan edilirdi.

Əgər cavabdeh bir ay keçdikdən sonra sübut təqdim edərdisə, hətta şeyx və ya fəqih (hüquqşünas) gətirsəydi belə, sübut qəbul olunmurdu. Eyni zamanda iddiaçı da bir aydan gec olmayaraq and içməyi yubandıra bilməzdi.

18. Vəfat edənin ilinə qədər mərhumdan qalan daşınar əmlaka dair iddia dinləmək və müzakirə etmək üçün qəbul edilmirdi.

Eyni zamanda nə şikayət, nə ərizə və nə də xahiş əmlakın bölünməsinə aid olan iddia kimi göstərilən müddətdən sonra qəbul edilmirdi. Daşınmaz əmlaka dair iddiaya gəldikdə isə 60 il müddət (miras qoyanın vəfatından başlayaraq) keçəndən sonra qəbul edilmirdi. Əgər yeni mirasın olduğu məlum olardısa, varislər yenidən mirasın bölünməsini tələb etmək hüququna malik idilər və bu zaman şəriət və vilayətdə qəbul edilmiş adətlərə müvafiq tədbirlər görülməli idi.

19. Əgər oğurluqda və ya digər işlərdə şübhəli bilinən şəxsin qohumlarından ürf və vilayətdə qəbul olunmuş adətə müvafiq olaraq bir ay müddətdən sonra şahid gətirərdilərsə, tələbləri qəbul olunmayacaqdır (onlar işə yenidən baxmağı tələb edəcəklər).

20. Birinin digərinə qarşı olan iddiasına da baxılmayacaq, çünki əgər onların mübahisəsi kənd qazısı tərəfindən baxılaraq həll edilmiş və imzalanaraq möhürlənmiş və rəsmi sənədləşdirilmişdir, qalmış əmlaka dair mübahisənin dayandırılmasının motivləri göstərilməklə tərəflər arasında anlaşılmazlıq aradan qaldırılmış, nüfuzlu hakimlərin rəyləri nəzərə alınmış, qazının çıxardığı qərarın şəriət qanunları və qədim ürfə aşkar zidd olmadığı, lakin qərarın satın alınmaqla, dostluq və ya qərəzliliklə qəbul olunduğu məlum olardısa, onda qazının qərarı ləğv edilir, rəsmi sənədin heç bir hüquqi qüvvəsi olmur və yandırılır, qazı və belə sənədləri hazırlayanlar öz cinayətlərinə görə üç tümən cərimə ödəyirdilər.

21. Əgər kiminsə evi naməlum şəxs tərəfindən yandırılardısa, lakin sonra yanğın törədən tapılardısa, ona qarşı qətlə bərabər olan qərar çıxarılır, dəymiş zərər onun tərəfindən ödənilir, bundan başqa təqsirkar 5 tümən cərimə verirdi. Əgər təqsirkar məlum olmazdısa, lakin kimsə şübhəli bilinərdisə, yandırılmış evin sahibinə şübhəli şəxsdən təharət və tatxir tələb etmək hüququ verilirdi.

22. Əgər kimsə özgə evinə lağım atardısa və ya qapını və divarı sındırardısa və ya sökərdisə, ona qarşı qətlə bərabər olan qərar çıxarılırdı, əgər müqəssir öldürülərdisə onun qətlinə görə qisas almaq qadağan edilirdi (haladır).

23. Əgər müharibə vaxtı kimsə mömin olmayan və ya müsəlmanların düşməni olan tərəfə gizlicə olaraq ordunun və ya xalq qoşununun hücumu barədə xəbər çatdırardısa və o, ordu tərəfindən ələ keçirilərdisə, dərhal öldürülür və onun qətli cəzasız qalırdı. Lakin əgər o, evə qayıtmağa macal tapardısa və ordu tərəfindən tutulmazdısa, onda 12 tümən cərimə ödəməli idi.

24. Əgər kimsə kolluqlarda, tarlada, çəmənlikdə və ya evin həyətində ocaq qalayardısa və alov yayılaraq kiminsə mülkiyyətinə ziyan vurardısa, ocağı yandıran orda yanan mülkiyyətin dəyərini ödəməli və ya onu bərpa etməli idi. Əgər ocağı dəstədən biri yandırardısa və digərləri odun gətirməklə alovu gücləndirib onun ətrafına toplaşaraq söhbət etməklə məşğul olardılarsa, digər tərəfdən əvvəlcədən onların alovda qızınmaq fikirləri olmazdısa, onların hamısı vilayətdə mövcud olan ürfə müvafiq olaraq dəymiş ziyanı ödəməli idilər.

X FƏSİL


XIX əsrdə Azərbaycanın dövlət və hüquq tarixi

Şimali Azərbaycanın Rusiya tərəfindən ilhaq edilməsi. XVIII əsrin sonu XIX əsrin əvvəllərində Rusiya imperiyası Cənubi Qafqazda daha fəal siyasət yeritməyə başladı. 1801-ci ildə Şərqi Gürcüstan Rusiyaya birləşdirildi. Rus çarı Gürcüstanın ardınca Azərbaycanı ələ keçirmək niyyətində idi. Qafqazda rus qoşunlarının baş komandanı olan general Sisianov Azərbaycanı işğal etmək üçün hərbi plan tutmağa başladı. İlk hədəfi böyük hərbi-strateji əhəmiyyətə malik Car-Balakən oldu. 1803-cü ildə rus qoşunları Car-Balakən camaatının müqavimətini qırdı. 1803-cü ilin aprel ayının 12-də onların nümayəndəsi Tiflisdə rus hökuməti nümayəndələri ilə müqavilə imzaladılar. Müqavilənin şərtlərinə görə Car-Balakən camaatı Rusiyanın ali hakimiyyətini qəbul etməli, hər il çar xəzinəsinə 220 pud ipək verməli və rus qoşunlarının orada yerləşdirilməsinə şərait yaratmalı idi. Rusiya hökuməti öz növbəsində Car-Balakənin daxili işlərinə qarışmamalı idi. 1804-cü ildə Gəncə xanlığının ciddi müqavimətinə baxmayaraq şəhər rus qoşunları tərəfindən zəbt edilib inzibati dairəyə çevrildi.

1805-ci il mayın 14-də Gəncə yaxınlığındakı Kürəkçay adlı yerdə Sisianovla Qarabağ xanı İbrahimxəlil xan arasında andlı öhdəlik imzalandı. Müqaviləyə görə, Qarabağ xanı Rusiya çarının vassalı olur, xarici dövlətlərlə müstəqil münasibətlər saxlamaq hüququndan Rusiya çarının xeyrinə imtina edirdi. Öz növbəsində müqavilənin ikinci maddəsində çar Qarabağ xanlığının və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına zəmanət verirdi.

1806-cı ildə Bakı və Quba, 1809-cu ildə isə Talış xanlığı Rusiyaya qatılır. Müstəmləkəçilər 1805-ci ildə Şirvan xanlığını, 1806-cı ildə isə Bakını işğal etmişdilər. Azərbaycanın şimal ərazisində üsyanlar yatırıldıqdan sonra Quba və Dərbənd əraziləri də Rusiyaya qatıldı.

1804-cü ildə başlamış Rusiya-İran müharibəsi 1813-cü ilin oktyabr ayının 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsi imzalanması ilə başa çatdı. Gülüstan müqaviləsi Azərbaycanın Rusiya və İran tərəfindən iki yerə bölünməsinin başlanğıcı oldu.



1826-cı ildə yeni Rusiya-İran müharibəsi başladı. Rus qoşunları İrəvan və Naxçıvan xanlıqlarını işğal edilib, 1827-ci ilin sonlarında Azərbaycanın cənub torpaqlarına da hücuma keçdi. Onlar tezliklə

Urmiya və Ərdəbili tutdular. 1828-ci ilin fevral ayının 10-da Təbrizdən cənubda yerləşən Türkmənçay kəndində Rusiya ilə müqavilə imzalandı. Müqavilənin şərtlərinə görə Naxçıvan və İrəvan xanlıqları da daxil olmaqla Cənubi Qafqaz qəti şəkildə Rusiyaya birləşdirildi. Müqavilə cəmi 16 maddədən ibarət idi. 15-ci maddə İranda yaşayan ermənilərin Azərbaycana köçürülməsini nəzərdə tuturdu.

İctimai quruluş. Şimali Azərbaycan Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra xanların, həmçinin Rusiya tərəfinə keçməkdən imtina edib İrana və Türkiyəyə qaçmış feodalların torpaqları dövlət xəzinəsinin ixtiyarına keçmişdi. Bu torpaqlarda yaşayan və onu becərən kəndlilər dövlət xəzinəsinin ixtiyarına keçmişdilər. Belə kəndliləri **dövlət kəndliləri** adlandırırdılar. Dövlət torpaqları ilə yanaşı, mülk sahibi olan feodal və bəy torpaqları da var idi. Feodallardan hüquqi cəhətdən asılı olan həmin torpaqları becərən kəndlilər isə **sahibkar kəndliləri** hesab olunurdular. Çar Rusiyası torpaqları əsasən dövlətin ixtiyarında cəmləşdirildiyinə görə, say etibarilə sahibkar kəndlilər dövlət kəndlilərindən təxminən üç dəfə az idi. Sahibkar və dövlət kəndliləri rəiyyətlərə və rəncbərlərə bölünürdülər. Xanlıqlar dövründə olduğu kimi rəiyyətlər xəzinə və bəy torpaqlarını öz əmək alətləri ilə becərir, götürdükləri məhsulun bir hissəsini xəzinəyə, yaxud feodala verirdilər. Rəncbərlərin isə tamamilə asılı təbəqə kimi nə torpağı, nə də əmək aləti var idi. Onlar hüquqi cəhətdən də rəiyyətlərdən fərqlənir, daha ağır vəziyyətdə yaşayırdılar. Rəncbərlər öz ağalarına xidmət edir, onların təsərrüfatında çalışırdılar. Rəncbərlərin bir qisminə xəzinədən, yaxud bəylər tərəfindən toxum, əmək aləti, qoşqu heyvanı verilir, bunun müqabilində rəncbərlər becərdikləri məhsulun yarısını alırdılar. İstər dövlət kəndliləri, istərsə də sahibkar kəndliləri torpaqdan elliklə istifadə edirdilər Yəni kəndin ümumi istifadəsində müəyyən qədər torpaq olur və kəndlilər vergiləri icmalıqla ödəyirdilər. İcma torpaqları hər 4-5 ildən bir icmaların 15 yaşına çatmış kişiləri arasında bölünürdü. Kənd icması onun payına düşən vergiləri kənddə yaşayan ailələr arasında, bu ailələrdə olan kişilərin sayına, yaxud istifadə etdiyi torpağın miqdarına uyğun olaraq bərabərləşdirirdi. Ruhanilərin və ruhani idarələrinin

də sərəncamında torpaqlar var idi. Vəqf mülkiyyəti (əmlakı) və vəqf torpaqları dini idarələrin əsas gəlir mənbəyi idi.

XIX əsrin birinci rübünün sonlarında Zaqafqaziyadakı rus qoşunlarının baş komandanı İ.F. Raskeviç, habelə Zaqafqaziyaya yoxlama aparmaq üçün göndərilən senatorlar P.İ. Kutaysov və Y.İ. Meçnikov Azərbaycanda tiyul torpaqlarının ləğv edilməsi haqqında hökumətə layihə təqdim etmişdilər. Lakin gözlənilmədən, bunun əksinə olaraq çar I Nikolay 13 iyul 1830-cu il qanunu ("Əlahəzrət buyruğu") imzaladı. Bundan əvvəl isə A.P. Yermolovun 1818-ci ildə verdiyi "Ağalar haqqında əsasnamə" üzrə yerli feodallar tiyul torpaqlarının sahibi deyil, yalnız yerlərdə inzibati xidmətdə olan və bu torpaqlar üzərində idarəetmə hüququ olan şəxslər sayılırdılar. Əlahəzrət buyruğunda deyilirdi ki, Qafqaz vilayətinə bu gün Ali Senata verdiyimiz fərmanda şərh edilmiş xüsusi mərhəmət bəxş etməklə, biz orada yaşayanlar arasında Rusiya hökumətinə kortəbii düşmənçilik yoluna düşənlərə və ya başqalarına uyaraq xəyanətdə əli olanlara öz diqqətimizi yetirib onların islah olunacaqlarına ümid bağlayaraq və gələcəkdə onları Rusiyanın sadiq övladlarına çevirməyi arzulayaraq, onları lütfən bağışlayıb əmr edirəm:

1. Xəyanət, eləcə də Rusiya hökumətinə qarşı bədxahlıq üstündə və siyasi mülahizələrə görə bu ölkədən Sibirə və ya başqa yerlərə məhkəməsiz sürgün edilənlərin hamısı əvvəlki yaşayış yerlərinə qaytarılsınlar və Əlahəzrətin iltifatlı əfvi ilə onların müsadirə edilmiş malikanələri indi olduqları vəziyyətdə, ötüb keçən illlər üçün heç bir əvəz ödənilmədən onlara qaytarılsın, onlara bu malikanələrdən, keçmişdəki qanun-qayda əsasında, ancaq yerli ölkənin ümumi iradəsinə zidd olan hər cür siyasi idarəetmə hüquqları çıxılmaqla, istifadə etmək icazəsi verilsin.

2. Xaricə qaçanların və xəyanətdən sonra edam olunanların və ya sürgündə ölənlərin xəzinəyə keçmiş malikanələri onların ailələrinə və ya yaxın varislərinə indi olduqları vəziyyətdə və hazırda nə qədər varsa, ötən dövrlər üçün heç bir ödənc tələb edilmədən, ancaq sahiblərinə heç bir siyasi idarəetmə hüquqları verilmədən geriyə qaytarılsın. Haqqında artıq ali göstəriş verilmiş şəxslər və malikanələr, yəni

bu və ya digər feodalın edam, yaxud sürgün edilməsi və onun malikanələrinin müsadirəsi haqqında birbaşa çarın göstərişi olmuşdursa, bu buyruqdan istisna edilirlər. Çar buyruğunu (fərmanını) icra etmək general İ.F. Raskeviçə həvalə edilirdi.

Ancaq 13 iyul 1830-cu il qanunu tiyul torpağı ilə bağlı siyasi çəkişmələrə son qoya bilmədi. Belə ki, 10 aprel 1840-cı il qanunu ilə çar hökuməti Zaqafqaziyada xan və bəyləri dövlət qulluğundan kənar etdi. 1841-ci il qanunu ilə onların tiyul torpaqlarını ləğv etməyə çalışdı. Yalnız 6 dekabr 1846-cı il qanunu qəti olaraq tiyul torpaqlarını feodalların mülkü kimi tanıdı.

Azərbaycan kəndlilərinin istifadəsində olan torpaqlar onun ailəsinin ehtiyaclarını ödəmirdi. Digər tərəfdən isə çar hökuməti erməniləri və Rusiyanın müxtəlif yerlərindən əhalini Azərbaycana köçürür, ən yaxşı torpaqları onların istifadəsinə verirdi. Bəzən isə elə hallar olurdu ki, yerli kəndlilərin istifadəsindəki torpaqların bir qismi onlardan alınıb gəlmələrə verilirdi. Bu isə Azərbaycan kəndində aztorpaqlı və tamamilə torpaqsız kəndlilərin sayının artmasına səbəb olurdu.

Rusiya imperiyası Azərbaycanı öz imperiyasına qatdıqdan sonra yerli şəraiti, iqtisadi siyasətlə bağlı olaraq, buranın istehsal və maliyyə imkanlarını dəqiq öyrənməyə başladı. Bu məqsədlə maliyyə naziri Y.F. Kankrin öz məmurlarını Qafqaza göndərmişdi. Məhz bu məlumatlar əsasında vergi və mükəlləfiyyətlər və onların həcmi müəyyən edilirdi. Kəndlilər istifadə etdikləri torpaqların müqabilində dövlət xəzinəsinə və bəylərə vergilər verir, mükəlləfiyyətlər daşıyırdılar. Vergilər əsasən natura ilə ödənilirdi. Lakin bəzi yerlərdə natura ilə ödənilən vergilər pulla əvəz olunmuşdu. Əvvəllər olduğu kimi ən geniş yayılmış vergi – **malcəhət** idi. XIX əsrin 30-cu illərində Azərbaycanda vergi sisteminin yoxlanışı keçirilmiş və müəyyənləşdirilmişdi ki, kəndlilərin ödədikləri vergilər və yerinə yetirdikləri mükəlləfiyyətlər əvvəlki əsrlərdə olduğu kimi çox müxtəlifdir.

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra ölkədə sənətkarlıq və ticarət öz inkişafını davam etdirmiş, manufakturalar yaranmışdı. Rəsmi məlumata görə sənətkarların sayı 8 min nəfərə çatırdı.

Sənətkarların böyük əksəriyyəti tək, yaxud ailə üzvləri ilə birlikdə işləyir, artıq bəzi sənət sahələrində isə muzdlu fəhlə əməyindən də istifadə edilirdi.Azərbaycanda istehsal olunan ipək mallar Qafqazın digər sahələrinə və rus quberniyalarına ixrac olunurdu.

Qədim dövrlərdən öz nefti ilə məşhur olan Bakıda neft sənayesi ləng də olsa, inkişaf edirdi. Bakı ətrafı kəndlərdəki 120-dən çox neft quyusundan ildə 200-220 min pud neft çıxarılırdı. Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra bütün neft quyuları çar hökumətinin ixtiyarına keçmişdi. Bu dövrdən etibarən neft sənayesində iltizam (otkup) sistemi başlamışdı. Belə ki, çar hökuməti hər dörd ildən bir bütün neft quyularını müəyyən məbləğ müqabilində bir nəfərin – iltizamçının istifadəsinə verirdi. İltizamçıdan başqa heç kim həmin neft quyularını istismar etmək hüququna malik deyildi. Belə hüquq yalnız iltizamçıya verilirdi. İltizamçının bu inhisar hüququ neft istehsalının artmasına mane olurdu. Neft mədənlərində oraya təhkim edilmiş feodal - asılı kəndlilərin əməyindən istifadə olunurdu. Mədənlərdə işləyən kəndlilər vergilərdən azad edilsələr də çox cüzi əmək haqqı alırdılar.

1830-cu il 13 iyul qanunu (buyruğu) olmasına baxmayaraq 30-cu illərin sonuna kimi Azərbaycan feodallarının silki imtiyaz və hüquqları həll olunmamış qalırdı. Quba bəyləri haqqında çar komendantlarından polkovnik Ponomaryovun 1812-ci il və general Tixanovskinin 1817-ci il sərəncamları və "Ağalar haqqında" general A.P. Yermolovun 1818-ci il Əsasnaməsində Azərbaycan feodalları dövlət xidmət məmurları kimi təqdim edilirdi. Zaqafqaziyada keçiriləcək islahatlarda bu əraziləri ruslaşdırmaq planlarına uyğun olaraq, çarizm köçürüləcək rus zadəganlarını öz müstəmləkə siyasətinin əsas aparıcı qüvvəsi, ictimai dayağı hesab edirdi. Ona görə də yerli bəylərə tiyul hüququnda verilmiş torpaqların onların əllərindən alıb rus zadəganlarına verilməsi nəzərdə tutulurdu. Çar hökuməti bu təklifi bəyənib XIX əsrin 40-cı illərinin əvvəllərində onu həyata keçirmək üçün islahat planını hazırladı. İlkin olaraq Qazax, Şəmşəddil və Borçalı ərazilərində yaşayan ağaların onlara verilmiş torpaq və həmin torpaqları becərən kəndlilər üzərindəki hüququ ləğv edildi. Çarın 25 aprel 1841-ci il fərmanı ilə Azərbaycan ağaları feodallıqdan məhrum edilir, hə-

min torpaqlar eyni zamanda kəndlilərin əllərindən alınır, əvəzində isə onlar üçün "ömürlük ödənc" təmin edilirdi.

25 aprel 1841-ci il çar fərmanı bütün Kaspi vilayəti bəylərinə də şamil etdirilməli idi. Lakin rus zadəganlarında bu yerlərə köçüb gəlmək həvəsinin olmaması, Kaspi vilayəti bəylərinin böyük narazılığı, Zaqafqaziyada vəziyyətin gərginliyi I Nikolaya fərmanı həyata keçirməyə mane oldu, 1840-1841-ci illərin çar "islahatları"nın həyata keçirilməsində bütün siyasi sərişləsizlik məlum oldu, çünki yerli feodalların köməyi olmadan Zaqafqaziyada çarizmin möhkəmlənməsinin qeyri-mümkünlüyü aydınlaşdı.

Məhz bu baxımdan çar I Nikolay Azərbaycan feodallarının imtiyaz və hüquqlarını tanımaq və rəsmiləşdirmək mövqeyinə qayıdaraq 6 dekabr 1846-cı il fərmanını verdi. Fərman bəy və ağaların xüsusi mülkiyyət hüququnu təsdiq edərək, onlara edilmiş bəzi güzəştlərə görə Azərbaycan feodalları ilə münasibətləri möhkəmləndirdi. 1846-cı il 6 dekabr fərmanına əlavə olaraq 1847-ci il aprelin 20-də və həmin il dekabrın 28-də nəşr olunmuş "Kəndli əsasnamələri"nə görə bəy və ağa torpaqlarında yaşayan müxtəlif kateqoriyalı kəndlilər – rəncbərlər, rəiyyətlər vahid ad – mülkədar tabeliyi adı alır, 15 yaşına çatmış kişilərin hər birinə 5 desyatin pay torpağı almaq hüququ verilirdi.

Qafqaz canişini knyaz M.S. Vorontsovun adına göndərilmiş 1846-cı il 6 dekabr tarixli çar fərmanında deyilirdi ki, "Zaqafqaziya ölkəsinin xanlarına, bəylərinə, ağalarına və ali müsəlman silkindən olan digər şəxslərinə və habelə erməni məliklərinə bizim xüsusi mərhəmət və iltifatımız əlaməti olaraq onların taleyini qəti həll edib və bununla da onların hökumətə yararlı olmalarına şərait yaratmaqla biz, sizin təqdimatınıza uyğun olaraq, lütfən əmr edirik:

1. Xüsusi xidmət və rəşadətlərinə görə xanlara, bəylərə, erməni məliklərinə və bəzi şəxslərə bizim bəxşiş etdiyimiz torpaqlarla bərabər müsəlman əyalətlərinin Rusiyaya birləşdirilməsi dövründə onların nəsillərinin sahib olduqları və indi də onların şəksiz ixtiyarlarında olan bütün torpaqlar onların irsi mülkiyyəti kimi təsdiq olunsun.

2. Bəzi sahibkarlardan 1840-cı ildən sonra cinayətə görə və ya məhkəmə yolu ilə deyil, yalnız inzibati qaydada müsadirə edilmiş

əhali yaşayan və əhali yaşamayan torpaqlar kimin əlindən alınmışdısa, onlara və ya onların varislərinə qaytarılsın və 1-ci maddəyə əsasən onların mülkiyyəti sayılsın.

3. Gürcüstanın kèçmiş tatar distansiyaları ağalarına və onların varislərinə qabaqlar istifadələrində olan və 1841-ci ildə müsadirə edilmiş əhali yaşayan və yaşamayan torpaqlar bizim onlara xüsusi iltifatımız kimi geri qaytarılsın və bu fərmanın 1-ci maddəsinə uyğun olaraq onların xüsusi mülkiyyəti kimi təsdiq edilsin.

4. 2-ci və 3-cü maddələrdə qeyd edilən sahibkarlara torpaqların qaytarılması və onların mülkiyyəti kimi təsdiq edilməsi ilə onlardan bəzilərinə pul ödənişləri verilməsi dayandırılsın, ancaq xüsusi xidmətlərə görə verilən təqaüdlərə bu qayda şamil edilməsin.

5. Sahiblərinin cinayətinə görə xəzinənin ixtiyarına keçmiş torpaqlar bizim xüsusi icazəmiz olmadan nə onların özlərinə, nə də varislərinə qaytarılmasın.

6. Bizim hakimiyyətimiz dövründə bəy və məliklərdən bəzilərinə xüsusi xidmətlərinə görə yalnız ömürlük və müvəqqəti verilmiş torpaqlara gəldikdə isə, onlar barədə bizə xüsusi təqdimatla müraciət edə bilərsiniz: onlardan məhz kimlərə xidmətləri müqabilində torpaqları irsi mülkiyyətdə təsdiq etmək və kimlərin müvəqqəti istifadəsində saxlamaq fikrindəsinizsə, ancaq artıq varislərin ixtiyarına keçmiş və geri qaytarılması üçün indiyə kimi tədbir görülməmiş torpaqlar onların irsi mülkiyyətində saxlanılsın.

7. Ayrı-ayrı şəxslərə indi mülkiyyət hüququnda bağışlanan və ya onlarınkı kimi təsdiq edilmiş torpaqlarda sakin olan kəndlilər indiki yaşayış yerlərində saxlanılsınlar. İctimai vəziyyət haqqında qanunlar məcəlləsinin 1842-ci ildə çap edilmiş IX cildinin 628-632-ci maddələrinə əsasən onlar dövlət kəndliləri zümrəsinə aid edilsinlər. Rəiyyətə rəncbər, xalisə, nökər və i.a. kimi müxtəlif adların yerinə kəndlilərə ümumi bir ad – **mülkədar tabeçi** adı verilsin.

8. Bu kəndlilər torpaq sahibinə onun torpağından istifadə etdikləri üçün əvəz olaraq ayrı-ayrı mükəlləfiyyətlər yerinə yetirməyə borcludurlar. Bundan başqa torpaq sahibinə kəndlilər arasında qayda-qanun və sakitliyə nəzarət və onlar üzərində polis idarəsi hüququ verilir.

Torpaq sahibləri ilə kəndlilər arasında qarşılıqlı münasibətlər bizim təqdir edəcəyimiz xüsusi əsasnamə ilə müəyyənləşdiriləcəkdir.

9. Bu fərmana əsasən sahiblərinə irsi hüquqda təsbit edilən torpaqlar bütün ləvazimatı və təsərrüfat yerləri ilə birlikdə sahibkarın tam mülkiyyətini təşkil edir və sahibkarlar ümumi qanun əsasında onlar üzərində mülkiyyət hüquqlarını tətbiq edə bilərlər. Bu torpaqlar irsən keçə bilər, bəxşiş edilə, satıla və ya hər hansı şəkildə alqı-satqıya qoyula bilər, lakin bir şərtlə ki, bu yolla malikanəni mülkiyyətinə keçirəcək şəxs ya Zaqafqaziya ali müsəlman silkinə mənsub olmalı, ya da ümumi imperiya qanunları üzrə məskunlaşmış malikanələrə sahiblik üçün zəruri keyfiyyətlərə malik olmalıdır. Torpağın alqı-satqısı zamanı orada məskun olan kəndlilər yeni sahibkara münasibətdə köhnə sahibkarla olan münasibətləri saxlayırlar.

10. Öz malikanələrini varislər arasında bölərkən torpaq sahiblərinə rus qanunları ilə yanaşı, şəriət və habelə adət və ya yerli qayda-qanunları rəhbər tutmağa icazə verilir.

11. Vəfat etmiş sahibkarın varislərinə mərhumdan qalmış malikanəni şəriət və ya adətə görə bölməyə yalnız o zaman icazə verilir ki, varislər arasında bu məsələ haqda həmrəylik olsun, ancaq bu halda da adət üzrə bölgü yalnız münasiflər vasitəsilə həyata keçirilməlidir; münasiflərin qərarından şikayət qəbul edilməsinə icazə verilmir.

12. Torpaqların təsbitində onun bu və ya başqa sahibkara və ya xəzinəyə mənsub olması haqda ortaya çıxan münaqişələr ümumi əsaslarla məhkəmədə ayırd edilməlidir.

Zaqafqaziya ölkəsinin ali müsəlman silkini təşkil edən xan, bəy, ağa və erməni məliklərinin torpaq üzərində sahiblik hüququnun əsas cəhətlərini bu cür müəyyən etməklə biz onlara olan iltifatımızın ali təzahürü kimi sizə onların şəxsi hüquqlarının imkan daxilində nəcib rus zadəganlığına məxsus hüquqları nəzərə almaqla müəyyən edilməsi ilə məşğul olmağı həvalə edirik. Biz möhkəm əminik ki, Zaqafqaziya ölkəsinin ali müsəlman silki indi istifadələrində olan torpaqlar üzərində hüquqlarının təsbit olunması ilə yaşayışları bərqərar edildiyindən yaşlarından və vəziyyətlərindən asılı olmayaraq ilk çağırışla bizim igid döyüşçülərimizin sıralarına daxil olmağa və həmin

silkə həvalə edilmiş vəzifələri can-başla və qeyrətlə yerinə yetirməyə həmişə hazır olacaqdır.

Beləliklə, çar hökuməti bu fərmanla Azərbaycanda öz dayaqlarını möhkəmləndirirdi.

Torpaq sahibləri ilə kəndlilər arasında qarşılıqlı münasibətlər çar hökumətinin 1847-ci ildə verdiyi "Kəndli əsasnamələri" ilə rəsmiləşdi.

Azərbaycanda kəndlilərin idarə olunması Rusiyanın mərkəzi quberniyalarından xeyli fərqlənirdi. Müsəlman əyalətlərində kənd əhalisini mütləqiyyət - polis sistemindən daha çox asılı etməyə çalışılırdı. Belə ki, Qafqaz canişinliyi tərəfindən 11 avqust 1865-ci il "Tiflis və Kutaisi quberniyalarının kənd cəmiyyətləri əsasnaməsi" və 23 avqust 1866-cı ildə verilmiş "Bakı quberniyasının kənd cəmiyyətləri əsasnaməsi" 1870-ci ilin aprel ayından Yelizavetpol (Gəncə) quberniyasına şamil edildi. 1870-ci il 14 may kəndli "Əsasnamə"sinin tətbiq edilməsi ilə əlaqədar olaraq 1865-66-cı illər "Kənd cəmiyyətləri haqqında" əsasnamənin bəzi maddələrində dəyişiklik edilir. 1865-66-cı illər Zaqafqaziyada kəndli Əsasnamələrinin qəbul edilməsi öz tərkibində müxtəlif kəndli qruplarını birləşdirən əhaliyə şamil edilirdi. Bu tərkibə dövlət, mülkədar, vəqf, xəzinə (xanədan), icma kəndliləri daxil idilər. Kiçik kəndlər canişinin icazəsi ilə bir kənd cəmiyyətində və yaxud daha da böyük kənd cəmiyyətlərində birləşirdilər. Bütövlükdə Bakı quberniyası üzrə 423, Yelizavetpol quberniyası üzrə isə 335 kənd cəmiyyəti yaradılmışdı. Müxtəlif sosial qruplardan olan kəndlilərin bir cəmiyyətdə birləşdirilməsi, onları inzibati-məhkəmə vahidindən asılı edirdi. Polis dövlətin maliyyə ehtiyaclarını ödəmək üçün kəndliləri asanlıqla mükəlləfiyyətə cəlb edə bilirdi.

Kəndli cəmiyyətlərinin idarə orqanları kənd yığıncaqlarından və kənd ağsaqqallarından ibarət idi. "Əsasnamə"yə uyğun olaraq kəndlərin ümumi yığıncağında yeniyetmə yaşında olan hər bir ailə başçısı iştirak etmək hüququna malik idi. "Əsasnamə" ciddi olaraq kənd yığıncaqlarında baxılacaq məsələlərin tərkibini müəyyən edirdi. Məhz 11-ci maddədə ümumi yığıncağın səlahiyyətində olan məsələlərə aydınlıq gətirilirdi: kənd üzrə vəzifəli şəxslərin seçilməsi; kəndli cəmiyyəti üzvlüyündən "ziyankar və əxlaqsız" şəxslərin çıxarılması

barədə hökm verilməsi; qəyyumların və himayədarların müəyyən edilməsi; çəmənliklərin və digər ictimai mülklərin bölüşdürülməsi; xəzinə və zemstvo mükəlləfiyyətlərinin və vergilərinin bölüşdürülməsi və digər məsələlər şərh edilirdi. "Əsasnamə"də daha sonra qeyd edilirdi ki, kəndli cəmiyyətləri yalnız 11-ci maddədə göstərilən məsələlər üzrə hökm çıxarmaq səlahiyyətinə malikdr. Əgər hər hansı bir hökmdə 11-ci maddədən kənarlaşma olarsa, işin əhəmiyyəti nəzərə alınaraq hökmün tərtib edilməsində iştirak edən şəxs quberniya rəisi tərəfindən cərimə olunmaq və yaxud məhkəmə orqanları tərəfindən məsuliyyətə alınmaq təhlükəsi ilə qarşılaşa bilərdi.

Kəndli cəmiyyətləri üzvləri bir neçə yüz, bəzən isə minə qədər ev sahiblərini birləşdirirdi və çox zaman kənd evləri bir-birindən uzaq məsafədə yerləşdiklərinə görə yığıncaqları toplamaq heç də asan olmurdu. Belə ki, Elizavetpol quberniyasının Qazax qəzasının Quşçu kəndli cəmiyyətində bir-birindən bir neçə on verstlikdə yerləşən yaşayış məntəqələri: Ocaqlı, Düz, Əsrik, Axundlu, Kərbalayi-Əsgər və digər kəndləri də öz növbəsində çox azsaylı, 2-3 tüstüdən (evdən) ibarət olmaqla bir-birindən uzaq məsafədə yerləşirdilər. Məhz bu baxımdan rəsmi olaraq tərtib edilmiş sənəddə – bu məsələlərə aydınlıq gətirməkdən ötrü Qafqazın mülki işlər üzrə baş rəisi knyaz Qolisının göstərişi ilə hazırlanmış arayışda göstərilirdi ki, kəndlilərin təşəbbüsü ilə kənd yığıncaqları: demək olar ki, çağırılmır və bütün məsələlər bir qrup varlı və adlı-sanlı şəxslər tərəfindən həll edilir, sonra imza toplamaq üçün kəndlilər arasında iş aparılır, bəzən isə əhalinin savadsızlığından istifadə edərək eyni adam bütün sənədə imza edirdi. Əlbəttə, kəndli cəmiyyətlərinin yığıncaqlarının keçirilməsi Azərbaycan kəndlilərinin problemlərini heç də həll etmirdi, çünki arxivlərdə saxlanılan bir çox sənədlər həmin dövrdə baş vermiş özbaşınalıqları bir daha təsdiq edirdi.

Zaqafqaziyada kəndli islahatını hazırlamaq məqsədilə 1861-ci ildə Zaqafqaziya Mərkəzi İslahat Komitəsi yaradıldı. İslahatı hazırlamaq üçün ilk növbədə dövlət, sahibkar torpaqlarının və kəndlilərin pay torpaqlarının sərhədləri dəqiq müəyyənləşdirilməli idi. Bu məqsədlə 1861-ci il iyunun 29-da Zaqafqaziya ölkəsinin mərkəzləşdiril-

məsi haqqında Əsasnamə təsdiq edilmiş və 1862-ci il yanvarın 1-dən torpaqların bilavasitə mərkəzləşdirilməsi işinə başlanmışdı. İslahatın hazırlanması yolunda ikinci mühüm addımlardan biri 1866-cı ildə Qafqaz canişini Baş İdarəsi Şurasının qərarı ilə Bakı, Şuşa, Tiflis və İrəvan **bəy** komissiyalarının yaradılması oldu. Həmin komissiyalar Azərbaycanın ali müsəlman silkinin tərkibini və hüququnu müəyyən etməli idi. Onların işi Azərbaycanda 1188 irsi və şəxsi bəy nəslinin, 3 xan nəslinin - Şirvan, Talış, Bakı xan nəsillərinin imtiyazlarını tanımaq, 1048 ailənin isə iddialarını rədd etməklə başa çatdı. Beləliklə, çar hökuməti "kəndli" islahatına hazırlıq adı altında əslində yerli mülkədarların mənafeyini qabaqcadan "həll etmişdi".

Azərbaycanda "kəndli" islahatı. Kəndli islahatı çarın imzaladığı 1870-ci il 14 may Əsasnaməsi üzrə tənzimlənirdi. Əvvəla, islahat keçmiş xan nəslindən olanların, bəylərin və ağaların 1846-cı il 6 dekabr, 1847-ci il 20 aprel və 28 dekabr və 1851-ci il 8 iyun fərmanlarına müvafiq olaraq onların torpaq üzərində mülkiyyət hüququnu bir daha təsbit edirdi. Digər tərəfdən, ali silkdən olanlar pay torpağı almaq hüququnu saxlayırdılar. Kəndlilərin istifadəsində olan pay torpaqları üzərində mülkiyyət hüququ mülkədarların hüququ kimi təsbit edilirdi.

Əsasnaməyə görə hər bir malikanədə adları olan istər ailələrin, istərsə də subay kəndlilərin həmin malikanədə pay torpağı almaq hüququ təsbit edilirdi. Həyətyanı sahələr, meyvə, üzüm və tut bağları, əkin sahələri (əkin və biçənəklər) kəndlilərin mülkiyyəti kimi müəyyən edilirdi. 5 desyatindən artıq kəndli pay torpağından sahibkar kəsik tələb etmək hüququna malik idi. Lakin ümumən kəndli icmasının pay torpağı hər bir kəndli kişi üçün 5 desyatindən az olarsa, onda kəndli cəmiyyətinin sahibkardan torpağın çatışmayan hissəsini tələb etmək hüququ vardır və sahibkar çatışmayan torpağı kəsib verməyə borcludur. Meşələr bəylərin mülkiyyəti kimi təsbit olunur və kəndlilər əvvəllər birgə, elliklə istifadə etdikləri meşələr üçün indi ayrıca pul verməli idilər.

Kəndlilər üçün pay torpağı kimi müəyyən edilmiş torpaqlar kəndlilər tərəfindən mükəlləfiyyətlər icra edilib qurtardıqdan sonra

kəndlinin daimi istifadəsinə (mülkiyyətinə yox) verilirdi. Kəndlinin evi, həyətyanı sahəsi həmin tüstülərin (evin) irsi istifadəsində qalırdı. Kəndli əkin sahəsinin irsən keçməsi qaydası və onların bölünməsi yerli adət hüququ əsasında aparılırdı. Kəndli həyətyanı torpağını və əkin yerini kənd cəmiyyətinə mənsub olan kəndliyə verə bilərdi. Bağları isə hətta kənar şəxsə vermək hüququna malik idi. Kəndli başqa silkə keçdikdə tərk etdiyi icmanın kəndli torpağından istifadə hüququnu itirirdi.

Nizamlama qaydaları qurtarana qədər kəndli sahibkar üçün mükəlləfiyyətləri yerinə yetirirdi. Mükəlləfiyyətlərin ödənilməsində cavabdehlik üçün məsuliyyət müəyyən edilirdi.

Əsasnamə elan olunduğu gündən 2 il keçənədək nizamlama qaydaları hər bir malikanə üzrə başlamalı idi. Həm sahibkar, həm də kəndli nizamlama qaydalarının hazırlanmasında iştirak edirdi. Barışıq münsifi tərəflərin iştirakını bildirən çağırış vərəqəsini 15 gün əvvəlcədən təqdim edirdi. Kəndli öz pay torpağını barışıq münsifinin müəyyən etdiyi qaydada heç bir məhdudiyyət qoyulmadan ala bilərdi. Hər evə 15 desyatindən artıq torpaq payı almağa icazə verilmirdi.

1870-ci il kəndli islahatı kəndlilərin əksəriyyətini təşkil edən dövlət kəndlilərinə şamil edilmirdi. İslahatın əhatə etdiyi sahibkar kəndliləri isə Azərbaycan kəndlərinin yalnız beşdə bir hissəsindən bir qədər artığını təşkil edirdi. Bununla belə, ümumilikdə bütün kəndlilərin şəxsən azad edilməsi, torpaqların alqı-satqısı kənddə kapitalist münasibətlərinin inkişafına zəmin yaradırdı.

Çar hökuməti 1852-ci ildə Azərbaycanda yeni vergi sistemi tətbiq edilməsi barəsində sərəncam verdi. Yeni vergi sisteminin mahiyyəti əsasən ondan ibarət idi ki, əvvəllər natura ilə ödənilən vergilərə nisbətən yeni sistemdə vergilərin pulla ödənilməsi əsas götürülürdü. Çünki vergiləri məhsulla toplamaq çətinlik törədir, həmin mallar tez xarab olurdu. Yeni vergi sistemi kəndlilərin vəziyyətini ağırlaşdırsa da, Azərbaycanın sosial-iqtisadi inkişafı üçün əhəmiyyətli idi. Vergilərin pulla toplanması təsərrüfat qapalığına ciddi zərbə vurur, kəndliləri əmtəə - pul münasibətlərinə cəlb edirdi.

Kəndlilər. Azərbaycan kəndliləri iki qrupa: **sahibkar** və **dövlət kəndlilərinə** bölünürdü. Dövlət kəndliləri torpaqlardan yenə də icmalıqla istifadə edirdilər. Lakin artıq əvvəllərdə olduğu kimi, icma torpaqlarının müəyyən müddətdən sonra icma üzvlərinin 15 yaşdan yuxarı kişi üzvləri arasında bölünməsi həyata keçirilirdi. Torpaqların çoxu hər kəndin – icmanın varlı üzvlərinin əllərində cəmləşmişdi, kəndlilərin böyük əksəriyyəti isə aztorpaqlı, yaxud torpaqsız idi. Bakı quberniyasında 2-5 desyatin torpaq payı olan dövlət kəndliləri bütün dövlət kəndlilərinin cəmi 4 faizini təşkil edirdilər. Kəndlilərin böyük əksəriyyətinin pay torpağının sahəsi 1-2 desyatindən çox deyildi. Dövlət kəndində yaranmış belə vəziyyətin əsas səbəbi bir tərəfdən kəndlilər arasında gedən sinfi təbəqələşmə, digər tərəfdən isə bəylərin dövlət kəndlilərinin istifadəsində olan torpaqları zəbt etmələri və çar hökumətinin XIX yüzilliyin son 30 ilində rus kəndlilərinin Qafqaza, o cümlədən Azərbaycana köçürülməsinin xeyli artması idi. Rusiyadan köçürülmüş kəndlilər ən yaxşı torpaqlardan istədikləri qədər ala bilirdilər. Belə torpaq ehtiyatı isə yerli kəndlilərin istifadəsində olan torpaqların zorla onların əlindən alınması hesabına yaradılırdı. Belə bir vəziyyətdə olan dövlət kəndlilərinin güzəranı ağır vergilər hesabına daha da dözülməz vəziyyətə düşürdü. Vergilər o dərəcədə çox idi ki, kəndlilər əsasən onu ödəyə bilmir və borclu qalırdılar. Belə ki, 1886-cı ilin sonunda təkcə Bakı quberniyası üzrə dövlət kəndlilərinin ödəyə bilmədiyi vergi borcu 2 mln. manatdan artıq idi.

Sahibkar kəndlilərinin vəziyyəti daha ağır idi. Onların istifadəsində olan torpaqlar 1870-ci il islahatından sonra da bəylərin mülkiyyətində qalırdı. Bəylərin mülkiyyətində istifadədə olmayan boş torpaqlar da var idi. Onlar bu torpaqları ağır şərtlərlə icarəyə verirdilər. Sahibkar kəndlilərinin istifadəsində olan adambaşına düşən pay torpaqlarının sahəsi ilbəil azalırdı. Tutaq ki, 1870-ci il islahatı zamanı bir kəndli ailəsinin istifadəsində 15 desyatin torpaq sahəsi var idi və bu ailənin kişi üzvlərinin sayı 5 nəfərə çatırdı. Yüzilliyin sonunda da həmin ailənin torpaq sahəsi 15 desyatin olaraq qalırdı. Halbuki keçən otuz il ərzində belə ailələr xeyli böyümüş, onların hər birinin tərki-

bindən 2-3, bəlkə də daha çox ailə ayrılmışdı. Deməli, hər ailəyə, onun hər kişi üzvünə artıq əvvəlki kimi 3 desyatin deyil, xeyli az - 1 və 1,5 desyatin, bəlkə də daha az torpaq payı düşürdü. XX yüzilliyin lap əvvəllərinə dair məlumata görə, Bakı quberniyasında adambaşına düşən torpaq payının sahəsi bir desyatindən az, Yelizavetpol quberniyasının Cavanşir, Cəbrayıl, Zəngəzur və Şuşa qəzalarında isə 0,5 desyatindən bir az çox idi. Sahibkar kəndlilərin üzərinə düşən vergilər dövlət kəndlilərinkindən də ağır idi. Çünki onlar öz feodallarına – torpaq sahiblərinə verilən məhsuldan dövlət vergilərini də ödəməli, mükəlləfiyyətlər də icra etməli olurdular.

Torpaqların az olmasından əziyyət çəkən istər dövlət kəndlilərinin, istərsə də sahibkar kəndlilərinin vəziyyətini suvarma suyunun çatışmaması da pisləşdirirdi. Azərbaycanın əksər bölgələrinin iqlim şəraiti elə idi ki, süni suvarma olmadan məhsul yetişdirmək mümkün deyildi. Kəndlilər, xüsusən sahibkar kəndliləri öz sahələrini suvarmaq üçün su arxlarının sahiblərinə – bəylərə məhsullarının xeyli hissəsini verməli olurdular. Dövlət kəndlərində vəziyyət nisbətən yaxşı idi, onlar sudan icmalıqla növbə ilə istifadə edə bilərdilər. Lakin burada da mirabların özbaşınalığı vəziyyəti ağırlaşdırırdı. Belə ki, varlı kəndli təsərrüfatlarına qeyri-qanuni su verməkdən çəkinmir və şübhəsiz ki, bunun müqabilində rüşvət alırdılar.

XIX yüzilliyin sonlarında Azərbaycan kəndinin siması xeyli dəyişmiş, artıq kənd əhalisi yeni – kapitalist cəmiyyətinin siniflərinə parçalanmışdı. Bu siniflərdən biri torpaqların xeyli hissəsini əllərində cəmləşdirmiş kənd varlıları, öz torpaqlarını muzdlu əmək tətbiq etməklə becərən qolçomaqlar, həmçinin təsərrüfatla məşğul olub, bu təsərrüfatda muzdlu əmək tətbiq etməklə kapitalistə çevrilmiş bəylər idi. Digər sinfi isə torpaqsız və ya aztorpaqlı kəndlilər təşkil edirdilər. Doğrudur, hələ bəylərin hamısı öz təsərrüfatı ilə məşğul olmurdu, kəndlilərin də əksəriyyəti öz təsərrüfatı ilə ailə üzvlərinin qüvvəsi ilə məşğul olur, öz feodallarına, yaxud dövlət xəzinəsinə istifadə etdiyi torpaqların müqabilində vergi ödəyirdilər. Çünki hələ onlar feodallar və dövlət xəzinəsi ilə feodal - asılı münasibətdə idilər. Lakin bu münasibətləri tədricən yeni yaranan kapitalist münasi-

bətləri əvəz edirdi. Bu isə uzun çəkən proses olmuş, XX yüzillikdə də davam etmişdi.

Burjuaziya. XIX yüzilliyin ikinci yarısında Azərbaycanda kapitalist sənayesinin inkişafı, bir çox sənət sahələrinin manufaktura səviyyəsinə yüksəlməsi, kənd təsərrüfatında, kəndli sahibkarlar arasında baş verən sosial dəyişikliklər kənd təsərrüfatının bir çox sahələrinə muzdlu əməyin daxil olması, cəmiyyətin tərkibində əsaslı dəyişikliklərin baş verməsi yeni kapitalist cəmiyyətinin sinifləri olan burjuaziya və fəhlə sinfinin təşəkkül tapmasına şərait yaratdı. Azərbaycan burjuaziyası neft sənayeçilərindən – fabrik, zavod və manufaktura səviyyəsində olan sənətkar emalatxanalarının sahiblərindən, tacirlərdən, ev sahiblərindən, qolçomaqlardan, təsərrüfatlarını muzdlu əmək üzərində quraraq kapitalistə çevrilmiş bəylərdən və b. ibarət idi. Azərbaycan burjuaziyasının XIX yüzilliyin ikinci yarısında başlamış təşəkkül prosesi XIX yüzilliyin əvvəllərində də davam etmişdi. Böyük sənaye mərkəzinə çevrilmiş Bakı şəhəri Azərbaycan burjuaziyasının təşəkkül tapdığı ən mühüm mərkəz idi. Ən güclü hissəsi bu şəhərdə cəmləşmiş Azərbaycan burjuaziyası müstəmləkə vəziyyətində olan ölkənin iqtisadi inkişafının xüsusiyyətləri ilə əlaqədar olaraq öz təşəkkülünün lap başlanğıcından çoxmillətli olmuşdur. Çünki neft sənayesinin kapitalist inkişafının ilk illərindən erməni kapitalı burada üstünlük qazanmış, daha sonra isə bu sənaye sahəsinə rus kapitalı axıb gəlmişdi. Ticarət sahəsində də erməni və rus kapitalının rolu az deyildi. Azərbaycanlı sahibkarlar da əsasən Bakının yüngül sənaye, neft emalı sahələrində, gəmiçilikdə, Azərbaycan qəzalarındakı sənaye müəssisələrində üstünlük təşkil edirdi. Özünün təşəkkül dövründə çoxmillətli burjuaziya sinfinin tərkibində azlıq təşkil edən Azərbaycan burjuaziyası sonrakı illərdə nisbətən qüvvətləndi. Məsələn, XX yüzilliyin lap ilk ilində neft sənayesində olan 167 firmadan 49-u milli kapital nümayəndələrinə məxsus idi. Neft sənayesində 55 firması olan erməni burjuaziyasından sonra ikinci yeri tutan Azərbaycan milli burjuaziyası XIX yüzilliyin sonlarında say etibarilə xeyli artsa da, onun sənayedə xüsusi çəkisi həmin sayla uyğun gəlmirdi. Belə ki, burjua nümayəndələrinin böyük əksəriyyəti-

nin kapitallarının miqdarına, iqtisadiyyatda tutduqları mövqelərinə görə xüsusi çəkisi bir çox iri kapitalistlərə nisbətən xeyli aşağı idi. Ancaq Azərbaycan milli burjuaziyası nümayəndələri arasında çox varlı, sənaye və ticarətdə yüksək xüsusi çəkili kapitalistlər də var idi. Öz kapitalını xalqın maariflənməsinə və xeyriyyə işlərinə sərf edən Hacı Zeynalabdinin adını xüsusi ilə göstərmək lazımdır.

H.Ə. Tağıyev öz kapitalını təkcə neft sənayesinə deyil, yeyinti, tikinti sənaye sahələrinə, hətta kənd təsərrüfatına da qoyurdu. H.Z. Tağıyev Azərbaycan burjuaziyası nümayəndələri arasında Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə zərbə vuran kapitalist olmuşdur. Məlumdur ki, müstəmləkə metropoliya sənayesi üçün xammal verməli, onun özündə bu xammalı əşyaya çevirən sənaye sahələri və eyni zamanda rus sənayeçilərinə dünya və Rusiya bazarlarında rəqib olmamalı idi. Bu iqtisadiyyat müstəmləkə iqtisadiyyatı adlanırdı. Azərbaycan iqtisadiyyatı da belə idi. Tağıyev böyük zəhmətlə, uzun illərin mübarizəsindən sonra öz toxuculuq fabrikini açmaqla Azərbaycan iqtisadiyyatının yüngül sənaye sahəsini və digər istehsal sahələrini inkişaf etdirə bilmişdi.

H.Z. Tağıyevlə yanaşı Azərbaycan milli burjuaziyasını neft sənayesində Şəmsi Əsədullayev, Musa Nağıyev, Murtuza Muxtarov, Manafov, yeyinti sənayesində Ağabala Quliyev, Zülfüqarovlar, Səttar Kərimov, ipək emalı sənayesində Hacı Kərim Vahab oğlu, Hacı Əbdül Rəhimov, Muradov, balıqçılıqda Əhməd Mustafa oğlu, gəmiçilikdə Hüseynovlar, Dadaşovlar və onlarla başqaları layiqli təmsil etmişlər.

Fəhlələr. Azərbaycanda kapitalizmin inkişafı burjuaziya ilə eyni vaxtda fəhlə sinfinin meydana çıxıb təşəkkül tapmasına səbəb oldu. Bakıda və Azərbaycanın digər qəzalarında sənaye ocaqları yarandıqca, var-yoxdan çıxmış kəndlilər bu şəhərlərə axışırdı. Bakıya iş dalınca təkcə Azərbaycan qəzalarının müflisləşmiş kəndliləri deyil, Rusiyadan, qonşu Gürcüstandan, Ermənistandan, həmçinin İran Azərbaycanından da gəlirdilər. Lakin iş dalınca gələn kəndlilərin hamısı daimi olaraq Bakıda və digər şəhərlərdə qalmır, fəhlə sinfinin təşəkkülündə iştirak etmirdi. Onlara mövsümü fəhlələr deyirdilər. Bakıya və başqa sənaye ocaqlarına iş tapmaq üçün gələnlərin digər

qismi isə təsərrüfatla əlaqəsini tamamilə kəsir, sənaye müəssisələrində muzdla işləyən daimi fəhləyə çevrilirdi. Məhz onların hesabına Azərbaycan fəhlə sinfi təşəkkül tapırdı. Bakı neft sənayesi kapitalist əsasları üzərində inkişafa başlayanda burada çalışan fəhlələrin böyük əksəriyyətini Abşeron kəndliləri təşkil edirdi. Lakin neft sənayesi genişləndikcə, Abşeron kəndliləri azlıq edirdi və başqa yerlərdən gələn kəndlilər hesabına genişlənirdi.

Dövlət quruluşu. XVIII əsrin sonu XIX əsrin əvvəllərində Rusiya Cənubi Qafqazı öz imperiyasına birləşdirdikdən sonra Azərbaycanın, həmçinin bütöv bu ərazilərin dövlət quruluşunda dəyişiklik edilir. Hələ 1801-ci ilin sentyabr ayında Şərqi Gürcüstan Rusiyaya qatıldıqdan sonra imperator I Aleksandr Zaqafqaziyanın ali və yerli idarəetmə orqanları haqqında "Əsasnamə"ni təsdiq etmişdir. "Əsasnamə"yə uyğun olaraq Azərbaycan xanlıqları tədricən imperiyaya qatıldıqdan sonra hüquqi cəhətdən "Əsasnamə" xanlıqlara da şamil edilirdi. Hərbi və mülki işlər üzrə bütün hakimiyyət Zaqafqaziyada yerləşən rus qoşunlarının ali baş komandanlığına həvalə edilirdi. I Aleksandr 1803-cü ilin mart ayının 7-də Zaqafqaziyada rus qoşunlarının baş komandanı general-leytenant P.L. Sisianova göndərdiyi məktubda Qafqazın idarə olunmasında onun tam sərbəst olduğunu bir daha təsdiq edirdi.

Gürcüstandan fərqli olaraq Azərbaycanda əvvəlki idarəetmə orqanlarının ləğv edilməsi və yeni orqanların yaranması nisbətən uzun müddət davam etmişdir. 1783-cü il Georgiyevski müqaviləsinə müvafiq olaraq Gürcüstan könüllü olaraq Rusiyaya birləşdiyi halda, Azərbaycan xanlıqları öz daxili müstəqilliklərini və dövlət quruluşlarını saxlamaqla vassal asılılığını qəbul etmişdir. Lakin çar hökuməti müxtəlif bəhanələrlə bağlanmış müqavilələri pozmağa və xanlıqları ləğv etməyə çalışırdı. Belə ki, 1822-ci ildə Qarabağ xanı Mehdiqulu xana qarşı cinayət işi açılaraq o, mənşəcə erməni olan general Mədətova qarşı yalançı sui-qəsddə ittiham edildi. Xanlıqlar tədricən ləğv edilərək özündə əyalətləri birləşdiən dairələrə çevrilirdilər. Əvvəlcə iki böyük dairə – Müsəlman və Dağıstan dairələri yaradılır. Birinci dairəyə Talış, Şəki, Qarabağ və Şirvan əyalətləri, ikinciyə isə

Bakı, Dərbənd və Quba əyalətləri daxil idilər. Dairələrə ali baş komandan tərəfindən təyin edilən və ona tabe olan hərbi-dairə rəisləri başçılıq edirdilər. Əyalətlərin inzibati idarələri hərbi-dairə rəislərinə tabe idilər. Əyalətlərin inzibati idarələrinə 1828-ci ilə qədər səlahiyyətləri heç bir qanunla tənzimlənməyən hərbi komendantlar başçılıq edirdilər. Onlar əsasən rus ordusunda xidmət edən polkovniklər və generallar arasından təyin edilirdilər.

1828-ci ildə Tiflis hərbi qubernatoru tərəfindən hazırlanmış məxfi təlimat Şəki və Qarabağ komendantlarının səlahiyyətlərini müəyyən edirdi. Komendant idarə sisteminin funksiyasına təsərrüfat, məhkəmə, polis və məxfi işlər daxil idi. Azərbaycan xanlıqları Rusiyanın tərkibinə daxil edildikcə komendant sisteminin əhəmiyyəti artırdı. Onların köməyi ilə çar xəzinəsinə xan və bəylərdən müsadirə edilmiş torpaqlar qatılırdı. Neft, duz, balıq vətəgələri də xəzinə mülkiyyətinə toplanırdı. Təbii sərvətlərin istismar olunması vaxtaşırı olaraq dövlət və iltizamçılar tərəfindən həyata keçirilirdi.

Komendantlar neft quyularından, duz, balıq və digər müəssisələrdən gələn gəlirlərə istədikləri kimi sərəncam vermək hüququna malik idilər. Həmçinin onlar feodaldan asılı olan kəndləri istədikləri kimi bağışlamaq və yaxud feodaldan müsadirə etmək hüququnu da əldə etmişdilər. Məsələn, Quba dairəsinin komendantı general Lisaneviç Riza bəy Əlibəyova Leci kəndini 39 rəiyyət və 2 rəncbərlə birlikdə bağışlamışdı. 1810-cu ildən 1824-cü ilə qədər qısa müddətdə Quba komendantı yerli feodallara 89 kənd vermişdi.

Kəndləri öz istədikləri kimi təkcə komendantlar deyil, daha yüksək vəzifəli çar məmurları, o cümlədən çarın özü də paylayırdı. Belə ki, general Yermolovun təqdimatı ilə I Aleksandr Şirvan xanı olmuş Qasim xana 329 kəndli həyəti olan 16 kənd bağışlamışdı. Lakin çarizm tərəfindən bağışlanılan kəndlərin sahibləri hakimiyyət orqanlarına düşmənçilik göstərdikdə, həmin bağışlanılan mülkiyyət geri alınırdı.

Komendantlar pul vergilərini və digər xəzinəyə daxil olacaq gəlirləri toplayır, qazıları vəzifələrinə təsdiq edir, mahal naiblərini və məmurları təyin edir, yolların və körpülərin yararlı vəziyyətdə olmasına görə cavabdehlik daşıyırdılar. Onlar məxfi işlərə aid olan sahə

üzrə fəaliyyət göstərərək, yerli əhali içərisindən cəlb etməklə, əhalinin Rusiya hakimiyyət orqanlarına münasibəti barədə məlumat toplayırdılar. Beləliklə, komendantlar maliyyə, polis və digər sahələr üzrə geniş idarəetmə səlahiyyətinə malik idilər.

Komendant idarə sistemində komendant ştatı ilə yanaşı, komendant köməkçisi, polismeyster, təsərrüfat işlərinə baxan, əyalət xəzinə idarəsi başçısı və digər ştatlar mövcud olmuşdur. Belə ki, Bakı əyaləti komendantının sərəncamında komendant köməkçisi, polismeyster (qalabəyi), polismeyter köməkçisi (o, yerli əhali içərisindən təyin edilirdi), katib, tərcüməçi, mirzə, yasavul və s. vəzifələr ştatı olmuşdur. Digər əyalətlərdə də təxminən belə məmurlar ştatı mövcud idi.

1826-cı ildə Talış xanı Mir Həsən xan İrana qaçdıqdan sonra xanlıqda idarə sistemi rus komendantının səlahiyyətinə keçir. 1828-ci ilin aprel ayının 23-də general Paskeviç Talış xanlığında baş qərərgah-zabiti, iki ober-zabit və iki nəfər yerli nüfuzlu şəxslərdən ibarət olmaqla müvəqqəti idarə təsis edilməsi barədə sərəncam verir.

Naxçıvan xanlığının və Ordubad dairələrinin idarə olunması Ehsan xana və onun qardaşı Şixəli bəyə tapşırılır. Onların köməkçiləri olan pristavlar isə rus məmurları arasından təyin edilirdilər. Hər iki naibə rus hakimiyyət orqanlarının belə etimadı onunla izah edilirdi ki, onlar 1826-1828-ci il Rus-İran müharibəsində rus ordusuna xidmət etmişdilər. İdarəetmə məsələləri rus məmurları və onlar arasında həll edilməli idi. Lakin Ehsan xan və Şixəli bəy idarəetmə işlərində tez-tez öz köməkçiləri olan rus məmurları ilə razılıq əldə edə bilmirdilər. Lakin həmin dövrdə onların dəyişdirilməsi arzuolunmaz olduğu üçün hələlik güzəştlərə daha çox üstünlük verilirdi. Naxçıvan xanlığında pristavlara polisin işlərinə qarışmaq qadağan edilirdi. Rus məmurları yalnız naiblərin fəaliyyətinə nəzarət edir, sui-istifadə barədə yuxarı orqanlara məlumat verirdilər. 1833-cü il iyun ayının 23-də verilmiş İrəvan vilayətinin idarə olunmasına dair Əsasnamədə Naxçıvan və Ordubad əyalətlərinin idarəetmə sistemi əvvəlki kimi saxlanılsa da, polismeysterlər Ehsan xan və Şixəli bəy birbaşa İrəvan vilayətinin rəisinə tabe edilirdilər.

Qazax və Şəmşəddil sultanlıqları Rusiya imperiyasına qatıldıqdan sonra sultanlıq **tatar distansiyası** adlandırıldı. Distansiyalara birbaşa Gürcüstanın baş idarəsinə tabe edilən pristav (və ya mourav) rəhbərlik edirdi. Pristavlar polis, maliyyə və məhkəmə funksiyalarını yerinə yetirməklə vergilərin toplanması, hətta cinayət işlərinin araşdırılması ilə məşğul olurdular.

Əyalətlərdə xanlıqlar dövründən qalma inzibati-ərazi vahidi – **mahallar** saxlanılırdı. Rus hakimiyyət orqanlarında mahallar rəsmi olaraq uçastoklar (sahələr) adlandırılırdı. Qarabağ əyaləti 1832-ci ildə 14 mahala, Quba əyaləti isə 10 mahala bölünürdü. Mahallara **naiblər** başçılıq edirdi. Əyalətlərin mahallara bölgüsü çox vaxt ərazi vahidi üzrə deyil, sülalə (nəsil) prinsipinə əsaslanırdı. Ona görə də mahallar bu və ya digər nəslin adı ilə adlanırdı.

Mahalların idarə olunması naiblərə həvalə edilirdi. Onlar çar hökumətinə sadiq bəylər arasından komendantlar tərəfindən təyin edilir və Gürcüstanın baş hakimi tərəfindən təsdiq edilirdi. Mahal naiblərinin hüquq və vəzifələri hər hansı bir dövlət aktı üzrə müəyyən edilmirdi. Faktiki olaraq onların səlahiyyətləri müxtəlif olaraq hər əyalətdə ayrı-ayrı tənzimlənirdi. Mahal naibləri komendantlar tərəfindən müəyyən edilən vergi və mükəlləfiyyətləri əhali arasında bölüşdürürdülər. Əhalinin vergini vaxtında ödəməsinə nəzarət etmək, sakinlər arasındakı mübahisələri həll etmək, məhkəmə qərarlarının yerinə yetirilməsi və s. məsələlər mahal naiblərinin səlahiyyətləri daxilində idi.

Mahalı idarə edənlər dövlət xəzinəsindən məvacib almır, topladıqları vergilər hesabına dolanırdılar. Öz növbəsində mahal bəylərini bu ödəniş təmin edirdi. Belə ki, Qarabağ əyalətində naiblər kəndlərdən toplanan verginin onda bir hissəsini mənimsəyirdilər. Kənd əhalisi mahal bəylərinin torpaqlarının becərilməsində iştirak edir, taxıl biçinində və döyülməsində ona kömək edirdilər. Bəzi kəndlər onun üçün rəncbərlər ayırırdılar. Bundan əlavə, mahal bəyləri toy payı, mübahisə edilən mülkiyyətin onda bir hissəsini (mübahisəni həll etdiyinə görə), oğurlanmış əmlakın aşkar edilməsində xidmətinə görə də onun 10 faizini almaq hüququna malik idi.

Komendant üsul - idarəsi dövründə vahid pul, ölçü və çəki sistemi tətbiq edilmişdir. Bununla belə, komendant idarəsi dövründə feodal-patriarxal qaydalar qalmaqda davam edirdi.

Komendant idarə - üsulundan əhalinin narazılığını ifadə edən çoxlu faktlar məlumdur. Belə ki, komendantlar, dairə rəisləri, mahal naibləri və digər məmurlar xalqı amansızcasına soyur, onu yeni vergi və mükəlləfiyyətlər yerinə yetirməyə məcbur edirdilər. Hərbi-dairə rəisi general-mayor Krabbenin 27 yanvar 1834-cü il məlumatında deyilirdi ki, Şəki komendantı qanunsuz olaraq əhalidən ipəksarıma müəssisəsinin gözətçisi üçün vəsait toplanmasını, qonaq gəlmiş rus məmurları üçün mənzil ayrılmasını, onların özlərinin və atlarının saxlanılmasını, aşağı rütbəli məmurların taxıllarının dəyirmanlarda pulsuz üyüdülməsini, əsgər kazarmalarını təmir etmələrini, xəzinəyə məxsus çəltiyin daşınması üçün 20 at verilməsini və s. tələb edirdi. Yelizavetpolda dairə rəisi təkcə 1829-cu ilin yanvar-iyul aylarında nəzərdə tutulan verginin məbləğindən 13301 rubl çox gümüş pul toplamış və əhaliyə heç bir qəbz və ya imzalanmış sənəd verməmişdir. Şəmşəddil distansiyasında isə pristav atların nallanması üçün əhalidən qanunsuz pul toplayırdı. Bundan əlavə pristav və məmurların saxlanılmasına görə xalq gündə bir qoyun, beş funt yağ, dörd çanaq buğda unu, şam üçün beş funt piy, beş funt duz və beş funt düyü verməli idilər. Bu növ töycülər digər distansiyalarda da toplanılırdı.

Talış komendantı İlinski nəinki rüşvətxorluq və töycü yığmaqla məşğul olur, həm də izi itirmək məqsədilə cinayət törədirdi. Onun əmri ilə məhkəməsiz və istintaqsız 20 nəfər dənizdə boğdurulmuşdu.

Digər ərazilərin mahal naibləri və çar məmurları əhalidən qanunsuz olaraq töycü toplayır və onları müxtəlif mükəlləfiyyətlərə məcbur edirdilər.

Rusiyanın daxili quberniyalarından və Tiflisdən fərqli olaraq Azərbaycan şəhərlərində hər hansı bir inzibati idarələr yaradılmışdır. Baxmayaraq ki, Gürcüstanda baş idarənin rəisi general Rtişyev çar I Aleksandra hazırladığı məruzədə Yelizavetpol üçün Tiflis şəhərində mövcud olan idarə sisteminə oxşayan bir layihənin hazırlandığını bildirmişdi, lakin bu layihənin həyata keçməsi üçün heç bir təd-

bir görülməmişdi. 1803-cü ildə Yelizavetpolda şəhər idarəsi və digər funksiyaları yerinə yetirən polis yaradılır. Şəhər polisinin tərkibinə xüsusi pristavlar, məhəllə nəzarətçiləri və onbaşı daxil idi. Polisin tərkibində 50 nəfərdən ibarət gözətçi dəstəsi həbs edilənlərə nəzarət edir, şəhərdə gecələr gözətçi funksiyasını yerinə yetirirdilər. Şəhər polisinin saxlanılmasına xərclənən gündəlik 3700 rubl şəhər əhalisindən toplanan xüsusi vergi hesabına ödənilirdi.

Polis fəaliyyətində "ictimaiyyətin nümayəndəsi" kimi iki nəfər – biri azərbaycanlı, digəri isə erməni olan "deputat" bir növ nəzarət funksiyasını yerinə yetirirdi. Onlar şəhər polisinin təqdimatı ilə hər il Gürcüstanın mülki hissə üzrə qubernatoru tərəfindən təsdiq edilirdilər. Deputatlar xüsusi olaraq pristavlarla birlikdə şəhərdə mövcud olan evlərin, dükanların, karvansaraların, emalatxanaların, hamamların, dəyirmanların, həmçinin mənzil kirayə verənlərin siyahısını tərtib edir və əldə olunan gəlirlərin dəqiq uçotunu aparırdılar. Deputatlar əhalidən körpülərin və yolların təmiri, şəhərin işıqlandırılması və s. işlər üçün də ödənc toplayırdılar. Ödəncin toplanması və bölüşdürülməsi pristavların, deputatların və polismeysterin iştirakı ilə həyata keçirilir və qubernator tərəfindən təsdiq edilirdi.

Əhalinin, eyni zamanda sənətkarlığın və ticarətin artması ilə əlaqədar olaraq 1824-cü ildə Yelizavetpol şəhər polisinin ştatı genişləndirilir və onun saxlanılmasına çəkilən xərclər il ərzində 4040 rubl gümüş pula bərabər olur. Nəticədə əhalidən əlavə olaraq hər nəfər üçün 60 qəpik pul toplanılır.

Şamaxı şəhər polisi, polismeysterdən (qalabəyi) və iki nəfər yerli əhalidən olmaqla pristavlardan (yüzbaşılardan) təşkil olunmuşdur. Onlar da ödənclərin bölüşdürülməsinə və toplanmasına məsul idilər. General Krabbe 1832-ci ildə yuxarı orqanlara göndərdiyi məruzədə şəhər polisinin üzvlərinin öz funksiyaları barədə heç bir təlimatları olmadığını bildirirdi. Digər Azərbaycan şəhərlərində, demək olar ki, eyni polis sistemi mövcud idi.

Əyalətlər, qəzalar və distansiyalarda ən kiçik inzibati-ərazi vahidləri kəndlər sayılırdı. Onlar əhalisinin sayına görə və idarəetmə quruluşuna görə bir-birindən fərqlənirdi. Kəndlilərin çox hissəsi bəylər

tərəfindən idarə edilirdi. Həmin kəndlərin bir hissəsi çar hakimiyyəti orqanları tərəfindən, digərləri isə hələ xanlıqlar dövründən bəylərin "idarəsinə" verilmişdi. Belə ki, 1838-ci ildə Bakı əyalətində 32 kənd bəylərə məxsus idi. Onlardan 5 kənd xanların verdiyi sənədlərə görə, qalanlar isə çar inzibati orqanları tərəfindən verilmiş kəndlər olmuşdur. Bəylərə bağışlanmış və yaxud imtiyaz olaraq verilmiş kəndlərdə bəylər polis, məhkəmə hakimiyyəti ilə yanaşı vergi toplamaq, həm də məhsul və ya pul vergisinin bir hissəsini mənimsəmək hüququna malik idilər.

Kəndlilərin istismar edilməsi həddən artıq çoxaldığı üçün, çar hakimiyyət orqanları vergi və mükəlləfiyyətlərin tənzim olunması barədə xüsusi sərəncam vermişdi. Belə ki, Quba əyalətinin komendantı general Tixanovski bəylərdən edilən şikayətləri nəzərə alaraq 1817-ci ilin iyul ayının 18-də sərəncamla vergi və mükəlləfiyyətlərin miqdarını müəyyən etmişdi: istənilən buğda, arpa, çəltik və digər əkinlərin onda bir hissəsi; hər bir kişidən bir ruba arpa; hər bir xırmandan bir ruba buğda, yalnız kişilərdən; hər bir həyət 2 araba odun; hər bir iki həyət il ərzində bir araba saman və ya ot verməli; iş mövsümündə 10 ev bir nəfər işçi verməli; bəylərə bağışlanılan kəndlərin əhalisi ona çar hakimiyyət orqanlarının icazəsi ilə bir nəfər rəncbər, mehtər və nökər verməli; bəy özünə kənddə və yaxud şəhərdə ev tikdirməli olsa, ona hərtərəfli kömək edilməli, lakin hər bir nəfər 6 gündən çox olmayaraq kömək etməli; bəy hərbi yürüşə çağırıldıqda, kənddə ona bir yük atı verməli, döyüş başa çatdıqdan sonra isə at kəndə qaytarılmalı idi; sünbül döyülməsi üçün də at verməli, taxıl döyülməsi başa çatdıqdan sonra qaytarılmalı idi; bəylər bayram günlərində kəndliləri işə cəlb edə bilməzdi; və nəhayət əgər bəyin əvəzinə kimsə həvalə edilmiş şəxs kimi vergi və töycüləri toplayırdısa, həmin şəxsin özü və atı kənd camaatı tərəfindən yedizdirilməli idi. Beləliklə, bəylərə mülayim münasibət göstərən çar hökuməti öz tərəfinə çəkməkdən ötrü onlara böyük imtiyazlar verdi.

Məhkəmə sistemi. Şimali Azərbaycanın Rusiya tərəfindən ilhaq edilməsindən sonra xüsusi məhkəmə orqanları, ilk növbədə ağır cinayət işləri üzrə məhkəmələr yaradılmasına başlanıldı. Mülki işlər

və xırda cinayətlər üzrə işləri xeyli müddət dini məhkəmələr aparırdı. 1805-ci ilin mayından Yelizavetpol qəzasının müsəlman ruhani məhkəməsinin funksiyaları məhdudlaşdırılır. Şəriət məhkəmələrinə yalnız boşanma və vərəsəlik işlərinə baxılması həvalə edilir. Digər qalan işlər, əgər onlar soyğunçuluq, oğurluq, xəsarət yetirmə və ölüm işləri deyildirsə, qazılar həmin işləri münsiflər məhkəməsi kimi araşdırmaq hüququna malik idilər. Şəriət məhkəmələri hökmləri yerli adətlər və şəriət normaları əsasında çıxarırdı.

1806-cı ildə Yelizavetpol qəza məhkəməsi təşkil edilir. Əhalinin çox az müraciət etməsinə görə qəza məhkəmə orqanı tezliklə ləğv edilir. Lakin 1814-cü ildə Yelizavetpol qəzasının dairəyə çevrilməsi ilə əlaqədar olaraq, tərkibinə qala komendantı, xəzinədar və iki nəfər iclasının daxil olduğu müvəqqəti dairə məhkəməsi yaradılır. Dairə məhkəməsinə təkcə məhkəmə funksiyası deyil, həm də zemstvo polisi səlahiyyətlərini yerinə yetirmək həvalə edilmişdi.

1812-ci ilin mart ayında Bakı və Quba şəhər məhkəmələri yaradılır. Qafqaz inzibati idarəsinin xüsusi aktı ilə məhkəmənin tərkibi və fəaliyyət dairəsi müəyyən edilmişdi. Məhkəmənin sədri əyalət komendantı idi və onun tərkibinə yerli imtiyazlı təbəqələrdən olan iki nəfər bəy və iki nəfər şəhərli daxil edilirdi. Məhkəmələrin tərkibi hər il Qafqaz baş idarəsi tərəfindən təsdiq edilirdi. Şəhər məhkəmələri eyni zamanda inzibati orqanlar kimi də fəaliyyət göstərirdi. Belə ki, kiçik əhəmiyyətli cinayət və mülki işlərlə yanaşı, şəhər məhkəmələrinə şəhər smetasının tutulması, şəhər və zemstvo mükəlləfiyyətlərinin müəyyən edilməsi, qəyyumlar və himayəçilərin təyin edilməsi, qoşunlar üçün mənzillərin ayrılması və s. də həvalə edilmişdi.

Azərbaycanın bəzi əyalətlərində şəhər məhkəmələri deyil, əyalət məhkəmələri yaradılır. Şəki əyalətində 1819-cu ilin avqust ayının 25-də, Şirvanda 12 sentyabr 1820-ci və Qarabağda 1822-ci ilin dekabrında əyalət məhkəmələri yaradılır. Məhkəmələrin tərkibi şəhər məhkəmələrindəki kimi idi. Fərq yalnız ondan ibarət idi ki, mülki şəxslərdən (bəylərdən) seçilən məhkəmə heyəti şəhər məhkəmələrindəki kimi bir il müddətinə deyil, üç il müddətinə seçilirdi.

1827-ci ildən 1833-cü ilə qədər Naxçıvanda şəhər məhkəməsi fəaliyyət göstərmişdir. Məhkəmənin sədri Ehsan xan olmaqla, onun

rus məmurlarından olan üzvləri, xəzinədar və iki açıq səsə malik olan nümayəndələri var idi. Ölüm işlərinə xan özü baxırdı. Digər işlərə əsasən şəhər naibinin daxil olduğu heyətdə baxılırdı. Mülki işlər və xırda cinayət işlərinə baxılarkən müstəsna olaraq Rusiya qoşunlarında olan iclasçılardan istifadə edilirdi. 1833-cü ildə Naxçıvan əyalət məhkəməsi yaradıldı. Əvvəlki Naxçıvan şəhər məhkəməsindən fərqli olaraq onun tərkibi tamamilə rus məmurlarından ibarət idi. Yalnız mülki işləri araşdırmaq səlahiyyətində olan Naxçıvan əyalət məhkəməsinin funksiyaları məhdudlaşdırılmışdı. İrəvan vilayət rəisinin səlahiyyətləri genişləndirilərək mülkiyyətin özgəninkiləşdirilməsinə aid olan məhkəmə işləri ona həvalə edilmişdi.

1831-ci ildə Qafqaz inzibati idarəsinin təqdimatı ilə Rusiya Dövlət Şurası "Məhkəmə və cəzalar haqqında, keçmiş tatar distansiyası, Yelizavetpol dairəsi, müsəlman əyalətləri və dağlı xalqları sakinlərinin cinayətləri və xətaları barədə Qaydaları" təsdiq etmişdir. Qaydalar müxtəlif kateqoriyalı cinayətləri və xətaları müəyyən edirdi. Cinayət xətalarına fırıldaqçılıq, sərxoşluq, ictimai qaydaların pozulması, həmçinin 5 rubl gümüş pul məbləğinə qədər olan oğurluqlar aid edilirdi. Cinayət xətaları etmiş şəxsləri mühakimə etmək səlahiyyəti bəylərə, ağalara və məliklərə həvalə edilirdi. Xırda cinayətlərə oğurluq, 5 rubldan 100 rubla qədər gümüş pul məbləğində olan fırıldaqçılıq, qarət etmək daxil edilirdi. Belə cinayətlər sübut edildikdən sonra qubernatorun və ya dairə-hərbi rəisinin təsdiqi ilə 100 qamçı cəzası verilir və oğurlanmış əşya sahibinə qaytarılırdı. Əgər oğurlanmış əşyanı geri qaytarmaq mümkün olmazdısa, əvəzi pulla ödənilirdi.

Nəhayət, ağır cinayətlərə oğurluq və 5 rubldan 100 rubla qədər gümüş pul məbləğində olan üçüncü dəfə təkrar edilən, həmçinin 100 rubldan çox olan, habelə soyğunçuluq, ölüm və digər cinayətlər şamil edilirdi. Cinayət törətmiş şəxslər ümumi qanunlar əsasında mühakimə edilirdilər.

Yerli idarəçilik. Komendant idarəçilik sistemi çar imperiyasının yerlərdəki hakimlərinin mövqelərinin möhkəmləndirilməsində ümidlərini tam doğrultmadı. Komendantların yerlərdəki özbaşınalığı təkcə geniş xalq kütlələrinin deyil, bəylərin də narazılığına səbəb olmuşdu.

1840-cı ilin aprel ayının 10-da çar I Nikolay "Zaqafqaziya diyarının idarə edilməsinin təsis olunması" haqqında layihəni təsdiq edir. 1841-ci ilin yanvar ayının 1-dən islahatın həyata keçirilməsinə başlanılır.

Zaqafqaziyanın idarə olunmasına dair keçirilən inzibati islahata görə onun ərazisində **quberniya** (vilayət), **qəza** (dairə) və **nahiyələr** yaradılırdı. Abxaziya, Minqreliya və Svanetidə əvvəlki feodal mülkü saxlanıldığına görə islahat bu ərazilərə şamil edilirdi. Zaqafqaziyada bir quberniya - paytaxtı Tiflis olmaqla Gürcü-İmeretiya və paytaxtı Şamaxı olmaqla Kaspi vilayəti yaradılırdı. Azərbaycan ərazisinin əsas hissəsinin daxil olduğu Kaspi vilayətində 7 qəza: Şuşa (köhnə Qarabağ əyaləti), Nuxa (Şəki əyaləti), Lənkəran (Talış əyaləti), Bakı, Şamaxı (Şirvan əyaləti və Salyan) təşkil edilir. Öz müstəqilliklə-ri üçün çar hökuməti ilə mübarizə aparan Dərbənd qəzası (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri), Quba qəzası (Quba əyaləti və Samur dairəsi) və Dağıstanla sərhəd olan ərazilərdə xüsusi hərbi dairə yaradılır.

Qəzalar öz növbəsində köhnə mahalların sərhədlərinə uyğun olan nahiyələrə bölünürdü. Bütövlükdə Zaqafqaziyada 72, o cümlədən Azərbaycanda 32 nahiyə yaradılır. Yelizavetpol qəzasında 4 nahiyə: Qazax, Şəmşəddil, Yelizavetpol və Ayrım; Şamaxı qəzasında 6 nahiyə: Bərguşat, Salyan, Kəbristan, Lahıc, Xançəbanı və Qoşun; Şuşa qəzasında həmçinin, 6 nahiyə: Miqrin, Kəbirli, Zəngəzur, Cavanşir, Çiləbörd və Vərəndə; Nuxa qəzasında 4 nahiyə; Nuxa, Qəbələ, Xaçmaz və Ərəş; Lənkəran qəzasında 3 ərazi: Səbidac, Lənkəran və Ərkivan, həmçinin Muğan pristavlığı; Quba qəzasında 4 nahiyə: Quba, Şabran, Xəzri və Buduq; Naxçıvan qəzasında 3 nahiyə: Naxçıvan, Ordubad və Dərəlyəz və Balakən qəzasında 2 nahiyə: Balakən və Yenikənd inzibati nahiyə vahidləri təşkil edilirdi.

Quberniya idarə sisteminə mülki qubernator, qubernator idarəsi, xəzinə palatası, dövlət əmlak palatası, ictimai himayə prikazı (xeyriyyəçilik işləri ilə məşğul olan idarə) və zadəgan deputat yığıncağı, quruculuq komissiyası, zemstvo mükəlləfiyyət komitəsi, statistika və peyvənd komitəsi (çiçəkdən peyvənd edən komitə) daxil idi. Qubernator imperatorun fərmanı ilə təyin edilir və birbaşa Qafqazın baş

idarəsi rəhbərinə tabe edilirdi. O, quberniya ərazisinə daxil olan bütün dövlət orqanlarına, silki və ictimai təşkilatlara nəzarət edirdi.

Kaspi vilayətinin dövlət orqanlarına isə vilayət rəisi, vilayət idarəsi, xəzinə palatası və dövlət əmlakı palatası daxil idi. Zemstvo mükəlləfiyyət və peyvənd komitəsi də vilayət idarə orqanlarına aid edilirdi. Dövlət idarələri ümumrusiya imperiya qanunları əsasında idarə edilirdi.

Kaspi vilayətində qəza idarə orqanları yaradılırdı ki, onun tərkibinə qəza rəisi və köməkçisi, qəza xəzinəsi, sahə iclasçıları və şəhər polisi daxil edilmişdi. Qəza rəisi qəzada ali nəzarət funksiyasını yerinə yetirirdi. Onun vəzifəsinə aşağıdakılar daxil idi: şəhər polisinə nəzarət, xəzinə əmlakının qeydiyyata alınması, vergi qalıqlarının yığılması, polis və sahə rəislərinin işlərini təftiş etmək, ticarət və tədarük işlərinə nəzarət etmək. Qəza rəisi şəhər və zemstvo mükəlləfiyyətlərini bölüşdürür, yuxarı hakimiyyət orqanları üçün müxtəlif sənədlər hazırlayır və onları təsdiqə göndərirdi. Qəza rəisi olmadıqda onun vəzifəsini köməkçisi həyata keçirirdi.

Zaqafqaziya diyarının şəhərləri əhalisinin sayından asılı olaraq 4 dərəcəyə ayrılırdı: çoxsaylı, ortasaylı, azsaylı və qəza mərkəzindən çıxmış şəhərlər. Azərbaycan şəhərlərində hər hansı bir özünüidarə orqanı yaradılmamışdır. Şəhər təsərrüfatı əvvəlki kimi polis orqanlarının nəzarəti altında idi. Yalnız Yelizavetpol və Şamaxı şəhərlərində "çox əhalisi olan şəhər" kimi xüsusi polis idarə orqanı mövcud olmuşdur. Belə ki, Yelizavetpol şəhər polisi polis rəisindən, iki nəfər pristavdan, 4 nəfər məhəllə nəzarətçilərindən, iki nəfər deputatdan və 16 nəfər sıravi polis işçilərindən təşkil edilmişdi. Orta saylı şəhərlərdə polis funksiyasını qalabəyi (şəhər polis rəisi), xüsusi pristav və deputatlar, azsaylı şəhərlərdə isə qalabəyi, məhəllə nəzarətçiləri və deputatlar, Salyanda sahə iclasçıları və məhəllə nəzarətçiləri, Zaqatalada isə qəza rəisi və polis komissarları yerinə yetirirdilər.

1840-cı il inzibati-məhkəmə islahatı. İslahata görə qəza məhkəmələri, həmçinin quberniya və vilayət cinayət və mülki məhkəmə palataları yaradılırdı. Qəza məhkəmələri bütün qəzalarda yaradılırdı. Onların tərkibinə hakimlər, hakimiyyət orqanlarını təmsil edən iclas-

çılar və vergi ödəyən silkin nümayəndəsi daxil edilirdi. Belə ki, Yelezavetpol qəza məhkəməsinin tərkibinə hakim, hakimiyyəti təmsil edən iki iclasçı, kənd və şəhərlərdən seçilən iki nəfər imtiyazlı silkin nümayəndəsi daxil idi.

Gürcü-İmeretiya quberniyasında və Kaspi vilayətində mülki və cinayət işləri üzrə məhkəmə palatası, həmçinin uyğun olaraq prokurorluq hissəsi yaradılırdı. Qəza polis idarələrində və məhkəmə orqanlarının icraatında olan işlərə nəzarət etməkdən ötrü qəza prokuroru vəzifəsi təsis edilir. Qəza prokurorları quberniya və vilayət prokurorlarının təqdimatı ilə Qafqazın baş hakimi tərəfindən vəzifəyə təyin edilir və yaxud azad edilirdilər.

1840-cı il islahatından sonra cinayət işlərinə hərbi məhkəmələrdə deyil, ümummülki məhkəmələrdə baxılırdı. Bununla belə, islahatın əsas ideyasını təşkil edən məhkəmə orqanlarının inzibati hakimiyyətdən ayrılması prinsipi həyata keçirilmirdi. Məhkəmə səlahiyyətlərinin bəzi hissəsini inzibati orqanlar mənimsəyirdilər. Belə ki, sahə rəisi və ya qalabəyi birinci və ikinci dəfə edilmiş 10 rubla qədərki oğurluq və fırıldaqçılıq işlərini araşdırmaq, 5 rubl gümüş pul məbləğindəki iddiaya baxıb hökm çıxarmaq hüququna malik idilər. Qəza rəisi isə 100 rubla qədər olan mübahisələri və xırda cinayət işlərini, o cümlədən birinci və ikinci dəfə edilmiş 10 rubldan 25 rubla qədər gümüş pul məbləğindəki oğurluq və fırıldaqçılıq işlərini araşdırıb bədən cəzası tətbiq edə bilərdi.

1840-cı il 10 aprel qanunu məhkəmə iddialarının reqlamentləşdirilməsi qaydalarını müəyyən edirdi. Məhkəmə hökmlərindən şikayət edilən birinci instansiya qəza məhkəməsi, ikincisi quberniya və ya vilayət cinayət və mülki işləri palatası və ən ali məhkəmə instansiyası Senat departamenti idi. Qanun şəriət məhkəmələrinə də mühüm yer ayırırdı. Belə ki, ailə və nikah, vərəsəlik üzrə əmlakın bölünməsi haqqında, o cümlədən valideynlərlə övladlar arasındakı mübahisələrə dini məhkəmələrdə baxılırdı.

XIX əsrin 40-cı illərində idarəetmə sistemində keçirilən islahat. 1842-ci ildə Zaqafqaziyanın idarə sistemində dəyişiklik edilir, Qafqaz işləri üzrə ümumimperiya orqanı – imperator dəftərxanasının

6-cı şöbəsi və Xüsusi Komitə yaradılır. Komitəyə hərbi nazir başçılıq edirdi. Onun tərkibinə Dövlət Şurasının Qanunvericilik Departamentinin sədri, maliyyə, dövlət əmlak, daxili işlər, ədliyyə nazirləri və imperator dəftərxanasının 6-cı şöbəsinin baş rəisi daxil idi. Nazirlər və idarələr Xüsusi Komitə vasitəsilə bütün məsələlər üzrə "Əlahəzrət icazəsi" almaqdan ötrü öz təkliflərini verə bilərdilər. İmperator dəftərxanasında toplanmış və həmin məsələlər üçün qanunvericilik aktlarının verilməsini nəzərdə tutan işlər çarın göstərişi ilə Dövlət Şurasının müzakirəsinə çıxarılırdı.

Qafqazın dağlı xalqları ilə müharibəni tezliklə başa çatdırmaq, inzibati idarəçiliyi gücləndirmək məqsədilə çar hökuməti Qafqazda Rusiyanın inzibati idarəsini gücləndirmək qərarına gəlir və 1844-cü ildə Qafqaz canişini vəzifəsini təsis edir. Əvvəllər mövcud olmuş Qafqazın Baş hakimi vəzifəsi isə ləğv edilir. Qafqazın ilk canişini 63 yaşlı general - qubernator qraf M.S. Voronsov təyin edilir. Çar I Nikolayın etimadını qazanmış Voronsovun böyük hərbi, inzibati və diplomatik təcrübəsi nəzərə alınmışdır. Məhz bu baxımdan imperiya tərəfdarı olan yeni canişin çarizmin Qafqazdakı işğalçılıq siyasətini həyata keçirən ən yaxşı mütəxəssis sayılırdı.

Canişin mülki və hərbi hakimiyyəti öz əlində cəmləşdirmişdi. O, birbaşa çara tabe idi. Qafqazın əvvəlki Baş hakimdən fərqli olaraq, ayrı-ayrı nazirliklərin səlahiyyətlərində olan işləri indi tamamilə yeni canişinin ixtiyarına verilirdi. Mərkəzi hakimiyyət orqanlarına canişinin səlahiyyətlərinə qarışmaq qadağan edilirdi və ona birbaşa çarın özünə müraciət etmək hüququ verilirdi.

Qafqaz canişininə məmurların vəzifəyə təyin edilməsi və ya kənarlaşdırılmasında tam səlahiyyət verilmişdi. Quberniya və vilayət prokurorları da ona tabe edilmişdi. Onlar Ədliyyə Nazirliyinə deyil, birbaşa canişinə hesabat verirdilər.

M.S. Voronsovun təqdimatı ilə 1846-cı il 14 dekabr fərmanı ilə Zaqafqaziyanın inzibati-ərazi bölgüsündə dəyişiklik edilir. Bütün ölkədə 4 quberniya təşkil edilir: Tiflis, Kutaisi, Şamaxı və Dərbənd. 1849-cu ilin iyulundan isə İrəvan quberniyası yaradılır. Lakin yeni inzibati-ərazi bölgüsü əhalinin etnik-milli tərkibini nəzərə almırdı.

Belə ki, azərbaycanlıların yaşadığı ərazilər Kuatisi quberniyası istisna olmaqla, digər quberniyalara qatılırdı. Belə ki, Yelizavetpol qəzası Qazax və Şəmşəddil də daxil olmaqla Tiflis quberniyasına, Naxçıvan və Ordubad qəzaları isə İrəvan quberniyasına daxil edilmişdi. Quba qəzası Dərbənd quberniyasına tabe edilmişdi. Car-Balakən torpaqları, keçmiş İlisu sultanlığı ilə birlikdə ayrıca yaradılmış Car-Balakən hərbi dairəsinə daxil edilir. 1849-cu ilin 21 dekabrında Zaqafqaziya diyarında dövlət əmlakının idarə olunması üzrə ali idarə orqanı yaradılır. Tiflis və Şamaxı quberniyalarındakı dövlət əmlakı palataları ləğv edilərək, əvəzinə quberniyalar yanında təsərrüfat şöbələri təşkil olunur. Təsərrüfat palatalarına rəhbərlik qubernatorlara, qəzalarda isə qəza rəislərinə həvalə edilir. Dövlət əmlakına ümumi nəzarət orqanı Tiflis şəhərində yaradılan və canişinə tabe edilən dövlət əmlak ekspedisiyası idi. Ekspedisiyaya Rusiya məskənlərinin və alman koloniyalarının yerləşdirilməsi, həmçinin Zaqafqaziyada xəzinə meşələrinə nəzarət etmək həvalə edilirdi.

1846-cı ilin yanvar ayının 6-da Qafqaz canişininin hüquqları barədə xüsusi qaydalar təsdiq edildi. Xüsusi qaydalara uyğun olaraq mühüm əhəmiyyətli işlər üçün canişin birbaşa çara müraciət edirdi. Digər hallarda isə o, 1845-ci ilin fevralında yaradılmış Zaqafqaziya diyarı və Qafqaz vilayəti üzrə qanun layihələrini hazırlayan Qafqaz Komitəsinin sədrinə müraciət etmək hüququna malik idi. Bununla əlaqədar olaraq ümumimperiya orqanının Qafqaz işləri üzrə 6-cı dəftərxanası ləğv olunur.

Azərbaycanda 1870-ci və 1892-ci illər şəhər islahatları. Təhkimçilik hüququnun ləğv edilməsindən sonra sənaye, nəqliyyat və ticarətin inkişafı ilə əlaqədar olaraq şəhərlər sürətlə inkişaf etmiş, əhalinin sayı çoxalmışdı. Əhalinin artması ilə şəhər büdcəsi də artmışdı.

Şəhər əsasnaməsi 1870-ci ilin iyun ayının 16-da təsdiq edilir. Əvvəlcə islahat Rusiyanın daxili quberniya şəhərlərinə şamil olunmuşdur. Çar hökuməti onun Zaqafqaziyada həyata keçirilməsinə maneçilik törədirdi. Qafqaz canişininin sorğusuna cavab olaraq Bakı şəhər qubernatoru Kolyubyakin sübut etməyə çalışırdı ki, islahatın tətbiq edilməsi vaxtı mümkün qədər uzadılmalıdır, çünki "yerli əhali kifa-

yət qədər inkişaf etməmişdir". Yelizavetpol qubernatoru da "əhalinin geridə qaldığını və inkişaf etmədiyini" bildirərək Yelizavetpol, Nuxa və Şuşa şəhərlərində 1870-ci il şəhər əsasnaməsinin tətbiq edilməsinin qəti əleyhinə çıxırdı. Qafqazın dağlıq hissəsinin idarəsinin rəisi general-leytenant Geyman Zaqatala şəhərində şəhər islahatının keçirilməsi əleyhinə çıxaraq onu "əhalinin azsaylı olması" və "vergi toplanmasında şəhərin kasıb olması" ilə əlaqələndirirdi.

Bakı və Yelizavetpol qubernatorlarının və Qafqazın dağlıq idarəsinin rəisinin mövqelərini Qafqaz canişini də təsdiq edərək 1873-cü il mart ayının 9-da Qafqaz Komitəsinin sədrinə göndərdiyi məktubda bildirirdi ki, şəhər əsasnaməsinin göstərilən şəhərlərə şamil edilməsi islahatı özünün mövqeyinin zəifləməsinə gətirib çıxara bilərdi.

Canişin şəhər əsasnaməsinin tətbiq edilməsinin vaxtını daha əlverişli bir şəraitdə aparılmasını təklif edirdi. Qafqaz inzibati idarəsinin canişinin təklifi nəzərə alınır və 1874-cü il 28 oktyabr fərmanı ilə şəhər islahatının keçirilməsi vaxtı və ardıcıllığı ona həvalə edilir.

1870-ci il şəhər islahatı yalnız 8 il keçdikdən sonra Bakıda tətbiq edilir. Şəhər özünüidarəetmə orqanlarının səlahiyyətləri yerli təsərrüfat məsələləri ilə məhdudlaşırdı. Belə ki, vergi və rüsumların toplanması, küçələrdə qayda-qanunun yaradılması, meydan və körpülərin salınması, bazarların təşkil edilməsi, yanğından təhlükəsizliyin qorunması və s. digər işlər ona həvalə edilirdi. Əslində isə təsərrüfat işlərindəki müstəqillikdən özünüidarə orqanları istifadə edə bilmirdilər. Belə ki, onlar istədikləri kimi vergiləri müəyyən edə və toplanan vəsaitdən istifadə etmək hüququndan məhrum edilirdilər.

Şəhər duması tamamilə yerli polisdən asılı idi. Şəhər təsərrüfatı ilə bağlı bütün məsələlər polis idarələri ilə razılaşdırıldıqdan sonra icra edilirdi.

1870-ci il şəhər əsasnaməsinə uyğun olaraq müəyyən edilmiş əmlak senzi və vergi rüsumu ödəyən şəxslərin seçki hüququ tanınırdı. Bu hüquqa əsasən seçki siyahısı hazırlanırdı. Birinci dərəcəyə ən yüksək vergi ödəyən sahibkarlar, ikinci dərəcəyə iri vergi ödəyənlər və nəhayət, sonuncu yerə xırda tacirlər və məmurlar daxil edilmişdi. Bütün seçicilər də üç dərəcəyə ayrılaraq, hər biri vergi rüsumlarını ödəyən-

lərin üçdə bir hissəsinə uyğunlaşdırılırdı. Birinci dərəcə bir neçə və ya on nəfər, ikinci dərəcə 100 nəfər orta, üçüncü dərəcə isə 1000 nəfər xırda vergi ödəyənləri birləşdirirdi. Hər bir dərəcə xüsusi seçici yığıncağı təşkil etməklə üçdə bir qlasnı seçirdi. Bu sistem bir qrup varlı şəxslərə, 100 və 1000 nəfər xırda tacir, sənətkar və ev sahibləri kimi eyni sayda qlasnı seçmək imkanı verirdi. Belə ki, 1877-ci il 6-7 dekabrında ilk Bakı şəhər dumasına birinci dərəcədən olan 10 nəfər, ikinci dərəcədən olan 155 nəfər və üçüncü dərəcədən olan 3234 nəfər seçicilərin hər biri 24 nəfər qlasnı seçmişdi. Beləliklə, birinci dərəcə seçiciləri öz sıralarından da çox (24 nəfər) qlasnı seçmişdilər.

Şəhər əsasnaməsi oturaqlıq senzi müəyyən edirdi. Belə ki, zavod və fabrik fəhlələri, müəllimlər və həkimlər, xırda qulluqçular və sənətkarlar evlərinin olmamasına görə və deməli vergi ödəmədikləri üçün seçkilərə buraxılmırdılar. Qadınlar, həmçinin 25 yaşa çatmamış kişilər seçki hüququndan məhrum edilirdi. Seçki hüququnun müxtəlif formalarda məhdudlaşdırılması şəhər əhalisinin yalnız 2-3 faizinin qlasnı seçkilərində iştirakına imkan verirdi.

Çar hökuməti seçkilərdə iri vergi ödəyən sənayeçilərin və tacirlərin iştirakını təmin etməklə yanaşı, milli bərabərsizliyi də möhkəmləndirirdi. Duma xristianların nümayəndəsinin qlasnıların yarısından çox ola bilməməsini nəzərdə tutsa da, 1877-ci il Bakı dumasına seçkilərdə 2900 nəfər yerli əhali "başqa dindən" olduqları üçün 499 xristianın seçdiyi sayda dumaya qlasnı seçmişdi. 1886-1889-cu illərin duma seçkilərində 3541 azərbaycanlı və cəmi 732 rus və erməni bərabər sayda qlasnı seçməli idilər. Beləliklə, çar mütləqiyyətinin yerli əhaliyə etdiyi "güzəşt" 1870-ci il Şəhər əsasnaməsi ilə belə "mühakimə edilirdi".

Şəhər əsasnaməsinə uyğun olaraq səslərin əksəriyyətini toplayan şəxs deputat seçilirdi. Əgər qanunda nəzərdə tutulmuş saydan az deputat seçildikdə, yerdə qalan boş yerlərə nisbi səs çoxluğu ilə seçkilər keçirilirdi. Qlasnıların ümumi sayı 30 nəfərdən 72 nəfərə qədər müəyyən edilirdi. 300 nəfər seçicisi olan şəhərlərdə 30 nəfər qlasnı seçilirdi. Göstərilən saydan çox olan şəhərlərdə hər bir 150 nəfərə daha 6 qlasnı əlavə edilirdi, bir şərtlə ki, qlasnıların ümumi sayı 72 nə-

fərdən çox olmamalı idi. Müstəsna hal kimi Moskva və Peterburq şəhərləri üçün müvafiq olaraq 180 və 240 qlasnı üçün yer ayrılmışdır.

Şəhər Dumasının qlasnıları seçiciləri qarşısında heç bir məsuliyyət daşımırdılar. Əsasnamənin 40-cı maddəsində deyilirdi ki, seçicilər qlasnılara heç bir "təlimat" vermək hüququna malik deyillər. Qlasnıların əksəriyyəti yerli özünüidarə orqanlarının fəaliyyətinə etinasız münasibət bəsləyirdilər.

Şəhər Dumasının icraedici orqanına şəhər başçısı və onun rəhbərlik etdiyi idarə daxil idi. Şəhər başçısının, idarə üzvlərinin və katibliyin seçilməsi iki mərhələdə aparılırdı. **Birinci mərhələdə** namizədlərin irəli sürülməsi, **ikincidə** isə konkret şəxslərin seçilməsi. Dumanın tərkibi qubernator tərəfindən təsdiq edilməli idi. Boş qalmış vəzifələrə qubernator və ya daxili işlər naziri tərəfindən təyinatlar aparılırdı.

Şəhər başçısının təyin edilməsi çox vaxt dumadan kənarda, nüfuzlu yerli burjuaziya və inzibati orqanların rəhbərlərinin gizli danışığı nəticəsində həll edilirdi. Bakı qubernatoru 1886-cı il aprel ayında Qafqazın mülki hissəsi rəisinə göndərdiyi məktubda Despot-Zinoviçin təkrar şəhər başçısı seçilməsinin məxfi sövdələşmənin nəticəsi olduğunu təsdiq edirdi. Maraqlıdır ki, Despot-Zinoviç 1891-ci ildə Paris bankiri Rotşildə məxsus olan Kaspi-Çernomorski neft sənayesi və ticarət cəmiyyətinin direktorlarından biri idi.

Şəhər başçısı Dumanın iclaslarında özünü hakimi-mütləq kimi aparırdı. Belə ki, onun təklifi ilə gündəlikdən istənilən məsələ çıxarıla və ya gündəliyə daxil edilə bilinərdi. Gündəliyə daxil edilmiş məsələlərin səsverməsi və onun təklifi müəyyən iradlarla ya qəbul edilə və ya səsvermə tamamilə dayandırıla bilərdi.

Göstərilən çatışmazlıqlarla yanaşı 1870-ci il Şəhər əsasnaməsi müəyyən mənada mütərəqqi akt olmaqla şəhərlərdə kapitalist münasibətlərinin inkişafına kömək edirdi. Şəhər təsərrüfatının inkişafında şəhər islahatı mütərəqqi əhəmiyyət kəsb edirdi.

1892-ci ildə çar III Aleksandr yeni Şəhər əsasnaməsini təsdiq etdi. Yeni islahat onsuz da məhdud hüquqları olan özünüidarə orqanlarının şəhər işlərində fəal iştirakının qarşısını alırdı. Bu mənada yeni islahat "şəhər əksislahatı" adını almışdır.

1892-ci il Şəhər əsasnaməsi qubernatorun şəhərin ictimai özünüidarə orqanlarının işlərinə müdaxiləsini, o cümlədən inzibati cəza tətbiq etmək, vəzifədən kənarlaşmaq da daxil olmaqla, hüquqlarını qanuniləşdirirdi. Şəhər dumasına nəzarət indi yalnız qanunçuluq nöqteyi-nəzərindən deyil, şəhər dumasının və başçısının hərəkətlərinin məqsədəuyğun olub-olmaması baxımından həyata keçirilirdi. Quberniya idarəsi şəhər dumasının istənilən qərarının və özünüidarə orqanlarının sərəncamlarını qanunçuluq baxımından müzakirə etmək hüququ əldə edirdi. Hətta şəhər əmlakı və kapitalının istifadə olunması, daşınar əmlakın özgəninkiləşdirilməsi və s. bu kimi aktlar qubernatorun təsdiqindən sonra qanuni qüvvəyə minirdi.

Yeni 1892-ci il Şəhər əsasnaməsi digər qəzalardakı böyük şəhərlərə də şamil edilirdi. Əvvəlki, 1870-ci il şəhər islahatı müxtəlif bəhanələrlə həmin şəhərlərə tətbiq olunmamışdır. Hətta şəhər özünüidarə orqanlarının yeni islahata uyğun olaraq məhdudlaşdırılmış hüquqlarının tətbiq edilməsi belə yaradılırdı. Yelizavetpolda Şəhər əsasnaməsi 1897-ci ildə qüvvəyə mindi və həmin vaxtda məhdud ictimai özünüidarə orqanları Lənkəranda, Nuxada, Qubada, Şamaxıda və Azərbaycanın digər qəza şəhərlərində yaradılırdı.

Sadələşdirilmiş şəhər özünüidarə orqanları şəhər dumalarından onunla fərqlənirdi ki, 10-20 qlasnı şəhərin səlahiyyətli nümayəndələrinin 12-15 nəfərinin iştirakı ilə təşkilat məclisi yaradırdı. Şəhərin icraedici orqanı isə şəhər idarəsi və şəhər başçısı ilə birlikdə şəhər ağsaqqalı və onun iki köməkçisindən ibarət idi. Ağsaqqal və onun köməkçiləri müəyyən miqdar əmlak senzi ödəməli idilər. Şəhər dumalarına nisbətən şəhər ictimai orqanları çox məhdud idi. Belə ki, bu orqanların şəhər planının dəyişdirilməsi və yerinə yetirilməsi kimi vacib olan qərarlar vermək səlahiyyətləri belə mövcud olmamışdır. Hətta belə bir şəraitdə məhdud özünüidarə orqanları Azərbaycanın Cavad və Göyçay qəzalarında tətbiq edilmirdi. Salyan və Göyçayda şəhər təsərrüfatı polis orqanlarının nəzarətində idi.

1892-ci il Şəhər əsasnaməsi seçicilərin sayını demək olar ki, tamamilə məhdudlaşdırırdı. Seçki hüququ yalnız hakimiyyət strukturunda təmsil olunanlara, xeyriyyəçi, tədris və elm sahəsi ilə məşğul

olan şəxslərə verilirdi. Öz növbəsində həmin seçicilərin daşınmaz əmlakı 300-dən 3000 rubla qədər qiymətləndirilməli idi. 1897-ci ildə Quba şəhərinin 15363 nəfər sakinindən yalnız 217 nəfəri (1,4%), Şamaxının 20 min nəfər sakininin 630 nəfəri (3,1%) seçkidə iştirak etmək hüququna malik idi.

1892-ci il Şəhər əsasnaməsi 1870-ci il Şəhər əsasnaməsinə nisbətən milli qeyri-bərabərliyi daha da qanuniləşdirdi və yerli xalqların hüquqlarının pozulmasını daha da artırdı. Belə ki, Bakı dumasında xristian olmayan qlasnıların (əsasən, azərbaycanlıların) sayı bütün deputatların üçdə bir hissəsini təşkil edirdi. 1893 və 1897-ci illər Duma seçkilərində də bu qaydadan istifadə edilmişdir. Yalnız 1900-cü il dekabrın 14-də Şəhər əsasnaməsinin 44-cü maddəsində dəyişiklik edilərək müsəlman deputatlarının say nisbəti dumada yenə də 50%-ə qədər artırılmışdır.

1892-ci il Şəhər əsasnaməsi seçicilərin əmlak dərəcələrinə bölünməsi qaydasını ləğv edirdi. Seçki günü seçicilərin yığıncağı çağrılırdı. Yığıncaq səlahiyyətli olmaqla orada istənilən sayda seçici iştirak edə bilərdi və onların sayı seçiləcək qlasnıların səsindən mütləq çox olmalı idi. Namizədlər ən azı beş nəfər tərəfindən irəli sürülməli və namizəd özü şəxsən razılığını bildirməli, həmçinin istənilən şəxsin seçkidə öz namizədliyini irəli sürmək səlahiyyətinə malik olmaqla iştirak etməsini bildirmək hüququna malik idi. Səsvermə hər bir namizəd üçün ayrılmış qutuya şarların atılması ilə başlayırdı. Seçki qutusu iki hissəyə bölünürdü. Şar (bülleten) qutunun sağ tərəfinə (ağ qutu) salınırdısa, namizədin lehinə, sol qutuya (qara qutu) salınırdısa, əleyhinə səs verilmiş sayılırdı. Nisbi səs çoxluğu əldə etmiş namizəd deputat seçilirdi. Səslər bərabər olduqda isə püşkatma ilə məsələni həll edirdilər. Qlasnı üçün nəzərdə tutulmuş yerlərdən daha çox deputat seçildikdə, onlar qlasnılığa namizədlər sırasına daxil edilirdilər.

1892-ci ilin Şəhər əsasnaməsində nəzərdə tutulurdu ki, qlasnıların sayı qanunda göstərildikdən az olduqda, əlavə seçkilər keçirilməli idi. Əgər əlavə seçkilər də lazımi nəticələr vermirdisə, boş yerlərə əvvəlki dumanın qlasnıları daxil edilirdilər.

Əks islahatlar. "Dövlət qaydalarını və ictimai sabitliyi saxlamaq tədbirləri haqqında" 1881-ci il Əsasnaməsi 1881-ci ildə çar II Aleksandrın öldürülməsi ilə dövləti əlavə mühafizə tədbirlərinin görülməsinə vadar edirdi. 1881-ci il "Dövlət qaydalarını və ictimai sabitliyi saxlamaq tədbirləri haqqında" Əsasnamə jandarmlar korpusunun özbaşınalığının artmasına səbəb oldu. Əsasnaməyə uyğun olaraq imperiyanın istənilən ərazisində gücləndirilmiş və ya fövqəladə mühafizə vəziyyəti elan edilə bilərdi. Əsasnamə daxili işlər nazirinə və general-qubernatora geniş səlahiyyət verirdi. Fövqəladə mühafizə vəziyyətinə görə yerli inzibati orqanların və fərdi şəxslərin, o cümlədən digər hakimiyyət orqanlarının ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsində məsuliyyətləri daha da artırdı. Xüsusi gücləndirilmiş mühafizə elan edilmiş yerlərdə general-qubernator, qubernator və şəhər rəislərinə yerinə yetirilməsi məcburi olan qərar vermək səlahiyyəti, məhkəməsiz cərimə etmək, bütün növ yığıncaqları qadağan etmək, ticarət və sənaye müəssisələrini bağlamaq, ayrı-ayrı şəxsləri sürgün etmək, hərbi məhkəmələrə (tribunallara) baxılmaq üçün müxtəlif işlər təklif etmək və s. hüquqlar verilirdi. Aşağı inzibati orqanların da məsuliyyəti artırılırdı.

Fövqəladə mühafizə vəziyyəti elan edildikdə inzibati orqanların səlahiyyəti daha da genişləndirilirdi. İnzibati orqanlara istədikləri məmurları xidmətdən kənarlaşdırmaq və tədris müəssisələrini bağlamaq hüququ verilirdi. Fövqəladə mühafizə repressiya orqanlarını daha da gücləndirmək hüququ verir və işlər inzibati orqanlara və ya hərbi tribunallara təqdim edilirdi. 1892-ci il qanunu ilə Rusiya imperiyasının istənilən ərazisində fövqəladə vəziyyət elan etmək olardı.

Hüqüqun inkişafı. XIX əsrin II yarısında mülki hüquq sahəsində burjua münasibətləri özünü təsdiq edirdi. Anadan olmuş hər bir şəxs mülki hüququn subyekti hesab olunurdu. 21 yaşından isə şəxs tam mülki hüquqlara malik olurdu. Mülkiyyətçiyə ona məxsus əmlakdan öz istədiyi kimi istifadə etmək, sərəncam vermək, mülkiyyətdən əbədi, vərəsəliklə istifadə hüququ verilirdi. Yerin təki də mülkiyyətçiyə məxsus idi. Əmlak daşınar və daşınmaz mülkiyyətə bölünürdü. Daşınmaz əmlaka evlər, fabrik, zavod, dəmir yolları və s. daxil edilirdi.

Daşınar əmlaka qiymətli kağız, kapital və s. aid olunurdu. Daşınmaz əmlak qanunla ciddi qorunurdu. Rusiya imperiyasının torpaqları "heç kəsə məxsus olmayan" dövlət mülkiyyəti elan edilirdi. Bu əmlaka xəzinə torpaqları, göllər, çaylar, meşələr, ictimai binalar və s. aid olunurdu. Həmçinin saray, xanədan və digər əmlaklar da mövcud idi.

1864-cü il məhkəmə islahatı və onun Azərbaycanda həyata keçirilməsi. İslahatın məhkəmə quruluşuna və məhkəmə prosesinə gətirdiyi dəyişikliklər, islahatdan qabaqkı məhkəmə ənənələrindən və təcrübəsindən kəskin surətdə fərqlənirdi. Yeni məhkəmə burjua hüququ prinsipləri: qanun qarşısında bütün silklərin formal bərabərliyi, məhkəmənin açıq keçirilməsi, hakimlərin müstəqilliyi, ittihamçının və müdafiəçinin çəkişməsi, məhkəmə orqanlarının sadələşdirilməsi prinsipləri əsasında qurulurdu. Məhkəmə nizamnamələri haqqında qanunda məhkəmə hakimiyyəti icra orqanlarından ayrılırdı. Bununla belə, məhkəmə nizamnamələri qubernatorlara seçiləcək ədalət məhkəmələrinin və andlı iclasçıların siyahısını tələb etmək hüququ verirdi. Hakimiyyət orqanları əvvəlki kimi yenə də xidməti cinayətlərin ibtidai istintaqını aparmaq və vəzifəli şəxsləri məhkəməyə vermək hüququnu özlərində saxlayırdılar.

Məhkəmə islahatının Zaqafqaziyada həyata keçirilməsi üçün canişin 1865-ci ildə xüsusi komissiya yaratmışdır. Çarizmin müstəmləkə siyasətinə uyğun olaraq, yerli xalqların guya "inkişaf etməməsini" söyləyən çar məmurları məhkəmə quruluşu və məhkəmə icraatına aid olan bəzi qaydalarda dəyişiklik edir. Belə ki, çar məmurları guya ki, oğurluq, quldurluq, yanğın, ölüm və digər ağır cinayətləri adi məişət ənənələrindən irəli gələn əməllər kimi qələmə verərək andlı məhkəmələrin yaradılmasını lüzumsuz hesab edirdilər. Lakin həqiqətdə statistika başqa fikir yürütməyə əsas verirdi. Məsələn, 1879-cu ildə Yelizavetpol quberniyasında 315 nəfərin, İrəvan quberniyasında 484 nəfərin, Tiflis quberniyasında 322 nəfərin Peterburq dairəsində 344 nəfərin, Odessa dairəsində isə 416 nəfərin ağır cinayət törətdiyi qeydə alınmışdır ki, bu da, demək olar ki, Qafqaz quberniyalarında olduğu kimi idi.

1866-cı ilin yanvar ayının 1-dən yeni məhkəmə nizamnamələri Tiflis, Bakı, Yelizavetpol və İrəvan quberniyalarında tətbiq edilir.

Daha sonra imperator Zaqatala dairəsində Dövlət Şurasının təklifini nəzərə alaraq Tiflis dairə məhkəməsinə tabe etdirilən xüsusi ədalət məhkəməsi şöbəsi yaradır. 1875-ci ilin 4 fevralından Bakı dairə məhkəməsinə daxil edilmiş Dağıstan vilayətində də məhkəmə nizamnamələri qüvvəyə minir.

Zaqafqaziyada üçpilləli məhkəmə sistemi yaradıldı. Ən aşağı instansiya olan ədalət məhkəmələri quberniya mərkəzlərində, vilayətlərdə, dairələrdə və qəzalarda yaradıldı. İkinci instansiya quberniyalar üzrə yaradılan dairə məhkəmələri idi. Nəhayət, yuxarı instansiya kimi Tiflisdə məhkəmə palatası yaradılmışdı. 1868-ci il fevral ayının 19-da Azərbaycan ərazisində yeni məhkəmə orqanlarının yaradılmasına başlanıldı. Bakı quberniyasında Bakı dairə məhkəməsi; Bakı, Şamaxı, Quba, Lənkəran, Cavad və Göyçayda ədalət məhkəmələri; Yelizavetpol quberniyasında Yelizavetpol dairə məhkəməsi; Yelizavetpol, Qazax, Nuxa, Şuşa və Zəngəzurda ədalət məhkəmələri şöbələri; Naxçıvanda İrəvan quberniyasının ədalət məhkəməsinin şöbəsi yaradıldı. 1869-cu ildə Zaqatala dairəsində ədalət məhkəməsi şöbəsi təşkil olundu.

Cənubi Azərbaycan XIX əsrin sonlarında

XIX əsrdə Cənubi Azərbaycanın ictimai quruluşu. Bu dövrdə feodal münasibətləri İranda, o cümlədən onun ən iri əyalətlərindən olan Cənubi Azərbaycanda qalmaqla davam edirdi. İqtisadiyyatın inkişafına natural təsərrüfatın qalması maneçilik törədirdi. Ticarət zəif, sənaye isə yalnız XIX əsrin sonlarında inkişaf etməyə başlamışdı. Cənubi Azərbaycan əhalisi fars hakimlərinin və yerli feodalların ağır istismarına məruz qalırdı. Ağır vergi və mükəlləfiyyətlər əhalinin yoxsullaşmasının əsas səbəblərindən biri idi.

Feodal sahibkarlar xarici bazarın tələbatına uyğun olaraq kəndliləri pambıq və tütün əkməyə məcbur edirdilər. XIX əsrdə də Cənubi Azərbaycanda ən iri ticarət mərkəzləri əvvəlki əsrlərdə olduğu kimi Təbriz, Ərdəbil, Zəncan, Urmiya və Marağa kimi iri şəhərlər idi. Tacir gildiyaları qalmaqda davam edirdi.

XIX əsrdə feodal torpaq sahibliyi əsasən şah, iri feodallar və ruhanilərin əlində cəmləşmişdi. Şah xəzinəsinə daxil olan torpaqlar "xalisə" adlanırdı. Şah özü ən iri torpaq sahibi idi. XIX əsrin birinci yarısında Cənubi Azərbaycan xanlarına məxsus torpaqların müsadirə edilməsi hesabına şah xəzinə torpaqları xeyli artmışdı. Müsadirə edilmiş torpaqlar bilavasitə şah məmurlarının idarəçiliyinə və ya iltizama (otkup) verilirdi. Belə torpaqlarda yaşayan kəndlilər tez bir vaxtda müflis olurdu.

Xalisə torpaqlarından başqa, xan və digər titullu iri feodallara məxsus latifundiyalar da mövcud olmaqda davam edirdi. Nisbətən kiçik feodallara məxsus olan torpaq mülkiyyəti formaları mülk və "ərbabi" ("ərbab" sözündən olub, mülkədar deməkdir) daha geniş yayılmışdı. Belə torpaq sahibləri olan feodallar, məmurlar və ruhanilər torpaqdan istifadəyə görə dövlət xəzinəsinə vergi ödəyirdilər.

Cənubi Azərbaycan ərazisində xidmət müqabilində verilən şərti torpaq mülkiyyəti – **tiyul** qalmaqda davam edirdi. Şah fərmanı ilə məmurluq və hərbi xidmətə görə verilən tiyul torpaqları istənilən vaxt hər hansı narazılıq yarandıqda onun tərəfindən geri alınırdı.

Cənubi Azərbaycan torpaqlarında vəqf mülkiyyəti əvvəlki əsrlərdə olduğu kimi, XIX əsrdə də geniş yayılmışdı. Vəqflər şah xəzinəsinə daxil edilməli olan vergilərdən azad edilirdilər.

XIX əsrdə Cənubi Azərbaycan kədlilərinə məxsus olan **"rəiyyəti"** və **"xırdamalik"** adlanan kiçik torpaq mülkləri də mövcud olmuşdur. "Rəiyyət"i torpaqları kənd icmasının mülkiyyətinin bir hissəsini təşkil edirdi. "Xırdamalik" sahibləri mülkədar vergilərindən azad olmaqla, müstəqil olaraq təsərrüfatlarını idarə edir, feodalın xeyrinə heç bir mükəlləfiyyət daşımır, bəzən isə kəndlərdə sələmçiyə və xırdavatçıya çevrilirdilər. Bu dövrdə köçəri elatlar otlaqlardan istifadəyə görə şah xəzinəsinə heç bir vergi ödəməsələr də, şahın tələbi ilə müəyyən sayda süvari qoşun verməyə borclu idilər.

XIX əsrin sonlarında Cənubi Azərbaycanda iri feodal mülklərinin sayı xeyli artmışdı. Belə ki, Ərdəbil ərazisində 210 kənddən 174-ü mülkədarlara məxsus torpaqlarda yerləşirdi. Xanlara məxsus torpaqların bir hissəsi mülkədarlar tərəfindən alınırdı. Tədricən kapitalist

münasibətlərinin yaranması ilə pula ehtiyacı olan xanlar öz torpaqlarını sələmçilərə, tacirlərə, ruhanilərə satır və ya borca qoyurdular. Beləliklə, feodal **len torpaqlarının** böhranı başlamış olurdu. Şah özü də dövlət xəzinəsini doldurmaq məqsədilə torpaqların bir hissəsini satırdı. 1894-cü ildə Nəsrəddin şah xalisə torpaqlarını satmaq üçün fərman vermişdi. Bununla belə, İranın digər vilayətlərindən fərqli olaraq, Cənubi Azərbaycanda şah rejiminin mövqelərinin zəifləməsindən ehtiyat edən dövlət xalisə torpaqlarının saxlanılmasına daim üstünlük verirdi.

XIX əsrdə Cənubi Azərbaycan əhalisinin əksəriyyətini kəndlilər təşkil edirdi. Hakim feodal sinfinə daxil olan mülkədarlar, ərbablar və digərləri kənd əhalisinin istismar edilməsində öz mənafeləri baxımından maraqlı idilər. Feodal torpaq sahibliyi əmtəə-pul münasibətlərinin inkişafını daim ləngidirdi. Bununla belə, XIX əsrin əvvəllərində məhsul rentası üstünlük təşkil edirdisə, sonlarında **pul rentası** yayılmağa başlamışdı.

Cənubi Azərbaycanda kəndlilərin özləri də bir neçə qrupa bölünürdü. Əmək alətləri, iş heyvanları olan kəndlilər **"hampa"** adlanırdı. Mülkədarlardan torpaq icarə edən hampalar həm dövlət, həm də mülkədar tərəfindən ikiqat istismara məruz qalırdılar.

XIX əsrin sonu XX əsrin əvvəllərində heç bir əmək aləti olmayan, yalnız öz iş qüvvəsini satmaqla məşğul olan kəndlilər **"qara"** adlanırdı. İran şah rejiminin apardığı siyasətin nəticəsi olaraq, Cənubi Azərbaycan kəndliləri mövsümi işçilərə çevrilərək iş dalınca bir çox yerlərə, əsasən də Bakı neft mədənlərinə gəlməyə məcbur olurdular.

Cənubi Azərbaycan kəndlərində əhalinin çox az hissəsi nisbətən varlı kəndli təbəqəsini təşkil edirdi. Buraya kənd ağsaqqalı sayılan və mülkədar tərəfindən təyin edilən **kəndxuda,** əkin sularının bölüşdürülməsinə məsul olan **mirab,** mülkədarların vergi və mükəlləfiyyətləri barədə əhaliyə məlumat verən **carçı** daxil idi. Kəndxudalar xırda mülki və cinayət işləri üzrə məhkəmə səlahiyyətinə malik olmaqla icma daxilində iddiaları araşdırırdı. Onlar dövlətdən məvacib almır, toplanan vergilərin bir qismini mənimsəyirdilər. Kəndlilər hər günlük sudan istifadəyə görə miraba **"şabanəruz"** adlanan xüsusi ödənc verməli idilər.

"Xırdamalik" adlanan kəndlilərə məxsus dəyirmanlar, kiçik emalatxanalar onların maddi cəhətdən təmin olunmalarında əsas şərtlərdən idi. Varlı kəndli təbəqəsinə qoşqu vasitəsilə yükləri daşıyan "çarvadar"lara (sarvanlara) ticarət yollarının kəsişdiyi Ərdəbil və Təbriz ərazilərində daha çox rast gəlinirdi.

Cənubi Azərbaycanın idarəçilik sistemi. XIX əsrin ortalarında İran dövləti 29 əyalətə bölünürdü. Hər bir əyalətə şah tərəfindən təyin edilən hakim (qubernator) başçılıq edirdi. Şah rejimi zəngin Azərbaycan əyalətinin strateji əhəmiyyətini dərk edərək buraya öz vəliəhdini hakim təyin etmişdi. XIX əsrin 30-cu illərinə qədər Cənubi Azərbaycanı şahın vəliəhdi Abbas Mirzə idarə etmişdi. Fars hakimləri Cənubi Azərbaycana öz mülkləri kimi baxaraq əhalinin istismarı hesabına şah xəzinəsini doldururdular. Cənubi Azərbaycandakı vergi sistemi əhalinin açıq-aydın qarət olunmasına çevrilmişdi. Belə ki, XIX əsrin birinci yarısında əhalidən toplanan pul vergisi 550 min tümən olduğu halda, 60-cı illərdə 620 min tümənə çatdırılmışdı. Dövlət Cənubi Azərbaycan ərazisindən natura ilə də vergi topladığı halda XIX əsrin birinci yarısında əsasən farsların yaşadığı Xorasan kimi böyük əyalət şah xəzinəsinə vergi verməmişdi. Münbit Azərbaycan ərazilərindən isə xəzinə üçün digər məhsullarla yanaşı, 1173275 pud buğda və apra toplanmışdı.

Şah vəliəhdinin və fars əyanlarının Cənubi Azərbaycana səfərləri əhali üçün ən ağır günlərdən biri idi. Ümumiyyətlə isə əhalidən toplanan vergilərin əvəzində onun cüzi hissəsi belə yerli tələbatın ödənilməsinə sərf edilmirdi.

XIX əsrin ortalarında şah rejiminin Cənubi Azərbaycanda apardığı siyasətə qarşı ilk çıxışlar başladı. 1847-ci ildə Zəncan şəhərində şah qubernatoru Əşrəfin öz vəzifəsindən sui-istifadə etməsi sənətkarların və yoxsulların qəzəbinə səbəb oldu. Şah məmuru əhali tərəfindən döyülərək, bütün şəhərdə gəzdirildi. XIX əsrin ortalarından Cənubi Azərbaycanda babilər ideyası yayılmağa başladı. Bu hərəkat da şah məmurlarının və feodalların özbaşınalığına qarşı çevrilmişdi.

1850-ci ildə Zəncanda yenidən xalq kütlələrinin çıxışı başladı. 15 min sənətkar və kəndlinin iştirak etdiyi üsyan 6 ay davam etdi. Ordu və jandarm üsyanı yalnız 1850-ci ilin dekabr ayında yatıra bildi.

XIX əsrin ikinci yarısında da əhalinin narazılığı davam edirdi. Hətta 70-ci illərdə Təbriz qarnizonu polkunun əsgərləri (sərbazları) üsyan edərək komandirləri qovub hökumətə tabe olmadıqlarını bildirdilər. Lakin üsyan amansızcasına yatırıldı.

XIX əsrin 80-ci illərində Təbriz əhalisinin yeni vergilərin tətbiqi əleyhinə çıxışları başladı. Hakimiyyət orqanları vergiləri artırmasalar da, üsyan başçılarını sonradan xəyanətkarcasına edam etdilər.

XIX əsrin ikinci yarısında Qaradağ kəndliləri başda kiçik torpaq sahibi İsmayıl olmaqla şah rejiminə qarşı 11 il silahlı müqavimət göstərmişdilər. XIX əsrin sonlarında üsyançılara onun oğlu Səttar xan başçılıq etməyə başladı.

Sənəd

1870-ci il mayın 14-də çar tərəfindən imzalanmış "Kəndli islahatının Əsasnaməsi"

1. Bu Əsasnamə ilə Yelizavetpol, Bakı və İrəvan quberniyaları və Tiflis quberniyasının Tiflis və Axaltsıx qəzalarının ali müsəlman silkinin: keçmiş xan nəsillərindən olanların, bəylərin və ağaların və habelə erməni məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq işləri müəyyən olunur.

2. Ali müsəlman silkinin və habelə erməni məliklərinin torpaqlarında sakin olan dövlət kəndliləri (maddə 1) mövcud fərmanlar üzrə (1846-cı il 6 dekabr, 1847-ci il 20 aprel və 28 dekabr və 1851-ci il 8 iyun) pay torpağı almaq hüququnu saxlayırlar və sakin olduqları malikanələrdə pay torpaqları aşağıdakı 7-70-ci maddələrdə göstərilən şərtlərlə onların daimi istifadəsinə verilir. Kəndlilərin istifadəsinə verilmiş pay torpaqları üzərində mülkiyyət hüququ həmin fərmanlara əsasən bu torpaqların sahiblərinə (mülkədarlara) məxsusdur.

3. Kəndlilər pay torpağı müqabilində sahibkarın xeyrinə bu Əsasnamənin (71-99-cu maddələrinin) müəyyən etdiyi mükəlləfiyyətləri yerinə yetirməyə borcludurlar.

4. Torpaq sahiblərinin və onların torpağında sakin olan kəndlilər arasında torpaq münasibətləri bu Əsasnamənin 100-132-ci maddələrində göstərildiyi qaydada, nizamlama qaydaları ilə müəyyən edilir.

Kəndlilərin əkin və başqa təsərrüfat torpaqları ilə təmin olunması və onlardan istifadə qaydaları barədə

I Bölmə
Torpaq və digər təsərrüfat yerləri ilə təminat haqda

7. Bu Əsasnamədə göstərilmiş qayda üzrə hər bir malikanədə adları olan istər ailəli, istərsə də subay kəndlilərin həmin malikanədə pay torpağı almaq hüququ var.

8. Bu əsasla (m.7) mövcud Əsasnamənin verilməsinə qədər kəndlilərin istifadəsində olan həyətyanı sahələr, meyvə, üzüm və tut bağları, əkin sahələri (əkin və biçənək) kəndlilərin daimi istifadəsində saxlanılır.

Qeyd: 1. Kəndlilərin daimi istifadəsində olacaq əkin və başqa torpaq sahələri kəndlinin pay torpağı adlanır.

Qeyd: 2. Sahibkarın kəndlilərə daimi pay torpağından əlavə, mövcud mükəlləfiyyətlərdən başqa, xüsusi pul və ya məhsul ödənişi hesabına muzdla müvəqqəti verdiyi torpaqlar və otlaqlar kəndlinin pay torpağı sayılmır.

9. 8-ci maddəyə uyğun olaraq, kəndlilərin istifadəsində onların indiki pay torpaqları saxlanılmaqla, ümumən kəndli icmasının pay torpağı hər bir kəndli kişi üçün 5 desyatindən artıq olarsa və sahibkarın öz ixtiyarında isə malikanədəki əkin yararlı torpaqların üçdə birindən azı qalarsa, onda sahibkar öz əlində malikanədəki bütün torpaqların üçdə birini saxlamaq üçün artıq torpaqlardan **kəsik** tələb etmək hüququna malikdir.

10. 8-ci maddəyə uyğun olaraq, kəndlilərin istifadəsində onların indiki pay torpaqları saxlanılmaqla, ümumən kəndli icmasının pay torpağı hər bir kəndli kişi üçün 5 desyatindən az olarsa, onda kəndli cəmiyyətinin sahibkardan torpağın çatışmayan hissəsini tələb etmək hüququ vardır və sahibkar çatışmayan torpağı kəsib verməyə borcludur. Ancaq kəsik üçün tələb olunan torpağın verilməsi ilə sahibkarın istifadəsində malikanədəki (m.9) yararlı torpaqların üçdə birindən

azı qalarsa, onda yalnız göstərilən üçdə birdən artıq olan miqdarı kəsilib verilir.

11. Sahibkar bu Əsasnamə üzrə kəndlilərin daimi istifadəsinə verilmiş pay torpaqlarını sonralar heç bir halda artırmağa borclu deyil, eyni zamanda azaltmağa da ixtiyarı yoxdur.

12. Bu Əsasnaməyə görə kəndli pay torpağının tərkibinə yalnız əkinə yararlı sahələr ayrılmalıdır (8-18-ci maddələr).

15. Meşələr hər yerdə kəndli pay torpağının tərkibinə salınmır. Meşəsi olan malikanələrdə kəndlilər meşə nemətlərindən sahibkarın könüllü razılığı ilə istifadə edə bilərlər.

16. Kəndli əkinlərindəki və biçənəklərindəki kolluqlar kəndlilərin istifadəsində saxlanılır və onların bitdiyi torpaqlar da kəndlinin pay torpağının içində sayılır. Bu Əsasnamə verilənə qədər kəndlilərin daimi istifadəsində olan və qamışlıq basmış yerlər də pay torpağı sayılır.

17. Mal-qaranı suvarmaq üçün kəndlilərin istifadəsində olan naxır bulaqları onların istifadəsində saxlanılır. Əgər naxır bulaqları sahibkarla kəndlilərin ümumi istifadəsindədirsə, onda bulaq elə ümumi istifadədə qalır. Sahibkar istəyərsə, kəndlilərlə qarşılıqlı razılıq üzrə ümumi suvat yerinə onlara ayrıca suvat ayıra bilər, yox əgər razılaşma baş tutmazsa, onda məsələ barışıq hakiminin qərarı ilə həll olunmalıdır.

1. İstifadə hüququ haqqında

41. Nizamlama qaydaları əsasında kəndlilərə pay torpağı kimi təsdiq edilmiş torpaqlar müəyyən edilmiş mükəlləfiyyətlər müqabilində kəndlilərin daimi istifadəsinə verilir.

42. Ayrı-ayrı kəndli tüstülərinin (həyət, ev) pay torpaqlarının tərkibindəki kəndli sahələri – həyətyanı və əkin sahələri həmin tüstülərin irsi istifadəsində qalır. Kəndli əkin sahələrinin irsən keçməsi qaydası və onların bölünməsi qaydası yerli qayda-qanunla müəyyən olunur.

46. Hər bir kəndli öz sahəsini – həyətyanı torpağını və əkin yerini onunla bir kənd cəmiyyətinə mənsub olan kəndliyə verə bilər; bağlar, həmçinin başqa sənaye və ticarət müəssisələri ilə hətta kənar şəxslərə verilə bilər.

47. Kəndli başqa silkə keçməklə tərk etdiyi icmanın kəndli torpağından istifadə etmək hüququnu itirir.

49. Kəndlilər, nə qədər ki, mükəlləfiyyətləri məhsulla ödəyirlər, onlara pay torpağı kimi verilmiş əkin sahələrində adət üzrə müəyyən edilmiş qaydada, yarıdan az olmayaraq, müxtəlif taxıl və ya başqa bitkilər əkməlidirlər; sahibkar kəndlilərin bilərəkdən və ya tənbəllik üzündən torpağı lazımi qaydada becərməməsindən ona dəymiş zərərin əvəzini barışıq hakiminin müəyyən etdiyi miqdarda tələb etmək hüququna malikdir.

55. Hər bir kəndli öz təsərrüfatında başqa azad kənd sakinləri ilə eyni hüquqda nə sahibkardan, nə də cəmiyyətdən xüsusi icazə almadan karvansara (içki satmamaq şərti ilə), fabrik, sənaye və ticarət müəssisələri açа bilər.

2. Torpaq sahiblərinin xeyrinə ödəniləcək kəndli mükəlləfiyyətləri haqqında

71. Bu Əsasnamənin elan edildiyi gündən nizamlama qaydalarının həyata keçirilməsinə kimi kəndlilər istifadələrində olan əkin sahələri və təsərrüfat yerlərindən istifadə etməkdə davam edir, həmin əkin sahələri və təsərrüfat yerləri üçün sahibkarlara qabaqkı mükəlləfiyyətlərini ödəyirlər.

72. Nizamlama qaydalarının həyata keçirilməsi ilə kəndlilər onlar üçün təsbit edilmiş kəndli pay torpağı əvəzində sahibkarın xeyrinə bütün əkinçilik məhsullarından malcəhət və ya bəhrə adlı mükəlləfiyyət və bundan əlavə məcburi iş günləri əvəzinə pul vergisi verməlidirlər.

3. Mükəlləfiyyətlərin miqdarı haqqında

76. Kəndlilər sahibkara veriləcək malcəhət və ya bəhrə mükəlləfiyyətinə bütün əkinçilik məhsullarını daxil etməlidirlər:

1) Bakı və Yelizavetpol, Tiflis qəzasının xan, bəy, ağalar və mələk malikanələrində 1/10 hissə.

77. Kəndlilər məcburi iş günlərinin əvəzinə istifadələrində olan istər həyətyanı, istərsə də əkin yerlərinin hər desyatini üçün verməlidirlər:

1) Bakı və Yelizavetpol quberniyasının (Qazax qəzası çıxılmaqla) xan, bəy və mələk malikanələri üzrə 30 qəpik;

2) Yelizavetpol quberniyasının Qazax qəzasında ağa və məlik malikanələri üzrə 15 qəpik.

4. Mükəlləfiyyətlərin ödənilməsi qaydası haqqında

79. İstər malcəhət və ya bəhrə, istərsə də pul mükəlləfiyyətlərinin vaxtı kəndlilərə torpaq sahibinin qarşılıqlı razılığı əsasında müəyyənləşdirilir və nizamlama qaydalarına daxil edilir.

82. Kəndlilərin hər biri öz üzərinə düşən mükəlləfiyyəti yalnız birbaşa torpaq sahibinə və ya onun vəkil etdiyi şəxsə ödəməlidir.

85. Hər bir ev ayrı-ayrılıqda istifadəsində olan sahə üçün torpaq sahibinə çatası mükəlləfiyyətlərin vaxtında ödənilməsinə cavabdehdir.

86. Hər hansı bir səbəb üzündən ləğv edilmiş və 59-cu maddəyə uyğun olaraq, kənd icmasının ixtiyarına keçmiş sahədən torpaq sahibinə çatası mükəlləfiyyətlər üçün bütövlükdə kənd icması bütün üzvlərinin elliklə zəmanəti ilə sahibkar qarşısında, 96-cı maddəyə əsasən, kənd yığıncağının qərarı ilə bu sahənin yeni ev sahibinin öhdəsinə [illegible]erilənə və ya torpaq sahibinin ixtiyarına keçənə kimi məsuliyyət daşıyır.

88. Torpaq sahibinə çatası mükəlləfiyyətlər dövlət vergi rüsumları kimi bütün ciddiliyi ilə tələb olunmalıdır.

91. Kəndlilərin malcəhət və ya bəhrədən qalan borcları torpaq sahibi və ya onun müvəkkilinin tələbi və göstərişi üzrə dərhal ödənilməlidir. Əgər malcəhət və ya bəhrə barışdırıcı münsifin təyin etdiyi müddətdə ödənilməzsə, onda o, quberniya kəndli işləri idarəsinin müəyyən etdiyi tariflə pul borcuna çevrilir.

92. Ödənilmiş malcəhət və ya bəhrə üzrə pul borcu (m.91) və həmçinin bu Əsasnamənin (m. 72) müəyyən etdiyi pul mükəlləfiyyətinin özü üzrə borcdan ayda hər manatdan bir qəpik faiz alınır.

95. Torpaq sahibinin tələbi üzrə mükəlləfiyyəti vaxtında ödəməyən kəndlidən borcu kənd rəhbərliyi 92-ci maddə üzrə müəyyən edilmiş faizlə alıb verməyə borcludur, bunun üçün o barışıq münsifinin icazəsi və razılığı ilə:

1) Borclunun mülkiyyətində olan daşınmaz əmlakın gəlirini vergi qalığının ödənilməsinə sərf edə bilər.

2) Vergi borclusunun özünü və ya onun ailə üzvlərindən birini kəndlinin həmkəndlisinin və ya torpaq sahibinin yanına muzdla işləməyə göndərə bilər; lakin kəndlini torpaq sahibinin yanına öz iradəsinin ziddinə və sahibkarın razılığı olmadan göndərmək olmaz.

3) Vergi borclusunu və ya onun ailə üzvlərindən birini vergi qalığının ödənilməsinə qədər kənara, kəndlinin yaşadığı və ya qonşu qəzaya, əgər ev yeganə işçidən məhrum olmursa, kəsbkarlığa göndərə bilər: uzaq olmayan başqa quberniyalara isə kəsbkarlığa yalnız kənd yığıncağının barışıq münsifi tərəfindən təsdiq edilmiş qərarı ilə, özü də yalnız mükəlləfiyyəti inadla, tənbəlliyi və ya pozğunluğu üzündən ödəməyən daimi vergi borclularını göndərmək olar.

4) Vergini ödəməyənlərə qəyyum qoya və sonuncunun icazəsi olmadan təsərrüfatçıya (kəndliyə) vergi qalığı ödənilənə kimi öz əmlakından və ya gəlirlərindən heç bir şeyi alqı-satqıya çıxarmağa icazə verməyə bilər və ya borcunu ödəyə bilməyən təsərrüfatçının yerinə, onu və ailəsini öz təsərrüfatından çıxarmamaq şərti ilə, yeni təsərrüfatçı təyin edə bilər.

5) Vergi borclusuna şəxsən məxsus olan daşınmaz əmlakı siyahıya aldırıb satdıra bilər.

6) Vergi borclusunun tərpənməz əmlakının və tikililərinin təsərrüfat üçün zəruri olmayan hissəsinin satılmasına sərəncam verə bilər.

96. Əgər 95-ci maddədə nəzərdə tutulmuş bütün cəza tədbirləri kifayət etməzsə və borc mükəlləfiyyətin birillik məbləğinə kimi artarsa, onda torpaq sahibi barışıq münsifinin icazəsi ilə vergi borclusuna daimi istifadə hüququnda verilmiş sahəni, həmin sahəyə məxsus olan həyətyanı təsərrüfatla birlikdə (əkinçi) silkindən olan başqa bir şəxsə hərracla verilməsini tələb edə bilər.

5. Nizamlama qaydalarının hazırlanması

100. Mövcud Əsasnamənin yerlərdə elan edilməsindən iki ay sonra nizamlama qaydalarının hazırlanmasına başlanmalıdır.

101. Nizamlama qaydaları hər bir malikanə üzrə Əsasnamənin elan edilməsindən 2 il keçənədək hazırlanmalı və qəti olaraq həyata keçirilməlidir.

111. Barışıq münsifi nizamlama qaydalarının hazırlanmasına başlamazdan ən azı 15 gün qabaq malikanəyə: həm sahibkara, həm də kəndlilərə çağırış vərəqəsi göndərməlidir (m. 100). İstər sahibkar, istərsə də kəndlilər nizamlama qaydalarının hazırlanmasında ya şəxsən iştirak etməyə və ya 103-cü maddəyə (qeyd) uyğun olaraq, öz müvəkkillərini göndərməyə borcludurlar, lakin tərəflərdən bu və ya başqasının çağırış vərəqəsində müəyyən edilmiş vaxtda gəlməməsi heç bir halda münsifin fəaliyyətini dayandırmamalıdır.

6. Kəndlilərin öz pay torpaqlarını mülkiyyətə almaları haqqında

133. Kəndlilər öz pay torpaqlarını ya bütövlükdə, ya da onun bir hissəsini sahibkarla qarşılıqlı razılıq əsasında, barışıq münsifinin müəyyən etdiyi qaydada hər bir zaman və heç bir məhdudiyyət qoyulmadan ala bilərlər.

134. Kəndlilərin öz pay torpaqlarını satın alması üçün qarşılıqlı razılıq əldə edilmədikdə, kəndlilər ya ayrı-ayrılıqda, ya da bütün kənd icması ilə birlikdə öz pay torpaqlarını sahibkarın icazəsi olmadan satın ala bilərlər, ancaq bu halda aşağıdakı məhdudiyyətlər nəzərdə tutulur:

1) Kəndlilərin hər bir evə 15 desyatindən artıq torpaq almaq hüququ yoxdur.

2) Kəndlilər 7,5 desyatindən az pay torpağına malikdirlərsə, onda hər bir ev bundan az az torpaq satın almamalıdır.

136. Kəndlilər pay torpaqlarını satın almaq haqda barışıq münsifinə yazılı surətdə müraciət edirlər, o, ödənc məbləğini kəndlilərin satın almaq istədikləri pay torpağı üçün pul, həm də məhsulla ödədikləri mükəlləfiyyətlərin pulla qiymətinin 6 faiz kapitallaşması yolu ilə hesablayır, həm də müəyyən edilmiş ödənc məbləğinin kəndlilər tərəfindən ödənilmə vaxtını müəyyən edir və tərəflərə öz qərarını bildirməklə, müəyyən edilmiş müddətdə narazı tərəfə kəndli işləri üzrə Quberniya idarəsinə şikayət etmək hüququ verildiyini elan edir.

138. Kəndlilərin öz pay torpaqlarını sahibkarlarla könüllü saziş əsasında və ya öz tələbləri ilə (m. 133 və 137) mülkiyyətə keçirmələri hökumət tərəfindən heç cür yardım edilmədən həyata keçirilir, lakin bu halda 1861-ci il 19 fevralda imperator tərəfindən təsdiq edil-

miş ödənc haqqında Əsasnamənin 6-cı maddəsində nəzərdə tutulmuş imtiyazlardan istifadə oluna bilər.

139. Kəndlilər istər könüllü saziş üzrə (m. 133), istərsə də öz tələbləri (m. 134) ilə pay torpaqlarını mülkiyyətlərinə keçirməklə mülkiyyətçilər zümrəsinə keçirlərsə, kəndli-mülkiyyətçilər üçün ödənc haqqında Əsasnamənin 159-179-cu maddələrində nəzərdə tutulmuş qaydalara tabe olurlar.

XI FƏSİL

Azərbaycanın dövlət və hüquq tarixi XX əsrin əvvəllərində (1900-1917-ci illər)

Azərbaycanda kapitalizmin inkişafı. XX əsrin əvvəllərindən kapitalist münasibətləri daha sürətlə inkişaf etməyə başlamışdı. Zəngin yeraltı sərvətlər, ucuz işçi qüvvəsinin olması kapitalistlərə təkcə nefti ixrac etmək yox, həm də Bakıda sənaye istehsalını təşkil etməyə imkan verirdi. Azərbaycan milli burjuaziyası yaranmış kapitalist münasibətlərini daha da inkişaf etdirmək, yeni texnikaya yiyələnmək, rəqabət meydanında təkcə neft sənayesi deyil, digər sahələrin də yaradılmasına üstünlük verilməsinə çalışırdı. Bakı - Batumi dəmir yolu və neft kəməri Azərbaycanın Qərbi Avropa ilə iqtisadi münasibətlərinin inkişaf etdirilməsində böyük əhəmiyyətə malik idi. Rusiya müstəmləkəsi olan Azərbaycanda çar hökuməti rus kapitalistlərin və mülkədarların mənafeyini güdərək, milli ucqarların uguz xammal bazası kimi saxlamağa çalışırdı.

1900-1903-cü illərin iqtisadi böhranı Azərbaycanın neft sənayesini əhatə etmişdi. Neft istehsalı aşağı düşmüş, orada çalışan fəhlə və qulluqçuların sayı xeyli azalmışdı. Böhran illərində bir çox kiçik və orta müəssisə müflisləşib aradan çıxdı. 1901-ci ildə 171 neft şirkətindən yalnız 146-sı, 1903-cü ildə isə 136-sı qaldı.

1907-ci ilin martında istifadəyə verilmiş, dünyada ən uzun Bakı-Batumi neft kəməri ildə 60 milyon pud neft nəql etməyə imkan verirdi.

Neft sənayesində xarici kapital səhmdar cəmiyyətinin səhmlərini almaq, həmçinin xırda şirkətləri satın almaqla məşğul olurdu. Birinci dünya müharibəsi ərəfəsində Azərbaycanda 112,6 milyon manat məbləğində xarici kapital vardı. Bunun 54,3 milyon manatı ingilislərə, 48,3 milyon manatı fransızlara, 10 milyon manatı almanlara məxsus idi. Ümumilikdə neft sənayesində xarici kapital 42% təşkil edirdi.

Neft sənayesində şirkətlərarası mübarizə inhisar birliklərinin yaranmasına səbəb oldu. 1900-cü ildə "Nobel qardaşları" şirkəti ilə Rotşildin "Mazut" şirkəti arasında "Nobmazut" adlı kardel sazişi bağlanmışdı. Saziş neft şirkətləri arasında satış bazarını müəyyən edirdi. Artıq Birinci Dünya müharibəsi ərəfəsində və müharibə illərində neft sənayesində əsasən üç inhisar birliyi - "Nobel qardaşları", "Şel" və "Rusiya Baş Korparasiyası" (qısaca olaraq "OYL") aparıcı mövqeyi tutdu.

Azərbaycanda sənayenin digər sahələri, xüsusilə dağ-mədən, elektrik enerjisi yüngül sənaye, yeyinti sahələri sürətlə inkişaf edirdi. Alman kapitalistləri Simens qardaşlarına məxsus Gədəbəy mis filizi mədənlərində 3,5 milyon pud xammal çıxardılar ki, bu da Rusiyadakı mis filizi hasilatının 6,1 hissəsini təşkil edirdi. Gədəbəy və Balakən misəritmə zavodlarında 1901-ci ildə 120 min pud xalis mis istehsal edilmişdi.Birinci dünya müharibəsi illərində Gədəbəy mis sənayesi cəbhənin ehtiyaclarını ödəyirdi.

Sənayenin inkişafı elektrik enerjisinə tələbatı artırmışdı. "Elektriçeskaya sila" səhmdar cəmiyyətinin istehsal etdiyi enerjinin 95%-i neft mədənlərində işlənirdi.

Yüngül sənayedə ipək emalı müəssisələri Nuxa-Zaqatala, Qarabağ və Naxçıvan ərazilərində cəmləşmişdi. Azərbaycan Cənubi Qafqazda xam ipəyin yarıdan çoxunu verirdi. Ordubad sənayeçisi L.K. Babayevin müəssisəsi əla keyfiyyətli xam ipək istehsal etdiyi üçün 13 dəfə qızıl medal almışdı. 1900-cü ildə Bakı - Petrovsk (Mahaçqala) dəmir yolunun işə düşməsi Xəzərsahili ərazilərdə balıq sənayesinin inkişafına güclü təkan verdi. Əgər bu ərazilərdə əvvəllər 9 vətəgə vardısa, 1906-cı idə onların sayı 200-ə çatdı. H.Z. Tağıyev və M. Nağıyev kimi azərbaycanlı kapitalistlər əvvəllər əsasən rus kapitalistlərinin sahib olduğu vətəgələrə hərraclar zamanı yüksək qiymət qoyaraq onların xeyli hissəsini öz əllərinə keçirdilər. Tağıyev Dəvəçi - Yalama sahələrindəki vətəgələrin əksəriyyətinə sahib oldu.

XX əsrin əvvələrində Azərbaycanın ictimai-siyasi həyatında milli şüurun oyanması, azadlıq ideyalarının yaranması çar rejiminin maneələri ilə mübarizə şəraitində formalaşırdı. Azərbaycan ziyalıları xalqın

maarifləmməsinə çalışır, onun maddi və mənəvi inkişaf yolunda mədəniyyətin oynayacağı rolu görürdülər. Milli burjuaziyanın yaranması zəhmətkeş təbəqənin sosial həyatında əhəmiyyətli rol oynayırdı.

Çünki milli burjuaziya öz müəssisələrinə ilk növbədə müsəlmanları işə götürürdü ki, bu da Azərbaycanlı fəhlələrin güzəranının nisbətən yaxşılaşmasına səbəb olmuşdu.

XX əsrin əvvələrində və xüsusilə 1905-1907-ci il burjua demokratik inqilabı dövründə özlərinin siyasi partiyalarını yaratmış rus burjuaziyasından fərqli olaraq, Azərbaycan milli burjuaziyasının siyasi partiyası yaradılmadı. Milli burjuaziya sahibkarlıq fəaliyyətində ayrı-seçkiliyin olmasından, Azərbaycanlı sahibkarlarla digər kapitalistlərə eyni hüquq verilməsindən, şəhər özünüidarəsində müsəlman nümayəndəliyinə say senzinin tətbiq edilməsinə özünün etirazını bildirsə də, çarizmə qarşı münasibətdə siyasi iradəsizlik göstərirdi.

Rus imperiyası Azərbaycanda ali və orta təhsil müəssisələrinin açılmasına icazə vermirdi. Azərbaycanlı gənclər ali təhsil almaq üçün Rusiya və digər xarici dövlətlərə getməyə məcbur idi.

XX əsrin əvvəllərində Rusiya imperiyasında baş verən siyasi, iqtisadi və hərbi böhranın təsiri ilə Azərbaycanın da ictimai- siyasi həyatında dəyişikliklər yaranır, milli tərəqqi, demokratiya və azadlıq ideyaları formalaşırdı. Azərbaycanın ziyalıları xalqın maarifləmməsinə daha çox çalışır, xalqın öz azadlığı uğurunda mübarizə aparacağına inam yaradırdılar.

1901-ci ildə Bakıda ilk rus sosial-demokratik dərnəyi yaradılır. Bakıda sürgündə olan ruslar, Tiflisin qeyri-leqal sosial-demokratik təşkilatından olan gürcülər rus sosial-demokrat partiyasının Bakı Komitəsinin yaradılmasında fəal iştirak etmişlər. İstismar olunan fəhlələri kapitalistlər əleyhinə mübarizəyə cəlb etməyə qismən müvəffəq olan sosial-demokratlar onların rəğbətinə nail ola bilmişdilər. Azərbaycan milli-azadlıq hərəkatının görkəmli xadimi olmuş ziyalılar, o cümlədən Məmməd Əmin Rəsulzadə özlərinin ilk ictimai-siyasi fəaliyyətinə sosial-demokrat qrupundan başlamışdılar. Azərbaycanlı ziyalılar rus sosial-demokrat partiyası nəzdində 1904-cü ildə "Hümmət" adlı sosialist partiyasını yaratdılar. 1905-ci ildən yarımmustəqil

partiya kimi fəaliyyət göstərən bu təşkilat 1917-ci il inqilabından sonra Azərbaycan Kommunist Partiyası adlandı. Azərbaycanlı vətənpərvərləri sosial-demokrat partiyasında iştirak etməyə sövq edən səbəb birincisi RSDFR-in Rusiyada çar hakimiyyətinə qarşı açıq mübarizəsi, ikincisi isə 1903-cü ildən bu partiyanın II qurultayında millətlərə öz müqəddəratını təyin etmək hüququ verən qərarın qəbul edilməsi səbəb olmuşdur.

Qafqazda ermənilərin azərbaycanlılara və digər müsəlmanlara qarşı törətdikləri qırğın dövründə, 1905-ci ilin dekabr ayında Gəncə şəhərində Əhməd bəy Ağayev və Məmmədhəsən Hacınskinin təşəbbüsü ilə "Difai" partiyası təsis edildi. "Difai" partiyası Azərbaycanın dövlət tarixində xalqın ermənilərin soyqırımlarından müdafiə olunmasında əvəzsiz xidmətlər göstərmişdir. "Difai" partiyasının bəyannaməsində erməni "Daşnak" partiyasının təcavüzkar siyasəti və çarizmin riyakarlığı pisləniliridi.

1905-ci ildə İsmayıl xan Ziyadxanovun rəhbərliyi ilə Gəncədə daha bir siyasi qurum - "Müdafiə" partiyası yaradıldı. Liberal ruhlu milli mülkədar-burjua nümayəndələrini özündə birləşdirən partiya çarizmin müstəmləkə siyasətinə və ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımın qarşısının alınmasına yönəldilmişdir.

XX əsrin əvvəllərində Rusiya imperiyasının əhalisində libęral və sosial demokratiya ideyaları Azərbaycanda milli şüurun formalaşmasına öz təsirini göstərirdi. 1902-ci ilin mart-avqust aylarında Bakı fəhlələrinin tətil və çıxışları başlamışdı. Belə ki, mart ayının 21-də Bartford zavodunun fəhlələri əmək haqlarını almadıqlarına görə tətil etmişdilər. 1902-ci ildə Bakı fəhlələri 1 may bayramını qeyd etdilər. 1903-cü ilin martın 2-də Bakı proletariatının böyük nümayişi oldu. Nümayişçilər çarizmə qarşı mübarizəyə qalxdılar. Hökumət qoşunları, kazaklar və polislər nümayişi yatırdılar. 1903-cü ilin martında RS DFP-nin Qafqaz Komitəsi yaradıldı. 1903-cü ilin iyunun 4-də ümumi Bakı tətili keçirildi. Fəhlələr tərəfindən seçilmiş tətil komitəsi öz tələblərini sahibkarlara verdi. Onların tələbləri rədd edildi. 1903-cü ilin iyulun 22-də tətil yatırıldı.

1904-cü il dekabrın 13-də Bakı fəhlələrinin ikinci ümumi tətili başladı. 34 maddədən ibarət tələblər içərisində səkkiz saatlıq iş günü, həftəlik məcburi istirahət günləri verilməsi, fəhlə və sahibkarlardan ibarət mədən münaqişə komitələri yaradılması, ictimai sığorta və s. nəzərdə tutulurdu. Tətili yatırmaq üçün daşnakların köməyi ilə milli nifaq salmağa cəhd göstərildi, lakin tətili inadla davam etdirən fəhlələr çar hökumətini və sahibkarları bir sıra güzəştlərə getməyə məcbur etdilər.

Beləliklə, 1904-cü il dekabrın 30-də fəhlələrlə sahibkarlar arasında ilk müştərək müqavilə imzalandı. Fəhlələr bu müqaviləni "Mazut konstitusiyası" adlandırdılar. Müqavilənin şərtlərinə görə əmək haqqı 20% artdı, 9 saat iş günü müəyyən edildi, fəhlələrin tətil etdiyi günlərin maaşı ödənildi, müəssisələrdə fəhlələrin mənafeyini müdafiə etmək üçün mədən-zavod komissiyalarının təşkilinə başlanıldı və s.

1905-1907-ci illər rus inqilabının təsiri ilə Azərbaycanda milli hərəkat canlandı. 1905-ci ilin yazında milli burjuaziyanın, liberal mülkədarlar və ziyalılar adından həmin ildən bərpa edilmiş Qafqazın canişini Voronsov-Daşkova bütün Qafqaz müsəlmanlarının adından ərz-hal (petisiya) göndərildi. Sənəddə müsəlmanların dövlət idarələrində xidmətə qəbul edilməsi və irəli çəkilməsində, onların şəhər özünüidarəsində iştirak etməsində mövcud məhdudiyyətlərin aradan qaldırılması, andlı iclaslar məhkəməsinin müsəlmanlar yaşayan ərazilərdə də tətbiq edilməsi, məhkəmə işlərinin xalqın anlaya biləcəyi dildə aparılması, müsəlmanlara yığıncaq, ittifaq, vicdan, söz, rus və ana dillərində təhsil, mətbuat azadlıqları verilməsi, hökumətin yardımı və pay torpaqlarının kəndlilər tərəfindən məcburi surətdə satın alınması, boş qalan xəzinə torpaqlarından torpaqsız və aztorpaqlı kəndlilərə pay verilməsi, dövlətin ixtiyarına keçmiş vəqf torpaqlarının müsəlman ruhanilərinə qaytarılması və din xadimlərinin hüquqlarının genişləndirilməsi, rus kəndlilərinin Azərbaycana köçürülməsinin dayandırılması və başqa tələblər vardı.

Ə.M. Topçubaşovun təşəbbüsü ilə 1905-ci ilin avqustunda Nijni-Novqorodda gizli-surətdə Rusiya müsəlmanlarının birinci qurultayı toplandı. 150 nümayəndənin iştirak etdiyi qurultay qətnaməsində

Rusiya müsəlmanlarının bütün siyasi və mədəni məsələlərdə və yaranmış şəraitdə həmrəyliyi bildirilirdi.

1906-cı ilin yanvarın 13-dən 23-dək Peterburqda gizli surətdə çağırılmış ikinci Ümumrusiya müsəlman qurultayı "İttifaqı - müslimin" partiyasının Ə.M. Topçubaşov tərəfindən hazırlanmış 23 maddədən ibarət Nizamnaməsini qəbul etdi. Nizamnamədə Rusiya müsəlmanlarının vahid siyasi ittifaqını yaratmaq və onun yerlərdə şöbələrini təşkil etmək, Ümumrusiya müsəlmanları qurultayını hər il çağırmaq, qurultaylararası dövrdə "İttifaq"ın daimi fəaliyyət göstərən Ali Şurasını yaratmaq və s. haqqında maddələr vardı. Ə.M. Topçubaşov İttifaqın mərkəzi komitəsinin sədri seçildi. Avqust ayında Nijni-Novqorodda onun rəhbərliyi ilə açıq surətdə keçirilən III qurultayda Topçubaşovu yenidən mərkəzi komitənin sədri seçdilər.

Azərbaycanda inqilabın qarşısına almaqdan ötrü çar hökuməti ermənilər vasitəsi ilə erməni-müsəlman qırğını törətdi. 1905-ci ilin fevral ayının 15-də Bakıda müvəqqəti olaraq general-qubernator vəzifəsi təsis edildi. Çarın fərmanı ilə fevralın 18-də Bakıda və Bakı quberniyasında hərbi vəziyyət elan olundu. 1905-ci ilin fevral ayının 26-da Qafqazın Baş rəisi vəzifəsi ixtisar edildi, əvəzində hələ 1882-ci ildə ləğv edilmiş Qafqaz canişinliyi bərpa edildi. Canişin Vorontsov-Daşkova fövqəladə səlahiyyətlər verildi.

1905-ci ilin avqustun 16-da Bakıda şəhərin əksər müəssisələri siyasi tətilə başladı. Daşnakların köməyi ilə gizli polis tərəfindən erməni müsəlman qırğını təşkil edildi və avqustun 22-də Bakıda mühasirə vəziyyəti elan olundu. Hərbi hissələr tətilçilərə divan tuturdular. Bakıda hərbi səhra məhkəmələri yaradıldı.

1905-ci ilin noyabrın 25-də mədən-zavod komissiyaları tərəfindən göndərilmiş nümayəndələrin yığıncağında 226 nəfərdən ibarət ilk Bakı Fəhlə Deputatları Soveti seçildi. Sovet fəhlələrin iqtisadi tələblərinin ödənilməsi, tətil mübarizəsinin təşkili və digər məsələlər üzrə bir sıra tədbirləri həyata keçirdi.

Erməni-müsəlman münaqişəsi və onun səbəbləri. Azərbaycan milli azadlıq hərəkatı dövründə xalq erməni daşnak təhlükəsi ilə üzləşdi. "Daşnaksütun" partiyası "Böyük Ermənistan" uğrunda mübari-

zə aparmağı qarşısına məqsəd qoyaraq Türkiyə, Gürcüstan, İran və Azərbaycan ərazilərinin hesabına erməni dövləti yaratmaq kimi təhlükəli bir xəyala düşdü. Bakıda iqtisadi-maliyyə cəhətdən çox varlı ermənilər bu işə rəvac verir və daşnak partiyasına geniş maliyyə yardımı göstərirdilər.

Erməni müsəlman düşmənçiliyinin artmasında Eçmiədzindəki (Üç kilsədəki) kilsə xadimləri böyük canfəşanlıq göstərir, nifaqı daha da qızışdırırdılar. Daşnakların məqsədi azərbaycanlıları yaşadıqları doğma torpaqlarından zorla qovub çıxartmaq və həmin yerlərə erməni əhalisi yerləşdirməkdən ibarət idi.

1905-ci ilin fevralında Bakıda iki azərbaycanlı qətlə yetirildi. Fevral ayının 6-dan 9-dək davam edən qırğında yüzlərlə adam öldürüldü. Çar hökuməti qırğının qarşısını almır, yeri gələndə daşnaklara kömək edirdi. İrəvan və Eçmiədzində minlərlə azərbaycanlı qətlə yetirildi. Həmin ilin avqustunda Şuşa şəhərində də belə hadisələr törədildi. Çarizm tərəfindən qızışdırılan qırğın 1905-ci ilin sentyabr ayında Bakıda Qafqaz canişini Vorontsov-Daşkovun rəhbərliyi ilə ermənilər və azərbaycanlılar arasında sülhün bağlanması ilə nəticələndi. Sonrakı illərdə Azərbaycanın digər ərazilərində də erməni xəyanəti davam etdirilmişdir.

İctimai quruluş. Fəhlələr. Çar Rusiyasının müstəmləkəsi olan Azərbaycanda sosial-iqtisadi vəziyyət birinci rus inqilabı dövründə daha dözülməz olmuşdur. Torpağın 3/4 hissəsi, dəmir yolları, magistral neft kəməri və s. Rusiya imperiyasına məxsus olmuşdur. Əsrin əvvəllərində baş verən iqtisadi böhran fəhlələrin vəziyyətini daha da ağırlaşdırmışdı. Bakının zavod və fabriklərində iş vaxtı orta hesabla 10,5-11 saat davam edirdi. Neft və dağ-mədən sahəsində rus, erməni və digər xarici kapitalistlər əmək haqlarının təyin edilməsində milli ayrı-seçkilik edir, əsasən azərbaycanlılardan ibarət ixtisassız fəhlələrə xeyli aşağı maaş verirdilər. Müəssisələrdə qadın, yeniyetmə və uşaq əməyindən geniş istifadə edilirdi. İnqilab illərində qanunsuz cərimələrin sayı çoxalmışdı. Fəhlələrin iş şəraiti, təhlükəsizlik texnikası çox aşağı səviyyədə olmuşdur. Bakıda hər bir quyu qazılıb istifadəyə verildikdən sonra orta hesabla 10 adamdan biri ölür və ya şikəst olurdu.

Sosial qanunvericiliyin, xüsusilə də sığorta qanununun olmaması (bu qanun yalnız 1912-ci ildə qəbul edilmişdi) əsrin əvvəllərində bədbəxt hadisələrin sayını artırırdı. Çünki müəssisə sahibləri heç bir maddi və mənəvi məsuliyyət daşımırdılar. Xəstəliyə tutulmuş və şikəst olmuş fəhlə yaşamaq vasitələrindən məhrum edilirdi.

Sahibkarların qanunsuz hərəkətləri və özbaşınalıqları, fəhlələrlə kobud rəftar edilməsi, onların döyülməsi, xəstəliyə görə işə çıxmamaq üstündə işdən qovulmaq adi hala çevrilmişdi. Mövsümi fəhlələr daha dözülməz iş şəraitində çalışır, çox cüzi maaş alırdılar. Azərbaycan fəhlələri rus hökumətinin qanunları ilə idarə olunur, milli xüsusiyyətlər nəzərə alınmırdı. Rusiya imperiyasında əhalinin hər yüz nəfərinə düşən fəhlənin sayına görə Bakı quberniyası Moskva, Peterburq və Vladimir quberniyalarından sonra dördüncü yeri tuturdu. Bakı sənaye rayonu isə Azərbaycanın ümumi gəlirinin yarısını, bütün sənaye məhsulunun isə 71%-dən çoxunu verirdi. Azərbaycan fəhlələri ümumi fəhlələrin sayının 41%-ni təşkil edirdi.

Kəndlilər. XX əsrin əvvəllərində Azərbaycan kəndlilərinin vəziyyəti daha da ağır idi. Onlar torpaqsızlıqdan və aztorpaqlılıqdan daha böyük əziyyət çəkirdilər. Torpaqların 3/4 hissəsindən çoxu xəzinənin (dövlətin) ixtiyarında idi. Ümumi əhalinin 80%-i kəndlərdə yaşayırdı. Onların isə 70%-ni xəzinə torpaqlarında yaşayan **dövlət və xanədan kəndliləri** təşkil edirdi. Kəndli şəxsən azad olmaqla öz pay torpağından istifadəyə görə dövlətə töycü verirdi. Dövlət kəndliləri nisbətən geniş hüquqlara malik idi.

Şəxsən azad olan kəndli pay torpaqlarından istifadəyə görə dövlətə töycü verirdi. Kəndli torpağı sata, bağışlaya, icarəyə verə bilərdi. Ümumi vətəndaşlıq hüquqları əldə etmiş kəndli hüquqi şəxs kimi çıxış etmək – saziş bağlamaq, iddia irəli sürmək, daşınar və daşınmaz əmlaka sahib olmaq hüququna malik idi.

Kəndlilərin ikinci böyük qrupunu bəy, mülkədar və yaranmaqda olan qolçomaq torpaqlarında yaşayan **sahibkar kəndliləri** təşkil edirdi. İqtisadi cəhətdən mülkədarlardan asılı olan kəndli ödənc müqaviləsi bağlanana qədər hələ də müvəqqəti mükəlləfiyyətli hesab olunurdu. Sahibkar kəndliləri dövlət kəndlilərinə nisbətən torpaqla pis təmin olunmuş, əsasən məhsuldar olmayan torpaqlara malik idilər.

Torpağın daimi mülkiyyətçisi olmuş **icma kəndliləri** arasında təbəqələşmə getdikcə qüvvətlənmişdi. İcmada vergi verməkdə, dövlət və mülkədar mükəlləfiyyətlərini yerinə yetirməkdə ellikə zəmanət saxlanılırdı. Tədricən icma torpaqlarının çox hissəsini ələ keçirmiş qolçomaqlar və varlı kəndlilər pay torpaqlarının vaxtaşırı bölüşdürülməsi qaydasını daim pozurdular.

1901-ci il yanvarın 1-dən qüvvəyə minən yeni torpaq qanunu bütün kateqoriyalarda olan kəndlilərin dövlət və sahibkar qarşısında vergi və mükəlləfiyyətlərini dəqiq müəyyən edirdi. Belə ki, dövlət kəndliləri özlərinin həmişəlik istifadəsində olan pay torpaqlarına görə xəzinəyə həyətbaşı (tüstü) adlanan vergi əvəzinə, gəlirin 10-12 faizini təşkil edən dövlət töycüsü, istifadə etdiyi digər torpaqlara görə torpaq vergisi və bütün kateqoriyalardan olan torpaqlara aid olunan zemski rüsumu ödəməli idilər. Zemski rüsumi yerli xərclərin - təhsil, səhiyyə, baytarlıq, əsasən də yerli inzibati idarəetmə aparatının saxlanılması üçün alınırdı.

Mülkədar kəndliləri öz ağasının xeyrinə mükəlləfiyyətlər yerinə yetirir, malcəhət, yaxud bəhrə, qışlaqda saxlanılan heyvanlar üçün ot pulu, tüstü pulu, bağ pulu və s. ödəyirdilər.

Rusiya imperiyası köçürmə siyasəti apararaq Azərbaycanın münbit ərazilərinə etnik rusları köçürürdü.

Azərbaycanda kişi əhalisinin orduya çağırılmamasına görə hərbi vergi tətbiq edilmişdi.

Milli burjuaziya. Azərbaycanda XX əsrin əvvəllərində formalaşmış milli burjuaziya xalqın sosial-iqtisadi həyatında müsbət rol oynamışdı. Milli burjuaziyanın iqtisadi cəhətdən qüvvətlənməsi digər millətlərdən olan burjuaziyaya qarşı güclü rəqabət aparmağa imkan vermiş, qeyri-azərbaycanlılardan ibarət kapitalistlərin fəhlələrə qarşı ayrı-seçkilik siyasətinə güclü zərbə vurmuşdu.

Azərbaycan burjuaziyasının nümayəndələri sahibkarlıq fəaliyyətində ayrı-seçkiliyin olmasından, azərbaycanlı kapitalistlərə ruslarla bərabər hüququn verilməməsindən, şəhər özünüidarəsində milli nümayəndəliyə say məhdudiyyəti qoyulmasından, ümumiyyətlə müsəlmanların dirçəliş və tərəqqi etməsinə törədilən əngəllərdən nara-

zılıqlarını bildirsə də, rus imperializminə qarşı münasibətdə loyal mövqedə dayanır, siyasi yetkinlik göstərmirdilər. Milli burjuaziya siyasi partiya və ictimai təşkilat yaratmaq, xalqın və milli kapitalın qorunmasında səylərini birləşdirmək baxımından heç bir iş görməmişdir. Belə ki, milli sahibkarlar Bakı Neft Sənayeçiləri Qurultayı Şurası (BNSQŞ) və birinci dünya müharibəsi dövründə təşkil edilmiş Bakı Hərbi-Sənaye Komitəsi (BHSK) tərkibinə daxil edilməmişdilər. Tacirlərin yarıya qədərinin azərbaycanlı olmasına baxmayaraq, Bakı sənaye rayonunun Birja cəmiyyətinin daimi seçkili orqanı olan Birja Komitəsində milli burjuaziyadan nümayəndə yox idi.

Azərbaycanda fəaliyyət göstərən bankların demək olar ki, hamısının sahibi qeyri-azərbaycanlılar idi. Yalnız 1914-cü ildə Bakıda H.Z. Tağıyev və M.Nağıyev tərəfindən ilk milli bank ("Tacir" bank) təsis edilmişdir.

Rus hökuməti rus kapitalistlərinin mənafeyini güdərək milli ucqarlarda sənaye müəssisələrinin yaradılmasına çalışmamış, həmin əraziləri Rusiyanın xammal mənbəyi kimi görmək istəmişdir. H.Z. Tağıyev Bakıda toxuculuq fabrikini açmaq üçün səy göstərmiş, çar məmurlarına "hədiyyələr" verməyə məcbur olmuşdur.

XX əsrin əvvəllərində Rusiya Sosial-Demokrat Fəhlə Partiyası (RSDFP) Azərbaycanda təşkilatlarını yaradıb yerli xalq arasında təbliğatı genişləndirmiş, imperiya maraqlarına xidmət edən siyasət aparmışdır. Azərbaycan burjuaziyasının isə çarizmə, müstəmləkəçiliyə qarşı mübarizə aparacaq siyasi fəallığı olmadığından bu işin aparılması ziyalıların öhdəsinə düşmüşdür. Ziyalıların bir hissəsinin, xüsusilə də Rusiyada, Qərbi Avropada təhsil alanların arasında liberalizm baxışları möhkəmlənirdi. Bakı kimi inkişaf etmiş şəhərdə ali məktəblər açmaq barədə çar hökuməti heç bir səy göstərmirdi. Azərbaycanlı ziyalılar müstəmləkə zülmündən qurtarmaq üçün xalqın milli özünü dərk etməsinin vacibliyini anlayırdılar.

Milli azadlıq hərəkatına rəhbərlik etmək üçün siyasi partiya yaradılması ən aktual məsələ kimi qarşıda dururdu. Keçmiş hümmətçilərdən ibarət qrup 1911-ci il oktyabrın 11-də Müsəlman demokrat "Müsavat partiyasının" əsasını qoydular. Romanovlar sülaləsinin 300

illiyi münasibəti ilə çar tərəfindən verilmiş əfv olunmadan sonra Bakıya qayıdan M.Ə. Rəsulzadə "Müsavat" ("Bərabərlik") partiyasına daxil olur. "Müsavat" partiyası bütün müsəlman xalqlarının müstəqillik və tərəqqisi uğrunda mübarizə aparmaq ideyasını əsas məqsəd hesab edirdi.

Dövlət quruluşu. XX əsrin əvvəllərində Azərbaycan Rusiyanın tərkibinə daxil olmaqla imperiya qanunları ilə idarə edilirdi. Birinci rus inqilabı çar hakimiyyət orqanlarından imperiya quruluşunda bəzi dəyişikliklər keçirilməsinə hökuməti vadar edirdi. Həmin dövrdə imperiya qanunlarına edilmiş dəyişikliklər Azərbaycana da şamil olunurdu.

1905-ci il avqust ayının 6-da Dövlət Dumasının təsis olunması barədə çar manifesti verilir. Əsasnamənin birinci maddəsində göstərilirdi ki, Dövlət Duması məşvərətçi orqan kimi təsis edilir. Duma Dövlət Şurasına və çara göndəriləcək əsas qanunları işləyib və müzakirə etdikdən sonra onlara təqdim etməli idi. Dövlət Şurasından asılı vəziyyətdə olan Dumanın qəbul etdiyi qərarların imperator üçün heç bir əhəmiyyəti mövcud olmamışdır. Belə ki, çar Dumanın qərarlarını istədiyi vaxt imzalamaya bilərdi. Dövlət Dumasına seçkiləri quberniyalar, vilayətlər və iri şəhərlər üzrə keçirmək nəzərdə tutulurdu.

Dövlət Dumasına seçkilər keçirilməsi qaydası 1905-ci il dekabrın 11-də çarın verdiyi seçki qanununa əsasən müəyyən edilmişdi. Seçki qanunu elə tərtib edilmişdir ki, Dumada deputatların əksəriyyəti mülkədar və burjua nümayəndələrindən ibarət olmalı idi. Seçicilər əmlak və silki vəziyyətdən asılı olaraq dörd dərəcəyə bölünürdü. Seçkilər çoxdərəcəli, yəni mülkədarlar və burjuaziya üçün ikidərəcəli, fəhlələr üçün üçdərəcəli və kəndlilər üçün dörddərəcəli idi. Seçkilər qeyri-bərabər idi. Belə ki, mülkədarlardan 2 min nəfərə, burjuaziyadan 4 min nəfərə, kəndlilərdən 30 min nəfərə, fəhlələrdən 90 min nəfərə bir seçici seçilirdi. 1905-ci il 11 dekabr qanununda seçki senzi qadınları, 25 yaşına çatmayan şəxsləri, orduda qulluq edənləri və köçəri həyat keçirən kiçik xalqları seçki hüququndan məhrum edirdi.

Hökumət birinci Dumaya seçkiləri 1906-cı ilin fevralın axırı - martın əvvəllərində keçirməyi nəzərdə tutmuşdur.

1906-cı il fevralın 20-də çar "Dövlət Dumasının təsis edilməsi haqqında" Əsasnaməni elan etdi, eyni zamanda elə həmin gün Dövlət Şurasının yenidən qurulması haqqında fərman verdi. Faktiki olaraq Dövlət Şurası parlamentin yuxarı palatası kimi Dumada qəbul olunmuş qanunları təsdiq etmək hüququ aldı. Dövlət Şurasının səlahiyyətləri genişləndirilməklə onun üzvlərinin yarısını şəxsən çar özü təyin edir, qalan hissəsi isə seçilirdi. "Fövqəladə hallarda" imperatorun razılığı ilə qanunvericilik hüququ Nazirlər Şurasına verilirdi.

Dövlət Şurasının üzvləri 9 il müddətinə seçilməklə hər üç ildən bir onun tərkibinin üçdə biri növbə ilə yenidən seçilirdi. Dövlət Şurasının təyin edilən hissəsi üçün 40 yaş senzi və orta təhsilin olması və ya ona uyğun sınaqdan keçməsi müəyyən edilirdi.

Şuranın seçilən hissəsi aşağıda göstərilən qaydada müəyyən edilirdi: Senatdan 6 nəfər, hər bir quberniyadan bir nəfər iri torpaq sahibi, zadəgan cəmiyyətlərindən 18 nəfər, Akademiyadan 6 nəfər, sənaye və ticarət nümayəndələrinin hər birindən 6 nəfər seçilirdi.

Dövlət Şurasının səlahiyyətləri ilə Dövlət Dumasının səlahiyyətləri arasında böyük fərq mövcud olmamışdı. Fərq yalnız onda idi ki, Şura daha çox siyasi təsir etmə qüvvəsinə malik olmaqla çar tərəfindən həmişə müdafiə olunurdu.

Dövlət Şurasına çar tərəfindən təyin olunan sədr və sədr müavini başçılıq edirdi. Şuranın toplanma müddətlərini çar müəyyən edirdi. Komissiyaların yaradılması Şuranın səlahiyyətində idi.

I Dövlət Duması 1906-cı il aprelin 27-də işə başladı. İclasın keçirilməsinə dörd gün qalmış "Əsas dövlət qanunları məcəlləsi" yeni redaksiyada dərc olundu. Qanunvericilik səlahiyyəti əsasən çarın ixtiyarında saxlanılmış, Dövlət Dumasının və Dövlət Şurasının bu sahədə hüquqları azaldılmışdı.

Dumanın Birləşmiş Zadəganlar Şurasının mülkədar torpaqlarının müsadirə edilməsinə yönəlmiş aqrar məsələ ilə bağlı təklifi hökuməti qorxuya saldı. Nəticədə 1906-cı il iyunun 9-da çar manifestinə əsasən I Duma buraxıldı.

1907-ci ilin yanvar - fevral ayında II Dumaya seçkilər keçirildi. 1907-ci il fevralın 20-də Duma işə başladı. Yenə də Dumanın müza-

kirəsinə 4 aqrar qanun verildi. Stolıpin hökuməti aqrar məsələdə heç bir güzəşt etmək istəmirdi. 1907-ci il iyunun 3-də çar II Dumanın buraxılması haqqında fərman verdi.

1907-ci il iyunun 3-də III Dumaya seçkilərə dair yeni qanun imzalandı. Yeni qanun çarizmə silki seçkilər təşkil etmək imkanı verirdi. Belə ki, əvvəlki qanunda quberniya seçki məclislərinə seçkilər torpaq sahibliyi, birinci və ikinci şəhər, kəndli və fəhlə kuriyaları üzrə keçirilirdi. Yeni əsasnaməyə görə isə hökumət mülkədarlardan və ticarət-sənaye burjuaziyasının yuxarı təbəqələrindən ibarət seçicilərin sayını artırırdı. Yeni seçki qanunu, əvvəllər olduğu kimi, yenə də qadınları, tələbə-gəncləri, yoxsulları, muzdurları seçkiyə buraxmırdı. Yalnız kəndli təsərrüfatının başçısı olan kəndlilər seçkilərdə iştirak edə bilərdilər. Dumaya seçkilərdə, həmçinin, bütün hərbi qulluqçulara seçki hüququ verilmədi. Qeyri-rus millətlərin hüquqları daha da məhdudlaşdırıldı. Bakı və Yelizavetpol qəzalarından Ə. Topçubaşov, İ. Ziyadxanov, F. Xoyski, X. Xasməmmədov, Ə. Haqverdiyev və başqaları Dövlət Dumasının deputatları olmuş, müsəlman fraksiyasını yaratmışdırlar.

Stolıpin hökuməti 1907-ci il iyunun 3-də dövlət çevrilişi etdikdən sonra ölkənin quberniyalarının 70 faizindən çoxunda "fövqəladə" və "güclü" mühafizə vəziyyəti elan etdi.

1906-cı il avqustun 19-da hökumət fövqəladə qanunvericilik qaydasında hərbi səhra məhkəmələrinin əsasnaməsini dərc etdirdi. Əsasnaməyə görə, fövqəladə və hərbi vəziyyət elan olunmuş ərazilərdə hərbi səhra məhkəmələrinin yaradılması nəzərdə tutulurdu. Siyasi xarakter kəsb edən bütün işlərə səhra məhkəmələrində baxılması nəzərdə tutulurdu. Əsasnaməyə görə siyasi işlərə ibtidai istintaq aparılmadan bir gün ərzində baxılmalı idi.

1906-1909-cu illər ərzində müxtəlif çar məhkəmələri 5 mindən artıq ölüm hökmü çıxarmış, bu hökmlərin 3 mini icra edilmişdi. Hərbi səhra məhkəmələri əsasnaməsi Duma tərəfindən təsdiq edilmədiyindən 1907-ci ildən onların fəaliyyəti dayandırıldı.

1912-ci ildə III Duma buraxıldı. Həmin ilin payızında IV Dövlət Dumasına keçirilmiş seçkilər deputatlar arasında qüvvələr nisbətin-

də cüzi dəyişiklik etdi. Sağ oktyabristlər (17 oktyabr 1905-ci il Manifesti tərəfdarları) 284 yer, oktyabrist-kadetlər (konstitusiyalı monarxiya tərəfdarları) isə 258 yer aldılar.

Rusiyada çarizmin devrilməsi. 1917-ci il fevralın 14-də Dövlət Dumasının növbəti sessiyasının açılışı günü kütləvi nümayişlər keçirildi. Petroqrad Sovetində əksəriyyət təşkil edən menşevik və eserlər çar II Nikolayın razılığı ilə martın 2-də Müvəqqəti burjua hökuməti yaratdılar. 1917-ci il martın 5-də daxili işlər naziri knyaz Lvov bütün qubernatorları və qubernator müavinlərini hakimiyyətdən kənar etdi və zemstvo idarələrinin sədrlərinə təklif etdi ki, onların vəzifələrini icra etsinlər. Martın 12-də hökumət çara məxsus olmuş torpaqları alıb xəzinəyə verir. Martın 16-da udel (xanədan) torpaqları barəsində eyni cür sərəncam verilir. Beləliklə, 304 il davam etmiş Romanovlar sülaləsinin hakimiyyəti ikinci rus inqilabı ilə devrilir və Müvəqqəti hökumət yaradılır.

Rusiya imperiyasını saxlamağa çalışan Müvəqqəti hökumət yerlərdə öz hakimiyyət orqanlarını yaradırdı. 1917-ci il mart ayının 9-da Qafqaz canişinliyi Xüsusi Zaqafqaziya Komitəsi ilə, qubernatorlar isə quberniya komissarları ilə əvəz olundu. Yaranmış şəraitdə martın 29-da Bakıda toplanan milli qüvvələr "Müsəlman Milli Şurası" təşkil etdilər. Şuranın müvəqqəti icariyyə komitəsi yaradıldı. Məmmədhəsən Hacınski komitənin sədri, M.Ə. Rəsulzadə isə müavin təyin olundu.

1917-ci il aprelin 15-dən 20-dək Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirildi. Qurultayda milli ərazi müxtariyyəti ideyası irəli sürüldü. Ümumiyyətlə isə bütün Rusiya müsəlmanları arasında iki cərəyan – **unitaristlər** və **federalistlər** mövcud idi. Unitaristlər müsəlmanlara Rusiya dövləti tərkibində yalnız milli-mədəni muxtariyyət, federalistlər isə Rusiya federativ burjua respublikası daxilində müsəlmanlara ərazi muxtariyyəti verilməsi ideyası ilə çıxış edirdilər.

1917-ci il mayın 1-dən 11-dək Moskvada Ümumrusiya müsəlmanları qurultayında federalistlər 271 səsə qarşı 446 səs çoxluğu ilə qətnamə qəbul olunmasına nail oldular.

1917-ci ilin sentyabrında Azərbaycanda yeni siyasi qüvvə, əvvəlcə "Rusiyada müsəlmanlıq", sonralar isə "ittihad" adlanan partiya

yaradıldı. Müsəlman Milli Şurasında "Müsavat", sosialist "Hümmət" və "Ədalət" təşkilatları ilə yanaşı, "İttihad" da fəal iştirak edirdi.

1917-ci il oktyabrın 22-də Bakı Sovetinə seçkilərdə "Müsavat" partiyası qələbə çaldı. Partiyanın qələbə çalmasında radikal tələblərin: müharibəni dərhal dayandırmaq, təzminatsız və ilhaqsız sülh bağlanması, bütün torpaqların müsadirə edilib pulsuz kəndlilərə verilməsi, zəhmətkeşlərin tələblərinin ödənilməsi və s. tələblərin böyük rolu olmuşdur. Lakin seçkilərdə qələbə qazanmış "Müsavat" çox böyük taktiki səhv etdi - Bakı Sovetinə və onun İcariyyə Komitəsinə daxil olmadı. Bundan istifadə edən Ş. Şaumyan gələcəkdə öz mövqelərini Bakı Sovetində möhkəmləndirdi.

1917-ci ilin yaz və yayında Bakının neft mədən və zavodlarında tətillər, yığıncaqlar keçirildi. Fəhlələrin mənafeyini müdafiə edən mədən-zavod komissiyaları yaradıldı. 1917-ci il iyulun 16-da keçirilən konfransda onlar daimi fəaliyyət göstərən orqana çevrildilər. Sentyabrın 17-də mədən-zavod komissiyaları konfransının növbəti iclasında Müvəqqəti hökumətin siyasəti pisləndi və sahibkarlara mədən-zavod komissiyalarının danışıqsız tanınmasını, fəhlələrin işə götürülməsi və işdən çıxarılmasında bu komissiyaların iştirakını, müştərək müqavilənin bağlanılmasını tələb edən ultimatum verildi. Fəhlələrin ultimatumu rədd edildi. Lakin ümumbakı tətilindən sonra oktyabrın 2-də müştərək müqavilə bağlanıldı.

Oktyabrın 13-də Bakı Sovetinin İcraiyyə Komitəsi istefa verdi. Ş. Şaumyanın rəhbərliyi ilə Müvəqqəti İcraiyyə Komitəsi seçildi.

1917-ci ilin oktyabrın 25-də Petroqradda bolşevik silahlı çevrilişi edildi və Rusiya Sovet Respublikası yaradıldı. Noyabrın 2-də isə Bakı Sovet İcraiyyə Komitəsi Bakı şəhərində və Bakı rayonunda ali hakimiyyət orqanı elan edildi. Bakı Soveti İcraiyyə Komitəsinin yeni tərkibi seçildi. Bakı fəhlə deputatları Soveti ilə Bakı hərbi deputatları Soveti birləşdirildi və onu Bakı Fəhlə və Əsgər Deputatları Soveti adlandırmaq qərara alındı.

1917-ci ilin dekabrında Sovetin yeni tərkibinə 190 deputat, o cümlədən "Müsavat" partiyasından 18 deputat seçildi.

Rusiyada Müvəqqəti hökumət dövründə hakimiyyət torpaq, 8 saatlıq iş günü və digər məsələləri həll etmək üçün seçkili Müəssislər Məclisini çağırmaq və bu işləri orada həll etmək qərarına gəlmişdi. 1917-ci ilin noyabrında keçmiş Rusiya imperiyası ərazisində Müəssislər Məclisinə seçkilər keçirildi.

1918-ci ilin yanvarın 5-də işə başlayan Müəssislər Məclisi ertəsi gün Sovet hökuməti tərəfindən qovuldu. Milli ərazilərin muxtariyyət qazanması ümidi heçə endirildi.

Müəssislər Məclisində Cənubi Qafqazdan seçilmiş nümayəndələr fevralın 23-də Tiflisdə toplanaraq özlərinin qanunverici orqanını – Zaqafqaziya Seymini (parlamentini) yaratdılar. Azərbaycan fraksiyası seymdə 44 nümayəndə ilə təmsil olunmuşdu. Hər fraksiyadan bir nəfər olmaqla idarə heyəti yaradıldı.

1918-ci il martın 18-də Bakıda qırğın törətmiş ermənilərə etiraz əlaməti olaraq Azərbaycan (müsəlman) fraksiyası seymin tərkibindən çıxdığını elan etdi. Seymin müsəlman fraksiyası Cənubi Qafqazda müstəqil respublikaların yaradılması tələbi ilə çıxış edirdi.

1918-ci il aprelin 22-də Cənubi Qafqaz seymi Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradıldığını elan etdi. Gürcüstan, Azərbaycan və Ermənistan müstəqil respublikalar kimi federasiya tərkibinə daxil edildilər. Lakin respublikalararası ziddiyyətlər tezliklə Federasiyanın dağılması ilə nəticələndi.

Yeni dövlət orqanlarının təşkili. 1918-ci il aprelin 25-də Bakı quberniya Xalq Komissarları Soveti yaradıldı. Onun sədri Ş. Şaumyan seçildi. Yeni hökumət orqanının tərkibinə iki nəfər azərbaycanlı – N. Nərimanov və M. Vəzirov daxil idi. Xalq Komissarları Sovetində komissarların yarıya qədəri ermənilərdən təşkil edilmişdi.

1918-ci il mayın 1-də Bakı Xalq Komissarları Sovetinin bəyannaməsi elan edildi. Bəyannamədə yeni hökumətin Sovet Ümumrusiya Mərkəzi hökuməti ilə sıx əlaqə saxlayacağı və onun qəbul etdiyi bütün dekret və qərarları özü üçün vacib hesab etdiyi bildirilirdi.

Bəyannamədən dərhal sonra banklar, neft sənayesi, ticarət donanması, nəqliyyat və digər sahələr milliləşdirildi. Həmin müəssisələrə dövlət tərəfindən komissarlar təyin edildi.

XKS-i quberniya məhkəmə sistemini ləğv edərək, qəza və mahal məhkəmələrini təşkil etdi. Məhkəmənin tərkibi hakimdən və iki nəfər islasçıdan ibarət idi. Məhkəmə iclası iki dildə – Azərbaycan və rus dillərində aparılırdı.

Bakı Xalq Komissarları Soveti yanında Fövqəladə Komissiya da təsis edildi. Fövqəladə Komissiyanın sədri erməni təyin edildi. Daxili İşlər Komissarlığı yanında hərbi tribunal yaradıldı.

Əhalinin bir hissəsini orduya çağırmaq qərara alınmışdı. Bakı quberniyasında mülkədar torpaqlarının, iri malikanələrin, mülkədarların mal-qara, at və kənd təsərrüfatı alətlərinin bir qismi müsadirə edilərək kəndlilər arasında bölüşdürüldü.

Hüququn inkişaf xüsusiyyətləri. XX əsrin əvvəllərində Rusiya imperiyasının qanunları əsas dövlət qanunları kimi Azərbaycan ərazisində tətbiq edilirdi. İnqilabi yüksəliş dövründə çar hökuməti qanunvericilikdə bir sıra yeniliklər etməyə məcbur olmuşdur.

1905-ci il 17 oktyabr manifestindən sonra çar hökuməti vətəndaş azadlıqlarının təmin olunmasında və qorunmasında elə bir ciddi dəyişiklik etməmiş, yalnız bəzi müvəqqəti qaydaların tətbiq olunmasına dair fərman imzalamışdır. Digər tərəfdən isə müvəqqəti qaydalar çarın vəd etdiyi söz azadlığı, mətbuat, ittifaqlar, vicdan və s. hüquqların təmin olunmasına xidmət etmirdi.

Mətbuat haqqında müvəqqəti qaydalar. Bu qaydalar 1905-ci il noyabrın 24-də verilmişdir. Qaydalara uyğun olaraq dövri mətbuat üzərində ilkin və ümumi senzura götürülürdü. Dövri mətbuata tətbiq olunan inzibati cərimələr də ləğv edilirdi. Lakin bu qayda yerlərdəki mətbuata deyil, yalnız şəhər mətbuatına aid edilirdi. Qaydaların 9-cu maddəsinə müvafiq olaraq hökumət mətbuatının hər bir nömrəsinə həbs qoyula bilərdi. İnzibati orqanlar tərəfindən qoyulmuş həbs məhkəmə istintaqının köməyi ilə günahkarları müəyyən etməli idi.

Mətbuatdakı cinayət əməlinə görə müvəqqəti qaydalar çox ağır cəzalar müəyyən edirdi.

Məhkəmənin qərarı ilə nəşriyyat müvəqqəti dayandırıla və ya tamamilə qadağan oluna bilərdi. Beləliklə, müvəqqəti qaydalar nəinki mətbuat azadlığını təmin edir, əksinə redaktor və müəlliflər əleyhinə repressiyanı daha da gücləndirirdi.

1906-cı ilin 18 martında müvəqqəti qaydalara əlavələr və dəyişikliklər edildi. Dövri mətbuat üçün edilmiş dəyişikliklərdə məqsəd mətbuatı daha da sıxışdırmaq, mətbuat işçilərinə qarşı təzyiqləri artırmaq idi.

1906-cı il aprelin 26-da qeyri-dövri mətbuat barəsində müvəqqəti qaydalar müəyyən edildi. Bu qaydalar da ilkin və ümumi senzuranı ləğv edirdi. Mətbuat üzrə yerli komitə və ya təlimatçı nəşrə həbs qoya bilərdi. Həbs üçün bəhanə cinayət qanunvericiliyində nəzərdə tutulmuş qaydaların pozulmasının əlamətləri və ya cinayətin özü ola bilərdi. Broşura və kitabların çap edilməsində günahkar olan şəxslər 26 aprel qaydalarına uyğun olaraq il yarıma qədər həbsxana cəzasına məruz qalırdılar.

Cəmiyyətlər və ittifaqlar haqqında müvəqqəti qaydalar. 1906-cı il martın 4-də cəmiyyətlər və ittifaqlar haqqında müvəqqəti qaydalar dərc edildi. Müvəqqəti qaydalara görə hakimiyyət orqanlarının icazəsi ilə cəmiyyətlər və ittifaqlar yaradıla bilərdi. Lakin bu ümumi prinsip çoxlu məhdudiyyətlərlə tənzimləndiyindən cəmiyyət və ittifaqların azadlığından danışmaq əbəs idi. İstənilən cəmiyyəti hakim sinfin iradəsindən asılı olaraq ictimai sakitliyi pozmağa görə ittiham etmək çox asan idi. Bu məsələdə ali instansiya daxili işlər naziri idi. O, öz istədiyi kimi istənilən ictimai cəmiyyəti bağlaya bilərdi. Cəmiyyət və ya ittifaq yaratmaq istəyən şəxs cəmiyyətin nizamnaməsinin layihəsini müvafiq nazirliyə təqdim etməli idi.

Yeniyetmələr, ali və orta ixtisas məktəblərində oxuyanlar cəmiyyətin yaradılmasına və onun fəaliyyətində iştirak etməyə buraxılmırdılar. Ali məktəblərdə təhsil alanlar yalnız öz təhsil müəssisələrinin nizamnaməsinə uyğun yaradılmış cəmiyyətlərdə iştirak edə bilərdilər.

Hökumət müəssisələrində xidmət edən, dövlət və şəxsi dəmiryollarında, ümumi istifadədə olan telefon-rabitə müəssisələrində çalışanlar maddi və mənəvi tələbatlarını ödəmək üçün öz müəssisə rəhbərlərinin razılığı ilə xeyriyyə cəmiyyətləri yaratmaq hüququna malik idilər. Nazirlər istədiyi vaxt həmin cəmiyyətləri nizamnamədən kənarlaşmalar adı ilə bağlaya bilərdilər.

Cəmiyyət və ittifaqların təşkil edilməsi, qeydiyyata alınması, qadağan olunması və ya bağlanması quberniya, vilayət və şəhərlərdə

dövlət idarələri yanında yaradılmış xüsusi orqanlar vasitəsilə həyata keçirilirdi.

Qubernator və ya şəhər rəisi cəmiyyətin fəaliyyətində ictimai sakitliyə və təhlükəsizliyə hər hansı bir təhlükə müəyyən edərdisə, dərhal həmin cəmiyyəti bağlaya bilərdi. Quberniya idarəsi yanındakı ictimai işlər üzrə idarə həmin məsələyə baxıb son qərar verirdi.

Müvəqqəti qaydaların ikinci hissəsi həmkarlar təşkilatlarının fəaliyyəti ilə bağlı məsələləri nizamlayırdı. Qaydalara görə, həmkarlar ittifaqlarının əsas vəzifələri müəssisələrdə əməkçilərin iş şəraitini yaxşılaşdırmaq, müəssisə sahibləri ilə fəhlələr arasında "iqtisadi maraqları tənzimləyib" son nəticədə əmək məhsuldarlığına nail olmaq idi. Xarakterik cəhətlərdən biri də bundan ibarət idi ki, hökumət sahibkarlar ittifaqını da həmkarlar ittifaqına aid edirdi.

Çarizm bütün səylərini həmkarlar ittifaqlarının güclü bir təşkilata çevrilməsinin qarşısının alınmasına yönəltmişdi. 1906-cı il 4 mart qaydaları iki və ya bir neçə həmkarlar təşkilatı və ittifaqların birləşməsini qadağan edirdi. Xarici dövlətdə yaşayan şəxslər və təşkilatlar tərəfindən həmkarlar ittifaqının təsis edilməsi qadağan olunurdu. Digər tərəfdən, istehsal əlamətlərinə görə həmkarlar ittifaqının yaradılmasına qəti yol verilmirdi. 4 mart qaydalarına görə, bir peşə və ya bir-biri ilə əlaqədar olan istehsal sahələri üzrə işləyən fəhlələr həmkarlar ittifaqına daxil ola bilərdilər. Dövlət qulluğunda olanlara həmkarlar ittifaqını təsis etmək qadağan edilirdi. Cəmiyyət ittifaqlarının və ya cəmiyyətlərin yaradılmasında müəyyən edilmiş qaydaların pozulmasında günahkar olan şəxslər üç ay müddətində həbs cəzasına məhkum edilir, siyasi məqsəd daşıyan və ya xaricdə yaşayan şəxs və təşkilat tərəfindən yaradılan cəmiyyət və ittifaq sədri bir il müddətinə qədər qalaya və ya həbsxanaya salınırdı.

Yığıncaqlar barəsində müvəqqəti qaydalar. 1906-cı il martın 4-də yığıncaqlar barəsində müvəqqəti qaydalar dərc edilir. 17 oktyabr manifestindən irəli gələn "azadlıqlar" Müvəqqəti qaydalarda əks olunmuşdu. Belə ki, qaydalar azad yığıncaq anlayışını minimuma endirirdi. Təhsil müəssisələrində toplantıları yalnız dərs və tədris prosesi üzrə keçirmək olardı. Həm də belə toplantılar tədris

müəssisələrinin nizamnaməsinə uyğunlaşdırılırdı. Küçə və meydanlarda yığıncaqlar qubernatorun və ya şəhər rəisinin icazəsi ilə keçirilməli idi. Hətta çar sarayının, Dövlət Duması və Şurasının yerləşdiyi ərazilərdən yarım verst məsafədə, bina daxilində iclas keçirmək qadağan edilirdi. Açıq havada isə bu iki verstlik (1,06 km.) məsafədə nəzərdə tutulurdu. Kütləvi yığıncaqları mehmanxana, restoran, ictimai yeməkxanalarda və s. yerlərdə keçirmək qadağan olunurdu.

Kütləvi yığıncaqlara silahlı şəxslər, azyaşlılar, o cümlədən aşağı və orta təhsil müəssisələrində oxuyanlar buraxılmırdı.

Kütləvi toplantı keçirmək istəyən şəxslər ən geci üç gün müddətində yerli polis rəisinə müraciət etməli idilər. Polis rəisi tədbirin ictimai sakitlik və təhlükəsizliyin və ya cinayət qanunvericiliyinin tələblərinə uyğun olmaması bəhanəsi ilə onun keçirilməsini qadağan edə bilərdi. Yığıncağa icazə verildiyi şəraitdə qubernator və ya yerli polis rəisi tərəfindən xüsusi təyin edilmiş məmur iclasın keçirilməsinə nəzarət hüququna malik olur. Çox zaman pristav iki dəfə xəbərdarlıqdan sonra iclası bağlaya bilərdi. "Qaydalar" polis nümayəndələrinə də özbaşına səlahiyyətlər verirdi.

Polis nəfəri "toplantının mövzudan kənara çıxdığını" müəyyən edərdisə, iclası bağlaya bilərdi. Bu isə guya iclasda əhalinin bir hissəsini digər hissəsinə qarşı düşmən mövqeyi tutmaqda günahlandırmaqdan ibarət ola bilərdi. İclasda pul ianəsi toplamaq qadağan edilirdi. Hər hansı kənar şəxsin iclas zalına daxil olması onun dayandırılması ilə nəticələnə bilərdi.

"Qaydalar"ı pozanlara qarşı cəzalar da müəyyən edilirdi. "Münasib" olmayan bəyanatlarla çıxış edən şəxs üç ay müddətinə həbs edilir və ya pul cəriməsi ödəyirdi. Silahla iclasa daxil olan şəxsi də belə cəza gözləyirdi.

XX əsrin əvvəllərində aqrar islahatlar və qanunlar. 1906-cı ilin iyununda çar hökuməti kəndli icmasının ləğv edilməsi və icma torpaqlarının kəndlilərin şəxsi mülkiyyətinə verilməsi barədə öz təkliflərini baxılmaq üçün I Dövlət Dumasının müzakirəsinə verdi. Lakin Duma buraxıldığından icma kəndli torpaq sahibliyindən xüsusi torpaq sahibliyinə keçmək haqqında qanun 1906-cı il noyabrın 9-da Dövlət Dumasında müzakirə olunmadan elan edildi.

1906-cı il 9 noyabr qanununa əsasən, icma torpaqlarına sahib olan hər bir kəndliyə icma torpağından ona düşən payı xüsusi mülkiyyət kimi almaq hüququ verilirdi. 24 il ərzində torpaqların yenidən dövrəşırı bölünmədiyi kəndli icmalarında kəndlilər bu vaxta qədər istifadə etdikləri torpaq sahələrinin mülkiyyətçisi ola bilərdi. Fərman mülkiyyətçi kəndlərə köhnə yerdə yaşamaqda davam etmək, yaxud onlara mülkiyyət kimi ayrılmış torpaq sahəsinə keçmək hüququ verirdi. Birinci halda onlar oturaq kəndlilər, ikinci halda xutor sahibləri adlanırdılar.

Aqrar qanun təşəbbüsçüsü olan zadəganlar onu böyük ruh yüksəkliyi ilə qarşıladılar. Oktyabristlər və burjuaziya çar aqrar qanununa tamamilə tərəfdar çıxdı. Kadetlər əslində Stolipin fərmanına etiraz etməyərək, kəndlilərin narazılığının qarşısını almaq məqsədi ilə dövlət mülklərindən torpaq fondu yaratmaq və onu kəndlilərə ödənc müqabilində vermək təklifini irəli sürdülər.

Aqrar islahatı həm zadəganları, həm də burjuaziyanı tamamilə təmin edirdi. Onlar əsas kəndli kütləsini yenidən qarət etmək platformasında birləşdilər. Çünki Stolıpin islahatı kəndlilərə bir qarış da olsun mülkədar torpağı vermirdi. Hökumət bir şeyə ümid edirdi ki, kəndlilərin xeyli hissəsi və ən əvvəl yoxsullar qəti surətdə var-yoxdan çıxacaq və öz torpaqlarını qolçomaqlara satacaqlar. Beləliklə də, qolçomaqlar torpağı alaraq, xüsusi torpaq sahiblərinə çevriləcək, mülkədarların labüd müttəfiqləri olacaq və inqilabi kəndli hərəkatına qarşı bir növ səddə çevriləcəkdir. Hökumət qolçomaqlara açıq surətdə belə bir çağırışlarla müraciət etdi: "Varlanın, icmanı qarət edin, xüsusi mülkiyyəti möhkəmləndirin".

1910-cu il iyunun 14-də II Nikolay Dumanın və Dövlət Şurasının qəbul etdiyi "kəndli torpaq sahibliyinə dair" qanun layihəsini təsdiq etdi. Yeni aqrar qanun 1906-cı il 9 noyabr fərmanının prinsiplərini bərqərar edir və icma torpaq sahibliyinin ləğv edilməsi üçün daha böyük imkanlar yaradırdı. 1910-cu il qanunu ilə artıq məcburi qaydada bütün icmaçı kəndlilər, əgər onların yaşadığı icmalarda ödəncə keçildiyi vaxtdan icma torpağı yenidən dövraşırı bölünməyibsə, xüsusi mülkiyyətçilər vəziyyətinə keçirilirdilər. 1911-ci il 19 may qa-

nununa görə kəndlilərin icmadan çıxması üçün kəndli yığıncağının razılığını almaq işi də xeyli asanlaşırdı. İndi bu iş kəndli yığıncağında səslərin 2/3 hissəsinə əsasən deyil, sadəcə olaraq səs çoxluğuna əsasən mümkün idi.

Hökumət yer quruluşu komissiyalarından (38 quberniya və 411 qəza komissiyası) istifadə edərək, məcburi qaydada icma kəndli torpaq sahibliyini dağıtmağa və kəndliləri torpaqdan yeni "azad etmə" işinə başladı. 1906-1916-cı illər ərzində hökumət 16 milyon kəndli həyətindən yalnız 2,1-2,3 milyon həyəti, yəni bu həyətlərin hamısının təqribən 14,4 faizini icma sahibliyindən xüsusi mülkiyyətə keçirə bildi. Xüsusi mülklərdə isə bu vaxt ərzində təxminən 16 milyon desyatin torpaq, yaxud kəndlilərin əlində olan torpaq fondunun 14,4 faizi qədər torpaq var idi.

Kəndlilər çar aqrar qanununa qarşı qətiyyətlə mübarizə aparırdılar. Onlar öz nümayəndələrini yer quruluşu komissiyalarına göndərməkdən imtina edir, kəndlilərin icmadan ayrılması üçün cəmiyyətin razılığını vermir, torpağın öz xüsusi mülkiyyətinə keçirilməsi barədə ərizə verən kəndliləri təqib edir və onları öz ərizələrindən imtina etməyə məcbur edir, **xutorlara** və **ortabablara** ayrılan qolçomaq kəndlilərlə mübarizə aparırdılar.

Stolıpin aqrar qanunvericiliyinə qarşı yönəldilmiş belə açıq-aşkar kəndli "hökumətləri" çox idi. Kəndlilər Stolıpinin yer quruluşunu heç də əbəs yerə "kəndli yer pozğunluğu" adlandırmamışdılar. Stolıpinin aqrar siyasəti bütövlükdə hökumətin və mülkədarların gözlədikləri nəticələri vermədi. Qolçomaqlığın bir qədər artması, mülkədar təsərrüfatında burjua münasibətlərinin güclənməsi, bazarın və onunla əlaqədar olaraq kənd təsərrüfatının genişlənməsi bütövlükdə ölkənin iqtisadi inkişafının əsas ziddiyyətini – inkişaf edən kapitalizmlə saxlanmaqda olan feodalizm qalıqları arasında ziddiyyəti aradan qaldıra bilmədi.

Mülkədarlarla kəndlilər arasında torpaq uğrunda mübarizə Stolıpinin aqrar siyasəti nəticəsində nəinki zəifləmədi, əksinə daha da gücləndi. Rusiyada mülkədarların siyasi hökmranlığı və kənd təsərrüfatında həlledici iqtisadi mövqelərin onların əlində saxlanması ic-

timai inkişafın əsas tələbləri ilə bir araya sığmırdı. Sinfi mübarizənin güclənməsi göstərdi ki, Stolıpin öz vəzifələrini yerinə yetirmədi. Çünki 1910-cu ildən 1914-cü ilədək bütün Rusiyada 13305 kəndli çıxışları olmuşdu. Mülkədar torpaq sahibliyinin tərəfdarı olan partiyalar (eserlər) öz liderindən məyus olmağa başladılar. "Yuxarı təbəqələrdə" Stolıpini dəyişdirmək haqqında danışmağa başladılar. 1911-ci ildə Stolıpini onun öz cangüdənlərindən biri öldürdü.

Birinci dünya müharibəsi illərində də kəndli məsələsi daim gündəlikdə olmuş, Rusiyanın aqrar quruluşunun doğurduğu bütün sinfi ziddiyyətlər davam etmişdir. Bununla birlikdə Stolıpinçiliklə əlaqədar olaraq kəndlilər arasında artan ictimai təbəqələşmə yoxsullarla qolçomaqlar arasında toqquşmanı labüd surətdə gücləndirdi.

1912-ci il sığorta qanunu. Fəhlə hərəkatının qüdrətli yüksəlişinin təzyiqi altında 1912-ci ilin iyununda çar hökuməti xəstəliyə və bəzi bədbəxt hadisələrə görə sığorta haqqında qanun verdi. Sığorta haqqında qanun fəhlələri qane etmirdi. Bu qanun bütün Rusiya proletarlarının yalnız təqribən 1/5 hissəsi üçün qüvvədə idi. Qanun dövlət zavodlarının və müəssisələrinin fəhlələrinə, xırda sənaye müəssisələrinin fəhlələrinə, kənd təsərrüfatı proletariatına və ticarət-sənaye qulluqçularına aid edilmirdi. Milli ucqarların fəhlələri də sığortadan məhrum edilmişdi. Sığorta haqqında qanuna görə yalnız çox cüzi müavinət müəyyən edilirdi, həm də qanun əlilliyə, qocalığa və işsizliyə görə sığortanı qətiyyən nəzərdə tutmurdu.

Sığorta haqqında qanunda sığorta fondunun xeyli hissəsinin fəhlələrin özləri tərəfindən verilməsi nəzərdə tutulurdu. Lakin müavinətin verilməsi bir çox cəhətdən zavod sahiblərindən asılı olurdu, çünki sığorta idarələrində nümayəndələrin yarısı onların öz nümayəndələri idi. Bu qanuna görə fəhlələrə də sığorta orqanlarına öz müvəkkillərini seçmək hüququ verilirdi. Bolşeviklər partiyası sığorta nümayəndələri seçkisi kampaniyasından istifadə etdi. Fəhlələrin yığıncaqlarında, vərəqələrdə, Dövlət Dumasının tribunasında, hökumətin verdiyi qanunun "sənayeçilərin fəhlələrdən sığortalanması" qanunu olduğu xalqa bildirilirdi. Bolşevik partiyası fəhlələrin sığortalanması haqqında elə bir həqiqi qanun verilməsinə nail olmağı lazım bilirdi

ki, bu qanun Rusiyanın bütün fəhlələri üçün qüvvədə olsun, o, fəhlələri nəinki bədbəxt hadisələrdən və xəstəliklərdən, həmçinin əlilliyə, qocalığa və işsizliyə qarşı sığortalasın və sığorta fondu yalnız kapitalistlərin mənfəətindən ayırmalar hesabına yaradılsın. Sığorta idarəsinin fəhlə qrupu öz tələblərinin yerinə yetirilməsi sahəsində kütlələr arasında izahat işini gücləndirdilər.

Cinayət hüququ. Bəhs edilən dövrdə cinayət hüququ sahəsində verilmiş qanunlar inqilabçılara, fəhlələrə, kəndlilərə qarşı repressiya xarakteri daşıyırdı. Belə ki, 1905-ci il 10 aprel fərmanı ilə mülkədar malikanələrinin qarət edilməsinə görə kənd cəmiyyətləri əmlak məsuliyyəti daşıyırdılar.

1905-ci il 2 dekabr qanunu ilə dövlət idarələrində, ictimai və dövlət əhəmiyyətli müəssisələrdə tətilə görə iştirakçıların təqib edilməsi gücləndirilirdi. Tətil keçirilməsində iştirak edən və günahkar olan şəxslər 4 aydan 1 ilə qədər həbsxanaya salınırdı. Eyni ilə belə cəza tətildə iştirak edən şəxs tərəfindən digərlərini tətilə məcbur etmək üstündə verilirdi. Bundan əlavə günahkar dövlət qulluğunda xidmətdə olan məmur olardısa, məhkəmə həbsxana cəzası ilə birlikdə onu vəzifədən kənarlaşdırmaq səlahiyyətinə malik idi.

Dövlət Şurası tərəfindən 1906-cı il fevralın 9-da təsdiq edilmiş sənədə görə partlayıcı maddənin hazırlanmasında, əldə edilməsində, saxlanılmasında, gəzdirilməsində, istifadə olunmasında günahkar olan şəxslər xüsusi hüquqlardan və imtiyazlardan məhrum edilməklə 4 ildən 5 ilə qədər azadlıqdan məhrum edilirdi. Digər tərəfdən, partlayıcı maddənin saxlanılmasında məqsəd dövlət əleyhinə hər hansı bir cinayət törətmək olduğu məlum olardısa, müqəssiri bütün əmlakı müsadirə olunmaqla 15 ilə qədər katorqaya sürgün gözləyirdi.

Cinayət hüququ sahəsində Dövlət Şurasının 1906-cı il 13 fevral tarixli sənədində göstərilirdi ki, hökumətin və vəzifəli şəxslərin fəaliyyəti barədə yalan şayiə yayanlar, həmçinin belə şayiələri ordu və ordu hissələri barəsində yayaraq əhalini onlara qarşı düşmənçiliyə sövq etməyə, yalandan kütləvi fəlakətin olacağı barədə əhali arasında həyəcan yaratmağa görə günahkar olanlar 8 ay və ya 1 ilə qədər həbsxana cəzasına məruz qalırdı.

Əhalinin müəyyən hissələri, silklər və ya sahibkarlarla fəhlələr arasında düşmənçilik yaradanları həbsxana və ya islah cəzası gözləyirdi.

1905-ci il aprelin 15-də kənd fəhlələri arasında tətilə görə qanun verildi. Bu qanuna görə tətildə iştirak edən kənd fəhlələri 4 aydan bir ilə qədər həbs oluna bilərdilər. Tətilin təşkilatçıları isə bütün şəxsi və ona verilmiş imtiyazlardan məhrum edilməklə, eyni zamanda həbs olunan anda silahlı müqavimət göstərərdisə, bütün əmlakı müsadirə olunmaqla 8 il müddətinə katorqaya göndərilirdi.

1906-cı il 23 aprel qanunu ilə dövlətin kredit ödəmək imkanları barədə əhali arasında onun etibarının itirilməsinə yönəldilmiş yalan şaiyələr yaymağa görə günahkar olanlar bəzi hüquqlardan məhrum edilməklə, 1 il 4 ay həbsxana cəzasına məruz qalırdılar.

Nazirlər Şurası barədə çarın imzaladığı 18 avqust 1906-cı il əsasnaməsinə görə, ordu hissələri arasında dövlət əleyhinə yönəlmiş təlimatların və mühakimələrin yayılmasına görə günahkar olanlar hərbi və donanma məhkəmə tribunalarına verilməklə katorqa cəzasına məruz qalırdılar.

18 avqust 1906-cı il çar qanunu ilə nizami və qeyri-nizami ordu hissələrində xidmət etmək mükəlləfiyyətindən yayınan şəxslər bəzi şəxsi və hüquqi vəziyyətindən asılı olaraq ona verilmiş imtiyazlardan məhrum edilməklə 4 ildən 6 ilə qədər həbsxana və ya 4 ildən 6 ilə qədər sürgün edilməklə katorqa işlərinə cəlb edilirdi.

İnqilab dövründə yeni cinayət qanunlarının hazırlanması ilə yanaşı, 1903-cü il Cinayət qanunnaməsinin ayrı-ayrı fəsilləri və maddələri tətbiq edilirdi. Belə ki, orada cinayətin tərkibi hissələr üzrə verilmiş və bəzi hallarda isə repressiyanın artırılması tam əks olunmuşdu. 1904-cü il aprelin 7-də siyasi cinayətlər üzrə bütün maddələr, 1906-cı il martın 14-də isə dini cinayətlər üzrə qanunun ikinci fəsli qüvvəyə mindi.

Məhkəmə və proses. Çar hökuməti Rusiya imperiyasının ayrı-ayrı hissələrində hərbi vəziyyət, fövqəladə və ya gücləndirilmiş mühafizə elan etdiyinə görə məhkəmə orqanlarının əsaslarında elə bir dəyişiklik edilməsini lüzum bilmirdi. Çar hökumət orqanları tərəfindən qarşıya qoyulmuş terroru məhkəmə orqanları, xüsusilə də hərbi

məhkəmələr çox müvəffəqiyyətlə yerinə yetirirdi. Eyni zamanda, çar inqilabla mübarizə məqsədilə bir sıra prosessual qanunvericilik vermişdi.

1906-cı il martın 18-də Dövlət Şurası mühüm cinayət işləri aparılması müddətini qısaltmağı təklif edən prosessual qaydaları təsdiq etdi. Bu qanun güclənməkdə olan fəhlə və kəndli hərəkatına divan tutmaq məqsədi güdürdü.

Silk nümayəndələrinin iştirak etdiyi məhkəmə palatasının icraatında olan işlər onlardan alınaraq dairə məhkəmələrinə verildi. Dairə məhkəmələri isə dövlət hakimlərindən, yerli qəzanın zadəganlarından, yerli şəhər idarəsi başçısından və həmin qəzanın bir nəfər nahiyə starşinasından təşkil edilirdi.

1906-cı ilin aprelin 22-də yüksək rütbəli məmurların işi üzrə ali məhkəmə yaradıldı.

Çar tərəfindən təyin olunan Dövlət Şurası üzvlərindən birinin sədrliyi ilə ali cinayət məhkəməsi təşkil edildi. Onun tərkibinə Senat departamentinin cinayət işləri üzrə kassasiya, birinci departamentin cinayət kassasiya işləri üzrə üç senatoru və birinci departamentdən iki senator daxil edilirdi. Ali cinayət məhkəməsinin qərarından şikayət vermək olmazdı. Məhkum olunan şəxslər yalnız əfv olunmaları üçün çardan xahiş edə bilərdilər.

1906-cı ilin 19-20 avqustunda hərbi-səhra məhkəmələri təsis edilirdi. Hərbi-səhra məhkəmələri hərbi vəziyyət və fövqəladə mühafizə elan edilmiş ərazilərdə general-qubernator və ya ali rütbəli məmurlar tərəfindən yaradılırdı. Təlimatda deyilirdi ki, cinayət əməllərinin artdığı yerdə, açıq-aydın cinayət fəaliyyəti ilə məşğul olunduğu və həmin cinayət əməllərinin təhqiq və sübut edilməsinə heç bir lüzum olmadığına görə hərbi-səhra məhkəmələrinin yaradılması çox mühüm məsələlərdəndir. Hərbi-səhra məhkəmələri sədrdən və dörd nəfər ordu və ya donanma zabitindən yaradılırdı. Cinayət əməlinə görə müqəssir dərhal, bir gün müddətinə mühakimə üçün hərbi-səhra məhkəməsinə verilirdi. Məhkəmə isə iki gün ərzində işə baxırdı. Məhkəmə araşdırması bağlı qapı arasında aparılırdı. Hökm müharibə dövrünün qanunlarına uyğun olaraq dərhal, lakin ən çoxu bir gün müddətinə qanuni qüvvəyə minir və icra edilirdi.

Hərbi-səhra məhkəmələrində mühakimə işləri ölüm hökmü mərasimlərini xatırladırdı. Məhkəmələrin fəaliyyəti ağlasığmaz özbaşınalıqlar doğururdu. Bəzən isə qabaqcadan general-qubernator bu və ya digər iş barədə hansı hökmü çıxarmağı hərbi-səhra məhkəmələrinə birbaşa göstəriş verirdi. Hakimlərin gələcəkdə cəzasız qalmaları naminə onların adları gizli saxlanılırdı. Hərbi-səhra məhkəmələrində işgəncədən geniş istifadə edilirdi. Bəzən isə işgəncələrdən yaxa qurtarmaqdan ötrü müttəhim bilərəkdən öz ölümünə razılıq verir və tərtib olunmuş müvafiq protokolu imzalayırdı.

İnqilabi hərəkatla mübarizə üçün çar hökuməti tərəfindən yeni orqan – mühafizə şöbələri yaradılırdı. Çünki jandarm idarəsi öz vəzifələrinin öhdəsindən gələ bilmədiklərinə görə polis departamenti 1902-ci ildə axtarış şöbəsi yaratmış, 1903-cü ildən isə adı dəyişdirilərək mühafizə şöbəsi adlandırılmışdı. Jandarm idarəsinə isə yalnız axtarış işləri həvalə edilirdi. Mühafizə şöbələrinə partiyalar içərisində agentura təşkil etmək barədə göstəriş verilmişdi. İğtişaş törətmək mühafizə şöəsi üçün adi işə çevrilmişdi. Mühafizə şöbəsinin icra orqanı – **jandarm** öz əməkdaşlarını lazımi sənədlərlə təchiz edir, onların həbsxanadan qaçmalarına kömək edirdi. Onlardan bəziləri hətta leqal fəaliyyətə keçirdi.

Cənubi Azərbaycanda 1905-1911-ci illər demokratik milli-azadlıq hərəkatı

İran rejimi Cənubi Azərbaycan ərazisini şah hakimiyyətinin aqrar xammal bazası əlavəsinə çevirmiş, əvvəlki əsrlərdə olduğu kimi, XIX əsrin sonu XX əsrin əvvəllərində də kənd və icma torpaqlarının böyük hissəsi fars məmurlarının, iri mülkədarların və ali ruhanilərin əsas gəlir mənbəyi olmuşdur. Fars hakimləri, yerli mülkədar-ərbablar Cənubi Azərbaycanda yüzlər, bəzən isə minlərlə kəndə sahib idilər.

Şəhərlərdə sənətkarlıq sahələri üstünlük təşkil edirdi. Təbriz şəhərində hər birində 50 nəfərdən 100 nəfərə qədər fəhlə çalışan kiçik müəssisələr mövcud olmuşdur.

Cənubi Azərbaycan əhalisi, zəhmətkeş kəndlilər hüquqsuz təbəqə kimi tamamilə fars satraplarının və mülkədarların hakimiyyətin-

dən əzab çəkirdi. Hətta kəndlilər öz ağalarının icazəsi olmadan oğlunu evləndirə, qızını ərə verə bilməzdi. Mülkədar kəndlini döyə, həbs edə və yaşadığı yerdən sürgün edə bilərdi.

Şah hökuməti Cənubi Azərbaycanda çoxsaylı vergilər toplayırdı. Kəndlilər 50-yə qədər müxtəlif vergilər və renta ödəməli olurdular.

Cənubi Azərbaycanın 1896-cı ildən 1906-cı ilə qədər canişini olmuş şah taxt-tacının vəliəhdi Məhəmmədəli Mirzə yerli əhaliyə qarşı soyğunçu siyasət aparır və onları adi hüquqlardan belə məhrum edirdi. Xalq Cənubi Azərbaycanı tərk edərək işləmək üçün yer axtarırdı. Şimali Azərbaycana məcburiyyət üzündən gəlmiş mövsümi işçilər Bakı neft sənayesində çalışanların 22%-ni təşkil edirdilər.

1905-ci ildə xalq şah rejiminə, qacarlar sülaləsinin zülmünə, ümumilikdə despotizmə qarşı mübarizəyə qalxdı. Cənubi Azərbaycan, onun paytaxtı Təbriz Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək hüququnun mərkəzinə çevrildi. Bu mübarizəyə İranın demokratik təbəqəsi də qoşuldu. Artıq silahlı mübarizə yetişirdi.

Şah hökuməti 1906-cı il avqustun 5-də bəzi güzəştlər etməyə məcbur olur. Belə ki, məclisin çağırılması və konstitusiyanın qəbul edilməsi barədə qanun verilir.

Cənubi Azərbaycanda olan deputatlar məclisdə demokratik qrupda təmsil olunmuşdular. Onlar despotizmin ləğv edilməsi və yeni islahatlarla ölkənin dövlət quruluşunun demokratikləşdirilməsinə çalışırdılar. Tacirlər, ruhanilər və digər yuxarı silkdən olanlar məclisin çağırılması və konstitusiyanın qəbul edilməsi ilə əlaqədar olaraq inqilabın dayandırılmasını və inkişaf etdirilməsinin qarşısını almağı tələb edirdilər. Lakin xalq hərəkatı öz inkişafı ilə davam edirdi.

Təbrizdə özünüidarəetmə orqanı – əncümənin yaranması. 1906-cı ilin sentyabrında Təbrizdə Azərbaycan dövlət tarixində özünəməxsus idarəetmə orqanı – **əncümənlər** yaranırdı. Hərəkata başçılıq etmək üçün yaranmış inqilabi-demokratik qurum olan əncümənlər Təbrizdən sonra Xoy, Salmas, Sərab, Culfa, Mərənd və digər şəhərlərdə təşkil edilərək hakimiyyəti öz əlinə alır.

Əncümənlər inzibati hakimiyyəti özlərində birləşdirərək, məhkəmə hakimiyyətini yaratdılar. Onlar Təbriz və digər şəhərlərdən gələn şikayətləri araşdırıb qərar çıxarırdı. Təbriz şəhər əncüməni özü-

nüidarə orqanı kimi şah hakimiyyəti orqanlarına tam nəzarət edirdi. Əncümənlər şəhərdəki qiymətləri tənzimləyir, çörək, ət və digər ərzaqların qiymətini aşağı salaraq möhtəkirlərin və iri mülkədarların əmlakını müsadirə edirdi.

1907-ci ildən Təbriz əncüməni tədricən bütün Cənubi Azərbaycana nəzarət etməyə başlayır. İran məclisinə daha çox təsir etməyə başlayan əncümən ölkədə demokratik dəyişikliklərin keçirilməsini, irticaçı məmurların vəzifələrindən kənarlaşdırılmasını, Cənubi Azərbaycana muxtariyyət verilməsini tələb edirdilər.

Əncümənlərdən başqa, Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının inqilabi orqanı – **mücahidlərin mübariz dəstəsi** yaradılmışdı. Təbriz mücahidləri Cənubi Azərbaycanın demokratik təbəqələrinin inqilabi mərkəzinə çevrilmişdi. Onlar səylə xalq arasında inqilabi təbliğat aparır, xalqın istək və arzularını ifadə edirdilər.

1906-cı ilin sonlarında vəfat etmiş Müzəffərəddin şahın yerinə hakimiyyətə oğlu Məhəmmədəli Mirzə keçir. Xalq hərəkatını yatırmağa cəhd edən şah ciddi müqavimətlə rastlaşır. 1907-ci ilin fevralında Təbrizdə tətil başlayır.

Cənubi Azərbaycanın Qaradağ mahalından olan kiçik torpaq mülk sahibinin oğlu Səttarxan demokratik hərəkatın önündə gedirdi. 1907-ci ildən Təbrizdə könüllü **fədai** dəstələri yaradılır. Fədailər inqilabi hərəkatın əsas **hərbi qüvvələrini** təşkil edirdilər.

1906-cı ilin oktyabrında Təbrizdə "Əncümən" adlı qəzet və "Azərbaycan" jurnalı nəşr edilir.

1907-ci ildə şah rejimi Qaradağ hakimi Rəhim xanı Təbrizin üzərinə göndərir. Fədailər düşməni məğlub edərək geri oturtdular. 1907-ci ilin dekabrın 7-də Təbriz əncüməni vali Məhəmmədəli şahın hakimiyyətini tanımaqdan imtina edir və Təbrizdə bütün hakimiyyəti öz üzərinə götürür.

1908-ci ilin iyununda hakim Eynildövləni Cənubi Azərbaycana canişin təyin edirlər. Səttarxanın başçılığı ilə Təbriz fədailəri Maku xanının və Rəhim xanın qoşunlarına ciddi müqavimət göstərir.


1908-ci ildə Maku və Ərdəbil istisna olmaqla, fədailər bütün Cənubi Azərbaycanı azad edirlər. Rəşt şəhərində üsyan etmiş xalq hakimiyyətə yiyələnir.

1909-cu ildə ingilis qoşunları İranın cənub limanlarına daxil olur. 1907-ci il Rusiya-İngiltərə müqaviləsinə uyğun olaraq İranın şimalını öz təsir dairəsinə daxil etmiş Rusiya Təbriz şəhərini tutur. Çar qoşunları xalqdan qorxaraq fədailəri tərk-silah etməyə cürət etmirlər.

Rusiya və İngiltərənin təzyiqindən sonra 1910-cu ilin aprelində Səttarxan Təbrizi tərk edərək Tehrana gəlir. Tehran polisinin başçısı erməni-daşnak Yefrem Səttarxandan iki gün ərzində silahları təhvil verməyi tələb edir. Lakin əvəzində fədailər 1910-cu ilin avqustunda Tehranın "Atabəy" parkında müdafiə istehkamı quraraq müqavimət göstərirlər. Hökumət qoşunları ağır döyüşdən sonra parkı ələ keçirir, fədailər və yaralanmış Səttarxanı həbs edirlər.

1911-ci ilin payızında Cənubi Azərbaycanın digər ərazilərində şah rejimi ilə fədailər arasında qanlı döyüşlər olur. Dekabrda isə hökumət qoşunları Təbrizi mühasirə edir. Canişin Şücaüddövlənin silahlı dəstələri yalnız 1912-ci ilin yanvarında fədailərin müqavimətini qıra bilir.

1905-1911-ci il Cənubi Azərbaycan inqilabı Azərbaycan xalqının qəhrəmanlıq mübarizəsi tarixinin ən şanlı səhifələrindən biridir. Təbrz əncüməni xalqın qələbəsini təmin edə bilməsə də, özünüidarə orqanlarının yaradılması, sosial sahədəki tədbirlər, xalqın özünüdərketməsi, inqilabi şüurunun artması baxımından böyük əhəmiyyət kəsb edirdi.


AZƏRBAYCAN RESPUBLİKASININ XƏRİTƏSİ
1920-Cİ İLDƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN İNFORMASİYA ŞÖ'BƏSİNDƏ "AZƏRBAYCAN RESPUBLİKASININ ÜNVAN – TƏQVİMİ" ÜÇÜN TƏRTİB EDİLMİŞDİR
ŞƏRTİ İŞARƏLƏR
Sərhədlər
Azərbaycan respublikasının
Gürcüstan respublikasının
Türkiyə və İranın
Quberniya və vilayətlərin
Ermənistanla mübahisəli ərazilər
Gürcüstanla mübahisəli ərazilər
Dəmir yollar
Çəkilməkdə olan dəmiryolları
Dəmiryol stansiyaları
Darbənd
Qaçmaz
Xaçmaz
Quba
Bəyət
Nuxa
Zaqatala
Balakən
Şəmkir
Ağdaş
Göyçay
Salyan
Lənkəran
BAKI
TİFLİS
Borçalı
Axalkalaki
Bəjdanan
Qarsa
Toyuq
Alekandropol
Olucan
Gence
Cəvahir
Takta
Kağızman
Basarkeçər
Ağdam
Susa
Qarabulaq
Qubadlı
Ermənistan
Mehri
Ordubad
Ataşkert
Bəş Noragen
TÜRKİYƏ
İRAN

XII FƏSİL

Azərbaycan Demokratik Respublikasının (I Respublika) dövlət və hüquq tarixi (1918-1920-ci illər)

XIX əsrin əvvəllərindən Rusiya imperiyasının tərkibində olan Azərbaycan 1918-ci il mayın 28-də müstəqilliyini elan edərək Şərqdə ilk demokratik respublikanı yaratdı. ADR-in yaranmasının bir sıra siyasi və hüquqi əsasları mövcud olmuşdur. Xalqın milli mənlik şüurunun artması, müstəmləkə əsarətindən qurtulmaq, öz milli dövlətini yaratmaq, demokratik respublika idarəçilik formasına üstünlük vermək, az vaxt ərzində dövlət mexanizmini, qanunvericilik, idarəetmə və hüquq institutlarını təşkil etmək Azərbaycan xalqının XX əsrin əvvəllərində ən böyük nailiyyəti olmuşdur.

Rusiyada bolşevik çevrilişindən sonra dövlət aparatı tamamilə dağılır və yaranmış Zaqafqaziya Seymi də heç bir iş görə bilmirdi. Digər tərəfdən, 1918-ci il aprelin 25-də yaradılmış Bakı quberniya Xalq Komissarları Soveti ("Bakı Kommunası") Ümumrusiya Mərkəzi hökumətini Azərbaycanda təmsil edərək onun qəbul etdiyi bütün dekret və qərarları özü üçün vacib bilirdi. Bakı Sovetinin daşnak-bolşevik qüvvələri Bakıdakı mart soyqırımı hadisələrini Azərbaycanın digər ərazilərində davam etdirdiyinə görə Zaqafqaziya Seymi Bakı Xalq Komissarları İcraiyyə Komitəsinin sədri S. Şaumyanla danışıqlar aparmaq üçün nümayəndələrini Bakıya göndərdi. S. Şaumyan heç bir danışığa girməyərək azərbaycanlı nümayəndəni dərhal həbs etdirdi, Seym sədrinin müavini, erməni nümayəndəsini isə geriyə – Tiflisə qaytardı. Zaqafqaziyada federativ dövlətin yaradılmasının perspektivsizliyi məlum oldu. 1918-ci il mayın 27-də Seymin müsəlman üzvləri fövqəladə yığıncağa toplaşaraq Azərbaycan Milli Şurası yaratdıqlarını elan etdilər. Müsəlman fraksiyası bütövlükdə Milli Şuranın tərkibinə daxil olaraq M.Ə. Rəsulzadəni sədr seçdi.

Milli Şuranın yaranması və onun tərəfindən müstəqil Azərbaycan Demokratik Respublikasının (I Respublika) elan edilməsi hüquqi cəhətdən əsaslandırılmış proses idi, çünki 1917-ci il noyabrın 26-28-də Ümumrusiya Müəssislər Məclisinə keçirilmiş seçkidə iştirak etmiş Azərbaycan xalqı öz səlahiyyətli nümayəndələrini ali orqana tam hüquqi əsaslarla seçmişdir. Həmin səlahiyyətli nümayəndələr Milli Şuranın Azərbaycanın idarə olunmasında tam məsuliyyəti üzərilərinə götürdüklərini bildirərək, 9 nəfərdən ibarət icra orqanı – **İdarə Heyətini** təşkil etməyə başladılar. İdarə Heyətinin icra orqanları yaradılırdı. F.X. Xoyski icra orqanının sədri seçildi. Mayın 28-də Azərbaycan Milli Şurasının ilk iclası oldu. İclasda Zaqafqaziya Seyminin buraxılması və Gürcüstanın müstəqilliyinin elan olunmasından sonra Azərbaycanın vəziyyəti müzakirə edildi. Milli Şura 24 səslə Azərbaycanın dövlət müstəqilliyi haqqında qərar qəbul etdi və "İstiqlal bəyannaməsi"ni ("Milli and") elan etdi. Müstəqillik haqqındakı aktda deyilirdi ki, böyük Rusiya inqilabı gedişində Rusiyada dövlət orqanizminin ayrı-ayrı hissələrinin dağılması və rus ordusunun Zaqafqaziyanı tərk etməsi ilə burada yeni siyasi vəziyyət yaranmışdır. Talelələri öz ixtiyarına buraxılmış Zaqafqaziya xalqları Zaqafqaziya Demokratik Federativ Respublikasını yaratdılar. Lakin siyasi hadisələrin sonrakı gedişində gürcü xalqı Zaqafqaziya Federativ Respublikasının tərkibindən çıxmağı və müstəqil Gürcüstan Demokratik Respublikası yaratmağı münasib bildi. Rusiya və Osmanlı imperiyası arasındakı müharibənin dayandırılması, eyni zamanda ölkə daxilindəki görünməmiş anarxiyanın ləğvi ilə bağlı olan Azərbaycanın mövcud siyasi durumu Azərbaycan xalqlarını düşdükləri ağır vəziyyətdən çıxmaq üçün Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycanın öz dövlət orqanizmini yaratmaq zərurətini qarşıya çıxarır.

Buna əsasən, xalq səsverməsi yolu ilə seçilmiş Azərbaycan Milli Şurası elan edir:

Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Cənubi və Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan tamhüquqlu müstəqil dövlətdir.

Müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik respublikadır.

Azərbaycan Demokratik Respublikası bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır.

Azərbaycan Demokratik Respublikası öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edir.

Azərbaycan Demokratik Respublikası öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişaf üçün geniş imkanlar verir.

Müəssislər Məclisi çağırılana kimi bütün Azərbaycanın idarəsi başında xalq səsverməsi yolu ilə seçilmiş Milli Şura və onun qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Milli Şura Müvəqqəti hökuməti təşkil etməyi F.X. Xoyskiyə tapşırdı. Həmin gün F.X. Xoyski Milli hökumətin tərkibini elan etdi. İlk hökumətin tərkibinə X. Xasməmmədovun başçılıq etdiyi Ədliyyə Nazirliyi də daxil edilmişdi. Beləliklə, ilk Azərbaycan Demokrat Respublikasının (I Respublika) elan edilməsi Azərbaycan xalqının çoxdan arzusunda olduğu müstəqillik ideyasının gerçəkləşməsi idi. 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikasının varisliyi (I Respublika), 1920-ci ildə ictimai quruluşu və dövlət idarəçilik formasının dəyişdirilməsi ilə yeni Azərbaycan Sovet Sosialist Respublikası (II Respublika) və 1991-ci ildə isə müstəqil Azərbaycan Respublikasının (III Respublika) rəsmi elan edilməsi ilə tamamlanır. Azərbaycan xalqını və onun dövlətini təmsil etmək hüququ müvafiq olaraq göstərilən respublikaların (sovet rejmi dövründə istisnaların olmasına baxmayaraq) ali hakimiyyət orqanlarına məxsus olmuş və hal-hazırda da məxsusdur.

İyunun 16-da Müvəqqəti hökumət Tiflisdən Gəncəyə köçdü. 4 iyun 1918-ci il hərbi yardım müqaviləsinə uyğun olaraq Azərbaycanda olan Türkiyə qoşunlarının komandanı Nuru paşa Milli Şura üzvlərini qəbul etməkdən imtina etdi. Milli Şuraya etimadsızlıq hökumət böhranına səbəb oldu. İyunun 17-də Milli Şura üç mühüm qətnamə ilə böhrandan çıxmağa çalışdı. Birinci qətnaməyə görə yeni yaradılmış ikinci hökumətə yenə də F.X. Xoyski başçılıq edirdi. İkinci qətnamə yeni Müvəqqəti hökumətin hüquqi vəzifələrinə aid idi. Qətna-

mədə göstərilirdi ki, Müvəqqəti hökumət dövlət müstəqilliyini və mövcud siyasi azadlıqları ləğv etmək, aqrar islahat və digər mühüm məsələlər barəsində qanunları dəyişmək səlahiyyətinə malik deyildir və yaxın 6 ay ərzində Müəssisələr Məclisinin çağrılmasını təmin etməlidir. İdarəetmənin digər məsələlərində isə hökumət tam sərbəstdir. Üçüncü qətnamə Milli Şuranın buraxılması barədə idi. Qətnamədə deyilirdi ki, Azərbaycanın ağır daxili və xarici vəziyyətini nəzərə alaraq bütün hakimiyyət F.X. Xoyskinin başçılığı ilə yeni yaradılmış hökumətə verilir, hökumət isə hakimiyyəti qısa müddətdə çağırılmalı olan Müəssislər Məclisindən başqa heç bir orqana verə bilməzdi. Beləliklə, iyun böhranı aradan qaldırıldı. Müvəqqəti hökumət bütün Azərbaycana nəzarət etmək üçün Bakı şəhərini daşnak-bolşevik işğalından qurtarmalı idi. İyunun əvvəllərində Azərbaycanda hərbi-siyasi vəziyyət daha da mürəkkəbləşdi. Ayın 7-də Bakı Sovet qoşunları Gəncə istiqamətinə hücuma başladılar. Bakı quberniyasına nəzarət edən Xalq Komissarları Soveti Moskvanın göstərişi ilə bütün Azərbaycanda bolşevik rejiminin qurulmasına çalışırdı.

Azərbaycan Milli Şurasının "İstiqlal bəyannaməsi" Bakı fəhlə, əsgər və matros deputatları Sovetinin 1918-ci il mayın 29-da keçirilmiş iclasında müzakirə edildi və qətnamə qəbul edilməsilə nəticələndi. Qətnamədə göstərilirdi ki, biz (Bakı Soveti) öz müqəddəratımızı inqilabçı Rusiyanın müqəddəratı ilə bağlayır, Zaqafqaziyanın Rusiyadan ayrılmasını mümkün hesab etmir, belə qüvvələrə (ADR-ə) qarşı mübarizə aparacağımızı bildiririk.

1918-ci il mayın 28-də RSFSR Xalq Komissarları Soveti neft sənayesinin milliləşdirilməsi haqqında qərar qəbul etdi. Bakı Xalq Komissarları Soveti isə Sovet hökumətinin bu qərarına əsasən 1918-ci il iyunun 2-də Bakı neft sənayesinin milliləşdirilməsi haqqında dekret verdi. Neft sənayesinin milliləşdirilməsi haqqında dekretin ardınca iyunun 5-də Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqında dekret elan edildi. Hər iki dekret sahibkarlar tərəfindən müqavimətlə qarşılandı.

Bakı Xalq Təsərrüfatı Şurası yanında milliləşdirilmiş bütün neft istehsalı və emalı müəssisələrini idarə etmək üçün xüsusi kollegiya

təşkil edildi. Lakin bütövlükdə Bakı quberniyasında fabrik və zavodlar dayanmış və bu, işsizlərin sayının artmasına səbəb olmuşdu. Uzun sürən müharibə və ərzaq çətinlikləri, manatın məzənnəsinin aşağı düşməsi rusların və Cənubi Azərbaycandan gəlmə fəhlələrin istehsalatı tərk edib öz vətənlərinə qayıtmaları ilə nəticələnirdi.

Bakı Xalq Komissarları Soveti sənaye və nəqliyyat sahəsində sosialist dəyişikliklərini həyata keçirməklə yanaşı, sosial tədbirlərə diqqəti artırır, fəhlələri öz tərəfinə çəkməyə çalışırdı. Zavod və fabriklərdə əmək mühafizəsini təmin etmək, 8 saatlıq iş günü tətbiq etmək, mədən-zavod rayonlarında əmək komissarı vəzifəsini təsis etmək, onların rayon fəhlə deputatları sovetləri tərəfindən seçilməsi və həmkarlar ittifaqları ilə birlikdə müəssisələrdə təhlükəsizlik texnikasına, fəhlələrin mənzil-sanitariya vəziyyətinə nəzarət etməsi görülən tədbirlərdən idi.

Bakı fəhlələrinin sığorta olunması işi yenidən qurulurdu. "Qafqaz dairə sığorta cəmiyyəti" özünün bütün daşınar və daşınmaz əmlakı ilə iyulun ortalarında əmək komissarlığının sərəncamına keçərək "Bakı rayonu fəhlələrinin ictimai sığorta kassası" adlandırıldı.

RSFSR Bakı bolşevikləri ilə birlikdə Sovet hakimiyyətini bütün Cənubi Qafqazda yaymağa hazırlaşırdı. Erməni-daşnak hərbi hissələri həvəslə Bakı Soveti qoşunun tərkibinə daxil edilirdi. Komanda heyəti də vaxtilə çar ordusunda xidmət etmiş daşnak zabitlərinin təsiri altında idi.

Mərkəzdən Bakı bolşeviklərinə müntəzəm olaraq hərbi yardım göndərilirdi. Bakı Soveti qoşununa qısa müddətdə hərbi işdə sərişləsi olmayan 18 min nəfər cəlb edildi. Sovet Rusiyasının havadarlıq etdiyi Bakı Soveti Azərbaycan Demokratik Respublikasını məhv etmək üçün bütün qüvvələrini səfərbər edirdi.

Azərbaycan hökuməti Azərbaycan dövlətini xilas etmək üçün 1918-ci il iyunun 19-da hərbi vəziyyət elan etdi. Müsəlman korpusu "əlahiddə Azərbaycan korpusu" adlandırıldı. İyulun 1-də Göyçay ətrafında məğlub edilən Bakı Soveti qoşunlarının Gəncəyə hücumunun qarşısı alındı. İyulun 20-də Şamaxı istiqamətində məğlub olan A.İ. Mikoyan teleqrafla Bakı Sovetinə bildirdi ki, briqadanın səyləri-

nə baxmayaraq erməni daşnak Amazaspın piyadaları mövqelərini tərk edib geri çəkilmişdir. İyulun axırlarında isə Milli Ordu hissələrinin Bakı ətrafında mövqeləri möhkəmlənirdi.

1918-ci il iyulun 16-da Bakı Sovetinin fövqəladə iclası oldu. İclasda ingilislərin Bakıya çağırılmasını təklif edən qətnamə rədd edildi. Cəbhədəki vəziyyətlə tanış olmaq üçün komissiya təşkil edildi. Bakı Xalq Komissarları Soveti Sovet Rusiyasına müraciət edərək, ordu göndərilməsini xahiş edirdi.

İyunun 25-də Bakı Sovetinin fövqəladə geniş iclası oldu. Yenidən ingilislərin Bakıya çağırılması məsələsi gündəlikdə idi. İngilisləri Bakıya çağırmaq qərarı səs çoxluğu ilə qəbul edildi. M. Əzizbəyov doğrudan da Bakı Soveti hökumətinin yad bir qurum olduğunu ifadə edirdi: "Biz iki dildə danışırıq, buna görə də bir-birimizi anlamırıq. Birimiz federativ Sovet (Rusiya) Respublikası dilində danışır, düşmənlərimiz isə Müəssislər Məclisi (Milli hökumət) dilində".

1918-ci il iyulun 31-də S. Şaumyan başda olmaqla Bakı Xalq Komissarları Soveti vəziyyəti müzakirə etdikdən sonra öz səlahiyyətlərini üzərindən götürməyi qərara alaraq istefa verdi.

1918-ci il avqustun 1-də Bakıda Sovetlərin Müvəqqəti İcraiyyə Komitəsi Rəyasət Heyətinin Direktoriyası (Sentrokaspi) adlanan hakimiyyət orqanı yaradıldı. Sentrokaspi diktaturasının Müvəqqəti İcraiyyə Komitəsi əsasən daşnak, eser və menşeviklərdən ibarət idi. Diktatura İrandakı ingilis hərbi hissələrini Bakıya dəvət etdi.

Sentrokaspi rejimi avqustun 28-də Bakı Sovetinə seçkilər keçirdi. Seçkilər vasitəsilə öz hakimiyyətini möhkəmləndirməyə çalışan Müvəqqəti İcraiyyə Komitəsi heç bir müvəffəqiyyət əldə edə bilmədi. Sentrokaspi diktaturasının əhali arasında dayağı yox idi.

Sentyabrın 15-də Azərbaycan hərbi hissələri Bakıya daxil oldular. Bir gün əvvəl isə Denstervilin ingilis qoşun hissələri Bakıdan Ənzəliyə yola düşmüşdü. Onların ardınca Sentrokaspi diktaturası üzvləri və Bakı Soveti komissarları şəhəri tərk etdilər.

Sentyabrın 17-də Milli Hökumət Gəncədən Bakıya köçdü. Birinci dünya müharibəsinin sona yaxınlaşması, Türkiyənin məğlub tərəf kimi 30 oktyabr Mudros barışığı imzalaması noyabrın 17-də türk qo-

şunlarının Bakını tərk etməsi ilə nəticələndi. Azərbaycanda ingilis ağalığı dövrü başladı. İngilis generalı Tomson bəyanatla çıxış edərək özünü general-qubernator elan etdi və şəhər idarəçiliyini öz əlinə aldı. Azərbaycanın de-yure tanınması məsələsinin isə Paris sülh konfransında həll olunacağını bildirdi. Tomson hələ də Qafqazı ingilislərin müttəfiqi olan Rusiyanın bir hissəsi hesab edirdi. Gəncə, Şuşa və Naxçıvanda ingilis qoşun hissələri yerləşdirildi. Azərbaycan xalqının sərvəti olan neftə sahiblik ingilislərin əlinə keçdi. Onlar 30 milyon pud neft daşıyıb apardılar.

Bununla belə Azərbaycan dövlətçiliyi tarixində əhəmiyyətli bir hadisə baş verdi. Beş aylıq fasilədən sonra toplanan Azərbaycan Milli Şurası yenidən işə başlayaraq parlamentin yaradılması haqqında qanun qəbul etdi.

Üçüncü F.X. Xoyski hökumətini tanıyan general Tomsonun bəyanatı "vahid və bölünməz Rusiya" bayrağı altında çıxış edən qüvvələrin pozucu fəaliyyətini daha da gücləndirirdi. Belə ki, onlar 1919-cu ilin yanvarında Bakıda oyuncaq "Qafqaz-Kaspi hökumətini" yaratdılar. Qafqazdakı müttəfiq qoşunların komandanı general Milton F.X. Xoyskini qəbul edərək Qafqazda yaradılacaq dövlətlərin daxili işlərinə qarışmayacağını bildirdi. Beləliklə, L.Biçeraxovun oyuncaq "Qafqaz-Kaspi hökumətinin" taleyi həll edildi. 1919-cu il fevralın 28-də Biçeraxovun qoşunları 24 saat ərzində Bakını tərk etdilər, erməni-daşnak dəstələri isə tərk-silah olundu.

1919-cu ilin avqustunda general Tomsonu əvəz etmiş general Korinin başçılığı ilə ingilis qoşunları Azərbaycanı tərk etdilər. 1920-ci ilin yazında Azərbaycanda xarici və daxili vəziyyət mürəkkəbləşdi. Sovet Rusiyasının ADR-ə təzyiqi daha da güclənmişdi. Onlar öz hərəkətlərini daşnak Ermənistan ilə sıx əlaqələndirirdilər. Moskvanın təhriki ilə 1920-ci ilin martında ermənilər Qarabağ və Gəncəbasarda qiyam qaldırdılar. Azərbaycan hökuməti daşnakların törətdiyi soyqırımın qarşısını almaq məqsədi ilə hərbi hissələri Qarabağa göndərməyə məcbur oldu. Şimal sərhədləri tamamilə müdafiəsiz qaldı.

Azərbaycan KP MK-sı Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək barədə ultimatum verdi. Parlament aprelin 27-də top-

lanaraq hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul etdi. 23 ay mövcud olmuş Azərbaycan Demokratik Respublikası süqut etdi.

ADR-in ali və yerli hakimiyyət və idarəetmə orqanları.

Azərbaycan **Milli Şurası** Azərbaycan xalqının iradəsini ifadə edən ali orqan idi. Onun tərkibinə 1917-ci il noyabrın 26-28-də Ümumrusiya Müəssislər Məclisinin Zaqafqaziyadan seçilmiş müsəlman (azərbaycanlı) nümayəndələri daxil edilmişdi. Ümumrusiya Müəssislər Məclisində müsəlman (azərbaycanlı) deputatların sayı isə cəmi 14 nəfər olmuşdur. Qafqaz müsəlmanlarının 1917-ci il 6 iyul ümumi qurultayında yaradılmış Zaqafqaziya Müsəlmanlarının Mərkəzi Komitəsinə 1917-ci ilin noyabrında bir ay müddətinə Azərbaycan Müəssislər Məclisinə seçkilər keçirmək həvalə edilmişdi. Lakin yaranmış şəraitdə Müəssislər Məclisinə seçkilər keçirmək mümkün olmadığına görə Mərkəzi Komitə müsəlmanların siyasi, mədəni-maarif və milli maraqlarını qorumağı Zaqafqaziya Seymindəki müsəlman fraksiyasına həvalə etdi. Zaqafqaziya Seymində isə müsəlman fraksiyasının sayı artırılaraq 44 nəfərə çatdırıldı.

Azərbaycan Milli Şurası 1918-ci il il iyun böhranı dövründə fəaliyyətini müvəqqəti olaraq dayandırır. Noyabrın 16-da fəaliyyətini bərpa edən Milli Şura noyabrın 19-da "Azərbaycan Cümhuriyyətinin parlamentinin" yaradılması haqqında qanun qəbul etdi. Yeni seçiləcək üzvlər hesabına Milli Şuranın tərkibinin 120 nəfərə çatdırılması və onu Azərbaycanın müvəqqəti parlamentinə çevirmək qərara alındı. Beləliklə, öz səlahiyyətlərini Azərbaycan parlamentinə verən Milli Şura fəaliyyətini başa çatdırdı.

ADR-in fəaliyyəti dövründə 120 nəfər deputatdan ibarət ali qanunverici orqan – **parlament** xüsusi rol oynamışdır. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təsis iclası oldu. Milli Şura tərəfindən hələ 1918-ci il iyunun 18-də hökumətə verilən səlahiyyətləri öz üzərindən götürən F.X. Xoyski bütün hakimiyyəti parlamentə verdiyini elan etdi. Müvəqqəti ali qanunverici orqan ADR-in konstitusiyasının qəbul edilməsini Müəssislər Məclisi toplanana qədər təxirə salmışdı.

Parlamentin səlahiyyətlərinə qanunvericilik fəaliyyəti ilə yanaşı Azərbaycan dövlətinin müstəqilliyini möhkəmləndirmək, demokra-

tik quruluşu inkişaf etdirmək, beynəlxalq aləmdə Azərbaycanın tanınmasına nail olmaq kimi məsələlər daxil idi. Azərbaycanın ali qanunverici orqanının sədri Ə. Topçubaşov ölkənin beynəlxalq aləmdə tanınması üçün misilsiz xidmət göstərmişdi. Məhz onun səyi ilə Azərbaycan Paris Sülh konfransıda müttəfiq dövlətlər tərəfindən tanındı. Qanunverici orqan 1919-cu il iyunun 21-də "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə"ni təsdiq etdi. Seçki qanununa görə seçkilər bərabər, birbaşa və gizli səsvermə yolu ilə keçirilməli idi. Qadınlara kişilərlə bərabər seçki hüququ verilirdi. Məlumdur ki, qadınlara belə hüquq Qərb ölkələrində yenicə verilirdi.

Azərbaycanın müvəqqəti parlamenti bir palatadan ibarət idi. Parlamentdə 11 komissiya, o cümlədən büdcə, təsərrüfat, fəhlə, aqrar, hərbi məsələlər üzrə komissiyalar fəaliyyət göstərirdi. Dövlətdə qanunverici və icraedici hakimiyyətin funksiyaları müəyyən edilmişdi. Yalnız nazirlərə istisna kimi parlament üzvü olmağa icazə verilmişdi.

Azərbaycan parlamentində "Müsavat" ən böyük partiya kimi təmsil olunmuşdur. Partiyalar dövlət istiqlalının möhkəmlənməsinə yönəlmiş qanun layihələri və islahat proqramları ilə qanunvericilik hakimiyyətinin fəaliyyətini istiqamətləndirirdilər. Onlar qüvvətli ordu yaradılması, torpaqların kəndlilər arasında pulsuz bölüşdürülməsi, 8 saatlıq iş günü, söz, mətbuat, ittifaq və digər demokratik azadlıqların bərqərar edilməsinə çağırırdılar.

Parlamentin reqlamenti müəyyən edilmişdi. Qanun və qərarlar səs çoxluğu ilə qəbul olunurdu. Səsvermədən keçməyən qanun layihələri yenidən komissiyalara qaytarılırdı. Bütün sənədlər Azərbaycan dilində tərtib edilirdi.

Azərbaycan Demokratik Respublikasının fəaliyyəti dövründə **beş hökumət** yaradılmışdır. **İcraedici** hakimiyyət olan **Nazirlər Şurası** hökumətin fəaliyyətini istiqamətləndirirdi. Azərbaycan hökumətinin ilk qərarı İstanbula göndəriləcək nümayəndə heyətinin tərkibi haqqında olmuşdur. Nazirlər Şurası fəaliyyəti dövründə müxtəlif sahələr üzrə 636 qərar və sərəncam vermişdir.

İlk müvəqqəti hökumətə başçılıq edən F.X. Xoyski, ikinci və üçüncü hökuməti də təşkil etmişdir. 1919-cu ilin martında istefa ve-

rən Xoyskinin əvəzinə aprelin 14-də N. Yusifbəylinin başçılığı ilə dördüncü hökumət kabineti yaradılır. 1919-cu il dekabrın 24-də beşinci hökumət yenə də N. Yusifbəyli tərəfindən təşkil edilir. 1920-ci ilin aprel ayında N. Yusifbəyli kabineti istefa verir. Sayca altıncı hökuməti yaratmaq M.H. Hacınskiyə həvalə edilir. Lakin bolşevik işğalı yeni və sonuncu hökumətin fəaliyyətə başlamasına imkan vermir.

Azərbaycan Cümhuriyyəti hökuməti son dərəcə mürəkkəb bir dövrdə bəzi çox vacib tədbirlər həyata keçirdi. İlk növbədə daxili asayişi bərpa edə bildi. Yerli idarə orqanlarının fəaliyyəti üçün şərait təmin etdi. Dağılmış təsərrüfat bərpa edildi, poçt, rabitə, maliyyə işləri sahmana salındı. Əhalinin yoxsul təbəqəsinə, işsizlərə, eləcə də erməni-daşnak zülmündən qurtulan insanlara yardım edildi.

Nazirlər Kabinetinin 1918-ci il 27 iyun tarixli qərarı ilə "Hökumət Xəbərləri" məcmuəsinin nəşr edilməsinə rəhbərlik etmək Xalq Maarifi Nazirliyinə həvalə edildi.

1919-cu il yanvarın 18-də Nazirlər Şurası parlamentə göndərilən qanun layihələrinin təqdim edilməsi qaydasını təsdiq etdi. Qaydalara görə:

1) heç bir iş və ya əsasnaməni Nazirlər Şurasında müzakirə etmədən birbaşa parlamentin müzakirəsinə təqdim etmək olmazdı;

2) buna görə də bu və ya digər nazrlik tərəfindən hazırlanmış layihə barəsində Nazirlər Şurasının sədrinə məlumat verilərək, onun hazırlanmasına səbəb olmuş amillər yazılı surətdə göstərilməlidir;

3) hazırlanmış qanun layihələri barədə baş nazirə məlumat verildikdən sonra idarə rəisləri və idarə hissəsi layihə barəsində lazımi izahat və məlumatı təqdim etməli idi;

4) Nazirlər Şurasının sədri ona təqdim edilmiş qanun layihəsini müzakirəyə çıxarır. Qanun layihələrinin müzakirəsi zamanı aidiyyəti nazirin və ya onun müavininin iştirakı mütləq tələb edilir;

5) təqdim edilmiş qanun layihəsində dəyişiklik etmək və ya yenidən işləmək lüzumu yarandığı halda layihə sədr tərəfindən aidiyyəti nazirliyə qaytarılır və düzəlişlərdən sonra Nazirlər Şurasının müzakirəsinə verilir;

6) əgər Nazirlər Şurası qanun layihəsində əhəmiyyətsiz dəyişiklik edilməsini hesab edərsə, onda həmin dəyişiklik Nazirlər Şurası-

nın növbəti iclasında edilirdi və bu barədə iclas jurnalının protokolunda qeydiyyat olunurdu;

7) Nazirlər Şurası qanun layihəsinin parlament müzakirəsinə göndərilməsi barədə qərar qəbul edərdisə, qanun layihəsi iki dildə - rus və türk (Azərbaycan) dillərində tərtib edilərək, iclasın qəbul etdiyi qərarın jurnala daxil edilmiş nüsxəsi ilə birlikdə aidiyyəti nazirliyə qaytarılırdı;

8) göstərilmiş bənd üzrə (7-ci maddə) jurnal qərarını almış aidiyyəti nazir və ya idarə dərhal iki dildə tərtib edilmiş jurnal qərarını və nüsxəsi ilə birlikdə qanun layihəsini şəxsən və ya müavini vasitəsi ilə parlamentə təqdim edərək layihənin müdafiə edilməsini təşkil etməli idi;

9) parlament tərəfindən qəbul edilərək Nazirlər Şurasına qaytarılmış layihələr rəsmi dövlət qəzeti olan "Azərbaycan" və "Azərbaycan hökumətinin qanun və sərəncamları xəbərləri"ndə dərç edilməli idi;

10) qeyd olunan məsələlər sadə səs çoxluğu ilə həll edilirdi. Əgər hər hansı bir fikir ayrılığı yaranardısa və səslər bərabər bölüşdürülərdisə onda sədrin müdafiə etdiyi layihə qəbul edilirdi.

Nəhayət, qaydaların sonuncu bəndində qanun layihələrinin müzakirə edilməsi, qəbul olunması və iki dildə parlamentə təqdim olunması Nazirlər Şurasının işlər idarəsinə həvalə edilirdi. Nazirlər Kabineti təşkil olunduğu gündən qanunvericilik fəaliyyətini daimi inkişaf etdirmiş, kabinetin rolu həmişə yüksək olmuş və bütün bunlar dövlətdə Nazirlər Kabinetinin güclənməsinə, parlamentə təsirin artmasına, onsuz da səlahiyyətləri yüksək olan hökumətin rolunun daha da yüksəlməsinə xidmət etmişdir. Nazirlər Şurasının 1919-cu il 18 yanvar "Qanun layihələrinin parlamentə təqdim olunması qaydaları" haqqındakı qərarı göstərilən məsələlərə xidmət edirdi. Digər tərəfdən ADR-in dövlət quruluşunda hökumət və ya Nazirlər Şurasının həmişə mühüm rol oynaması xarakterik bir cəhətdir. Milli Şura müvəqqəti fəaliyyətini dayandırdıqdan sonra və səlahiyyətlərini Nazirlər Kabinetinə verdiyi dövrdən başlayaraq dövlət hakimiyyəti faktiki olaraq hökumətə məxsus olmuşdur. Nazirlər Kabinetinin qanunvericilik təşəbbüsü ilə çıxış etməsini, ən mühüm qanun layihələrini hazırlamasını, maliyyə məsələlərinə dair qanun layihələrini tərtib

edib parlamentin təsdiqinə verməsini, bir sıra qərarları və qətnamələri qanunvericilik aktlarına bərabər tutaraq parlamentin təsdiqinə vermədən qəbul etməsini ADR hökumətinin səlahiyyətlərinin geniş olması ilə izah etmək olardı.

1919-cu il 18 yanvar "Qaydalar"ına müvafiq olaraq, hökumət üzvlərinin hər biri qanunvericilik təşəbbüsü ilə çıxış edə bilərdi. Hökumətin üzvlərinə parlamentdə deputat kimi təmsil olunmaq səlahiyyəti də verilirdi. Ali icraedici hakimiyyət funksiyasını həyata keçirən hökumət müvafiq qanun qüvvəli aktlar da vermək hüququ əldə etmişdi.

1918-ci il iyunun 25-də Nazirlər Kabinetinin qərarı ilə rəsmi dövlət qəzeti yaradıldı. Xalq maarifi naziri A. Ağayevə Yelizavetpol şəhərində (Gəncə) mətbəə üçün avadanlıq əldə etmək və smeta hazırlayıb hökumətin təsdiqinə vermək tapşırıldı.

İyunun 27-də türk (Azərbaycan) dili dövlət dili elan edildi. Bu dildə bütün məhkəmə, inzibati və digər işlərin aparılması üçün savadlı kadrların yetişməsinə qədər dövlət idarələrində rus dilindən müvəqqəti istifadə etməyə icazə verilirdi. Milli hökumət elə həmin gün digər qərarla cümə gününü bazar günü əvəzinə istirahət günü elan etdi. İyulun 12-də Azərbaycan Respublikası daxilində təqvim Bakı vaxtı ilə hesablanırdı.

1919-cu il yanvarın 18-də Nazirlər Kabineti verdiyi qərar və sərəncamların dərc edilməsi qaydalarına dair təlimat verdi. Belə ki, "Azərbaycan Respublikasının Xəbərləri" adlı rəsmi məcmuə təsis edildi. Parlamentin, Nazirlər Şurasının, ayrı-ayrı nazirliklərin qanun, qərar və sərəncamlarının hökumətin işlər idarəsinin nəzarəti ilə "Xəbərlər"də dərc olunmasına göstəriş verildi. İşlər idarəsi mətnləri korrektə edərək əsli ilə dəqiqləşdirməli idi. Hökumət gələcəkdə bütün idarələrə göndərmək üçün məcmuənin sayını artırmağı nəzərdə tuturdu.

Nazirlər Kabineti maliyyə vəziyyətini möhkəmləndirməkdən ötrü 1918-ci il sentyabrın 22-də Bakı Soveti dövründə buraxılmış bonların ümumdövlət pulları ilə bərabər olması barədə qərar verdi.

Noyabrın 9-da Azərbaycan Demokratik Respublikasının dövlət bayrağı təsdiq edildi. Bayrağın üzərində aypara və səkkizgüşəli ulduz mavi, qırmızı və yaşıl rənglərdə verilirdi.

1919-cu il martın 3-də Azərbaycan teleqraf agentliyinin yaradılması barədə Nazirlər Kabineti qərar verdi.

Milli hökumət Bakının azad edilməsinin ildönümü münasibəti ilə 1919-cu il sentyabrın 12-də xüsusi qərarla 15 sentyabrı bayram günü elan etdi.

Sentyabr ayında Azərbaycan Dövlət Bankının yaradılması haqqında qanun verildi. Azərbaycan Respublikasının pul və poçt markaları dövriyyəyə buraxıldı.

Azərbaycan Demokratik Respublikasının ərazisi təxminən 114 min kv. km. olmuşdur. Respublikanın ərazi-inzibati qurluşunda əvvəlki kimi çar Rusiyası dövründə mövcud olmuş ərazi vahidləri qalmaqda davam edirdi. Quberniya, qəza, dairə və nahiyə bölgüsü saxlanılmışdı. Bakı, Gəncə və İrəvan quberniyaları, Zaqatala dairəsi ən iri inzibati vahidlər idi. İrərvan quberniyasının birinci və ikinci polis sahəsi; Şərur-Dərələyəz qəzası, Naxçıvan qəzasının birinci, ikinci, üçüncü və dördüncü polis sahəsi və Yenibəyazit qəzasının birinci və ikinci polis sahəsi mübahisəli ərazilərə daxil deyildi. Həmin quberniyanın mübahisəli ərazilərinə isə birinci, üçüncü, dördüncü polis sahəsinin bir hissəsi, Eçmiədzin (Üçkilsə) qəzasının birinci, ikinci və üçüncü polis sahəsi, Sürməli qəzasının birinci, ikinci və üçüncü polis sahəsi, Yenibəyazit qəzasının üçüncü polis sahəsi daxil idi. Tiflis quberniyasının mübahisəli ərazilərinə Tiflis qəzasının ikinci və üçüncü polis sahəsi, siqnaxski qəzasının beşinci sahəsi, Borçalı qəzasının birinci və ikinci sahəsi və üçüncü və dördüncü polis sahəsinin bir hissəsi aid edilirdi.

Quberniyalara hökumət tərəfindən təyin edilən general-qubernator başçılıq edirdi. 1919-cu il 5 fevral tarixli hökumət qərarı ilə R. Axundzadə Bakı qubernatoru təyin edildi. Digər fərmanla isə rotmistr Quda Qudiyev Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzaları üzrə general-qubernator müavini vəzifəsinə göndərildi.

Nazirlər Kabinetinin 1918-ci il 30 iyun tarixli qərarı ilə Zaqatala dairəsi Azərbaycana birləşdirildi. Qərarda göstərilirdi ki, yerli əhalinin Milli Komitəsinin 28 may 1918-ci il teleqramında xalqın birləşmək istəyi nəzərə alınmış və dairə Azərbaycan Respublikasının tərkibinə qatılmışdır.

1919-cu ilin əvvəllərinə qədər Dərbənd şəhəri və onun ətraf rayonları Azərbaycan hökumətinin qərar və sərəncamları ilə işləyirdi. Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuş Dərbənd əyaləti Denikinin qoşunları tərəfindən işğal edildi. Azərbaycan hökuməti işğal barədə Paris sülh konfransına məlumat göndərmiş və zəbt edilmiş ərazinin geri qaytarılması barədə tədbirlər görülməsini tələb etmişdi.

Quberniyalar qəzalara, qəzalar nahiyələrə, nahiyələr isə kəndlərə bölünürdü. Quberniyalarda inzibati və yerli idarəçilik orqanlarına ümumi rəhbərliyi qubernator həyata keçirirdi. General-qubernatorun funksiyasına hökumətin qərarlarını icra etmək, quberniya daxilində müdafiə işini təşkil etmək, həmçinin hərbi vəziyyət elan etmək, asayişi qorumaq, xalq maarifi, səhiyyə və ticarət işlərinə nəzarət etmək daxil idi. Yerli sahə polismeystri vəzifələrinə təyinatı general-qubernator aparırdı.

1919-cu il fevralın 28-də Nazirlər Şurası yerli idarəçilikdə çox mühüm bir tədbir həyata keçirdi. Hökumətin qərarı ilə Cənub-Qərbi Azərbaycanda general-qubernatorluq idarə sistemi yaradıldı. Fərmana görə Naxçıvan, Ordubad, Culfa qəzası və İrəvan quberniyasının azərbaycanlılar yaşayan ərazilərini əhatə edən qubernatorluq erməni daşnaklar tərəfindən törədilən cinayətlərin və soyqırımın qarşısını almalı idi. Bəhram xan Naxçıvanski Cənub-Qərbi Azərbaycanın general-qubernatoru, Kərim xan İrəvanski hərbi məsələlər, Hacı Mehdi Bağırov isə mülki sahə üzrə müavin təyin edildi. General-qubernator yanında 7 nəfərdən ibarət Şura yaradıldı. Onun tərkibinə qubernatorluq idarəsi üzvlərindən başqa iki nəfər Naxçıvan qəzasından, bir nəfər Sürməli, bir nəfər Ordubad və bir nəfər İrəvan qəzasından nümayəndə daxil edildi. Qubernatorluğa Şuranın tərkibi, ştat vahidi, dəftərxana və digər yerli idarəçiliklə bağlı öz təkliflərini hökumətə təqdim etmək tapşırıldı. Milli hökumət Cənub-Qərbi Azərbaycana xüsusi diqqət yetirdiyindən Daxili İşlər Nazirliyinə qubernatorluqdakı yerli hakimiyyətin dərhal fəaliyyətə başlanması üçün fonddan 500 min manat vəsait ayırdı.

General-qubernatora 4 min 500, müavinlərə 3 min 500 manat, Şura üzvlərinə isə 3 min manat məbləğində maaş müəyyən edildi.

1918-ci il dekabrın 6-da Azərbaycanın Ermənistan Respublikasındakı nümayəndəliyinə ayrılmış bir milyon 150 min manat vəsaitdən 850 min manatı qaçqınlara kömək etmək məqsədilə Cənub-Qərbi Azərbaycan qubernatorluğunun sərəncamına verildi. Yeni qubernatorluğun yaradılması ilə əlaqədar olaraq Sosial Təminat Nazirliyinə qaçqınlara yardım göstərilməsi məqsədilə öz təkliflərini hökumətə təqdim etmək tapşırıldı. Ərzaq Nazirliyinə də öz yerlərini tərk edənlərə ərzaq və digər sosial yardımlar göstərmək həvalə edilirdi.

Ümumiyyətlə, Cənub-Qərbi Azərbaycan qubernatorluğunun ərazisi keçmiş çar inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasına daxil edilmişdi. 1918-ci il noyabrın sonlarında müvəqqəti müstəqilliyini elan etmiş Araz Respublikası (paytaxtı Kəmərli, sonra isə Naxçıvan olmuşdu) yaradıldı. Onun ərazisinə Cənub-Qərbi Azərbaycanın müsəlmanlar yaşayan Naxçıvan, Şərur, Dərələyəz, Sərdarabad, Vedibasar, Mehri, Kəmərli və s. bölgələri daxil edilmişdi. Naxçıvan şəhəri müvəqqəti respublikanın paytaxtı idi. 1918-ci ilin dekabrında daha bir yeni Respublika Cənub-Qərbi Qafqaz Demokratik Respublikası (paytaxtı Qars şəhəri idi) yaradıldıqdan sonra Araz Respublikası yeni qurumun tərkibinə daxil olur. Azərbaycan hökumətinin 1919-cu il 28 fevral fərmanı isə dövlətçiliyi və yerli idarəçiliyi möhkəmləndirmək, hərc-mərcliyin qarşısını almaq, qaçqınlara kömək etmək, daxili ziddiyyətlərlə dolu olan yeni respublikanı bu bəlalardan qurtarmaq və nəhayət vahid dövlət kimi Azərbaycanın təmsil olunmasına nail olmaq, Qafqazdakı mübahisəli ərazilərin ADR-ə birləşməsini təmin etmək məqsədini güdürdü. Məhz Azərbaycan hökuməti Naxçıvan və İrəvan quberniyası əhalisinin Azərbaycana birləşmək arzusunu nəzərə alaraq, Naxçıvana və bütövlükdə Cənub-Qərbi Azərbaycana general-qubernator təyin etmişdi.

Azərbaycan hökuməti Cənub-Qərbi Azərbaycan əhalisinin iradəsinə uyğun olaraq, bu ərazilərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bildirirdi.

Cənub-Qərbi Qafqaz Respublikasının yaranması zərurəti isə Türkiyənin birinci dünya müharibəsində məğlub tərəf kimi Azərbaycandan və Qafqazın digər ərazilərindən, o cümlədən Qərbi Azərbaycan

torpaqlarından öz qoşunlarını çıxarması ilə bağlı idi. Artıq 1919-cu il yanvarın 16-dan türk qoşunları tamamilə Cənub-Qərbi Azərbaycanı tərk etdi.

Britaniya hərbi hakimiyyətinin ermənilərin təsiri ilə Naxçıvan torpaqlarını Azərbaycandan zorla ayırmaq cəhdləri Azərbaycan hökumətinin səyləri nəticəsində boşa çıxdı.

Azərbaycan Demokratik Respublikasının ərazi bütövlüyü üçün digər təhlükə Cənub-Şərqi Azərbaycan ərazisində Moskvanın və erməni daşnaklarının əli ilə yaradılmış və Muğanda Sovet hakimiyyəti qurmağa çalışan oyuncaq qurumun yaradılması oldu. 1919-cu il mayın 15-də Lənkəranda kəndli deputatları sovetinin qurultayı Sovet hakimiyyətini elan etdi. Daşnak A.İ. Mikoyan RK (b) PMK-ya dərhal məktub göndərərək "qurultayın bizim yoldaşların (bolşevik-ermənilərin) rəhbərliyi altında keçdiyini" bildirmiş və kömək göstərməyi xahiş etmişdi. Lənkərana gəmilərlə bir qrup partiya və hərbi işçi, həmçinin 9 milyon manat pul və çoxlu silah gətirilmişdi. İran vasitəsilə sovet hakimiyyətinə kömək göstərilirdi. Lakin 1919-cu il iyulun 16-da Azərbaycan hökuməti ərazi bütövlüyünü bərpa edərək yerli idarəetmə orqanlarının təşkil olunmasına başladı. Polkovnik İlyişeviçin əsasən ermənilərdən ibarət 400 nəfərlik dəstəsi tərk-silah edildi. Hökumətin 8 sentyabr qərarı Lənkəran qəzasının bolşevik hakimiyyətindən zərər çəkmiş əhalisinə yardım göstərilməsini nəzərdə tuturdu. 29 sentyabrda Astara və Lənkəran gömrük idarələrinin fəaliyyəti bərpa edildi. Sovet hakimiyyəti dövründə millileşdirilmiş müəssisələr müvafiq nazirliklərə qaytarıldı.

Beləliklə, Cənub-Qərbi Qafqaz Demokratik Respublikası (Qars və Araz respublikaları) Azərbaycanın dövlət tarixində azərbaycanlıların (müsəlmanların) erməni-bolşevik təcavüzündən qorunması və s. məsələlər üzrə mütərəqqi rol oynamışdırsa, erməni-bolşeviklərin köməyi ilə yaradılmış Muğandakı sovet rejimi Azərbaycan Demokratik Respublikası üçün böyük təhlükə törətmiş, onun daha da möhkəmlənməsinə və qüdrətlənməsinə mənfi təsir göstərmişdir.

Ordu quruculuğu. Azərbaycan Demokratik Respublikasında bütün çətinliklərə baxmayaraq ordu quruculuğuna xüsusi diqqət verilir-

di. 1918-ci il 4 iyun Türkiyə-Azərbaycan dostluq və qarşılıqlı yardım haqqında müqaviləyə uyğun olaraq türk qoşunları yüksək döyüş qabiliyyətinə malik Azərbaycan ordusunun yaradılması üçün əvəzsiz kömək göstərirdi. Çarizm dövründə müsəlmanların hərbi xidmətə çağırılmaması səbəbindən azərbaycanlılar arasında zabit kadrların çatışmaması da özünü büruzə verirdi.

Milli Şuranın 28 may 1918-ci il tarixli hökumətin tərkibi haqqında qərarı ilə hərbi nazirlik də yaradılırdı. Xosrov bəy Sultanov ilk hərbi nazir kimi hökumətə daxil edilmişdi.

1918-ci il iyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan edildi. İyunun 26-da keçmiş müsəlman korpusu "Əlahiddə Azərbaycan korpus"una çevrildi. Göyçay ətrafındakı döyüşlərdən qələbə ilə çıxan "Əlahiddə Azərbaycan korpusu"nun komandanlığının təqdimatına əsasən rütbələrin verilməsi və ordenlə təltif üçün Nazirlər Kabinetinin sədrinə göndərilən müraciət iyulun 8-də təsdiq edildi.

1918-ci il iyulun 11-də Gəncə şəhər hərbi mükəlləfiyyət idarəsi hökumətin qərarı ilə Azərbaycan hərbi mükəlləfiyyət idarəsinə çevrildi. Həmin gün 1894, 1895, 1896, 1897, 1898 və 1899-cu illərdə anadan olmuş müsəlmanları orduya cəlb etmək üçün səfərbərlik elan edildi. Hökumət qərarında Azərbaycan hərbi mükəlləfiyyət idarəsinə çağırışçıların toplanış məntəqəsinin yerini və çağırış vaxtını müəyyən etmək tapşırıldı. Baş nazir F.X. Xoyski və hərbi idarə işləri üzrə səlahiyyətli İ. Ziyadxanovun imzaladığı sənəddə hərbi mükəlləfiyyətdən yayınan şəxslər barəsində hərbi vəziyyət dövrünün qanunlarına uyğun olaraq cəza verilməsi nəzərdə tutulurdu.

1918-ci il noyabrın 1-də hərbi nazirlik yaradıldı. Hələ birinci hökumətin tərkibində yaradılması nəzərdə tutulan hərbi nazirlik, iyun böhranı dövründə ikinci hökumətə daxil edilməmişdi. Hökumət qərarında noyabrın 1-dən baş nazir eyni zamanda Hərbi Nazirliyə də başçılıq edirdi. General S. Mehmandarov isə nazir müavini təyin olundu. Noyabr ayından Bakını işğal edən ingilis qoşunları və onlara başçılıq edən general Tomson Azərbaycan hökumətinə Bakıda ordu saxlamağı qadağan etmişdi. Buna görə də 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinədək Azərbaycan Respublikasının Hərbi Nazirliyi Gəncədə fəaliyyət göstərməli oldu.

1918-ci ilin dekabrın axırlarında artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, general Əliağa Şıxlinski onun müavini, general Süleyman Sulkeviç qərargah rəisi təyin edildi. Ordunu ixtisaslı kadrlarla təmin etmək üçün yeni təcrübəli mütəxəssislər cəlb edilirdi. Hərbi Nazirlik əsgər və zabitlərin döyüş qabiliyyətini artırmaqla yanaşı, onların vətənpərvərlik ruhunun yüksək olmasına da xüsusi diqqət verirdi.

Ordunun hərbi tibbi xidmətini yaxşı təşkil etmək üçün parlament tərəfindən 1919-cu il iyunun 16-da qanun verildi. Qanuna görə 45 yaşına çatmış və axırıncı 5 ili Azərbaycanda yaşayan bütün kişi həkimlər üç illik hərbi xidmətə çağırılırdı. Hərbi Nazirliyə və Daxili İşlər Nazirliyinə tapşırılırdı ki, yerli hərbi idarələrdə bütün həkimləri, o cümlədən axırıncı 5 ili Azərbaycanda işləyənləri təcili olaraq qeydiyyatdan keçirsinlər. Xidmətə çağırılan həkimlərin yaşı, yaşadığı yer, ailə və xidməti vəziyyəti, hərbi xidmət keçib-keçməməsi, sağlamlığı, universiteti qurtardığı il, həkimlik stajı və ixtisası qeydiyyata alınırdı. Qanunla Hərbi Nazirliyə hüquq verilirdi ki, daxili işlər və Səhiyyə Nazirliyi ilə birlikdə təcrübəsi, yaşı, sağlamlığı, ailə vəziyyəti və veriləcək vəzifə maaşlarını nəzərə almaqla ilk növbədə müsəlman həkimləri orduya çağırsınlar. Qeyri-müsəlman həkimlər isə ehtiyatda saxlanılır və tələbat olan kimi onları da orduya cəlb etmək nəzərdə tutulurdu. Daimi iş yerlərində tələbat olardısa, hərbi nazirlik, daxili işlər və səhiyyə nazirliklərinin birlikdə razılığı ilə həkimlərə möhlət verilə bilərdi. Səyyar hərbi xəstəxananın (lazaret) qurulması, hərbi qatar, aptek, tibb ləvazimatı əldə edilməsi və s. mühüm işlərin görülməsi ordunun döyüş qabiliyyətini və təchizatını xeyli yaxşılaşdırırdı.

1919-cu il yanvarın 15-də Hərbi Nazirliyin nəzdində baş qərargah təsis edildi. Baş qərargaha general-mayor Əbdülhəmid bəy başçılıq edirdi. Qərargahın nəzdində növbətçi general idarəsi, ümumi şöbə, ordunu atla təmin edən şöbə, nəşriyyat şöbəsi, hərbi xidmətdə olmayanlar şöbəsi, xəzinə, istehsalat işləri şöbəsi, Baş qərargahın poçt stolu və onun jurnalist şöbəsi, yerli briqadalar idarəsi, yerli briqadalara tabe olan zabit qərargahı və b. idarə və şöbələr yaradıldı.

Baş qərargahın baş idarəsi Azərbaycanın bütün döyüşən piyada, süvari, dəmiryol, dəniz donanması, ehtiyat mühafizəsi və b. hərbi hissələrinə rəhbərlik edir, onlar üçün döyüş planları hazırlayır, Azərbaycanın hərbi rəislərinə, hərbi prokurorluğa, hərbi məhkəməyə, komendanlığa nəzarət edir, hərbi mühəndislik, xəritəçilik, hərbi xəstəxana, hərbi tibb qatarı, ərzaq mağazaları, hərbi məmulatlar anbarı və b. şöbələrin işlərini təşkil edir, hərbi məktəblər üçün şagirdlər toplayırdı.

1919-cu il yanvarın 18-də Hərbi Nazirliyin təkliflərini nəzərə alan hökumət xalq müəllimlərinin və ailənin tək övladlarının hərbi xidmətdən azad olunması barədə qərar verdi.

1919-cu ilin aprelində Hərbi Nazirlik, ordu qərargahı və qoşun hissələri təntənəli surətdə yenidən Bakıya daxil oldu.

1919-cu il mayın 26-da parlamentin qəbul etdiyi qanunla hərbi idarənin təşkil olunmasına dair sənəd qəbul edildi. Qanunla baş hərbi idarəyə əhalinin hərbi xidmətə çağırılması və natura mükəlləfiyyətlərinin yerinə yetirilməsi vəzifəsi həvalə edilirdi. Hərbi idarə çağırışla yanaşı, hərbi-süvari yüklərin daşınması və digər natura mükəlləfiyyətlərinin icra edilməsi, yerli hərbi idarələrin hesabatının alınması, qəza, dairə və şəhər idarələri arasındakı mövcud ola biləcək anlaşılmazlıqların həll edilməsi tapşırılırdı.

Baş hərbi idarəyə sədrlik daxili işlər nazirinin müavininə həvalə edilirdi. İdarənin üzvləri isə Hərbi və Ədliyyə Nazirliyinin nümayəndələrindən və dəftərxananın işçilərindən ibarət idi. Dəftərxana isə bir katibdən, iki nəfər iş icraçısından, qeydiyyat və dəftərxana məmurlarından təşkil edilirdi.

Yerlərdə qəza, dairə və şəhər hərbi mükəlləfiyyət idarələrinə çağırışçıların siyahısını tərtib etmək, onları yoxlamaq, toplanış yerlərinə gəlməyi təmin etmək, xidmət barədə məlumat vermək, kimin hansı qaydada xidmət edəcəyini, həm xidmətdən əvvəl, həm də xidmətdən sonra vətəndaşın xidmətə yararlı olub-olmamasını müəyyən etmək və yeni çağırışları təmin etmək həvalə edilirdi.

Yerli hərbi idarələrdən çağırış kompaniyası başa çatdıqdan sonra baş hərbi idarəyə müfəssəl hesabat vermələri tələb olunurdu.

26 may qanunu hərbi idarələrə xidmətdən yayınan şəxslər barədə polis orqanlarını xəbərdar etmək və belələrini intizam məsuliyyətinə cəlb etmək hüququ verirdi.

Yerli hərbi idarələr ordunu atlarla, döyüş arabaları və digər ləvazimatla təmin etməkdən ötrü əhalidə olan atların və digər ləvazimatın qeydiyyatını aparmağa icazə almışdı.

Qanuna görə döyüşlər zamanı yaralanmış və əmək qabiliyyətini itirmiş şəxslər üçün pensiya müəyyən edilirdi.

Qəza, dairə və şəhər hərbi idarələrində ştat təsdiq edildi. İdarə katibdən, iki nəfər iş icraçısından, qeydiyyat və dəftərxana məmurundan ibarət idi. İdarələrə sədrliyi qəza, dairə və ya şəhər üzrə müvafiq olaraq təyin edilən rəislər həyata keçirirdi.

Bu təyinatı daxli işlər naziri aparırdı. Qəza hərbi idarələri bütün qəza mərkəzləri üzrə yaradılırdı. Eyni zamanda belə idarələri Gəncə, Qazax, Nuxa, Tərtər, Cəbrayıl, Bakı, Göyçay, Salyan, Şəki, Zaqatala və Şuşa istisna olmaqla digər ərazilərdə də tədricən yaratmaq nəzərdə tutulurdu.

1919-cu ilin 9 iyununda hökumətin qərarı ilə dövlətin müdafiəsini təşkil etməkdən ötrü xüsusi orqan olan "Dövlət Müdafiə Komitəsi" təsis edildi. Dövlət Müdafiə Komitəsinə 5 nəfər, o cümlədən Nazirlər Şurasının sədri, hərbi nazir, yollar naziri, xarici işlər naziri və ədliyyə naziri daxil edildi. Komitənin iclasında üç nəfər üzvün iştirakı onun səlahiyyətliliyini (kvorum) təmin edirdi. Sədrin iştirak etmədiyi iclasda onun üzvlərinin hər hansı biri sədrlik funksiyasını yerinə yetirə bilərdi. Komitənin reqlamentinin belə qaydası dövlətin müdafiəsi üçün zəruri anda onun toplanmasının təmin olunmasına yönəlmişdi.

1919-cu il iyunun 16-da Azərbaycan-Gürcüstan paktı imzalandı. Tərəflər xarici müdaxilə olduğu halda bir-birlərinə kömək göstərməli idilər. Neft məhsulları əvəzinə Azərbaycan ordusuna silah, top və digər hərbi ləvazimat verilməsi, Azərbaycan ordusuna gürcü zabitlərin göndərilməsi, Azərbaycan üçün zabitlər hazırlamaqdan ötrü Gürcüstanın hərbi məktəblərinə müdavimlərin göndərilməsi və s. haqqında gizli müqavilə bağlandı.

Azərbaycan Hərbi Nazirliyi Bakıya köçürüldükdən sonra, Gəncədəki hərbi məktəb də Bakıya köçürülür və yenidən təşkil edilir. Hərbi istehkamçılar məktəbi, hərbi ləvazimat istehsal edən zavodlar, dəmiryol üçün zabitlər hazırlayan hərbi-dəmiryol məktəbi, Şuşada hərbi feldşer məktəbi açıldı. Ali rütbəli yüzə yaxın general, polkovnik və polkovnik-leytinantlar Azərbaycan ordusunda xidmət edirdi.

Azərbaycanın hərbi dəniz donanmasını da təşkil etmək nəzərdə tutulurdu. Donanma iki hərbi gəmi və bir sualtı qayıq ilə təchiz edilmişdi.

Hərbi Nazirlik hərbi hava qüvvələrini yaratmaq üçün 1920-ci ildə 12 hidroplan və 6 aeroplan almağı nəzərdə tuturdu.

1919-cu il sentyabrın 15-də Bakının ingilislərdən və sentrokaspiçilərdən geri alınmasının ildönümü münasibəti ilə hərbi parad keçirildi.

1919-cu ilin yayında milli ordu oyuncaq Muğan Sovet Respublikasını tərk-silah etdi. Daha sonra ordumuz payızda Ermənistanla sərhəddə əmin-amanlığı bərpa etdi.

Azərbaycan parlamenti və hökuməti ordu quruculuğuna həmişə xüsusi diqqət yetirirdi. Həmin dövrdə hərbi büdcə ümumi büdcənin 27,7 faizini təşkil edirdi. 1920-ci ildən isə hərbi büdcəni artırmaq nəzərdə tutulmuşdu.

ADR-in məhkəmə sistemi. Azərbaycan Respublikası Nazirlər Şurası 1918-ci il 17 iyun tarixli müraciətdə digər dövlət idarələri ilə yanaşı, məhkəmələrin də milliləşdirilməsini elan etdi. Dövlət yeni yaranmış respublikanın ilk milli hökumətinin tərkibinə Ədliyyə Nazirliyini də daxil etməklə məhkəmə və hüquq sisteminə böyük diqqət verdiyini və bu sahədə demokratik islahatların keçirilməsinin vacibliyini bildirdi. İkinci hökumətin tərkibində baş nazir F.X. Xoyski eyni zamanda ədliyyə naziri idi. Azərbaycan parlamentinin 1918-ci il dekabr ayında keçirilmiş ilk iclaslarının birində yeni hökumətin proqram çıxışında baş nazir F.X. Xoyski digər məsələlərlə yanaşı ədliyyə sistemində də aparılacaq islahatlar barəsində hökumətin platformasını elan etdi. Hökumətin ədliyyə sisteminə xüsusi diqqət yetirdiyini bildirən baş nazir heç bir dövlət orqanının məhkəməni əvəz edə bilmədiyini və buna görə də ədliyyə sisteminin təşkil edilməsinin dövlətin ən vacib vəzifəsi olduğunu bildirdi. Ədalət məhkə-

məsi qarşısında hamının bərabərliyi elan edildi. Ədalət mühakiməsi isə yalnız məhkəmə tərəfindən həyata keçirilirdi. Hakimlər müstəqildir və yalnız qanuna tabe olmalıdırlar.

1918-ci il iyunun 27-də hökumətin qərarı ilə Teymur bəy Makinski ədliyyə nazirinin müavini təyin edilir. Nazirliyin işinin yaxşı təşkil edilməsi üçün iyunun 30-dan katiblik, iş icraçısı, mirzə və kuryer ştatları müəyyən edildi.

Azərbaycanda hərbi vəziyyət elan olunması ilə əlaqədar Ədliyyə Nazirliyinə qanundan irəli gələn bir sıra tədbirləri həyata keçirmək həvalə edilir. "Əlahiddə Azərbaycan korpusu" və digər daxili və hərbi birləşmələr üzrə Korpus Məhkəməsi yaradıldı. Azərbaycan Korpus Məhkəməsi 1914-cü il 30 iyun tarixli hərbi məhkəmə nizamnaməsi qaydaları əsasında məhkəmə işini təşkil edirdi. Dövlət hakimiyyəti əleyhinə, ictimai quruluş əleyhinə, dövlətə xəyanət, həyat üçün təhlükə törədən soyğunçuluq və s. əməllərə görə ümumi mühakimə ilə yanaşı hərbi vəziyyətin qanunlarına uyğun olaraq cəza verilməsi hərbi məhkəmələrə həvalə edilirdi. Rusiya Müvəqqəti hökumətinin 28 may 1917-ci il qərarı ilə korpus məhkəmələrində hərbi andlı iclasçıların iştirakı ləğv edilirdi. Korpus Məhkəməsinin qərarı dərhal "Əlahiddə Azərbaycan korpusu" komandanlığına təsdiq edilmək üçün verilirdi. Bir gün müddətində komandanlıq məhkəmə qərarının yüngülləşdirilməsi və ya ağırlaşdırılması barəsində rəsmi təqdimat verməli idi. Korpus Məhkəməsinin hökmü Azərbaycan Respublikası adından verilirdi.

Azərbaycan ordusunun 1918-ci il iyun-sentyabr qələbələrindən sonra hökumət ədalət məhkəmələrinin bərpa olunması barədə sentyabrın 14-də xüsusi qərar verdi. Ədliyyə Nazirliyinə ədalət məhkəmələri üçün dövlət büdcəsindən 10 min rubl ayrılırdı.

Noyabrın 14-də Ədliyyə Nazirliyi tərəfindən təqdim edilmiş Azərbaycan Respublikasının məhkəmə palatasının əsasnaməsi hökumət tərəfindən təsdiq edildi.

Parlamentin 1919-cu il 14 aprel qanunu ilə hərbi dairə və alaylar üzrə hərbi məhkəmələr yaradılırdı. Qanuna görə hər bir alay və digər hərbi hissələr üzrə (bütün respublika üçün) hərbi məhkəmələr təsis edilirdi.

Alay hərbi məhkəmələri 1896-cı il hərbi qərarların hesabatının 4-cü nəşrinin 24-cü kitabının 8-23-cü maddələri və hərbi idarənin 1896-cı il 319 saylı (1914-cü il 30 iyuldan sonra edilmiş dəyişiklikləri daxil etmədən) alay hərbi məhkəmələrinin təlimatı haqqındakı əmri əsasında təsis edilirdi.

Alay hərbi məhkəmələri öz fəaliyyətlərini (məhkəmə işlərində), xüsusilə də mühakimə icraatını hərbi qərarların hesabatının 1896-cı il 4-cü nəşrinin 24-cü kitabı əsasında, lakin 1914-cü il 30 iyulundan sonra edilmiş dəyişikliklər nəzərə alınmadan təşkil edirdi.

Azərbaycan Respublikasının hərbi məhkəmələri Hərbi Nazirliyin tabeliyində olmaqla səlahiyyətlərini bütün respublika ərazisində yerinə yetirmək hüququna malik idi. Hərbi məhkəmələr daimi və müvəqqəti üzvlərdən təşkil olunurdu. Daimi üzvlər sədrdən və iki nəfər hərbi məhkəmə üzvündən ibarət idi.

Hərbi məhkəmənin müvəqqəti üzvləri hərbi nazirin sərəncamı ilə 6 ay müddətinə hərbi hissələrdən olmaqla iki nəfər qərargahdan, iki nəfər isə bölmələrdən olan ober-zabitlərdən təyin edilirdi.

Hərbi məhkəmənin sədri hərbi nazirin təqdimatı ilə hərbi-məhkəmə idarəsində ən azı hərbi prokuror və ya hərbi dairə məhkəməsində hakim işləmiş (dairə məhkəməsində prokuror və hərbi məhkəmənin daimi üzvü olan) şəxslərdən Nazirlər Şurasının qərarı ilə təyin edilirdi.

Hərbi məhkəmənin prokuroru və daimi üzvləri hərbi nazirin əmri ilə, hərbi-məhkəmə idarələrində qulluq edənlərdən vəzifəsi ən azı dairə prokurorunun köməkçisi, müavini, məhkəmə və ya hərbi müstəntiq, alay məhkəməsinin istintaq hissəsinin rəisi olan şəxslərdən, həmçinin andlı iclasçılardan, digər səlahiyyətli nümayəndələrdən və onların köməkçilərindən təyin edilirdi.

Prokuror köməkçisi və hərbi müstəntiq hərbi nazirin əmri ilə ali hüquq təhsili almış və ya fəaliyyətində kifayət qədər məhkəmə təcrübəsinə yiyələnmiş şəxslərdən seçilirdi.

İşin məhkəməyə aid hissəsi Rusiya Müvəqqəti hökumətinin hərbi idarə haqqındakı 6 iyul 1917-ci il tarixli 396 saylı əmri ilə, üçüncü bölmənin 1-9-cu maddələri üzrə olan qaydalar əsasında aparılırdı.

Azərbaycanın hərbi məhkəmələri, onların daxili quruluşu, mühakimə qaydaları və onun vəzifəli şəxslərinin səlahiyyətləri Hərbi məhkəmə Nizamnaməsi (hərbi qərarlar hesabatı, 1868-ci il, XXIV, 4-cü nəşr) və ona edilmiş 30 iyul 1914-cü il dəyişiklikləri, həmçinin 17-24-cü maddələr üzrə edilmiş dəyişikliklər əsasında tənzimlənirdi.

Qanun hərbi vəzifəli şəxslərin hərbi qulluqçular barəsində cinayət işi qaldırmasını qadağan edirdi. Qanuna əsasən hərbi istintaq aşağıdakı hallarda müəyyən edilirdi: a) hərbi rəislərin məlumatı əsasında; b) hərbi prokurorun təqdimatı ilə; c) məhkəmə və inzibati orqanların məlumatı ilə; ç) hərbi qulluqda xidmət edənlərin və fərdi şəxslərin şikayəti əsasında, d) cinayətkarın özünün etirafı ilə. Hərbi məhkəmələrin nizamnaməsində nəzərdə tutulmuş 364-366-cı maddələrə uyğun olaraq ibtidai istintaqa zabitlərin cəlb edilməsi qaydası ləğv edilirdi.

Məhkəməyə təqdim edilmiş iş dövlət ittihamçısı olan prokuror tərəfindən müdafiə edilirdi.

İstintaq işi hərbi məhkəmənin qərarı ilə dayandırılırdı.

Ayrı-ayrı şəxslərin etdikləri şikayətlər əsasında başlayan istintaqın, həmçinin hərbi rəislərin təqdimatı ilə aparılan işlərin dayandırılması barədə hərbi prokurorluğun nəzarəti ilə 7 gün ərzində hərbi idarə yanındakı məhkəmə orqanına şikayət verilə bilərdi.

Hərbi məhkəmələrə ayrı-ayrı işlər üzrə yüngülləşdirici (Hərbi məhkəmə qərarlarının 2-ci kitabının 1896-cı il 4-cü nəşri istisna olunmaqla) halların tətbiq edilməsinə imkan verilirdi. Məhkəmənin təqdimatı və müttəhimin bağışlanması barədə məhkəmə qərarı baxılmaq üçün Nazirlər Şurasına göndərilirdi. Nazirlər Şurası günahkarın cəzasını yüngülləşdirmək və ya onu tamamilə əfv etmək hüququna malik idi.

Azərbaycan hərbi məhkəmə orqanlarının tam formalaşmamasını nəzərə alaraq hökmlərdən kassasiya qaydasında şikayət vermək nəzərdə tutulmurdu. Hərbi cinayətlər üzrə müttəhim və ya onun müdafiəçisi, həmçinin mülki iddiaçı məhkəmə qərarından hərbi nazirə şikayət etmək hüququna malik idi. Gələcəkdə yaradılacaq kassasiya məhkəmələri tam formalaşdıqdan sonra göstərilən məsələlərin ümumi qaydalar əsasında həll edilməsi nəzərdə tutulurdu.

Hərbi məhkəmə qərarları Azərbaycan hökuməti adından verilirdi.

1918-ci il dekabrın 5-də Gəncə dairə məhkəməsi nəzdində hərbi məhkəmə təşkil edildi. Hərbi məhkəmənin tərkibinə sədr, iki üzv, bir prokuror, bir prokuror müavini, bir katib, iki katib köməkçisi və dörd nəfər dəftərxana işçisi daxil edilirdi.

Nazirlərin hazırladıqları qanun layihələri və digər normativ aktların hüquqi əsaslandırılması üçün 1919-cu il 14 yanvardan iki nazirliyə bir nəfər hüquq məsləhətçisi ştatı ayrılırdı.

1919-cu il mayın 14-də Nazirlər Kabinetinin qərarı ilə İrəvan dairə məhkəməsinin üzvü olmuş Abbasəli bəy Ağabababəyov Gəncə dairə məhkəməsinin sədri təyin edildi.

Milli hökumət hərbi məhkəmələrin təşkil edilməsinə, mövcud siyasi-hərbi durumu nəzərə alaraq xüsusi diqqət yetirirdi.

İyulun 7-də hökumətin qərarı ilə ədliyyə nazirinin müavini T. Makinski Azərbaycan Respublikası hərbi məhkəməsinin sədri vəzifəsinə təyin edildi. Azərbaycan Məhkəmə Palatasının üzvü Olqerd Kriçinski isə ədliyyə nazirinin müavini vəzifəsinə irəli çəkildi.

Həbsxanaların Ədliyyə Nazirliyinə verilməsi və həbsxana nəzarətini gücləndirməkdən ötrü vəsait ayrılması barədə hökumətin 11 avqust 1919-cu il qərarı verildi. Həmin dövrə qədər Daxili İşlər Nazirliyinin tabeliyində olan həbsxanalar Ədliyyə Nazirliyinə verildi. Məhbusların saxlanıldığı şəraitin yaxşılaşdırılması üçün Ədliyyə Nazirliyindən tədbirlər görülməsi tələb edilirdi.

Qanunçuluğu möhkəmləndirmək, müstəqillik qazanıldıqdan sonra ədliyyə orqanlarında islahatlar keçirmək, rus imperiyası dövründən qalma qanun və məcəllələri yeni formaya salmaq və möhkəmləndirmək, bütün respublika üçün qanunun vəhdətini təmin etmək üçün Ədliyyə Nazirliyinin üzərinə böyük vəzifələr düşürdü. Dövlət məhkəmə idarələrinin işini milli dəyərləri də nəzərə almaqla, həmçinin Ədliyyə Nazirliyinin işini yüksək səviyyəyə qaldırmaq üçün hələ çox işlər görməli idi. Nazirlər Kabineti 1919-cu il iyulun 19-da verdiyi qərarla hüquq kitabxanasını yaratmaq üçün Ədliyyə Nazirliyinin fonduna 50 min rubl vəsait ayırdı.

ADR-də müstəqil prokurorluq orqanı hələ yaradılmamışdı. Prokurorluğun funksiyalarını bu və ya digər dərəcədə ədliyyə orqanları yerinə yetirirdi. Müstəqil Azərbaycan Respublikasında vahid qanunçuluğu, idarəetmə orqanlarının fəaliyyətinin qanuniliyini, təhqiqat və ibtidai istintaqın aparılmasına nəzarəti təmin etmək və məhkəmədə ittihamı müdafiə etmək üçün prokurorluq orqanlarının funksiyalarını və vəzifələrini müəyyən etmək zəruri idi. Hökumətin 1919-cu il 10 may qərarı ilə O. Kriçinski Azərbaycan Respublikası Məhkəmə Palatasında prokuror vəzifəsinə təyin edilir. Prokurorluq ştatı Ədliyyə Nazirliyi nəzdində idi.

ADR dövründə xüsusi vəkillik institutu mövcud olmamışdı. Vəkillik funksiyalarını ayrı-ayrı hüquqşünaslar və dövlət təşkilatları yerinə yetirirdi.

Bakı Sovetinin bolşevik hökuməti, Sentrokaspi diktaturası və çar Rusiyası dövründə yerli əhalinin incidilməsi, qanunsuz həbslər Milli Hökuməti həmin məhkəmə hökmlərinə yenidən baxmağa məcbur edirdi. Bu məqsədlə ədliyyə naziri A. Səfikürdski 1919-cu ilin 28 noyabrında amnistiya haqqında qanun layihəsini hazırlayıb parlamentin təsdiqinə verdi. Layihədə göstərilirdi ki, müstəqil respublikanın yaranmasının ilyarımı münasibəti ilə və bütün vətəndaşların yeni respublikaya xidmət etmələrini və onun qurulmasında bərabər surətdə iştirak etmələrini təmin etmək məqsədilə 1918-ci ilin 28 mayına qədər edilmiş cinayətlərə görə ümumi amnistiya elan edilir. Amnistiya Azərbaycanda yaşayan xarici vətəndaşlara da şamil edilirdi.

ADR-in qanunvericilik fəaliyyəti

Hüququn mənbələri. ADR-də hüququn mənbələri Milli Şuranın qərarları, Azərbaycan parlamentinin qanunları, Nazirlər Kabinetinin qanun qüvvəli aktları, qərar və sərəncamları, Bakı Soveti və çar Rusiyası dövründə qəbul edilmiş qanun, qərar, sərəncam və müxtəlif məcəllələrin yeni şəraitə uyğunlaşdırılmış formaları olmuşdur. Lakin cəmi 23 ay mövcud olmuş ADR, təəssüf ki, müstəqil olaraq mülki, cinayət, inzibati, prosessual, ən əsası isə konstitusiya quruculuğu sa-

həsində nəzərdə tutulan işləri yerinə yetirə bilmədi. Hal-hazırda bu vəzifələri ADR-in varisi olan və 1991-ci il konstitusiya aktı ilə müstəqilliyini təsdiq edən Azərbaycan Respublikası dövləti və hökuməti həyata keçirir.

1919-cu il iyulun 21-də Azərbaycan Demokratik Respublikasının parlamenti **Müəssislər Məclisinə seçkilər haqqında "Əsasnamə-ni"** təsdiq etdi. "Əsasnamə" 10 fəsildən və 116 maddədən ibarət idi. Məclis cinsindən asılı olmayaraq 20 yaşına çatmış bütün respublika vətəndaşlarının bərabər, birbaşa və gizli səsvermə yolu iştirak etdiyi seçkilər vasitəsi ilə seçilməli idi. Hərbi qulluqda olanlar yalnız passiv seçki hüququna malik idilər. İnzibati vəzifədə olan şəxslər, perefektlər, qəza rəislərinin köməkçiləri, polismeyster köməkçiləri, qubernator və onların köməkçiləri aktiv seçki hüququndan istifadə edə bilərdilər.

Qəyyumluqda olanlar, anlaqsız adamlar seçkidə iştirak edə bilməzdi. Həmçinin məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə azadlıqdan məhrum edilənlər, 10 illik katorqa işlərinə cəlb edilmiş şəxslər cəza müddətləri başa çatana qədər, yaşayış yerlərindən sürgün edilmişlər, islah evlərində icbari işə cəlb edilmiş, zindana və ya qalaya salınmış şəxslər, hüquqlardan qismən və ya tamamilə məhrum edilmiş şəxslər də 5 il müddətinə seçkidə iştirak hüququndan məhrum olunurdular.

"Əsasnamə" oğurluq, fırıldaqçılıq, mənimsəmə, israfçılıq, saxtakarlıq, sələmçilik və rüşvətxorluğa görə azadlıqdan məhrum edilmiş şəxslərə 3 il müddətdən sonra seçkidə iştirak etmək hüququ verirdi.

Məhkəmənin qanuni qərarı ilə borca düşmələri təsdiq olunmuş borca düşmüş və müflis olmuş fiziki şəxslərə 3 il müddətinə seçki senzi tətbiq edilirdi. Seçki senzi ordu sıralarını özbaşına tərk etmiş şəxslərə də tətbiq edilirdi.

Qanunla seçki məntəqələrinin siyahısına daxil edilmiş şəxslər seçkidə bilavasitə iştirak edə bilərdi.

Müəssislər Məclisinə seçkilər haqqındakı qanunla seçki keçirmək hüququ mərkəzi (respublika), qəza, şəhər ərazisi, kənd cəmiyyəti və kiçik kənd seçki komissiyalarına həvalə edilirdi.

Azərbaycan parlamenti Mərkəzi (respublika) Seçki Komissiyasının tərkibinə 21 nəfəri seçirdi. Komissiya üzvləri öz aralarından sədri, sədr müavinini katibi və xəzinədarı müəyyən edirdilər. Mərkəzi Komissiyaya namizədlərin siyahısı daxil olduqdan sonra, qeydiyyata alınmış siyasi partiyanın və ya birliyin bir nəfər nümayəndəsi Mərkəzi Komissiyanın üzvü siyahısına daxil olmaq hüququna malik idi.

"Əsasnaməyə" görə Mərkəzi (respublika) Seçki Komissiyasına Müəssislər Məclisinə seçkilər üzrə aşağıdakı vəzifələr həvalə edilirdi: Müəssislər Məclisinə seçkilərin gedişinə ümumi nəzarət və seçkiləri daha da sürətləndirmək barəsində tədbirləri müzakirə etmək; Müəssislər Məclisinə seçkilər üzrə statistik və digər məlumatları toplamaq, qəza və şəhər seçki komissiyalarının vaxtında təşkil olunmasına nəzarət etmək, dairələr üzrə səslərin hesablanması, onun nəticələrinin müəyyən edilməsi, ümumi məlumatın verilməsi və s.

Qəzalarda seçki komissiyaları şəhər idarəetmə orqanları tərəfindən təşkil edilirdi. Şəhər idarəsi (uprava) olmayan yerlərdə isə qəza komissiyaları ədalət məhkəməsi hakimlərindən, qəza hakimindən və Xalq Maarifi Nazirliyinin nümayəndəsindən (axırıncı iki nəfər nümayəndə olmadıqda isə onlar vergi müfəttişi və meşəbəyi ilə əvəz oluna bilərdi) ibarət olmaqla yaradılırdı. Komissiyanın razılığı ilə yerli əhali arasından iki nəfər nümayəndə onun tərkibinə daxil ola bilərdi. Qəza komissiyaları öz üzvləri arasından sədr, sədr müavini, xəzinədar və katib seçirdi.

Mərkəzi Seçki Komissiyasında olduğu kimi, qəza komissiyalarında da namizədlərin siyahısı daxil olduqdan sonra siyasi partiyaların və birliklərin hərəsindən bir nəfər olmaqla komissiyanın tərkibinə daxil edilirdi.

Qəza komissiyalarının vəzifələrinə daxil idi: kənd və kiçik kənd seçki komisiyalarını yaratmaq, şəhər sahə komissiyalarını təşkil etmək, Mərkəzi Seçki Komissiyasına kənd cəmiyyətlərinin, kənd və şəhər seçki sahələrinin bölüşdürülməsi layihəsini təqdim etmək, seçki siyahılarını tərtib etmək və ümumi olaraq ictimaiyyətə çatdırmaq, seçki qutularını hazırlayıb məntəqələrə göndərmək, şəhər, sahə, kənd cəmiyyətləri və kiçik kənd komissiyalarından daxil olan şika-

yətlərə baxmaq, əhalini namizədlərin siyahısı ilə təmin etmək, hesablanmış səsləri Mərkəzi Seçki Komissiyasına təqdim etmək.

"Əsasnamə"yə görə Bakı qəza seçki komissiyası 9 nəfərdən ibarət idi. Gəncə, Nuxa və Şuşa seçki komissiyasının hər biri 7 nəfər, yerdə qalan şəhərlərdə isə hər biri 5 nəfər üzvdən təşkil edilirdi. Bakı, Gəncə, Nuxa və Şuşa istisna olmaqla, digər komissiyalarda sədr müavini seçilməsi vacib hesab olunurdu.

Şəhər sahə seçki komissiyasının sədri qəza komissiyasının rəyasət heyəti tərəfindən təyin edilirdi. Sədr siyasi partiya və qrup arasından seçilmiş nümayəndələrin iştirakı ilə komissiya yaradırdı. Siyasi partiya və qrupların hər birindən yalnız bir nümayəndə seçki komissiyasına daxil edilirdi.

Şəhər seçki komissiyasına aşağıdakılar həvalə edilirdi: seçki bülletenlərinin yığılması, səslərin hesablanması, sahə komissiyalarından toplanan səslərin qəza komissiyalarına təqdim olunması.

Kənd cəmiyyətləri 5 nəfərin daxil olduğu seçki komissiyasını yaradırdılar. Siyasi qüvvələrin nisbəti nəzərə alınmaqla əlavə edilmiş nümayəndələr öz aralarından komissiya sədrini, katibi və xəzinədarı seçirdilər.

Kənd cəmiyyətlərinin seçki komissiyalarının səlahiyyətlərinə aid edilirdi: kiçik kənd vahidlərinə seçki bülletenləri və seçki qutuları vermək, cəmiyyətin kiçik seçki vahidlərinə bölünməsi layihəsini hazırlamaq və qəza komissiyasına təqdim etmək, seçicilərin siyahıya alınmasına və seçki siyahılarının düzgün tərtib olunmasına nəzarət etmək, bütün əhalini siyahıya daxil etməyə diqqəti artırmaq, seçki bülletenlərinin ilkin hesablanmasını təmin etmək, şikayətləri qəbul etmək və onları qəza komissiyalarına göndərmək və nəhayət nəticələri qəza komissiyasına təqdim etmək.

Kiçik kənd üzrə seçki komissiyaları qəza komissiyalarının kənd cəmiyyətlərindən olan nümayəndələrinin nəzarəti ilə təşkil edilirdi. Yuxarıda göstərilən böyük komissiyalarda olan prinsip üzrə təşkil olunan kiçik kənd seçki komissiyaları da 5 nəfərdən ibarət olmalı idi. Kiçik kəndlər üzrə seçki komissiyasının mərkəzi bir-birindən aralı olan cəmi bir neçə tüstündən ibarət kəndlər üçün bərabər olmaqdan

ötrü 2-3 verst radiusunda yerləşirdi. Kiçik kənd seçki komissiyasına siyasi partiya və birlik nümayəndələri daxil edilirdi.

Kiçik kənd seçki komissiyasının vəzifəsinə daxil edilirdi: seçicilərin siyahısını tərtib etmək, kənd seçki cəmiyyəti komissiyasından vaxtlı-vaxtında seçki materiallarını və seçki qutularını əldə etmək, qutudan çıxarılan (açmamaq şərtilə) zərflərlə işlədilməmiş zərflərin say nisbətini müəyyən edib sənədləşdirmək və bütün lazımi materialları kənd cəmiyyəti üzrə seçki komissiyasına təqdim etmək.

Müəssislər Məclisinə seçkilərin "Əsasnamə"sinə görə seçkilər üçün işlədiləcək bütün sənədləşmələr və onlara çəkilən xərclər, yəni dövlət, məhkəmə, inzibati və ictimai təşkilatlara göndərilən sənədlər və ya alınan sənədlər gerb rüsumundan (dövlət rüsumu) və digər vergilərdən tamamilə azad edilirdi.

"Əsasnamə"nin dördüncü fəslində Müəssislər Məclisinə keçiriləcək seçkilərdə iştirak edən vətəndaşların siyahısının tərtib olunması qaydası müəyyən edilirdi. Seçki senzi tətbiq olunmayan şəxs yalnız bir məntəqə (sahə) siyahısına daxil edilirdi. Ümumi siyahının tərtib olunması qəza seçki komissiyasına həvalə edilirdi.

Mərkəzi Seçki Komissiyasının elan etdiyi gündən başlayaraq bütün respublikada əhalini xəbərdar etməklə siyahıların tərtib olunmasına başlanılırdı. Siyahı tərtib edilən günə qədər həmin sahədə yaşayan, lakin siyahı tərtib olunanda müəyyən müddətə öz ərazisini tərk edən şəxslər yaşadıqları ünvanlarda seçki siyahısına daxil edilirdi.

Seçki siyahısı hazırlandıqdan sonra yeni seçki sahəsinə köçüb gələn şəxslər ərizə ilə seçki komissiyasına müraciət etdikdən sonra yeni sahədə siyahıya daxil edilirdilər. Ümumi seçki siyahısı elan olunduğu gündən keçən 5 gün ərzində belə müraciət edilməli idi. Bununla birlikdə ərizə verən şəxsin ərizəsində əvvəlki ünvan yerində daxil olduğu siyahıdan xaric olunması göstərilməli və müvafiq seçki komissiyasına bu barədə məlumat göndərilməli idi.

"Əsasnamə"də bir çox demokratik ideyalarla yanaşı, vətəndaşın dini mənsubiyyəti, savadlı olub-olmaması, ali təhsil alması, peşəsi, milli mənsubiyyəti və s. barədə anket məlumatı verməsi tələb olunurdu.

Əhalinin siyahısı əlifba sırası ilə yazılırdı. Bu siyahı ən geci seçkilərə 50 gün qalmış ümumi olaraq elan edilirdi. Ümumi seçki siyahısı elan edildikdən 10 gün sonra yerli inzibati hakimiyyət orqanları və ayrı-ayrı şəxslər siyahı barədə öz etirazlarını bildirmək hüququna malik idilər. Qeyd olunan etirazlar qəza seçki komissiyasına verilirdi.

Qəza komissiyası üç gün ərzində şikayətlərə baxıb bu barədə Mərkəzi Seçki Komissiyasına məlumat verirdi. Şikayətləri həll edilmiş şəxslər siyahıya əlavə edilirdilər.

Məkrəzi seçki komissiyasının qərarı ilə şikayətləri qəbul edilməyən şəxslərin işlərinə dairə məhkəməsində Mərkəzi Seçki Komissiyasının iştirakı ilə baxılırdı. Dairə məhkəməsinin inzibati şöbəsi 5 gün müddətində şikayətə baxıb qərar çıxarmalı idi.

Müəssislər Məclisinə seçkilər üzrə "Əsasnamə"nin beşinci fəsli namizədlərin siyahısını tənzimləyirdi. Məclisə namizədliyi göstərilən şəxslərin ərizəsi Mərkəzi Seçki Komissiyasına seçki qrupu tərəfindən ən geci seçkilərə 3 gün qalmış təqdim edilirdi. Seçkidə iştirak etmək hüququ olan şəxslərin ən azı 100 nəfərinin şəxsi imzası ilə təsdiqlənmiş namizəd komissiyaya təqdim olunurdu. Siyahılara namizədliyi irəli sürülmüş şəxsin ərizəsi əlavə edilirdi.

Hər bir seçici yalnız bir nəfər namizədə imza verə bilərdi. Əgər şəxs bir neçə siyahıya imza verərdisə, Mərkəzi Seçki Komissiyasında ilk təqdim olunmuş siyahıdakı imza məqbul sayılırdı. Digər siyahıdakı imzalar isə qanunsuz hesab edilirdi.

Seçici qrupu tərəfindən təqdim olunmuş namizədlik siyahısı Mərkəzi Seçki Komissiyasında qəbul olunmurdusa, bu barədə nümayəndəyə üç gün ərzində məlumat verilirdi. Bir namizədin müxtəlif siyahılara daxil edilməsi qanunsuz hesab olunurdu.

Qeydiyyata alınmış namizəd seçkilərə ən geci 23 gün qalmış Mərkəzi Seçki Komissiyası tərəfindən qəza seçki komissiyalarının da seçici (passiv) siyahısına daxil edilirdi. Bu barədə qəza komissiyası seçiciləri məlumatlandırırdı.

Seçici blokları seçkiyə 15 gün qalmış digər qruplarla birləşmələri barədə Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edə bilərdilər. Belə ərizə bütün qrupların (blokların) nümayəndələri tərəfindən

imzalanmalı idi. Mərkəzi Seçki Komissiyası yeni birləşmə barədə bir gün müddətində seçicilərə məlumat verirdi.

Müəssislər Məclisinə seçkilərin "Əsasnamə"sinin altıncı fəsli səsvermə prosesini və səslərin hesablanması qaydasını da müəyyən edirdi.

Səsvermə şəxsən seçici tərəfindən yerinə yetirilirdi. Səsvermə kəndlərdə səhər saat 9-dan axşam saat 9-a qədər, şəhərlərdə isə səhər saat 8-dən axşam saat 8-ə qədər davam edirdi. Seçicilərə üç gün ərzində səs vermək hüququ verilirdi.

Seçki bülletenlərinin vahid forması müəyyən edilirdi. Mərkəzi Seçki Komissiyası seçkilərə 40 gün qalmış həmin formanı möhürlə təsdiq edib ictimaiyyətə çatdırırdı.

Seçki bülletenləri türk (Azərbaycan) dilində tərtib edilirdi. Türk dili ilə yanaşı digər hər hansı bir dildə yazılmaq üçün seçki blokunun ərizəsi daxil olduqda bülletenin tərcüməsi həmin dildə verilirdi.

Seçki bülletenləri və digər zərflər Mərkəzi Seçki Komissiyasında hazır olduqdan sonra qəza komissiyalarına göndərilirdi.

Qəza, kənd və kiçik kənd seçki komissiyaları seçkiyə 7 gün qalmış çağırış vərəqələrini seçicilərə çatdırırdı.

Şəhər duması (uprava) və kənd cəmiyyətləri təşkilatları seçki komissiyaları üçün müvafiq bina ayırmalı idilər. Bina daxilində gizli səsvermə üçün müvafiq yerlər hazırlanırdı. Komissiyanın sədri seçki qutularının bütöv və boş olmasını müəyyən etdikdən sonra qutunu bağlayıb möhürləməli idi.

Seçki məntəqələrində yalnız səsvermə keçirilirdi, seçki təbliğatı aparmaq qadağan edilirdi. Seçki məntəqəsinə silahlı şəxslərin və sərxoş adamların daxil olması qəti qadağan idi.

Seçki komissiyasının sədri lazım olduqda, komissiyanın qərarı ilə inzibati və hərbi hissələrin qüvvələrindən istifadə etmək hüququna malik idi. Yüksək rütbəli milis və hərbi komandanlıq yalnız sədrin göstərişlərini yerinə yetirirdilər.

Seçkilərin birinci və ikinci günü axşamlar şəhərlərdə saat 8-də, kənd yerlərində isə 9-da seçki məntəqələrinin qapıları bağlanır və möhürlənirdi. Üçüncü gün axşam seçkilər qurtardıqdan sonra sədr seçkilərin qurtardığını elan edirdi. Sonra komissiya zərfləri açmadan

bülletenləri sayırdı. Zərflərin sayı ilə seçicilərin siyahıdakı sayları arasında uyğunsuzluq olduqda bu barədə müvafiq protokol tərtib edilirdi. Nəhayət zərflər açılır və seçki bülletenləri hesablanırdı.

Komissiya tərəfindən etibarsız sayılan bülletenlər müəyyən edilirdi. Mübahisəli bülletenlər isə komissiyanın qərarı ilə səsvermə keçirilməklə həll edilirdi. Səslər bərabər olduqda sədrin çıxardığı qərar əsas götürülürdü.

Seçkilərin nəticələri barədə son olaraq komissiya protokol tərtib edirdi. Protokol sədr, katib, komissiya üzvləri və bütün iştirakçılar tərəfindən imzalanırdı.

Protokollar qəza komissiyasına göndərilirdi. Protokolla yanaşı ayrıca məktubla aşağıdakı sənədlər təqdim edilirdi: a) komissiyanın etibarlı hesab etdiyi bülletenlər; b) komissiya tərəfindən etibarlı hesab olunan, lakin komissiya üzvlərindən hər hansı birinin etiraz etdiyi bülletenlər; c) etibarlı, lakin komissiya üzvlərinin hər hansı birinin etiraz etdiyi bülletenlər; ç) komissiya tərəfindən yekdilliklə etibarsız sayılan bülletenlər.

Qəza seçki komissiyası yerlərdən gələn bülletenlərin protokollarını araşdıraraq müvafiq qərar qəbul edirdi.

Qəza komissiyalarının protokolları sahə seçki komissiyalarının protokolları ilə birlikdə Mərkəzi Seçki Komissiyasına göndərilirdi. Komissiyaların protokolları türk dilində hazırlanırdı. Lakin rus dilində protokollar tərtib etməyə də icazə verilirdi.

"Əsasnamə"nin VII fəsli seçkilərin nəticələrindən və təkrar seçki keçirilməsi qaydasından bəhs edirdi. Belə ki, 83-cü maddədə seçkilər günü bir və ya bir neçə seçki sahəsində, həmçinin ümumi respublika seçicilərinin 1/10 hissəsinə bərabər olmayan sayda seçicilərin iştirak etmədiyi seçki məntəqələrində ikinci dəfə seçkilər keçirilməsi nəzərdə tutulurdu. Lakin belə məntəqələrin sayı göstərilən nisbətdən yuxarı olmazdısa, Mərkəzi Seçki Komissiyası belə məntəqələrin səsvermə sayını ümumi səsverməyə daxil edərək təkrar səsvermə keçirmirdi.

Müəssislər Məclisinə seçkilərin "Əsasnamə"sinin VIII fəsli məclis üzvlüyündən çıxan nümayəndələrin yerinə (vakant yerlərə) digərlərinin daxil edilməsi qaydasını müəyyən edirdi. Belə ki, seçki birlikləri-

nə daxil olaraq birləşmiş qrupların siyahıya daxil edilmiş nümayəndəsi vakant yeri tuta bilərdi. Belə siyahıya daxil edilmiş nümayəndə olmadıqda Müəssislər Məclisində boş (vakant) yer tutulmaya bilərdi.

"Əsasnamə"nin IX fəsli seçkilərin azad və ədalətli keçirilməsi üçün qaydaları müəyyən edirdi. X fəsildə Müəssislər Məclisinə keçiriləcək seçkilərdə xərclərin ödənilməsi qaydası şərh edilirdi. Seçicilər üçün itirdikləri vaxta və yol xərcinə görə heç bir əvəz nəzərdə tutulmurdu.

Şəhərlərdə seçici siyahılarının hazırlanması və digər xərclərə görə vəsaitin ödənilməsi şəhər özünüidarə orqanları hesabına, digər ərazilərdə isə respublika xəzinəsi hesabına ödənilirdi. Şəhər idarələrinin ödədikləri xərclərin 75 faizi sonradan respublika xəzinəsindən qaytarılırdı.

Kargüzarlıq və digər xərclərə görə seçki komissiyalarına ayrılmış Müəssislər Məclisinə seçkilər üzrə xüsusi kreditin məbləği parlament tərəfindən Mərkəzi Seçki Komissiyasının hesabına daxil edilirdi.

Seçki komissiyalarının hər bir üzvü hər gün seçkilərin keçirilməsinə aid olan işlərə görə və yol xərcinə görə mükafatlandırılırdı. Lakin namizədin nümayəndəsi kimi seçki komissiyasına daxil edilmiş komissiya üzvlərinə göstərilən mükafatlandırma tətbiq edilmirdi.

Seçki komissiyaları üçün bina daxilində aparılan işlərə görə xərclər, o cümlədən istilik, işıqlandırma və s. xərclər şəhər özünüidarə orqanları, digər ərazi seçki komissiyalarında isə respublika xəzinəsi hesabına ödənilirdi.

Azərbaycan Demokratik Respublikası Konstitusiyasının qəbul edilməsində, dövlət quruculuğunda, onun möhkəmlənməsində, qanunçuluğun inkişafında, hüquq institutlarının təşəkküründə böyük əhəmiyyət kəsb edə biləcək Müəssislər Məclisinə seçkilər 1920-ci il aprelin 20-nə təyin edilmişdi. Lakin 1920-ci ilin yazından başlayaraq yaranmış böhran seçkilər keçirilməsinə imkan vermədi.

Mülki hüquq. Azərbaycan Respublikası mülki hüquq və mülki münasibətlər sahəsində çar Rusiyası dövründə mövcud olmuş qanunvericilik normalarından istifadə etməkdə davam etsə də, parlament yeni mülki hüquq institutlarının bazasını hazırlayıb möhkəm-

ləndirməkdən ötrü bir sıra qanunları qəbul etməyə çalışırdı. Bunun üçün parlament komissiyalarında müxtəlif qanun layihələri, o cümlədən torpaq islahatlarının keçirilməsi ilə əlaqədar olaraq "Aqrar qanun" layihəsi müzakirə olunurdu. Yeni qanunların hazırlanması və qəbulu xeyli vaxt apardığından parlament ən vacib, təsərrüfatın bütün sahələrində icrası məcburi olan qanun və qərarlar qəbul edirdi.

Azərbaycan parlamentində "Azərbaycan vətəndaşlığı haqqında qanun"un qəbul edilməsi hüquqi islahatlarının və dövlətçiliyin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edirdi. Milli hökumət hələ 1918-ci il avqustun 23-də Azərbaycan təbəəliyi haqqında "Əsasnamə"ni təsdiq etmişdi. "Əsasnamə"yə görə 1914-cü ilin 19 iyuluna qədər respublika ərazisinə daxil olan hər hansı inzibati-ərazi vahidinin və ya silk cəmiyyətinin qeydiyyatında olanlar, azərbaycanlı təbəədən həm respublikada, həm də kənarda doğulanlar, 5 il respublikada daimi (oturaq) yaşayan əcnəbi təbəələrin övladları **Azərbaycan təbəələri** sayılırdı.

Azərbaycanlı təbəə ilə nikah bağlayan əcnəbi vətəndaşlar respublika təbəəliyinə daxil edilirdilər.

Azərbaycan təbəələri eyni zamanda digər dövlətin təbəələri ola bilməzdilər.

Azərbaycan Respublikasının təbəələri olanlar bütün siyasi hüquqlardan, aktiv və passiv seçki hüququndan, mərkəzi və yerli idarəetmə orqanlarında iştirak etmək və s. hüquqlardan istifadə edə bilərdilər.

"Əsasnamə"nin sonunda xarici vətəndaşların təbəəliyə qəbul edilməsi və ya Azərbaycan təbəəliyinin itirilməsi qaydasını xüsusi qanunla tənzimləmək nəzərdə tutulurdu.

Məhz belə qanun parlament tərəfindən 1919-cu il avqustun 11-də qəbul edildi. Qanuna görə millətindən, dinindən, irqindən asılı olmayaraq keçmiş Rusiya imperiyasının təbəələri olmuş, Azərbaycan Respublikası ərazisində yaşayan şəxslərin özləri və övladları Azərbaycanın vətəndaşları hesab edilirdi.

Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyən Rusiya imperiyası vətəndaşları qanun dərc edildikdən sonra üç ay müddətində yerli qubernatora ərizə ilə müraciət etməli idilər. Qubernator yerli hakimiy-

yət orqanları ilə birlikdə şəxsin hərbi mükəlləfiyyətli olub-olmasını dəqiqləşdirdikdən sonra ona Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün 6 ay müddətinə şəhadətnamə verildi. Həmin müddət qurtarana qədər təbəələr tam hüquqlardan istifadə edə bilərdilər.

Qanunun ikinci bölməsində vətəndaşlığın müəyyən edilməsi prinsipi göstərilirdi. Vətəndaşlıq ilk növbədə aşağıdakı şəxslərə verilirdi: Azərbaycan vətəndaşlarının övladlarına; azərbaycanlıya ərə getmiş əcnəbi vətəndaşlara; övladlığa götürülən əcnəbi vətəndaşlara (17 yaşa qədər); əcnəbi vətəndaşa ərə getməklə nikahdan törəyən 17 yaşına çatmış uşaqlara; Azərbaycana öz istedadı, elmi biliyi ilə xidmət edən və Azərbaycanda məskunlaşmış əcnəbilərə. Azərbaycanda hərbi və ya mülki xidmətdə olan və ictimai təşkilata daxil olan xarici ölkə vətəndaşları da öz arzusundan asılı olaraq vətəndaşlığa qəbul edilirdilər. Əcnəbi vətəndaşa ərə getmiş azərbaycanlı boşandığı halda Azərbaycan vətəndaşlığına bərpa olunurdu. Azərbaycanda daimi yaşayan əcnəbilərə aşağıdakı hallarda vətəndaşlıq verilirdi: şəxsin müəyyən hüquq qabiliyyəti olduqda, şəxsin məhkəmə cəzası və mənəvi cəhətdən qeyri-sağlamlığı müəyyən edilmədikdə; şəxsin özünü və ailəsini öz əməyi ilə saxlamaq imkanı olduqda.

Əcnəbilərin yenidən Azərbaycan vətəndaşlığına bərpa edilməsi (əgər həmin şəxsin məhkəmə cəzası və mənəvi cəhətdən qeyri-sağlamlığı aşkar olunmamışdırsa) 2 il müddətindən sonra onun Azərbaycanda məskunlaşması və bu barədə səlahiyyətli orqanlara ərizə ilə müraciət etməsi ilə ola bilərdi.

Azərbaycan vətəndaşlığına bərpa olunmanın qaydasına görə, vətəndaşlığa bərpa olunmaq istəyən şəxs qəza rəisinə və ya polis-meystrə yaşadığı ərazi üzrə ərizə ilə müraciət etməli idi. Yerli hakimiyyət orqanları təqdimatla daxili işlər nazirinə müraciət edir və ona şəhadətnamə verirdi. Şəxsə şəhadətnamə verildikdən sonra o, Azərbaycanda məskunlaşmış hesab edilirdi, lakin vətəndaşlığa qəbul olunana qədər əcnəbi vətəndaş sayılırdı.

Göstərilən qayda 1918-ci il mayın 28-nə qədər, yəni dövlət müstəqilliyi elan olunana qədər Azərbaycanda yaşamış, lakin üç ay müddətində ərizə ilə vətəndaşlığa qəbul olunmaları barədə müraciət etmiş şəxslərə şamil edilmirdi.

Azərbaycan vətəndaşlığını qəbul etməyi arzu edən digər şəxslər yaşadıqları ərazi üzrə qeydiyyatda olduqları qəza polis rəisinə və ya polismeystrə ərizə verərək onun vasitəsilə daxili işlər nazirinə müraciət etməli idilər. Daxili işlər naziri isə ədliyyə və xarici işlər nazirinin razılığı əsasında ərizə ilə müraciət etmiş şəxsə Azərbaycan vətəndaşlığı verə bilərdi.

Ərizə ilə Azərbaycan vətəndaşlığına qəbul olunmaq istəyənlər Azərbaycanın hansı ərazisində yaşadıqları və hansı peşə ilə məşğul olduqları, həmçinin əmlak vəziyyətləri barədə akt təqdim etməli idilər.

Xarici ölkə vətəndaşı olmuş qadınlar da yuxarıda göstərilən şərtlərlə Azərbaycan vətəndaşı ola bilərdilər.

Azərbaycan vətəndaşlığını könüllü qəbul edən hər bir şəxs dövlətə sədaqətli olacağı barədə and içməli idi.

Vətəndaşlıq haqqında qanunda vətəndaşlığın itirilməsi və ya vətəndaşlıqdan məhrum etmə qaydaları göstərilirdi.

Xarici təbəəliyi qəbul edən Azərbaycan vətəndaşı vətəndaşlıq hüququnu dərhal itirirdi.

Azərbaycan vətəndaşlığından imtina edən şəxslər ərizə ilə dairə məhkəməsinin inzibati idarəsinə hansı ölkənin təbəəliyini qəbul edəcəkləri barədə məlumat verirdilər. Müraciət etmiş şəxsin hərbi mükəlləfiyyəti yerinə yetirməsi və ya xidmətdən azad olması barədə, həmçinin hər hansı bir digər anlaşılmazlığın (məhkəmə, əmlak və s.) olması müəyyən edilməzdisə, ərizəsi təmin edilirdi.

Azərbaycan vətəndaşlığından imtina edən şəxsin yenidən vətəndaşlığa qəbul olunması xahişi yalnız 5 ildən sonra təmin edilirdi.

Rəsmi dövlət orqanlarının və daxili işlər nazirinin xüsusi icazəsi olmadan xarici ölkənin vətəndaşlığını qəbul etmiş şəxs Azərbaycanı tərk edə bilməzdi.

Azərbaycan gömrüyünün yaradılması haqqında parlamentin 18 avqust 1919-cu il qanunu. Müstəqil Azərbaycan Respublikasının gömrük orqanlarının yaradılması Milli hökumətin qarşısında duran ən vacib məsələlərdən biri idi. Hökumətin 18 avqust 1918-ci il qərarı ilə Azərbaycan gömrüyü təşkil olundu. Azərbaycan gömrüyünün ştatı təsdiq edilir və zərurət olan ərazilərdə gömrük orqanları yaradılırdı.

1919-cu il iyunun 25-də Azərbaycanda quru və dəniz sərhədlərində gömrük işini yaxşı təşkil etməkdən ötrü vergi və rüsumların toplanması qaydası barədə hökumətin sərəncamı imzalandı. İyunun 10-da Poylu dəmiryolu stansiyasında gömrük məntəqəsi yaradıldı. Həmin gün hökumətin digər sərəncamı ilə Akstafa gömrük məntəqəsi Gürcüstanla olan sərhəddə yerləşdirildi.

Parlamentin 18 avqust qanununda Azərbaycan Respublikası sərhədlərində yaradılmış gömrük məntəqələri hüquqi cəhətdən tənzimlənirdi. Azərbaycan sərhədlərində qeyri-qanuni ticarət və qaçaqmalçılıqla mübarizə məqsədilə sərhəd məntəqələrində gömrük orqanları təşkil edilirdi. Sərhəd məntəqələrində respublika sərhəd mühafizə dəstəsi yaradılırdı. Gömrük nəzarətçisi funksiyasını yerinə yetirən keşikçilər könüllü olaraq özlərinə məxsus silahdan, geyimdən və öz atlarından xidmət zamanı istifadə edə bilərdilər. Yerli sakinlərdən seçilməsi nəzərdə tutulan gömrük işçiləri yerli hakimiyyət orqanlarının etibarını qazanmış adamlardan ibarət olmalı idi.

Azərbaycanda cəmi 99 gömrük məntəqəsi yaradıldı. Məntəqələrin işinin yaxşı təşkil olunması üçün aşağıdakı vəzifələr təsis olunurdu: a) hər birində dörd məntəqə olmaqla iki sərhəd dəstəsi rəisinin və baş zabitin də daxil olduğu 25 nəfərlik gömrük qarovulçusu; b) hər birində bir nəfər rəis və 5 nəfər zabit olmaqla Zaqatala, Gəncə və Bakı rayonları, eyni zamanda həmin saya bərabər olmaqla müvəqqəti general-qubernatorluq olan Cavanşir, Zəngəzur, Şuşa, Cəbrayıl və Lənkəran qəzası üzrə sərhəd gömrük dəstələri təşkil edilirdi.

Sərhəd gömrük işini daha da yaxşı təşkil etməkdən ötrü Maliyyə Nazirliyinin dəftərxanasında sərhəd mühafizəsi şöbəsi yaradıldı. Şöbə bütün respublika üzrə gömrük mühafizə işinə rəhbərlik etməli idi. Rayon sərhəd dəstələri üçün müvafiq kommunikasiya işlərini aparmaqdan ötrü maliyyə vəsaiti ayrıldı. Gömrük işçiləri üçün maaşlar təyin edildi. Könüllü olaraq sərhəd mühafizəsinə qoşunlara maaş verilmirdi.

Azərbaycan gömrüyü haqqında qanunda göstərilirdi ki, hələlik ixrac və idxal olunan mallardan tutulan gömrük rüsumları Rusiya imperiyasının Gömrük Nizamnaməsi və Rusiya sərhəd mühafizə rəisinin 1912-ci il 7 dekabr təlimatı ilə nizamlanır.

Azərbaycan Dövlət Bankı. Azərbaycan hökumətinin 1919-cu il 7 mart qərarı ilə Dövlət Bankının yaradılması haqqında layihə bəyənildi. Qərarda Maliyyə Nazirliyinə Bankın Nizamnaməsini hazırlamaq tapşırıldı.

1919-cu il mayın 26-da Nazirlər Kabinetinin qərarı ilə Dövlət Bankının Nizamnaməsinin layihəsi təsdiq edilərək parlament müzakirəsinə göndərildi. Hökumət Dövlət Bankı haqqında qanun layihəsi parlamentdə təsdiq olunana qədər Maliyyə Nazirliyinə təşkilati işləri görmək üçün mütəxəssislər cəlb etməklə hazırlıq aparmaq barədə göstəriş verdi.

1919-cu il iyunun 9-da Azərbaycan hökumətinin qərarı ilə ingilis komandanlığının nəzarətində olan Dövlət Bankının Azərbaycan dövlətinə verilməsi barədə danışıqlar aparıldı. İngilis komandanlığı Bankı təhvil verməyə hazırlaşsa da, onlara məxsus borc Azərbaycan Respublikası Maliyyə Nazirliyi hesabına silinirdi.

Azərbaycan Bankı Rusiya Dövlət Bankı ilə danışıqlar apararaq pul nişanlarını dövriyyəyə buraxdı. Respublikanın ilk poçt markaları nəşr edildi.

Azərbaycan parlamenti 1919-cu ilin sentyabrında Dövlət Bankının yaradılması haqqında qanun qəbul etdi.

Aqrar islahatlar və aqrar qanunvericilik. Azərbaycan hökuməti torpaq islahatlarına xüsusi diqqət verirdi. 1918-ci il iyunun 22-də Azərbaycan hökuməti Zaqafqaziya Seyminin torpaq islahatları haqqında qəbul etdiyi qanunun icra olunmasını dayandırdı. Qərara görə, Müəssislər Məclisi çağırılana qədər torpaq islahatları keçirilmirdi. Qərar verilənə qədər tutulmuş torpaqlar müvafiq strukturlara qaytarılırdı. Əkinçilik naziri X. Sultanova Müəssislər Məclisinin müzakirəsinə çıxarılacaq aqrar məsələlərlə bağlı materialları toplamaq, torpaq komitələrinin yenidən qurulması və ya ləğv edilməsi təkliflərini hazırlamaq tapşırıldı.

1919-cu il fevralın 24-də hökumət Əkinçilik Nazirliyində aqrar islahatlar və su təsərrüfatı üzrə şöbənin yaradılması barədə qərar qəbul etdi. Eyni zamanda aqrar islahat şöbəsi müdiri və su təsərrüfatı müfəttişçi müavini vəzifələri yaradıldı.

1919-cu il iyunun 6-da hökumət aqrar islahatları sürətləndirmək məqsədilə Əkinçilik Nazirliyinə hərtərəfli yardım göstərilməsi barədə qərar verdi. Əkinçilik Nazirliyinə iyunun sonlarına qədər aqrar islahatlar layihəsini Nazirlər Kabinetinin müzakirəsinə çıxarmaq tapşırığı verildi.

Parlamentin ən böyük fraksiyalarından olan "Müsavat" partiyası aqrar islahatlar "Əsasnaməsi"nin layihəsini hazırlayıb Azərbaycan Respublikası parlamentinə təqdim etmişdi. İslahat proqramı parlamentin digər komissiyalarında da müzakirə edildi. Layihəyə görə, hüquqi və fiziki şəxslər üçün müəyyən edilmiş normadan artıq olan torpaq sahələri alınaraq dövlət xəzinəsi fonduna daxil edilirdi.

Torpaqsız və aztorpaqlı oturaq əhaliyə, həmçinin onlara bərabər fiziki və hüquqi şəxslərə dövlət xəzinəsi fondu hesabından müəyyən edilmiş normaya uyğun torpaq ayrılırdı.

Əsasnamənin layihəsində respublikanın köçəri maldar əhalisinə veriləcək torpaq payları da tənzimlənirdi.

Dövlət tərəfindən normadan torpaq mülkü olan fiziki və hüquqi şəxslərdən kəsilib götürülmüş fonddan torpaqsız və ya aztorpaqlı əhaliyə verilmiş ərazilərin yeraltı sərvətləri (yerin təki) yalnız dövlətə məxsus hesab edilirdi.

Respublika su ehtiyatlarından istifadə, suvarma sistemləri, qurğular və s. yeni qanunvericilik qəbul edilənə qədər əvvəlki qaydada saxlanılırdı. Əsasnaməyə görə respublika əhalisi üçün ayrılan torpaq fonduna həm kənd, həm də şəhərətrafı yaşayış yerlərinin sahələri daxil edilirdi. Şəhər ətrafında yerləşən lakin şəhər mülkiyyətinə daxil edilməyən torpaqlardan istifadəyə icazə verilirdi.

Torpaq islahatına görə, bu vaxta qədər fiziki və hüquqi şəxslərə məxsus olmuş normadan artıq torpaqlar, həmçinin digər fondlardan kəsilib götürülən və aşağıda göstərilən torpaqlar yenidən bölüşdürülməyərək həmişəlik dövlət xəzinəsinə daxil edilirdi: a) meşələr; b) yaylaqlar və qışlaqlar; c) qurutmaq üçün meliorasiya və digər texniki üsullardan istifadə edilən, habelə yararsız olan torpaqlar; ç) məscid və kilsəyə məxsus vəqf torpaq mülkiyyəti; d) aqrokimyəvi idarələrin istifadəsində olan torpaqlar, həmçinin təhsil müəssisələrinə,

mədəni-maarif, xeyriyyə, xəstəxana, hərbi idarələr və digər ümumdövlət əhəmiyyəti kəsb edən ictimai təşkilatlara məxsus torpaqlar; e) dağ-mədən sənayesi üçün istifadə edilən torpaqlar; ə) mineral sular və müalicə əhəmiyyətli torpaqlar belə ərazilərin sanitariya cəhətdən qorunması üçün və kurort təsərrüfatının yaradılması məqsədilə ətraf ərazilərə məxsus olan torpaqlarla birlikdə; f) təbiət və qoruq abidələrinə daxil olan torpaqlar; g) tarixi və arxeoloji əhəmiyyətli şəhər məskənləri, yaşayış yerləri, qazıntı aparılan sahələr, məscid, kilsə və digər abidələrə yaxın ərazilər, qalalar və onlara bərabər tarixi abidələrin əraziləri, kənd təsərrüfatı təcrübəsi aparmaq və digər ictimai əhəmiyyət kəsb edən torpaqlar.

Əhaliyə verilmədən, dövlət xəzinəsinə daxil edilmiş meşələrdən, otlaqlardan, tikinti materialı hasil etmək və s. işlər üçün əhalinin istifadəsini təmin etmək məqsədi ilə xüsusi "Qaydalar" hazırlamaq nəzərdə tutulurdu.

Fərdi sahibkara məxsus həyətyanı sahələrin və bağların aşağıda göstərilən normalardan çox olan hissələri dövlət tərəfindən özgəninkiləşdirilirdi: kənd yerləri üçün 25 desyatindən 75 desyatinə qədər olan bağlar və həyətyanı sahələr, şəhər ərazilərində isə 5 desyatindən 7,5 desyatinə qədər olan sahələr.

Sahibkarlar üçün saxlanılmış torpaqların ölçüləri qəza komissiyaları tərəfindən müəyyən edilir və təsdiq edilmək üçün Əkinçilik Nazirliyi nəzdindəki Şuraya göndərilirdi.

Layihəyə görə birlikdə istifadə edilən torpaq və digər fondlardan tutulan ərazilər yenidən bölüşdürülərək hər bir şəxsə normada nəzərdə tutulan qədər ayrı-ayrılıqda mülkiyyətə verilirdi. Eyni zamanda göstərilirdi ki, kimliyindən asılı olmayaraq heç kəs 75 desyatindən artıq torpağa sahib ola bilməz. 75 desyatin maksimum həddi müəyyən edilirdi.

Aqrar islahatın keçirilməsi Əkinçilik və Əmlak Nazirliyinə və onların yerlərdə təşkil etdikləri qəza və rayon komissiyalarına həvalə edilirdi. Qəza komissiyaları qəza idarə orqanları tərəfindən hər kənd cəmiyyətindən iki nəfər olmaq şərtilə çağırılan qəza yığıncağında seçilmiş 10 nəfərdən ibarət tərkibdə olurdu. Rayon komissiyaları isə

Əkinçilik Nazirliyi tərəfindən müəyyən edilmiş ərazilər üzrə bölüşdürülərək hər birindən bir nəfər olmaq şərtilə kəndlərdən seçilirdi.

Bu komissiyanın tərkibinə rayon üzrə keçirilmiş yığıncaqda seçilən 6 nəfər nümayəndə də daxil edilirdi.

Aqrar komissiyaların tərkibi hər bir rayon üzrə əhaliyə elan olunaraq ictimaiyyətin nəzərinə çatdırılırdı.

Qəza müşavirələrinə yerli ədalət məhkəməsi hakimi sədrlik edirdi. Rayon müşavirələrinə isə Daxili İşlər Nazirliyinin razılığı ilə əmlak naziri tərəfindən bir nəfər xüsusi şəxs təyin edilirdi. Qəza və rayon aqrar komissiyalarının sədrləri əmək naziri tərəfindən torpaq işini yaxşı bilən şəxslərdən müəyyən edilirdi. Komissiyaların tərkibinə sədrdən başqa əkinçilik naziri tərəfindən təyin edilən katib və bir neçə torpaqölçən nümayəndə daxil idi.

Şəhər məskənlərinə yaxın ərazilərdə fərdi sahibkarların və hüquqi şəxslərin torpaqla bağlı işləri araşdırılarkən komissiyanın tərkibinə tam üzvlük hüququnda şəhər upravasının təyin etdiyi şəhər özünüidarə orqanlarının nümayəndələri daxil olurdu. Sahibkar torpaqları xəzinə nəfinə özgəninkiləşdirilərkən komissiyanın tərkibinə tam üzvlük hüququnda nəzarət naziri tərəfindən təyin edilən dövlət nəzarəti nümayəndəsi iştirak edirdi.

Parlamentin aqrar komissiyanın qərarı ilə Zaqafqaziya Komissarlığının 16 dekabr 1917-ci il Əsasnaməsində nəzərdə tutulan xəzinə, xanədan, kilsə, monastır, həmçinin hüquqi şəxslər və sahibkarlara məxsus torpaqların torpaq komitələrinə verilməsi və Zaqafqaziya Seyminin 7 mart 1918-ci il torpaq normalarının müəyyən edilməsi haqqında islahat proqramının icra edilməsi Azərbaycan Respublikası ərazisində dayandırılırdı.

"Mətbuat haqqında" 30 oktyabr 1919-cu il qanunu. Azərbaycan parlamenti mətbuat haqqında "Əsasnamə"ni təsdiq etdi. Əsasnaməyə görə fiziki və hüquqi şəxslər hakimiyyət orqanlarından heç bir icazə olmadan mətbəə, litoqrafiya, metalloqrafiya və digər bu növdən olan nəşriyyat orqanlarını yarada bilərdilər. Həmçinin bu nəşriyyat orqanlarında dərc edilmiş bədii və elmi əsərlər və digər mətbuat, fiziki şəxslərin xüsusi olaraq açdıqları kitabxanalarda ictimaiyyə-

tin istifadəsinə verilirdi. Əsərlərin sərbəst satışına heç bir məhdudiyyət qoyulmurdu.

Mətbuat orqanları yalnız cinayət mühakimə nizamnaməsinin müəyyən etdiyi əsaslarla və mövcud cinayət hüququnda nəzərdə tutulmuş normaların pozulmasına görə məsuliyyətə cəlb oluna və məhkəmə orqanlarında mühakimə edilə bilərdilər.

Mətbuat və nəşriyyat orqanlarına ümumi rəhbərlik hökumət yanındakı mətbuat orqanlarına nəzarət baş müfəttişliyinə həvalə edilirdi.

Nəşriyyat üzrə baş müfəttiş nəşr olunan mətbuat orqanlarında mövcud qanunvericilikdə nəzərdə tutulmuş və qanunla qadağan edilmiş xətalar və ya cinayət hərəkəti aşkar etdikdə, həmçinin şikayətçiyə dəymiş maddi və mənəvi ziyanın ödənilməsi üçün yerli prokurorluq orqanlarının nəzarət şöbəsinə cinayət xətalarının olduğu müəyyən olunmuş nəşrin əslini təqdim etməli idi.

Dövlət orqanları, vəzifəli şəxslər və digər vətəndaşlar onlara qarşı mətbuat orqanlarında və nəşrlərdə edilmiş qərəzli, böhtan xarakterli, həmçinin cinayət xətalarına görə yerli prokurorluq orqanlarına göstərilən əməllərə görə mətbuat və nəşriyyatı cinayət məsuliyyətinə cəlb etmək barədə müraciət edə bilərdilər.

Mətbuat orqanlarından prokurorluğa edilmiş şikayətlərə görə prokurorluq orqanları 7 gün ərzində cinayət mühakiməsi Nizamnaməsinin qaydaları əsasında zərərçəkmişin iddiasına baxmalı idi.

Azərbaycan hökuməti mətbuat üzərində ümumi nəzarəti saxlasa da, mətbuat və nəşriyyatların sərbəst və azad fəaliyyəti üçün kifayət qədər geniş imkanlar yaradırdı. Yeni respublika üçün çətin dövrlərin olduğuna baxmayaraq, mətbuatın, azad fikirliliyin, demokratiyanın möhkəmlənməsi üçün bu "Əsasnamə" şərait yaradır, hakimiyyət strukturlarının özbaşınalıq etməsinin qarşısını alırdı.

Sosial qanunvericilik. Milli hökumət iqtisadi islahatlarla yanaşı fəhlələrin, kəndlilərin və bütün əhalinin sosial-iqtisadi problemlərini həll etməyə çalışırdı. 1918-ci il dekabrın 26-da hökumət proqramı ilə çıxış edən baş nazir F.X. Xoyski göstərirdi ki, fəhlə və kəndlilərin tələblərini ödəmək başlıca vəzifələrdən biridir. Əmək Nazirliyi nəzdində məsləhət komissiyalarının yaradılması sosial-iqtisadi sahə-

də mübahisəli məsələlərin həll edilməsində, istehsalda baş vermiş münaqişələrin aradan qaldırılması yolunda əhəmiyyətli addım idi.

1919-cu il martın 10-da parlamentin qanunu ilə Əmək Nazirliyi yanında Fəhlə Məsələləri üzrə Xüsusi Məsləhət (Müşavirə) Komissiyası yaradıldı. Qanuna görə, zəhmətkeş siniflərin əmək mühafizəsinin, əmək şəraitinin və məişətinin yaxşılaşdırılması, baş verə biləcək mübahisələrin ilkin olaraq baxılması üçün əmək nazirinin sədrliyi ilə fəhlə məsələləri üzrə müvəqqəti xüsusi Məsləhət Komissiyası təsis edildi.

Məsləhət Komissiyasına 10 nəfər (5 nəfəri sahibkarlardan, 5 nəfəri isə fəhlələrdən olmaqla) səlahiyyətli nümayəndə daxil edilirdi. Komissiya üzvləri xüsusi əsasnamə üzrə müəyyən edilirdilər.

Məsləhət komissiyasının Əsasnaməsi qəbul edilənə qədər onun üzvləri Əmək Nazirliyi tərəfindən dəvət ediləcək sənaye-ticarət və fəhlə təşkilatlarının səlahiyyətli nümayəndələrindən ibarət olacaqdı.

Qanuna görə Məsləhət Komissiyasının iclaslarında sədrin dəvəti ilə məşvərətçi səslə fabrik müfəttişliyinin, dağ-mədən nəzarətinin nümayəndələri və başqa müvafiq nümayəndələr iştirak edə bilərdi.

Məsləhət Komissiyasının sədri ehtiyac yarandığı vaxtda onun iclasını təyin edirdi.

Əmək naziri komissiyanın iclasında baxılacaq məsələləri müəyyən edir və onun baxılması qaydasını tənzimləyirdi.

Əmək mübahisələri Məsləhət Komissiyasının üzvlərinə dövlət xəzinəsi hesabına Əmək Nazirliyi tərəfindən əmək haqqı müəyyən edilmişdi.

Milli hökumət əhalinin pensiya təminatını yaxşılaşdırmaqdan ötrü 1919-cu il avqustun 27-də Pensiya Nizamnaməsini hazırlamaq üçün komissiya yaradılması haqqında sərəncam verdi. Sərəncama görə maliyyə, yollar, hərbi və digər idarələrin nümayəndələrinin daxil olduğu səlahiyyətli komissiya təşkil edilirdi.

Sentyabr ayında Pensiya Nizamnaməsini Nazirlər Şurasına təqdim etmək üçün Maliyyə Nazirliyi nəzdindəki mülki və hərbi idarələrin də iştirak etdiyi komissiya öz təkliflərini hazırlamalı idi. Milli hökumət pensiya təminatını yaxşılaşdırmaq üçün ciddi səylər göstərirdi.

Azərbaycan parlamenti strateji əhəmiyyət kəsb edən dəmiryol işçilərinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün 1919-cu il fevralın 4-də qanun qəbul etdi. Qanuna görə yaradılmış fəhlə komissiyası dəmiryol qulluqçularını 14 kateqoriyaya bölərək maaşların yeni dərəcəsini müəyyən edirdi.

1919-cu il mayın 9-da hökumətin qərarı ilə tətil edən Bakı fəhlələri ilə danışıqlar aparmaq üçün Əmək Nazirliyinə xüsusi tapşırıq verildi. Neft sənayesi işçiləri üçün Maliyyə Nazirliyi tərəfindən vəsait ayrıldı. Milli hökumət bütün çətinliklərə baxmayaraq fəhlələrin sosial vəziyyətini yüngülləşdirmək üçün tədbirlər görməkdə davam edirdi.

Cinayət hüququ. Azərbaycan hökumətinin cinayət hüququ sahəsində qəbul etdiyi ilk aktlar cinayətkarlıqla mübarizəyə yönəlmişdi. Xüsusi təhlükəli cinayətlər, vəzifə cinayətləri (rüşvətxorluq, süründürməçilik və s.) və digər hallar üzrə Rusiya imperiyasının Azərbaycan Respublikasında qanuni qüvvədə olan məcəllələrinə hökumət tərəfindən əlavələr və düzəlişlər edildi.

Hökumət 1918-ci il iyunun 23-də ümumi məhkəmələrə aidiyyəti olan cinayət işlərinin hərbi vəziyyət dövrünün qanunları ilə mühakimə edilməsi haqqında qərar verdi. Bütün respublika ərazisində hərbi vəziyyətin elan edilməsi ilə əlaqədar olaraq hökumət qərarı ilə aşağıda göstərilən cinayət əməllərinə görə hərbi vəziyyət dövrünün qanunları tətbiq edilirdi: qətl, quldurluq, soyğunçuluq, hakimiyyət orqanlarına silahlı müqavimət, qadının oğurlanması və zorlanması, həmçinin tikililərin və zəmilərin yandırılması, dəmiryollarını, teleqraf, telefon xətlərini və qurğularını zədələmə əməllərinə görə ifşa olunmuş şəxslər Hərbi-İstintaq Komissiyası tərəfindən dərhal məsuliyyətə cəlb edilərək təhqiqat ilə birlikdə hərbi məhkəməyə göndərilirdi. Hərbi məhkəmənin hökmü Qafqaz müsəlman ordusunun komandanlığının razılığı ilə 24 saat ərzində icra edilirdi.

Aşağıda göstərilən əməllər qadağan edilir və inzibati qaydada cəzalandırılırdı: a) millətlərarası münaqişələrə səbəb ola biləcək və ya siniflərarası ziddiyyətləri kəskinləşdirəcək yalan məlumatların və şayiələrin kütləvi surətdə yayılaraq elan edilməsi, hərbi hissələrin

döyüş əməliyyatları barədə və kütləvi bədbəxt və fəlakətli hadisələrə dair hökumət məlumatlarının düzgün olmayaraq yayılması; b) hakimiyyət orqanlarının icazəsi olmadan mitinq və toplantıların keçirilməsi; ç) hərbçilər və polis orqanları istisna olmaqla göstərilən qaydalar qüvvəyə mindiyi andan odlu silah, patron, döyüş sursatı, partlayıcı maddələr gəzdirilməsi, saxlanılması və ticarəti. Silah gəzdirən şəxslər qaydalar elan olunduğu gündən iki həftəyə qədər müddətdə bütün növ odlu silah və sursatları qəbz almaq şərtilə hərbi hissələrə və milis idarəsinə təhvil verməli idi. İki həftəlik müddət qurtardıqdan sonra bütün şübhəli şəxslərin evlərində hərbi dəstənin köməyi ilə axtarış aparılacaq və tapılmış silahlar müsadirə olunmaqla onların sahiblərinə ən yüksək cəza veriləcəkdir. Yuxarıda göstərilən şaiyələrin və digər yalan məlumatların yayılmasına görə müqəssir olan şəxslər inzibati qaydada 10 min rubl və ya 6 ay həbsxana cəzasına, yaxud Azərbaycan Respublikasından sürgün edilmək cəzasına məruz qalacaqdır. Qərar dərc olunduğu andan qüvvəyə minir və hərbi vəziyyət ləğv edilənə qədər qüvvədə qalırdı.

İnzibati cəzaların bütün növlərinin tətbiqi daxili işlər naziri tərəfindən edilə bilərdi. Qubernatora isə üç ay müddətinə qədər həbs və 5 min rubla qədər cərimə almaq səlahiyyəti verilirdi. Qəza rəisləri bir ay müddətinə qədər həbsxana cəzası, bir min rubl cərimə tətbiq etmək hüququna malik idi.

Respublikanın bütövlüyünü təmin etmək, hərbi hissələrdə və daxildə intizamı bərpa etmək məqsədilə 1918-ci il avqustun 12-də hökumətin qərarı ilə müvəqqəti olaraq ölüm cəzası bərpa edildi. Qanuna görə 1917-ci il martın 12-ə qədər qüvvədə olmuş hərbi və hərbi-dəniz donanması üzrə hərbi cinayət nizamnaməsi ilə, həmçinin mülki qanunvericiliklə nəzərdə tutulmuş ağır cinayət əməllərinə görə ölüm cəzası verilirdi. Qanun dərc edildiyi andan qüvvəyə minirdi.

1919-cu il aprelin 25-də hökumət əlavə olaraq yalan şaiyələrin yayılmasına görə məhkəmə məsuliyyətinin müəyyən edilməsi haqqında qərar verdi. Daxili işlər nazirinin məruzəsini nəzərə alan hökumət Bakı şəhər polismeystrinə şayiə yayanların müəyyən edilib məhkəmə məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görülməsini tapşırdı.

Azərbaycan Müəssislər Məclisinə seçkilər haqqında qanuna görə seçkilər dövründə hər hansı bir pozuntu baş verdiyi halda müqəssir olan şəxslər barədə inzibati və cinayət məsuliyyəti müəyyən edilirdi. Belə ki, Müəssislər Məclisinə seçkilərdə öz namizədliyini irəli sürmüş şəxslərə təbliğat materiallarını, siyahıları çıxarmağa və məhv etməyə görə bir aydan üç aya qədər həbs cəzası verilirdi.

Seçici qruplarının sərəncamında olan, təbliğat üçün nəzərdə tutulmuş binalara özbaşına daxil olaraq təbliğat materiallarını və ədəbiyyatı korlamaya və ya məhv etməyə görə, həmçinin namizədləri və onların səlahiyyətli nümayəndələrini fiziki güc tətbiq etməklə hədələməyə görə günahkar olan şəxslər 6 aydan az olmayaraq həbsxana cəzasına məruz qalırdılar.

Namizədin şəxsiyyəti barədə yalan məlumat yayaraq onu etibardan salan, həmçinin deputatlığa namizədin mənsub olduğu təşkilatın nüfuzuna xələl gətirməklə digər namizədləri təbliğ edən təqsirkarlara bir aydan 6 aya qədər həbsxana cəzası verilirdi.

Namizədin şəxsi ərizəsində saxtakarlıq və düzəliş edilməsində günahkar olanlar barəsində islah evlərinə həbs cəzası təyin edilirdi. Həmçinin belə cəza növü Mərkəzi Seçki Komissiyasına saxta və düzəliş edilmiş ərizə ilə müraciət etmiş şəxs barəsində də tətbiq edilirdi.

Seçki komissiyalarına düzgün olmayan namizəd siyahıları və seçici siyahıları təqdim etmiş şəxslər həbsxana cəzasına məruz qalırdı.

Seçkiqabağı təbliğat aparan namizədlərə və ya onların seçki qruplarına və komissiyanın özünün fəaliyyətinə zor tətbiq etməklə hədə göstərən günahkarlar həbsxana cəzasına məruz qalırdılar. Əgər belə hərəkətlər bir dəstə adamın iştirakı ilə baş verərdisə və yığıncağın və ya komissiyanın fəaliyyəti pozulardısa, təqsirkarlar islah evlərinə salınırdılar.

Məscidlərdə, məbədlərdə və digər ibadət yerlərində həm şifahi, həm də yazılı surətdə seçkiqabağı təbliğatla çıxış etmək qadağan edilirdi. Göstərilən qaydanı pozan təqsirkarlar 6 aydan çox olmamaqla həbsxana cəzasına məruz qalırdı.

Seçkilərdə iştirak etmək hüququnda olan şəxslərin sərbəst surətdə öz fikirlərini söyləməsinə və təbliğatlarını aparmasına qarşı yö-

nəlmiş bütün hallara – şəxsə fiziki güc tətbiq edilməsinə, onun aldadılmasına, hədələnməsinə, hakimiyyətdən sui-istifadəyə və ya iqtisadi cəhətdən asılı olmasından istifadə olunmasına görə təqsirkarlar həbsxana cəzasına məruz qalırdılar.

Seçki prosesinin keçirilməsinə müdaxilə, yəni komissiya üzvlərinə qarşı zor tətbiq edilməsinə, seçki binası daxilində hədələməyə, iğtişaş törətməyə, seçici siyahılarını cırıb korlamağa, seçki bülletenlərini məhv etməyə, seçki qutularını sındırmağa görə təqsirkarlar islah evlərinə salınırdı.

Seçki günlərində iğtişaş salan, seçkilərin dayandırıldığı barədə əhaliyə yalan məlumatlar yayan şəxslər üç aydan az olmayaraq islah cəzasına məruz qalırdılar.

Seçki günlərində məntəqələrə qanunsuz daxil olaraq təbliğat aparan şəxslər və komissiya sədrinə itaət göstərməyən digər belə qanunsuz hərəkətlər edən təqsirkarlar həbs edilirdilər.

Seçki günü seçicilərin səslərini əldə etmək məqsədilə onlara süfrə qonaqlığı verən şəxslər də həbs edilirdi.

Seçki hüququndan məhrum edilmiş şəxslər qanunsuz olaraq Müəssislər Məclisinə seçkidə iştiraka görə həbs edilirdilər.

Seçki prosesinin davam etdiyi üç gün ərzində bir dəfədən artıq səs vermiş şəxslər həbs cəzasına məruz qalırdılar.

Müəssislər Məclisinə seçkilər prosesini təşkil edən komissiya üzvlərinin də məsuliyyəti müəyyən edilirdi. Belə ki, seçkilərin nəticələrini qəsdən olaraq saxtalaşdıran, seçki siyahısını və səsləri düzgün saymayan və ya siyahını və bülletenləri qəsdən korlayan, seçici siyahısını və ya bülleteni artırmağa və ya azaltmağa görə təqsirkar olan komissiya üzvləri üç ildən az olmayaraq islah evlərinə salınırdı.

Qanunda göstərilən təlimatlara uyğun olmayaraq gizli surətdə Müəssislər Məclisinə seçkilərin nəticələrini elan edən şəxslər həbsxana cəzasına məruz qalırdılar.

Müəssislər Məclisinə seçkilərin "Əsasnamə"sinə uyğun olmayaraq seçkilərin nəticələrini bu və ya digər namizədin xeyrinə dəyişdirən vəzifəli şəxsin və ya komissiya üzvlərinin bilərəkdən və ya qəsdən olaraq törətdikləri əməllər həbslə cəzalandırılırdı.

Müəssislər Məclisinə seçkilər haqqında qanuna görə yuxarıda göstərilən qanunsuz əməllərdən başqa, məhkəmə orqanları günahkarlara qarşı aşağıda göstərilən maddələr üzrə də cəza tətbiq edirdi:

1) Müəssislər Məclisinə seçkilər üzrə qüvvədə olan qanunvericiliyin 91, 93, 95, 98, 102, 103 və 104-cü maddələri üzrə təqsirkar olanlar yerli idarəetmə orqanlarına və digər qanunverici orqanlara seçkilərdə iştirakdan 5 il müddətində məhrum edilirdilər;

2) Müəssislər Məclisinə seçkilər üzrə qüvvədə olan qanunvericiliyin 92, 98, 102, 103 və 105-ci maddələri üzrə təqsirkar olanlara məhkəmə orqanları 3 min rubldan artıq olmayan pul cəriməsi müəyyən edə bilərdilər;

3) seçkilər üzrə qüvvədə olan qanunvericiliyin 91, 94, 95, 98, 102, 103 və 106-cı maddələri üzrə təqsirkar olan vəzifəli şəxslər olardısa, onlar öz tutduqları vəzifələrdən kənarlaşdırılırdılar.

1919-cu il iyulun 11-də Azərbaycan Respublikasında hərbi vəziyyətin elan edilməsi ilə əlaqədar olaraq Dövlət Müdafiə Komitəsinin sədri N. Yusifbəylinin əmri ilə komitənin məcburi yerinə yetirilməli olan qərarı dərc edildi.

Ümumi məhkəmələrə aidiyyəti olan aşağıdakı cinayət işləri hərbi dövrün qanunlarına uyğun olaraq hərbi məhkəmələrə verilərək hərbi məhkəmə nizamnamələri ilə mühakimə edilirdi:

a) Azərbaycan Respublikasının hakimiyyət orqanları əleyhinə iğtişaş salmaq;

b) Respublikaya qarşı xəyanət etmək;

c) Azərbaycan Respublikası parlamentinin sədrinin, hökumətin sədrinin və üzvlərinin həyat və azadlıqlarına qəsd;

ç) hərbi hissələrə və hərbi gözətçilərə hücum etmək;

d) hakimiyyət orqanlarına silahlı müqavimət göstərmək;

e) xidməti vəzifələrini həyata keçirən vəzifəli şəxslərin həyatına sui-qəsd;

ə) dəmir yollarının, körpülərin, yolların və digər qurğuların, həmçinin su mənbələrinin və digər dövlət əhəmiyyətli tikililərin zədələnməsi və ya məhv edilməsi;

f) tikililəri, taxıl və taxıl məhsullarını yandırmaq və s.;

g) hərbi xidmətin pozulmasına yönəlmiş təbliğatın aparılması.

Dövlət Müdafiə Komitəsinin həmin qərarında aşağıda göstərilən bəzi cinayət əməlləri də ümumi məhkəmələrdən götürülərək onlara görə inzibati qaydada məsuliyyət müəyyən edilirdi:

a) millətlərarası münaqişələrlə nəticələnə biləcək və siniflərarası münasibətləri kəskinləşdirəcək şayiələrin yayılması;

b) hökumətin və hərbi hissələrin fəaliyyəti barədə yalan şayiələrin yayılması;

ç) ərzaq və digər zəruri malların qiymətlərinin qalxmasına görə tətil keçirmə, həmçinin səbəbsiz olaraq ərzaq və digər malların satılmasını dayandırma.

Dövlət müdafiə komitəsinin əmri ilə qadağan edilirdi:

a) siyasi xarakter daşıyan mitinq və yığıncaqları hakimiyyət orqanlarının icazəsi olmadan keçirmək;

b) odlu silah, patron və partlayıcı maddələrin gəzdirilməsi, saxlanılması və satılması.

Azərbaycan ordusunun və müvafiq qoşunların hərbi qulluqçularının tabe silahlarına göstərilən qadağalar şamil edilmirdi.

Müdafiə komitəsinin qərarına görə silahların verilməsi və onun gəzdirilməsi hüququnu müəyyən etmək quberniya daxilində qubernatorlara həvalə edilirdi.

Dövlət müdafiə komitəsinin əmrinə görə Daxili İşlər Nazirliyinin icazəsi olmadan yerli inzibati hakimiyyət orqanlarının hər hansı qərar verməsi qadağan edilirdi.

1919-cu il iyulun 27-də hökumət hakimiyyət strukturlarının işini yaxşılaşdırmaq, həmçinin müxtəlif dövlət idarələrinə cinayət xarakterli və sui-istifadə əməllərinin qarşısını almaq məqsədilə parlament tərəfindən xüsusi Təftiş-İstintaq Komissiyası yaratdı. Komissiyaya aşağdakı səlahiyyətlər verildi:

a) bütün dövlət idarələrindən, vəzifəli şəxslərdən, o cümlədən məhkəmə orqanlarından, nəzarət və poçt-teleqraf, həmçinin ictimai təşkilatlardan lazımi məlumat və arayışları almaq;

b) hökumətdən, hüquqi və fiziki şəxslərdən kredit mənbələrinin əldə edilməsi barədə yuxarıda göstərilən məlumatları öyrənmək hüququ;

c) şəxsi izahat və ifadə vermək məqsədilə bütün vəzifəli və fərdi şəxslərin komissiyaya gəlməsini tələb etmək hüququ;

ç) bütün vəzifəli və fərdi şəxsləri cinayət məsuliyyətinə cəlb etmək və komissiyanın ayrı-ayrı üzvlərinin iştirakı ilə Cinayət Mühakiməsi Nizamnaməsinin 315-482-ci maddələri üzrə (IV-X fəsillər) ibtidai istintaq hüququ qüvvəsinə bərabər tutulan təhqiqat aparmaq;

d) polis orqanlarına və dəmiryol mühafizəsi idarəsinə ayrı-ayrı istintaq hərəkətlərini aparmağı və digər işləri həvalə etmək;

e) işin az əhəmiyyətli olması və ayrıca təhqiqat aparılmasına zərurət olduğu üçün həmin işlərin komissiya tərəfindən məhkəmə orqanlarına həvalə edilməsi;

ə) bütün hakimiyyət strukturlarından İstintaq-Təftiş Komissiyasına hərtərəfli kömək göstərməyi tələb etmək hüququnun olması;

f) vəzifəli şəxslərin 5-ci dərəcəsinə qədər olanları istintaq-təhqiqat dövründə vəzifədən kənarlaşdırmaq, eyni zamanda komissiya sədri vasitəsilə daha yüksək vəzifəli şəxslərin müvəqqəti olaraq səlahiyyətlərdən məhrum edilməsi üçün Nazirlər Şurası qarşısında vəsatət qaldırmaq.

İstintaq-Təftiş Komissiyası təhqiqat qurtardıqdan sonra işlərin mövcud qanunvericiliklə aparılması üçün prokuror nəzarətinin təmin edilməsi şərtilə işi istintaqa göndərirdi. Cinayət tərkibi aşkar edilməmiş təhqiqat işlərinin aparılması isə komissiyanın qərarı ilə dayandırılır və hökumətin işlər idarəsinə təhvil verilirdi.

Parlament Xüsusi Təftiş-İstintaq Komissiyası ədliyyə nazirinin təqdimatı ilə hökumət tərəfindən təsdiq edilmiş sədrdən və 8 nəfər üzvdən ibarət olmuşdur.

1919-cu il sentyabrın 29-da parlamentin verdiyi qanunla Cinayət və İslah Cəzaları Qanunnaməsinə və Cinayət Mühakiməsi Nizamnaməsinə dəyişikliklər və əlavələr edilirdi. Rusiya imperiyasının 1885-ci il XV cild üzrə Cinayət və İslah Cəzaları Qanunnaməsinin 372, 373, 378-ci maddələri və onun davamı kimi 1912-ci il, 1913-cü il və 1914-cü illərdə edilmiş dəyişikliklər və nəhayət, Cinayət Mühakiməsi Nizamnaməsinin 268-ci maddəsinə edilən dəyişiklik və əlavələr nəzərə alınmaqla parlamentin verdiyi qanun qüvvəyə minirdi.

Cinayət Qanunnaməsinin 372-ci maddəsinə edilən dəyişikliyə görə, dövlət və ya ictimai xidmətdə olan məmur və ya başqa qulluq-

çu pul, əşya və digər formada hədiyyə almağa görə və bu barədə öz rəisinə heç bir məlumat verməyərək, eyni zamanda hədiyyənin alınması barədə ilkin razılıq olmadığı, lakin onu qəbul edərək hədiyyənin verilməsi şərtini icra etdiyinə görə vəzifədən çıxarılaraq 4 aydan 8 aya qədər həbsxana cəzasına məruz qalırdı.

Əgər hədiyyə alınması barədə ilkin sövdələşmə edilərək onun qəbul edən məmur hədiyyənin "əvəzini" təyinatı üzrə icra edərdisə, onu 8 aydan bir il 4 aya qədər həbsxana cəzası və vəzifədən kənar edilmə cəzası gözləyirdi.

372-ci maddə ilə müqəssir olanları həbs cəzasından əlavə alınmış hədiyyənin 10 misli miqdarında pul cəriməsi gözləyirdi. Əgər əşyanın qiymətini müəyyən etmək mümkün olmazdısa, 10 min rubla qədər cərimə nəzərdə tutulurdu. Digər tərəfdən, hədiyyə məmura bilavasitə deyil, digər şəxslər vasitəsilə və ya onun arvadı, uşaqları, qohumları tərəfindən çatdırıldıqda da yuxarıda göstərilən cəza olduğu kimi qalırdı.

Cinayət Qanunnaməsinin 373-cü maddəsilə xidməti dövründə qanunsuz hərəkət edərək miqdarının az olmasına baxmayaraq pul və ya digər qiymətli əşyalar almış məmurlar öz rəislərinin etibarından və vəzifəsindən sui-istifadə etməyə görə, bu Qanunnamənin 31-ci maddəsinin birinci, ikinci və üçüncü dərəcələri üzrə xüsusi fərdi hüquq və imtiyazlarını itirərək 4 ildən 5 ilə qədər həbs cəzasına məruz qalırdılar.

Əgər göstərilən rüşvəti alaraq peşman olan məmurlar bu barədə öz rəislərinə məlumat verərdilərsə, məhkəmə orqanları peşman olmasını və səmimiyyətini nəzərə alaraq müqəssiri vəzifədən kənarlaşdırılmaqla 8 aydan bir il 4 aya qədər azadlıqdan məhrum edirdilər. Onların aldıqları rüşvət yerli sosial təminat prikazına və ya ona bərabər təşkilata göndərilirdi.

Qanunnamənin 378-ci maddəsinə görə, hədələməklə cinayət törətmiş müqəssirlər bütün şəxsi və əmlak hüquqlarından məhrum edilərək 4 ildən 6 ilə qədər sürgün və katorqa işlərinə cəlb edilirdilər. Əgər hədələmək zorla və ya digər güc tətbiq etmək üsulları ilə edilərdisə, sürgün və katorqa işləri 4 ildən 8 ilə qədər nəzərdə tutulurdu. Müqəssirlərdən alınmış pul vəsaiti və digər hədiyyələr ictimai təşkilatların sosial fonduna verilirdi.

Məhkəmə Mühakiməsi Nizamnaməsinin 286-cı maddəsinə edilən əlavələr Cinayət Qanunnaməsinin 372-ci maddəsində nəzərdə tutulan dəyişiklikləri nəzərə almaqla məhkəmə müstəntiqinin pul cəriməsi təyin etmək üçün dairə məhkəməsinə vəsatətlə müraciət edə bilməsini müəyyən etmişdi.

Məhkəmə və proses. Azərbaycan Demokratik Respublikasında məhkəmə sisteminin yenidən qurulması üçün bir sıra tədbirlər həyata keçirilirdi. Bununla belə, köhnə Rusiya imperiyası dövründə mövcud olmuş məhkəmə sistemi əsasında ədalət mühakiməsi aparılmaqda davam edilirdi. Məhkəmə sistemi andlı məhkəmələrə, ədalət məhkəmələrinə və ümumi məhkəmələrə – dairə və məhkəmə palatalarına bölünürdü.

Ədalət məhkəmələri seçkili orqan kimi qəzalarda yerli qəza nümayəndələrinin yığıncağında, şəhərlərdə isə şəhər nümayəndələrinin yığıncağında seçilirdilər. Ədalət məhkəmələri sədrdən və istənilən sayda üzvlərdən ibarət idi. Sədr ədalət məhkəməsi üzvləri arasından seçilirdi.

Dairə məhkəmələri sədrdən və üzvlərdən ibarət idi. Dairə məhkəmələri mülki və cinayət işləri üzrə palatalara bölünürdü.

1918-ci il noyabrın 14-də ədliyyə nazirinin təqdimatı ilə hökumət Azərbaycan Respublikası "Məhkəmə palatası haqqında" Əsasnaməni təsdiq etdi.

Dekabrın 5-də hökumət Ədliyyə Nazirliyinə Gəncə dairə məhkəməsi nəzdində hərbi məhkəmə təsis etməyi tapşırır. Hərbi məhkəmənin tərkibinə sədr, iki nəfər üzv, bir nəfər prokuror, bir nəfər katib, iki nəfər katib köməkçisi və dörd nəfər kuryer daxil edilir.

Parlament 1919-cu il avqustun 18-də özgə əmlakı əleyhinə yönəlmiş cinayətlərə görə cəza verilməsi üçün ədalət məhkəməsinin səlahiyyətlərinin artırılması barədə qanun verdi. Qanunda göstərilirdi ki, Rusiya imperiyası qanunvericiliyində nəzərdə tutulmuş cinayət əməllərinə görə tətbiq edilən pul cərimələri rublun kursunun aşağı düşdüyünə görə ədalət məhkəmələrinin səlahiyyətlərini məhdudlaşdırmışdır. Fırıldaqçılıq, mənimsəmə, israfçılıq, öz əmlakını oğurlamaq və s. əməllərə görə müəyyən edilən 300 rubl cərimə təyin et-

mək hüququnda olan ədalət məhkəmələrinin səlahiyyətlərini artırmaq məqsədilə göstərilən cinayətlərə görə tutulan cərimələr 300 rubldan 10 min rubla qədər artırılır və dairə məhkəməsinə aid bəzi xırda cinayət əməllərinə baxmaq da onlara həvalə edilirdi.

Azərbaycan parlamenti 1919-cu il aprelin 14-də hərbi məhkəmə hissəsinin quruluşu haqqında qanun verdi. 26 bənddən ibarət qanunda hərbi məhkəmələrin səlahiyyətləri müəyyən edilirdi. Hərbi məhkəmələr Azərbaycan Respublikası ərazisindəki bütün hərbi alaylarda yaradılırdı.

Alay hərbi məhkəmələri 1914-cü il 30 iyula qədər edilmiş dəyişikliklə hərbi məhkəmə qərarlarının hesabatının 24 kitabı üzrə 4-cü nəşrin 1896-cı il və alay məhkəmələrinin təlimatı olan Hərb İdarəsinin 1896-cı il 319 saylı əmri üzrə təsis edildi.

Alay hərbi məhkəmələri öz fəaliyyətlərində 1914-cü il 30 iyula qədər edilmiş dəyişiklikləri nəzərə alaraq, hərbi məhkəmə qərarlarının hesabatlarının 24 kitabı üzrə 4-cü nəşrin 1896-cı il təlimatları üzrə cinayət işlərinin aparılması qaydasını rəhbər tuturdu.

Azərbaycan Hərbi Məhkəməsi Hərbi Nazirliyin nəzdində olmaqla fəaliyyətini bütün respublikada icra edirdi. Hərbi məhkəmənin daimi və müvəqqəti üzvləri mövcud idi. Daimi üzvlərə sədr və iki nəfər hərbçi daxil idi. Müvəqqəti üzvlər isə hərbi hissələrdən olan iki qərargah və iki baş zabitdən ibarət olmaqla 6 ay müddətinə hərbi nazirin sərəncamı ilə təyin edilirdi.

Hərbi məhkəmənin nəzdində prokuror, bir nəfər prokuror köməkçisi, iki müstəntiq və iki nəfər hərbi-məhkəmə idarəsindən olan namizəd fəaliyyət göstərirdi.

Hərbi məhkəmənin prokuroru və daimi üzvləri hərbi nazirin əmri ilə hərbi məhkəmə orqanlarında hərbi prokurorun köməkçisi, dairə məhkəməsində prokuror müavini, məhkəmə və ya hərbi müstəntiq, alay məhkəməsinin istintaq hissəsi üzrə köməkçi işləmiş, həmçinin andlılardan və səlahiyyətli nümayəndələrdən olan peşəkarlardan təyin edilirdi.

Prokuror köməkçisi və hərbi müstəntiq hərbi nazirin əmri ilə ali hüquq təhsili almış şəxslərdən və ya çalışdıqları peşələr üzrə öz fə-

aliyyətində kifayət qədər bilik və təcrübə əldə etmiş, məhkəmə işini öyrənmiş şəxslərdən seçilirdi.

Hərbi məhkəmələrə aidiyyəti olan işlər müvəqqəti hökumətin qərarına əsasən Rusiya hərbi nazirinin 1917-ci il 6 iyun 396 saylı əmrinin III bölməsinin 1-9-cu maddələri üzrə müəyyən edilirdi.

Qanuna görə, hərbi komandanlığın ayrı-ayrı hərbçilər barəsində cinayət işi qaldırmaları kimi müstəsna hüquqları ləğv edilirdi. Hərbi müstəntiqlər tərəfindən aşağıda göstərilənlər cinayət məsuliyyətinə cəlb etmək üçün qanuni əsas sayılırdı:

a) hərbi komandanlığın məlumatı; b) hərbi prokurorun təqdimatı; c) məhkəmə və inzibati orqanların vəzifəli şəxslərinin məlumatları; ç) fərdi şəxslərin və hərbi xidmətdə qulluq edənlərin şikayətləri, günahkarın etirafı.

Mülki işlərin aparılmasına hərbi müstəntiqlərin cəlb edilməsi qadağan edilirdi. İstintaqın dayandırılması hərbi məhkəmənin qərarı ilə müəyyən edilirdi.

Azərbaycan Respublikasında hərbi məhkəmə quruluşunun tam formalaşmamasını nəzərə alaraq dairə hərbi məhkəmələrinin qərarlarından edilən şikayətlərin kassasiyaya qaydasında baxılması müvəqqəti ləğv edilirdi. Müttəhim, onun müdafiəçisi və iddiaçı şikayət ərizəsi ilə hərbi nazirə müraciət edə bilərdilər. İşin digər hərbi məhkəmədə baxılması hərbi nazir tərəfindən müəyyən edilirdi.

Cənubi Azərbaycan 1917-1920-ci illərdə

1917-ci il fevral burjua-demokratik inqilabının Rusiyada çarizmi devirməsi Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının yüksəlişinə öz təsirini göstərdi. 1917-ci ilin aprelində Təbrizdə demokratik yönümlü qəzetlər nəşr olunmağa başladı.

İyun ayında Təbriz şəhərində 1905-1911-ci illər milli-azadlıq hərəkatında qəhrəmanlıqla həlak olmuşların şərəfinə böyük izdihamlı mitinq oldu. Nümayişçilər "Azad Azərbaycan", "Azad İran" şüarı ilə şəhidlərin qəbirlərini yad etdilər.

Bütün İranda demokratik hərəkat başlandı. Cənubi Azərbaycanda Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi milli-azadlıq hərəkatı xüsusilə böyük əhəmiyyət kəsb edirdi.

Cənubi Azərbaycan milli-azadlıq hərəkatının lideri Xiyabani 1880-ci ildə Təbriz yaxınlığındakı Xamnə kəndində tacir ailəsində doğulmuşdur. Dini təhsil alan Xiyabani rus və fransız dillərini mükəmməl bilirdi, fəlsəfə, riyaziyyat və astronomiya elmlərini yaxşı mənimsəmişdi. Şeyx Məhəmməd Xiyabani Rusiya imperiyasında bir müddət yaşamış, 1905-1911-ci illər Cənubi Azərbaycan milli hərəkatında fəal iştirak etmiş və təqiblərə məruz qalmışdır. İran məclisinin 1909-1911-ci illərdə deputatı olmuş Xiyabani öz xalqının milli hüquqlarının müdafiə olunmasına çalışmışdır.

1917-ci ilin may ayında Xiyabani Tiflisə gəlmiş və Qafqazdakı inqilabi hadisələrlə yaxından tanış olmuşdur.

İyunun ortalarından başlayaraq Təbriz şəhərində şah rejimi əleyhinə çıxışlar başlamışdır. Təbriz qubernatoru Tehrana qaçmağa məcbur olur. Azərbaycanın digər şəhərləri də azadlıq hərəkatına qoşulur. Ərdəbil şəhərinin inqilab komitəsi Azərbaycan xalqını silahlı mübarizəyə çağırırdı.

1917-ci ilin avqustunda İran rejiminə və fars zülmünə qarşı mübarizə aparmaq məqsədilə 480 nəfərin iştirak etdiyi demokratik təşkilatların konfransı çağırıldı. Cənubi Azərbaycanın bütün şəhərlərinin iştirak etdiyi konfransda vilayət komitəsi seçilərək demokratik hərəkatın inkişaf perspektivini müəyyən etdi. Konfransın qərarı ilə Xiyabaninin başçılıq etdiyi Azərbaycan demokratik partiyası yaradıldı. "Təcəddüd" ("Yeniləşmə") qəzeti partiyanın mərkəzi orqanı oldu.

Azərbaycan Demokratik Partiyası Cənubi Azərbaycanı azad etmək və demokratik dövlət qurmağı əsas məqsəd hesab edirdi. Partiya xırda və orta burjuaziyanın, sənətkarların, kəndlilərin və ziyalıların maraqlarını ifadə edirdi.

Cənubi Azərbaycan milli-azadlıq hərəkatına kömək məqsədilə 1917-ci ilin yazında Bakıda "Ədalət" təşkilatı yaradıldı.

1917-ci ilin payızında Cənubi Azərbaycanın şərq rayonlarında hərəkat güclənir. Burjuaziya və mülkədarların mənafeyini ifadə edən

Kiçik xanın başçılığı ilə "İttihadi islam" təşkilatı yaradıldı. Şah rejimi Kiçik xana qarşı dəfələrlə hökumət qoşunları göndərsə də, hər dəfə məğlub edilirdi.

İngilis komandanlığı 1918-ci ildə İranda öz mövqelərini möhkəmləndirə bilmişdi. 1919-cu il avqustun 9-da Vüsuquddövlət hökuməti Britaniya ilə saziş bağladı. Müqavilə İran məclisində təsdiq edilməsə də, ingilis qoşunları ölkədə qalmaqda davam edirdi. Avqust müqaviləsi Cənubi Azərbaycanda da ciddi müqavimətlə qarşılandı. Vüsüquddövlət hökumətindən müqavilənin ləğv edilməsi tələb edilirdi.

1919-cu ilin oktyabr-dekabr aylarında ingilis imperialistlərinə qarşı Təbriz şəhərində üsyan başladı. Təbrizdən və digər Azərbaycan şəhərlərindən şah məmurları qovuldu.

1920-ci il Təbriz üsyanı və Milli hökumətin yaranması.

1920-ci il aprelin 7-də Azərbaycanın demokratik qüvvələrinin imperialistlərə qarşı yönəlmiş üsyanı bütün Cənubi Azərbaycanı əhatə edirdi.

Üsyana rəhbərlik etməkdən ötrü Xiyabani və demokratik hərəkatın digər nümayəndələrindən ibarət olan İctimai Komissiya yaradıldı. İctimai Komissiya xalqa müraciət edərək başlanmış mübarizəni axıra qədər davam etdirməyə çağırırdı.

Silahlı üsyançı dəstələr Təbrizdəki dövlət idarələrini tutaraq şah rejimi məmurlarını qovdular. Azərbaycanın demokratik qüvvələri ingilis imperialistlərini ölkədən qovmağı, demokratik islahatlar keçirməyi, xalq qoşununu təşkil etməyi, demokratik hökumət yaratmağı, xalqın inkişafı üçün maarifçilik ideyalarını artırmağı əsas məqsəd hesab edirdilər.

Xiyabani və onun tərəfdarları müstəqil burjua-demokratik respublikası yaradılması ideyasını təbliğ edirdilər.

Təbrizdə hakimiyyətə gəlmiş demokratik qüvvələr yaratdıqları hökuməti "Azadistan" adlandırdılar. 5 aydan artıq bir müddətdə demokratik qüvvələr Cənubi Azərbaycanda hakimiyyəti qoruyub saxlaya bilmişdilər.

Dövlət hakimiyyətini qurmağa başlayan demokratik qüvvələr hökumət idarələrinə rəhbərlik etmək üçün əhalinin bütün təbəqələrini

əhatə edən kollegiya yaratdılar. Təbriz şəhərinin ətraf rayonlarında, Ərdəbil, Qaradağ, Marağa, Urmiya, Sərab və başqa ərazilərdə demokratik partiyasının görkəmli xadimləri hakimiyyət strukturlarının təşkil edilməsinə başladılar. Təbrizdə və digər şəhərlərdə qayda-qanunun təmin edilməsi üçün milli qvardiya hissələri yaradıldı.

1920-ci il iyunun 24-də İctimai komissiyanın Milli hökumətə çevrildiyi elan edildi. Daxili islahatlar keçirmək üçün 5 nəfərin daxil olduğu komissiya təşkil edildi. Komissiya torpaq, maliyyə, hərbi, maarif və digər sahələr üzrə layihələr işləyib hazırladı. Milli hökumət Təbriz əhalisinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan ötrü ərzaq qiymətlərini xeyli aşağı saldı. Əhaliyə tibbi xidməti yaxşılaşdırmaqdan ötrü müalicəxanalar açıldı. Təbriz şəhərində milli dildə üç məktəb təşkil edildi. Milli hökumət bank təsis etdi.

Azərbaycan demokratik hərəkatı İranda siyasi proseslərə ciddi təsir göstərirdi. 1920-ci ilin iyununda Vüsuquddövlət hökuməti istefa verdi. Fars şovinisti Mürşüddövlə yeni hökumət kabinetinə başçılıq edir.

İran rejimi demokratik hərəkatı boğmaqdan ötrü bütün səylərini birləşdirirdi. Yeni hökumət ingilis hərbi məsləhətçilərinin daxil olduğu silahlı qüvvələri Təbriz üzərinə göndərdi.

Millətçi rejim yenidən hiyləyə əl ataraq general-qubernator Müxbirüssəltənəti Təbriz hökumətilə danışıq aparmağa göndərir. Danışıqların vaxtını uzadan Müxbirüssəltənət hərbi qüvvələrin şəhərə yaxınlaşmasını təmin etdi. Azərbaycan Milli Hökumət müqaviməti təşkil etsə də, sayca üstün olan İran rejimi qoşunları sentyabr ayında Təbrizi tuta bildilər. Şeyx Məhəmməd Xiyabani və 300 nəfərdən çox demokratik edam edildi, minlərlə azərbaycanlı həbsxanalara salındı. Cənubi Azərbaycan milli-azadlıq hərəkatı müvəqqəti məğlubiyyətə uğrasa da, bu hərəkat 1945-46-cı illərdə davam etdirildi. Xalqın azad demokratik dövlət qurmaq ideyasını tamamilə məhv etmək İran rejiminə nəsib olmadı.

XIII FƏSİL

1920-1936-cı illərdə Azərbaycan Sovet Sosialist Respublikasının (II Respublika) dövlət və hüquq tarixi

Azərbaycanda Sovet Sosialist Respublikası elan edilməsi. 1920-ci il fevralın 11-12-də Bakıda Azərbaycan Kommunist (bolşevik) Partiyasının qurultayı keçirildi. Qurultayda Rusiyanın maliyyə və silahlı yardımı ilə tezliklə çevriliş həyata keçirmək qərara alındı. Moskva təcrübəli kadrlarını, ilk növbədə daşnak-bolşevik Mikoyanı bu işə cəlb etdi. Mart ayında bolşeviklər ermənilərin vasitəsi ilə Qarabağda qiyam qaldırmağa cəhd etdilər.

Bolşevik işğalı ərəfəsində Azərbaycanda hökumət böhranı yaranmışdı. İstefa vermiş N. Yusifbəyli hökumətini əvəz etmiş M. Hacınski, koalisyon hökumət yaratmaq barədə kommunistlər də daxil olmaqla sol qüvvələrlə danışıqlar aparırdı. Bolşeviklər çevrilişə hazırlaşdıqlarından Milli hökumətin tərkibinə daxil olmaqdan imtina etdilər. Aprelin 22-də yeni hökumətin yaradılmasının qeyri-mümkünlüyü barədə Haçinski parlamentə məlumat verdi. N. Yusifbəyli hökuməti müvəqqəti olaraq hökumətin fəaliyyətini bərpa etdi. Lakin artıq böhran yaranmışdı.

Yaranmış vəziyyətdən istifadə edən bolşeviklər xalqa müxtəlif vədlər verir, əhalini öz tərəfinə cəlb etməyə çalışırdı. 1920-ci il aprelin 22-də XI Qızıl Ordu nümayəndələrinin iştirakı ilə RK(b)P Qafqaz Diyar Komitəsi Bakı bürosunun fövqəladə müşavirəsi oldu. Müşavirədə Milli hökumətə hakimiyyəti təhvil vermək haqqında ultimatum verilməsi qərara alındı. Aprelin 26-da çevriliş yolu ilə hakimiyyətin ələ alınması planı müəyyən edildi. Çevrilişə rəhbərlik etmək üçün N. Nərimanov, D. Bünyadzadə, A. Əlişov, M.D. Hüseynov, Ə.H. Qarayev, Q. Musabəyov, V.H. Sultanovdan ibarət müvəqqəti Azərbaycan İnqilab Komitəsi yaradıldı.

Azərbaycan Milli hökuməti Zəngəzurda və digər sərhəd ərazilərində daşnak ordularını məğlub etdikdən sonra Ermənistan hökuməti aprelin 26-da barışıq imzalamaq xahişilə çıxış etməyə məcbur oldu. Lakin Qızıl Ordu dəstələri şimaldan artıq Azərbaycan Respublikası sərhədlərinə daxil olmuşdular.

Aprelin 27-də H. Sultanov başda olmaqla bolşeviklər hakimiyyətin yaxın 12 saat ərzində təhvil verilməsi barədə milli hökumətə ultimatum verdilər. Parlamentdə M.Ə. Rəsulzadə və Ş. Rüstəmbəyovun kəskin etirazlarına baxmayaraq hakimiyyətin bolşeviklərə verilməsi qərara alındı. Dinc yolla hakimiyyəti təhvil verən milli hökumət bir sıra tələblərlə çıxış edirdi. Azərbaycanın müstəqillliyinin qorunub saxlanılması, yeni yaranan hökumətin müvəqqəti orqan olması, hökumət və parlament üzvlərinin toxunulmazlığı və s. şərtlərlə hakimiyyət müsəlman bolşeviklərə verildi. Aprelin 28-də dörd zirehli qatarda A. Mikoyan, P. Musabəyov və başqalarından ibarət heyət Bakıya daxil oldu. Bolşeviklər bütün dövlət idarələrini zəbt etdilər.

Azərbaycan Hərbi İnqilab Komitəsi Azərbaycanı müstəqil Sovet Sosialist Respublikası elan etdi. Azərbaycan Hərbi İnqilab Komitəsi Azərbaycanı Müstəqil Sovet Sosialist Respublika (II Respublika) elan etdi. Mövcud ictimai quruluş və dövlət idarəçilik formasının dəyişdirilməsi yeni II Respublikanın yarandığını söyləməyə əsas verirdi. II Respublikanın yaranması və onun müstəqil olması müvəqqəti xarakter daşıyırdı. Bolşeviklərin lideri Lenin, Stalinin təqdim etdiyi vaxtilə, Rusiya imperiyasına daxil olmuş xalqların muxtar qurum kimi gələcəkdə SSRİ-in tərkibinə daxil edilməsi ideyasına etiraz etməsinə baxmayaraq, həmin xalqlar o cümlədən Azərbaycan 1922-ci ildə başqa formada yaradılmış "könüllü" Sovet Sosialist Respublikaları İttifaqına - "könüllü" imperiyaya daxil edildi.

Müvəqqəti Hərbi-İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissarları Sovetinin təşkilinə başladı. Hökumətin sədri və xarici işlər naziri N. Nərimanov, daxili işlər komissarı H. Sultanov, ədliyyə və əmək komissarı Ə.H. Qarayev, həmçinin Q. Müsabəyov, M.D. Hüseynov, Ç. İldırım, D. Bünyadzadə, C. Vəzirov və A. Əlimovun daxil olduğu milli tərkibli müstəqil Azərbaycan SSR hökuməti yaradıldı. Lakin real

olaraq Moskvadan göndərilən dekretlərlə idarə olunan Azərbaycan dövlətinin müstəqilliyi və milliliyi müvəqqəti idi. Sovet Rusiyası ilə gələcək əməkdaşlığı qurmaq üçün Azərbaycan İnqilab Komitəsi ədliyyə naziri B. Şahtaxtinskinin rəhbərliyi altında fövqəladə səlahiyyətli nümayəndə heyətini danışıqlar aparmaq üçün Moskvaya göndərir. Nümayəndə heyəti RSFSR hökuməti tərəfindən yaradılmış komissiya ilə birlikdə müqavilə hazırladı. 1920-ci il sentyabrın 30-da Moskvada RSFSR və Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqavilə bağlandı. Müqavilədə göstərilirdi:

1) Rusiya və Azərbaycan bir-biri ilə sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar;

2) RSFSR hökuməti ilə Azərbaycan Respublikası hökuməti ən qısa müddətdə aşağıdakıları birləşdirirlər: a) hərbi təşkilatı və hərbi komandanlığı; b) xalq təsərrüfatını və xarici ticarəti idarə edən orqanları; ç) təchizat orqanlarını; c) dəmiryolu nəqliyyatını və su nəqliyyatını, habelə poçt və teleqraf idarəsini; d) maliyyə işini.

RSFSR və Azərbaycan SSR arasında bağlanmış hərbi və hərbi-dəniz donanması üzrə müqavilənin şərtlərinə görə Azərbaycan SSR-də bir ədəd tam silahlanmış diviziya və xüsusi sazişlə sayları müəyyən ediləcək hərbi gəmilərdən ibarət hərbi donanma qüvvələrinin yerləşdirilməsi nəzərdə tutulurdu. Hərbi və hərbi-donanma üzrə Azərbaycan SSR Xalq Komissarlığı təşkil edildi. Quberniya və qəzalarda isə komissarlıqlar fəaliyyət göstərirdi. Qərara alındı ki, hərbi əməliyyatların davam etdiyi dövrdə Azərbaycan SSR hərbi idarəçilikdə Qafqaz Cəbhəsinin Hərbi İnqilab Şurasına və RSFSR ordusu komandanlığına tabe etdirilsin.

Hərbi-dəniz donanması da RSFSR hərbi donanması komandanlığının sərəncamına verildi. Qafqaz Cəbhəsi ləğv edildikdən sonra RSFSR və Azərbaycan SSR arasında hərbi əməkdaşlığın inkişafını sonrakı müqavilələr üzrə müəyyən etmək nəzərdə tutulurdu. RSFSR-in Xəzər dənizi donanmasının komandanı eyni zamanda Azərbaycan donanmasının da komandanı idi. Azərbaycan SSR-in hərbi donanması komandanlığının təyin edilməsi və ya vəzifədən kənarlaşdırılması RSFSR Hərbi İnqilab Şurasına həvalə edildi.

RSFSR hökuməti ilə Azərbaycan SSR hökuməti arasında ərzaq siyasətinin birləşdirilməsi haqqında da saziş imzalandı. Sazişdə Azərbaycan SSR Xalq Ərzaq Komissarlığı RSFSR-in ərzaq siyasəti prinsipi nümunəsində Azərbaycanda da çörək və digər ərzaq məhsullarının dövlət inhisarına alınması təcrübəsinin tətbiq edilməsini nəzərdə tuturdu. RSFSR Xalq Ərzaq Komissarlığı Azərbaycanı ərzaq və digər çox işlənən mallarla təmin etmək barədə bütün tədbirləri görəcəyini öhdəsinə götürdü. Təbii olaraq Azərbaycan nefti də təməmnasız Həştərxana daşınırdı. Belə ki, təkcə 1920-ci il iyun ayında 21,2 milyon pud neft və neft məhsulları göndərilmişdi. Sazişlə həmçinin Azərbaycanda ərzaq məhsullarının qiymətinin RSFSR-in Xalq Ərzaq Komissarlığı tərəfindən müəyyən edilməsi nəzərdə tutulurdu. Azərbaycan SSR Xalq Ərzaq Komissarlığında RSFSR Ərzaq Komissarlığının səlahiyyətli nümayəndəsi təmsil olunurdu. Səlahiyyətli nümayəndə iki ölkə arasında ərzaq siyasətini birləşdirməkdə səylər göstərməli idi. 1920-ci il avqustun 20-də RSFSR və Azərbaycan SSR-in dəmir yolları xidmətlərinin birləşdirilməsi haqqında razılıq əldə olunmuşdu. Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsi Azərbaycanla əldə edilmiş razılığa uyğun olaraq həmin gün Azərbaycan SSR və RSFSR dəmir yolları idarələrinin vəzifəli şəxsləri tərəfindən imzalanmış "Azərbaycan Sovet Sosialist Respublikasının dəmir yollarının idarə olunmasına dair" dekreti təsdiq etdi. Azərbaycan dəmir yolları RSFSR-in dəmir yolları qovşağına daxil edildi. Azərbaycan SSR Dəmir Yolları üzrə Xalq Komissarlığına respublikanın mənafeyinə cavab verə biləcək ümumi nəzarəti həyata keçirmək həvalə olundu. 1920-ci il 30 sentyabr müqaviləsində iki ölkə arasında əməkdaşlığı daha da dərinləşdirmək nəzərdə tutulurdu. 1920-ci il avqustun 21-də bağlanmış RSFSR və Azərbaycan SSR poçt, teleqraf, telefon və radioteleqraf sistemlərinin birgə idarə olunmasına dair razılıq sənədi 1920-ci il 30 sentyabr müqaviləsinə əlavə edilməklə xüsusi müqavilə ilə bir daha təsdiq edildi. Xalq Komissarları Şurasının poçt idarəsi hər iki respublika ərazisində əsas poçt, teleqraf və telefon rabitəsinin, həmçinin güclü radiostansiyaların yaradılmasını, beynəlxalq poçt-teleqraf əlaqələrinin inkişaf etdirilməsini nəzərdə tuturdu.

RSFSR və Azərbaycan SSR arasında bağlanmış 1920-ci il 30 sentyabr müqaviləsində göstərilirdi ki, iki respublikanın hökuməti Azərbaycanın dövlət mədaxili və məxarici smetasını xüsusi komissiyanın, RSFSR Maliyyə Komissarlığının Azərbaycan SSR hökuməti nəzdində təşkil ediləcək səlahiyyətli nümayəndəsinin iştirakı ilə hazırlayacaq və bu, RSFSR və Azərbaycan SSR Xalq Maliyyə komissarlıqları tərəfindən təsdiq ediləcəkdir. Maliyyə məsələlərinin digər sahələri üzrə Azərbaycan SSR xalq maliyyə Komissarlığı tam sərbəst qərarlar qəbul etmək hüququna malik idi. Bütün idarələr üzrə maliyyə xərclərinin icra edilməsinə nəzarət Azərbaycan SSR fəhlə-Kəndli Təftiş Komissiyasına həvalə edilirdi. Azərbaycanın məxaric xərclərini RSFSR-in hesabına ödəmək nəzərdə tutulurdu. Azərbaycanın pul nişanları yalnız respublika ərazisində və Zaqafqaziya, İran və Türküyə ilə ticarət hesablaşmalarında istifadə edilə bilərdi. Beləliklə, 1920-ci il 30 sentyabr RSFSR və Azərbaycan SSR arasındakı mehriban əməkdaşlığa əsaslanan müqavilənin nəticəsi olaraq, Azərbaycan SSR Xalq Komissarları Şurasının sədri N. Nərimanovun qeyd etdiyi kimi, Bakı nefti bütövlükdə Rusiya proletariatına verilirdi. Əvəzində Azərbaycan Rusiya bolşeviklərinin apardıqları siyasətlə erməni daşnaklarının Azərbaycana qarşı, onun ərazi bütövlüyünə qəsd edən təcavüzü ilə "mükafatlandırılırdı".

1920-ci ilin yayında yaranmış şəraitdən istifadə edən ermənilər Azərbaycanın tərkib hissəsi olan Zəngəzur, Göyçə, Qarabağ və Naxçıvanı işğal etməyə cəhd göstərdilər. İyun ayının sonlarında daşnaklar Zəngəzuru işğal edib, Naxçıvan istiqamətində irəlilədilər. Yaranmış təhlükənin qarşısını almaqdan ötrü türk qoşunları Naxçıvanı nəzarət altına aldı. Öz maraqlarından çıxış edən bolşeviklər Qızıl Ordunu erməni təcavüzünün qarşısını almaqdan ötrü Zəngəzur istiqamətinə göndərir. İyunun 6-da Gorusu tutan Qızıl Ordu hissələri ermənilərin hücumlarının qarşısını alır. Bolşeviklər Ermənistandakı daşnak hökumətini devirmək, Sovet respublikası yaratmaq məqsədilə bu ərazilərdə daha fəal siyasət yeritməyə məcbur idi. Bu məqsədlə Ermənistan ərazisində daşnak hökumətinə qarşı silahlı çıxışlar təşkil etməyə çalışırdı. Üsyanın baş tutması isə Azərbaycan üçün ağır nəti-

cələrə gətirib çıxardı. Belə ki, üsyanı yatıran daşnak hökuməti üsyançıları təqib edə-edə Qazax və Şəmkir qəzalarına soxularaq talanlar törətdi. Digər tərəfdən isə avqustun əvvəllərində müqavimətsiz Zəngəzur qəzasının bir hissəsini işğal etdi. Azərbaycanlı əhali erməni qoşun hissələri tərəfindən məcburi surətdə deportasiya edilirdi. Azərbaycan bolşevik hökumətinin fəaliyyətsizliyindən istifadə edən daşnak hökuməti Karyagin qəzası və Qarabağda erməni qiyamı qaldırılmasına nail ola bildilər. Azərbaycanın milli müqavimət hərəkatını qəddarcasına yatırmış Qızıl Ordu erməni separatizmini açıq-aşqkar dəstəkləyirdi. Ermənilərin zəbt etdikləri torpaqlar onların nəzarətində qalırdı. Azərbaycan Milli hökumətindən hakimiyyəti qəbul etmiş bolşevik hökuməti Moskvanın vədlərinə inanaraq, "beynəlmiləl" mövqedən çıxış edir, qəti tədbirlər görmürdü. 1921-ci il martın 16-da Moskvada RSFSR və Türkiyə arasında dostluq müqaviləsi bağlanılır. Müqaviləyə görə Türkiyənin şimal-şərq sərhədləri Ərdahan və Kars dairələri Türkiyə ərazisinə daxil edilməklə müəyyən edilirdi. Müqavilənin ikinci maddəsinə görə Batum şəhəri ətraf ərazilərlə birlikdə Gürcüstana, Naxçıvan vilayəti isə muxtar ərazi vahidi kimi suveren Sovet Azərbaycanının tərkibinə daxil edilirdi. Sovet-Türkiyə müqaviləsinə görə türk qoşunları aprel ayında Naxçıvan ərazisini tərk etdi. Sovet Rusiyası Türkiyə ilə Zaqafqaziya sovet respublikaları arasında müqavilə bağlanmasına fəal kömək edəcəyini öhdəsinə götürmüşdü. Rusiyanın təsir dairəsində olan Gürcüstan, Azərbaycan və Ermənistanın iştirakı ilə 1921-ci ilin sentyabrından Qarsda RSFSR nümayəndəsinin iştirakı ilə danışıqlara başladı. Danışıqlar 1921-ci il oktyabrın 13-də Qars müqaviləsinin bağlanması ilə nəticələndi. Türkiyə və Zaqafqaziya sovet respublikaları arasında bağlanmış Qars müqaviləsi 16 mart Moskva müqaviləsinə uyğun tərtib edilmişdi. Naxçıvan və digər ərazilərlə bağlı sərhəd məsələləri bir daha təsdiq edildi.

1920-ci il 28 aprel çevrilişindən sonra sovet dövlət aparatının yaradılması. Bolşevik çevrilişindən sonra Azərbaycanın ictimai və dövlət quruluşunda mövcud olmuş qaydalar ləğv edilir və yeni sovet rejiminin formalaşdırılmasına başlanılır. Azərbaycan İnqilab Komi-

təsinin 12 may dekreti ilə silki və mülki rütbələr ləğv edilirdi. Dekretdə göstərilirdi ki, bütün adlar – zadəgan, tacir, meşşan, kəndli, həmçinin titullar – bəy, xan, knyaz, qraf və mülki rütbələr – gizli müşavirlər, mülki müşavirlər və s. ləğv edilir və bütün əhaliyə Azərbaycan Respublikası vətəndaşı adı verilir. Vətəndaşlar arasında müraciət forması "yoldaş" ifadəsi ilə müəyyən edilirdi.

Dini imtiyazlar ləğv edilir, məscid və kilsə dövlətdən ayrılırdı. Mayın 15-də Azərbaycan SSR Xalq Maarif Komissarlığının verdiyi dekretlə vicdan azadlığı elan edildi. Dinə xidmət etməmək məcburi, dini etiqadı seçmək isə könüllü vəzifə sayılırdı. Dövlət məktəblərində və pullu məktəblərdə şəriət dərsləri, həmçinin məktəb daxilində hər cür dini ayinlər qadağan edilirdi.

Azərbaycan SSR-də ilk dövlət hakimiyyəti aparatı AK (b) P MK-nın elan etdiyi Müvəqqəti Hərbi İnqilab Komitəsi olmuşdur. Komitə Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetləri çağırılana qədər ali hakimiyyət funksiyasını yerinə yetirməli idi. Azərbaycan Müvəqqəti Hərbi İnqilab Komitəsinin sədri N. Nərimanov təyin edilmişdir. Azərbaycan Müvəqqəti Hərbi İnqilab Komitəsi eyni zamanda ali icraedici hakimiyyəti də özündə birləşdirirdi. Hərbi İnqilab Komitəsinin yaradılması haqqında aktda göstərilirdi ki, Azərbaycan "proletariatı" və "qabaqcıl kəndlilər ölkədə bütün hakimiyyəti bizə (Azərbaycan Müvəqqəti Hərbi İnqilab Komitəsinə) həvalə edir.

1920-ci il aprelin 28-də Azərbaycan Müvəqqəti Hərbi İnqilab Komitəsinin respublika əhalisinə müraciəti Komitənin vəzifələrini də müəyyən edirdi. Buraya Azərbaycanın fəhlə və kəndlilərini imtiyazlı siniflərin istismarından azad etmək; respublikada sosialist dəyişiklikləri etmək; Azərbaycan Sovet Respublikasını Qərbi Avropa imperialistlərinin Qazqazdakı agentlərindən qurtarmaq; Rusiya fəhlə və kəndliləri ilə dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirmək daxil edilirdi. Hərbi İnqilab Komitəsinin yarandığı vaxt onun cəmi 7 nəfər üzvü var idi. Sonralara Komitənin üzvlərinin sayı artırılaraq bütün xalq komissarları və Bakı Şəhər Soveti nümayəndələri onun tərkibinə daxil edildi. İnqilab Komitəsi bütün respublikada, ali hüquqi qüvvəyə malik olan dövlət orqanları, ictimai təşkilatlar və vəzifə-

li şəxslər tərəfindən yerinə yetirilməsi məcburi olan dekretlər və qərarlar verirdi. Dekret və qərarlar dərc olunduğu və ya aktda göstərilən vaxtda qüvvəyə minirdi. Komitənin fəaliyyətində sovet quruculuğu, mərkəzi və yerli idarəetmə orqanlarının təşkili əsas yer tuturdu. Təsərrüfatın, mədəniyyətin və inzibati-siyasi hakimiyyətin müxtəlif sahələri üzrə **icraedici orqanlar** – xalq komissarlıqları təşkil edilirdi. Azərbaycan İnqilab Komitəsinin 28 may 1920-ci il dekreti ilə xarici işlər, hərbi-dəniz donanması işləri, daxili işlər, əmək, ədliyyə, torpaq, ticarət, sənaye və ərzaq, maliyyə, maarif, səhiyyə, dövlət nəzarəti, poçt və teleqraf və yollar üzrə xalq komissarlıqları yaradılırdı. Sonralar isə xarici ticarət və xalq təsərrüfatı komissarlıqları təşkil edildi. Dövlət Nəzarəti Komissarlığı iyunun 9-dan Fəhləkəndli müfəttişliyinə çevrildi. Milliləşdirilmiş sənaye və iqtisadiyyatın digər sahələri üzrə respublikada **ali idarəçilik** orqanı olan **Xalq Təsərrüfatı Şurası** yaradıldı. Neft sənayesi müəssisələrini idarə etmək üçün Azərbaycan neft komitəsi təşkil edildi. Xalq komissarlıqlarının fəaliyyətinə rəhbərlik ali qanunverici və icraedici hakimiyyətə malik olan Azərbaycan İnqilab Komitəsinə məxsus idi. 1920-ci il avqustun 27-də yaradılmış Xalq Komissarları Sovetinin Kiçik Şurası Hərbi İnqilab Komitəsində müzakirə ediləcək məsələləri qabaqcadan hazırlayaraq təqdim edirdi. Kiçik Şuranın sədri onun üzvləri tərəfindən seçilir və Hərbi İnqilab Komitəsi tərəfindən təsdiq edilirdi. Xalq Komissarları Sovetinin Kiçik Şurasının sədri, Fövqəladə Komissiya, Ali İnqilab Tribunalı və respublikanın hərbi-səhra məhkəməsi İnqilab Tribunalına daxil idi. Kiçik Şuranın iclasında bütün maliyyə məsələləri və İnqilab Komitəsinə təqdim ediləcək digər mühüm məsələlər müzakirə edilirdi. Onun qəbul etdiyi qərarlar aidiyyəti komissarlığın razılığı ilə təsdiq edilmək üçün Azərbaycan Hərbi İnqilab Komitəsinə göndərilirdi. Komitənin təsdiqindən sonra qərar akt qüvvəsində Hərbi İnqilab Komitəsi adından dərc edilirdi. Mərkəzi idarəçilik orqanlarında Daxili İşlər Komissarlığının (XDİK) xüsusi yeri var idi. Hərbi İnqilab Komitəsi Daxili İşlər Komissarlığı vasitəsilə bütün respublikada inzibati idarəçiliyi yerinə yetirirdi. XDİK-in şəhər və qəzalarda yerli orqanları mövcud olmuşdur. Onun

vəzifələrinə yerlərdəki hakimiyyəti təşkil etmək, idarəçilik aparatını mərkəzləşdirmək və onlara nəzarət etmək daxil idi. Tədricən Azərbaycan iqtisadiyyatının bu və ya digər sahələrinin idarə olunması bilavasitə Moskvanın nəzarəti ilə həyata keçirilirdi. Belə ki, 1920-ci ilin 30 sentyabrında RSFSR və Azərbaycan SSR arasında bağlanmış müqaviləyə görə idarə etmədə birləşdirmə siyasəti həyata keçirilmiş və birləşdirilmiş orqanların fəaliyyətinə nəzarət etmək Ümumrusiya Sovetlər qurultayına və Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsinə tapşırılmışdı. 1921-ci ilin əvvəllərindən yaradılmış Ali İqtisadi Şura Moskva ilə birlikdə respublika ərazisində iqtisadiyyatı koordinasiya edirdi. Ali İqtisadi Şuranın tərkibinə Xalq Təsərrüfatı Şurası və Neft Komitəsinin sədri, xarici ticarət, yollar, ərzaq, torpaq işləri komissarları, həmkarlar təşkilatı nümayəndəsi, əmək komitəsi və sənaye müşavirəsi sədrləri, Cənub-Şərqi Rusiya sənaye bürosunun nümayəndəsi və RSFSR xarici ticarət komissarlığının səlahiyyətli nümayəndəsi daxil idi. Azərbaycan Hərbi İnqilab Komitəsinin sədri Ali İqtisadi Şuranın sədrini, iki müavinini təyin edir və Şuranın təqdimatı ilə aidiyyəti orqanların səlahiyyətli nümayəndələrini təsdiq edirdi. Azərbaycan SSR Xalq Komissarları Soveti RSFSR-in təcrübəsindən istifadə edərək mülkədar torpaq sahibliyini ləğv etdikdən, onların siyasi və iqtisadi hakimiyyətini mənimsədikdən sonra nisbətən varlı kəndlilər olan qolçomaqların bir qüvvə kimi mövcud olmasından bərk narahat olmaqla alternativ olaraq kənddə inqilab komitələrini əvəz edən, müvəqqəti hakimiyyət orqanları olan yoxsul komitələrini yaratmaq vəzifəsini irəli sürdü.

28 aprel çevrilişindən sonra Sovet hakimiyyətinin **yerli orqanları kənd, nahiyə və qəza inqilab komitələri** olmuşdu. Kənd inqilab komitələri 300 nəfərdən az əhalisi olmayan kəndlərdə, nahiyə inqilab komitələrinin təqdimatı ilə qəza komitəsi tərəfindən təsdiq edilmiş sədrdən və iki nəfər üzvdən ibarət olmaqla yaradılırdı. Kənd inqilab komitələri öz ərazilərində tam hakimiyyət orqanı kimi fəaliyyət göstərirdi. Onlar yuxarı hakimiyyət orqanlarının qərar və göstərişlərini icra edir, kənddə sovetləşmə işini təşkil edirdi. Kənd inqilab komitələrinin öz şöbələri mövcud olmamışdır. Lakin zərurət yaran-

dıqda, onlara bu və ya digər təsərrüfat məsələlərini həll etmək üçün komissiya yaratmağa icazə verilirdi. Nahiyə inqilab komitələri qəza inqilab komitələrinin təqdimatı ilə daxili işlər xalq komissarlığı tərəfindən təsdiq edilən sədrdən və iki nəfər üzvdən ibarət idi. Qəza inqilab komitəsinin nəzarəti və razılığı ilə nahiyə inqilab komitələri yerli əhəmiyyət kəsb edən bütün məsələləri həll edirdi. Nahiyə inqilab komitəsi inzibati şöbədən, xalq maarifi, torpaq, təminat və hərbi bölmələrdən ibarət idi.

Azərbaycan Hərbi İnqilab Komitəsi tərəfindən təyin edilən qəza inqilab komitələrinin üzvləri sədrdən, sədr müavinindən və bir nəfər katibdən təşkil edilirdi. Qəza inqilab komitəsinin tərkibinə qəza hərbi komissarı və inqilab şurasının siyasi şöbəsinin rəisi daxil idi. Qəza inqilab komitələri qəzalarda tam hakimiyyətə malik olmaqla nahiyə və kənd inqilab komitələrinə rəhbərlik edir, təsərrüfat və mədəni quruculuğu həyata keçirirdi. Qəza şöbələri inzibati, torpaq, ərzaq, əmək, xalq maarifi, səhiyyə və digər sahələr üzrə fəaliyyət göstərirdi.

Azərbaycan Hərbi İnqilab Komitəsi 1920-ci il sentyabrın 23-də **kənd yoxsul komitələrinin** təsis edilməsi haqqında dekret verdi. Özünəməxsus **idarəetmə orqanı** olan kənd yoxsul komitələri sədrdən və dörd nəfər üzvdən təşkil edilirdi. Kənd sovetlərinin mövcud olduğu Bakı qəzası istisna olmaqla, 2-3 ay ərzində yoxsul komitələri bütün Azərbaycan kəndlərində yaradılmalı idi. Kənd və nahiyə yoxsul komitələri yaradıldıqdan sonra **yerli inqilab komitələri** ləğv olunurdu. Lakin qəzalarda inqilab komitələri saxlanılmışdı. Kənddə dövlət aparatı vəzifəsini icra edən yoxsul komitələri proletar diktaturası orqanı kimi hökumətin ərzaq və torpaq proqramlarını həyata keçirirdi. 1920-ci il 29 noyabr dekreti ilə Azərbaycan Hərbi İnqilab Komitəsi yoxsul komitələrinə seçilmək və seçkidə iştirak etmək hüququnu yalnız kənd yoxsullarına və ortabablara verilən müstəsna hüquq kimi müəyyən olunurdu. Azərbaycan kəndlərində sovetlərin möhkəmlənməsində yoxsul komitələrinin böyük rolu olmuşdur.

1920-ci il aprelin 28-də hakimiyyətə yiyələnmiş bolşeviklər legitim strukturların yaradılmasına çalışaraq Bakı Sovetinə seçkilər keçirməyi qərara aldılar. Seçkiləri keçirmək üçün mərkəzi və rayon

seçki komissiyaları yaradılırdı. Belə komissiyalar hərbi hissələrdə, hərbi dəniz və ticarət donanmalarında təşkil edilirdi. 1920-ci il mayın 13-də Mərkəzi Seçki Komissiyası Bakıda fəhlə, Qızıl Ordu və Matros Deputatları Sovetinə seçkilər üzrə təlimatı dərc etdi. Təlimata görə dinindən, milliyyətindən, cinsindən, təbəəliyindən, peşəsindən asılı olmayaraq 18 yaşına çatmış Bakı və onun rayonlarının seçiciləri, həmçinin hərbi hissə, dəniz və ticarət donanması matros və qulluqçuları seçkilərdə iştirak etmək hüququ əldə edirdilər. Bolşevik hökuməti əhalinin müəyyən qrupunu seçki hüququndan məhrum edirdi. Qeyri-demokratik seçki sistemi zəhmətkeş olmayan "ünsürləri"n adi vətəndaşlıq hüquqlarının yerinə yetirilməsinə mane olaraq onları seçkidə iştirak etməkdən məhrum etməyə yol verirdi. Maddi gəlir əldə etmək məqsədi ilə muzdlu əməklə məşğul olanlar, zəhmətsiz gəlir hesabına yaşayan şəxslər, xüsusi alverçilər, ticarət və kommersiya vasitəçiləri və s. zəhmətkeş olmayan ünsürlər seçki hüququndan məhrum edilirdi.

Bakı Sovetinə seçkilər birbaşa keçirilirdi. Açıq səsvermə ilə keçirilən seçkilərin qaydalarına görə 50 nəfərdən 100 nəfərə qədər olan müəssisələr bir nəfər deputat, 100 nəfərdən çox işçiləri olan müəssisələr hər 100 nəfərə bir deputat; hər 200 nəfər əsgər və matrosa bir nəfər deputat, dəniz ticarət donanması üzrə 50 nəfərdən 100 nəfərə qədər qulluqçusu olan donanma bir nəfər deputat müəyyən etməli idi. 50 nəfərdən az işçisi olan müəssisələr birləşmiş yığıncaqlarda öz nümayəndələrini seçirdilər. Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinə seçkilər 1920-ci il mayın 25-29-da keçirildi. Bakı Sovetinin tərkibinə cəmi 455 deputat seçildi. Onlardan 85,3%-ni fəhlə və qulluqçular, 8,7%-ni Qızıl Ordu qulluqçuları, 6%-ni isə matroslar təşkil edirdi. Bakı Soveti tərkibinə 11 nəfər qadın da seçildi. Bakının mədən-zavod ərazilərində Balaxanı, Suraxanı, Biləcəri, Ağşəhər, Qaraşəhər, Liman-dəniz, Zavağzal, Bayıl-Bibiheybət və Zığ rayon sovetləri yarandı. Bakı Sovetinin ilk sessiyası 1920-ci il iyunun 13-də keçirildi. Sessiyada Fəhlə, Əsgər və Matros Deputatları sovetinin 50 nəfərdən ibarət İcraiyyə Komitəsi və onun 9 nəfərdən ibarət Rəyasət Heyəti müəyyən edildi. Bakı şəhər İcraiyyə Komitəsinin sədri

A.H. Qarayev seçildi. Bakı şəhər İcraiyyə Komitəsinin təsərrüfatın və mədəniyyətin müxtəlif sahələri üzrə 13 şöbəsi, o cümlədən əmək və sosial təminat, səhiyyə, mənzil, maarif, fəhlə-kəndli müfəttişliyi şöbələri yaradıldı. Rayon şöbələri öz fəaliyyətlərində icraiyyə komitəsinə və rəyasət heyətinə, eyni zamanda Bakı Soveti icraiyyə və ya xalq komissarlığına tabe etdirilmişdi. Bolşevik rejiminin dayaqları olan sovetlər "sinfi düşmənlərinə" qarşı mübarizədə zəhmətkeşlərin qüvvələrini birləşdirməli, dövlət quruculuğuna fəal yardım göstərməli idi. Proletar diktaturasının dövlət orqanı kimi Bakı Soveti Azərbaycanda dövlət hakimiyyəti strukturlarında xüsusi yer tuturdu. Fəhlə sinfinin və ictimai-siyasi həyatın fəaliyyətində rəhbər rola malik Bakı Sovetinin çox geniş səlahiyyətləri mövcud olmuşdur. Belə ki, AKP MK-nın 1920-ci il 4 iyul sovet quruculuğu məsələlərinə dair qətnaməsində göstərilirdi ki, Azərbaycan SSR xalq komissarları öz fəaliyyətlərində inqilab komitəsi ilə yanaşı, Bakı Soveti və onun İcraiyyə Komitəsi qarşısında məsuliyyət daşıyır və hesabat verməyə borcludurlar. Bakı Soveti xalq komissarlarının fəaliyyətinə nəzarət edir, onların hesabatını qəbul edirdi. Belə ki, oktyabr ayında Torpaq Məsələləri üzrə Xalq Komissarlığının hesabatını dinləyən Bakı Soveti dərhal kənddə də aqrar islahatları gücləndirməyi tələb etdi. Həmin ay Bakı Soveti Xarici İşlər Xalq Komissarlığının məruzəsini dinləyərək Azərbaycan SSR xarici siyasət kursunu bəyəndiyini bildirdi. 1920-ci ilin dekabrında Bakı Soveti və Bakı Mədən-Zavod rayon Sovetinə ikinci çağırış seçkilər keçirildi. Eyni zamanda Respublika qəzalarında inqilab komitələrini və yoxsul komitələrini əvəz edəcək legitim orqanlar olan kənd sovetlərinə seçkilər təyin edilmişdir.

Seçkilər "Fəhlə, Əsgər, Matros və Kəndli Deputatları Sovetinə Bakı şəhəri və Bakı qəzası üzrə seçki təlimatı"na uyğun aparılırdı. "Təlimat" aşağıdakı nümayəndəliyi müəyyən edirdi: Bakı Sovetinə 250-500 seçici bir deputat, mədən-zavod rayonları 100 nəfər seçiciyə bir deputat, lakin 50 deputatdan çox olmayaraq, mədən-zavod seçiciləri ilə birləşmək istəyən Bakı kəndləri fəhlələri 50 nəfərə bir deputat, kəndlilər isə 100 nəfərə bir deputat seçə bilərdilər. Bakı Sovetinə ikinci çağırış üzrə keçirilmiş seçkilərdən sonra ilk sessiya

1920-ci ilin 7 dekabrında toplandı. Yeni çağırışın ilk iclasında 34 nəfərdən ibarət İcraiyyə Komitəsi və 9 nəfər Rəyasət Heyəti təsdiq edildi. Eyni zamanda Bakı şəhəri Rəyasət Heyətinin üzvü olan 15 nəfər üzv və iki namizəd müəyyən olundu. **Bakı Sovetinin 1920-ci il 25 dekabr iclasında konstitusiya** qəbul edildi. Konstitusiya Bakı şəhərinin və Bakı rayon sovetlərinin hüquqi statusunu müəyyən edirdi. Konstitusiyaya görə Bakı Soveti kütləvi nəzarət orqanı kimi fəaliyyət göstərirdi. Bütün xalq komissarları ona hesabat verməli idilər. Bakı Soveti Bakı və keçmiş Bakı qəzasında yeganə hakimiyyət orqanı idi. Konstitusiya Bakı Sovetinin respublikanın digər hakimiyyət strukturları ilə əlaqələrini də müəyyən edirdi. Konstitusiyaya görə, Bakı şəhəri və fəhlə rayon sovetlərinin əsas fəaliyyətinin təşkilatı forması deputatların ümumi yığıncağı olan **plenumlar** olmuşdur. Plenumlarda təsərrüfatın və siyasətin ən mühüm məsələləri həll edilir, İcraiyyə və Rəyasət Heyətinin hesabatları dinlənilirdi. Bakı Sovetinin plenumları arasındakı dövrdə İcraiyyə Komitəsi bütünlüklə hakimiyyət strukturlarına rəhbərlik edirdi. İcraiyyə komitələri Bakı Sovetinə və Rəyasət Heyətinə tabe idilər. İcraiyyə orqanları təsərrüfatın və mədəniyyətin ayrı-ayrı sahələrinə rəhbərlik edirdilər. Müvafiq komissarlar onun qarşısında hesabat verirdi.

Qəzalarda yoxsul komitələrini əvəz edə biləcək sovetlərə seçkilər 1921-ci ilin yanvarında keçmiş Bakı qəzasının Xızı, Saray, Kalinin və Məştağa nahiyələrində keçirildi. Qurultaya toplaşan nümayəndələr 60 nəfər nümayəndəni Bakı Sovetinə, 6 nəfəri isə İcraiyyə Komitəsinə seçdi. Qurultaydan sonra seçilmiş nümayəndələrin də iştirakı ilə Bakı Sovetinin birləşmiş plenumu keçirildi.

1921-ci ilin yazından başlayaraq artıq Azərbaycan qəzalarında fəhlə və kəndli deputatları sovetlərinə kütləvi keçmək üçün tədbirlər nəzərdə tutulurdu. Bolşevik rejimi kənddə öz dayaqlarını yaratmaq üçün kənd əhalisini sovet quruculuğu adlanan tədbirə cəlb etməklə kütləvi hüquq pozuntularına səbəb olan sinfi mübarizə adı ilə əhalinin varlı hissəsindən əmlakı müsadirə etməyə hazırlaşırdı. Fövqəladə orqanlar kimi yaradılmış kənd və yoxsul komitələrindən əhalinin narazılığı daim artmaqda idi. Ərzaq diktaturasının yaradılması, yox-

sul komitələrinin vasitəsi ilə ekspedisiyaların göndərilməsi, ərzaq saplağının tətbiqi və bütün bu kimi tədbirlər kənd əhalisinin əmlakının talanması ilə nəticələnirdi. İnqilab Komitəsi vəziyyətdən çıxmaqdan ötrü müxtəlif üsullar axtarırdı.

Rusiya Kommunist (bolşevik) Partiyasının tapşırığı əsasında fəaliyyət göstərən AK (b) MK 700 nəfərə qədər nümayəndəsini kənd sovetinə seçkilərə hazırlıq görmək məqsədilə qəzalara göndərdi. Kənd əhalisi arasında təbliğat aparan bolşeviklər əhaliyə yağlı vədlər verir, dövlətin idarə olunmasında sovetlər vasitəsi ilə onların yaxından iştirak edəcəklərini, iqtisadi sabitliyə nail olmaqla isə kəndlilərin güzaranını yaxşılaşdıracaqlarını bildirdilər.

1921-ci ilin mayından başlayaraq 30 min deputatı əhatə edən 1400-ə yaxın kənd soveti seçildi. Naxçıvanda isə yerli çətinliklər nəzərə alınmaqla seçkilər 1921-ci ilin sonlarında keçirildi. Kənd sovetlərinə seçilənlərin 50-60 faizini yoxsullar, 20-30 faizini isə ortabablar təşkil edirdilər.

Azərbaycan SSR-in ilk konstitusiyası. Dövlət quruculuğunun konstitusion əsasları. Azərbaycanın qəzalarında kənd sovetlərinə seçki kompaniyası başa çatdıqdan sonra bolşevik rejimi Sovetlər qurultayını keçirməyə hazırlaşırdı. 1921-ci il mayın 6-da Bakıda Azərbaycan SSR-in Fəhlə, Kəndli, Əsgər və Matroslar Sovetinin birinci qurultayı keçirildi. I Sovetlər qurultayında 582 nümayəndə həlledici, 8 nümayəndə məşvərətçi səslə iştirak edirdi. Qurultay zəhmətkeşlərin tam səlahiyyətli orqanı idi. Nümayəndələrin 321 nəfəri azərbaycanlı, 75 nəfəri rus, 21 nəfəri erməni və digər millətləri təmsil edirdi. Qurultayın ilk iclasında N. Nərimanov hökumətin fəaliyyəti və beynəlxalq vəziyyəti haqqında məruzə etdi. RSFSR nümunəsi əsasında hazırlanan Azərbaycan SSR-in ilk konstitusiyası qurultayın müzakirəsinə verildi. 1921-ci il mayın 19-da I Sovetlər qurultayı Azərbaycan SSR-in ilk konstitusiyasını təsdiq etdi. Xalq daxili işlər komissarı H. Sultanov Azərbaycan SSR Konstitusiyasının layihəsini qurultay iştirakçılarına təqdim etdi. Bolşevik rejimi tərəfindən qəbul edilməsinə baxmayaraq, ilk konstitusiya Azərbaycan xalqının tarixində əlamətdar bir hadisə idi. Azərbaycan SSR-in 1921-ci il konsti-

tusiyası V bölmədən, 15 fəsildən və 104 maddədən ibarət idi. Birinci bölmə 14 maddədən ibarət olmaqla Azərbaycan SSR Konstitusiyasının ümumi əsaslarını müəyyən edirdi. Sovet quruculuğu məsələlərini özündə birləşdirən ikinci bölmə (15-78-ci maddələr) 9 fəsildən ibarət idi. Bu bölmənin II fəsli Azərbaycan Sovetlər qurultayından, III fəsli Azərbaycan Mərkəzi İcraiyyə Komitəsindən, IV fəsli Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətindən, V fəsli Azərbaycan Sovetlər qurultayının və Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərindən, VI fəsli Xalq Komissarları Sovetinin səlahiyyətlərindən, VII fəsli Sovetlər qurultayından, VIII fəsli İcraiyyə Komitəsinin Rəyasət Heyətindən, IX fəsli icraiyyə komitələrindən, X fəsli yerli sovet orqanlarından bəhs edirdi. Üçüncü bölmənin (79-93-cü maddələr) XI fəsli aktiv və passiv seçki hüququndan, XII fəsli seçkilərin keçirilməsindən, XIII fəsli seçkilərə nəzarət və deputatların geri çağırılmasından, dördüncü bölmə (94-102-ci maddələr) büdcədən (XIV fəsil) və nəhayət beşinci bölmə (103-104-cü maddələr) Azərbaycan SSR-in (XV fəsil) gerb və bayrağından bəhs edirdi.

Konstitusiyaya görə ləğv edilmiş Azərbaycan Hərbi İnqilab Komitəsi əvəzinə yeni hakimiyyət strukturları yaradılırdı. Azərbaycan Sovet Sosialist Respublikasında **ali qanunverici** orqan Fəhlə, Kəndli, Əsgər və Matros Deputatları Sovetinin qurultayı idi. Qurultaylararası dövrdə qurultay tərəfindən seçilmiş Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi ali qanunverici və nəzarət orqanı kimi fəaliyyət göstərirdi. Azərbaycan MİK 73 nəfər üzvdən və 26 nəfər namizəddən təşkil edilirdi. I Azərbaycan Sovetlər qurultayında MİK sədri M. Hacıyev, onun müavini isə S. Ağamalı oğlu seçildi. Azərbaycan MİK Rəyasət Heyətinin tərkibinə N. Nərimanov, M. Hacıyev, S. Ağamalı oğlu, T. Hüseynov, Ə.H. Qarayev, M.B. Qasımov, M. Pleşakov, İ. Konuşkin daxil oldu.

Azərbaycan SSR Konstitusiyasına görə **ali icraedici** hakimiyyət orqanı Xalq Komissarları Soveti idi. İcraedici orqan olan XKS Sovetlər qurultayı və Azərbaycan MİK qarşısında məsul olmaqla ona hesabat verirdi. Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə 17 nəfər xalq komissarı daxil idi. Qurultayda Xalq Komissarları

Sovetinin sədrliyinə N. Nərimanov, xarici işlər komissarı vəzifəsinə M.D. Hüseynov, hərbi və dəniz işləri komissarı vəzifəsinə Ə.H. Qarayev, torpaq komissarı vəzifəsinə S.M. Əfəndiyev, daxili işlər komissarı vəzifəsinə H. Sultanov, maarif komissarı vəzifəsinə D. Bünyadzadə seçildi.

1921-ci il konstitusiyasına görə ali qanunverici və icraedici orqanların səlahiyyətləri. Azərbaycan Konstitusiyasının 15-ci maddəsinə görə Ümumazərbaycan Sovetlər qurultayına nümayəndələr, bütün şəhər sovetləri üzrə hər 1000 nəfərə bir nümayəndə, qəza sovetləri üzrə isə 5000 nəfərə bir nümayəndə olmaqla seçilirdi. Azərbaycan MİK Həyasət Heyətinin 1924-cü il 11 oktyabr qərarı ilə Ümumazərbaycan Sovetlər qurultayı üçün yeni nümayəndəlik müəyyən edilirdi. Belə ki, fəhlələr arasından hər 1250 nəfərə, kəndlilərdən isə 7500 nəfərə bir nümayəndə seçilirdi.

1921-ci il mayın 6-dan 19-na qədər davam etmiş birinci Ümumazərbaycan Sovetlər qurultayında 562 nümayəndə, 1922-ci il aprelin 28-dən mayın 5-ə qədər davam etmiş ikinci qurultayından 590, 1923-cü il 25 noyabrından dekabrın 1-nə qədər davam etmiş üçüncü qurultayında 402, 1925-ci il martın 10-dan 16-dək davam etmiş dördüncü qurultayında isə 655 nümayəndə iştirak etmişdir.

Ümumazərbaycan sovetlər qurultayına seçkilər əhalinin xeyli hissəsini seçki hüququndan məhrum edirdi. Belə ki, zəhmətkeş əhalinin iştirakını nəzərdə tutan seçki təlimatı əsasən fəhlə və kəndlilərin nümayəndə seçilməsinə şərait yaradırdı. IV Ümumazərbaycan Sovetlər qurultayında 223 fəhlə, 180 kəndli və 252 qulluqçu təmsil olunmuşdu.

Seçki sisteminə görə qadınlara seçki hüququ verilirdi. I Ümumazərbaycan Sovetlər qurultayında 3 nəfər qadın, üçüncü qurultayda 25, dördüncü qurultayda isə 59 qadın nümayəndə iştirak edirdi.

Konstitusiya ali qanunverici orqan olan Ümumazərbaycan Sovetlər qurultayının çağrılmasını 17-ci maddə ilə tənzim edirdi. Ali qanunverici orqan ildə iki dəfədən az olmayaraq toplanmalı idi. Lakin qurultayları yaranmış şəraitlə əlaqədar olaraq ildə iki dəfə çağırmaq mümkün olmamışdır. Konstitusiyanın 18-ci maddəsi respublika əhalisinin üçdə birinə bərabər sayda olan sovetlərin tələbi və ya Azər-

baycan MİK təşəbbüsü ilə fövqəladə Ümumazərbaycan Sovetlər qurultayını çağırmağı mümkün hesab edirdi. Birinci konstitusiyanın qüvvədə olduğu 1921-1925-ci illər ərzində fövqəladə qurultay çağırılmamışdır.

Ali qurultayın iclaslarını aparmaq üçün seçilmiş Rəyasət Heyəti müəyyən edilirdi. Nümayəndələrin səlahiyyətli olmasını müəyyən etmək üçün qurultay mandat komissiyasını seçirdi. Qurultayın reqlamenti iclasın müddətini, məruzə və çıxışların, növbədənkənar sorğu və bəyanatların verilməsinin qaydasını müəyyən edirdi.

Qətnamə və qərarlar açıq səsvermə yolu ilə keçirilirdi. Sovetlər qurultayının son qətnaməsini hazırlayıb qəbul etmək üçün redaksiya komissiyası yaradıldı. Bolşevik qurultayları ilk mərhələlərdə çox fəal keçirilir, nümayəndələr müzakirələrdə fikirlərini sərbəst söyləyə bilirdilər. Kommunist fraksiyası qurultayın işinə böyük təsir edə bilirdi.

1921-ci il Konstitusiyasının 19-cu maddəsi Azərbaycan SSR MİK üzvlərinin və namizədlərin sayını müəyyən edirdi. İkinci Ümumazərbaycan Sovetlər qurultayında MİK tərkibi artırılaraq 95 üzv və 35 namizəd, üçüncü qurultayda 115 üzv və 37 namizəd və dördüncü qurultayda 159 üzv və 27 namizədə çatdırılmışdı.

Azərbaycan SSR MİK sədri hər çağırışda yenidən seçilir və ya təsdiq edilirdi. 1922-ci ildən 1929-cu ilə qədər MİK sədri bolşevik partiyasının nümayəndəsi S.A. Ağamalı oğlu olmuşdur. Azərbaycan MİK öz işini sessiyalarla aparırdı. MİK hər iki aydan bir Həyasət Heyətinin çağırdığı iclaslara toplanırdı. Lakin reqlamentdə nəzərdə tutulduğundan az toplanan MİK birinci çağırışdan sonra cəmi 3 dəfə, ikinci çağırışdan sonra 4 dəfə, üçüncü çağırışdan sonra 5 dəfə iclas etmişdi.

IV Ümumazərbaycan Sovetlər qurultayında MİK iclaslarını hər 3 aydan bir keçirmək qərara alındı. MİK fövqəladə iclasları Rəyasət Heyətinin təşəbbüsü ilə onun üzvlərinin üçdə birinin tələbi və ya Xalq Komissarlar Sovetinin təklifi ilə çağırılırdı.

Azərbaycan MİK-in sessiyasının iclaslarında səsvermə açıq və sadə səs çoxluğu ilə keçirilirdi. MİK-in sessiyasında iştirak etməyən üzvləri iclasın keçirildiyi müddətdə üzvlüyə namizədlər əvəz edirdi. MİK-in üzvlərinin yarıdan çoxunun iştirak etdiyi iclaslar səlahiyyətli sayılırdı.

Qanun layihələrinin ilkin müzakirəsi və baxılması üçün, habelə respublika idarəçiliyinin ayrı-ayrı sahələri üzrə yaranmış vəziyyətlə tanış olmaqdan ötrü MİK öz üzvləri arasından komissiya təşkil edirdi. Azərbaycan SSR müstəqil olan dövrlərdə, yəni ZSFSR-in və SSRİ-nin tərkibinə daxil olana qədər MİK-in aşağıdakı komissiyaları mövcud olmuşdur: 1) xarici işlər üzrə; 2) hərbi və hərbi-dəniz donanması işləri; 3) daxili işlər; 4) ədliyyə və qanunvericilik işləri; 5) əmək və sosial təminat; 6) maarif; 7) maliyyə; 8) torpaq; 9) daxili və xarici ticarət; 10) ərzaq və nəhayət; 11) xalq təsərrüfatı.

Azərbaycan SSR ZSFSR-in tərkibinə daxil olduqdan sonra respublikanın səlahiyyətlərində, o cümlədən komissiyalarda dəyişiklik edildi. ZSFSR tərkibində SSRİ-yə daxil olan Azərbaycan SSR-in xarici ticarət, müdafiə və xarici siyasət sahəsindəki səlahiyyətləri müstəsna olaraq İttifaqın səlahiyyətlərinə daxil edilirdi.

Komissiyaların səlahiyyətlərinə aidiyyəti üzrə qanun layihələrini müzakirə etmək, müvafiq komissarlıqların işləri ilə tanış olmaq, mərkəzi və yerli orqanlarla iş aparmaq daxil idi. Komissiyalar öz aralarından sədri, onun müavinini və katibi seçirdilər.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi haqqında "Əsasnamə"də onun üzvlərinin vəzifə və hüquqları tənzim edilirdi. Üç dəfədən artıq MİK iclaslarında üzrsüz səbəbdən iştirak etməyənlər onun sıralarından kənarlaşdırılırdı.

MİK-in üzvlərinin hüquqları çox geniş idi. Onlar şəxsi toxunulmamazlıq statusuna malik idilər. Yalnız MİK sədri və ya Rəyasət Heyətinin qərarı ilə üzvləri həbs etmək olardı. Sovet hakimiyyətinin yerli orqanlarının və ictimai təşkilatların iclaslarında məşvərətçi səslə iştirak edən MİK üzvləri qeyri-qanuni hesab etdikləri qərarlara və işlərə yenidən baxılması barədə yuxarı instansiyalar qarşısında məsələ qaldıra bilər, həmçinin bütün idarələr və ictimai təşkilatlardan lazımi məlumat və arayış tələb edə bilərdilər.

Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının V fəsli Ümumazərbaycan Sovetlər qurultayının səlahiyyətlərini müəyyən edirdi. Konstitusiyanın 32-ci maddəsi qurultayın və MİK-in səlahiyyətlərinə daxil olan ümumdövlət əhəmiyyətli məsələləri göstərirdi: Azər-

baycan SSR Konstitusiyasını təsdiq etmək; onda dəyişiklik və əlavələr etmək; daxili və xarici siyasətə rəhbərlik etmək; xarici dövlətlərlə əlaqələr yaratmaq; müharibə elan etmək və sülh bağlamaq; sərhədləri müəyyən etmək və dəyişdirmək; respublikanın inzibati ərazi-vahidlərini müəyyən etmək.

Ümumazərbaycan Sovetlər qurultayının və MİK-in səlahiyyətlərinə təsərrüfat xarakterli aşağıdakı məsələlər də daxil edilirdi: respublika ərazisində xalq təsərrüfatının və onun müxtəlif sahələrinin əsas və ümumi inkişafının istiqamətlərini müəyyən etmək, Azərbaycan SSR büdcəsini təsdiq etmək; ümumdövlət vergi və mükəlləfiyyətləri təyin etmək; ölçü, çəki sistemini və pul nişanlarını müəyyən etmək və ya dəyişdirmək; maliyyə, gömrük, ticarət və borc müqavilələri bağlamaq; hərbi qüvvələrin tərkibini müəyyən etmək.

Azərbaycanın ali qanunverici orqanı olan Ümumazərbaycan Sovetlər qurultayı məhkəmə və məhkəmə quruculuğunu təşkil etmək, mülki və cinayət qanunvericiliyini təsdiq etmək, ümumi qərarlarla vətəndaşlığı əldə etmək və ya itirmək qaydasını təyin etmək, respublika ərazisində yaşayan əcnəbilərin hüquqi statusunu müəyyən etmək, ümumi və fərdi amnistiya tətbiq etmək hüququna malik idi.

Ali qanunverici orqan olan qurultay Xalq Komissarları Sovetinin tərkibini təsdiq edir və ya ayrı-ayrı komissarları vəzifədən kənarlaşdırırdı. Konstitusiyanın 33-cü maddəsi Ümumazərbaycan Sovetlər qurultayının müstəsna hüququna konstitusiya əsaslarında dəyişiklik etməyi və sülh müqavilələrini təsdiq etməyi aid edirdi. Digər məsələlərdə Ümumazərbaycan qurultayını çağırmaq mümkün olmadıqda, səlahiyyətlər Azərbaycan SSR MİK-nə verilirdi. Sərhədlərin müəyyən edilməsi və dəyişdirilməsi, respublika ərazisini özgəninkiləşdirmək, xarici dövlətlərlə əlaqələr yaratmaq, müharibə elan etmək və sülh bağlamaq MİK-ə həvalə edilirdi.

Siyasi və iqtisadi sahədə ümumi normalar müəyyən etmək, həmçinin dövlət orqanlarının strukturunda əsaslı dəyişikliklərə səbəb olan bütün dekretləri hazırlamaq MİK-in səlahiyyətlərinə daxil idi. Xalq Komissarları Sovetinin ümumi siyasi əhəmiyyət kəsb edən qərarları MİK tərəfindən təsdiq olunmalı idi.

Azərbaycan MİK Xalq Komissarları Sovetinin, ayrı-ayrı komissarların, yerli Sovetlər qurultayının, onların icraiyyə komitələrinin və rəyasət heyətlərinin qərar və sərəncamlarını dayandıra və ləğv edə bilərdi. MİK birbaşa yerli orqanların icraiyyə komitələrinə və rəyasət heyətlərinə göstəriş vermək səlahiyyətinə malik idi.

Ali mərkəzi icraedici orqan olan Xalq Komissarları Sovetinin ilk sədri N. Nərimanov olmuşdur. ZSFSR yaradıldıqdan sonra irəli çəkilən N. Nərimanovu 1922-1928-ci illərdə Q. Musabəyov əvəz etmişdi. Azərbaycan SSR XKS respublika büdcəsini hazırlayaraq MİK-ə təqdim edirdi. Onun səlahiyyətlərinə qərar və sərəncamlar vermək, müxtəlif təlimatlar və normalar hazırlamaq daxil idi.

Azərbaycan SSR MİK-in Rəyasət Heyətinin 1921-ci il 18 iyun qərarı ilə XKS-in səlahiyyətlərinə daxil olan məsələlər müəyyən edilirdi. XKS dövlət idarəçiliyi aktları ilə yanaşı, qanunverici aktlar da vermək hüququna malik idi. Xalq Komissarları Soveti Ali İqtisadi Şuranın qərarlarından edilən şikayət və təklifləri, ayrı-ayrı xalq komissarlarından daxil olan etirazları, xalq komissarlıqlarının öz aralarında yaranan mübahisəli məsələləri aydınlaşdırırdı.

MİK-in Rəyasət Heyətinin 18 iyun qərarında göstərilirdi ki, XKS-i ümumdövlət əhəmiyyətli dekret vermək, öz tabeliyində olan ayrı-ayrı idarələri təlimatlandırmaq üçün müxtəlif qərar və sərəncam hazırlamaq hüququna malik idi. Lakin bütün dekret, qərar və sərəncamların surəti Azərbaycan SSR MİK-ə göndərilməli idi. Daha əhəmiyyətli dekretləri isə Azərbaycan SSR MİK təsdiq edirdi.

Bütün fəaliyyəti dövründə XKS Ümumazərbaycan Sovetlər qurultayı və Mərkəzi İcraiyyə Komitəsi qarşısında məsuliyyət daşıyırdı. Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasına görə respublikada 17 xalq komissarlığı təşkil edildi. Buraya xarici işlər, hərbi və hərbi-dəniz işləri, daxili işləri, ədliyyə, əmək, sosial təminat, maarif, poçt və teleqraf, maliyyə, yollar, torpaq, xarici ticarət, ərzaq, səhiyyə, fəhlə-kəndli müfəttişliyi, Xalq Təsərrüfatı Şurası və Neft Komitəsi daxil idi.

Komissarlıqlara hökumətin üzvləri olan xalq komissarları başçılıq edirdi. Komissarlıqlarda vacib məsələlərin həllində kollegiallıqdan

istifadə edilirdi. Kollegiya üzvləri XKS-in sədri tərəfindən təyin edilir, MİK Rəyasət Heyəti tərəfindən təsdiq edilirdi. Kollegiyada mühüm məsələlər – partiya və hökumətin qərarları, müəssisə və ictimai təşkilatların hesabatları, kadrların yerləşdirilməsi və irəli sürülməsi və s. müzakirə edilirdi. XKS sədrinin müvafiq əmrindən sonra kollegiyanın qərarları qanuni qüvvəyə minirdi. Əgər XKS-in sədri ilə kollegiya üzvləri arasında fikir ayrılığı yaranardısa, kollegiya üzvləri MİK Rəyasət Heyətinə şikayət edə bilərdilər.

Xalq Komissarları müntəzəm olaraq Ümumazərbaycan Sovetlər qurultayında, MİK sessiyalarında, MİK iclaslarında və XKS yığıncaqlarında hesabat məruzələri ilə çıxış edirdilər.

1921-ci ildə Azərbaycan XKS-in nəzdində yaradılmış Dövlət Plan Komissiyası və Ali İqtisadi Şura xalq təsərrüfatının bərpa edilməsində mühüm əhəmiyyət kəsb edirdi. AİŞ iqtisadi siyasəti istiqamətləndirir, təsərrüfat komissarlıqlarının və idarələrin işinə rəhbərlik edirdi.

Azərbaycan SSR ZSFSR-ə daxil olduqdan sonra xalq komissarlıqları səlahiyyətlərinə görə üç qrupa bölündülər.

Birinci qrup xalq komissarlıqlarına maliyyə, əmək, poçt və teleqraf, xarici ticarət, nəqliyyat idarəsi daxil idi. Göstərilən sahələr üzrə idarəçilik bütün Zaqafqaziya ərazisində həyata keçirilməklə hər üç respublikanın səlahiyyətli nümayəndələrinin iştirakı ilə icra edilirdi. Xarici işlər komissarlıqlarının funksiyaları isə ZSFSR-in Rəyasət Heyəti tərəfindən yerinə yetirilirdi.

İkinci qrup komissarlıqlar respublika Xalq Komissarları Sovetinə tabe olanlar və eyni zamanda ZSFSR tabeliyində olanlar idilər. Buraya fəhlə-kəndli müfəttişliyi və əksinqilabçılarla mübarizə fövqəladə komissiyası aid edilirdi.

Üçüncü qrup isə maarif, səhiyyə, torpaq, sosial təminat, daxili işlər, ədliyyə və Neft Komitəsi kimi muxtar komissarlıqlardan ibarət idi.

Yerli dövlət hakimiyyəti və idarəçilik orqanları. Azərbaycan SSR Konstitusiyasına görə yerli dövlət hakimiyyəti və dövlət idarəçiliyi orqanlarına qəza və nahiyə sovetlər qurultayları, şəhər və kənd sovetləri, qəza və nahiyə qurultayının icraiyyə komitəsi, Bakı şəhər soveti və kənd sovetləri, qəza icraiyyə komitəsinin Rəyasət Heyəti

və bakı şəhər icraiyyə komitəsi, Bakı şəhər icraiyyə komitəsinin şöbələri, qəza və nahiyə icraiyyə komitələri daxil idi.

Yerli idarəçilik orqanlarına 18 yaşı tamam olan dinindən, milliyyətindən, cinsindən və s. asılı olmayaraq bütün Azərbaycan vətəndaşları seçmək və seçilmək hüququna malik idilər. Şəhər və kənd sovetləri istisna edilməklə digər yerli orqanlara seçkilər çoxpilləli müəyyən edilmişdi. Azərbaycanın kənd əhalisinə çox da etibar etməyən bolşevik hökuməti yerli orqanlara seçkilərdə şəhər və kənd əhalisi arasında fərq qoyurdu.

Konstitusiyaya görə nahiyə qurultayında seçilmiş **qəza kənd soveti** nümayəndələri qəza sovetlər qurultayını təşkil edirdi. Qəza (şəhər) soveti qəza nümayəndələrindən ibarət olmaqla nümayəndələrin seçilməsinin aşağıdakı qaydasını müəyyən edirdi: kənd sovetlərindən 500 nəfərə bir deputat, həmçinin hər sovetdən, fabrik-zavod qəsəbələrindən, kənd ərazilərindən kənarda yerləşən fabrik və zavodlardan və nəhayət, sovetləri olmayan şəhərlərdən 100 nəfərə bir deputat, lakin bütün qəza üzrə 300-dən çox olmayan nümayəndə deputat seçilirdi. Yerli kənd sovetləri 500 nəfərdən az olmayaraq əhalisi olan yerlərdən birləşərək qəza sovetinə deputat seçirdilər.

Nahiyə soveti qurultayı nahiyə üzrə bütün kənd sovetlərindən olan nümayəndələrdən hər 10 nəfər sovet üzvünə bir deputat seçilməsini müəyyən edirdi. 10 nəfərdən az üzvü olan kənd sovetləri, nahiyə qurultay sovetinə bir nəfər nümayəndə göndərməli idi. Qəza və nahiyə sovetlər qurultayı müvafiq rayonun ərazisinin üçdə birinə bərabər olan əhalini təmsil edən deputatların tələbi ilə və ya qəza və nahiyə icraiyyə komitələrinin istəyi ilə 6 ayda bir dəfə çağırılırdı.

Qəza və nahiyə üzrə növbədənkənar sovetlər qurultayları Azərbaycan SSR MİK-in razılığı ilə qəza və ya nahiyə icraiyyə komitəsinin qərarı əsasında toplanırdı.

Sovetlər qurultayı müvafiq ərazidə ali hakimiyyət orqanı idi. Onlar öz ərazilərində bütün yerli məsələlərə baxır və onu həll edir, yerli orqanlara rəhbərlik edir, yerli büdcəni və vergiləri müəyyənləşdirir, Ümumazərbaycan Sovetlər qurultayına nümayəndələr seçir və s. məsələləri yerinə yetirirdilər.

Qəza və nahiyə sovetləri müvafiq olaraq 21 və 5 nəfər üzvdən çox olmayan icraiyyə komitələrini seçirdilər. Qəza və nahiyə icraiyyə komitələri müvafiq sovetlər qurultayı, yuxarı icraiyyə komitələri, XKS və Azərbaycan SSR MİK qarşısında məsuliyyət daşıyırdılar.

Konstitusiya qəza və nahiyə sovetlər qurultayı və onların icraiyyə komitələrinin səlahiyyətlərinə mərkəzi və müvafiq orqanların göstəriş və tapşırıqlarını yerinə yetirməyi, yerli təsərrüfata və mədəni quruculuğa rəhbərlik etməyi, yerli xarakterli mübahisələri həll etməyi, aşağı sovet orqanlarının fəaliyyətini əlaqələndirməyi aid edirdi.

Sovet hakimiyyətinin yuxarı orqanlarını xəbərdar etməklə, qəza sovetlər qurultayı və icraiyyə komitəsi qəza ərazilərində qüvvədə olan qərarları ləğv etmək hüququna malik idi. Yalnız qəza sovetlər qurultayı şəhər sovetlərinin fəaliyyətinə nəzarət edə bilərdi.

Sahə idarəetmə orqanlarına və aşağı icraiyyə komitələrinə rəhbərlik etməkdən ötrü qəza icraiyyə komitəsi 3-5 nəfərdən ibarət rəyasət heyəti seçirdi. Qəza və nahiyə icraiyyə komitələri mərkəzi və yerli hakimiyyət orqanlarının qərarlarını icra etmək üçün icraiyyə komitələrinin şöbələrini yaradırdılar.

Qəza icraiyyə komitələri nəzdində aşağıdakı şöbələr yaradılırdı: hərbi, torpaq, ərzaq, maliyyə, xalq təhsili, əmək, sosial təminat, səhiyyə, fəhlə-kəndli müfəttişliyi, kommunal təsərrüfat, ədliyyə, xalq təsərrüfatı. Nahiyə komitələri nəzdində hərbi, torpaq, xalq təhsili, ərzaq və digər şöbələr təşkil edilirdi.

Konstitusiyaya görə Bakıda və əhalisi 10 min nəfərdən çox olan digər şəhərlərdə şəhər sovetləri seçilirdi. Hər 500 nəfərə bir deputat seçilməklə deputatların ümumi sayı 800 nəfərdən çox olmamalı idi.

10 min nəfərdən az əhalisi olan şəhərlərdə sovetlər yaradılmırdı. Bu şəhərlər müvafiq qəza sovetlər qurultayının və qəza icraiyyə komitəsinin hakimiyyəti nəzarətinə daxil edilirdi.

Bakı şəhər Sovetinin icraiyyə komitəsi 40 nəfər tərkibdə müəyyən edilirdi. Azərbaycanın digər şəhərlərində də icraiyyə komitələri seçilirdi. İcraiyyə komitələrinin funksiyalarını müvafiq qəza icraiyyə komitəsi və ya onun rəyasət heyəti yerinə yetirirdi.

Bakı şəhər icraiyyə komitəsi sədrdən, sədr müavinindən, katibdən və üzvlərdən ibarət rəyasət heyətini seçirdi. Bakı şəhər icraiyyə komitəsinin rəyasət heyəti icraiyyə komitəsinin şöbələrinə, habelə aşağı instansiyalı icraiyyə komitələrinə rəhbərlik və nəzarət edirdi. Bakı şəhər icraiyyə komitəsi müvafiq vəzifələri daha yaxşı icra etmək üçün rəyasət heyəti nəzdində plan və nəzarət komissiyaları yaradırdı. Bakı şəhər Soveti nəzdində inzibati, kommunal təsərrüfat, maliyyə, su təchizatı, şəhər sənayesi, xalq təhsili, səhiyyə, torpaq, statistika bürosu və hüquq məsləhətxanası hissəsi təşkil edilmişdi.

Kənd sovetləri əhalisi 300 nəfərdən az olmayan kəndlərdə 25 nəfərə bir deputat olmaqla, bütünlükdə hər kənd üzrə cəmi 50 deputatdan çox olmamaq şərti ilə yaradılırdı. Kənd ərazilərində bir-birinə yaxın olan az saylı kəndlər üzrə birləşmiş bir kənd soveti təşkil edilirdi. 300 nəfərdən az əhalisi olan kənddə isə kənd soveti yaradılmırdı. Belə kəndlər müstəqil kənd sovetləri təşkil etmək hüququnda olan qonşu kənddə, öz ümumi yığıncaqları tərəfindən seçilmiş nümayəndələrini həmin kənd sovetinə göndərməklə hüquqlarını və maraqlarını təmin edirdilər. Kənd sovetləri 6 ay müddətinə seçilirdi. Onların icraiyyə komitələri seçilsə də, icraiyyə komitələri nəzdində şöbələr yaradılmırdı.

Bolşeviklərin siyasi hakimiyyətinin möhkəmləndirilməsi və ZSFSR-in təşkil edilməsi. Fövqəladə və sərt tədbirlərdən əl çəkən bolşeviklər 1921-ci il Konstitusiyası əsasında legitim hakimiyyət strukturlarını yaradırdılar. Bununla belə, Azərbaycan SSR-də hakimiyyət faktiki olaraq kommunistlərin əlində idi. İlk dövrlərdə əhali arasında o qədər də nüfuzu olmayan AK(b)P tədricən mövqeyini möhkəmləndirməyə çalışırdı. Xüsusilə birinci konstitusiyanın qəbul edilməsi və yeni hakimiyyət strukturlarında seçkili vəzifələrə əsasən kommunistlərin "seçilməsi"nə üstünlük verilməsi əhalinin bolşevik partiyasına daxil olmasına "marağı" artırmalı idi. Bəzən isə zorla partiyaya qəbul aparılırdı.

1921-ci ildə S.M. Kirov AK(b)P MK-nın katibi təyin olundu. Moskvanın maraqlarını ifadə edən Kirov tez bir vaxtda bütün hakimiyyəti mənimsədi. Daha çox milli mövqedən çıxış edən, başda N.

Nərimanov olmaqla bir çox kommunist "solçular" təzyiqlərə məruz qaldılar. Hətta S. Əfəndiyev, M. İsrafilbəyov, D. Bünyadzadə, Ç. İldırım kimi bolşeviklər cəzalandırılaraq partiyadan çıxarıldılar.

Moskvanın təyin etdiyi kadrlar çox vaxt milli respublikanın ehtiyac və tələblərinə etinasız yanaşır, böyük dövlət, "velikorus" şovinizmi mövqeyindən çıxış edirdilər. Azərbaycan SSR-in dövlət idarələrində kargüzarlıq işinin Azərbaycan dilində aparılmasına qarşı çıxan şovinistlər bunu guya rus fəhlə kadrlarının respublikanı tərk edəcəkləri ilə əsaslandırmağa çalışırdılar.

Mərkəzin apardığı siyasətin mahiyyətini anlayan milli kadrlardan olan bəzi partiya işçiləri öz haqlı narazılıqlarını bildirdilər. Lakin həmin milli kadrlar burjua-millətçi damğası ilə Moskva tərəfindən tez bir zamanda "zərərsizləşdirilirdilər". 1924-cü ildə Ə. Xanbudaqovun Azərbaycanın iqtisadi və mədəni geriliyini aradan qaldırmaq, milli fəhlə kadrları hazırlamaq, ilk növbədə azərbaycanlı işsizləri işə qəbul etmək, milli sərvətimiz olan neft sənayesində çalışan azərbaycanlı fəhlələrin əmək haqqlarını digər qeyri-millətdən olanlarla bərabərləşdirmək kimi təklifləri XIII Bakı partiya konfransında kəskin etirazla qarşılandı. Beynəlmiləlçilik adı ilə Azərbaycan xalqının hüquqları tapdanır, əksinə "millətçi"lik adı ilə vətənpərvər kadrlara qarşı represiyalar təşkil edilirdi.

Sovet hakimiyyəti kənddə dayaqlarını möhkəmləndirməkdən ötrü, narazılıqların qarşısını almaq üçün **yeni iqtisadi siyasət** yeritməli idi. Hərbi kommunizm adlanan ərzaq sapalağının ləğv edilməsi vaxtı çatmışdı. Kənd əhalisi ərzaq sapalağı siyasətindən çox əziyyət çəkirdi. Belə ki, əvəzinə çox cüzi sənaye məhsulları verməklə əhalidə guya artıq olan kənd təsərrüfatı məhsulları zorla alınırdı.

1921-ci il mayın 17-də "Bütün növ məhsul inhisarının ləğv edilməsi haqqında" Azərbaycan İnqilabı Komitəsinin dekreti verildi. Dekretə görə ərzaq sapalağı ləğv edilir, könüllü toplanan **"çanaq"** vergisi tətbiq edilirdi. Yeni vergiyə görə hər bir kəndli təsərrüfatından 20 girvənkə taxıl vergisi alınırdı. Yeni iqtisadi siyasət adı almış dekretin mahiyyəti kəndlilərin torpaq üzərində xüsusi mülkiyyətini saxlamaqla onlara geniş iqtisadi fəaliyyət imkanı verməkdən ibarət

idi. Eyni zamanda kəndlilər artıq məhsulu sərbəst surətdə satmaq hüququ əldə edirdilər.

Fövqəladə tədbirlərlə istədiyi nəticəni almayan İnqilab Komitəsi Azərbaycanda yeni iqtisadi siyasəti aparmaqla istər-istəməz xüsusi mülkiyyətin inkişafına kömək edirdi. Varlı kəndlilər təbəqəsi olan **qolçomaqlar** üçün fəaliyyət imkanı genişlənirdi. Həmçinin çoxlu xüsusi ticarət müəssisələri təşkil edilirdi. Müvəqqəti tədbirlərdən olan YİS-in tətbiqi sosialist bölməsinin gələcəkdə inkişaf etdirilib möhkəmləndirilməsi üçün bir mərhələ kimi istifadə olunurdu. 1920-ci illlərin əvvəllərində respublikada milli müqavimət hərəkatı davam edirdi. Xalqın dini görüşlərinə, adət və ənənələrinə münasibət, kəndlilərin mülkiyyətinin, əmlakının mənimsənilməsi, yerli kadrların sıxışdırılması əhalinin böyük və ciddi narazılığını doğururdu. Xalq öz etirazını həmin dövrdə qaçaqçılıq hərəkatının geniş vüsət alması ilə bildirirdi. Bolşevik hökuməti qaçaqçılıq hərəkatı ilə mübarizənin aparılmasının mənasız olduğunu görərək onlara qarşı müqaviməti dayandırmışdı. Xaricə mühacirət etmiş bir qrup azərbaycanlı da bolşevik diktaturasına qarşı mübarizəni davam etdirməyə səy göstərirdi.

Azərbaycan SSR-də bolşevik diktaturasını möhkəmləndirdikdən sonra respublikanı milli müstəqillikdən məhrum etmək üçün Moskva öz planlarını ardıcıl həyata keçirməyə başlamışdı. Beynəlxalq statusunu saxlayan Azərbaycan SSR müstəqil qurum kimi ilk dövrlərdə RSFSR tərəfindən də bərabər hüquqlu tərəf kimi tanınırdı. Əslində isə Moskva bolşevikləri Azərbaycanı Şərqdə kommunist ideyalarını yayan bir məkan kimi təsəvvür edir, onun müstəqilliyini müvəqqəti sayırdı. Hələ 1920-ci il sentyabrın 1-də Bakıda keçirilən Şərq xalqlarının I qurultayı Şərq ölkələrində kommunist ideyalarını yaymaq, onları öz tərəfinə cəlb etmək məqsədi güdürdü. Qurultayda 38 ölkənin nümayəndəsi təmsil olunurdu. Şərq xalqlarının qurultayı daimi orqan olan Şərq xalqlarının təbliğat və fəaliyyət Şurasını seçdi. Şuranın heyətinə N. Nərimanov, V. Maxaradze, Heydərxan Əli oğlu, S.M. Kirov və başqaları seçildilər. Təbliğat və fəaliyyət Şurası Bakını özünün daimi mərkəzi seçdi.

Ermənistanda (1920-ci il 29 noyabr) və Gürcüstanda (1921-ci il 25 fevral) bolşevik hakimiyyəti yaradıldıqdan sonra Moskva vahid SSRİ təşkil etməyin yollarından biri kimi üç Cənubi Qafqaz Respublikasının birləşdirilməsi təklifi ilə çıxış edirdi. RK(b)P MK-nın göstərişlərini rəhbər tutan Azərbaycan kommunistləri beynəlmiləlçilik nümayiş etdirərək respublikanın neft və neft məhsulları sərvətini təmənnasız Gürcüstan və Ermənistana göndərərək Moskvanın rəğbətini qazanırdı. V.İ. Lenin 1921-ci il aprelin 9-da Zaqafqaziyanın vahid təsərrüfat orqanının yaradılması haqqında direktiv vermişdi.

1921-ci ilin aprelin 11-də Bakı Soveti Zaqafqaziya Sovet respublikalarının dəmir yollarını və xarici ticarət orqanlarını birləşdirməyə tərəfdar çıxdı. Bu planın həyata keçirilməsi üçün 1921-ci il aprelin 14-də Bakıda və aprelin 16-da Tiflisdə Azərbaycan, Gürcüstan, Ermənistan və RSFSR nümayəndələrinin iştirakı ilə Zaqafqaziya dəmir yolu idarələrinin birləşdirilməsi haqqında saziş imzalandı. Hər üç respublikanın dəmir yolları vahid şəbəkəyə qoşulurdu. RSFSR Nəqliyyat Xalq Komissarlığına tabe etdirilmiş Zaqafqaziya dəmir yolları idarəsi yaradıldı. RSFSR Dəmir Yol Nəqliyyatı Komissarlığı Zaqafqaziya dəmir yollarını lazımi material, təchizat, vəsait və s. ilə təmin etməyi öhdəsinə götürürdü. Zaqafqaziya dəmir yol idarəsi nəzdində Xəzər və Qara dəniz arasında dəniz yükdaşımasını tənzim etmək üçün xüsusi Zaqafqaziya Bürosu yaradıldı.

1921-ci il iyunun 2-də Zaqafqaziya respublikaları xarici ticarət orqanlarını birləşdirmək haqqında saziş imzaladılar. Üs respublika nümayəndələrindən ibarət kollegiyanın başçılıq etdiyi Xarici Ticarət İdarəsi yaradıldı. Azərbaycan MİK 26 sentyabr 1921-ci il dekreti ilə Xalq Xarici Ticarət Komissarlığını ləğv etdi.

1921-ci il iyunun 11-də Azərbaycan SSR-in Ermənistan, Gürcüstan, Dağıstan və RSFSR-lə olan bütün gömrük sərhəd müdafiə xətləri aradan götürüldü.

1922-ci ilin avqust ayında Zaqafqaziya sovet respublikaları arasındakı bütün gömrük sistemi ləğv edildi.

1922-ci il mayın 14-də Azərbaycan Xalq Komissarları Soveti bütün Qafqaz sovet respublikalarında diplomatik nümayəndəliklərin

ləğv edilməsi, Batumdakı konsulluğun isə Ali Təsərrüfat Şurası nəzdində yaradılacaq nümayəndəliyə verilməsi barədə qərar qəbul etdi. 1921-ci il noyabrın 3-də RK(b)P MK Qafqaz Bürosunun plenumu Azərbaycan, Ermənistan və Gürcüstan sovet sosialist respublikaları arasında federasiya ittifaqı bağlamağa tərəfdar çıxdı. Noyabrın 29-da RK(b)P MK Siyasi Bürosu Zaqafqaziya Federasiyası yaradılması barədə qətnamə qəbul etdi.

1922-ci il martın 12-də Azərbaycan, Ermənistan və Gürcüstan mərkəzi icraiyyə komitələrinin səlahiyyətli konfransı **ittifaq müqaviləsini** təsdiq etdi. Müqaviləyə görə Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı yaradıldı. Həmin müqavilə əsasında İttifaq Soveti və Ali İqtisadi Şurası təşkil edilirdi. Zaqafqaziya respublikalarında hərbi işlər, maliyyə, xarici siyasət, xarici ticarət, rabitə yolları, rabitə vasitələri, əksinqilabla mübarizə və iqtisadi siyasətə rəhbərlik İttifaq Sovetinin səlahiyyətlərinə verildi. İttifaq Sovetinin Rəyasət Heyətinə respublikalardan hər birinin nümayəndələri daxil oldular. Onlar İttifaq Sovetinin iclaslarında növbə ilə sədrlik edirdilər. Səlahiyyətli konfransın seçdiyi 10 xalq komissarından dörd nəfəri Azərbaycanı, hərəsindən üç nümayəndə isə Ermənistan və Gürcüstanı təmsil edirdi.

1922-ci il mayın 13-də İttifaq Soveti ayrı-ayrı respublikaların xalq xarici işlər komissarlıqlarının ləğv edilməsi haqqında qərar qəbul etdi.

Moskvanın planına əsasən 1922-ci il mayın 12-də yaradılmış Federativ İttifaq (Fİ) tezliklə vahid federativ respublikaya çevrilməli idi. Buna görə də 1922-ci il dekabrın 10-da Bakıda **Zaqafqaziyanın I Sovetlər qurultayı** toplandı. Qurultayda həlledici səslə 535 nümayəndə və məşvərətçi səslə 25 nümayəndə iştirak edirdi. Qurultayın iclasına ZSFSR Konstitusiyası layihəsi çıxarılmışdı. Konstitusiyanın layihəsi qurultay tərəfindən dekabrın 13-də təsdiq edildi və onun ali orqanı – 150 üzvdən və 50 namizəddən ibarət olan Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi seçildi.

1922-ci il dekabrın 13-də qəbul edilmiş ZSFSR birinci konstitusiyası 6 bölmə, 9 fəsil və 47 maddədən ibarət idi. 4 maddədən və 1 fəsildən ibarət olan birinci bölmə "İnqilab və Zaqafqaziya zəhmət-

keşlərinin birliyi" adlanırdı. Bu bölmədə Zaqafqaziya Federasiyasının yaranması məsələlərindən bəhs olunurdu, 5-33-cü maddələri əhatə edən ikinci bölmə 4 fəsildən ibarət olmaqla, Zaqafqaziya Sovetlər qurultayından (ikinci fəsil), Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsindən (üçüncü fəsil), Zaqafqaziya Xalq Komissarları Sovetindən (dördüncü fəsil), Zaqafqaziya Sovetlər qurultayı və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərindən (beşinci fəsil) bəhs edirdi. Zaqafqaziya Federasiyasında mərkəzlə subyektlər arasındakı münasibətlərdən, həmçinin Sovet quruculuğundan bəhs edən üçüncü bölmə altıncı fəsli (34-37-ci maddələr) əhatə edirdi. Dördüncü bölmə 38-44-cü maddələri əhatə etməklə büdcə hüququndan (yeddinci fəsil), beşinci bölmə 45-46-cı maddələri özündə birləşdirməklə ZSFSR-in gerb və bayrağından (səkkizinci fəsil) danışırdı. Axırıncı – altıncı bölmə 47-ci maddəni (doqquzuncu fəsil) əhatə etməklə ZSFSR-in dövlət orqanlarının rezidensiyasını müəyyən edirdi.

ZSFSR Konstitusiyası xalq xarici işlər, hərbi və dəniz, rabitə, maliyyə, xarici ticarət komissarlıqlarının birləşdirilməsini qanuniləşdirdi. Mərkəz Azərbaycanın hesabına Zaqafqaziyanın digər respublikalarının təsərrüfatını dirçəltməyə çalışırdı. Buna görə də maliyyə və xarici ticarət işlərinə baxan xalq komissarlıqları birləşdirildi. Xalq daxili işlər, maarif, səhiyyə, torpaq komissarlıqları və digər komissarlıqlar birləşdirilmir və muxtariyyətlərini saxlayırdı. 1923-cü il yanvarın 10-da vahid **Zaqafqaziya pul nişanı** haqqında ZSFSR hökumətinin dekreti çıxdı, bununla da respublikaların maliyyə ayrılığı ləğv edildi və onların vahid büdcəsini yaratmaq mümkün oldu. Zaqafqaziya Sovetlər qurultayı, ZSFSR-in yaradılması və onun Konstitusiyasının qəbul edilməsi SSRİ-nin yaradılmasında mühüm mərhələ oldu. 1922-ci il dekabrın 30-da Moskvada SSRİ-nin I Sovetlər qurultayı toplandı. Qurultayda RSFSR-dən 1727, Ukrayna SSR-dən 364, ZSFSR-dən 91 və Belarusiyadan 33 nümayəndə iştirak edirdi. Qurultay bəyannamə qəbul etdi və SSRİ-nin təşkili haqqında müqaviləni təsdiq etdi.

SSRİ-nin **ilk konstitusiyası** isə 1924-cü il yanvarın 31-də II Ümumittifaq Sovetlər qurultayında təsdiq edildi.

ZSFSR Konstitusiyasında nəzərdə tutulmuş hakimiyyət strukturlarının yaradılması Zaqafqaziya MİK 15 yanvar 1923-cü il birinci sessiyasında mühüm tədbirlər həyata keçirdi. Sessiyada ZSFSR MİK Rəyasət Heyəti və XKS seçildi. SSRİ-nin yaranması ilə Zaqafqaziya respublikalarının hüquqi statusunda dəyişiklik edildi. Çünki İttifaq dövlətinə bir sıra mühüm məsələlər həvalə edilirdi. SSRİ-nin digər müttəfiq respublikalarından fərqli olaraq Azərbaycan və digər Zaqafqaziya respublikalarının ZSFSR vasitəsilə SSRİ-yə daxil olması dövlət quruluşlarında daha çox dəyişikliklərə səbəb oldu.

ZSFSR Konstitusiyası Zaqafqaziya Sovetlər qurultayının, MİK-in, MİK Rəyasət Heyətinin və XKS-nin səlahiyyətini müəyyən edirdi. **ZSFSR ali qanunverici** orqanı Federasiya müqaviləsində iştirak edən respublikaların əhalisinin say nisbətinə uyğun olaraq seçilmiş şəhər və qəza sovetlərinin nümayəndələrindən ibarət olan Fəhlə, Kəndli, Əsgər və Matros Deputatları Sovetlərinin **Zaqafqaziya Sovetlər qurultayı** idi. Hər il çağırılan Ümumzaqafqaziya Sovetlər qurultayından başqa, ZSFSR MİK və ya respublikaların MİK-lərinin tələbi ilə fövqəladə qurultayları çağırmaq da konstitusiya ilə müəyyən olunurdu. Qurultaylararası dövrlərdə ali hakimiyyət qurultay tərəfindən seçilmiş ZSFSR MİK-ə həvalə edilirdi. MİK-ə qurultay qarşısında məsul olmaqla ona hesabat verirdi. ZSFSR MİK-in səlahiyyətlərinə ZSFSR Konstitusiyasında dəyişikliklər və əlavələr etməklə onu təsdiq etmək, digər dövlət qurumlarının onun tərkibinə daxil olması və ya federasiyanın ayrı-ayrı hissələrinin onun tərkibindən çıxması haqqında qərar qəbul etmək, ZSFSR ərazisində təsərrüfatın ümumi və ayrı-ayrı hissələrinin əsas planını müəyyən etmək və konsessiya (icarə) müqaviləsini müzakirə etmək, ümumfederal və respublikaların büdcəsini təsdiq etmək, vergiləri müəyyən etmək, federal Dövlət Bankını təsis etmək, federal Ali Məhkəməni təşkil etmək, torpaq quruculuğunu, torpaqdan və yerin təkindən istifadə etməyi müəyyənləşdirmək ZSFSR Konstitusiyasına zidd olan respublika sovetlər qurultayı, MİK və XKS qərarlarını ləğv etmək, ZSFSR XKS-in bütün tərkibini və ya onun ayrı-ayrı üzvlərini vəzifədən kənarlaşdırmaq və vəzifəyə təyin etmək, amnistiya elan etmək, federal statistikanı təş-

kil etmək, məhkəmə və məhkəmə quruculuğunu təşkil etmək, mülki və cinayət qanunvericiliyi hazırlamaq, yerli xarakterli xarici borc müqavilələri bağlamaq və s. daxil idi.

ZSFSR Konstitusiyasına əlavə və düzəlişlər etmək müstəsna olaraq Zaqafqaziya Sovetlər qurultayının, qurultayı toplamaq mümkün olmadıqda isə ZSFSR MİK-in səlahiyyətlərinə daxil idi. MİK və onun rəyasət heyəti hər dörd aydan bir növbəti sessiyaları toplayırdı. Fövqəladə sessiyalar isə ZSFSR XKS və ya ZSFSR MİK üzvlərinin üçdə birinin təşəbbüsü ilə çağrılırdı. MİK sessiyalarında dekretlərin layihələri və digər vacib məsələlər, o cümlədən xarici əlaqələr, əfv olunmaq barədə təqdimat, Qırmızı Bayraq ordeni ilə təltif olunmanın təsdiq edilməsi, XKS qərarlarının bəyənilməsi və ya ZSFSR MİK növbəti sessiyalarında baxılması barələ qərarlar verilirdi.

ZSFSR XKS sədrdən, iki müavindən, xarici işlər, hərbi-dəniz işləri, xarici ticarət, nəqliyyat, ərzaq, maliyyə, fəhlə-kəndli müfəttişliyi, əmək, poçt və teleqraf, əksinqilaba, möhtəkirliyə və vəzifə cinayətlərinə qarşı mübarizə idarələrində və komissarlardan ibarət idi. XKS nəzdində iqtisadi siyasəti həyata keçirmək və respublika xalq komissarlıqlarının və iqtisadi şuraların fəaliyyətini tənzim etmək üçün Ali İqtisadi Şura yaradıldı. Zaqafqaziya XKS-nın səlahiyyətlərinə dekretlər, sərəncamlar və təlimatlar vermək, həmçinin ən vacib tədbirləri müəyyən etmək aid edilirdi. Zaqafqaziya XKS tərkibinə məşvərətçi səslə Azərbaycan SSR və digər Zaqafqaziya respublikalarının daxili işlər, maarif, torpaq, səhiyyə və sosial təminat nazirlikləri və həmçinin onların səlahiyyətli nümayəndələri daxil idi. Səlahiyyətli nümayəndələr respublika MİK-in razılığı ilə ZSFSR-in müvafiq xalq komissarı tərəfindən təyin edilirdi. Onlar ZSFSR-in müvafiq komissarlıqlarına tabe edilməklə öz respublikalarının XKS qarşısında da hesabat verirdilər. Konstitusiyaya görə Zaqafqaziya Federasiyasının federal, respublika və yerli orqanlarının büdcə məsələlərinin əsas prinsipləri Zaqafqaziya Sovetlər qurultayının və MİK-in səlahiyyətlərinə daxil edilirdi. ZSFSR ali qanunverici orqanları tərəfindən vergilərin növü və həcmi müəyyən edilirdi. Vergilərin müəyyən edilməsi infilyasiyanın və böhranın qarşısının alınmasında həlledici amillərdən idi.

1923-cü ildə sənaye məhsullarının qiymətinin qalxması, eyni zamanda kənd təsərrüfatı məhsullarının qiymətlərinin aşağı düşməsi böhrana səbəb oldu. Qiymətlər arasındakı uyğunsuzluq "qayçı" adı almışdı. Azərbaycan kənd əhalisi bu uyğunsuzluqdan çox əziyyət çəkirdi. Bir pud əvəzinə cəmi 16 girvənkə duz və iki girvənkə şəkər almaq mümkün idi. 1923-cü ildə Azərbaycan SSR XKS neft məhsullarının, parçanın, şəkərin, şüşə məmulatlarının qiymətlərini aşağı saldı.

Vergi sistemində də dəyişiklik edildi, 1923-cü ildən ərzaq vergisi əvəzinə pulla alınan **vahid kənd təsərrüfatı vergisi** tətbiq edilirdi. 1924-cü ilin əvvəllərində dövlət bazar qiymətlərini tənzimləmək məqsədilə Azərbaycan SSR Ali İqtisadi Şurası nəzdində daxili ticarəti tənzim edən komissiya təşkil etdi. 1924-cü il aprelin 24-də Zaqafqaziya MİK və ZSFSR Xalq Komissarları Soveti vahid kənd təsərrüfatı vergisi haqqında dekret verdilər.

Azərbaycan SSR tərkibində DQMV və Naxçıvan MSSR-in yaradılması. Ermənistan SSR-də sovetləşmə prosesi Azərbaycanın hökumət dairələrində "beynəlmiləlçilik" əhvali-ruhiyyəsinin güclənməsi, əzəli Azərbaycan torpaqlarının – Zəngəzur, Göyçə, Dərələyəz və digər torpaqların Sovet Ermənistanına güzəşt edilməsi ilə nəticələndi. Şirniklənmiş erməni "bolşevikləri" Moskvanın və AK(b)P-nin köməyi ilə Qarabağı Ermənistana birləşdirməyə yönəlmiş planlarla çıxış edirdilər.

1922-ci il dekabrın 1-də, yəni Ermənistanda bolşevik hökuməti qurulduqdan iki il sonra Azərbaycan inqilab komitəsinin bəyanatı ilə çıxış edən N. Nərimanov iki sovet respublikası arasında sərhədlərin mövcudluğunu inkar edərək yalnız azərbaycanlıların yaşadığı Zəngəzur mahalının bir hissəsindən "təntənəli" olaraq imtina etdi. "Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək üçün tam hüquq" verildi. Vahid sovet məkanından bəhs edən bolşevik rejimi düşünülmüş şəkildə Azərbaycanın torpaqlarının Ermənistana verilməsinə çalışırdı. Erməni bolşeviklərinin Azərbaycan torpaqlarını "beynəlmiləlçilik" adı ilə öz torpaqlarına birləşdirmək planlarını hiss edən milliyyətcə azərbaycanlı olan kommunistlər 1921-ci il iyunun 27-də AK(b)P MK-nın Bürosunda Ermənistanın iddialarını rədd etdi-

lər. Əvvəllər "beynəlmiləl" mövqedən çıxış edən, lakin ermənilərin əsl məqsədini bilən N. Nərimanovun tutduğu mövqe Qarabağın Azərbaycan tərkibində qalmasında xüsusi rol oynamışdır.

RK(b)P Qafqaz bürosu 1921-ci il 4 iyun plenumunda Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsi barədə qərar qəbul etmişdi. Plenumda əslində tək qalmış N. Nərimanov bu qərara qəti etirazını bildirmişdi. Tutarlı tarixi sübutlarla çıxış edən N. Nərimanov RK(b)P Qafqaz bürosunu iyunun 5-də yenidən qərarını dəyişərək Dağlıq Qarabağı Azərbaycan SSR tərkibində saxlanılmasını təsdiq etməyə sövq etdi.

1923-cü ilin iyununda RK(b)P Qafqaz bürosunda Dağlıq Qarabağda muxtariyyət yaradılması Azərbaycan dövlətinə tövsiyə edildi. 1923-cü il iyunun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Qarabağın dağlıq hissəsinə Azərbaycan SSR tərkibində muxtar vilayət statusu verilir. Xankəndi ərazi vahidinin adı dəyişdirilərək Stepanakert adlandırılmaqla muxtar vilayətin inzibati mərkəzi müəyyən edildi. 1923-cü il noyabrın 24-də Azərbaycan SSR MİK Plenumu və XKS "Dağlıq Qarabağ Muxtar Vilayətinin əsasnaməsini" təsdiq etdi. DQMV tərkibinə Şuşa, Cavanşir, Karyagin və Qubadlı qəzalarının dağlıq hissələri daxil edildi. "Əsasnamə"yə görə Dağlıq Qarabağ Muxtar Vilayətində ali hakimiyyət ərazinin Sovetlər qurultayına, Mərkəzi İcraiyyə Komitəsinə və yerli sovetlərə həvalə edildi".

Muxtar vilayətin ali hakimiyyət orqanı ildə bir dəfədən az olmayaraq çağrılan Sovetlər qurultayı idi. Qurultaylararası dövrdə ali hakimiyyət Mərkəzi İcraiyyə Komitəsinə həvalə edilirdi.

Vilayətdə yerli idarəçilik hakimiyyəti MİK tərəfindən seçilən Xalq Komissarları Sovetinə məxsus idi. Vilayət Xalq Komissarları Soveti MİK-in Rəyasət Heyəti hüquqlarına malik olduğu üçün Muxtar Vilayət Mərkəzi İcraiyyə Komitəsinin sədri eyni zamanda XKS sədri olurdu. XKS özündə daxili işlər, ədliyyə, maarif, səhiyyə, torpaq, mərkəzi statistika idarəsi və xalq təsərrüfatı şurasını birləşdirirdi.

Azərbaycan SSR XKS DQMV XKS-nin razılığı ilə əmək, maliyyə və fəhlə-kəndli müfəttişliyi komissarlıqlarına öz səlahiyyətli nümayəndəsini təyin edirdi. Xalq komissarları DQMV MİK qarşısında məsuliyyət daşıyırdı.

Yerli hakimiyyət orqanlarına kənd və şəhər Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetinin qurultayı və qurultay tərəfindən seçilən icraiyyə komitəsi, həmçinin qəza sovetlər qurultayı və onun Rəyasət Heyəti daxil idi.

1923-cü il dekabrın 27-də DQMV-nin birinci sovetlər qurultayı çağrıldı. Qurultay Dağlıq Qarabağ İnqilab Komitəsinin hesabatını dinləyərək Vilayət İcraiyyə Komitəsini və Rəyasət Heyətini seçdi.

DQMV-nin qanunvericilik təşəbbüsü ilə çıxış etmək səlahiyyəti mövcud idi. Belə ki, Azərbaycan MİK-in müzakirəsinə Muxtar Vilayətə aid dekretlərin və qərarların layihəsini çıxara bilərdi. DQMV MİK-in sədri Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin iclasında iştirak etməklə muxtar vilayətə aid məsələlərdə məşvərətçi səs hüququna malik idi.

Bolşevik rejimi Bakıda və Azərbaycanın digər ərazilərində möhkəmləndikdən sonra 1920-ci il iyulun 28-də Qızıl Ordu hissələri Naxçıvana daxil olaraq sovet hakimiyyətini elan etdi. 1921-ci il yanvarın 21-də Naxçıvan Ölkə Hərbi İnqilab Komitəsi – ölkənin ali hakimiyyət orqanı yaradıldı. 1921-ci ilin yayında XKS sədri R. Nərimanov Naxçıvanın təsərrüfat və mədəni quruculuğu üçün 5,5 mlrd. rubl ayırmışdı.

1921-ci ilin sentyabrında Naxçıvanda xalq komissarlıqları yaradıldı. XKS Naxçıvan Hərbi İnqilab Komitəsi qarşısında məsuliyyət daşıyan **icraedici orqan** idi. 1921-ci ilin sonlarında Naxçıvanla sovetlərə seçkilərin keçirilməsi ilə əlaqədar olaraq inqilab komitələri və yoxsul komitələri buraxılır.

1922-ci il yanvarın 25-də birinci Ümumnaxçıvan Sovetlər qurultayı keçirildi. Qurultay Naxçıvan İnqilab Komitəsini ləğv etdi və Naxçıvan SSR-in Mərkəzi İcraiyyə Komitəsini seçdi.

1922-ci ilin sonlarında RK(b)P MK siyasi bürosu AK(b)P MK-nın təşəbbüsünü bəyənərək Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Respublikasının yaradılmasını tövsiyə etdi. Həmin vaxtda Zaqafqaziya Sovetlər qurultayı Naxçıvanın Azərbaycanın tərkibində muxtar qurum hüququnda ayrılmaz hissə olduğunu bildirən qərar qəbul etdi.

1923-cü il fevralın 23-də III Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan ölkəsinin muxtar qurum kimi Azərbaycan SSR-in tərkibinə daxil olması barədə qətnamə qəbul etdi. Qətnamədə göstərilirdi:

1. Naxçıvan Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsidir.
2. Naxçıvan MİK, XKS və bütün komissarlıqlar buraxılır.
3. Naxçıvanın idarə olunması üçün 17 nəfər üzvdən və 7 nəfər namizəddən ibarət Ölkə İcraiyyə Komitəsi seçilir.
4. Naxçıvan ölkəsi bütün dövlət aparatı ilə birlikdə muxtar ölkə statusunda Azərbaycan SSR tərkibinə daxil olur.

Azərbaycanın tərkibinə muxtar qurum kimi daxil olmasında Naxçıvan ölkəsinin siyasi vəziyyətinin xüsusiyyətləri, Moskva və Qars müqavilələrinin şərtləri, Türkiyə və İran dövlətləri ilə sərhəddə olması nəzərə alınmışdır.

1923-cü ilin iyununda Azərbaycan SSR MİK ikinci çağırış üçüncü sessiyası Naxçıvan SSR-in Naxçıvan muxtar ölkəsinə çevrilməsi və Azərbaycanın tərkibinə daxil olması haqqında qərarı təsdiq etdi.

1923-cü il dekabrın 31-də isə Azərbaycan SSR MİK Naxçıvan muxtar ölkəsinin Azərbaycan SSR-in tərkibində Naxçıvan Respublikası elan edilməsinin Zaqafqaziya MİK tərəfindən rəsmiləşdirilməsi xahişi ilə çıxış etdi. Zaqafqaziya MİK Azərbaycan SSR-in xahişini təsdiq etdi.

1924-cü il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Muxtar Respublikası barədə əsasnamə hazırlamaq üçün komissiya təşkil etdi. Aprel ayında Azərbaycan SSR MİK Naxçıvan MSSR barədə konstitusiya aktı qüvvəsində olan "Əsasnamə"ni təsdiq etdi. "Əsasnamə"yə görə Naxçıvan, Şərur, Ordubad qəzalarından ibarət olan və Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlanan qurum Azərbaycan SSR-in tərkibinə daxil edildi.

SSRİ-nin təşkilindən sonra Azərbaycan SSR-in konstitusiyasında dəyişikliklər və ZSFSR-in ikinci konstitusiyasının qəbul edilməsi. Azərbaycan SSR Konstitusiyasında dəyişikliklər və əlavələr edilməsi üçün 1924-cü ilin sentyabrında XKS sədri Q.M. Musabəyov, AK(b)MK katibi A.Q. Qarayev, ədliyyə komissarı B.K. Vəlibəyov, MİK katibi T.A. Şahbazov və MİK üzvü A. Axundovun daxil

olduğu Konstitusiya Komissiyası yaradıldı. 1924-cü il dekabrın 8-də Azərbaycan SSR MİK III sessiyasının müzakirəsindən sonra Azərbaycan SSR Konstitusiyasında əlavə və düzəlişləri qəbul etməklə onu Sovetlər qurultayının müzakirəsinə çıxardı.

1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər qurultayı Azərbaycan SSR Konstitusiyasında edilmiş düzəlişləri təsdiq etdi. Konstitusiyanın ikinci maddəsi Naxçıvan MSSR-in və DQMV-nin Azərbaycanın tərkibinə daxil edilməsini təsbit edirdi. Bununla da unitar Azərbaycan SSR dövlətinin tərkibinə iki muxtar qurum daxil edilirdi. Həmin maddənin sonunda SSRİ-nin, ZSFSR-in və Azərbaycan SSR-in bərabər vətəndaşlığı prinsipi təsbit olunurdu. 1925-ci il Konstitusiyasının 3-cü maddəsinə görə Azərbaycan SSR-in suverenliyi təsdiq edilirdi. Lakin SSRİ-nin və ZSFSR-in konstitusiyalarında nəzərdə tutulan məhdudiyyətlər Azərbaycan konstitusiyasında nəzərə alınırdı. Dəyişikliklərdən sonra (17-ci maddə) əvvəllər olduğu kimi Ümumrespublika Sovetlər qurultayını ildə iki dəfə deyil, bir dəfə çağırmaq nəzərdə tutulurdu, Azərbaycan SSR MİK-in üzvlərinin sayı artırılaraq 135 nəfərə çatdırıldı, Azərbaycan SSR MİK sessiyaları 3 ayda bir dəfə çağırılırdı. MİK fövqəladə sessiyaları Rəyasət Heyətinin təşəbbüsü ilə, XKS və ya MİK üzvlərinin üçdə birinin tələbi ilə toplanırdı (28-ci maddə).

Konstitusiyanın 30-cu maddəsinə görə Azərbaycan MİK XKS-nin qərarlarını təsdiq etmək, dayandırmaq və ya ləğv etmək səlahiyyətinə malikdir. Azərbaycan SSR-in bir sıra səlahiyyətləri ZSFSR və SSRİ-yə verildiyi üçün bəzi maddələr, o cümlədən xarici siyasət, xarici əlaqələr, müharibə elan etmək, sülh bağlamaq, borc krediti almaq, gömrük, silahlı qüvvələr və s. haqqında maddələr konstitusiyaya daxil edilməmişdi.

1924-cü il oktyabrın 25-də Azərbaycan SSR MİK-in qərarı respublikanın gerb və bayrağı barədə 1921-ci il Konstitusiyasında olan boşluqlara dair məsələləri aydınlaşdırdı. Azərbaycan SSR-in 1924-cü il iyulun 1-dən **latın qrafikasına** keçməsi ilə əlaqədar olaraq dövlət gerb və bayrağının da yeni qrafika ilə yazılması qanuniləşdirildi. 1925-ci il Konstitusiyasının 104-cü maddəsində gerb və bayrağı müəyyən edən normalar təsbit edilmişdi.

Beləliklə, SSRİ-nin və ZSFSR-in yaranması və Azərbaycan SSR-in yeni federasiyalara daxil olması, respublikanın hüquqi statusunda edilən dəyişikliklər və s. əlavələr Azərbaycan SSR-in 1925-ci il Konstitusiyasında öz əksini tapdı.

1924-cü il yanvarın 31-də SSRİ-nin birinci Konstitusiyası qəbul edildikdən sonra ZSFSR-in Konstitusiyasında dəyişikliklər edilməsi zərurəti yaranmışdı. 1925-ci il aprelin 14-də III Ümumzaqafqaziya Sovetlər qurultayı ZSFSR Konstitusiyasının mətnində edilmiş dəyişiklikləri təsdiq etdi.

Sovet bolşevik rejiminin möhkəmlənməsi, ZSFSR-in 1925-ci il ikinci Konstitusiyasının qəbul edilməsi, sosial-iqtisadi həyatda dəyişikliklər, təsərrüfat orqanlarına rəhbərlikdə yeni strukturların yaranması, yerli hakimiyyət orqanlarının fəaliyyət dairəsinin genişlənməsi, Azərbaycan SSR Konstitusiyasında dəyişiklik edilməsi Konstitusiyanın yenidən təsdiq edilməsini zəruri edirdi. Buna görə də 1925-ci il oktyabrın 10-da Konstitusiya Komissiyası yaradıldı. Komissiyanın tərkibinə Azərbaycan SSR MİK-in sədri S.A. Ağamalı oğlu (sədr), AK(b)P MK-nın nümayəndələri A.Q. Qarayev və R.A. Axundov, XKS-dən Q.M. Musabəyov, Xalq Ədliyyə Komissarlığından Q.M. Talıblı və Qabernkorn, Bakı Sovetindən İ.M. Konişkin daxil oldular.

1926-cı il yanvarın 26-da MİK-in dördüncü çağırış üçüncü sessiyasında Konstitusiyada edilmiş bəzi dəyişiklik və əlavələri nəzərə alaraq, onun təsdiq edilmək üçün Sovetlər qurultayına verilməsi tövsiyə edildi.

1927-ci il martın 26-da V Ümumazərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in Konstitusiyasını müzakirə edərək (mətni dəyişdirilmiş ikinci) onu təsdiq etdi.

Azərbaycan SSR-in 1927-ci il Konstitusiyası RSFSR-in 1925-ci il Konstitusiyası əsasında qurulmuşdu. Konstitusiya 5 bölmə, 9 fəsil və 101 maddədən ibarət idi. Birinci bölmə bir fəsildən ibarət olmaqla Konstitusiyanın ümumi əsaslarını müəyyən edirdi (cəmi 17 maddə), Konstitusiyanın 3-cü maddəsində ZSFSR və SSRİ tərkibində Azərbaycan SSR-in hüquqi statusu müəyyən edilirdi. Burada Azərbaycan SSR-in ZSFSR tərkibindən sərbəst çıxmaq hüququ göstərilirdi. 15-ci

maddə qurultaylarda, məhkəmələrdə, idarəçilikdə və respublikanın ictimai həyatı ilə bağlı məsələlərdə Azərbaycan SSR-in ana dilindən sərbəst istifadə hüququnu müəyyən edirdi.

İkinci bölmə 18-21-ci maddələri əhatə etməklə bir fəsildən ibarət idi. İkinci fəslə respublika sərhədlərinin təsdiq edilməsi, həmçinin vətəndaşlıqla bağlı məsələlər daxil edilmişdi.

Üçüncü bölməyə III-VIII fəsillər daxil idi. III fəsil mərkəzi hakimiyyətə, IV fəsil Azərbaycan SSR Ali Məhkəməsinə, V fəsil Naxçıvan MSSR və DQMV-yə, VI fəsil yerli hakimiyyət orqanlarına, VIII fəsil sovetlərə seçkilərə aid idi.

Dördüncü bölmə (VIII fəsil) respublika büdcəsini tənzim edirdi. Burada göstərilirdi ki, ZSFSR-in tərkib hissəsi olduğu üçün Azərbaycan SSR-in büdcəsi onun vasitəsilə vahid SSRİ-nin büdcəsinə daxil olur.

Beşinci bölmə və sonuncu doqquz fəsil Azərbaycan SSR-in gerb və bayrağını təsdiq edirdi.

Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasının yeni mətnində təsərrüfat orqanlarının işinə rəhbərlik etmək üçün Xalq Komissarları Soveti nəzdində iqtisadi müşavirə yaratmaq nəzərdə tutulurdu. Eyni zamanda əvvəllər ləğv edilmiş Xalq Maliyyə Komissarlığı bərpa edildi və Azərbaycan SSR Mərkəzi Statistika İdarəsi təsis olundu.

Yerli idarəçilik. Konstitusiyaya görə yerli hakimiyyət orqanları fəaliyyət dairələrini genişləndirməli, sovet hakimiyyətinin ali orqanlarının qərarlarını həyata keçirməli, qanun-qaydanın və ictimai təhlükəsizliyin qorunmasını təmin etməli idilər.

Dairələrin əraziləri Bakı qəzası istisna edilməklə genişləndirildiyi üçün onların sayı 108-ə qədər azaldıldı, kənd sovetlərinin sayı 1416 oldu.

1928-ci ilin oktyabr ayında Azərbaycan SSR XKS qəzaların ləğv edilməsi və **okruqların** yaradılmasına tərəfdar oldu. XKS-in rayonlaşdırma üzrə komissiyasında iqtisadi prinsip ilə yanaşı, tipoqrafik xüsusiyyətlər, idarəetmənin əlverişli olması və rabitə yollarının olması nəzərə alınırdı.

1929-cu ilin martında Zaqafqaziya Ölkə Komitəsi "ZSFSR-in rayonlaşdırılması haqqında" qərar qəbul etdi. Zaqafqaziyada, o cümlədən Azərbaycan SSR-də **okruq, rayon və kənd sovetləri** bölgüsü yaradılması nəzərdə tutulurdu.

1929-cu il aprelin 8-də VI Ümumazərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in **yeni inzibati-təsərrüfat bölgüsü** haqqında qərar qəbul etdi. Qərara görə Naxçıvan MSSR-in və DQMV-nin sərhəd və hüquqlarını pozmadan, respublikanın okruq, dairə və kənd sovetləri inzibati-ərazi bölgüsünün həyata keçirilməsinə başlanıldı.

1929-cu ilin birinci yarısında 13 qəza ləğv olundu və (Naxçıvan MSSR-dən başqa) 8 okruq: Bakı, Quba, Lənkəran, Şirvan, Muğan (Salyan), Zaqatala-Nuxa, Gəncə və Qarabağ okruqları təşkil edildi. Dairələrin sayı isə azaldılıb 108-dən 59 dairəyə çatdırıldı.

Lakin 1930-cu il iyulun 23-də SSRİ XKS MİK "Dairələrin ləğv edilməsi barədə" qərar qəbul etdi. Azərbaycan SSR XKS MİK İttifaq XKS-nin qərarına uyğun olaraq dairələri ləğv etdi və rayon inzibati-ərazi vahidlərinin yaradılmasına başladı. Nəticədə Naxçıvan MSSR və DQMV-də daxil olmaqla rayonların sayı 63-ə çatdırıldı. Beləliklə, Azərbaycan SSR-də inzibati-ərazi bölgüsündə aparılan dəyişikliklərə görə 8 okruq, 63 rayon yaradıldı. Naxçıvan MSSR və DQMV istisna edilməklə yeni inzibati bölgüyə görə Azərbaycan SSR tərkibində heç bir muxtar qurum və ya rayon mövcud olmamışdır. Bir müddət sonra 1932-ci ildə rayonların əraziləri genişləndirilərək onların sayı (Naxçıvan MSSR və DQMV-dən başqa) 47-yə qədər azaldıldı.

1930-cu ildə kənddə kollektivləşmə proqramına uyğun olaraq "Kənd sovetlərinin təşkil olunmasına dair" Əsasnaməni SSRİ MİK Rəyasət Heyəti təsdiq etdi. Sovetlərə seçkiləri hazırlamaq və keçirmək üçün Bakıdan 200 sovet işçisi və 150 Bakı fəhləsi kəndlərə göndərildi. Seçkilərdə kənd sovetlərinə ümumilikdə 43883 nəfər seçilmişdi.

Respublika mərkəzi və yerli inzibati-ərazi vahidlərində edilmiş dəyişikliklər və digər əlavələr nəzərə alınaraq VII Ümumazərbaycan Sovetlər qurultayı 1931-ci il fevralın 14-də Azərbaycan SSR Konstitusiyasını (mətni dəyişdirilmiş üçüncü) təsdiq etdi. 1930-cu il

martın 21-də MİK və XKS-nin birgə qərarı ilə respublika daxili işlər və ədliyyə xalq komissarlıqları ləğv edildi. Ədliyyə Komissarlığının funksiyaları XKS-nin qanunçuluq şöbəsinə, inzibati idarə orqanının funksiyası isə Respublika Ali Məhkəməsinə verildi. Azərbaycan Dövlət Siyasi İdarəsinə isə baş milis və cinayət axtarışı idarələri tabe edildi. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı (VVAQ) idarəsi Azərbaycan SSR MİK təşkilat işləri idarəsinə verildi. Həmçinin yerlərdə VVAQ idarələrinə ümumi rəhbərliyi Respublika Ali Məhkəməsi həyata keçirirdi.

1930-cu il mayın 5-də Mərkəzi Statistika İdarəsi müstəqil komissarlıq kimi ləğv edil və onun funksiyaları Dövlət Plan Komitəsinə verildi. Eyni zamanda müstəqil Maddi Təchizat Komissarlığı da yaradıldı.

1931-ci il Konstitusiyasına prokurorluğa dair maddələr də daxil edilmişdi. IV fəsil "Azərbaycan SSR Ali Məhkəməsi və Prokurorluğu haqqında" maddələri özündə birləşdirirdi. Konstitusiya görə Ali Məhkəmə və Prokurorluq Azərbaycan MİK tərəfindən təsis edildi. Ali Məhkəmənin sədri və respublika prokuroru XKS-in iclaslarında həlledici səslə iştirak edirdi.

1931-ci il Konstitusiyasına görə komissarlıqların sayı 11-dən 9-a qədər azaldıldı. Ümumazərbaycan Sovetlər qurultayı isə iki ildə bir dəfə, Azərbaycan MİK-i və onun Rəyasət Heyəti qurultaylararası dövrdə 3 dəfədən az olmayaraq sessiyaya toplaşmalı idi.

Konstitusiyanın 64-cü maddəsinə görə rayon icraiyyə komitələrinin rəyasət heyəti yaradıldı. Onların sayı respublika MİK tərəfindən müəyyən edilirdi. Rayon İcraiyyə Komitəsinin Rəyasət Heyəti üzvlərinin səlahiyyətləri keçmiş qəza komitələrinin səlahiyyətlərinə uyğunlaşdırılmışdı. Yerli sovetlərin səlahiyyətləri 2 il müəyyən edilirdi.

1930-cu il martın 14-də Azərbaycan SSR MİK-i dövlət gerbinin yeni təsvirini təsdiq etdi. Konstitusiyanın 99-cu maddəsində gerbin yeni təsviri, 100-cü maddəsində isə dövlət bayrağı latın qrafikasında verilirdi. 1935-ci il yanvarın 14-də VIII Ümumazərbaycan Sovetlər qurultayı Azərbaycan SSR Konstitusiyasında (mətni dəyişdirilmiş dördüncü) əlavələr və düzəlişlər etdi. Konstitusiyanın yeni mətninin 68-ci maddəsində göstərilirdi ki, Azərbaycan SSR ərazisində yara-

dılmış şəhər, qəsəbə və kənd sovetləri deputatları seçicilərin sayına uyğun olaraq MİK tərəfindən müəyyən edilən əsaslarla qanunverici hakimiyyətdə təmsil olunurlar. 13-cü maddə Azərbaycan SSR vətəndaşlığının verilməsi hüquqlarından bəhs edirdi. 51 və 52-ci maddələr birləşdirilərək Ali Məhkəmə və Prokurorluq orqanlarının hüquqi əsasını və səlahiyyətlərini müəyyən edirdi. Əvvəlki Konstitusiya mətnlərində olan "Azərbaycan Sovetlər qurultayı" və "Azərbaycan mərkəzi icraiyyə komitələri" ifadələri, "Ümumazərbaycan Sovetlər qurultayı" və "Ümumazərbaycan Mərkəzi İcraiyyə Komitəsi" ilə əvəz edildi. 3-cü maddənin sonunda "Azərbaycan SSR-in ZSFSR tərkibindən sərbəst çıxması" sözünə "SSRİ tərkibindən ZSFSR Konstitusiyasında nəzərdə tutulan qaydalar əsasında çıxa bilməsi" ifadəsi əlavə edilirdi. Konstitusiyaya görə Ümumazərbaycan Sovetlər qurultayı Naxçıvan MSSR və DQMV nümayəndələrini də öz tərkibində birləşdirirdi. 34-cü maddə Ümumazərbaycan MİK-in SSRİ MİK-in təsdiqinə Zaqafqaziya MİK vasitəsilə SSRİ orden və medalları ilə təltif olunma barədə təqdimat verə bilməsini nəzərdə tuturdu. Beləliklə, 1931-ci il Konstitusiyasının 101 maddəsindən 47-nə əlavələr və düzəlişlər edilmişdi.

Məhkəmə sistemi. Azərbaycanda bolşevik çevrilişindən sonra məhkəmə sistemində əvvəllər mövcud olmuş məhkəmə aparatı ləğv edildi. 1920-ci il mayın 2-də Azərbaycan SSR Xalq Ədliyyə komissarlığı keçmiş hökumətin bütün ədliyyə orqanı işçilərinə mülki və cinayət işləri üzrə işləri dərhal dayandırmaq barədə göstəriş verdi. Mayın 13-də isə Azərbaycan Hərbi İnqilab Komitəsi məhkəmə palatasının, Bakı və Gəncə dairə məhkəmələrinin, prokuror və istintaq orqanlarının, andlılar və fərdi vəkillik orqanlarının ləğv edilməsi haqqında dekret imzaladı. "Xalq məhkəmələri haqqında" verilmiş dekretdə xalq məhkəmələri yaradılması nəzərdə tutulmuşdu. Xalq Ədliyyə Komissarlığı yeni məhkəmələrin təşkil olunmasını tənzimləməli idi. Məhkəmə orqanlarının təşkilində RSFSR-in məhkəmə sistemi təcrübəsindən istifadə edilirdi.

Xalq məhkəmələrinin təşkili haqqında dekretə uyğun olaraq hakimlər sovetlər tərəfindən seçilməli və ədliyyə komissarlığının təq-

dimatı ilə XKS tərəfindən geri çağırılmalı idi. Lakin yaranmış şəraitdə seçkili hakimiyyət olan sovetlər təşkil edilmədiyinə görə hakimlər inqilab komitələri tərəfindən təyin edilirdi.

1920-ci il may-sentyabr aylarında, demək olar ki, bütün Azərbaycan SSR ərazisində xalq məhkəmələri yaradıldı. Bakı və Bakı qəzasında 1920-ci ilin iyununda 12 xalq məhkəməsi və mühüm cinayət işləri üzrə dörd məhkəmə təşkil edildi. 1920-ci ilin dekabrında Naxçıvanda xalq məhkəmələri yaradıldı.

Azərbaycan SSR ərazisində yaradılmış xalq məhkəmələri, xüsusi cinayətlər və əksinqilabi işlər istisna olmaqla, bütün cinayət və mülki işlərə baxırdı. Cinayət işlərinin əhəmiyyətliliyi nəzərə alınaraq onlar yalnız iki və ya altı nəfər iclasçının iştirakı ilə baxılırdı.

İnqilab Komitəsinin dekretinə əsasən kassasiya instansiyası respublikanın bütün hakimləri tərəfindən seçilmiş Xalq Hakimləri Soveti idi. 1920-ci il iyunun 1-də Ədliyyə Komissarlığının təqdimatı ilə İnqilab Komitəsi tərəfindən təsdiq edilmiş 4 nəfər üzvdən ibarət Müvəqqəti Xalq Hakimləri Soveti yaradıldı. Xalq Hakimləri Soveti iki şöbədən – cinayət və mülki şöbədən ibarət idi.

Xalq məhkəmələri nəzdində yaradılmış istintaq komissiyası ibtidai istintaq funksiyasını yerinə yetirirdi. İstintaq komissiyası sədrdən və iki nəfər üzvdən ibarət idi.

1920-ci il noyabrın 5-də Azərbaycan İnqilab Komitəsi "Xalq müstəntiqlərinin "Əsasnamə"sini təsdiq etdi. "Əsasnamə"yə görə istintaq komissiyalarının əvəzinə vahid əsaslarla fəaliyyət göstərən xalq müstəntiqləri institutu yaradıldı.

Bolşevik rejimi hakimiyyətə gəldikdən dərhal sonra Hərbi İnqilab Komitəsi "əksinqilabla" mübarizə adı ilə Müvəqqəti Hərbi İnqilab Tribunalını təsis etdi. 1920-ci il mayın 20-də isə Hərbi İnqilab Tribunalının "Əsasnaməsi" təsdiq edildi. Sovet quruluşuna qarşı təhlükə törədənlər, "inqilab" və onun nailiyyətlərini pozmağa çalışanlar, həmçinin Qızıl Ordunun zəifləməsinə yönəlmiş hərəkətlər hərbi tribunallarda mühakimə edilirdi.

Hərbi Tribunalın tərkibinə Azərbaycan SSR İnqilab Komitəsi tərəfindən təyin edilən sədr, müavin, iki nəfər daimi üzv və onların

müavinləri daxil idi. Ali hərbi tribunallardan başqa Azərbaycan SSR ərazisində hərbi-səhra tribunalları və Xəzər donanma hərbi tribunalı təşkil edilmişdi.

Azərbaycan SSR-də fəaliyyət göstərən məhkəmə institutları Xalq Ədliyyə Komissarlığının nəzarətində idi. Yerlərdə əvvəllər qəza təlimatçıları, sonralar isə qəza icraiyyə komitələri nəzdində fəaliyyət göstərən ədliyyə şöbələri ümumi nəzarəti həyata keçirirdi.

Əmək intizamını möhkəmləndirmək, əmək məhsuldarlığını artırmaq məqsədi ilə İnqilab Komitəsi 1920-ci il 28 iyul dekreti ilə intizam-yoldaşlıq məhkəmələrini yaradırdı. Dekretin 2-ci maddəsinə əsasən intizam-yoldaşlıq məhkəmələri müəssisələrdə, idarələrdə və qəza istehsalat şöbələrinin həmkarlar ittifaqlarında təsis edilirdi. İntizam-yoldaşlıq məhkəmələrinin tərkibinə bir nəfər müəssisə və ya idarə, bir nəfər həmkarlar təşkilatı və bir nəfər mühakimə ediləcək müəssisənin ümumi yığıncağı tərəfindən seçilmiş səlahiyyətli nümayəndə daxil edilirdi. Məhkəmələrin çıxardığı qərarlardan şikayət etmək üçün 1920-ci il oktyabrın 23-də ali intizam-yoldaşlıq kassasiya məhkəməsi təsis edilirdi. Onun tərkibinə həmkarlar təşkilatı, Əmək Komissarlığı və XKS-in hərəsindən bir nümayəndə daxil edilirdi. Ali intizam-yoldaşlıq məhkəməsi Azərbaycan İnqilab Komitəsi tərəfindən təsdiq edilirdi. Ali intizam-yoldaşlıq məhkəməsinin yekun iclaslarına Xalq Ədliyyə Komissarlığının nümayəndəsi dəvət edilirdi.

1920-ci il iyulun 12-də Azərbaycan Hərbi İnqilab Komitəsinin dekreti ilə münsiflər məhkəməsi yaradıldı. Əmək qanunvericiliyinə aid edilən işlər istisna olunmaqla, münsiflər məhkəməsi mülki işlərə dair mübahisələrə baxırdı. Münsiflər məhkəməsində kassasiya instansiyası Xalq Hakimlər Soveti idi.

1920-ci il avqustun 8-də verilmiş Xalq Ədliyyə Komissarlığına dair "Təlimat"a görə hüquqi yardım bürosu yaradıldı. Bakıda 8 nəfərdən ibarət müttəhim, 28 nəfərdən ibarət müdafiə bölməsi kollegiyaları təşkil edildi.

Xalq məhkəmələrinə dair Əsasnamənin 42 və 43-cü maddələrinə görə ictimai ittihamçı və ictimai müdafiə institutları təsis edilirdi.

Ordu. Bolşevik rejimi XI Qızıl Orduya arxalansa da, öz hərəkət-

lərinə milli çalarlar vermək üçün 1920-ci il mayın 7-də Azərbaycan SSR-in Qızıl Ordu və Donanmasını yaratmaq barədə dekret imzaladı. Partiya və həmkarlar ittifaqlarına gəncləri "könüllü" olaraq orduya cəlb etmək tapşırılırdı. Qızıl Ordu üçün yerli kadrlar hazırlamaq məqsədilə xüsusi hərbi məktəblər və kurslar təşkil edilirdi. "Əksinqilabla" mübarizə üçün Azərbaycan Hərbi İnqilab Komitəsinin 1920-ci il 28 aprel dekreti ilə Fövqəladə Komissiya (FK) yaradıldı. Daxili "düşmənlərə" qarşı mübarizədə Fövqəladə Komissiya xüsusilə fəallıq göstərirdi.

Azərbaycanda sovet hüququnun yaranması və onun əsas cəhətləri

Hüququn mənbələri. Azərbaycan SSR-də hüququn əsas mənbələrinə Fəhlə, Kəndli, Əsgər və Matros Deputatları Sovetlərinin qurultaylarının qərarları, həmçinin Xalq Komissarları Sovetinin dekretləri, qərarları və qətnamələri daxil idi. Qanunverici və icraedici orqanların normativ aktları hüquq normalarına daxil olmaqla hüquqyaratmada əhəmiyyət kəsb edirdi. Normativ aktlar arasında əsas yeri qanun və hökumətin normativ sərəncamları tuturdu. Qanunlar əhəmiyyətinə görə iki növə ayrılır: a) əsas və ya konstitusiya əhəmiyyətli qanunlar; b) cari və ya adi qanunlar. Əsas qanuna Azərbaycan SSR Konstitusiyası, ZSFSR-in Konstitusiyası, SSRİ Konstitusiyası və Naxçıvan MSSR Konstitusiyası aid edilirdi. Azərbaycan SSR qanunvericiliyinin hüquqi bazası olan Konstitusiya Fəhlə, Kəndli, Əsgər və Matros Sovetləri qurultayı tərəfindən təsdiq olunurdu. Adi qanunlar isə Azərbaycan SSR MİK və ya MİK Rəyasət Heyəti tərəfindən iqtisadi, ictimai və dövlət quruculuğunun ayrı-ayrı məsələləri üzrə qəbul edilirdi.

Sovet hüququnun mənbələrindən olan, hökumətin kollegial qaydada qəbul etdiyi ümumi xarakterli qərar və sərəncamlar əsasən dövlət idarəçiliyi məsələlərini nizamlayırdı. Yerli dövlət hakimiyyəti və dövlət idarəsi orqanlarının normativ aktları da hüquq mənbəyinə daxil edilir. Yerli sovetlərin və onların icraiyyə komitələrinin qərarları

normativ akt hesab olunurdu. Həmkarlar ittifaqlarının, kooperativ təşkilatlarının və digər ictimai birliklərin hökumət tərəfindən sanksiyalaşdırılmış normativ aktlarını da hüququn mənbələrinə daxil etmək olar. Azərbaycan SSR elan olunduqdan sonra dərhal hüquq sisteminin yaradılmasının mümkün olmamasına görə, bolşevik rejimi sovet qanunları ilə yanaşı ADR və çar Rusiyası dövründə mövcud olmuş köhnə hüquqlardan da müvəqqəti istifadə edirdi. Yeni qanunvericiliyi yaratmaq və sistemləşdirmək prosesində isə sovet rejiminin köhnəlmiş hesab etdiyi hüquq aktları çıxarılır, ziddiyyətli maddələr ləğv edilir, yeni hüquq münasibətlərini tənzimləyən normalar məcəllələrə daxil edilirdi.

SSRİ təşkil edildikdən sonra mərkəzi hökumət qanunvericiliyin sistemləşdirilməsi prosesini sürətləndirərək İttifaq miqyasında və müttəfiq respublikalar üçün hüquqi mənbə olan qanunvericilik sistemi yaratdı. Belə ki, yeni sovet ictimai və dövlət quruluşunun tələblərinə cavab verən, məzmunca və mahiyyətcə iri qanunvericilik aktlarının məcəllələşdirilməsi prosesi və qüvvədə olan qanunvericilik aktlarını mahiyyətcə, məzmunca dəyişiklik edilmədən inkorporasiyası, yəni sadəcə olaraq sistemləşdirilməsi prosesi başa çatdırıldı.

Mülki hüquq. Azərbaycanda sovet hakimiyyətinin mülki hüquq sahəsində keçirdiyi ilk tədbirlərdən biri İnqilab Komitəsinin 5 may 1920-ci il dekreti ilə torpaq üzərində xüsusi mülkiyyətin ləğv edilməsi olmuşdur. Dekretə görə xan, bəy, mülkədar, həmçinin məscid, monastır, kilsə torpaqları və onlara məxsus əmlaklar "əməkçi xalqa" verilirdi.

İnqilab Komitəsinin 1920-ci il 27 may dekreti ilə Azərbaycanın neft sənayesi xalqın ümumi sərvəti elan edilirdi. İyunun 11-də digər dekretlə bank sistemi dövlətin inhisarına verilirdi.

Mayın 19-da Xalq Daxili İşlər Komissarlığının əmrilə respublikada vətəndaşlıq vəziyyəti aktları qeydiyyata alınırdı. Avqust ayında XDİK-nın verdiyi təlimatla sovetlər təşkil edilənə qədər VVAQ idarəsi yerli inqilab komitələrinə həvalə edilirdi. XKS-in dekabrın 21-də verdiyi qərarla 18 yaşına çatmış hər vətəndaş öz adını və soyadını dəyişdirmək hüququna malik idi.

Hərbi kommunizm siyasətindən imtina edilməsi ilə əlaqədar olaraq Azərbaycan İnqilab Komitəsi "Bütün növ ərzaq üzərində inhisarın" ləğv edilməsi barədə dekret verdi. Əmtəə mübadiləsini nəzərdə tutan **hərbi kommunizm (ərzaq sapalağı)** əhali tərəfindən bütün ərzağın hökmən təhvil verilməsi prinsipini müəyyən edirdi. Ərzaq Komissarlığı təhvil verilmiş məhsulları dövlət və kooperativ dükanları vasitəsi ilə əhali arasında bölüşdürürdü. Xüsusi ticarət mütəşəkkil dövlət bölgüsü ilə əvəz edildi. İstehlak kooperasiyası ərzağın əhali arasında bölüşdürülməsinə cəlb olunmuşdu. Kooperasiyaya üzv olmaq bütün əhali üçün məcburi elan edilmişdi. Əhaliyə əvəzsiz dövlət xidmətləri göstərildiyindən, bazarın iştirakı olmadan ərzaq mübadiləsi həyata keçirildiyindən və əmtəələr pulsuz olduğundan dövlətin belə siyasəti "hərbi komunizm" adını almışdı. Yeni iqtisadi siyasətə keçməklə dövlət azad ticarətə icazə verdi. Kooperasiyanın bütün sadə formalarının – istehlak, kənd təsərrüfatı, kredit, sənət və başqa formalarının inkişafına şərait yarandı. Müəssisələrin konsessiyaya (icarəyə) verilməsi praktikasından daha geniş istifadə olunmağa başlandı.

Mülki qanunvericilikdə kustar sənaye və kooperasiyaya xüsusi diqqət verilirdi. Azərbaycan SSR XKS 1921-ci il iyunun 27-də "kooperasiya tələbatı haqqında", sentyabrın 18-də "Kustar sənayesi və sənaye kooperasiyası haqqında hakimiyyət orqanlarına istiqamətverici göstəriş", 1922-ci il martın 10-da "Azərbaycanda kənd təsərrüfatı kooperasiyası haqqında", aprelin 20-də "Kənd təsərrüfatı kooperativləri və onların ittifaqının qeydiyyata alınması haqqında" mülki aktları qəbul etdi. Mülki qanunvericilik dövlət mülkiyyəti ilə yanaşı kooperativ sosialist mülkiyyətinin inkişafına da xüsusi diqqət verirdi. Kooperativ mülkiyyət kooperativ təşkilata məxsus olan qrup mülkiyyəti idi. Belə mülkiyyətə yalnız kooperativ təşkilatı sərəncam vermək hüququna malik idi.

Bolşevik rejimi fəhlələrin mənzil şəraitini yaxşılaşdırmaq üçün 1920-ci ilin mayında Hərbi İnqilab Komitəsinin qərarı ilə burjuaziyaya məxsus evlərin müsadirə edilməsinə başladı. Yaşayış sahəsi üçün norma Bakı Şəhər İcraiyyə Komitəsinin qərarı ilə 15 kv. arşin müəyyən edilirdi. Şəhərdə bələdiyyələşdirilmiş kiçik həcmli evlər

sakinlər kollektivlərinə verilirdi. Sovet hakimiyyəti dağıtdığı iqtisadiyyatı tez bir zamanda bərpa edə bilməyəcəyini anlayaraq dövlət əhəmiyyətli olmayan xırda müəssisələri kooperativ və xüsusi şəxslərə icarəyə verməyi qərara aldı. Xüsusi şəxslərə kustar istehsalı ilə məşğul olmağa, səhmdar və qarşılıqlı kredit cəmiyyətləri yaratmağa icazə verildi. Mülki qanunvericilik şəxsi sahibkara tam təminat hüququ vəd edirdi.

1921-ci il oktyabrın 27-də Azərbaycan SSR MİK-in sərəncamı ilə dövlət müəssisələrinin istehsal etdikləri məhsulun əvəzinə pul sistemi ilə ödənişə keçirilməsi ilə əlaqədar olaraq sovet müəssisələrinin təchiz edilməsində dövlət təminatı ləğv edilirdi. Respublika ərazisində mövcud olan müəssisələr büdcə maliyyələşdirilməsində təsərrüfat hesablı maliyyələşdirilmə sisteminə keçirdilər.

Yeni iqtisadi siyasətə keçid **öhdəlik hüququnun** tətbiq edilməsi dairəsini genişləndirirdi. Öhdəlik müqavilələrindən alqı-satqı müqaviləsi daha böyük əhəmiyyət kəsb edirdi. Belə ki, sovet dövlət müəssisələrində təsərrüfat hesablı pullu ödəniş sisteminə keçilməsi ilə əlaqədar istehsal edilən məhsulların alqı-satqısında öhdəlik hüquq münasibətləri dövlət müəssisələri və təsərrüfat təşkilatları arasında istifadə edilən əsas müqavilə forması idi. Dövlət müəssisələrinə lazım olan xammal, material, yanacaq və s. istehsalına və onların alqı-satqısına tam sərbəstlik hüququ verilirdi. 1921-ci il noyabrın 15-də Ali İqtisadi Şura "Dövlət istehsalı olan əmlakın və ya məhsulların satışına dair" Əsasnaməni qəbul etdi.

RSFSR və Zaqafqaziya respublikaları arasında əmlak alqı-satqısını yaxşılaşdırmaq üçün bütün gömrük və ərzaq məhdudiyyətləri Ali İqtisadi Şuranın 1921-ci il 13 iyun qərarı ilə ləğv edildi. İdxal və ixrac edilən məhsulların Azərbaycan SSR gömrük orqanlarında tənzim edilməsinin yeni qaydaları müəyyən olunurdu. RSFSR Mülki Məcəlləsinin qəbul edilməsindən sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Ədliyyə Komissarlığına Rusiya qanunvericiliyi əsasında respublikanın Mülki Məcəlləsini hazırlamaq tapşırılırdı.

1923-cü il iyunun 16-da Azərbaycan SSR MİK ikinci çağırış üçüncü sessiyasında RSFSR Mülki Məcəlləsinin bir sıra mövcud

bölmələri ilə yanaşı Azərbaycan SSR Ədliyyə Komissarlığı tərəfindən hazırlanmış nikah, ailə və qəyyumluqla bağlı bölmələr də maddələr üzrə müzakirə edilərək məcəlləyə daxil edildi.

Azərbaycan SSR MİK **Mülki Məcəlləni** təsdiq edərək onun dərc olunduğu gündən qüvvəyə mindiyini elan etdi. 1923-cü il sentyabrın 8-də Mülki Məcəllə "Bakinskiy raboçiy" qəzetində dərc edildi.

Mülki Məcəllə haqqında MİK-in qərarında göstərilirdi ki, 1920-ci il aprelin 28-dən Mülki Məcəllənin qüvvəyə mindiyi tarixə qədərki dövrdə mövcud olmuş mülki münasibətlərdəki mübahisələr hadisənin baş verdiyi vaxtda qüvvədə olan qanunvericiliklə tənzim edilir, lakin həmin dövrdə mövcud qanunvericilikdəki boşluqları nəzərə alan MİK Azərbaycan SSR-in yeni Mülki Məcəlləsindən də istifadə etməyi tövsiyə edirdi.

Azərbaycan SSR Mülki Məcəlləsi əvvəlki dövrlər üçün yalnız sovet dövlətinin mənafeyinə cavab verdikdə tətbq edilirdi. Devrilmiş Azərbaycan Demokratik Respublikası hökumətinin və "zəhmətkeş" olmayan təbəqələrinin xeyrinə Məcəllənin təfsir edilməsi qadağan edilirdi.

Mülki Məcəllə bütün Azərbaycan SSR ərazisində qüvvədə idi. Mülki Məcəllə 524 maddədən ibarət olmaqla onlardan yalnız 83-ü şərhlə verilirdi.

Digər Sovet respublikalarından fərqli olaraq, Azərbaycan SSR-in Mülki Məcəlləsinə əlavə olaraq üç bölmə – nikah, ailə və qəyyumluq haqqında 88 maddə (436-524-cü maddələr) daxil edilmişdir. Yeni iqtisadi münasibətləri tənzim edən Mülki Məcəllə əmlak münasibətlərini sosializm quruculuğunun mənafeyinə uyğun nizamlayırdı. Mülki Məcəllənin yarandığı vaxtdan onun müvəqqəti olması və keçid mərhələsində istifadə olunması zəruri bir proses kimi göstərilirdi. Tezliklə yeni mülki məcəlləni hazırlamaq zərurəti yarandı. Belə ki, Mərkəzi İcraiyyə Komitəsinin sessiyalarında və sessiyalararası dövrdə MİK-in Rəyasət Heyəti Mülki Məcəllədə çoxsaylı əlavələr və düzəlişlər edirdi.

Kənd təsərrüfatında kooperasiyanın inkişaf etdirilməsinin tərəfdarı olan Azərbaycan SSR MİK və Xalq Komissarları Soveti kənd

əməkçilərini sosializm quruculuğuna cəlb etmək üçün 13 sentyabr 1924-cü ildə "Kənd təsərrüfatı kooperasiyası haqqında" birgə qərar qəbul etdi. 1925-ci il noyabrın 14-də Azərbaycan İstehlakçılar Cəmiyyətinin (Azərittifaqın) Nizamnaməsi təsdiq edildi. Qanunvericiliklə təsdiq olunmuş belə tədbirlər kooperativ mülkiyyətinin sosial təbiətini, onun keyfiyyətcə dəyişməsi prosesini sürətləndirdi.

1927-ci ilin oktyabrından başlayaraq birinci beşillik planlı təsərrüfata keçilməsi, çoxsaylı müəssisələrin tikilib istifadəyə verilməsi, yeni təsərrüfat forması olan kollektiv təsərrüfatların (kolxozların) yaranması qanunvericilikdə plan və təsərrüfat hesabının əlaqələndirilməsini zəruri edirdi.

Qanunvericilik aktlarında təsərrüfatlar arasında müqavilə əlaqələrinin formaları, müqavilələrin konkret məzmunu, şərtləri, o cümlədən tədarük olunan məhsulların keyfiyyətinə əməl edilməsi xüsusilə qeyd edilirdi. Şərtləri yerinə yetirməmiş tərəf üçün aşağıdakı sanksiyalar nəzərdə tutulurdu: cərimə, dəbbə pulu, dəymiş zərərin ödənilməsi. Müxtəlif səbəblərə görə bu və ya digər tərəfin müqaviləni icra etməkdən azad olunması barədə müqavilələrə bənd daxil etmək qadağan idi. Hətta cəriməni vermiş və digər tərəfə dəymiş zərəri ödəmiş olduğu halda belə, tərəf müqavilənin icrasından azad edilmirdi. Müqavilə bağlamış təşkilat müqaviləni yerinə yetirməkdən birtərəfli imtina etmək və ya onun şərtlərini dəyişdirmək hüququna malik deyildi.

İttifaqın səlahiyyətinə daxil olan kredit sistemini təkmilləşdirmək üçün SSRİ MİK və XKS 1930-cu il yanvarın 30-da "Kredit islahatı haqqında" qərar qəbul etdilər. Kredit islahatına qədər kommersiya kredit vermə sistemi mövcud idi. Kommersiya krediti, yeni iqtisadi siyasətin ilk illərində iqtisadiyyatın dirçəlməsinə kömək etsə də, sonradan təsərrüfat orqanlarının fəaliyyətində geriləməyə səbəb olurdu. Tədarük planını yerinə yetirməmiş müəssisə və ya bank kreditdən məhrum edilirdi. Yenidən kreditə ehtiyacı yarandıqda təsərrüfat orqanı digər təsərrüfatlara müraciət edərək gələcək tədarük hesabına onlardan zəruri dövriyyə vəsaiti alırdı.

1930-cu il kredit islahatı kommersiya kreditini ləğv edirdi. Kom-

mersiya krediti bank tərəfindən verilən birbaşa kreditlərlə əvəz edilirdi. Eyni zamanda bütün pul hesablamalarını bir təsərrüfat hesabından başqasının hesabına köçürmək yolu ilə bankın vasitəsilə aparmaq zəruri idi. Bir müəssisəsinin digərinə bilavasitə kreditlə mal buraxması, avans verməsi və ümumiyyətlə, hər hansı pul vəsaiti verməsi qadağan edilirdi. Bununla əlaqədar olaraq veksel (qiymətli banknot) tətbiq etmək imkanı aradan qalxdı.

1931-ci il aprelin 9-da SSRİ MİK-in və XKS-in qəbul etdiyi "İxtiralar və texniki təkmilləşdirmələr" haqqında əsasnamə qüvvəyə mindi. İxtiraçılıqda daha fəal iştirak etmək və ixtiraları sovet dövlətinin möhkəmlənməsinə cəlb etmək üçün geniş imkanlar yaradıldı. Patent sistemi əvvələr də mövcud olmuşdur və bu sistem patent verməklə ixtiraçının öz ixtirasına hüququnu möhkəmləndirirdi. Əsasnamənin qəbulundan sonra ixtiranın müəllifi öz istəyinə görə patent və ya müəllif şəhadətnaməsi ala bilərdi. İxtira dövlət mükafatına da təqdim edilə bilərdi.

Ailə hüququ. 1920-ci il mayın 22-də Azərbaycan Xalq Daxili İşlər Komissarlığının əmri ilə doğum, ölüm, nikahın bağlanması, adın, familiyanın dəyişdirilməsi faktının qeydiyyatı inqilab komitələri yanında fəaliyyət göstərən VVAQ şöbələrinə həvalə edilirdi. Mayın 25-də isə Hərbi İnqilab Komitəsi "Notariat haqqında" dekretində göstərirdi ki, vətəndaşlıq vəziyyəti aktları – uşağın doğulması və ona ad, ata adı və familiyası verilməsi, nikahın bağlanması, onun pozulması, övladlığa götürmə, atanın müəyyənləşdirilməsi, ölüm haqqında məlumatlar müstəsna olaraq Daxili İşlər Komissarlığına tabe edilmiş orqanlar tərəfindən qeydiyyata alınmalıdır.

1920-ci il iyulun 20-də Azərbaycan SSR-in Ədliyyə Komissarlığı "Mülki nikah, uşaqlar və vətəndaşlıq vəziyyəti aktı kitabları haqqında" dekret hazırladı. Dekretdə nikah yaşı qafqazlı qadınlar üçün 14 il, digər qadınlar üçün isə 16 il, kişilər üçün isə 18 il müəyyən edilirdi. Lakin Hərbi İnqilab Komitəsi dekreti imzalamadı.

1920-ci il avqustun 27-də Daxili İşlər Komissarlığı tərəfindən "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı" idarələri üçün "Təlimat" hazırlandı. "Təlimat"da nikah, uşaqlar və vətəndaşlıq vəziyyə-

ti aktı kitabları haqqında sənədin əsas müddəalarının izahı verilirdi.

"Təlimat"ın birinci maddəsində deyilirdi ki, vətəndaşlıq vəziyyəti aktları müstəsna olaraq mülki hakimiyyət tərəfindən aparılır. İkinci maddə aktları qeydiyyata alan idarələrə Xalq Daxili İşlər Komissarlığı şöbəsi nəzdində fəaliyyət göstərən mərkəzi, şəhər və qəza sovetləri nəzdində fəaliyyət göstərən yerli şöbələri daxil edirdi. Lakin qeyd edilirdi ki, deputat sovetləri və icraiyyə komitələri yaradılana qədər vətəndaşlıq vəziyyəti aktları müvafiq şəhər inqilab komitələrində, kənd yerlərində isə kənd inqilab komitələrində qeydiyyata alınmalıdır.

"Təlimat" VVAQ orqanlarında qeydiyyata alınmış nikahı hüquqi qüvvəyə malik hesab edilirdi. Məscid nikahı qanunla mühafizə edilirdi. Qeydiyyatdan keçmiş nikah ər və arvadın qarşılıqlı hüquqlarını müəyyən edirdi. Ər-arvaddan hər biri öz əmlakına olan hüququnu saxlayırdı, çünki kəbin kəsilməsi əmlak ümumiliyi yaratmırdı.

Azərbaycan SSR MİK-in 9 fevral 1923-cü il "1920-ci il aprelin 28-nə qədər kəsilmiş kəbin aktlarına dair" dekretinin mühüm əhəmiyyəti var idi. Dekretdə göstərilirdi ki, 1920-ci il aprelin 28-dən sonra Sovet hakimiyyəti orqanlarında deyil, şəriət qaydaları ilə bağlanmış kəbin aktları mülki qaydada iddialar üçün əsas və sübut ola bilməzdi. Eyni zamanda 1920-ci il aprelin 28-ə qədər bağlanmış kəbin hüquqi qüvvəsini saxlayırdı.

Müsəlman hüququna görə kişilərin hökmranlığını qoruyan, qadınların hüquqsuzluğunu təsbit edən nikah formaları dövlət tərəfindən qadağan edilir və qanunla mühafizə olunmurdu. Sovet hökuməti təknikahlıq və ya monoqamiya, yəni evlənənlərin eyni vaxtda ancaq bir qeydiyyatlı nikahda olması prinsipini əsas götürərək nikaha daxil olmağın azad və könüllülüyünü təsbit edirdi.

Keçmişlə mübarizə aparan sovet hakimiyyəti Azərbaycan SSR MİK-in 10 iyun 1923-cü il üçüncü sessiyasında Cinayət Məcəlləsinin (1922-ci il) 96-cı maddəsində dəyişiklik etmək barədə qərar qəbul etdi. Dəyişikliyə görə eyni zamanda iki və daha çox nikahda olmaq (çoxarvadlılıq) bir ildən az olmayaraq icbari işlərlə, belə hərəkətin təkrar edilməsi isə iki il azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı.

Ailəni möhkəmləndirmək, çoxarvadlıqla mübarizədə qadınların hüququnu müdafiə etmək məqsədilə Azərbaycan MİK 1925-ci il 26 dekabr qərarı ilə müəyyən edirdi ki, boşanmadan ikinci nikaha, hətta şəriət qaydası ilə bağlanmış kəbinə görə günahkar olanlar 5 il müddətinə azadlıqdan məhrum edilir. Qərarla, nikahı rəsmi olaraq pozulmamış və ya nikah yaşına çatmamış vətəndaşlar arasında kəbin kəsən dini idarələrin nümayəndələrinə qarşı sanksiya tətbiq edilirdi. Azərbaycan SSR Cinayət Məcəlləsinin 96/b maddəsinə görə nikah yaşına çatmamış qadınlarla kəbin kəsdirən və nikaha daxil olan şəxslərə qarşı, 159/a maddəsinə görə valideynlər və digər şəxslər tərəfindən öz iradəsinin əleyhinə olaraq qadınları nikaha məcbur edən şəxslərə qarşı, 159/b maddəsinə görə qadınların iradəsinin əleyhinə olaraq nikaha daxil olmaq məqsədilə onları oğurlayan şəxslərə qarşı, 159-cu maddəyə görə maddi çətinliklər və ya hər hansı digər səbəblər üzündən övladlarını satan şəxslərə qarşı, 159/q maddəsinə görə aldatma yolu ilə qadınları oğurlayıb satan şəxslərə qarşı, 159/d maddəsinə görə qadınları təhkimliliyə (köləliyə) məcbur edən və ya onları ailə başçısı hüququndan istifadə edərək qətlə yetirən şəxslərə qarşı cinayət məsuliyyəti nəzərdə tutulurdu.

1923-cü il iyunun 16-da Azərbaycan SSR MİK-in üçüncü sessiyasında ilk dəfə olaraq Azərbaycan SSR Mülki Məcəlləsində ailə və nikah hüququ xüsusi olaraq məcəllələşdirilmişdi. Azərbaycan SSR MİK-in 9 fevral 1923-cü il tarixli nikah münasibətlərini tənzimləyən dekretini tamamlayan, yeni ailə normalarını özündə birləşdirən Mülki Məcəllə bir daha müsəlman hüququ (şəriət) əsasında bağlanmış nikahları qeyri-qanuni hesab edərək mülki qaydada VVAQ idarələrində kəsilən kəbinləri etibarlı sayırdı. Mülki Məcəllənin 436-461-ci maddələri nikah hüququndan, 462-491-ci maddələri ailə hüququndan və 492-524-cü maddələri isə qəyyumluq hüququndan bəhs edirdi.

Mülki Məcəllə nikaha daxil olanları bərabərhüquqlu təsbit edərək, nikah qeydiyyatını könüllü, məcburiyyət və hədə olmadan aparmağı kəbinin bağlanması şöbələrinə həvalə edirdi. Yalnız VVAQ orqanlarında qeydiyyata alınmış nikah ər-arvad arasında qarşılıqlı hüquqi münasibətləri əmələ gətirirdi. Bununla da MM nikahın bağlan-

ması, onun etibarlı olması və pozulmasının çox ciddi şərtlərini və qaydasını müəyyən edirdi.

436-cı maddədə göstərilirdi ki, 1923-cü il MM qəbul edilənə qədər müsəlman şəriət qaydaları əsasında kəsilmiş kəbin hüquqi qüvvəyə malikdir. Keçmiş islam dini və kilsə normaları əsasında kəsilmiş kəbinlərin VVAQ orqanlarında bağlanan nikahlarla bərabərhüquqlu müəyyən edilməsində məqsəd ər-arvadın hüquq bərabərliyini, onların ümumi birgə mülkiyyəti və ya birinin özünə məxsus olan şəxsi əmlakdan sərbəst istifadəsini, uşaqların tərbiyə olunmasını və ailənin möhkəmlənməsini təmin etmək idi.

Mülki Məcəllənin 441-ci maddəsi nikaha daxil olanların könüllülüyü prinsipinə xüsusi diqqət verirdi. Qanunla müəyyən edilmiş nikah yaşına çatmış evlənən şəxslərin hər ikisi öz iradəsini heç bir məcburiyyət, təzyiq, hədə-qorxu olmadan, sərbəst və şüurlu olaraq ifadə etməli, qarşılıqlı razılığını bildirməli idi. Nikah münasibətinə daxil olmaqda məcburiyyət göstərməyə, yaxud maneçilik törətməyə görə cinayət məsuliyyəti müəyyən edilirdi.

MM nikaha daxil olma yaşını qadınlar üçün 16, kişilər üçün isə 18 müəyyən etməklə gələcək ailənin və uşaqların sağlamlığı qayğısına qalırdı. 1923-cü ilin Mülki Məcəlləsinin 438-ci maddəsinə görə əvvəlcə nikaha daxil olanların fiziki və əqli cəhətdən sağlam olmaları müəyyən edilirdi. Bir müddət sonra 1924-cü ildə Azərbaycan SSR MİK-in dekreti ilə 438-ci maddəyə dəyişiklik edilərək yeni redaksiyada verildi: "Nikaha daxil olanlar əqli və fiziki cəhətdən sağlam olmalıdır. Əvvəlcədən sağlam olması barədə bir-birinə yazılı iltizam verən nikaha daxil olanlar yalan məlumatlara görə Cinayət Məcəlləsinin 118-ci maddəsi ilə məsuliyyət nəzərdə tutulması barədə xəbərdar edilirlər".

439-cu maddəyə görə eyni zamanda iki nikaha daxil olmaq qadağan edilirdi və ya qeydiyyata alınmış nikah müqaviləsi faktiki olaraq pozulmadıqda şəxs digər faktiki nikaha daxl ola bilməzdi. 440-cı maddə yaxın qohumların nikahını qadağan edirdi.

1923-cü il MM-in 449 və 450-ci maddələrinə görə ərin və arvadın vəfat etməsi, yaxud məhkəmə orqanları tərəfindən rəsmi olaraq

elan edilmiş qərar boşanmanı müəyyən edirdi. Qanun fəaliyyətdə olan MM-ə və 1923-cü ilə qədər bağlanmış şəriət və kilsə kəbinlərinə də şamil edilirdi.

Nikahın pozulması tərəflərin qarşılıqlı razılığı olduqda, onların VVAQ orqanlarına verdikləri ərizə əsasında vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitabında müvafiq qeydiyyat aparmaq yolu ilə rəsmiləşdirildi. Nikah ər-arvadın hər ikisinin və ya tərəflərdən birinin xahişi ilə pozula bilərdi. Boşanmanın məhkəmə orqanları tərəfindən aparılmasında əsas məqsəd ər-arvadın məsuliyyətini daha da artırmaq və ya ər və arvadın barışmasına çalışmaq, həddi-büluğa çatmamış uşaqların mənafeyini müdafiə etmək idi. Məhkəmə orqanları boşanma haqqında qətnamə çıxarmamışdan əvvəl ər-arvadı və onların yaxın qohumlarını məhkəmə prosesinə cəlb etməli və boşanmanın əsl səbəblərini aydınlaşdırmağa çalışmalı idilər. Boşanma haqqında yalnız bir tərəfin ərizəsi məhkəməyə daxil olduqda uşaqların taleyi haqqında, onların saxlanılması üçün aliment verilməsi, yaxud tərəflərin hər hansı birinə yardım göstərilməsi haqqında məsələlər həll edilməli idi.

1923-cü il MM nikaha daxil olanların soyadları ilə bağlı məsələləri də həll edirdi. Nikaha daxil olan tərəflər soyadlarını qəbul etməkdə tam bərabərhüquqlu idilər (452-ci maddə). Əvvəllər həm çar Rusiyası, həm də müsəlman qanunvericiliyi yalnız ərin soyadını qəbul etməyi qadınlar üçün məcburi sayırdı.

Boşanma zamanı ər və ya arvada nikaha qədərki soyadlarının qaytarılması hüququ verilirdi.

453-cü maddəyə ehtiyac olan və əmək qabiliyyəti olmayan ər (arvad) boşanma zamanı maddi yardım göstərmək imkanı olan arvaddan (ərdən) aliment tələb etmək hüququna malik idi. Valideynlər özlərinin həddi-büluğa çatmamış, habelə əmək qabiliyyəti olmayan, ehtiyacı olan uşaqlarını saxlamağa borclu idilər. Həm də bu qayda nikahsız və nikahdan doğulan uşaqlara da aid edilirdi. Mülki Məcəllənin 470 və 477-ci maddələrinə görə hər iki valideyn həddi-büluğa çatmamış uşaqlar üzərində hüquqi münasibətdə bərabərliyə malik idilər. Mübahisə uşaqların rifahı naminə həll edilirdi. Göstərilən hima-

yəçilik qaydasından kənara çıxılardısa, məhkəmələr valideynləri belə hüquqlardan məhrum edə bilərdi. Valideynlik hüquqlarından məhrumetmə uşaqların saxlanılması üçün valideynləri məsuliyyətdən azad etmirdi. 1923-cü il Mülki Məcəlləsində qəyyumluq hüququndan bəhs edilirdi. Məcəllənin 492-ci maddəsinə görə qəyyumluq yeniyetmə yaşına çatmayan uşaqlar, ruhi xəstəliyi və ya ağıl zəifliyi olan, sərxoşluq edən və ailəyə maddi zərər vuran, buna görə də məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti məhdud hesab edilən şəxslər üzərində təyin edilirdi. Qəyyum uşaqların qanuni nümayəndəsi olmaqla onların əmlakını idarə edirdi. Yeniyetmə yaş dövrü başa çatdıqdan sonra onların üzərindən qəyyumluq götürülürdü. Xəstə şəxslər üzərində isə onların fəaliyyət qabiliyyəti tam bərpa edildikdən sonra qəyyumluq səlahiyyətləri ləğv edilirdi. Mülki Məcəllə himayəçiliyi də nəzərdə tuturdu. Məcəllənin 505-ci maddəsi himayəçinin müəyyən edilməsini himayəyə verilənin atasına, anasına, onlar olmadıqda isə yaxın qohumlara həvalə edirdi. Himayəçilik etmə səlahiyyətləri qəyyumluq etmə səlahiyyətlərinə oxşar idi. Himayəçi himayəsində olanlara öz hüquqlarından istifadə etməkdə və vəzifələrini yerinə yetirməkdə kömək edir, üçüncü şəxslərin onlardan suiistifadə etmələrinə yol vermirdi.

1928-ci il mayın 29-da **Azərbaycan SSR MİK-in beşinci çağırış üçüncü sessiyasında nikah, ailə, qəyyumluq və vətəndaş vəziyyəti aktları haqqında yeni məcəllə** təsdiq edildi və 1928-ci il iyulun 15-dən qüvvəyə mindi. Azərbaycan SSR-in 1928-ci il Ailə-Nikah Məcəlləsi ilə 1923-cü il Mülki Məcəlləsi arasında əlaqəlik və ardıcıllıq mövcud idi. Eyni zamanda yeni Məcəlləyə ailə-nikah münasibətlərinə dair yeni müddəalar daxil edilmişdi. Məcəllə sovet ailə-nikah münasibətlərinin əsas prinsiplərini saxlamaqla ona yeni əlavələr və dəyişikliklər edilməsini nəzərdə tuturdu. Belə ki, əgər 1923-cü il Mülki Məcəlləsinə görə boşanma yalnız məhkəmə qaydasında həyata keçirilirdisə, 1928-ci il Ailə-Nikah Məcəlləsində nikahın pozulması hər iki tərəfin razılığı ilə VVAQ orqanlarında icra edilirdi.

1928-ci il Məcəlləsinə övdaldığa götürmə ilə bağlı maddələr də ilk dəfə olaraq daxil edilmişdi (67-74-cü maddələr). Valideynlik qay-

ğısından məhrum olmuş uşaqların tərbiyə olunmasında, həddi-büluğa çatmamış uşaqların mənafeyini qorumaqla övladlığa götürmə çox əhəmiyyətli idi.

1928-ci il Ailə-Nikah Məcəlləsi beş fəsildən ibarət olmaqla, birinci fəsil (1-5-ci maddələr) nikah hüququndan bəhs edirdi. Birinci maddəyə əsasən müəyyən edilmiş qaydada bağlanmış kəbinlərin hüquqi qüvvəsi təsbit edilirdi. İkinci fəsil (6-11-ci maddələr) nikaha daxil olmağın şərtlərini müəyyən edirdi. Üçüncü fəsildə (maddə 12) qeyri-qanuni nikahın, dördüncü fəsildə (13-19/1-ci maddələr) nikahın xitam edilməsi və nəhayət, beşinci fəsildə ər-arvadın hüquq və vəzifələri tənzim edilirdi. 1928-ci il Məcəlləsinin ikinci bölməsi ailə hüququna həsr edilmişdi. Üç fəsildən ibarət olan ikinci bölmənin birinci fəsli ümumi qaydalardan (31-33-cü maddələr), ikinci fəsil qohumluq münasibətində olanların hüquq və vəzifələrindən (39-63-cü maddələr), üçüncü fəsil övladlığa götürülmənin həlli məsələlərindən (64-74-cü maddələr) bəhs edirdi.

Qəyyumluq və himayəçiliklə bağlı hüquqi məsələlərə 4 fəsildən ibarət olan üçüncü bölmədə baxılırdı. Birinci fəsil qəyyumluqla bağlı ümumi qaydaları (75-92-ci maddələr); ikinci fəsil qəyyum və himayəçilərin vəzifələrini (93-101-ci maddələr); üçüncü fəsil qəyyum və himayəçilərin vəzifələrinin icra edilməsini (102-111-ci maddələr); dördüncü fəsil ruhi xəstəlik və ağıl zəifliyi nəticəsində fəaliyyət qabiliyyəti olmayan şəxslərlə bağlı məsələləri (112-119-cu maddələr) şərh edirdi. 1928-ci il Ailə-Nikah Məcəlləsinin dördüncü bölməsi itkin düşmüş hesab edilən şəxslərin şəxsi və əmlak hüquqları və mənafelərinin müdafiəsini təmin etmək məqsədi ilə qəyyumluq və himayəçiliklə bağlı məsələləri (120-194-cü maddələr) müəyyən edirdi. Beşinci bölmənin birinci, ikinci, üçüncü, dördüncü və altıncı fəsilləri (135-167-ci maddələr) doğum, ölüm, övladlığa götürmə, boşanma aktının qeydiyyata alınması və digər məsələləri tənzim edirdi.

Nəhayət, 1928-ci il Ailə-Nikah Məcəlləsinin altıncı bölməsi vətəndaşların ad və familiyalarının dəyişdirilməsi məsələlərini (168-174-cü maddələr) müəyyən edirdi. Ailə-nikah hüququnun tənzimlənməsində 1928-ci il Məcəlləsi böyük əhəmiyyət kəsb etsə də, bə-

zi bununla bağlı məsələlərin həlli məcəllədə tam əks olunmamışdı. Yaranmış boşluq Azərbaycan SSR MİK-in qərarı və Xalq Komissarları sovetinin 26 oktyabr 1929-cu il sərəncamı ilə tamamlanmışdı. Sərəncama görə Azərbaycan SSR Ailə-Nikah Məcəlləsinin 49-1, 49-2, 49-3-cü maddələrində ögey ata-ana və ögey oğul-qız məsələləri qanunla tənzim edilirdi. Azərbaycan SSR ailə, nikah, qəyyumluq və vətəndaşlıq vəziyyəti aktlarının 1928-ci il Məcəlləsinin 49-1-ci maddəsinin yeni redaksiyasında göstərilirdi ki, həddi-büluğa çatmamış, habelə həddi-büluğa çatmış, lakin müəyyən səbəblərdən fəaliyyət qabiliyyətini itirmiş uşaq ögey ata və ögey ana himayəsinə aşağıdakı hallarda verilir: a) əgər onların valideynləri vəfat etmişdirsə; b) əgər onların valideynlərinin uşaqları saxlamağa vəsaiti yoxdursa. 49-1-ci maddənin 3-cü hissəsi əks tərəfin, yəni ögey oğul və qızın vəzifələrini müəyyən edirdi. Belə ki, ən azı 10 il müddətində himayəçilikdə olmuş ögey oğul və ögey qız əmək qabiliyyətini itirmiş ögey ata və ögey anani ehtiyac yarandıqda saxlamağa borclu idilər.

Əmək hüququ. Azərbaycanda sovet hakimiyyəti orqanları yaradıldıqdan sonra əmək hüququnun sosialistcəsinə qurulması haqqında ilk dekretlərdən biri Azərbaycan SSR Xalq Əmək Komissarlığı tərəfindən 1920-ci il mayın 4-də verilmişdir. Dekretə görə fəhlə və qulluqçuların işə qəbul edilməsi müstəsna olaraq əmək birjaları vasitəsi ilə həyata keçirilməli idi. Bütün milliləşdirilmiş, həmçinin xüsusi idarə və müəssisələrə göstərilən dekretə ciddi əməl etmək tövsiyə edilirdi. Həmin qaydaları pozan şəxslərin çox ciddi məsuliyyətə cəlb ediləcəkləri bildirilirdi. Əmək birjalarında işsizlərin uçotu, ixtisasları və ixtisas dərəcələri müəyyən edilərək Əmək Komissarlığına təqdim edilirdi. Azərbaycan İnqilab Komitəsinin 23 sentyabr 1920-ci il dekreti ilə ümumi əmək mükəlləfiyyəti elan edildi. Onun həyata keçirilməsi isə qəza və şəhər ümumi əmək mükəlləfiyyəti komitələrinə həvalə edildi. Baş Əmək Komitəsi birbaşa İnqilab Komitəsinə tabe edildi. 1920-ci il oktyabrın 5-də Baş Əmək Komitəsi kollegiyasının tərkibi təsdiq edildi.

1920-ci ilin dekabrında işçi qüvvəsinin bölüşdürülməsi və uçota alınmasının Mərkəzi idarəsi təsis edildi. Bununla əlaqədar olaraq

Bakı şəhəri əmək birjasının Balaxanı agentliyi istisna olunmaqla bütün Bakı ərazisi üzrə əmək birjalarının fəaliyyəti dayandırıldı. Dövlət idarələrində və ya müəssisələrində işləyən vətəndaşlara və başqa şəxslərə Mərkəzi Əmək Komitəsi tərəfindən təklif edilmiş müxtəlif peşələr üzrə işlərdən imtina etmək qadağan edilirdi. Əməkdən yayınanlara qarşı çox ciddi cəzalar verilməsi nəzərdə tutulurdu. Müəssisələrdə çalışan fəhlələr üçün iş günü müddəti 8 saat müəyyən edilmişdi. 16 yaşından 18 yaşına qədər olan yeniyetmələr, həmçinin əqli əməklə və idarə kargüzarlığı ilə məşğul olanlar üçün 6 saatlıq, 16 yaşdan az olanlar üçün isə 4 saatlıq iş müddəti elan edilirdi. Əmək mühafizəsi şöbələrinin icazəsi ilə zərərli peşələrdə iş günü müddəti 7 saat təyin olunurdu. Qanunvericilik üzrə gecə növbələrində iş saatı qısaldılırdı.

Azərbaycan SSR-in müstəqil olduğu ilk illərdə hər il qeyd edilən 28 aprel bayram günündən başqa iki gün Novruz bayramı, Qurban bayramı, Orucluq bayramı, Aşura günü, Mövlud bayramı hər biri bir gün qeyri-iş günü hesab olunurdu. 1920-ci il mayın 4-də Xalq Əmək Komissarlığının dekreti ilə müvəqqəti olaraq məzuniyyətlərin verilməsi dayandırıldı. Müstəsna olaraq xəstəliklə bağlı məzuniyyətlər həmkarlar təşkilatının və həkimlərin təqdimatı ilə bir ay müddətində müəyyən edilirdi. Yalnız 1921-ci il aprelin 12-də Xalq Əmək Komissarlığı və Azərbaycan həmkarlar təşkilatının birlikdə "Məzuniyyətlərin verilməsi qaydası haqqında" qərarından sonra fasiləsiz işləyən fəhlə və qulluqçular üçün iki həftəlik, həmçinin müəssisədə çalışan fəhlə və qulluqçuların ümumi sayının 5 faizindən çox olmayaraq məzuniyyətlər verilirdi.

Sovet hakimiyyəti əmək haqlarının ödənilməsi ilə bağlı bir sıra qanunvericilik aktları qəbul etmişdi. Xalq Əmək Komissarlığının 5 may 1920-ci il dekretinə görə Qızıl Ordu sıralarına səfərbər edilmiş fəhlə və qulluqçuların iş yerlərində əmək haqları olduğu kimi saxlanılmışdı. Xalq Əmək Komissarlığının və Azərbaycan SSR Həmkarlar Təşkilatının 1920-ci il iyunun 16-da dərc etdirdikləri birgə qərara görə sovet və xüsusi müəssisələrdə 50 nəfərdən az olmayan fəhlə və qulluqçulara malik müəssisələrdə tarif-qiymət komissiyaları

yaradılırdı. 50 nəfərdən az işçisi olan müəssisələrdə isə tarif-qiymətlər həmkarlar ittifaqı komitələri tərəfindən müəyyən edilirdi. Əmək haqlarının ödənilməsində tarif-qiymət normalarından kənara da çıxılırdı. Belə ki, bəzi yüksək ixtisaslı mütəxəssislərə xüsusi, tarifdənkənar normalar təyin edilirdi. Əməyin mühafizəsi, texniki təhlükəsizliyin və istehsalatda sanitar normaların qorunmasına dair bəzi tədbirlər həyata keçirilirdi. Belə ki, Xalq Əmək Komissarlığının 1920-ci il 10 may qərarı ilə müəssisə sahiblərindən istehsalatda baş verən bədbəxt hadisələr barədə dərhal sosial təminat şöbələrinə məlumat vermələri tələb edilirdi. Göstərilən tələblərə əməl etməyən müəssisələrə qarşı cərimə tətbiq olunacağı bildirilirdi. Zavod komitələri dekretə əməl olunmasına nəzarəti həyata keçirir, pozuntular barədə Əmək Komissarlığına məlumat verirdilər. Xalq Əmək Komissarlığının 30 iyun 1920-ci il əmrinə görə isə üç gün müddətində istehsalda baş vermiş bədbəxt hadisələrə görə məlumat verməyənləri hərbi tribunala vermək də nəzərdə tutulurdu. Azərbaycan Hərbi İnqilab Komitəsinin 19 dekabr 1920-ci il dekreti ilə əmək mühafizəsi üzrə xüsusi orqan – **texniki və sanitar əmək müfəttişliyi** yaradıldı. Əmək müfəttişliyinin səlahiyyətlərinə hakimiyyət orqanlarının əmək mühafizəsinə dair dekret, qərar və digər aktlarının həyata keçirilməsi həvalə edilirdi. Texniki müfəttişliyə isə müəssisə və idarələrdə, habelə işdə texniki təhlükəsizliyə əməl olunmasına nəzarət etmək tapşırılırdı. Sanitar müfəttişliyinin səlahiyyətlərinə yaşayış binalarında, idarə və müəssisələrdə sanitar-gigiyena qaydalarına əməl olunmasına nəzarət həvalə edilirdi. Müfəttişlərin manitorinq nəzarət-yoxlama işlərinin aparılmasına mane olanlara qarşı məhkəmə məsuliyyəti müəyyən olunurdu. Xalq Əmək Komissarlığının "Qadın əməyi barədə" 13 dekabr 1920-ci il qərarına görə qadın əməyindən ağır işlərdə, gecə növbələrində, yeraltı işlərdə, bir sıra təhlükəli və insan orqanizminə zərərli işlərdə istifadə olunması qadağan edilirdi. Hamilə qadınlara və südəmər körpəsi olan analara isə bir sıra güzəştlər müəyyən olunmuşdu. Belə ki, hamilə qadınlara doğuşdan əvvəl 8 həftə və sonra 8 həftə məzuniyyət (onlardan 6 həftə doğuşdan sonra əmək haqları və ərzaq payları saxlanılmaqla) təyin edilirdi. Südəmər kör-

pələri olan qadınlara isə hər üç saatdan bir yarım saat fasilə verilirdi.

Xalq Əmək Komissarlığının 21 yanvar 1921-ci il qərarına görə hamilə qadınların razılığı olmadan onları daimi iş yerlərini tərk etməklə ezamiyyətə göndərmək qadağan edilirdi. Fiziki əməklə məşğul olan qadınlara hamiləliyin beşinci ayından başlayaraq iş müddətindən artıq və gecə növbəsində işləməyə icazə verilmirdi.

Əmək Komissarlığının qərarı ilə həkimlər tərəfindən müəyyən edilmiş hamiləliyin ilk dövründən başlayaraq və uşağın əmizdirildiyi vaxt ərzində, lakin bir ildən çox olmayaraq qadınlar üçün xüsusi ərzaq payı müəyyən edilirdi.

14 yaşına qədər olan uşaqların işə qəbulu qadağan edilirdi, 14-16 yaşında olan uşaqlar isə müstəsna hallarda, dörd saat işləməklə, lakin tam iş gününün haqqının ödənilməsi şərti ilə işə qəbul edilirdilər. Eyni zamanda onları gecə işlərinə və ağır fiziki əməyə cəlb etmək qadağan idi. Sovet hakimiyyəti öz maraqlarından çıxış edərək əmək intizamını möhkəmləndirmək məqsədilə 28 iyun 1920-ci ildə Hərbi İnqilab Komitəsinin dekreti ilə müəssisə həmkarlar ittifaqı yanında intizam-yoldaşlıq məhkəmələrini yaradırdı. İntizam - yoldaşlıq məhkəmələrinin səlahiyyətlərinə müvəqqəti olaraq bir ay müddətinə aşağı vəzifələrə keçirmək, daha ağır işlərə göndərmək, inzibati cərimələr təyin etmək hüququ verilirdi. Əmək intizamını şüurlu surətdə artırmaq, intizamı pozanlara təsir etmək məqsədi ilə həmkarlar ittifaqlarının ümumi yığıncağında onların əməlləri müzakirə edilirdi. Əmək intizamının artırılması vasitəsi kimi müxtəlif maddi və mənəvi mükafatlandırmadan da istifadə edilirdi. Azərbaycan SSR Həmkarlar İttifaqının və Xalq Əmək Komissarlığının 6 yanvar 1921-ci il birgə qərarı əmək münaqişələrini üç qrupa bölürdü. **Birinci** qrupa əmək haqqının ödənilməsi ilə bağlı qiymət münaqişələri aid edilirdi. Mübahisələri həll etmək üçün birinci instansiya yerli, ikinci instansiya müvafiq şöbənin həmkarlar təşkilatı və sonuncu instansiya Həmkarlar İttifaqının tarif-norma şöbələri idi. **İkinci** qrup münaqişələrə müəyyən edilmiş hüquq normalarının pozulması, məsələn, qanunsuz işdən çıxarma və ya iş yerinin dəyişdirilməsi aid edilirdi. Bu qrupa daxil olan münaqişələr üçün birinci instansiya yerli, ikinci instansiya müvafiq həmkar-

lar təşkilatının nümayəndəsi ilə birlikdə əmək müfəttişliyinin nümayəndəsi, üçüncü instansiya isə Həmkarlar İttifaqının tarif-norma şöbəsinin və Xalq Əmək Komissarlığının əmək mühafizəsi şöbəsi kollegiyasının nümayəndəsinin iştirakı ilə baxılan instansiya idi. **Üçüncü** qrup münaqişələrə təchizatla bağlı olan məsələlər daxil idi. Münaqişələri həll etmək üçün birinci instansiya yerli, ikinci instansiya müvafiq şöbənin həmkarlar təşkilatının nümayəndəsi, üçüncü isə Həmkarlar İttifaqının təchizat şöbəsi nəzərdə tutulurdu.

Xalq Əmək Komissarlığının 10 may 1920-ci il dekreti ilə Qafqaz dairə sığorta yoldaşlıq idarəsi ləğv edilir və onun əvəzinə sosial kassa yaradılırdı. Məzuniyyət dövründə xəstəliyə görə yardım verilirdi. Xüsusi komissiyanın qərarı ilə xəstələr üçün pəhriz yeməkləri və sanatoriya-kurort istirahəti verilməsi nəzərdə tutulurdu. 1922-ci il noyabrın 25-dən RSFSR-in Əmək Qanunları Məcəlləsi qüvvəyə minir. 1923-cü il yanvarın 1-dən RSFSR Əmək Qanunları ZSFSR hökumətinin qərarı ilə Zaqafqaziya ərazisində, o cümlədən Azərbaycanda hüquqi qüvvəyə malik olur. Yeni iqtisadi siyasətə keçməklə əlaqədar olaraq onun tələblərinə zidd olan bəzi əmək institutları ləğv edilir. Belə ki, əmək səfərbərliyi və hərbi mükəlləfiyyətlərə cəlb edilmək aradan qaldırılır, yalnız müstəsna hallarda, o cümlədən təbii fəlakətlə mübarizədə əmək mükəlləfiyyətinə yol verilirdi. Yeni Əmək Qanunları Məcəlləsi 17 fəsildən və 192 maddədən ibarət idi. Məcəllə ictimai təminatdan ictimai sığortaya keçilməsini möhkəmləndirirdi. İctimai sığorta isə dövlət müəssisə və idarələrindən, həmçinin xüsusi sahibkarlardan alınan pul hesabına yaradılan dövlət sığorta fondu hesabına həyata keçirilirdi. Xüsusi sahibkarların ictimai sığortarya cəlb edilməsi müxtəlif ehtiyaclara vəsaitin cəlb olunmasına şərait yaradırdı. Azərbaycan SSR Xalq Əmək Komissarlığının 21 aprel 1925-ci il qərarı Əmək Qanunları Məcəlləsinin tətbiqi qaydasına görə inqilabla və digər mərasimlərlə bağlı bayram günlərini müəyyən edirdi. Respublika ərazisində 14 bayram günü təyin edilirdi. Onlardan 6 günü RSFSR Əmək Qanunları Məcəlləsinə, digərləri respublika inqilab hadisələrinə uyğun olaraq (bir gün 26 Bakı komissarları, bir gün Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi, qalan günlər

isə milli-dini adətlərlə əlaqədar) müəyyən edilirdi.

Torpaq və kolxoz hüququ. 1920-ci il mayın 5-də Azərbaycan İnqilab Komitəsi torpaq haqqında dekret qəbul etdi. Dekretə görə bəy, xan və vəqf torpaqları müsadirə edilib heç bir ödənc alınmadan zəhmətkeş kəndlilərin istifadəsinə verilirdi. Respublika ərazisində bütün torpaqlar dövlət mülkiyyətinə daxil edilərək ümumxalq mülkiyyəti elan edildi. Torpaqdan istifadə etmək hər vətəndaşın hüququ idi. Arzu edənlər şəxsən və ya ailəliklə birlikdə torpağı əkib-becərə bilərdi. Dekreti həyata keçirmək üçün qəza və kənd ictimai torpaq komitələri yaradılırdı. Azərbaycan SSR Xalq Torpaq Komissarlığı 1920-ci il mayın 20-də "Müvəqqəti qəza və kənd-ictimai torpaq komitələrinin Əsasnaməsini" müəyyən etdi. Əsasnaməyə görə qəza və kənd ictimai torpaq komitələri bütün mülkədar, vəqf, məscid, monastır və kilsə torpaqlarını, həmçinin kənd təsərrüfatı avadanlığı və iş heyvanlarını dərhal xüsusi şəxslərdən müsadirə etməli idi. 1920-ci il martın 15-də respublikanın ərazisində meşələrin, suların və yeraltı sərvətlərin milliləşdirilməsi elan edildi. 1920-ci ilin yayı üçün kommunalar və kənd təsərrüfatı artelləri kimi kollektiv təsərrüfatlar yaranırdı. Artellərdə əsasən yoxsulların cəlb edilməsi və könüllülük prinsipinə əməl olunması tələb olunurdu. Azərbaycan Hərbi İnqilab Komitəsinin "Kənd təsərrüfatının inkişafına yardım göstərilməsi üçün fondun yaradılması" haqqındakı dekretinə uyğun olaraq "400 milyonluq fond" təşkil edilirdi. Kollektiv təsərrüfatların yaradılmasında tələskənliyə yol verməmək məqsədilə Xalq Əmək Komissarlığı 1920-ci il iyulun 20-də "Kənd təsərrüfatının birləşdirilməsi tədbirləri haqqında" xüsusi əmr verdi. Əmrə görə orta təbəqəli kəndli təsərrüfatlarından iş heyvanları və əmək alətlərinin müsadirə olunması qəti qadağan edilirdi.

1922-ci il dekabrın 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə "Azərbaycan SSR-də torpaqlardan əməkçilərin istifadə etməsi haqqında Əsasnamə" təsdiq edilir. "Əsasnamə" qismən dəyişikliklərlə **Azərbaycan MİK-in 15 iyul 1923-cü il Plenumu tərəfindən təsdiq edilən və oktyabrın 1-dən qüvvəyə minən "Torpaq Məcəlləsinə"** daxil edilir. 1923-cü il Torpaq Məcəlləsində göstərilir-

di ki, Azərbaycan SSR ərazisində bütün torpaqlar fəhlə-kəndli dövlətinin mülkiyyətidir. Torpaq Məcəlləsinin bütün əsas qaydaları torpağın millileşdirilməsi ilə bağlı idi. Torpağın millileşdirilməsilə bağlı normaları pozan bütün formadan olan müqavilələr (alqı-satqı, bağışlama, girov və vəsiyyət) 27-ci maddə üzrə etibarsız sayılırdı. Göstərilən tələbləri pozan şəxsləri nəinki hüquqi məsuliyyət, həmçinin sərəncamlarında olan torpaqdan məhrum olunma gözləyirdi. 1923-cü il Torpaq Məcəlləsinin birinci bölməsi torpaqdan əməkçilərin istifadə etməsini təsbit edirdi. Bu hüquqdan bütün respublika vətəndaşları, cinsindən, dini baxışlarından və milliyyətindən asılı olmayaraq əkib-becərmək istəyən bütün şəxslər istifadə edə bilərdi. 10-cu maddəyə görə torpaqdan istifadə edən şəxs torpağı birlikdə hər hansı bir cəmiyyət vasitəsilə və ya tək istifadə hüququna malik idi. Məcəllə kəndlilərə torpaqdan öz təsərrüfatlarında müddətsiz istifadə etmək və bu hüququn dayandırılması yollarını da müəyyən edirdi: buraya torpaqdan istifadədən könüllü imtina etmək, məhkəmə qaydasında torpağa sahiblik hüququndan məhrum edilmək, dövlət və ictimai tələbatlar üçün qəbul olunmuş qaydaya uyğun olaraq torpağın alınması daxil idi. Eyni zamanda dövlət və ictimai tələbatlar üçün alınan torpaqların əvəzinə digər ərazilərdən torpaq ayrılırdı. Məcəllə torpaqdan istifadə edənlərə qanun daxilində tikinti və müxtəlif qurğular quraşdırmağa hüquq verirdi. Lakin bu hüquq digər torpaq mülkiyyətçilərinin mənafelərini məhdudlaşdırmamalı idi. Azərbaycan SSR-in 1922-ci il may ayında keçirilmiş II Sovetlər qurultayı kəndli təsərrüfatlarına işçi qüvvəsinin çatışmaması, ailənin əmək qabiliyyəti olan üzvlərinin xəstələnməsi və digər səbəblərə görə öz torpağını becərmək imkanına malik olmadıqda, onu müstəsna hallarda icarəyə vermək hüququ verirdi. Torpaq Məcəlləsi icarə institutunun qolçomaq təsərrüfatının çiçəklənməsinə kömək edəcəyini nəzərə alaraq 31-ci maddədə icarə müddətinin bir ildən çox olmamasını, qeyri-məhsuldar olan yerlərdə isə 3 ildən çox olmamasını nəzərdə tuturdu. Müstəsna hallarda yerli icraiyyə şöbələrinin icazəsi ilə icarə müddəti məhsuldar torpaqlarda iki məsul müddəti, qeyri-məhsuldar torpaqlarda isə 6 il müəyyən edilirdi. Bağların, üzümlüklərin və digər plantasiyaların

bərpası üçün isə Xalq Torpaq Komissarlığının razılığı ilə icarə müddəti 12 ilə qədər artırılırdı. Torpağı icarəyə götürən onu öz əməyi ilə, muzdlu işçi qüvvəsi tətbiq etmədən becərməyi öhdəsinə götürürdü. Məcəllənin 36-cı maddəsinə görə icarəçi tərəfindən öhdəliyin yerinə yetirilməməsi vaxtından əvvəl icarə müqaviləsinin pozulması ilə nəticələnirdi. İcarə müqaviləsindən əmələ gələn bütün mübahisəli məsələlər, torpaq cəmiyyətlərinin (torpaq cəmiyyətləri kənd icmaları əsasında idi), köləlik xarakteri almış icarə müqavilələrinin pozulması ilə torpaq komissiyalarının səlahiyyətlərinə aid edilirdi. Kənd torpaq cəmiyyətləri torpaqdan icmalıqla (torpaqların icma üzvləri arasında vaxtaşırı bölüşdürülməsi), ayrı-ayrı (hər bir kəndli təsərrüfatı daimi eyni torpaq sahəsindən istifadə etmək şərtilə), şirkət (kənd təsərrüfatı kommunası, artel və ya torpağın müştərək becərilməsi) və müxtəlif qarışıq formalarda istifadə edirdi. Azərbaycan SSR MİK Rəyasət Heyəti 26 aprel 1922-ci il "Torpaqdan istifadə və mübahisələrin torpaq məhkəmələrində həll olunması Əsasnaməsi"ni təsdiq etdi. "Əsasnaməyə" görə torpaqdan istifadə, torpaq quruculuğu məsələləri müstəsna olaraq Xalq Əmək Komissarlığının səlahiyyələrinə aid edilirdi. Qəzalardakı torpaq şöbələri birinci instansiya kimi yaranmış mübahisələrə baxırdı. Onun tərkibinə torpaq şöbəsinin sədri və ya müavini, xalq hakimi, katib və bir nəfər mütəxəssis (torpaq ölçən, aqranom, meşəbəyi) daxil edilirdi. Xalq torpaq komissarı ikinci instansiya kimi yaranmış mübahisələri həll edirdi. Onun tərkibinə XTK sədrinin özü və ya təyin etdiyi nümayəndə, torpaq quruculuğu üzrə mütəxəssis, torpaq quruculuğu üzrə idarə rəisi və onun müavini, Xalq Ədliyyə Komissarlığının nümayəndəsi və Xalq Hakimləri Şurasının nümayəndəsi və katibi daxil edilirdi. Birinci instansiya tərəfindən çıxarılmış qərardan razı olmayan tərəflər bir ay müddətində Xalq Torpaq Komissarlığına şikayət edə bilərdi. Şikayət şəxsən və ya qəza torpaq şöbəsi vasitəsilə və üç gün müddətində təyin olunan yerə çatdırılmaqla verilirdi. 1923-cü il Torpaq Məcəlləsinin qəbul edilməsi ilə əlaqədar olaraq torpaq mübahisələrinin həll edilməsi qaydalarında da dönüş baş verir. Çünki Torpaq Məcəlləsi yaranmış mübahisələrin həllini daha müfəssəl normalarla tənzimləyirdi.

1922-ci il martın 10-da Azərbaycan SSR XKS-i "Azərbaycanda kənd təsərrüfatı kooperasiyasının Əsasnaməsi" haqqında dekret verdi. Sovet hökuməti kənd təsərrüfatı kooperasiyasının daha da inkişaf etdirilməsinə böyü əhəmiyyət verirdi. 1924-cü ilin oktyabr ayında Azərbaycan kənd təsərrüfatı kooperasiyası ittifaqı – **"Göybirliyi" yaradıldı.** İttifaq kənd təsərrüfatı kooperasiyası əsasında birləşərək, kəndlilərin ehtiyacını ödəməyə, kənd təsərrüfatını avadanlıqla təchiz etməyə, texniki bitkilər və heyvandarlıq məhsulları istehsalını genişləndirməyə kömək. edirdi. 1926-cı ilin martında daha bir birlik – pambıqçılıq təsərrüfatına bilavasitə rəhbərlik edən xüsusi təşkilat – **"Pambıq birliyi"** ("Pambıq kooperasiyası ittifaqı") yaradıldı. Bununla belə 1928-ci ildə kənd təsərrüfatı kooperasiyasının əsas forması kənd təsərrüfatı arteli deyil, torpağı birlikdə becərmə şirkətləri, maşın şirkətləri və digərləri olmuşdu. 1928-ci ilin martında Azərbaycan Mərkəzi Kolxoz İdarəsi yaradıldı. Kənd təsərrüfatının kollektivləşməsi dörd sahə – **pambıqçılıq, taxılçılıq, heyvandarlıq və bağçılıq** üzrə həyata keçirilirdi. "Kollektivləşmənin sürətləndirilməsi və kolxoz quruculuğuna dövlət tərəfindən yardım edilməsi tədbirləri haqqında" ÜİK(b)P MK-nın 1930-cu il 5 yanvar qərarı isə ölkənin ayrı-ayrı rayonları üçün kollektivləşmə müddəti müəyyən edirdi. Kolxoz quruculuğuna keçidlə əlaqədar olaraq Azərbaycan SSR MİK-in və XKS-in 17 fevral 1930-cu il qərarı ilə "Göybirliyi" kənd təsərrüfatı kooperasiyası ləğv edildi. Maşın-traktor stansiyalarının yaradılması kolxoz quruculuğunda mühüm bir mərhələ olmuşdur. SSRİ MİK və XKS 1930-cu il martın 1-də SSRİ Kolxoz Mərkəzi tərəfindən hazırlanmış və SSRİ Xalq Torpaq Komissarlığı tərəfindən bəyənilmiş Kənd Təsərrüfatı artelinin nümunəvi nizamnaməsini təsdiq etdi. Nizamnamənin 2-ci maddəsinə əsasən artel üzvlərinin torpaq paylarını ayıran mərzlər ləğv edilir və bütün sahə pay torpaqları artelin kollektiv istifadəsində olan vahid torpaq massivində birləşdirilirdi. 4-cü maddə müəyyən edirdi ki, artel təsərrüfatının idarə edilməsi üçün zəruri olan bütün iş heyvanları, toxum ehtiyatı və təsərrüfat tikililəri ictimailəşdirilir.

Həyətyanı torpaqlar ictimailəşdirilmir, fərdi istifadədə qalır və onun becərilməsi üçün şəxsi mülkiyyət saxlanılırdı. Artelə, qolçomaqlardan və seçki hüquqlarından məhrum edilmiş şəxslərdən başqa, bütün zəhmətkeşlər daxil ola bilərdilər. Yoxsullar və muzdurlar kolxoza daxil olarkən onlar üçün müəyyən güzəştlər nəzərdə tutulurdu. Qolçomaqların müsadirə olunmuş əmlakı muzdur və yoxsulların üzvlük haqqı kimi kolxoza keçirilirdi. Nizamnaməyə görə artelin **ali idarəetmə orqanı** kolxozçuların **ümumi yığıncağı** idi. Artelin fəaliyyətinin bütün mühüm məsələlərinin həlli onun müstəsna səlahiyyətinə aid idi. Kənd təsərrüfatı artelinin fəaliyyətinə dövlət rəhbərliyi rayon kolxozlar ittifaqı vasitəsilə həyata keçirilirdi. Nizamnaməyə görə kolxozların rayon kolxozlar ittifaqına daxil olmaları məcburi idi. Kənd təsərrüfatı artelinin nümunəvi nizamnaməsi kənd təsərrüfatının kollektivləşdirilməsində kolxoz quruculuğunda böyük təcrübə idi.

ÜİK(b)P MK və SSRİ XKS 1935-ci il fevralın 17-də kənd təsərrüfatı artelinin yeni nümunəvi nizamnaməsini təsdiq etdi. Kənd təsərrüfatı artelinin 1930-cu il Nizamnaməsində kolxozlarda əməyin təşkili (briqadalar), gəlirin əmək günlərinə bölünməsi, kolxoz torpaqlarından istifadə qaydaları kimi mühüm məsələlər öz əksini tapmamış, kolxozçuların həyətyanı sahələrinin ölçüsü, mal-qara üzərində şəxsi mülkiyyətin həddi və s. müəyyən edilməmişdi. Yeni nizamnamə bütün kənd təsərrüfatı artellərinə üç ay müddətində Kənd Təsərrüfatı artelinin nümunəvi nizamnaməsi əsasında öz artellərinin nizamnamələrini işləyib hazırlamağı və artel üzvlərinin ümumi yığıncağında müzakirə və təsdiq etdikdən sonra onu rayon icraiyyə komitəsində qeydiyyatdan keçirməyi təklif etdi.

Nizamnaməyə görə kolxozçuların becərdikləri torpaqlar dövlət mülkiyyəti olub, həmişəlik istifadə üçün onlara təhkim olunurdu. Artel üzvlərinin bütün pay torpaqları artelin kollektiv istifadəsində olan vahid torpaq sahəsinə çevrilir. Artelin torpağı müddətsiz, yəni əbədi olaraq onların ixtiyarına verilir. Torpaqdan müddətsiz istifadə üçün hər bir artelə dövlət aktı təqdim olunurdu. Kolxozçu öz iş vaxtının, əməyinin böyük hissəsini artelə sərf edir, əvəzində artelin gəlirindən öz əmək günlərinin miqdarına uyğun olaraq pay alırdı ki, bu da onun ailəsinin əsas yaşayış mənbəyi idi.

Nizamnamə kolxozçulara kiçik şəxsi yardımçı təsərrüfatını yaratmağa da imkan verirdi. Kolxozlarda briqadaların təşkili də nəzərdə tutulurdu. Kolxozçu qadınlar hamiləlik və doğuş dövründə, doğuşa qədər bir aylıq və doğuşdan sonra bir aylıq əmək haqqı saxlanılmaqla işdən azad edilirdilər.

1935-ci il kənd təsərrüfatı artelinin nümunəvi nizamnaməsinə görə kolxozçuların ümumi yığıncağı artelin həyatında həlledici rol oynayırdı. Belə ki, o, artelin idarə heyətini və sədrini seçir, istehsal planlarını, illik smetanı, gəlir bölgüsünü, artelə yeni üzvlərin qəbulunu və s. təsdiq edirdi.

Cinayət hüququ. Sovet cinayət hüququ sosialist ictimai mülkiyyətinə, sosialsit istehsal münasibətlərinə əsaslanaraq, onların müdafiəsinə və möhkəmlənməsinə xidmət etmişdir. Azərbaycan SSR cinayət hüququnun əsası 1920-ci il 12 may tarixli "Xalq məhkəməsi haqqında" verilmiş dekretlə qoyulmuşdur. Dekret bütün inqilaba qədər mövcud olmuş qanunvericiliyi, o cümlədən ADR-in verdiyi cinayət hüquq normalarını etibarsız hesab edirdi. Digər tərəfdən isə Azərbaycan SSR-in cinayət hüququ RSFSR-in cinayət hüququ normalarının bilavasitə təsiri ilə yaranıb inkişaf edirdi. 1919-cu il dekabrın 12-də qəbul edilmiş RSFSR cinayət hüququ sovet cinayət hüququnun mühüm prinsiplərini əks etdirirdi. Sovet cinayət hüququnda cinayət dedikdə cinayət hüququ ilə mühafizə olunan ictimai münasibətlərin pozulması, cəza isə həmin münasibətləri xətalardan qorumaq üçün dövlətin istifadə etdiyi məcburi təsir tədbiri kimi izah edilirdi. 1920-ci il iyulun 9-da Azərbaycan Hərbi İnqilab Komitəsi tərəfindən RSFSR-in 1919-cu il cinayət hüququ bəzi dəyişiklik və əlavələrlə Azərbaycan SSR-də tətbiq edilir. Dekret cinayət əməllərini 2 kateqoriyaya - 1) əksinqilab və daha təhlükəli cinayətlərə və 2) digər cinayətlərə ayırırdı. Cəza tədbiri müəyyən edilərkən hər bir konkret halda cinayət etmiş şəxsin sinfi mənsubiyyəti, anlaqlı olması, habelə cinayətin peşəkar cinayətkar tərəfindən edilib-edilməməsi, zor tətbiq edilməsi, cinayəti törədən səbəblər və s. nəzərə alınırdı. Həddi-büluğa çatmamışlar (14 yaşa qədər) məhkəmədə mühakimə edilmir, onlara cəza tətbiq olunmur və onlara qarşı yalnız tərbiyə

tədbirləri görülürdü. Bəzi mümkün hallarda da 14 yaşdan 18 yaşa qədər olan yeniyetmələr barəsində də bu cür tədbirlər görülürdü. 1920-ci il 11 iyul dekretilə "Yeniyetmələrin işləri üzrə komissiya"ya törədilən cinayətləri araşdırmaq həvalə edilirdi. Rəhbər başlanğıclar aşağıdakı cəza tədbirlərini nəzərdə tuturdu: siyasi hüquqlardan məhrum etmə, inqilabın və xalqın düşməni elan etmə, məcburi iş, azadlıqdan məhrum etmə, qanundan kənar etmə, güllələmə və s. Rəhbər başlanğıclar haqqında Azərbaycan Hərbi İnqilab Komitəsinin 1920-ci il 31 avqustda dərc edilmiş xüsusi dekretinin 25-ci maddəsində əsas müddəalar verilirdi. Rəhbər başlanğıclar elə bir vaxtda qəbul edilmişdi ki, sovet cinayət hüququ "devrilmiş" hakimiyyətin müqavimətini qırmağa çalışırdı.

1920-ci il Azərbaycan SSR Ali Hərbi Tribunalı barəsində Əsasnamədə onun səlahiyyətində olan əksinqilabi cinayətlərin siyahısı göstərilirdi. Əksinqilabi cinayətlərin aşağıdakı növləri fərqləndirilirdi: a) sovet sosialist quruluşunu devirmək məqsədilə sui-qəsd və üsyan; b) sovet respublikasına xəyanət; c) casusluq; ç) fəhlə-kəndli hökumətinə və ya onun tərəfindən təyin olunmuş yerli hökumətə qarşı üsyan; d) sovet hakimiyyətinin həyata keçirmək istədiyi qərar və sərəncamlara müqavimət göstərmək; e) təbliğat və təxribat törətmək; ə) məxfi sənədləri və məlumatları yaymaq; f) sovet ordusu barədə yalan məlumatlar vermək; g) plan və digər məxfi sənədləri oğurlayıb məhv etmək; ğ) dəmir yollarını, körpüləri, teleqraf, telefon və digər xəzinə anbarlarını qəsdən məhv etmək və ya zədələmək.

Ən ağır cinayət əməllərindən biri banditizm hesab edilirdi. Sovet cinayət hüququ üzrə sovet hakimiyyətini dağıtmaq məqsədi ilə himayə edilən banditizm çox ağır cəzalandırılırdı. Azərbaycan SSR-in 1923-cü il ilk Cinayət Məcəlləsinin qəbuluna qədər bir sıra cinayət hüquq münasibətlərini tənzimləyən normativ dekretlər verilmişdi. Belə ki, 1921-ci il noyabrın 14-də "Azadlıqdan məhrum etmə və məhkumların vaxtından qabaq şərti azad edilməsi qaydaları" barədə dekret verilmişdi. Dekretə qədər azadlıqdan məhrum etmənin ən yuxarı həddi müəyyən edilməmişdi. Məhkəmə praktikasında əsasən 20 ilə qədər müddət tətbiq edilirdi. Lakin dekretə görə maksimal azad-

lıqdan məhrumetmə və məcburi əmək tətbiq edilməsinin həddi 5 ilə qədər müəyyən edilirdi.

Dekret vaxtından əvvəl şərti olaraq cəzadan azad etmə qaydasını da müəyyən edirdi. Vaxtından əvvəl təqdimat-xahiş ərizəsi ilə müraciət ümumi müddətin yarıya qədəri çatdıqdan sonra tətbiq olunurdu. 1921-ci il dekabrın 25-də "Fərdi və ictimai şəxslərin əmlaklarının rekvizasiya və müsadirə edilməsi qaydaları" barədə dekret verilmişdi. Müsadirə edilmə yeni iqtisadi siyasətə uyğun olaraq aparılırdı. Dekretə görə əvəzi ödənilən və ödənilməyən əmlakların siyahısı müəyyən edilirdi. 1923-cü il Cinayət Məcəlləsinə qədər banditizm, rüşvətxorluq, dövlət və ictimai əmlakın talan edilməsi, alver və s. haqqında çoxsaylı fövqəladə dekretlər verilmişdi. 1921-ci il oktyabrın 12-də "Rüşvətxorluqla mübarizə haqqında" dekret imzalanır. Dekretdə müfəssəl olaraq rüşvət almanın anlayışı və ona görə məsuliyyət müəyyən edilirdi. Rüşvət almada iştirakçılıq, rüşvət almanı gizlətmək, həmçinin yaranmış şəraitdən asılı olaraq rüşvət verən şəxsin məsuliyyətdən azad olunması tənzimlənirdi. Çoxsaylı dekretlərin verilməsinə baxmayaraq ayrıca Cinayət Məcəlləsinin hazırlanması zərurəti gündəlikdə duran ən vacib məsələlərdən biri olaraq qalırdı.

RSFSR-in geniş qanunvericilik bazasından istifadə etməklə 1922-ci il dekabrın 23-də Azərbaycan SSR MİK-in ikinci sessiyasında ilk **Cinayət Məcəlləsinin təsdiq edilərək 1923-cü il fevralın 1-dən qüvvəyə** minməsi barədə qərar qəbul edildi. Azərbaycan SSR-in ilk Cinayət Məcəlləsinin ümumi və xüsusi hissələrində cinayətkarlıqla mübarizə məsələləri kifayət qədər dəqiq tənzim edilirdi. Cinayət Məcəlləsinin ümumi hissəsi aşağıdakı bölmələrdən ibarət idi: Cinayət Məcəlləsinin tətbiqi dairəsi, cəza tətbiqinin ümumi əsasları, cəzanın müəyyən edilməsi, cəzanın növləri və sosial müdafiənin digər halları və nəhayət, cəza çəkmənin qaydaları. 14 yaşa qədər olan həddi-büluğa çatmamışlar cinayətin subyekti hesab olunmurdu. 14-16 yaşa çatanlara qarşı isə tibbi-pedaqoji cəza təsirləri tətbiq olunurdu. Lakin müstəsna hal kimi məhkəmə göstərilən yaşda olanlara qarşı müvafiq maddələrin yüngülləşdirici cəzalarını verə bilərdi. İlk Cinayət Məcəlləsində ümumi cəza siyahılarında ölüm cəzası göstərilməmişdir.

Lakin inqilabi tribunalların icraatında olan işlər üzrə xüsusi hissənin sanksiyası əsasında ölüm cəzası tətbiq olunurdu. Azadlıqdan məhrumetmənin maksimal həddi 10 il, minumum həddi isə 6 ay müəyyən edilmişdi. Azadlıqdan məhrumetmə məcburi əmək tətbiq olunması ilə müşayiət olunurdu. Əsas və əlavə cəza kimi əmlakın müsadirə olunması da nəzərdə tutulurdu.

1923-cü il ilk Cinayət Məcəlləsinin xüsusi hissəsinin birinci fəsli "Dövləti cinayətlər"ə həsr olunmuşdur. 57-ci maddədə əksinqilabi dövləti cinayətlər göstərilmişdi. Sovet hakimiyyətini devirmək üçün sui-qəsdlər və qiyamlar, vətənə xəyanət, terror aktları və s. cinayətlərə görə ağır cəza nəzərdə tutulurdu. Xüsusilə təhlükəli cinayətlər tez-tez əksinqilabi cinayətlər ilə birləşən talançılıq, oğurluq, banditizm, ehtikarlıq, xuliqanlıq hesab olunurdu. İqtisadi təxribatçılıqla mübarizəyə və casusluğa qarşı da ciddi mübarizə aparılırdı. İlk Cinayət Məcəlləsinin ikinci fəsli vəzifə cinayətlərinə, üçüncü fəsli kilsənin (məscidin) dövlətdən ayrılması qaydasının pozulmasına, dördüncü fəsli təsərrüfat cinayətlərinə, beşinci fəsli şəxsiyyət əleyhinə edilən cinayətlərə, altıncı fəsli əmlak əleyhinə edilən cinayətlərə, yeddinci fəsli hərbi cinayətlərə və nəhayət, səkkizinci fəsli ictimai qaydalara və təhlükəsizliyə qarşı edilən cinayətlərə həsr olunmuşdu. Məcəllə vəzifə və təsərrüfat cinayətlərinin cəzalanmalı olduğunu müəyyən edirdi. Vətəndaşların şəxsiyyəti, həyatı və səhhətinin mühafizəsinin cinayət-hüquqi tədbirlərinə böyük diqqət verilirdi. Hərbi cinayətlərə aid maddələr orduda intizamı möhkəmləndirməyə, hərbi mütəxəssislərin öz vəzifələrindən əksinqilabi sui-qəsdlərə kömək etmək, satqınlıq, daxili və xarici düşmənlər ilə xəyanətkar əlaqədə olmaq və s. halların qarşısını almağa yönəlmişdi. Hərbi əmlakı oğurlamaq, qarət etmək, soyğunçuluq və əhaliyə təzyiq göstərməyə görə də cinayət məsuliyyəti müəyyən edilirdi. Cinayət Məcəlləsi təsərrüfat-təşkilat və mədəni-sağlamlıq işini sarsıtmağa yönəldilmiş cinayətlər ilə qəti mübarizə aparırdı. Dövlətin taxıl inhisarını pozan, ərzaq və sənaye mallarla təminatını zəiflədən, dövlət anbarlarından oğurluq edən, saxtakarlıq və s. sui-istifadə hallarına qarşı ciddi tədbirlər görülürdü. Cinayət Məcəlləsində aşağıdakı cəzalar tətbiq edi-

lirdi: respublika hüdudlarından kənara çıxma; azadlıqdan məhrum etmək, dustaq etmədən icbari iş; şərti məhkumluq; əmlakın müsadirəsi; cərimə; hüquqlarından məhrum etmə; vəzifədən azadetmə, ictimai məzəmmət; vurulmuş zərəri ödəmək və ən yüksək cəza tədbiri kimi güllələnmə.

SSRİ-nin 1924-cü il Konstitusiyasına əsasən ali hakimiyyət orqanlarının İttifaq cinayət qanunvericiliyinin əsaslarını, yəni sosialist cinayət hüququnun bütün sovet respublikaları üçün vahid prinsiplərini müəyyən etmək hüququ var idi. Sovet cinayət hüququnun bu mühüm prinsipləri SSRİ Mərkəzi İcariyyə Komitəsinin 1924-cü il oktyabrın 31-də qəbul etdiyi "SSRİ və müttəfiq respublikaların cinayət qanunvericiliyinin başlanğıcında" öz ifadəsini tapdı. "Əsas başlanğıclar" iki növ cinayəti fərqləndiridi: a) sovet quruluşunun əsasları əleyhinə yönəldilmiş və ona görə də daha təhlükəli sayılan; b) yerdə qalan cinayətlər. Birinci növ cinayətlər üçün həddi müəyyən edilmişdi və məhkəmə həmin həddən aşağı cəza təyin edə bilməzdi; yerdə qalan cinayətlər üzrə isə qanun ən yüksək həddi müəyyən edirdi. "Əsas başlanğıclar" "cəza" terminindən imtina etdi. Cinayət məsuliyyətini ifadə edən ümumi termin kimi "ictimai müdafiə tədbirləri" termini tətbiq edilməyə başladı. Həmin tədbirlər məhkəmə-islah, tibbi və tibbi-pedaqoji xarakterli tədbirlərə ayrılırdı. Məhkəmə-islah xarakterli ictimai müdafiə tədbirlərinə SSR İttifaqı vətəndaşlığından məhrum etməklə və SSR ittifaqı hüdudlarından həmişəlik olaraq çıxarmaqla zəhmətkeşlərin düşməni elan etmək, azadlıqdan məhrum etmək, icbari iş və s., tibbi müdafiə xarakterli ictimai tədbirlərə məcburi müalicə və tibbi-təcrid müəssisələrində yerləşdirmə, tibbi-pedaqoji tədbirlərə isə həddi-büluğa çatmayanları valideynlərin, qohumların, yaxud başqa şəxslərin, müəssisələrin və təşkilatların himayəsinə və ya xüsusi müəssisələrə vermək aid idi. 1917-ci il çevrilişinin 10 illiyi münasibəti ilə Azərbaycan SSR MİK-in "Oktyabr inqilabının 10 illiyinə dair Bəyannamə"sində göstərilirdi ki, Cinayət Məcəlləsində dövləti cinayətlər istisna olmaqla, digər cinayətlərə görə tətbiq olunan ən yüksək sanksiya ləğv edilir.

1927-ci ilin dekabrında Azərbaycan SSR-in **Cinayət Məcəlləsinin yeni redaksiyası qəbul edilir.** Yeni Cinayət Məcəlləsi RSFSR-in 1926-cı il Cinayət Məcəlləsi əsasında hazırlanmışdı. 1927-ci il Məcəlləsinin xarakterik cəhəti xüsusi hissədə mövcud cəzaların azaldılmasında idi. Belə ki, dövləti və hərbi cinayətlər istisna olmaqla, 1927-ci il Məcəlləsinin yalnız 15 maddəsində ən yüksək cəzalar saxlanılırdı. Ciddi rejimli təcrid olunma ilə müşayiət olunan cəzalar da azaldılırdı. Məcburi işlərə cəlb etmək və cərimə olunmaqla verilən sanksiyalar artırılırdı. Belə ki, xüsusi hissənin 80 maddəsində məcburi işlər, 76 maddəsində isə cərimə tətbiqini nəzərdə tutan sanksiyalar daxil edilmişdi.

Cinayət Məcəlləsinin ümumi hissəsinə aid "Əsas başlanğıclar"da respublikaya verilmiş hüquqlardan kifayət qədər istifadə edilirdi. RSFSR CM-dən fərqli olaraq Azərbaycan SSR CM-də istintaq hərəkətləri anlaqsızlara və sərxoşlara aid edilirdi. Azərbaycan SSR CM-i "Əsas başlanğıclar"ın və digər müttəfiq respublikaların CM-dən fərqli olaraq, cinayətə hazırlığa görə (maddə 20) cinayət məsuliyyətini müəyyən etmirdi. "Əsas başlanğıclar" minimal azadlıqdan məhrum etmə cəzası və məcburi işlərə cəlb edilmənin həddini göstərməyərək, onun müəyyən olunmasını müttəfiq respublikaların öhdəsinə buraxırdı. Azərbaycan SSR CM-də isə azadlıqdan məhrum etmənin və məcburi işlərə cəlb olunmanın minimal müddəti bir gün göstərilirdi.

"Əsas başlanğıclar"da cəza tətbiq olunduğu halda əlavə cəza barəsində heç nə göstərilmir və bu barədə müttəfiq respublikalara əlavə hüquqlar verilmirdi. Azərbaycan SSR-in 1927-ci il CM-də isə şərti cəza əmlakın müsadirəsi və pul cəriməsi ilə müşayiət olunurdu.

1927-ci il CM qəbulundan sonrakı dövrdə də cinayət qanunvericiliyində dövlət, kooperativ və həmkarlar ittifaqı təşkilatlarının əmlakını oğurlamağa, həmçinin kənd əməkçilərinin mal-qarasını oğurlayıb kəsməklə məşğul olmağa görə məsuliyyət nəzərdə tutan aktlar qəbul edilirdi. Yalançı kooperativ təşkilatlarla mübarizə aparmağa böyük əhəmiyyət verilirdi. Yalançı kooperativlər qanunla verilən güzəşt və üstünlüklərdən istifadə etmək məqsədi ilə gizlənən xüsusi mülkiyyətçi müəssisələrdən ibarət idi. SSRİ XKS-nin 1928-ci il 28

dekabr tarixli "Yalançı kooperativlərlə mübarizə tədbirləri haqqında" qərarına əsasən yalançı kooperativlər təşkil etməkdə müqəssir olanlar əmlakları bütünlükdə və ya qismən müsadirə edilməklə 5 il müddətinə azadlıqdan məhrum edilirdilər. Bilərəkdən saxta kooperativlərdə işləyən şəxsləri də cinayət məsuliyyəti gözləyirdi. 1932-ci il avqustun 7-də SSRİ MİK və XKS "Dövlət müəssisələrinin, kolxozlar və kooperasiyaların əmlakının mühafizəsi və ictimai (sosialist) mülkiyyətinin möhkəmləndirilməsi haqqında" qərar qəbul etdi. Qanun sosialist mülkiyyətinə qəsd edənləri xalq düşməni elan edirdi. 1932-ci il 7 avqust qanunu mühafizə olunmaq cəhətdən kolxoz mülkiyyətini dövlət mülkiyyətinə bərabər tutur və müqəssirlərə qarşı ən yüksək cəza tədbiri müəyyən edirdi. Vəziyyəti yüngülləşdirən hal kimi güllələnmə cəzası əmlakı müsadirə edilməklə 10 ildən az olmayan müddətə azadılqdan məhrum etmə ilə əvəz oluna bilərdi. Kolxozları dağıtmağa və pozmağa yönəldilmiş hərəkətlər 5 ildən 10 ilə qədər müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılırdı. Qolçomaqların hədə və zorla kolxozçuları kolxozdan çıxmağa məcbur etmələri isə qanuna görə dövləti cinayət hesab olunurdu. Qanuna görə bu kimi cinayətlərə amnistiya şamil olunmurdu. Həmin ilin 22 avqustunda "Ehtikarlıqla mübarizə haqqında" qanun qəbul edildi. Qanunun qəbulu ehtikarlıq halları, xüsusilə təsərrüfat məhsulları və geniş istehlak malları ehtikarlığı ilə əlaqədar olaraq verilmişdir. Müştəriləri aldatmaq, dövlət standartlarına uyğun olmayan tərəzi, daş, metr və s. ölçü vahidlərindən istifadə etmək, aşağı növdən olan malları yuxarı növ mal qiyməti ilə satmaq, habelə müəyyən edilmiş satış qiymətlərini pozmaq üstündə ticarət işçilərinin məsuliyyəti artırıldı. 1932-ci il 22 avqust qanunu keyfiyyətsiz məhsul buraxmamaq üçün məsuliyyəti gücləndirirdi. "Ehtikarlıqla mübarizə haqqında" qanuna görə müqəssir olan şəxslərə amnistiya tətbiq olunmamaqla 5 ildən 10 ilə qədər həbs düşərgəsi müəyyən edilirdi.

Sovet hakimiyyəti istismarçı ünsürləri ləğv etmək zərurətini və yeni müharibə təhlükəsinin yarandığını nəzərə alaraq dövləti cinayətlər haqqında qanunvericilikdə dəyişiklik etdi. Bu məqsədlə 1934-cü il iyunun 8-də "Vətənə xəyanət üstündə məsuliyyət haqqında"

qanun verildi. SSRİ MİK-in qanununa görə casusluq, hərbi sirrin və ya dövlət sirrinin verilməsi, düşmən tərəfinə keçmə, xaricə qaçma vətənə xəyanət hesab olunurdu. Göstərilən bu kimi ağır cinayətlərə görə müqəssir olanlar ən yüksək cəzaya – bütün əmlakı müsadirə olunmaqla güllələnməyə, yüngülləşdirici hallarda isə yenə də əmlakı müsadirə olunmaqla 10 il müddətinə azadlıqdan məhrum etməyə məhkum edilirdilər. Hərbi xidmətdə olan vətən xainlərinə isə bütün əmlakı müsadirə olunmaqla yalnız güllələnmə tətbiq edilirdi.

"Vətənə xəyanət üstündə məsuliyyət haqqında" 1934-cü il qanununda cinayətlə bilavasitə əlaqəsi olmayan şəxslər barəsində də cəza təbirlərinin müəyyən edilməsi ədalətsizliyə yol verilməsi ilə nəticələnirdi. Belə ki, cinayət edilən vaxtda xəyanətkarlıqla birlikdə yaşamış və ya onun himayəsində olmuş həddi-büluğa çatmış bütün ailə üzvləri onun niyyəti barədə heç nə bilməsələr də, seçki hüquqlarından məhrum edilir və 5 il müddətinə Sibirə sürgün edilirdi.

Cinayət-prosessual hüquq. Cinayət prosesinə aid olan ilk qanunvericiliyə 1920-ci il mayın 12-də verilmiş "Xalq məhkəməsi haqqında" dekreti və mayın 20-də imzalanmış "Azərbaycan SSR Ali Hərbi Tribunalının Əsasnaməsi haqqında" aktları daxil etmək olar. "Xalq məhkəməsi haqqında" olan dekretdə "çar" və "müsavat" hökumətlərinin qəbul etdikləri qanunlardan məhkəmə prosesində istifadə etmək qadağan edilirdi. Dekretin 21-ci maddəsində məhkəmələrdə Azərbaycan dilindən istifadə olunmasına icazə verilirdi. 24-cü maddədə isə sübut növü kimi and içmədən istifadə etmə qadağan edilirdi. Şahid ifadələri and içilmədən verilirdi.

Dekretdə cinayət işinin qaldırılması, təhqiqatı və qərar verilməsi prosesinin forma və qaydaları müəyyən olunmuşdu. İbtidai istintaqın icraatı xalq məhkəməsi nəzdində fəaliyyət göstərən istintaq komissiyası tərəfindən aparılırdı. İstintaq başa çatdıqdan sonra iş baxılmaq üçün 6 nəfər iclasçılardan ibarət hakimə təqdim edilirdi. 36 və 39-cu maddələrə görə istintaq komissiyasının istintaqı dayandırmaq barədəki qərarları müttəhimə və onun müdafiəçisinə elan edilməli idi. Eyni zamanda bu qərarın motivləri əsaslandırılmaqla göstərilirdi. İki həftə ərzində isitintaq komissiyasının qərarından cinayət baş vermiş

yerin xalq məhkəməsindən şikayət ərizəsinə baxılırdı. Əgər məhkəmə heyəti istintaqın dayandırılması motivini əsassız hesab edərdisə iş yenidən təhqiq edilmək üçün istintaq komissiyasına qaytarılırdı. 1920-ci il 12 may dekretinə görə xalq məhkəməsi milis orqanları və həbsxana yerləri üzərində nəzarət etmək funksiyasına malik idi. Məhkəmə prosesində çəkişmə, şifahilik, açıqlıq, vasitəsizlik, müdafiə hüququ kimi prinsiplərdən istifadə edilirdi. Sovet məhkəmə sistemi xalq iclasçılarına çox geniş hüquqlar vermişdir. Xalq iclasçıları prosesin istənilən vaxtında sədrə etiraz etmək, cəza tədbirlərinə dair məsələni həll etmək, cəzanı şərti cəzaya çevirmək və ya müqəssiri tamamilə azad etmək və s. hüququna malik idi.

Xalq məhkəməsi haqqında dekretə görə iki növ – **ittihamedici** və **bəraət** hökmü verilirdi. İttihamedici hökm tam və şübhəsiz "sübuta" əsaslanırdı. Bəraət hökmü isə kifayət qədər sübut və dəlillərin olmaması və məhkəmə tərəfindən cinayət hadisəsinin özünün müəyyən edilməməsi halında ola bilərdi. Sovet dövlətinin ictimai və dövlət quruluşu əleyhinə yönəldilmiş cinayət əməlləri hərbi tribunallar tərəfindən aparılırdı. 1920-ci il mayın 20-də Azərbaycanda yaradılmış hərbi tribunallar talanlar, rüşvətxorluq, saxtakarlıq, casusluq və digər bu kimi işlərə baxırdı. Tribunallarda işlər xalq iclaslarının iştirakı olmadan aparılırdı. Hərbi tribunalların qərarından Xalq Ədliyyə Komissarlığına kassasiya qaydasında şikayət vermək olardı.

1923-cü il iyulun 16-da Azərbaycan SSR MİK-in üçüncü sessiyasında **Azərbaycan SSR-in ilk Cinayət-Prosessual Məcəlləsi qəbul edildi və 1923-cü il sentyabrın 25-dən qüvvəyə mindi.** İlk CPM bəzi əlavə və dəyişikliklərlə 1961-ci il martın 1-nə qədər qüvvədə olmuşdur. Azərbaycan SSR-in CPM-də RSFSR-in təcrübəsindən çox geniş istifadə olunmuşdu. Məcəllənin qanunçuluq prisipinə görə məhkəmənin, prokurorun, müstəntiqin və istintaq aparan digər şəxslərin hərəkətləri yalnız ədalətə və qanunun tələblərinə uyğun olmalı idi. CPM-in 19-cu maddəsində göstərilirdi ki, bütün məhkəmə iclasları açıq keçirilir. Yalnız hərbi, diplomatik və digər dövlət sirləri ilə bağlı hər hansı bir gizli məlumatlar açıqlanan zaman məhkəmənin qərarı ilə ictimaiyyətin nümayəndələri iclas zalını tərk et-

məli idilər. 22-ci maddəyə əsasən məhkəmə prosesi Azərbaycan dilində aparılırdı.

Müttəhimin müdafiəsi bütün cinayət prosesi mərhələlərində – ibtidai istintaqdan başlayaraq məhkəmə araşdırması və kassasiya icraatına qədər təmin edilirdi. CPM-in 50-ci maddəsinə görə cavabdeh məhkəmə prosesində müdafiədən istifadə edə bilərdi. Əvvəlki 12 may 1920-ci il dekretində isə göstərilən qayda nəzərdə tutulmamışdı. Cinayət işi üzrə müdafiəçi kimi vəkillər kollegiyası üzvlərindən başqa müttəhimin yaxın qohumları, ictimaiyyətin nümayəndələri, dövlət idarə və müəssisələrinin, həmkarlar ittifaqlarının və digər ictimai təşkilatların nümayəndələri çıxış edə bilərdilər Məhkəmə prosesində ittiham prokuror tərəfindən müdafiə edilirdi. Prokurora mühakimə olunanları qanunla ifşa etmək üçün bütün lazım olan prosessual qaydalardan istifadə etmək hüququ verilmişdi.

Azərbaycan SSR CPM prokurorla yanaşı dövlət idarələrinin və ictimaiyyətin nümayəndələrinə də ittihamı müdafiə etmək hüququ verirdi. Belə ki, CPM-in 47-ci maddəsinə əsasən fəhlə-kəndli, texniki, ərzaq, sanitar və digər sahələr üzrə müfəttişlər öz həmkarlar təşkilatları adından ittihamın müdafiəsində iştirak edə bilərdilər. Fərdi ittihamçı kimi iddiaçı vəkillər kollegiyasının üzvlərindən, yaxın qohumlarından və ya özünün qanuni nümayəndələrindən, əmək müfəttişliyi, həmçinin həmkarlar təşkilatının səlahiyyətli nümayəndələrindən istifadə etmək hüququna malik idi. CPM-in 45-ci maddəsi sübut növü kimi and içməkdən istifadəni qadağan edirdi. 55-ci maddə sübutların mənbəyinə şahid ifadələrini, cavabdehin izahatını, ekspertlərin rəylərini, maddi sübutları, hadisə yerinə baxış protokolunu və digər yazılı sənədləri daxil edirdi.

SSRİ MİK 1924-cü il oktyabrın 31-də SSRİ və müttəfiq respublikaların cinayət mühakimə icraatının əsaslarını təsdiq etdi. Əsaslarda göstərilirdi ki, cinayət təqibi prokurorluq, məhkəmə, istintaq və təhqiqat orqanları tərəfindən başlanır. Cinayətlərin ibtidai istintaqı üzərində nəzarət hüququ prokurorluq orqanlarına aid edilirdi. Azərbaycn SSR MİK və XKS 16 sentyabr 1931-ci il qərarı ilə CPM-in 277-ci maddəsinə dəyişiklik etdi. Belə ki, məhkəmə prosesində müttəhim

ona təqdim edilən ittihamları etiraf edirdisə, məhkəməyə prosesi dayandırmaq və ona son söz vermək səlahiyyəti verilirdi. Azərbaycan SSR MİK-in və XKS-in 10 iyun 1934-cü il birgə qərarı ilə xalq məhkəmələrinin hökmlərindən şikayət verməyin müddətləri dəqiqləşdirildi. CPM-in 343-cü maddəsinə görə şikayətçinin yaşadığı yerdən asılı olaraq qətnamədən şikayət vermək 14 gündən 10 və ya 5 günə qədər azaldılırdı. Şəhərlərdə bu 5 gün, kənd rayonları üzrə 10 gün müddətində müəyyən edilmişdi. Eyni zamanda bu hal şikayətçiyə şəxsən hökmün surəti təqdim edildiyi andan hesablanırdı.

Mülki prosessual hüquq. Sovet hakimiyyətinin mülki-prosessual hüquqa dair ilk aktlarına 1920-ci il mayın 12-də qəbul edilmiş "Xalq məhkəmələri haqqında", Azərbaycan SSR Hərbi İnqilab Komitəsinin 1920-ci il 12 iyul tarixli "Münsiflər məhkəməsi haqqında" dekretlərini daxil etmək olar.

Mülki prosesə dair işlərdə növbə ilə iki nəfər xalq iclasçısının iştirakı nəzərdə tutulurdu. Prosesin Azərbaycan dilində aparılmasına xüsusi diqqət verilirdi. Azərbaycan Hərbi İnqilab Komitəsinin 8 fevral 1921-ci il əmrinə əsasən Xalq Ədliyyə Komissarlığı fevralın 24-də bütün məhkəmə orqanlarına, o cümlədən hakimlərə şəxsən Azərbaycan dilində məhkəmə prosesini aparmaq barədə qərar verir.

Proses zamanı tərəflərə məhkəmənin tərkibinə etiraz etmək hüququ verilirdi. Həmçinin xalq hakimi və xalq iclasçıları iddiaçı və ya cavabdeh barəsində qohumluq münasibətləri olmasına və ya işdə maraqlı olmalarına dair məlumat verməyə borclu idilər.

"Xalq məhkəməsi haqqında" dekretin 68-ci maddəsinə görə bəzi işlərdə tərəflərin barışdırılmasına icazə verilirdi. İddia ərizəsini geri götürən iddiaçının ödədiyi rüsum geri qaytarılmırdı. Mülki işlərin qərarlarından kassasiya qaydasında Xalq Hakimləri Sovetinə şikayət vermək olardı (maddə 74). Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığı kollegiyasının 23 may 1920-ci il qərarı ilə Xalq Hakimləri Soveti yanında 36 nəfərdən ibarət hüquq müdafiəçiləri kollegiyası yaradıldı. Məhkəmə prosesində öz maraqlarını qorumaq istəyən tərəf hüquq müdafiəçisi üçün kollegiyaya müraciət etməli idi. Kollegiya üzvlərindən başqa tərəflərin nümayəndələri aşağıdakılar ola bilərdi-

lər: a) valideynlər, övladlar, həyat yoldaşları, qardaş və bacılar; b) sovet idarələrinin hüquq məsləhətçiləri. Xalq hakimlərinin qərarları şikayət müddəti qurtardıqdan sonra icra edilirdi. Tərəflər kassasiya qaydasında şikayətdən imtina etdikdə isə qərar dərhal yerinə yetirilirdi. Məhkəmə icraçıları bir kollegiyaya daxil edilmişdilər. Xalq Ədliyyə Komissarının 1920-ci il 1 iyun qərarı ilə məhkəmə icraçılarının vəzifələri göstərilirdi.

Azərbaycan SSR Hərbi İnqilab Komitəsinin 1920-ci il 12 iyul dekreti ilə münsiflər məhkəməsi yaradıldı. Dekretə görə xüsusi məhkəmələrə aid olan işlər istisna olmaqla, digər mülki işlər, o cümlədən sosial sığorta, bəzi xırda cinayət işləri münsiflər məhkəməsinin səlahiyyətinə daxil edilirdi. Münsiflər məhkəməsi qətnaməsindən şikayət bir ay müddətində kassasiya qaydasında Xalq Hakimlər Sovetinə göndərilirdi. Azərbaycan SSR MİK-in 8 fevral 1922-ci il qərarı bütün idarələrə və vəzifəli şəxslərə xalq məhkəməsinin işinə müdaxiləni qadağan edirdi.

Xalq Ədliyyə Komissarlığı tutduğu mövqedən asılı olmayaraq göstərilən qərarı pozan vəzifəli şəxslərə qarşı ciddi tədbir görməyi tələb edirdi. Hakimlərin seçilməsi prinsipi Azərbaycan SSR MİK-in 7 may 1923-ci il dekreti ilə təsdiq edilirdi. Xalq hakimləri Qəza, Fəhlə və Kəndli Deputatları Sovetinin icraiyyə komitəsi tərəfindən, Bakı şəhər icraiyyə komitəsi tərəfindən seçilirdi. Bakı və Gəncədə dairə məhkəmələri fəaliyyət göstərirdi. Dairə məhkəmələrinin sədrləri və müavinləri Azərbaycan SSR MİK tərəfindən təsdiq edilirdi. Azərbaycan SSR MİK-in 11 iyul 1922-ci il dekreti mülki prosesdə prokurorun iştirakını nəzərdə tuturdu. 1923-cü il məhkəmə islahatına görə Azərbaycan SSR-in Ali Məhkəməsi yaradıldı. Ali Məhkəmə respublikadakı bütün məhkəmə orqanlarına nəzarət etmək, dairə məhkəmələrindən olan şikayətlərə kassasiya qaydasında baxmaq və məhkəmə orqanları ilə bağlı bütün məsələləri həll etmək hüququna malik idi. Azərbaycan SSR XKS-in 5 aprel 1922-ci il qərarı ilə əmək mübahisələrini həll etmək üçün barışdırıcı kamer (divanxana) yaradılırdı. 1932-ci il dekabrın 22-də Zaqafqaziya Xalq Əmək Komissarlığı "Barışdırıcı kamer və münsiflər məhkəməsi haqqında Əsasnaməni" təsdiq etdi.

Azərbaycan SSR MİK-in 17 yanvar 1925-ci il qərarı ilə ilk Azərbaycan SSR Mülki - Prosessual Məcəlləsi təsdiq edilir və yanvarın 20-dən qüvvəyə minir. MPM RSFSR-in MPM əsasında hazırlanmışdır.

Azərbaycan SSR-in 1925-ci il Mülki-Prosessual Məcəlləsi 5 hissədən, 36 fəsildən və 316 maddədən ibarət idi. MPM-in birinci hissəsi (1-4-cü maddələr) mülki mühakimə prosesinin ümumi məsələlərini, o cümlədən əsas müddəaları, məhkəmədə nümayəndəlik, məhkəməyə aid işlər, məhkəmə xərcləri, cərimə, prosessual müddət, məhkəmə çağırışı və digər məsələləri tənzim edirdi.

MPM-in ikinci hissəsi (75-190-cı maddələr) iddia məsələləri ilə bağlı məhkəmə işlərini, o cümlədən iddianın təqdim və təmin edilməsi, işin araşdırılması, icranın dayandırılması, sübut və onun təmin olunması, ekspertiza, üçüncü şəxsi müəyyən edirdi. MPM tərəflərə geniş prosessual hüquqlar verirdi. Cavabdehin məhkəmə prosesinə şəxsən gəlməyi tələb olunurdu. Məcəllədə aşkarlıq, şifahilik və fasiləsizlik prinsipi təsbit edilirdi. Sübut növü kimi andiçmə qəbul edilmirdi. Mülki işlər üzrə kassasiya şikayəti müddəti qətnamə elan edildiyi gündən etibarən müəyyən edilmişdi.

XIV FƏSİL

II Dünya müharibəsi ərəfəsində və müharibə illərində Azərbaycanın dövlət və hüquq tarixi (1937-1946-cı illər)

Azərbaycan SSR-in IX Fövqəladə Sovetlər qurultayı. IX Fövqəladə Sovetlər qurultayı iki mərhələdə toplanmışdı. Birinci mərhələnin ilk iclası 1936-cı il noyabrın 17-də keçirildi. Qurultayın işində 477 nümayəndə iştirak etdi. IX Fövqəladə Sovetlər qurultayı 1936-cı il iyunun 12-də qəzetlərdə dərc edilmiş SSRİ-in yeni Konstitusiyasının layihəsini müzakirəyə çıxardı. Qurultay SSRİ Konstitusiyası layihəsinin ümumxalq müzakirəsinin yekunları haqqında respublika Xalq Komissarları Soveti sədrinin məruzəsini dinlədi və layihəni bəyəndi. Bununla da qurultay Azərbaycan SSR-in yeni Konstitusiyasının layihəsini müzakirə etməkdən ötrü və sonradan yenidən toplanmaq üçün birinci mərhələnin iclasına yekun vurdu. 1936-cı il noyabrın 25-də Moskvada SSRİ-nin Fövqəladə Sovetlər qurultayı açıldı. ÜİK(b)P Mərkəzi Komitəsinin Baş katibi İ.V.Stalinin rəhbərliyi ilə SSRİ Konstitusiyasının layihəsi müzakirə edilərək maddə-maddə yekdilliklə qəbul edildi. Yeni Sovet Konstitusiyasına görə SSRİ-nin siyasi əsasını Xalq Deputatları Soveti, SSRİ-nin iqtisadi əsasını isə istehsal vasitələri üzərində sosialist mülkiyyəti təşkil edirdi. Konstitusiya SSRİ-də sosialist mülkiyyətinin dövlət mülkiyyəti (ümumxalq) və kooperativ-kolxoz mülkiyyəti (kolxozların mülkiyyəti, kooperativ birləşmələrinin mülkiyyəti) formalarını müəyyən etdi. **1936-cı il 5 dekabr – SSRİ Konstitusiyasının** qəbul edildiyi gün ümumxalq bayramı elan edildi. Konstitusiyaya görə SSRİ-nin federativ quruluşu müəyyən edildi. Ali dövlət hakimiyyəti iki palatadan – İttifaq Soveti və Millətlər Sovetindən ibarət olan və 4 il müddətinə seçilən SSRİ Ali Sovetinə həvalə edildi. Müttəfiq respublikaların sayı 7-dən 11-ə qədər artırıldı. SSRİ-nin yeni Konstitusiyasında ittifaq dövləti-

nin səlahiyyətləri çox genişləndi. Belə ki, dövlət təhlükəsizliyinin mühafizəsi, planlaşdırma, maliyyə, inzibati-ərazi bölgüsünün dəyişməsi, mülki, cinayət, prosessual qanunvericilik, məhkəmə quruluşu İttifaqın səlahiyyətinə aid idi.

1936-cı ilin iyununda Azərbaycan SSR MİK-in Rəyasət Heyəti SSRİ Konstitusiyasının qəzetlərdə dərc edilmiş layihəsi əsasında Azərbaycan SSR-in yeni Konstitusiyasının layihəsini hazırlamaq üçün Konstitusiya Komissiyası yaratdı. 1937-ci il fevralın 20-də Azərbaycan SSR MİK-in Rəyasət Heyəti Komissiya tərəfindən hazırlanmış və bütün respublikada müzakirə edilmiş Azərbaycan SSR Konstitusiyasının mətnini təsdiq etdi. 1937-ci il martın 10-da ikinci mərhələdə iclasa toplanmış IX Fövqəladə Azərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in yeni Konstitusiyasının layihəsini müzakirə edib, onu əsasən qəbul etdi. Qurultayda yaradılmış redaksiya komissiyası Konstitusiyanın layihəsində qismən dəyişikliklər edərək onu yenidən qurultayın son müzakirəsinə verdi. Beləliklə, **1937-ci il martın 14-də IX Fövqəladə Azərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in yeni Konstitusiyasını** təsdiq etdi.

Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası. Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası 14 fəsildən və 155 maddədən ibarət idi. SSRİ-nin 1936-cı il 5 dekabr Konstitusiyası əsasında təşkil edilmiş Konstitusiyada respublikanın ictimai quruluşu, siyasi və iqtisadi sistemi, vətəndaşların hüquqi vəziyyəti müəyyən edilirdi. Konstitusiya Azərbaycan SSR-ni fəhlə və kəndli dövləti elan etməklə sosialist dövlətinin fəhlə və kəndli sinfinin möhkəm ittifaqına əsaslandığını göstərirdi. Konstitusiyanın 3-cü maddəsinə görə Azərbaycan SSR-də hakimiyyət zəhmətkeş deputatlar Sovetinə məxsus olmaqla həmin hakimiyyət respublikanın siyasi əsasını təşkil edirdi.

Konstitusiyanın birinci fəsli 1-12-ci maddələri əhatə etməklə ictimai quruculuğu əhatə edirdi. II fəsil dövlət quruculuğu (13-21-ci maddələr); III fəsil Azərbaycan SSR-in ali hakimiyyət orqanları (22-41-ci maddələr); IV fəsil Azərbaycan SSR-in dövlət idarəçiliyi orqanları (42-56-cı maddələr); V fəsil Naxçıvan MSSR-in ali dövlət hakimiyyət orqanları (57-66-cı maddələr); VI fəsil Naxçıvan MSSR-

in dövlət idarəçiliyi orqanları (67-74-cü maddələr); VII fəsil DQMV-nin dövlət hakimiyyət orqanları (75-85-ci maddələr); VII fəsil dövlət hakimiyyətinin yerli orqanları (81-105-ci maddələr); IX fəsil Azərbaycan SSR-in dövlət büdcəsi (106-109-cu maddələr); X fəsil prokurorluq və məhkəmə orqanları (110-124-cü maddələr); XI fəsil vətəndaşların əsas hüquq və vəzifələri (125-140-cı maddələr); XII fəsil seçki sistemi (141-150-ci maddələr); XIII fəsil dövlət dili, gerb, bayraq və paytaxt (151-154-cü maddələr) və nəhayət, 155-ci maddəni özündə birləşdirən XIV fəsil Konstitusiyada dəyişikliklər edilməsi ilə bağlı qaydaları tənzim edirdi.

Konstitusiyanın 4-cü maddəsində SSRİ-nin Konstitusiyasında olduğu kimi respublikanın iqtisadi əsasını sosialist mülkiyyətinin təşkil etdiyi təsbit olunurdu. 6-cı maddədə dövlət mülkiyyətinə torpaq, yerin təki, sular, meşələr, zavodlar, fabriklər, şaxtalar, filiz mədənləri, dəmir yolları, su və hava yolları, banklar, rabitə qurğuları, dövlət tərəfindən təşkil edilmiş iri kənd təsərrüfatı müəssisəsi olan sovxozlar, kommunal müəssisələr və əsas yaşayış fondları daxil edilirdi. Konstitusiya qurucularına görə hər iki mülkiyyət forması xalqın və sovet cəmiyyətinin maraqlarına xidmət etməklə gələcək "kommunizm" quruluşunun maddi-texniki bazasının yaradılmasına xidmət etməli idi. 1937-ci il Konstitusiyasının 10-cu maddəsində göstərilən mülkiyyət formaları ilə yanaşı şəxsi mülkiyyətin mövcudluğu da təsdiq edilirdi. Vətəndaşlara məxsus şəxsi mülkiyyətə zəhmət hesabına əldə olunan gəlir və onun xüsusi hesablarda olması, ev, həyətyanı təsərrüfat, fərdi tələbat malları və s. daxil olmaqla onlar qanunla mühafizə edilirdi. Şəxsi mülkiyyətin məqsədinə sovet vətəndaşlarının və onun ailə üzvlərinin maddi və mədəni tələbatını təmin emək daxil idi.

Sovet planlı təsərrüfat sistemi Azərbaycan SSR Konstitusiyası ilə də müəyyən edilirdi. Hələ 1931-ci ildə Əmək və Müdafiə Şurası yanında mövcud olmuş SSRİ Dövlət Plan Komissiyası SSRİ Xalq Komissarları Soveti yanında komissiyaya çevrilərək müstəqil xalq komissarlığı hüququ əldə etdi. Beləliklə, mərkəzdən idarə olunan bütün xalq təsərrüfatının vahid dövlət planı əsasında inkişaf etdirilməsinin konstitusion əsasları təsbit olundu.

Azərbaycan SSR Konstitusiyasının II fəslində respublikanın suverenliyi müəyyən edilirdi. Belə ki, Azərbaycan SSR İttifaq hakimiyyət orqanlarından asılı olmayaraq öz konstitusiyasına dəyişikliklər və əlavələr etmək hüququna malik idi. Respublikanın razılığı olmadan onun sərhədlərini dəyişmək olmazdı. Müttəfiq respublikalar arasındakı sərhədlər isə bir respublikanın digər respublikadan təcrid olunmasına xidmət etməməli idi. Belə ki, sərhədlər daxilində müvafiq respublikanın mənafeləri qorunsa da, bu mənafelər bütün sovet xalqının ümumi mənafelərinin əleyhinə yönəlməli idi. Müttəfiq respublikanın ərazisi SSRİ-nin ərazisinin bir hissəsi olmaqla İttifaq mənafelərinin əksinə olmamalı idi. Bütün hallarda SSRİ-nin dövlət sərhədlərində dəyişiklik etmək lazım olduqda müvafiq respublikanın razılığı tələb olunurdu. Hər bir müttəfiq respublikanın, o cümlədən Azərbaycan SSR-nin vətəndaşlığa qəbul etmək respublikanın suveren hüquqlarına daxil idi. SSRİ Konstitusiyasının 21-ci maddəsinə əsasən müttəfiq respublikanın vətəndaşı vahid ittifaqın vətəndaşı hesab edilirdi. Eyni zamanda, hər bir sovet vətəndaşı istənilən respublikanın vətəndaşı kimi tam bərabər hüquqa malik olurdu.

Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasının 16-b maddəsinə uyğun olaraq respublika SSRİ Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsi olmaq şərtilə özünün hərbi qüvvələrini yaratmaq hüququna malik idi. 19-cu maddənin müvafiq bəndi ilə Azərbaycan SSR özünün respublika silahlı qüvvələrini təşkil etmək qaydasını müəyyən edirdi. Azərbaycan SSR-in ali idarəedici və sərəncamverici orqanı kimi Nazirlər Soveti Silahlı Qüvvələrin yaradılmasına rəhbərlik edirdi (maddə 46 "z" bəndi).

SSRİ Konstitusiyasının 17-ci maddəsinə görə SSR-yə daxil olan hər bir respublika sərbəst olaraq onun tərkibindən çıxa bilərdi. Azərbaycan SSR Konstitusiyasının 17-ci maddəsində göstərilirdi ki, "Azərbaycan Sovet Sosialist Respublikası sərbəst olaraq SSRİ tərkibindən çıxmaq hüququnu özündə saxlayır". Azərbaycan SSR və digər müttəfiq resublikalar birtərəfli olaraq, SSRİ ali hakimiyyət orqanlarının razılığının olub-olmamasından asılı olmayaraq ittifaq tərkibindən çıxaraq, ittifaq müqaviləsini poza bilərdilər. SSRİ tərkibin-

dən çıxmaq hər bir müttəfiq respublikanın ayrılmaz hüququ kimi təsdiq olunurdu.

SSRİ Konstitusiyasının 14-cü maddəsinin müvafiq bəndi ilə ümumittifaq miqyasında amnistiya vermək SSRİ Ali Sovetinə məxsusdur. Eyni zamanda respublika daxilində belə hüquq Azərbaycan SSR-in ali dövlət və idarəetmə orqanlarının səlahiyyətlərinə daxil idi. 19-cu maddənin müvafiq bəndi ilə respublika məhkəmə orqanları tərəfindən məhkum edilmişlərə amnistiya və əfv tətbiqi nəzərdə tutulurdu.

Azərbaycan SSR Konstitusiyasının 152 və 153-cü maddələrində respublikanın gerb və dövlət bayrağı kimi simvolları təsbit olunurdu. Suveren dövlətlər olmayan muxtar respublikaların xüsusi gerb və bayrağının olması konstitusiyada nəzərdə tutulmurdu. Muxtar respublikaların öz konstitusiyalarına uyğun olaraq onlar tərkibində olduqları müttəfiq respublikanın dövlət simvollarından istifadə edirdilər. Lakin hər bir muxtar respublika gerb və bayraq üzərində "Bütün ölkələrin proletarları birləşin!" ifadəsini özü ana dilində yazmaq hüququna malik idilər.

Azərbaycan SSR Konstitusiyasının XI fəsli vətəndaşların hüquq və vəzifələrinə həsr edilmişdi. Vətəndaşların siyasi hüquqları kimi söz, mətbuat, yığıncaqlar, mitinqlər, küçə hərəkətləri və nümayişlər azadlığı, habelə vicdan azadlığı təsbit olunurdu. Konstitusiyada sosial-iqtisadi hüquqlar da elan və təmin edilirdi. Əmlak hüququ, istirahət hüququ, təhsil hüququ, qocaldıqda, xəstələndikdə və əmək qabiliyyətini itirəndə maddi təminat hüququ təsbit edilirdi. Əmək hüququ vətəndaşların işsizlik problemini aradan qaldırmağa, məhsuldar qüvvələrin artmasına xidmət edirdi. Digər hüquqlar da konstitusiya ilə təmin edilirdi.

1937-ci il konstitusiyası vətəndaşlara kooperativ, həmkarlar ittifaqları, gənclər, idman və müdafiə təşkilatlarında, mədəniyyət, texnika və elm cəmiyyətlərində birləşmək hüququnu müəyyən edirdi. Eyni zamanda, müxtəlif təşkilatlarda birləşmək hüququ sosializm quruculuğunu möhkəmləndirməyə və inkişaf etdirməyə xidmət etməli idi.

Konstitusiya qadınlara kişilərlə bərabər hüquqlar verirdi. Qadınların əmək, istirahət, sosial sığorta, təhsil hüquqları təsbit edilir, döv-

lətin çoxuşaqlı analara və tək analara, habelə ehtiyacı olanlara maddi və mənəvi qayğı göstərməsi hər vasitə ilə təmin olunurdu.

Konstitusiyada vətəndaşların vəzifələri də göstərilirdi. Hər bir vətəndaş konstitusiyaya riayət etməli, qanunları yerinə yetirməli, əmək intizamına əməl etməli, ictimai vəzifəyə vicdanla yanaşmalı, sosialist birgə yaşayış qaydalarına hörmət etməli, ictimai və digər sosialist mülkiyyətini qorumalı və möhkəmləndirməli idi. Vətənə xidmət kimi ordu sıralarına qulluq etmək ən şərəfli vəzifə sayılırdı.

Vətəni müdafiə SSRİ-nin hər bir vətəndaşının müqəddəs vəzifəsi elan edilirdi. Konsitusiya vətənə xəyanəti – andı pozmağı, düşmən tərəfinə keçməyi, dövlətin hərbi qüdrətinə zərər vurmağı, casusluğu qanunla ən şiddətli cəzaya səbəb olan ən ağır cinayət hesab edirdi.

Azərbaycan SSR Konstitusiyasının XII fəslində seçki sistemi müəyyən edilirdi. Konstitusiyada gizli səsvermə yolu ilə ümumi, bərabər və müstəqil seçki hüququ təsbit edilirdi. 1937-ci il Konstitusiyasına qədər olan bütün seçki məhdudiyyətləri ləğv edilərək, irqindən və milliyyətindən, cinsindən, dini baxışlarından, təhsilindən, oturaqlığından, sosial mənsubiyyətindən asılı olmayaraq (lakin qanunla müəyyən edilmiş məhdudiyyətlər və qadağanlar istisna edilməklə) bütün şəxslər seçkidə iştirak etmək hüququ əldə edirdi. Konstitusiyanın 150-ci maddəsinə uyğun olaraq seçilmiş deputatlar istənilən vaxt səs çoxluğu əsasında geri çağırılırdı.

Konstitusiyanın XII fəslində Azərbaycan SSR-in dövlət gerbi və bayrağı təsvir edilirdi. Gerb və dövlət bayrağı ilə yanaşı bu fəsildə respublikanın paytaxtı da müəyyən edilirdi.

1937-ci il Konstitusiyasının XIV fəslində Azərbaycan SSR Konstitusiyasında dəyişiklik edilməsi qaydası göstərilirdi. Respublika Ali Sovetinin qərarı ilə deputatların üçdə iki səs çoxluğu əsasında Konstitusiyada dəyişiklik edildi.

Konstitusiyada əhalinin sayına uyğun olaraq nümayəndəlik də təsbit olunurdu. Belə ki, 12500 nəfər əhali Ali Sovetdə bir deputatla təmsil olunurdu. Ali Sovetin sədrinin 4 nəfər müavini müəyyən edilmişdi. Ali Sovetin Rəyasət Heyəti isə muxtar qurumların sayına uyğun olaraq iki müavindən, katib və 10 nəfər üzvdən ibarət olaraq seçilirdi. Konsti-

tusiyanın 41-ci maddəsində göstərilirdi ki, Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin fərmanları, həmçinin Nazirlər Sovetinin sərəncamları Azərbaycan, rus və erməni dillərində dərc edilirdi.

1937-ci il sentyabrın 18-də Fövqəladə X Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan MSSR-ın Konstitusiyasını qəbul etdi. Naxçıvan MSSR-in Konstitusiyası SSRİ və Azərbaycan SSR-in Konsititusiyalarının əsas prinsiplərini əks etdirirdi. Eyni zamanda konstitusiyada tarixi, iqtisadi, təbii və digər xüsusiyyətlər nəzərə alınmaqla muxtar respublikaların reallıqları nəzərə alınırdı. Konstitusiyanın 2-ci maddəsində Naxçıvan zəhmətkeş deputatlar Sovetinin yaranması tarixinin xüsusiyyətləri göstərilirdi.

Konstitusiyanın 18-ci maddəsində Naxçıvan MSSR-in Azərbaycan SSR tərkibində dövlət, təsərrüfat və sosial-mədəni qurculuq sahəsində mövcud olan müxtəlif və geniş səlahiyyətləri xarakterizə edilirdi. Dövlət quruculuğu sahəsində muxtar respublikanın konstitusiyasının qəbul edilməsi və Azərbaycan SSR Ali Sovetinin təsdiqinə verilməsi, ona riayət olunmasına nəzarət etmək, ali dövlət və idarəetmə orqanlarını yaratmaq, yerli inzibati-ərazi bölgüsü məsələlərini müəyyən etmək, həmçinin rayon və şəhərlərin sərhədləri ilə bağlı məsələləri Azərbaycan SSR Ali Sovetinin təsdiqinə vermək, muxtar respublikanın məhkəmə orqanlarını təşkil etmək və digər bu kimi məsələlər göstərilirdi.

Qanunvericilik, hüquq qaydaları və sosialist qanunçuluğu sahəsində Naxçıvan MSSR-in səlahiyyətlərinə SSRİ və Azərbaycan SSR qanunlarına muxtar respublika ərazisində riayət olunması, dövlət qaydalarının qorunması və insan hüquqlarının mühafizə olunması və s. məsələlər daxil idi.

Təsərrüfat-maliyyə quruculuğu sahəsində aşağıdakı qaydalar müəyyən olunmuşdu: Naxçıvan MSSR-in dövlət büdcəsi və onun yerinə yetirilməsinin hesabatı, xalq təsərrüfatı planının təsdiq edilməsi, SSRİ və Azərbaycan SSR qanunları ilə müəyyən olunmuş qaydaya uyğun olaraq dövlət və yerli vergiləri təyin etmək, yerli sovetlərin büdcələrinə rəhbərlik etmək, həmçinin sığorta və əmanətlərə nəzarət etmək, Naxçıvan MSSR tabeliyində olan sənaye, kənd təsərrüfa-

tı, ticarət müəssisələrinə və digər təşkilatlara rəhbərlik etmək, SSRİ və Azərbaycan SSR tabeliyində olan sənaye və digər müəssisələrə nəzarət etmək, yaşayış və kommunal təsərrüfatlara, yollara, nəqliyyata və yerli rabitə vasitələrinə rəhbərlik etmək.

Konstitusiyaya görə Naxçıvan MSSSR-in səlahiyyətlərinə səhiyyə, sosial təminat, məktəbəqədər tərbiyə, ibtidai və orta məktəb təhsili, mədəni-maarif və elm təşkilatları, bədən tərbiyəsi və idman, ali təhsil işinə nəzarət və s. sahələr üzrə Naxçıvan Muxtar Respublikasında yerləşən müəssisə və təşkilatlara nəzarət etmək daxil idi.

Naxçıvan MSSR-in Konstitusiyasına görə muxtar respublika suveren hüquqlara malik deyildi. Bununla belə sisialist dövləti kimi onun konstitusiyasının mövcud olması xarakterik cəhət kimi qeyd olunmalıdır. İttifaq daxilində mövcud olan muxtar qurumlar, o cümlədən Naxçıvan MSSR öz konstitusiyasını SSRİ konstitusiyasının 92-ci və Azərbaycan SSR konstitusiyasının 20-ci maddəsində göstərilmiş əsaslarla qururdu. Naxçıvan MSSR-in Konstitusiyası 1941-ci il aprelin 7-də Azərbaycan SSR Ali Soveti tərəfindən təsdiq edilmişdir. Muxtar respublika konstitusiyasının 115-ci maddəsinə uyğun olaraq respublika konstitusiyasında edilən dəyişiklik deputatların üçdə iki səs çoxluğu ilə qəbul edilərək, yalnız Azərbaycan SSR Ali Soveti tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minirdi.

Naxçıvan MSSR-də ali dövlət hakimiyyəti Ali Sovetə və Ali Sovetin Rəyasət Heyətinə məxsus idi. Konstitusiyaya uyğun olaraq Naxçıvan Ali Soveti muxtar respublika vətəndaşları tərəfindən ümumi, bərabər, birbaşa seçki əsasında gizli səsvermə yolu ilə dairələr üzrə hər 2 min nəfərə bir deputat norması olmaqla 4 il müddətinə seçilirdi. Geniş hüquqlara malik Naxçıvan Ali Soveti muxtar respublika ərazisində yeganə qanunverici orqan idi. Belə ki, Naxçıvan MSSR-ə məxsus bütün səlahiyyətlər daxilində dövlət, təsərrüfat və mədəni quruculuğun mühüm məsələləri Ali Sovet tərəfindən həll edilirdi. Konstitusiyaya edilən dəyişikliklər istisna olmaqla, Naxçıvan MSSR-in Ali Sovetinin qəbul etdiyi normativ aktlar muxtar respublika ərazisində ali hüquqi qüvvəyə malik idi və onların Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən təsdiq olunmasına ehtiyac yox idi.

Naxçıvan MSSR-in Konstitusiyasına görə, Ali Sovet qanunverici orqanın sədrini və iki nəfər müavini seçirdi. Ali Sovetin sədri qanunverici orqanın iclaslarına sədrlik edir və onun daxili reqlamentini müəyyənləşdirirdi. Ali Sovet Naxçıvan MSSR-in Ali Sovetinin Rəyasət Heyətinin sədrini, iki müavini, katibi və 5 nəfərdən ibarət üzvünü, həmçinin təsərrüfat-maliyyə, dövlət quruculuğu və hüquq və sosial-mədəni quruculuq sahələri üzrə isə daimi komissiyaları seçirdi.

Naxçıvan MSSR-in Ali Soveti il ərzində iki dəfə növbəti sessiyalara toplaşırdı. Növbədənkənar sessiyalar isə Ali Sovet deputatlarının üçdə birinin tələbi ilə çağırılırdı. Ali Sovet tərəfindən qəbul edilmiş qanunlar Azərbaycan və erməni dillərində dərc edilirdi. Qanunları Ali Sovet Rəyasət Heyətinin sədri və katibi imzalayırdı. Naxçıvan MSSR Konstitusiyasının 3-cü maddəsində muxtar respublikanın "dövlət dili" Azərbaycan dili təsbit olunmuşdu.

Naxçıvan MSSR Konstitusiyasının 30-cu maddəsinə uyğun olaraq müxtar respublikanın Ali Sovetinin Rəyasət Heyəti Naxçıvan MSSR Ali Sovetinin sessiyasını çağırır, fərmanlar verir, qüvvədə olan muxtar respublika qanunlarını şərh edir, ümumxalq səsverməsi (referendum) keçirir, Naxçıvan MSSR Nazirlər Sovetinin, rayon və şəhər sovetlərinin qanununa uyğun olmayan qərar və sərəncamlarını ləğv edir, Ali Sovetin sessiyaları arasındakı dövrdə Nazirlər Sovetinin təqdimatı ilə nazirləri vəzifəyə təyin edir və ya vəzifədən azad edərək Ali Sovetin növbəti sessiyasına təsdiq edilmək üçün təqdim edir, Muxtar Respublikanın fəxri fərmanlarını müəyyən edir və onlarla təltif edirdi.

Naxçıvan MSSR-in ali icraedici və sərəncam orqanı olan Xalq Komissarlar Soveti muxtar respublika hökumətini təmsil edirdi. Azərbaycan SSR Konstitusiyasının IV fəslində və Naxçıvan MSSR Konstitusiyasının IV fəslində muxtar respublika Xalq Komissarları Sovetinin formalaşması, onun səlahiyyətləri və hüquqi statusu müəyyən edilmişdi. Xalq Komissarları Soveti muxtar respublika Ali Soveti tərəfindən komissarlardan, dövlət plan komissiyasından, Xalq Nəzarəti komitəsi sədrindən, Xalq Komissarları Soveti yanında dövlət təhlükəsizlik komitəsi sədrindən və Xalq Komissarları Soveti yanında tikinti və arxitektura idarəsi rəisindən ibarət olmaqla təşkil edilirdi.

Muxtar respublika Ali Məhkəməsi Azərbaycan SSR Konstitusiyasının 114-cü və Naxçıvan MSSR konstitusiyasının 76-cı maddəsinə uyğun olaraq muxtar respublika Ali Soveti tərəfindən 5 il müddətinə seçilirdi. Ali Məhkəmə Naxçıvan MSSR-də olan məhkəmələr üzərində nəzarət edirdi. Muxtar respublika Ali Məhkəməsi Ali Sovetə, onun sessiyaları arasındakı dövrdə isə Rəyasət Heyətinə tabe idi. Naxçıvan MSSR-də məhkəmə işləri Azərbaycan dilində aparılırdı. Naxçıvan MSSR prokuroru SSRİ-nin baş prokuroru tərəfindən 5 il müddətinə təyin edilirdi. Naxçıvan MSSR prokuroru muxtar respublikanın prokurorluq sisteminə rəhbərlik edirdi.

Naxçıvan MSSR-in konstitusiyasının hüquqi təbiətini xarakterizə edərək 15-ci maddəni qeyd etmək lazımdır. Belə ki, həmin maddəyə əsasən Naxçıvan MSSR-in ərazisi muxtar respublikanın razılığı olmadan dəyişdirilə bilməzdi. Muxtar respublika Azərbaycan SSR dövlət hakimiyyəti orqanlarında nümayəndələri vasitəsilə təmsil olunurdu. Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq Naxçıvan MSSR üçün deputat normaları sayı müəyyən edilmişdi. Muxtar respublika Ali Sovet Rəyasət Heyətinin sədri Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin müavini idi. Xalq Komissarları Sovetinin sədri isə Azərbaycan SSR hökuməti tərkibinə daxil edilirdi. SSRİ Konstitusiyasına uyğun olaraq Naxçıvan MSSR-dən 11 nəfər deputat SSRİ Ali Sovetinin Millətlər Soveti tərkibinə seçilirdi.

Naxçıvan MSSR muxtar qurum olaraq Azərbaycan SSR tərkibindən çıxmaq hüququna malik deyildi. Belə hüquq yalnız ikitərəfli razılıqla mümkün idi. Naxçıvan MSSR özünün dövlət simvollarına malik deyildi. Muxtar Respublika yalnız Azərbaycan SSR-in gerb və bayrağı üzərində "Naxçıvan MSSR" ifadələrini rus və Azərbaycan dillərində ifadə etməklə simvollarına malik idi.

Dağlıq Qarabağ Muxtar Vilayətinin hüquqi statuşunun əsasları SSRİ Konstitusiyasının 94,95 və 99-cu və Azərbaycan SSR Konstitusiyasının 75-85-ci maddələri üzrə müəyyən edilmişdi. Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq (31-ci maddə) Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müavinlərindən biri DQMV-dən seçilirdi. Digər müttəfiq respublikalarda göstərilən hüquqi qayda möv-

cud olmamışdır. DQMV məhkəməsinin sədri Azərbaycan SSR Ali məhkəməsinin üzvü olurdu. Muxtar Vilayət öz ərazisində rayonlar üzrə bölgünü müəyyən edərək təsdiq etmək üçün Azərbaycan SSR Ali Sovetinə təqdim edirdi. Eyni zamanda Azərbaycan SSR-in ali dövlət hakimiyyəti DQMV sərhədlərinin dəyişdirilməsi ilə bağlı məsələləri muxtar vilayətin zəhmətkeş deputatları sovetinin icraiyyə komitəsinin razılığı ilə həll edirdi. Azərbaycan SSR Konstitusiyasının 78-ci maddəsinə görə DQMV zəhmətkeş deputatlar sovetinin qərar və sərəncamları erməni və Azərbaycan dillərində dərc edilirdi. 117-ci maddəyə uyğun olaraq muxtar vilayətdə məhkəmə işləri erməni və Azərbaycan dillərində aparılırdı.

DQMV-nin dövlət hakimiyyəti orqanı Azərbaycan SSR-in DQMV rayon, şəhər, kənd və qəsəbələrinin zəhmətkeş deputatları sovetinə seçkilər üzrə "Əsasnamə"yə uyğun olaraq muxtar vilayət vətəndaşları tərəfindən iki il müddətinə seçilən muxtar respublika zəhmətkeş deputatları soveti idi. Muxtar vilayət ərazisində dövlət hakimiyyətinə malik olan zəhmətkeş deputatları soveti təsərrüfat quruculuğu, vilayət xalq təsərrüfatı planı, vilayət büdcəsi planı, sosial-mədəni, dövlət qaydalarının qorunması, qanunlara əməl edilməsi, vətəndaşların hüquqlarının qorunması və respublikanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi kimi məsələləri yerinə yetirirdi. Azərbaycan SSR Konstitusiyasının 82-ci maddəsinə görə DQMV zəhmətkeş deputatları sovetinin sessiyası onun icraiyyə komitəsi tərfindən il ərzində 4 dəfə çağırılırdı. Azərbaycan SSR ali hakimiyyət orqanları və yerli zəhmətkeş deputatları sovetinin üçdə bir hissəsinin tələbi ilə fövqəladə sessiya çağırılırdı. Zəhmətkeş deputatlar sovetinin icraiyyə komitəsi tərkibi birinci sessiyada sədrdən, iki sədr müavinindən, katibdən və 9 nəfər üzvdən ibarət olmaqla seçilirdi. DQMV-nin vilayət məhkəməsi muxtar vilayət zəhmətkeş deputatları soveti tərəfindən 5 il müddətinə seçilirdi. Onun tərkibinə məhkəmə sədri, sədr müavini, məhkəmə üzvləri və xalq iclasçıları daxil idi.

Mərkəzi hakimiyyət və idarəetmə orqanları. Azərbaycan SSR-də 1937-ci il Konstitusiyasının III fəslinə görə ali dövlət hakimiyyəti orqanı respublika vətəndaşları tərəfindən 4 il müddətinə seçilən

Ali Sovet idi. Azərbaycan SSR Ali Soveti əsas sahələr üzrə fəaliyyəti istiqamətləndirməkdən ötrü daimi fəaliyyət göstərən komissiyalar seçirdi. Ali Sovetin komissiyaları xalq təsərrüfatı planını, dövlət büdcəsinin layihəsini və digər sahələr üzrə qanun layihələrini və normativ aktları hazırlayaraq ilkin nəzərdən keçirib müzakirə edir və Ali Sovetin sessiyasının təsdiqinə çıxarırdı. Ali Sovetin sessiyasına sədrlik etmək və onun işini aparmaqdan ötrü Konstitusiyanın 28-29-cu maddələrinə uyğun olaraq Azərbaycan SSR Ali Sovetin sədri və onun iki müavini seçilirdi. **1937-ci il Konstitusiyasına görə Ali Sovetin sessiyaları arasındakı dövrdə daimi fəaliyyət göstərən Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti dövlət hakmiyyəti sistemində mühüm orqanlardan** idi. Azərbaycan SSR Ali Sovetinin birinci çağırışının növbəti sessiyasında seçilən, sədrdən, iki nəfər sədr müavinindən və 13 nəfər üzvdən ibarət olan Ali Sovetin Rəyasət Heyəti öz fəaliyyətində Azərbaycan SSR Ali Sovetinin nəzarətində olmaqla, ona hesabat verirdi.

Dövlət hakimiyyətinin ali orqanlarının sistemində olan **dəyişiklik** 1937-ci il Konstitusiyasında öz əksini tapdı. Belə ki, Sovetlərə seçkilərin gizli, bərabər və müstəqil aparılması qaydasının müəyyən olunması o dövrəqədərki **üçpilləli** dövlət hakimiyyəti orqanları **(Azərbaycan Sovetlər qurultayı, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti)** sistemi əvəzində **Azərbaycan Ali Soveti və Ali Sovetin Rəyasət Heyətini** təşkil etməyə imkan verdi. 1937-ci il Konstitusiyasının 33-cü maddəsinə uyğun olaraq Ali Sovetin Rəyasət Heyəti Azərbaycan SSR qanunlarını şərh edir, ümumxalq rəy sorğusu (referendum) keçirir, respublikanını fəxri adlarını təyin və təltif edir, Azərbaycan SSR Xalq Komissarları və Naxçıvan MSSR Xalq Komissarları Sovetinin, həmçinin DQMV zəhmətkeş deputatları Sovetinin qərar və sərəncamlarının qanuna uyğun olmadığı təqdirdə onları ləğv edir, Azərbaycan SSR Ali Sovetinin sessiyaları arasındakı dövrdə xalq komissarları Sovetinin təqdimatı ilə ayrı-ayrı nazirləri vəzifədən azad edir və ya vəzifəyə təyin edir, həmin fərmanları təsdiq etmək üçün Ali Sovetin növbəti sessiyasına çıxarırdı. Azərbay-

can SSR Ali Soveti Rəyasət Heyətinin səlahiyyətlərinə Azərbaycan SSR-nin xarici ölkələrdəki diplomatik numayəndəliyini təyin etmək və ya geri çağırmaq, xarici dövlətlərin respublikada akkreditə olunmuş diplomatik nümayəndələrindən etimadnamələri qəbul etmək daxil idi. Ali Sovetin Rəyasət Heyəti daimi komissiyaların fəaliyyəti ilə bağlı bir sıra təşkilati funksiyaları da yerinə yetirirdi. Belə ki, dövlət hakimiyyəti və respublika hakimlərinin seçilməsi ilə əlaqədar olaraq seçki dairələrini təşkil edir və seçkilərin vaxtını təyin edir, həmin orqanlara seçkilərlə bağlı əsasnaməni müəyyən edirdi. Beləliklə, Ali Sovetin sessiyaları arasındakı dövrdə daimi fəaliyyət göstərən Rəyasət Heyəti 1937-ci il Konstitusiyasına uyğun olaraq geniş səlahiyyətlərə malik mühüm dövlət hakimiyyəti orqanı olaraq fəaliyyət göstərirdi. Ali Sovetin Rəyasət Heyətinin qəbul etdiyi bütün normativ aktlar Ali Sovetin növbəti sessiyasında mütləq təsdiq edilmək üçün gündəliyə çıxarılırdı.

Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasının IV fəslində respublikanın **icraedici** hakimiyyət orqanı olan **Xalq Komissarları Sovetinin** səlahiyyətləri tənzimlənirdi. Konstitusiyaya görə ali icraedici və sərəncamverici orqan olan Azərbaycan SSR Xalq Komissarları Soveti təsərrüfatın, dövlət idarəçiliyinin, sosial-mədəni quruculuğun ayrı-ayrı sahələrinə rəhbərlik edirdi. Konstitusiya ali dövlət hakimiyyəti orqanları ilə icraedici və sərəncamverici orqanlar arasındakı qarşılıqlı hüquqi münasibətlərin yeni qaydalarını müəyyən edirdi. Xalq Komissarları Soveti Azərbaycan SSR Ali Soveti tərəfindən təşkil edilərək onun qarşısında məsuliyyət daşıyırdı. Sessiyalararası dövrdə isə Xalq Komissarları Soveti Ali Sovetin Rəyasət Heyətinə hesabat verirdi. Ali Sovetin Rəyasət Heyəti hökuməti qismən və ya tamamilə istefaya göndərə bilərdi. Ali Sovetin Rəyasət Heyəti Xalq Komissarları Sovetinin qəbul etdiyi qərar və sərəncamların qanuna uyğun olmadığı təqdirdə onları ləğv edirdi. Ali Sovetin sessiyaları arasındakı dövrdə Xalq Komissararı Sovetinin təqdimatı ilə komissarları vəzifəyə təyin və vəzifədən azad edən Rəyasət Heyəti həmin qərarın təsdiq olunmasını mütləq Ali Sovetin növbəti sessiyasının müzakirəsinə çıxarırdı.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə sədr, sədrin birinci müavini və müavin, nazirlər, Dövlət plan komissiyasının 48-ci maddəsinə uyğun olaraq Ali Sovet tərəfindən yaradılmış idarə rəhbəri daxil idi. Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə vəzifəyə görə Naxçıvan MSSR Xalq Komissarları Sovetinin sədri də daxil edilirdi. Azərbaycan SSR Konstitusiyasının 46-cı maddəsinə uyğun olaraq Xalq Komissarları Soveti komissarlıqların və digər təsərrüfat və mədəniyyət idarələrinin işlərini birləşdirir və istiqamətləndirir, xalq təsərrüfatı planını icra etmək üçün tədbirlər görür, respublika və yerli büdcəyə nəzarət edir, ictimai qaydaların qorunması üçün tədbirlər görür, dövlətin və vətəndaşların mənafeyini və hüquqlarını təmin edir, Naxçıvan MSSR Xalq Komissarları Sovetinin işini istiqamətləndirir və yoxlayır, DQMV İcraiyyə Komitəsinin, rayon və şəhər sovetlərinin işlərinə rəhbərlik edir və onların fəaliyyətini yoxlayır, zərurət yarandıqda təsərrüfat və mədəni quruculuq sahəsində xüsusi komitə yaradırdı.

SSRİ və Azərbaycan SSR-in qanun və fərmanlarının əsasında müvafiq qərar və sərəncamlar verən Azərbaycan SSR Xalq Komissarları Soveti onların icra edilməsinə bilavasitə nəzarət edirdi. Xalq Komissarları Soveti DQMV-nin İcraiyyə Komitəsi, rayon və şəhər sovetlərinin, respublika komissarlıqlarının təlimatlarını ləğv edə, qanun pozuntuları olan Naxçıvan MSSR Xalq Komissarları Sovetinin və Dağlıq Qarabağ Muxtar Vilayəti zəhmətkeş deputatları sovetinin, rayon və şəhər sovetlərinin qərar və sərəncamlarının icrasını dayandıra bilərdi. Azərbaycan SSR hökumətinin səlahiyyətləri və onun qəbul etdiyi qərar və sərəncamlar respublika ərazisindəki bütün orqanlar, təşkilatlar, idarələr, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən icrası vacib olan hüquqi aktlar idi.

SSRİ Xalq Komissarlar Soveti ilə sıx əlaqələr yaratmaq məqsədilə əvvəllər RSSR hökuməti yanında olmuş nümayəndəlik yenidən təşkil edilərək SSRİ hökuməti yanında daimi orqana çevrilir. Daimi nümayəndəliyin vəzifəsinə SSRİ miqyasında hazırlanan layihə və digər normativ aktların Azərbaycan SSR-ə aid hissəsində mərkəzi hökumətlə sıx əlaqələr yaratmaq, SSRİ büdcəsinin və xalq təsərrü-

fatı planı layihəsinin müzakirəsində, həmçinin Azərbaycan SSR büdcəsi və xalq təsərrüfatı planının yerinə yetirilməsinin müzakirəsində yaranan mübahisələrin həllində iştirak etmək daxil idi. Azərbaycan SSR-in mərkəzi hökumət yanındakı daimi nümayəndəliyi onun qarşısında qoyulan vəzifələri daha da yaxşı yerinə yetirmək üçün SSRİ Ali Sovetinin Rəyasət Heyəti və Xalq Komissarları Sovetinin iclaslarında və daimi komissarların işində iştirak etmək, həmçinin İttifat miqyaslı dövlət idarələri ilə əlaqə qurmaq hüququna malik idi.

Azərbaycan SSR Konstitusiyasına görə ittifaq-respublika və respublika miqyaslı komissarlıqlar yaradılırdı. İttifaq-respublika komissarlıqları öz fəaliyyətlərində həm mərkəzi hökumətin, həm də respublika hökumətinin göstərişlərini icra edirdilər. Konstitusiyanın 51-ci maddəsinə görə komissarlar SSR İttifaqının və Azərbaycan SSR-in hökumətlərinin qərar və sərəncamları əsasında özlərinin əmr və təlimatlarını verirdilər.

1946-cı il martın 15-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Xalq Komissarları Sovetləri SSRİ Nazirlər Sovetinə, müttəfiq və muxtar respublikaların Nazirlər Sovetlərinə çevrildilər. Xalq Komissarlıqları isə nazirliklər adlandırıldılar. 1947-ci ilə qədər İttifaq üzrə 12 yeni nazirlik, o cümlədən 6 Ümumittifaq -respublika nazirliyi yaradıldı. SSRİ Nazirlər Soveti yanındakı bin neçə komitə nazirliklərə çevrildi. SSR İttifaqı nazirliklərinin ümumi sayı 58 idi, o cümlədən onlardan 36-sı ümumittifaq və 22-si ittifaq-respublika nazirliyi idi.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 28 mart 1946-cı il fərmanı ilə Xalq Komissarları Soveti Azərbaycan SSR Nazirlər Sovetinə çevrildi. Komissarlıqlar isə nazirliklər adlandırıldı. Həmin fərmanla Naxçıvan MSSR-in Xalq Komissarları Soveti də muxtar respublika Nazirlər Sovetinə çevrildi. Göstərilən dəyişiklik mahiyyət etibarı ilə hökumətin funksiya və səlahiyyətlərində heç bir dəyişiklik etmirdi.

SSRİ-nin 1936-cı il və Azərbaycan SSR-in 1937-ci il Konstitusiyaları şəhər, kənd, rayon, vilayət və ölkələrdə yerli hakimiyyət orqanlarının zəhmətkeş deputatlar soveti olmasını müəyyən edirdi. Azərbaycan SSR Konstitusiyasına görə, yerli sovetlər respublika qa-

nunları ilə onlara verilmiş hüquqlar dairəsində qərarlar qəbul edir və sərəncamlar verir, özlərinə tabe olan idarəetmə orqanlarının fəaliyyətinə rəhbərlik edir, dövlət qorunmasını qanunlara riayət edilməsini və vətəndaşların hüquqlarının qorunmasını təmin edir, yerli təsərrüfat və mədəni quruculuq işlərinin rəhbərliyini həyata keçirir, yerli büdcəni müəyyən edirdilər. Yerli zəhmətkeş deputatları Sovetlərinin icraiyyə və binagüzarlıq orqanları onlar tərəfindən seçilən icraiyyə komitələri idi. Zəhmətkeş deputatları Sovetləri özlərinin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə, o cümlədən büdcə, sənaye, kənd təsərrüfatı, xalq maarifi və s. komissiyalar seçirdilər. Daimi komissiyalar Sovetlərin yardımçı, işçi orqanları olmaqla təsərrüfat və mədəni quruculuq vəzifələrinin həllində vətəndaşları da işə cəlb etməklə zəhmətkeş deputatları Sovetlərinə kömək edirdilər.

1938-ci il iyunun 24-də Azərbaycan SSR Ali Sovetinə ilk seçkilər keçirildi. 1936-cı il Konstitusiyası əsasında seçilmiş Ali Sovet 1938-ci il iyulun 18-də ilk sessiyasına toplandı. 1939-cu ilin dekabrında yeni Konstitusiya əsasında yerli zəhmətkeş deputatlar sovetinə seçkilər keçirildi. Beləliklə, yerli sovetlərə seçkilərin keçirilməsi ilə 1937-ci il Konstitutsiyası əsasında dövlət hakimiyyətinin nümayəndəli orqanlarının yenidən qurulması başa çatdırıldı.

II Dünya müharibəsinin başlanması və Azərbaycan SSR-in müharibədə iştirakı. 1941-ci il iyunun 22-də faşist Almaniyası SSRİ-yə hücum etdi. Azərbaycan SSR də amansız müharibəyə cəlb edildi. "Barbarossa " planına görə faşistlər ildırım sürətli müharibə apararaq Arxangelsk-Həştərxan xəttinə çıxmalı idilər. Almaniyanın işğalçılıq planlarında strateji cəhətdən əlverişli mövqedə yerləşən Azərbaycan və Bakı nefti xüsusi yer tuturdu. Bakıda neftin çıxarılması, emalı və nəql edilməsi ilə əlaqədar bütün işlər 1941-ci il martın 27-də Almaniyanın "Kontinental neft cəmiyyəti"nə tapşırılmışdı. Ölkədə müharibə ilə əlaqədar olaraq yaranmış yeni şərait dövlət aparatının hərbi qaydada qurulması zərurəti yaratmışdı. Digər müttəfiq respublikalar kimi Azərbaycan da hərbi, iqtisadi və mənəvi səfərbərliyə cəlb edilmişdi. Dövlət aparatının yenidən qurulması ilk növbədə dövlət hakimiyyətinin və idarəetmənin yeni orqanlarının yaradılmasında ifadə olunurdu.

1941-ci il iyunun 30-da Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı. Yeni dövlət sturukturunun çox geniş səlahiyyətləri mövcud idi. Belə ki, düşməni silahlı yolla dəf etməyi təşkil etmək, sənaye, nəqliyyat və kənd təsərrüfatını hərbi qaydada yenidən qurmaq, ordunu və əhalini ərzaq və sənaye malları ilə təchiz etmək, dövlət təhlükəsizliyini təmin etmək, dövlət aparatının və digər ictimai təşkilatların bütün qüvvələrini müharibə ilə bağlı vəzifələrin yerinə yetirilməsinə səfərbərliyə almaq Dövlət Müdafiə Komitəsininin səlahiyyətlərinə daxil idi. Bununla belə digər ali qanunverici və iraedici hakimiyyət qurumlarının fəaliyyəti dayandırılmamış və ona hər cür köməklik göstərməyə yönəlmişdi. SSRİ Xalq Komissarları Sovetinin sədri və ÜİK (B) P Baş katibi İ.V. Stalin Ali Baş Komandan təyin edilmişdi. Dövlət Müdafiə Komitəsi 1941-ci il oktyabrın 1-dən etibarən SSRİ -nin 16 yaşdan 50 yaşa qədər kişi cinsindən olan vətəndaşları üçün məcburi hərbi təlim müəyyən etdi. Hərbi təlim Xalq Müdafiə Komissarlığına və onun yerli orqanlarına həvalə edilmişdi.

İkinci dünya müharibəsində Azərbaycandan 640 min nəfərədək adam sovet ordusu sıralarında faşistlərə qarşı döyüşlərdə iştirak etmişdir. Respublikadan olan milli diviziyalar — 402-ci, 223-cü, 416-cı və 271-ci diviziyalar mərdliklə döyüşlərdə iştirak edərək faşizm üzərində qələbənin təmin edilməsində əvəzsiz xidmət göstərmişdilər. 1920-ci ildən yaradılmış 77-ci Azərbaycan diviziyası 1942-ci ildə yenidən təşkil edildi.

Azərbaycan SSR-in xalq təsərrüfatı qısa müddət ərzində hərbi qaydada təşkil olunaraq yenidən quruldu. Xüsusilə Bakı neft sənayesi işçilərinin fədakarlığı nəticəsində ordunun yanacaqla təchiz edilməsində problemlər yaranmadı. Neft emalı zavodlarında 22 milyon ton benzin və digər neft məhsulları istehsal edilmişdi. Sovet hərbi təyyarələrinin istifadə etdiyi benzinin 85-90% -ni Bakı verirdi.

İkinci Dünya müharibəsi illərində hərbi vəziyyət elan edilmiş yerlərdə müdafiə, ictimai asayiş, dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş cinayətlərə hərbi tribunallar baxırdı. Sənaye müəssisələrini özbaşına tərk etmək, hərbi təlimdən yayınmaq, hərbi uçot qaydalarını pozmaq, əhali arasında şaiyələr yaymaq, həmçinin komandanlığın

lazım bildiyi hallarda hərbi hakimiyyət ehtikarlıq, qatı xuliqanlıq və s. cinayətlər haqqında işləri baxılmaq üçün hərbi tribunallara vermək səlahiyyətinə malik idi. Müharibə illərində hərbi tribunalların sədrləri və üzvləri SSRİ XƏK və SSRİ Xalq Müdafiə Komissarlığının birgə əmri ilə təyin edilirdilər.

İkinci Dünya müharibəsi illərində İttifaq Dövləti tərəfindən müttəfiq respublikalara hərbi-qoşun birləşmələri yaratmaq səlahiyyətləri verilirdi. Eyni zamanda İttifaq Xalq Müdafiə Komissarlığı ittifaq-respublika komissarlığına çevrilirdi. Belə ki, SSRİ Ali Sovetinin X sessiyası 1944-cü il fevralın 1-də "Müttəfiq respublikaların qoşun birləşmələrinin yaradılması və bununla əlaqədar olaraq ittifaq-respublika xalq komissarlığına çevrilməsi haqqında" qanun qəbul etdi. Məhz yüksək peşəkarlıqları ilə fərqlənən Azərbaycan SSR-in milli diviziyaları müharibə illərində öz qəhrəmanlıqları ilə qələbənin təmin edilməsində böyük fədakarlıqlar göstərmişdilər.

1944-cü il fevralın 1-də qəbul edilmiş digər qanunla müttəfiq respublikaların xarici əlaqələr sahəsində hüdudları genişləndirildi. Azərbaycan SSR Konstitusiyasının 16-cı maddəsinin müvafiq bəndi ilə Azərbaycan xarici dövlətlərlə birbaşa əlaqələr quru bilər, diplomatik və konsulluq nümayəndəliklərini yarada bilərdi. 46-cı maddə ilə isə Azərbaycan SSR Xalq Komissarları Soveti xarici əlaqələri İttifaq hökumətinin müəyyən etdiyi ümmumi qaydalar üzrə aparmalı idi. 1944-cü il qanunu respublikalara xarici dövlət ilə bilavasitə əlaqəyə girmək, onlarla sazişlər bağlamaq və digər hüquqlar verirdi.

Hüququn inkişafı. Mülki hüquq. Mülki hüququn əsas müddəaları SSRİ-nin 1936-cı il və Azərbaycan SSR-in 1937-ci il konstitusiyalarında və sonrakı qanunvericilikdə təsbit olunmuşdu. Yeni konstitusiyalara müvafiq olaraq mülkiyyətin əsasən iki növü - dövlətin mülkiyyəti (ümumxalq) və kooperativ-kolxoz mülkiyyəti müəyyən olunmuşdu. Ümumxalq mülkiyyəti dövlət mülkiyyətində cəmləşmişdi. Bütün xalqa məxsus olan dövlət mülkiyyəti xalqın siyasi təşkilatı olan Sovet Sosialist dövlətinin sərəncamında idi. Sosialist mülkiyyətinin dövlət (ümumxalq) növünə torpaq, yeraltı sərvətlər, sular, meşələr, zavodlar, fabriklər, mədənlər, dəmiryolu, su və hava nəqliyya-

tı, banklar, rabitə vasitələri, dövlət tərəfindən təşkil edilmiş kənd təsərrüfatı müəssisələri (sovxozlar, maşın-traktor stansiyaları və s.), habelə şəhərlərdə və sənaye məntəqələrindəki kommunal müəssisələr və əsas mənzil fondu daxil edilirdi. Dövlət (ümumxalq) mülkiyyətinin yeganə subyekti olan Sovet dövləti öz orqanlarının - idarələrin, müəssisələrin, təşkilatların vasitəsi ilə mülkiyyətçinin (xalqın səlahiyyətlərini həyata keçirirdi.

Sosialist mülkiyyətinin digər forması olan kooperativ-kolxoz mülkiyyətinin obyektinə kolxozlardakı və kooperativ təşkilatlarındakı ictimai müəssisələr, onlara məxsus mal-qara və avadanlıq, kooperativ və kolxozların istehsal etdiyi məhsul, həmiçinin onların ictimai tikintiləri daxil idi. Kooperativ-kolxoz mülkiyyəti ayrı-ayrı kolxozlara və kooperativ təşkilatlarına məxsus olan qrup mülkiyyətidir. Mülkiyyət üzərində sərəncam vermək hüququ yalnız kolxozçulara və kooperativçilərə məxsus idi.

1937-ci il Konstitusiyasında mülkiyyətin iki əsas növündən başqa, çoxdan inkişaf etmiş vətəndaşların fərdi mülkiyyətinin və kolxozçu həyətyanı mülkiyyətinin mövcud olmasını da nəzərdə tuturdu. Vətəndaşların şəxsi mülkiyyətinin mənbəyini onların zəhmətləri təşkil edirdi. Kolxozçu həyətinin şəxsi mülkiyyətini kənd təsərrüfatı arteli nizamnaməsinə müvafiq olaraq müəyyən edilmiş kiçik həyətyanı torpaq sahəsindəki yardımçı təsərrüfat, yaşayış evi, heyvanlar, ev quşları və xırda kənd təsərrüfatı avadanlığı təşkil edirdi.

Konstitusiya özgə əməyinin istismar olunmasını istisna edən tək təsərrüfatın, kəndlilərin və kustarların şəxsi əməyinə əsaslanan xırda xüsusi təsərrüfatın olmasını da mümkün sayırdı.

Bəhs olunan dövrdə müqavilələrdən tədarük və podrat müqavilələri xüsusi inkişaf edirdi. Tədarük müqavilələri təsərrüfat müəssisələrinin bağladığı müstəqil müqavilələr olmaqla müəssisələrin sərbəstliyinin inkişafına kömək edirdi. Lakin müstəqil müqavilələr sistemi müvafiq xalq komissarlıqları və ya baş istehsalçı-idarələr tərəfindən qəbul edilən əsas və ya ümumi şərtlərlə tənzimlənirdi. Podrat müqavilələri isə tikinti işlərində müvəffəqiyyətlə tətbiq edilirdi.

Belə ki, podrat üsulundan istifadədə məqsəd tikintidə sənaye üsullarını inkişaf etdirmək idi. Podrat müqaviləsinin şərtlərinə görə tikinti həcminin yerinə yetirilməsi üçün tam məsuliyyət baş podratçının öhdəsində idi.

II Dünya müharibəsinin başlanması hüquq institutlarından da bütün vəsaitləri səfərbər etməyi, cəbhə və arxanın möhkəmləndirilməsinə xidmət edən ciddi qanun intizamı yaradılmasını tələb edirdi. Müharibə dövründə müqavilələrin rolu daha da artırıldı. Təsərrüfat orqanları arasında ciddi müqavilə intizamının tələb olunması, müqavilələrə əməl olunmasında mühüm vasitə idi. Eyni zamanda strateji əhəmiyyət daşıyan məhsullar üzərində hökumət sərəncam verərək, təsərrüfat orqanları arasında heç bir müqavilə bağlanmadan zəruri məqsədlər üçün bölüşdürülür.

Müharibə iştirakçılarının və onların ailə üzvlərinin mənzil hüquqları qanunla ciddi surətdə qorunurdu. Hərbi qulluqçuların mənzil sahəsi onlar orduda xidmət edən vaxt başqa şəxslər tərəfindən tutulardısa, hərbi qulluqçu xidməti qurtarıb gəldikdə müvəqqəti sakin həmin mənzil sahəsi dərhal boşaltmalı idi. Əks təqdirdə müvəqqəti sakin mənzil sahəsi ayrılmadan inzibati qaydada mənzildən çıxarılırdı.

Müharibə illərində **vərəsəlik hüququ** sahəsində qanunvericilikdə bəzi dəyişiklik edildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin "qanun üzrə və vəsiyyət üzrə varislər haqqında" 1945-ci il 14 mart tarixli fərmanı qanun üzrə varislərin əvvəldən məlum olan kateqoriyalarına iki yeni kateqoriya - əmək qabiliyyətini itirmiş valideynləri, habelə qardaş və bacıları da əlavə etdi. Fərmana müvafiq olaraq, əvvəllər olduğu kimi qanun üzrə varislərin hamısı bərabər hüquqda varis olurdularsa, indi isə ilk növbədə uşaqlar, o cümlədən övladlığa götürülmüş uşaqlar, ər-arvad, daha sonra əmək qabiliyyətini itirmiş valideynlər və mərhumun himayəsində olmuş əmək qabiliyyəti olmayan şəxslər varis hesab edilirdi. İkinci növbədə əmək qabiliyyəti olan valideynlər, onlar olmadıqda isə üçüncü növbədə mərhumun qardaş və bacıları varis ola bilərdilər. Hər bir vətəndaş öz əmlakını bütünlüklə və ya qismən qanun üzrə varislərdən birinə və ya bir neçəsinə, habelə dövlət orqanlarına, ictimai təşkilata vəsiyyət edə bilərdi.

Əmək hüququ. Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasının XI fəslində vətəndaşların hüquq və vəzifələri təsbit olunmuş, onların əmək, istirahət, qocaldıqda və xəstələndikdə maddi təminat hüququ, əmək intizamına riayət etmək vəzifəsi və s. hüquqları əsas qanunla müəyyən olunmuşdu. Konstitusiya vətəndaşların işləmək vəzifəsini icra etməyi tələb edirdi. Sosializm cəmiyyətində mövcud olmuş bərabərlik prinsipi bəzi sui-istifadələr üçün şərait yaradırdı. Məhz bu baxımdan SSRİ XKS və Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şurasının (ÜİHİMŞ) 1938-ci il 28 dekabr tarixli "Əmək intizamını qaydaya salmaq, dövlət ictimai sığorta təcrübəsini yaxşılaşdırmaq və buişdə sui-istifadə halları ilə mübarizə aparmaq tədbirləri haqqında" qərarında bərabərçiliyin aradan qaldırılması, xəstəliyə görə sığorta təminatının yeni, fasiləsiz iş stajından asılı olaraq fərqli normalarını müəyyən edirdi. Müharibə şəraitinin tələblərinə müvafiq olaraq əmək münasibətlərində dövlət bir qədər sərtləşdirilmiş siyasət apararaq işçilərin hüquqlarını məhdudlaşdıran qərarları qəbul edirdi. Belə ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1940-cı il 26 iyun tarixli fərmanı əmək münasibətlərinin işçinin arzusu ilə birtərəfli xitam olunmasını qadağan etdi və özbaşına işdən çıxıb getmək, işə çıxmamaq (proqul) və işə gecikmək üstündə fəhlə və qulluqçular üçün cinayət məsuliyyəti müəyyən etdi. Fərmana müvafiq olaraq istirahət günü aradan qaldırılır və işçilər yeddi günlük iş həftəsi və 8 saatlıq iş gününə qaytarılırdı.

Yaxınlaşan faşist təhlükəsini nəzərə alaraq dövlət sənayenin daha da inkiaf etməsi üçün istehsalatı işçi qüvvəsi ilə daim və müntəzəm təmin etməyi, ehtiyat əmək qüvvələri yaratmağı tələb edirdi. 1940-cı il oktyabrın 2-də SSRİ Ali Soveti Rəyasət Heyəti "Dövlət ehtiyat əmək qüvvələri haqqında" fərman imzaladı. Fərmana müvafiq olaraq fabrik-zavod və dəmiryol məktəblərini qurtaran məzunlar müəyyən müddətdə dövlət müəssisələrinə işə göndərilirdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1940-cı il 19 oktyabr fərmanı ilə bütün SSRİ Xalq komissarlıqlarına mühəndis-texniki işçiləri, müəyyən kağeqoriyadan olan ixtisaslı fəhlə və qulluqçuları ərazi üzrə yerləşmələrindən asılı olmayaraq, bir müəssisə və idarədən başqasına keçirmək hüququ verildi.

Müharibə bilavasitə SSRİ ərazisində davam etdiyi üçün fəhlə və qulluqçuların kütləvi cəbhəyə cəlb edilməsi ilə əlaqədar idarə və müəssisə rəhbərlərinə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1940-cı il 26 iyun fərmanında nəzərdə tutulan iş günü müddətindən əlavə olaraq bir saatdan 3 saata qədər müddətə məcburi iş tətbiq etməyə icazə verilirdi. Müharibə vaxtında yalnız 16 yaşına qədər yeniyetmələrə məzuniyyət verilir, digər işləyənlər üçün isə məzuniyyət pulla əvəz edilirdi. 1942-ci ildən isə göstərilən məzuniyyətlərə verilən ödənişlər müvəqqəti olaraq dayandırıldı.

"Müharibə dövründə əmək qabiliyyətli şəhər əhalisinin istehsalatda və tikintidə işləmək üçün səfərbərliyə alınması haqqında" SSRİ Ali Sovet Rəyasət Heyətinin 1942-ci il 13 fevral tarixli fərmanına görə səfərbərlikdən boyun qaçırma cinayət cəzasına səbəb olurdu.

Harada yaşamasından asılı olmayaraq əmək qabiliyyətli əhalinin kolxoz, sovxoz və MTS-lərdə kənd təsərrüfat işlərinə səfərbərliyə alınmasına icazə verilirdi.

Əmək hüququnda müharibə əlillərinə dövlət qayğısı daha da artmışdı. Tam pensiya ilə təmin olunan əlillər xəstələndikdə iş stajlarından asılı olmayaraq xəstəlik kağızı (bülleten) üzrə də əmək haqqını tam həcmdə alırdılar. Müharibə əlilləri birinci növbədə işə qəbul edilir, mənzil sahəsi ilə təmin edilir, qüvvətli yeməklə təmin edilir, müxtəlif kurslara, məktəblərə göndərilir, ali məktəblərə və texnikumlara qəbul olunarkən imtiyazdan istifadə edirdilər və s. üstün hüquqlara malik idilər.

Kolxoz hüququ. 1935-ci ilin fevralında II Ümumittifaq zərbəçi kolxozçular qurultayında qəbul olunmuş kənd təsərrüfatı artelinin yeni Nümunəvi Nizamnaməsi kolxoz quruluşunun daha da möhkəmləndirilməsinə kömək etdi. Yeni Nümunəvi Nizamnamə kolxozçuların ictimai mənafeyi ilə şəxsi mənafeyinin əlaqələndirilməsi prinsipinə əsaslanırdı. Bu prinsipə görə isə kolxozçu ictimai istehsala öz şəxsi təsərrüfatına nisbətən üstünlük verirdi. Zərbəçi kolxozçuların II qurultayı bütün kənd təsərrüfatı artellərinə 3 ay müddətində kənd təsərrüfatı artelinin Nümunəvi Nizamnaməsi əsasında öz artellərinin nizamnamələrini işləyib hazırlamağı və artel üzvlərinin ümumi yı-

ğıncağında müzakirə və təsdiq etdikdən sonra onu rayon icraiyyə komitəsində qeydiyyatdan keçirməyi təklif etdi. Nizamnamədə göstərilirdi ki, artel üzvlərinin becərdikləri bütün torpaqlar dövlət mülkiyyəti olub, həmişəlik istifadə üçün kolxozçulara təhkim olunur.

Dövlət kolxozları təşkilat-təsərrüfat cəhətdən daha da möhkəmləndirmək üçün 1939-cu il mayın 27-də "Kolxozların ictimai torpaqlarını dağılmaqdan qorumaq tədbirləri haqqında" qərar qəbul etdi. SSRİ XKS-in göstərilən qərarına uyğun olaraq dövlət təşkilatlarının və ictimai təşkilatların kolxozlardan aldıqları torpaqlar onlara qaytarılırdı. Bütün həyətyanı torpaqlar ölçüldü. Həyətyanı torpaq sahələrinin qanunsuz olaraq genişləndirilməsi, kolxozların ictimai torpaqlarının dağıdılması və oğurlanması hallarının qarşısını almaq üçün tədbirlər görülürdü.

Kənd təsərrüfatı arteli nizamnaməsində nəzərdə tutulduğu kimi ölçülən həyətyanı torpaqlardan kolxozçuların və təktəsərrüfatçı kəndlilərin qanunsuz olaraq mənimsədikləri 2,5 milyon hektardan çox torpaq aşkar edildi.

Kolxozlarda intizamı möhkəmləndirmək üçün tədbirlər müəyyən edilirdi. Həyətyanı sahəni icarəyə vermək və ya başqa şəxsin istifadəsinə verməyə görə kolxozçular kolxoz üzvlüyündən çıxarılır və torpaq sahəsindən məhrum edilirdilər. Kolxozçularda əmək intizamının möhkəmləndirilməsi üçün tədbirlər görülür. Hər bir əmək qabiliyyətli kolxozçuya və kolxozçu qadına məcburi əməkgünü minimumu 100-60 gün müəyyən edilmişdi. Kolxozçu qadınlar doğuş dövründə, doğuşa qədər bir aylıq və doğuşdan sonra bir aylıq əmək haqqı saxlanılmaqla, işdən azad edilirdilər.

Kolxozçuların maddi maraqlarını artırmaq və onları həvəsləndirmək məqsədilə əməyin hesablanması və ödənilməsi qaydaya salınaraq tənzimlənirdi. Kənd təsərrüfatı bitkilərinin və mal-qaranın məhsuldarlığını yüksəltməyə görə əlavə əmək haqqı və mükafat sistemi müəyyən edildi. Beləliklə, ictimai istehsalın artmasında kolxozçuların maddi marağı güclənir, kolxozlarda əmək intizamının möhkəmlənməsinə və məhsuldarlığın artmasına səbəb olurdu. Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq kolxozçular üçün məcburi əmək-

günü minimumu artırıldı. SSRİ XKS-nin 1939-cu il 27 may tarixli qərarı ilə məcburi əməkgünü minimumu ayrı-ayrı sahələrin şəraitindən asılı olaraq 60, 80 və ya 100 gün müəyyən edilmişdirsə, müharibə vaxtında bu minimum müvafiq surətdə artırılaraq 100, 120 və 150 əmək gününə çatdırıldı. Məcburi əməkgünü minimumunu yerinə yetirməyən kolxozçular üçün məsuliyyət müəyyən edilmişdi. Belə ki, kənd təsərrüaftı işləri dövrləri üzrə məcburi əməkgünü minimumunu üzürlü səbəb olmadan yerinə yetirməmiş əmək qabiliyyətli kolxozçular məhkəməyə verilir və xalq məhkəməsinin hökmü ilə kolxozun xeyrinə əmək haqqının 25 faizinə qədəri tutulmaqla kolxozlarda 6 ay müddətinə islah əmək işinə məhkum edilirdilər. Müharibə dövründə kolxozçular qazandıqları əməkgünü minimumundan asılı olmayaraq məhsul yığımında hökmən iştirak etməli idilər. Məhsul yığımında iştirak etməkdən imtina edən kolxozçuları cərimə edir, onların əməkgününün müəyyən hissəsi kolxozun xeyrinə tutulurdu. 12 yaşdan 16 yaşına qədər yeniyetmə üçün də məcburi əməkgünü minimumu dövrlərə bölünmədən ildə 50 gün müəyyən edilmişdi.

Müharibə dövrünün qanunvericiliyi heyvandarlığı möhkəmləndirmək üçün kolxozların mal-qaranı satmaq və kəsmək hüququnu məhdudlaşdırırdı. Kolxozlarda heyvanların satılması və kəsilməsi ancaq rayon torpaq şöbəsinin icazəsi ilə mümkün idi.

Ailə hüququ. Müharibə dövründə nikah və ailə münasibətlərinə aid qəbul edilmiş mühüm hüquqi aktlar SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il iyulun 8-də verdiyi "Hamilə qadınlara, çoxuşaqlı və tək analara dövlət yardımının artırılması", "Ana və uşaqların mənafeyinin mühafizəsinin gücləndirilməsi", "Qəhrəman ana" fəxri adının müəyyən edilməsi", "Analıq şərəfi" fərmanları olmuşdur. Fərmanlar nikah və ailə qanunlarında ciddi dəyişiklik edərək ailənin daha da möhkəmlənməsinə kömək etdi.

Beş nəfər övladı olan analar üçün "Analıq medalı", "Analıq şərəfi" ordeni mükafatları, "Qəhrəman ana" ordeni ilə təltif etməklə "Qəhrəman ana" şərəfli adı müəyyən edildi. Çoxuşaqlığa görə müavinət formasında dövlət yardımı xeyli artırıldı. Qadın üçüncü uşağı doğulduqda müavinət alırdı. Əvvəllər isə göstərilən müavinət yed-

dinci uşaq doğulduqdan sonra müəyyən edilirdi. Tək analar üçün dövlət yardımı müəyyən olunmaqla onlar öz uşaqlarını körpələr evlərinə, uşaq bağçalarına və s. birinci növbədə yerləşdirmək hüququ əldə etdilər.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 8 iyul fərmanına qədər, VVAQ orqanlarından kənarda dini adətlər üzrə bağlanmış lakin dövlət orqanlarında qeydiyyata alınmamış nikah qanuni nikaha bərabər tutulurdu. Həmin fərmana müvafiq olaraq dövlət orqanlarında qeydiyyata alınmış nikah ər-arvad üçün hüquq və vəzifələr yaradırdı. Eyni zamanda, 1944-cü il 8 iyul fərmanına qədər faktiki nikah münasibətlərinə girmiş şəxslər faktiki nikah münasibətlərində olmalarının tarixini göstərməklə öz nikahlarını VVAQ orqanında rəsmiləşdirmək hüququna malik oldular. Fərmana qədər yalnız boşanma aktı tərəflərdən birinin müraciəti ilə dövlət tərəfindən qeydə alınırdısa, fərman qəbul olunduqdan sonra boşanmanın məhkəmə qaydası müəyyən edilir və ancaq məhkəmə zəruri hesab etdikdə nikah pozulurdu. Məhkəmədə boşanma işinə baxılması iki mərhələdə keçirilirdi. Birinci mərhələdə barışdırmaq məqsədi ilə işə baxılır və ikinci mərhələdə məhkəmədə boşanma işi həll edilirdi. Nikahın pozulmasının əsasları müəyyən edilməsə də, hər bir boşanmanın konkret cəhətləri nəzərə alınaraq iddianın həlli məhkəmənin özünə həvalə edilirdi.

Məhkəmə prosesində məhkəmə boşanmanın səbəblərini aydınlaşdırır, tərəflərin qohumları və şahidlərinin ifadələrindən istifadə etməklə qərar qəbul edirdi. İşlərə açıq və yalnız tərəflərin iştirakı ilə baxılırdı. Müharibə dövründə himayəçilik, qəyyumluq, valideynləri cəbhədə həlak olan uşaqların övladlığa götürülməsi geniş yayılmışdı.

SSRİ Ali Soveti Rəyasət Heyətinin "Övladlığa götürmə haqqında" 1943-cü il 8 sentyabr tarixli fərmanına müvafiq olaraq övladlığa götürənin xahişi ilə övladlığa götürülənə övladlığa götürənin familiyası verilir, həmin uşağın atasının adı isə övladlığa götürənin adı kimi qəbul edilirdi. 10 yaşdan yuxarı uşaqların övladlığa götürülməsi üçün onların razılığı tələb olunurdu. SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1938-ci il "SSRİ vətəndaşlığı haqqında" qanununa uyğun olaraq SSRİ vətəndaşlığına qəbul etmək hüququ SSRİ Ali So-

veti Rəyasət Heyəti və müttəfiq respublikaların ali sovetlərinin rəyasət heyətinin səlahiyyətləri daxilində idi. Müttəfiq respublikaların ali sovetləri öz respublikaları ərazisində yaşayan şəxsləri yalnız vətəndaşlığa götürə bilərdi. SSRİ Ali Sovetinin Rəyasət Heyəti isə göstərilən kateqoriyalı şəxslərdən başqa xaricdə yaşayan şəxsləri və SSRİ vətəndaşlığına qəbul etmək hüququna malik idi. SSRİ vətəndaşlığından çıxma aktının müəyyən edilməsi müstəsna olaraq SSRİ Ali Soveti Rəyasət Heyətinin səlahiyyətlərinə daxil idi.

Cinayət hüququ. İttifaq və respublika konstitusiyalarının qəbul edilməsindən sonrakı dövrdə cinayət qanunvericiliyi cinayət məsuliyyətinin genişlənməsi və güclənməsi xətti üzrə inkişaf edirdi. Məhz, həmin illərdə bütün SSRİ-də, o cümlədən Azərbaycan SSR-də represiya maşını yüzlərlə günahsız insanları həbs edib məhv edirdi.

1937-ci il oktyabrın 2-də SSRİ MİK xüsusi təhlükəli dövlət cinayətləri üçün azadlıqdan məhrumetmə cəzasını 10 ildən 25 ilə qədər artırmaq barədə qərar qəbul etdi. Əvvəllər cinayət sayılmayan bir sıra əməllər üçün cinayət məsuliyyəti təyin etdi. SSRİ MİK və XKS-nin 1936-cı il 27 iyun tarixli qərarı ilə qanunsuz abort etmə və buna məcbur etmə üstündə cinayət məsuliyyəti müəyyən edildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1940-cı il 10 avqust fərmanı ilə idarə və ya müəssisədə edilən "xırda oğurluğa" görə bir il müddətində həbsxana cəzası müəyyən edildi. Müharibənin başlanması ilə əlaqədar olaraq cinayət hüququnun xüsusiyyətləri müharibə dövrünün şəraiti ilə müəyyən edilirdi. 1941-ci il iyulun 6-da SSRİ XKS-nin qəbul etdiyi fərmanla əhali arasında həyəcana səbəb olan yalan şayiələr yayan şəxslər 2 ildən 5 ilədək müddətdə həsxana cəzasına məhkum edilirdilər. 1943-cü il noyabrın 15-də SSRİ Ali Soveti Rəyasət Heyəti "Dövlət sirrini yaymaq və dövlət sirri olan sənədləri itirmək üstündə məsuliyyət haqqında" verdiyi fərmana görə müharibə şəraitində dövlət sirri sayılan məlumatları yayan şəxslərə ağır cəzalar verilirdi. Müharibə dövründə sosialist mülkiyyətinin, o cümlədən də şəxsi mülkiyyətin qorunması ilə dövlət mübarizəni daha da gücləndirirdi. 100 kq çörəyi, yaxud 10 kq yağı, yaxud da 10 metr parçanı mənimsəmək və ya dağıtmağa görə məhkəmə tərəfindən müqəssir hesab

olunan şəxslər 1932-ci il 7 avqust qanunu ilə sosialist mülkiyyətinə qəsd edən şəxslər kimi xalq düşməni elan edilirdilər. Həmçinin ehtikarlıqla, habelə ərzaq və sənaye malları kartoçkalarından hər cür sui-istifadə ilə qəti mübarizə aparılırdı. Vətəndaşların əmlakını oğurlayanları, başqa yerə köçürülmüş şəxslərin mənzillərini qarət edənləri, alman işğalçılarının təqibindən qaçmış vətəndaşların quyularda gizlədilmiş əmlaklarını oğurlayanları, köçürülənləri yollarda qarət edənləri ən ağır cəza gözləyirdi. Əkinləri xarab edən və ya bostanlardan oğurluq edən şəxslər qanunla iki ilə qədər müddətdə azadlıqdan məhrum edilirdilər.

Prosessual hüquq. SSRİ-nin və müttəfiq respublikaların konstitusiyalarında bir sıra demokratik prinsiplər təsbit olunsa da, SSRİ MİK-in 1937-ci il 14 sentyabr tarixli qərarı ziyankarlıq və təxribatçılıq haqqında işlərin təhqiqatının və onlara məhkəmədə baxılmasının sadə qaydasını nəzərdə tuturdu. Göstərilən prosessual qayda müttəhim zəruri prosessual təminatlardan məhrum edirdi. İstintaq və məhkəmə təcrübəsində istifadə olunan yeni qaydalar qanunçuluq işlərinə böyük zərər vurdu. Belə ki, göstərilən prosessual müddəaları rəhbər tutaraq məhkəmədə müqəssirin cinayət etməsinin obyektiv əsaslandırılması deyil, onun etirafı həlledici sübut sayılırdı. Müharibə şəraitində ayrı-ayrı kateqoriyadan olan işlər üzrə istintaq aparılmır, bəzilərinin isə təhqiqat müddətləri azaldılırdı. Həmin kateqoriyadan olan işlərə "Müharibə vaxtı əmək qabiliyyətli şəhər əhalisini istehsalatda və tikintidə işləmək üçün səfərbərliyə almaq haqqında" 1942-ci il 13 fevral tarixli və "Hərbi sənaye müəssisələri fəhlə və qulluqçularının həmin müəssisələrdən özbaşına çıxıb getmək ütündə məsuliyyəti haqqında" 1941-ci il 26 dekabr fərmanları ilə nəzərdə tutulmuş cinayətlər haqqında işlər, həmçinin kolxozçuların məcburi əməkgünü minimumunu yerinə yetirməmələri haqqında işlər və s. daxil idi. Ehtikarlıq, alıcıları ölçüdə və çəkidə aldatmaq, ərzaq və sənaye malları kartoçkalarından sui-istifadə etmək və s. işlər üzrə təhqiqat müddəti 15 günə qədər həddi-büluğa çatmamışların cinayətlərinə dair işlər üzrə 10 günə qədər və orduya çağırışdan imtina edənlərin işləri üzrə 5 günə qədər azaldılırdı. Döyüş bölgələrində və hər-

bi vəziyyət elan edilən ərazilərdə hərbi tribunallara təqsirnaməni verəndən 24 saat ərzində işlərə baxmaq hüququ verilmişdi. Tribunalların üç daimi üzvünün iştirakı ilə çıxarılan hökmdən kassasiya şikayəti qəbul edilmirdi, belə hökmlər yalnız nəzarət qaydasında ləğv edilə və ya dəyişdirilə bilərdi.

Cənubi Azərbaycanda milli-demokratik azadlıq hərəkatı (1945-46-cı illər)

İdarəçilik sistemi. İran Məclisinin (parlament) 1938-ci ildə qəbul etdiyi qanuna müvafiq olaraq ölkə ərazisi 49 şəhristanın (dairə) daxil olduğu 10 ostanlığa (vilayət) bölünürdü. Cənubi Azərbaycanın ərazisi əsasən üçüncü ostanlığın tərkibində idi. Cənubi Azərbaycanı ayrı-ayrı hissələrə parçalamaqla şovinist şah rejimi Azərbaycan xalqının birliyini zəiflətməyə çalışırdı. Belə ki, iri Azərbaycan vilayətlərindən olan Zəncan Tehran ostanlığına birləşdirilmişdi. Böyük iqtisadi və mədəni mərkəz olan Təbriz şəhərini bu yolla zəiflətməyə cəhd göstərilirdi. Cənubi Azərbaycanın bütün inzibati ərazi vahidlərinə Rza şah rejiminə sadiq olan İran məmurları təyin edilmişdi.

Cənubi Azərbaycan milli-hökuməti. 1944-cü ilin oktyabrında İran Xalq Partiyası yaradılır. Demokratik azadlıqlar uğrunda mübarizə aparan İXP-nın Cənubi Azərbaycanda yerli təşkilatları təşkil edilmişdi. Sovet qoşun hissələrinin Cənubi Azərbaycana daxil olmasından sonra "zidd-faşist" adlı antifaşist təşkilatı yaradılır. Tezliklə Təbriz şəhərində Azərbaycan dilində "Azərbaycan", "Ədəbiyyat səhifəsi" və s. qəzetlər nəşr olunur. Siyasi fəaliyyətinə görə 1930-cu ildən İran zindanlarında həbsdə yatan S.C. Pişəvəri 1941-ci ildə həbsdən azad edilir. 1944-cü ildə İran Məclisinə deputat seçilən Pişəvərinin mandatı irticaçı Məclis tərəfindən təsdiq edilmir. Cənubi Azərbaycan demokratik hərəkatının görkəmli xadimi olan Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə 1945-ci ilin sentyabrında Azərbaycan Demokrat Partiyası (ADP) yaradılır. Cənubi Azərbaycan əhalisinin müxtəlif təbəqələrini birləşdirən partiya xalqın azadlıq mübarizəsinə başçılıq edirdi. İran Demokrat Partiyasının Cənubi Azərbaycan təşkilatının

40 min nəfər üzvü ADP-də birləşdi. Azərbaycan xalqına bəyanatla müraciət edən ADP milli müxtariyyat, sənayenin inkişafı, ticarətin artırılması, fəhlə və kəndlilərin sosial vəziyyətlərinin yaxşılaşdırılması, əhalinin seçkilərdə fəal iştirakı, xalq maarifi, səhiyyə, dövlət idarələrində Azərbaycan dilindən istifadə olunması kimi proqram sənədlə çıxış edirdi. Bəyanat Təbriz, Urmiya, Xoy və digər vilayətlərin 77 nəfər demokratik hərəkat nümayəndələri tərəfindən imzalanmışdı. Partiyanın orqanı olan "Azərbaycan" qəzetində partiyanın yaradılması və onun proqramı dərc edilir. 1945-ci ilin oktyabrında ADP-nin birinci qurultayında partiyanın proqram və nizamnaməsini təsdiq edir və Mərkəzi Komitə seçilir. Milli muxtariyyat, aqrar islahat, xalq maarifinin inkişaf proqramı və s. yekdilliklə qəbul edilir. Qurultay demokratik hakimiyyətin özəyi kimi əyalət və vilayətlər üzrə **əncümənlərin** yaradılması barədə qərar çıxarır.

1945-ci ilin 20-21 noyabrında Təbriz şəhərində Milli konqres çağırılır. Onun işində xalq tərəfindən seçilmiş 744 nümayəndə iştirak edirdi. Konqresin iclasını Səttarxanın qardaşı Hacı Əzimxan aparırdı. ADP-nin təklifi ilə **Milli konqres** özünü **Müəssislər Məclisi** elan etdi. Müəssislər Məclisi Cənubi Azərbaycan Milli Məclisinə seçkilər keçirmək üçün 39 nəfərdən ibarət **Milli Komitə** yaratdı. **Milli Məclisə ümumi, bərabər, birbaşa və gizli səsvermə keçirmək üçün qanun qəbul edildi.** 1945-ci il noyabr-dekabr aylarında Cənubi Azərbaycan Milli Məclisinə seçkilər keçirilir. Seçkilərdə ilk dəfə olaraq qadınlar da iştirak edirdi.

1945-ci il **dekabrın 11-12-də Təbriz** şəhərində xalq tərəfindən seçilmiş **Milli Məclis** toplandı. Məclis S.C. Pişəvərinin başçılığı ilə təşkil edilmiş hökumətin proqramını təsdiq etdi. Milli hökumət Azərbaycan xalqının milli muxtariyyət arzusunu həyata keçirmək üçün bütün tədbirlər görəcəyini bəyan edirdi. Dekabrın 13-də İran valisi general-qubernator Bayat Təbrizi Tərk etdi. Milli hökumət dərhal aqrar islahatları həyata keçirməyə başladı. Milli Məclisin 21 fevral 1946-cı il qərarı ilə kəndlilər mülkədarlara ödədikləri rentadan azad edilirdilər. Fəhlələr üçün əvəzi ödənilən məzuniyyət və 8 saatlıq iş günü müəyyən edildi. Təbriz şəhərində müəssisələr açıldı.

Qiymətlər aşağı salınaraq hökumətin nəzarətinə götürüldü. Kənd təsərrüfatı, sənaye və milli banklar yaradıldı. Pul bonlarını əvəz edən bank çekləri buraxıldı. Təbriz, Urmiya və Zəncanda 320 ibtidai və 82 orta məktəb açıldı. Təbrizdə filarmoniya, incəsənət məktəbi, dövlət dram teatrı və Təbriz Dövlət Universiteti yaradıldı.

Cənubi Azərbaycan Milli Hökuməti ərazisində olan bütün diplomatik və digər missiyaların hüquq və toxunulmazlıqlarına hörmətlə yanaşılacağı barədə bəyanatla çıxış etdi. İran rejimi Cənubi Azərbaycan milli azadlıq hərəkatına qarşı 1946-cı ilin aprelində məkrli plan hazırlayırdı. Milli hökumətlə danışıqlar aparan **şah rejimi 1946-cı il iyunun 13-də razılıq sazişi imzaladı.** Razılığa görə Cənubi Azərbaycana **daxili idarəçilik** işlərində sərbəstlik verilirdi. Azərbaycan Milli hökuməti vilayət hakimiyyət orqanına, Milli Məclis isə vilayət əncüməninə çevrilməli idi. Cənubi Azərbaycan əldə etdiyi gəlirin 75%-ni öz daxili tələbatına, qalan 25%-ni isə İran dövlət xəzinəsinə köçürmək barədə razılıq əldə etdi.

İyunda bağlanmış razılıq sazişinə baxmayaraq 1946-cı il noyabrın 21-də Qavamüssəltənə hökuməti İran Məclisinə keçirilən seçkilərdə qayda-qanunu qorumaq adı ilə Cənubi Azərbaycana qoşun yeritdi. Dekabrın 4-də amerikalı müşavir Şvraskopfomun rəhbərliyi ilə jandarmlar heyəti Zəncan və Miyanə ərazilərində demokratlara qarşı hücuma keçdilər. 1946-cı il dekabrın 11-də Cənubi Azərbaycan Əncüməni qan tökülməyin qarşısını almaq məqsədilə öz fövqəladə iclasında müqaviməti dayandırmaq barədə qərar qəbul etdi. Tehran rejimi 14 mindən çox Azərbaycan fədaisini məhv etdi, minlərlə insan zindana salındı.

Beləliklə, 1945-46-cı illər milli-azadlıq hərəkatı məğlubiyyətə uğradı. Lakin xalq öz milli varlığı, tarixi və mədəniyyəti uğrunda gələcək mübarizə üçün şərəfli iz qoydu.

XV FƏSİL

1946-1985-ci illərdə Azərbaycanın dövlət və hüquq tarixi

Azərbaycan SSR II Dünya müharibəsindən sonra. İkinci dünya müharibəsinin ağır nəticələri Azərbaycanda da özünü göstərirdi. Bütövlükdə müharibənin ehtiyacları üçün işləyən müəssisələr planauyğun şəkildə məhsul buraxmağa başladı. Müəssisələrdə 8 saatlıq iş günü tətbiq edildi, əlavə icbari iş ləğv olundu, fəhlə və qulluqçulara əvəzi ödənilməklə verilən illik məzuniyyətlər bərpa edildi.

Müharibədən sonra seçki sistemində qismən dəyişiklik edildi. SSRİ Ali Sovetinə passiv seçki hüququ 23 yaş, müttəfiq və muxtar respublikaların ali sovetlərinə namizədlər üçün isə 21 yaş müəyyən edildi. 1946-cı il fevralın 10-da SSRİ Ali Sovetinə seçkilər keçirildi və mart ayında yeni tərkibdə SSRİ Ali Soveti ilk sessiyasına toplandı. 1947-ci il fevralın 9-da Azərbaycan SSR Ali Sovetinə də seçkilər keçirildi. Sonrakı illərdə isə avtoritar rejim SSRİ Ali Sovetinin sessiyalarını müntəzəm olaraq çağırmır, SSRİ Ali Sovetinin Rəyasət Heyəti fərmanlar verir və yalnız büdcənin müzakirəsi üçün çağırılan Ali Sovetin sessiyalarında onları təsdiq edirdi.

1945-ci ildə Dövlət Müdafiə Komitəsi ləğv edildi. 1946-cı ilin iyulunda amnistiya verildi. Üç ildən çox olmayaraq azadlıqdan məhrum edilənlər, hərbi sənaye müəssisələrindən özbaşına getməyə görə mühakimə olunmuş şəxslər cəzadan azad edilirdilər. 1948-ci ilin dekabr və 1949-cu ilin fevral aylarında ilk dəfə olaraq xalq hakimləri və xalq iclasçıları seçkiləri keçirildi.

50-ci illərin ortalarından başlayaraq müttəfiq respublikaların hüquqlarının genişləndirilməsi ilə əlaqədar olaraq yerli milli dəyərlər nəzərə alınmaqla respublikanın daha tam və hərtərəfli inkişafı üçün imkanlar yaranırdı. Təsərrüfatın idarə edilməsində həddən artıq mərkəzləşdirmənin aradan qaldırılması, yerli spesifik cəhətləri nəzərə

almaqla respublikanın məhsuldar qüvvələrinin daha da inkişaf etdirilməsi və daha səmərəli yerləşdirilməsi, təbii sərvətlərdən daha yaxşı istifadə olunması üçün yaxşı şərait yarandı.

1956-cı ildən başlayaraq Azərbaycan SSR Ali Soveti yanında sənaye, kənd təsərrüfatı, mədəniyyət və maarif, səhiyyə və ictimai təminat, tikinti və abadlıq üzrə daimi komissiyaların fəaliyyəti bərpa edildi.

İkinci Dünya müharibəsindən sonra azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Moskvada xüsusi plan qurulurdu. Mərkəzdən olan erməni lobbisinə arxalanan Yuxarı Qarabağ və Ermənistandakı erməni millətçiləri, daşnaklar XIX əsrin əvvəllərindən başlayaraq məskunlaşdıqları Qarabağ torpaqlarının Ermənistana verilməsi tələbi ilə yenidən çıxış edirdilər. 40-cı illərin ortalarında Moskvanın, bilavasitə A. Mikoyanın təşəbbüsü ilə İrəvan kommunist-daşnaklarının fəal iştirakı ilə "gizli" Qarabağ hərəkatı, "Qarabağ komitəsi" yaradılmışdı. 1945-ci ilin payızında Ermənistanın partiya rəhbərliyi Moskva qarşısında Azərbaycan SSR-in Yuxarı Qarabağ bölgəsinin Ermənistana verilməsi tələbi ilə çıxış etdi. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar verdi. 1948-ci ilin martın 10-da bir qərarla 100 min nəfər azərbaycanlının 1948-1950-ci illərdə "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməsi planı təsdiq edildi. Azərbaycan türklərinin yaşadığı ərazilərə isə xaricdə yaşayan etmənilərin köçürülməsinə icazə verildi.

1948-1953-cü illərdə Ermənistan SSR-dən 100 mindən çox əhali zorla Azərbaycanın Aran ərazilərinə köçürüldü. XX əsrin 70-ci illərində ermənilər tərəfindən Yuxarı Qarabağ məsələsi qaldırılsa da, respublika rəhbərliyinin qətiyyətlə vəziyyətə daim nəzarət edilmiş, ermənilərin məkrli niyyətləri baş tutmamışdı.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyası. 1977-ci il oktyabrın 7-də SSRİ-nin ikinci və sonuncu konstitusiyası qəbul edildi. 1936-cı il Konstitusiyasının qəbul olunduğu vaxtdan keçən dövrdə cəmiyyətdə baş verən dəyişikliklər yeni konstitusiyanın qəbul edilməsini zəruri edirdi. Yeni konstitusiya girişdən, 9 bölmədən , 21 fə-

sildən, 174 maddədən ibarət idi. Konstitusiyanın 6-cı maddəsində Kommunist Partiyasının cəmiyyətdəki rolu qanunvericilikdə təsbit olunmuşdu ki, bu da 80-cı illərin sonlarında etirazlara səbəb olmuş və cəmiyyətdə müzakirə obyektinə çevrilmişdi.

1978-ci ilin martında respublika mətbuatında Azərbaycan SSR-in yeni konstitusiyasının layihəsi ümumxalq müzakirəsi üçün dərc edildi. Müzakirələrdə bir sıra təkliflər, əlavələr və düzəlişlər irəli sürüldü.

1978-ci il aprelin 21-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında Azərbaycan Sovet Sosialist Respublikasının yeni Konstitusiyası (Əsas Qanunu) qəbul edildi. Azərbaycan SSR Konstitusiyası İttifaq konstitusiyasının əsas prinsiplərini özündə birləşdirirdi. Əsas Qanun dövlətin inkişafının həmin dövr üçün səviyyəsini əks etdirərək, ictimai münasibətləri tənzim edirdi. Konstitusiya 11 bölmə, 22 fəsil və 185 maddədən ibarət idi.

Konstitusiyanın birinci bölməsi Azərbaycan SSR-in ictimai quruluşunun və siyasətinin əsasları adlanmaqla 4 fəsildən və 30 maddədən ibarət idi. Dövlət və şəxsiyyət adlanan ikinci bölmə V-VI fəsilləri və 31-67-ci maddələri; Azərbaycan SSR-in Milli dövlət və inzibati ərazi quruluşu adlanan üçüncü bölmə VII-IX fəsilləri və 68-84-cü maddələri; Azərbaycan SSR xalq deputatları sovetləri və onların seçilməsi qaydası adlanan dördüncü bölmə X-XII fəsilləri və idarə orqanları adlanan beşinci bölmə XIII-XIV fəsilləri və 104-130-cu maddələri; Azərbaycan SSR-də yerli dövlət hakimiyyəti və idarə orqanları adlanan yeddinci bölmə XVII-XVIII fəsilləri və 137-151-ci maddələri; Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planı, Azərbaycan SSR dövlət büdcəsi adlanan səkkizinci bölmə XIX-XX fəsilləri və 152-162-ci maddələri; ədalət mühakiməsi, arbitraj və prokuror nəzarəti adlanan döqquzuncu bölmə XXI-XXII fəsilləri və 163-179-cu maddələri; Azərbaycan SSR-in gerbi, bayrağı, himni və paytaxtı adlanan onuncu bölmə 180-185-ci maddələri əhatə edirdi.

Siyasi sistem adlanan birinci fəslin birinci maddəsində göstərilirdi ki, Azərbaycan Sovet Sosialist Respublikası fəhlələrin, kəndlilərin və ziyalıların, respublikanın bütün millətlərindən olan zəhmətkeşlərin iradə və mənafeyini ifadə edən sosialist ümumxalq dövlət-

dir. Respublikada bütün hakimiyyət xalqa məxsusdur. Azərbaycan SSR-in siyasi əsası əvvəlki konstitusiyada göstərilən zəhmətkeş deputatlar sovetinin əvəzi olan xalq deputatları soveti idi. Bütün dövlət orqanları xalq deputatları sovetlərinin nəzarətindədir və onlara hesabat verməlidirlər.

Konstitusiyanın 5-ci maddəsinə müvafiq olaraq dövlət həyatının ən vacib məsələləri ümümxalq müzakirəsinə verilir və ümumxalq səsverməsi (referendum) vasitəsilə müəyyən edilir. 6-cı maddəyə görə Azərbaycan Kommunist Partiyası sovet cəmiyyətinin rəhbər və istiqamətverici qüvvəsi, onun siyasi sisteminin dövlət və ictimai təşkilatlarının özəyi kimi təsbit olunurdu. Kommunist Partiyasının rəhbər və istitqamətverici rolunun konstitusion əsaslarla təsbit olunmasını totalitar və tək partiyalı cəmiyyətdə heç də təsadüfi hesab etmək olmaz. XX əsrin 20-30-cu illərindən SSRİ-də möhkəmlənən rejim şəraitində digər partiyaların mövcudluğu mümkün olmamışdı. Yeganı partiya kimi formalaşan Sov. İKP-nın siyasi direktiv və göstərişləri ilə işləyən orqanları öz fəaliyyətlərini həmin qaydalara uyğun olaraq qururdu. Partiya direktivləri dövlət hakimiyyəti orqanlarının, ictimai-siyasi, təsərrüfat və mədəni quruculuğun ən müxtəlif sahələrini əhatə edirdi. Siyasi sistemin, konstitusiyada göstərildiyi kimi özəyi olan Kommunist Partiyası dövlət aparatının təkmilləşdirilməsini özündə birləşdirmişdi. Totalitar rejim şəraitində siyasi rəhbərliyi həyata keçirən partiya, demək olar ki, dövlət orqanlarını əvəz edirdi.

Azərbaycan SSR-in konstitusiyasına görə, vətəndaşlar kommunist partiyasından başqa digər ictimai təşkilatlarda xalq deputatları sovetlərinə seçilmiş öz nümayəndələri vasitəsilə və digər formalarda siyasi sistemin idarə olunmasında iştirak edirlər. Ən kütləvi və çoxsaylı ictimai təşkilat olan həkarlar ittifaqı ölkənin siyasi həyatında seçkilər, qanun layihələrinin ümumxalq müzakirəsi və s. siyasi kompaniyalarda fəal iştirak etməklə fərqlənirdilər. İctimai təşkilatların dövlət işlərinin, ictimai siyasi, təsərrüfat sosial-mədəni məsələlərin həllində iştirak etmək hüququ konstitusiya ilə təsbit edilmişdi.

Konstitusiyanın 8-ci maddəsində əmək kollektivlərinin dövlət işlərinin və ictimai işlərin müzakirəsində və həllində, istehsalın və so-

sial inkişafın planlaşdırılmasında, kadrların hazırlanması və yerləşdirilməsində, müəssisə və idarələri idarə etmək, əmək və məişət şəraitini yaxşılaşdırmaq, istehsalın inkişafı üçün, habelə sosial-mədəni tədbirlər və maddi həvəsləndirmə üçün nəzərdə tutulan vəsaitdən istifadə etmək hüququ təsbit edilirdi.

İqtisadi sistem adlanan ikinci fəsildə Azərbaycan SSR-də mülkiyyət formaları - vətəndaşların mülkiyyəti, kollektiv mülkiyyət və dövlət mülkiyyəti təsbit edilirdi. Dövlət mülkiyyətin müxtəlif formalarının inkişafı üçün zəruri şərait yaradır və bunların bərabər müdafiəsini təmin edirdi.

Azərbaycan SSR Konstitusiyasının ikinci fəslində iqtisadi sahədə aşağıdakı dövlət normaları təsbit olunmuşdu: 1) Azərbaycan SSR-in iqtisadi sistemində sosialist mülkiyyəti formaları (maddə 10); 2) şəxsi mülkiyyət (maddə 11); 3) kollektivlərin mülkiyyəti (maddə 12); Naxçıvan MSSR-in DQMV-nin inzibati ərazi qurumlarının mülkiyyətindən ibarət olan Azərbaycan SSR mülkiyyətinin Azərbaycan SSR-in dövlət mülkiyyəti olması (maddə 13); 4) əməyin mükafatlandırılması, ictimai istehsalın ali məqsədi (14-15-ci maddələr); 5) respublika iqtisadiyyatının vahid SSRİ xalq təsərrüfatı kompleksinin tərkib hissəsinə daxil olması (maddə 16); 6) fərdi şəxsi əməyin qanunla yol verilməsi (maddə 17); 7) ətraf mühitin və təbiətin qorunması üçün tədbirlər görülməsi (maddə 18).

İstehsal vasitələri üzərində sosialist mülkiyyəti **dövlət** (ümumxalq) mülkiyyətindən və **kolxoz-kooperativ** mülkiyyəti formalarından ibarətdir. Kolxoz-kooperativ mülkiyyəti formalarını inkişaf etdirib dövlət mülkiyyəti səviyyəsinə çatdırmaq və hər iki mülkiyyət formasını vahid mülkiyyətdə birləşdirmək nəzərdə tutulurdu. Həmkarlar ittifaqı və digər ictimai təşkilatların əmlakı sosialist mülkiyyəti olmaqla qanunla qorunurdu.

Konstitusiyada vətəndaşlara məxsus şəxsi mülkiyyət sosialist mülkiyyəti elan olunmaqla, onun yardımçı xarakter daşıdığı göstərilirdi. Kəndli təsərrüfatı və şəxsi yardımçı təsərrüfat ilə məşğul olmaq və qanunda nəzərdə tutulmuş digər məqsədlər üçün vətəndaşlar ömürlük mülkiyyətdə, habelə istifadədə torpaq sahələrinə malik

ola bilərdi. Vətəndaşların mülkiyyəti onların şəxsi sərvəti elan olunmaqla ondan maddi, mənəvi tələbatı ödəmək, təsərrüfat fəaliyyəti və qanunla qadağan olunmamış digər fəaliyyət üçün müstəqil istifadə etmək təsbit olunurdu. Vətəndaşın əmlaka vərəsəlik hüququ qanunla təsdiq edilir və qorunurdu.

Konstitusiyada sosializmin "hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə" prinsipini təsbit edərək dövlət əmək və istehlak ölçüsünə nəzarət edirdi. İctimai istehsalın ali məqsədi adamların getdikcə artan maddi və mənəvi tələbatını ödəməkdən ibarət idi.

İqtisadiyyata rəhbərlik mərkəzləşdirilmiş qaydada, dövlət iqtisadi və sosial inkişaf planları əsasında, sahə və ərazi prinsiplərini nəzərə almaqla həyata keçirilirdi. Azərbaycan SSR iqtisadiyyatı vahid xalq təsərrüfatı kompleksinin tərkib hissəsi kimi müəyyən edilirdi.

Konstitusiya respublikada kustar sənətkar peşələrini, kənd təsərrüfatı, əhaliyə məişət xidməti sahəsində fərdi əmək fəaliyyətini qanunla yol verilən mülkiyyət elan etməklə, fərdi əmək fəaliyyətini nizama salır, ondan cəmiyyətin xeyrinə istifadə olunmasını təmin edirdi.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının birinci bölməsinə 1937-ci il Konstitusiyasında xüsusi olaraq təsbit olunmamış "Sosial inkişaf və mədəniyyət" adlanan III fəsil (19-20-ci maddələr) daxil etmişdi. 19-cu maddədə göstərilirdi ki, Azərbaycan SSR-in sosial əsasını fəhlələrin, kəndlilərin və ziyalıların sarsılmaz ittifaqı təşkil edir. Dövlətin sosial sahədə apardığı siyasət cəmiyyətin sosial yekcinsliyinin güclənməsinə, fəhlələrlə kəndlilər arasında sinfi fərqlərin, şəhərlə kənd arasında, əqli əməklə fiziki əmək arasında əsas fərqlərin silinməsinə, bütün millətlərin və xalqların hərtərəfli inkişaf etməsinə və bir-birinə yaxınlaşmasına kömək etmək kimi deklarativ xarakterli hüquqlar təsbit edilirdi.

Konstitusiyaya müvafiq olaraq, dövlət zəhmətkeşlərin əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi, əmək haqqının yüksəldilməsi, əməyin elmi təşkili, bütün istehsal proseslərinin təkmilləşdirilməsi əsasında ağır fiziki əməyin azaldılması üçün ardıcıl tədbirlər görür, kənd təsərrüfatında elmi-texniki tərəqqinin tətbiq edilməsi, kənd təsərrüfatı əməyini sənaye əməyinin bir növünə çevirmək üçün ardıcıl proqram həyata keçirirdi.

Konstitusiyada əmək haqqının yüksədilməsi vasitəsi kimi əmək məhsuldarlığının artırılması nəzərdə tutulurdu. Dövlət icimai istehlak fondları yaradır, bu fondların artırılmasını və ədalətlə bölüşdürülməsini təmin edirdi.

25-27-ci maddələrdə sosial və mədəniyyət sahəsində dövlətin apardığı siyasətin əsasları təsbit olunurdu. Vətəndaşların ümumtəhsil və peşə hazırlığını təmin edən gənclərin mənəvi və fiziki inkişafına xidmət edən, vahid xalq maarifi sistemi mövcuddur və daim təkmilləşir. Dövlət mədəniyyətin, adamların mənəvi və estetik tərbiyəsinin, onların mədəni səviyyəsinin yüksəldilməsinin, peşəkar incəsənətin və bədii xalq yaradıcılığının inkişafının qayğısına qalır.

Birinci bölmənin "xarici siyasət fəaliyyəti və sosialist vətəninin müdafiəsi" adlanan sonuncu IV fəsli də əvvəlki konstitusiyada olmamışdır. Lakin məlumdur ki, Azərbaycan SSR müstəqil xarici siyasət aparmamış və əslində bu hüquqlar İttifaq Hökumətinə verilmiş və SSRİ Konstitusiyası ilə müəyyən edilmiş xarici siyasətin məqsədlərinə, vəzifələrinə və prinsiplərinə uyğunlaşdırılmışdı. SSRİ-nin 1977-ci il Konstitusiyasının 28-ci maddəsində isə göstərilirdi ki, SSRİ-nin xarici siyasətinin başlıca məqsədi sülh siyasətini dönmədən həyata keçirmək, xalqların təhlükəsizliyini möhkəmləndirmək və geniş beynəlxalq əməkdaşlıq uğrunda mübarizə aparmaqdan ibarətdir.

Azərbaycan SSR Konstitusiyasının 28-ci maddəsinə müvafiq olaraq Azərbaycan SSR-də müharibə təbliğatı aparmaq qadağan idi.

Müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR-in təhlükəsizliyinin və müdaifiə qabiliyyətinin təmin edilməsi İttifaq Silahlı Qüvvələrinə həvalə edilirdi. Azərbaycan SSR SSRİ Silahlı Qüvvələrinin lazım olan hər şeylə təchiz olunmasında iştirak edir (maddə 30). Azərbaycan SSR vətəndaşları üçün SSRİ Silahlı Qüvvələrində ümumi əsgəri vəzifə müəyyən edilmişdi. SSR İttifaqı qanunvericiliyində ölkənin təhlükəsizliyini təmin etmək və müdafiə qabiliyyətini möhkəmlətmək sahəsində dövlət orqanlarının, ictimai təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların vəzifələri təsbit olunurdu.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının, cəmiyyətin siyasi və iqtisadi əsasının təşkilində şəxsiyyətin hüquqi vəziyyətindən,

vətəndaşların hüquqlarından və vəzifələrindən bəhs edən və "Dövlət və şəxsiyyət" adlanan ikinci bölməsi də əvvəlki Konstitusiyada olmamışdır. 31-ci maddədə göstərilir ki, vahid ittifaq vətəndaşlığına uyğun olaraq Azərbaycan SSR-in hər bir vətəndaşı SSRİ vətəndaşıdır. Sovet vətəndaşlığının əldə edilməsi və itirilməsinin əsasları və qaydaları SSRİ vətəndaşlığı haqqında qanunla müəyyən olunmuşdu. Azərbaycan SSR vətəndaşları xaricdə Sovet dövlətinin müdafiəsi və himayəsindən istifadə edirlər. Vətəndaşların hüquq bərabərliyi - qanun qarşısında bərabərlik, qadın və kişinin hüquqlarının bərabərliyi və s. iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələrində təmin edilirdi. Qadın hüquqları konstitusiyanın 33-cü maddəsi ilə geniş təsbit edilirdi. Bu hüquqların həyata keçirilməsi təhsil almaqda və peşə hazırlığı keçməkdə, əməkdə, əmək haqqı almaqda və işdə irəli çəkilməkdə, ictimai-siyasi və mədəni fəaliyyətdə qadınlara kişilərlə bərabər imkanlar verilməkdə, həmçinin qadınların əməyinin və sağlamlığının mühafizəsi sahəsində xüsusi tədbirlərdə, qadınlara əməyi analıq vəzifəsi ilə əlaqələndirmək imkanı verən şərait yaratmaqda, anaları və uşaqları hüquqi cəhətdən müdafiə etməkdə, onlara maddi və mənəvi yardım göstərməkdə, o cümlədən hamilə qadınlara və analara haqqı ödənilən məzuniyyət verməkdə və digər güzəştlər edilməkdə, azyaşlı uşaqları olan qadınların iş vaxtını tədricən qısaltmaqda ifadə edilirdi.

Konstitusiyada əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə qanunla nəzərdə tutulan hüquq və azadlıqlar verilirdi. 36-cı maddədə əcnəbilərə sığınacaq hüququ verilməsi nəzərdə tutulurdu.

Azərbaycan SSR vətəndaşlarının əsas hüquq və azadlıqlarından bəhs edən VI fəsildə göstərilirdi ki, hüquq və azadlıqlardan istifadə etmək cəmiyyətin və dövlətin mənafeyinə, digər vətəndaşların hüquqlarına zərər vurmamalıdır.

Azərbaycan SSR vətəndaşlarının əmək və istirahət hüququ, qocaldıqda, xəstələndikdə, həmçinin əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə və ailə başçısını itirdikdə maddi təminat hüququ, sağlamlığın mühafizəsi hüququ, mənzil hüququ, təhsil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə hüququ, dövlət işlərinin və icti-

mai işlərin idarə olunmasında iştirak etmək hüququ, dövlət orqanlarına və ictimai təşkilatlara onların fəaliyyətini yaxşılaşdırmaq barəsində təkliflər vermək, işdə olan nöqsanları tənqid etmək hüququ, ictimai təşkilatlarda birləşmək hüququ təsbit edilirdi.

Azərbaycan SSR konstitusiyası vətəndaşlara söz, mətbuat, yığıncaq, mitinq, küçə yürüşü və nümayiş azadlığı, elmi, texniki və bədii yaradıcılıq azadlığı, vicdan azadlığı şəxsiyyətin toxunulmazlığı, mənzil toxunulmazlığı barəsində, yazışmanın, telefon danışıqlarının və teleqraf rabitəsinin gizli saxlanılması barədə təminat verirdi.

Konstitusiyanın 39-cu maddəsində fəhlə və qulluqçular üçün 41 saatdan çox olmayan iş həftəsi müəyyən edilmişdi. Kolxozçuların iş vaxtı və istirahət müddəti koxozçular tərəfindən nizama salınırdı. 43-cü maddədə Azərbaycan SSR vətəndaşlarının təhsilin bütün növlərində pulsuz oxuması hüququ təbit olunmuşdu. Dövlət şagird və tələbələrə dövlət təqaüdü verilməsi və güzəştlər edilməsi müəyyən edirdi.

Konstitusiyanın 47-ci maddəsi tənqid üstündə təqibi qadağan edir və tənqid üsütündə təqib edən şəxslərə qarşı məsuliyyətə cəlb etməyi nəzərdə tuturdu.

Azərbaycan SSR vətəndaşlarının vicdan azadlığını müəyyən edən 50-ci maddə məscid və kilsənin dövlətdən, məktəbin isə məscid və kilsədən ayrıldığını bildirirdi.

Konstitusiya vətəndaşların hüquq və azadlıqları ilə yanaşı onların vəzifələrini də təsbit edirdi. Hər bir vətəndaş Azərbaycan SSR və SSRİ konstitusiyasına, sovet qanunlarına, sosialist birgəyaşayış qaydalarına hörmət etməli, sovet vətəndaşı kimi yüksək adı ləyaqətlə daşımağa borcludur.

Azərbaycan SSR vətəndaşı sosialist mülkiyyətini qorumalı və möhkəmləndirməlidir. SSRİ Silahlı Qüvvələrinin sıralarında əsgəri xidmət keçmək, digər şəxslərin hüquqlarına və qanuni mənafeyinə hörmət etmək, cəmiyyətə zidd hərəkətlərə qarşı barışmaz olmaq, ictimai asayişin qorunmasına hər vasitə ilə kömək etmək, uşaqların tərbiyəsinə qayğı göstərmək, onları ictimai faydalı əməyə hazırlamaq vətəndaşların vəzifəsidir.

Konstitusiyanın üçüncü bölməsində Azərbaycan SSR-in milli dövlət və inzibati ərazi quruluşu təsbit olunmuşdu. 68-ci maddədə göstərilir ki, Azərbaycan SSR suveren sosialist dövləti olmaqla, öz xalqının öz müqəddəratını sərbəst təyin etməsi nəticəsində könüllülük və hüquq bərabərliyi əsasında SSRİ-nin təşkili haqqında müqavilə bağlayaraq digər müttəfiq respublikalarla birlikdə çoxmillətli ittifaq dövlətində - Sovet Sosialist Respublikaları İttifaqında birləşmişdir.

Azərbaycan SSR-in suverenliyi ali qanunvericilik, icra və məhkəmə fəaliyyətinin öz ərazisində müstəqil həyata keçirilməsində ifadə olunurdu. Belə ki, SSRİ Konstitusiyasının 73-cü maddəsində göstərilənlər istisna olmaqla, Azərbaycan SSR öz ərazisində dövlət hakimiyyətini müstəqil həyata keçirirdi, 69-cu maddəyə müvafiq olaraq Azərbaycan SSR SSRİ-dən azad surətdə çıxmaq hüququnu özündə saxlayırdı.

1978-ci il Konstitusiyasının 70-ci maddəsi daha çox diqqəti cəlb edir. Həmin maddəyə uyğun olaraq Azərbaycan SSR-in ərazisinin onun razılığı olmadan dəyişdirilməməsi təsbit olunsa da, daha sonra göstərilirdi ki, Azərbaycan SSR ilə digər müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikalarla qarşılıqlı saziş əsasında dəyişdirilə bilər və bu saziş SSRİ İttifaqı tərəfindən təsdiq edilməlidir. Məhz 90-cı illərin sonlarında İttifaq rəhbərliyi və erməni-daşnak ünsürlər DQMV-nin sosial-iqtisadi inkişafı bəhanəsi ilə konstitusiyasının qeyd etdiyimiz maddəsi əsasında öz məkrli niyyətlərini həyata keçirmək istəyirdilər. Lakin həmin dövrdəki güclü xalq hərəkatı bu niyyətin baş tutmasının qarşısını alsa da, 90-cı illərin əvvəllərində ermənilər öz havadarlarının gücü ilə Yuxarı Qarabağ və ətraf rayonları müvvəqəti işğal etdilər.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının VIII fəslində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının və IX fəslində Dağlıq Qarabağ Muxtar Vilayətinin səlahiyyətləri ilə bağlı həmin muxtar qurumların dövlət hakimiyyəti orqanlarının hüquqi statusu müəyyən edilirdi. 79-cu maddəyə müvafiq olaraq Naxçıvan MSSR-in SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına müvafiq olan və Naxçıvan MSSR-in xüsusiyyətlərini nəzərə alan öz

konstitusiyası vardır. Naxçıvan MSSR-in SSRİ konstitusiyası və Azərbaycan SSR konstitusiyasına uyğunlaşdırılmış yeni konstitusiyası 1978-ci ilin mayında qəbul edilmişdi.

IX fəslin 83-cü maddəsində göstərilirdi ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in tərkibindədir. DQMV haqqında qanun Vilayət xalq deputatları sovetinin təqdimi ilə Azərbaycan SSR Ali Soveti tərəfindən qəbul edilir. Konstitusiyanın 84-cü maddəsinə müvafiq olaraq, 1981-ci il iyulun 16-da Azərbaycan SSR Ali Soveti Dağlıq Qarbağ Muxtar Vilayət haqqında Azərbaycan Sovet Sosialist Respublikasının qanununu təsdiq etmişdi.

Konstitusiyanın dördüncü bölməsində Azərbaycan SSR Xalq deputatları sovetləri və onların seçilməsi qaydası təsbit olunurdu. Azərbaycan SSR-in 1937-ci il konstitusiyasından sonrakı dövr ərzində yerli sovetlər 2 il, Ali Sovet isə 4 il müddətinə seçilirdi. Yeni konstitusiyanın 86-cı maddəsinə müvafiq olaraq Azərbaycan SSR Ali Sovetinin və Naxçıvan MSSR Ali Sovetinin vəkalət müddəti 5 il, yerli xalq deputatları sovetlərinin isə iki il yarım müəyyən olunmuşdu. Xalq deputatları Sovetlərinə seçkilər müvafiq sovetlərin vəkalət müddətinin qurtarmasına azı iki ay qalmış təyin edilir. SSRİ konstitusiyasının 145-ci maddəsinə əsasən SSRİ -də dövlət hakimiyyətinin yerli orqanları ölkə, vilayət, muxtar vilayət, muxtar mahal, şəhər, rayon, şəhərlərdəki rayon, qəsəbə, kəndə xalq deputatları sovetləridir.

Xalq deputatları Sovetləri müvafiq olaraq öz ərazisində dövlət, təsərrüfat quruculuğunun və sosial və mədəni quruculuğun bütün sahələrinə rəhbərlik edir, qərarlar çıxarır, qərarların icrasını təmin edir və onların həyata keçirilməsinə nəzarət edir. 88-ci maddəyə müvafiq olaraq xalq deputatları Soveti zəhmətkeşlərin ictimai nəzarəti ilə birləşən xalq nəzarəti orqanları təşkil edirlər. Xalq nəzarəti orqanları dövlət planları və tapşırıqlarının yerinə yetirilməsinə nəzarət edirdi.

Yerli xalq deputatları Sovetləri daimi komissiyalar seçir, icra və sərəncam orqanları - sovetlərin icraiyyə komitələrini təşkil edirdilər. Hər yeni çağırışın birinci sessiyasında deputatlardan ibarət daimi komissiyalar seçilirdi. Komissiyalar ictimai-mədəni və təsərrüfat quruculuğunun, o cümlədən büdcə-maliyyə, xalq maarifi, səhiyyə, ictimai

təminat, ticarət və ictimai iaşə və s. sahələr üzrə fəaliyyət göstərirdilər. Eyni zamanda dövlət və təsərrüfat idarəçiliyinin ayrı-ayrı sahələrinə rəhbərlik etmək üçün təşkil edilmiş icraiyyə komitələrinin aşağı sovetlərdə - kənd, qəsəbə və kiçik şəhər sovetlərində yaradılması nəzərədə tutulurdu. Yerli sovetlərin icraiyyə komitələrinin şöbə və idarələri iki qat tabelik prinsipi üzrə təşkil olunur və fəaliyyət göstərirdilər. Onlar yuxarı sovetlərin (rayon, şəhər, vilayət), həmçinin onları təşkil edən sovetlərin və onların icraiyyə komitələrinin qərarlarını yerinə yetirir, səlahiyyətlərinə daxil olan bütün məsələlərin həllində qanunvericiliyə müvafiq işləri icra edirdilər. Xalq deputatları Sovetləri və onların yaratdıqları orqanlar öz işləri və qəbul etdikləri qərarlar haqqında əhaliyə müntəzəm məlumat verirdilər.

Konstitusiyanın XI fəsli seçki sistemi ilə bağlı qaydaları müəyyən edirdi. 1937-ci il Azərbaycan SSR Konstitusiyasında 18 yaşına çatmış vətəndaşları seçmək, 21 yaşından isə seçilmək hüququ təsbit olunmuşdu. Eyni zamanda 23 yaşından isə SSRİ Ali Sovetinə seçilmək hüququ müəyyən edilirdi. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında isə 18 yaşına çatmış vətəndaşların seçmək və seçilmək hüququ təsbit edilirdi. Seçkidə iştirak edən vətəndaşların gizli səsvermə ilə ümumi, bərabər və birbaşa seçki hüququ təmin edilirdi. Deputat seçkiləri bərabərdir: hər seçicinin bir səsi vardır; bütün seçicilər seçkilərdə bərabər əsaslarla iştirak edirlər (maddə 93). Deputat seçkiləri birbaşadır: bütün xalq deputatları sovetlərinin deputatları vətəndaşlar tərəfindən bilavasitə seçilirlər (maddə 94). Deputat seçkilərində səsvermə gizlidir: seçicilərin öz iradəsini ifadə etməsi üzərində nəzarət yol verilmir (maddə 95). Deputatlığa namizədləri irəli sürmək hüququ partiya, komsomol, həmkarlar ittifaqları, digər ictimai təşkiatlar və s., o cümlədən qoşun hissələrində hərbi qulluqçuların yığıncaqlarına məxsusdur. Xalq deputatları Sovetlərinə seçkilərin keçirilməsi ilə əlaqədar xərclər dövlət hesabına ödənilir.

97-ci maddəyə müvafiq olaraq vətəndaş ikidən artıq xalq deputatları Sovetinə seçilə bilməzdi. Xalq deputatları Sovetlərinə deputat seçkiləri seçki dairələri üzrə keçirilirdi. Azərbaycan SSR konstitusiyasının XII fəslində xalq deputatlarının səlahiyyətləri təsbit edilirdi.

99-cu maddədə göstərilirdi ki, deputatlar xalq deputatları Sovetlərində xalqın səlahiyyətli nümayəndələridir. SSRİ-də xalq deputatlarının statusu haqqında 1979-cu il aprelin 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən qəbul edilmiş SSRİ Qanununda deputatların dövlət hakimiyyətinin həyata keçirilməsində iştirakı, deputat səlahiyyəti, deputatlıq fəaliyyəti, deputatların toxunulmazlığı və s. məsələlər tənzim edilirdi.

Xalq deputatının səlahiyyətləri seçildiyi gündən başlayır. Deputat öz səlahiyyətini istehsalat və ya xidməti fəaliyyətini dayandırmadan həyata keçirir. Deputat seçicilərin qarşısında məsuliyyət daşıyır və onlara hesabat verirdi. Sessiyalar müddətində deputatların daimi iş yerində orta əmək haqqı saxlanılmaqla, onlar istehsalat və ya xidməti vəzifələrini yerinə yetirməkdən azad edilirdilər. Deputatın müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə sorğu vermə hüququ vardı.

Deputatlar ildə iki dəfədən az olmayaraq öz işi haqqında və Sovetin işi haqqında seçicilər qarşısında və onu deputatlığa namizəd göstərmiş kollektivlər və ictimai təşkilatlar qarşısında hesabat verməli idilər. Seçicilərin etimadını doğrultmayan qanunla müəyyən edilmiş qaydada hər vaxt geri çağrıla bilərdi.

1978-ci Konstitusiyasına görə Azərbaycan SSR-in ali dövlət hakimiyyəti və idarə orqanları. Azərbaycan SSR Konstitusiyasının beşinci bölməsində ali dövlət hakimiyyəti və idarə orqanlarının hüquqi statusu tənzimlənirdi. Konstitusiyanın 104-cü maddəsində göstərilirdi ki, **Azərbaycan SSR-in ali dövlət hakimiyyəti orqanı Azərbaycan SSR Ali Sovetidir.** Ali Sovet əhalisinin sayı bərabər elan seçki dairələri üzrə seçilən 450 deputatdan ibarət olmaqla 5 il müddətinə seçilirdi. SSRİ Konstitusiyası və respublika Konstitusiyası ilə Azərbaycan SSR-in səlahiyyətlərinə aid edilmişdi: Azərbaycan SSR Konstitusiyasının qəbul olunması və ona dəyişiklik edilməsi; Azərbaycan SSR tərkibində yeni muxtar respublikalar və muxtar vilayətlər təşkil edilməsinin SSRİ Ali Sovetinin təsdiqinə verilməsi; Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planlarının, Azərbaycan SSR dövlət büdcəsinin və onların yerinə yetirilməsi haqqında hesabatların təsdiq edilməsi; Azərbaycan SSR Ali Sovetinə hesabat verməli olan Azərbaycan SSR orqanlarının təşkili.

1978-ci il Konstitusiyasına müvafiq olaraq respublika ərazisində qanunlar Ali Sovet tərəfindən və ya Azərbaycan SSR Ali Sovetinin qərarı ilə keçirilən ümumxalq səsverməsi (referendum) ilə qəbul edilirdi. Azərbaycan SSR Ali Soveti 450 nəfər xalq deputatı ilə təmsil olunmuşdu. Ali Sovetin iki dəfə – yaz və payız sessiyaları Azərbaycan SSR Ali Soveti sədri tərəfindən çağırılırdı. Konstitusiyanın 107-ci maddəsinə müvafiq olaraq növbədənkənar sessiyalar Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin təşəbbüsü və ya Azərbaycan SSR Ali Soveti deputatlarının azı üçdə bir hissəsinin (150 deputat) təklifi ilə çağırılırdı. Ali Sovetin sessiyaları arasındakı dövrdə daimi komissiyalar fəaliyyət göstərirdilər.

Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR Ali Sovetinin sədrini və onun dörd müavinini seçirdi. Azərbaycan SSR Ali Sovetində qanunvericilik təşəbbüsü hüququ Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə, Azərbaycan SSR Nazirlər Sovetinə, Naxçıvan MSSR-ə, Azərbaycan SSR Ali Sovetinin daimi komissiyalarına və digər komissiyalarına, Azərbaycan SSR Ali Sovetinin deputatlarına Azərbaycan SSR Ali Məhkəməsinə, Azərbaycan SSR Prokuroruna məxsusdur. Qanunvericilik təşəbbüsü hüququ konstitusiya ilə respublikanın ictimai təşkilatlarına verilirdi.

Azərbaycan SSR qanunları və digər aktlar Azərbaycan SSR Ali Sovetinin bütün deputatlarının əksəriyyəti tərəfindən qəbul edilirdi. Konstitusiyanın 110-cu maddəsinə uyğun olaraq Azərbaycan SSR-in səlahiyyətinə aid məsələlər barəsində Azərbaycan SSR ərazisində yerləşən və İttifaq tabeliyində olan müəssisə, idarə və təşkilatların rəhbərlərinə sorğu və müraciət etmək hüququ vardır.

Konstitusiyanın 111-ci maddəsində Azərbaycan SSR Ali Sovetinin deputatlarının deputat toxunulmazlığı təsbit olunmuşdu. Azərbaycan SSR Ali Sovetinin və Ali Sovetin Rəyasət Heyətinin razılığı olmadan deputat cinayət məsuliyyətinə cəlb edilə bilməz, həbs oluna bilməz və ya onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbiri görülə bilməzdi.

Azərbaycan SSR Ali Sovetinin yeni çağırış birinci sessiyasında Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR Ali Sovetinin daimi or-

qanını - Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətini seçirdi. Sessiyalar arasındakı dövrdə ali dövlət hakmiyyəti orqanı funksiyalarını həyata keçirən Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan SSR Ali Sovetinə hesabat verirdi.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti sədrdən, üç sədr müavinindən, o cümlədən Naxçıvan Muxtar SSR-dən olan bir müavindən və DQMV-dən olan bir müavindən, Ali Sovetin Rəyasət Heyətinin katibindən və Rəyasət Heyətinin 16 nəfər üzvündən ibarət tərkibdə seçilirdi.

Sovet-partiya rejimi və mövcud reallıqlar nəzərə alınmazsa, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri fərmanlar verir, qüvvədə olan qanunvericiliyə qismən dəyişiklik edir, dövlət idarəetmə orqanlarını təşkil edirdi. Eyni zamanda qəbul edilmiş fərmanlar və digər normativ aktlar Azərbaycan SSR Ali Sovetinin növbəti sessiyasının təsdiqinə verilirdi.

Konstitusiyanın 117-ci maddəsinə müvafiq olaraq, Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Sovetinin qərarları və digər aktlar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin və katibinin imzaları ilə Azərbaycan, rus və erməni dillərində elan edilirdi.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin səlahiyyətlərinə Ali Sovetə və yerli xalq deputatları sovetlərinə seçkiləri təyin etmək; Azərbaycan SSR Ali Sovetinin sessiyalarını çağırmaq; Azərbaycan SSR Konstitusiyasına əməl olunmasına nəzarət etmək; Naxçıvan MSSR konstitusiyasının və qanunlarının Azərbaycan SSR konstitusiyasına və qanunlarına uyğun olmasını təmin etmək; rayon (şəhər) xalq məhkəmələrinə seçkilər təyin etmək; Azərbaycan SSR qanunlarını şərh etmək; yerli xalq deputatları sovetlərinin fəaliyyətinə rəhbərlik etmək; inzibati ərazi quruluşu məsələlərini müəyyən etmək; DQMV-nin sərhədlərini və rayon bölgüsünü müəyyən etmək və dəyişdirmək; rayonlar, şəhərlər, şəhərlərdə rayonlar və qəsəbələr təşkil etmək; şəhər tabeliyini müəyyən etmək; rayonların, şəhərlərin və şəhərlərdə rayonların, qəsəbələrin və başqa yaşayış məntəqələrinin adlarını dəyişdirmək; Naxçıvan MSSR üzrə yuxarıda göstərilən inzibati-ərazi quruluşunda Muxtar Respublikanın apardığı dəyişiklik-

ləri təsdiq etmək; Azərbaycan SSR Nazirlər Sovetinin, Naxçıvan MSSR Nazirlər Sovetinin qərar və sərəncamları, Dağlıq Qarabağ Muxtar Vilayəti xalq deputatları Sovetinin qərarları uyğun gəlmədikdə, onları ləğv etmək; Azərbaycan SSR vətəndaşlığına qəbul etmək; sığınacaq vermək məsələsini həll etmək; amnistiya aktını təsdiq etmək; məhkum olunmuş vətəndaşları bağışlamaq hüququnu həyata keçirmək; beynəlxalq müqavilələri təsdiq və ya ləğv etmək; bütün dövlət orqanlarının fəaliyyəti üzərində nəzarəti həyata keçirmək məqsədilə istintaq və təftiş komissiyaları təşkil etmək; Azərbaycan SSR xalq nəzarəti orqanları sisteminə başçılıq edən Azərbaycan SSR Xalq Nəzarəti Komitəsini təşkil etmək daxil idi.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Ali Sovetin növbəti sessiyasının təsdiqinə verilməklə, Azərbaycan SSR-in qüvvədə olan qanunvericilik aktlarında, lazım gəldikdə dəyişiklik edir; Naxçıvan MSSR-in sərhəd dəyişikliklərini təsdiq edir; respublika tabeliyində olan rayonlar və şəhərlər təşkil edir; Azərbaycan SSR Nazirlər Sovetinin təklifi ilə Azərbaycan SSR nazirliklərini və dövlət komitələrini yaradır və ləğv edir; Azərbaycan SSR Nazirlər Sovetinin tərkibinə daxil olan ayrı-ayrı şəxsləri Azərbaycan SSR Nazirlər Soveti sədrinin təqdimatı ilə vəzifədən azad edir və vəzifəyə təyin edirdi.

Azərbaycan SSR Konstitusiyasının XIV fəsli ali dövlət idarəetmə orqanlarının quruluşunu, səlahiyyətlərini, vəzifə və funksiyalarını müəyyən edirdi. 122-ci maddədə göstərilirdi ki, Azərbaycan SSR **Nazirlər Soveti** - Azərbaycan SSR hökuməti Azərbaycan SSR dövlət hakimiyyətinin **ali icra və sərəncam orqanıdır.** Azərbaycan SSR Ali Soveti tərəfindən Azərbaycan SSR Nazirlər Sovetinin sədri, sədrin müavini və müavinləri, dövlət komitələrinin sədrləri təyin edilirdi. Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəyə görə SSRİ Nazirlər Sovetinin tərkibinə, Naxçıvan MSSR Nazirlər Sovetinin sədri isə Azərbaycan SSR Nazirlər Sovetinin tərkibinə daxil idi.

Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Ali Soveti qarşısında məsuldur və müntəzəm olaraq ona hesabat verir. Yeni tərkibdə seçilmiş Azərbaycan SSR Ali Sovetinin birinci sessiyasında seçilən Nazirlər Sovetinin sədrinin təqdimatı ilə nazirlər Ali Sovet tərə-

fin dən, Ali Sovetin sessiyaları arasındakı müddətdə isə Ali Sovetin Rəyasət Heyəti tərəfindən təyin edilir və azad olunurdu. Digər fərmanlar və qanunvericilik aktları barədə də Ali Sovetin növbəti sessiyasında müvafiq təsdiq olunma aparılır.

Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq Nazirlər Sovetinin səlahiyyət müddəti beş il idi. Azərbaycan SSR Nazirlər Soveti Naxçıvan MSSR Nazirlər Sovetinin işinə istiqamət verir və yoxlayır, DQMV-i, rayon və şəhər (respublika tabeliyindəki rayon və şəhər) xalq deputatları Sovetləri icraiyyə komitələrinin fəaliyyətinə rəhbərlik edirdi.

Azərbaycan SSR Nazirlər Soveti dövlət idarəetmə məsələlərini həll etmək hüququna malik olmaqla aşağıdakı səlahiyyətləri yerinə yetirirdi: xalq təsərrüfatına və sosial-mədəni quruculuğa rəhbərliyi təmin edir; xalqın rifah və mədəniyyətinin yüksəlməsini təmin etmək, elm və texnikanı inkişaf etdirmək, təbii ehtiyatlardan səmərəli istifadə etmək və onları qorumaq üçün tədbirlər hazırlayıb həyata keçirir; İttifaq tabeliyində olan müəssisə və təşkilatların Azərbaycan SSR səlahiyyətinə aid məsələlərdə fəaliyyətini əlaqələndirir və ona nəzarət edir; planların yerinə yetirilməsi və büdcənin icrası haqqında Azərbaycan SSR Ali Sovetinə hesabat təqdim edir.

Konstitusiyanın 128-ci maddəsinə müvafiq olaraq Azərbaycan SSR Nazirlər Soveti öz səlahiyyəti daxilində Naxçıvan MSSR Nazirlər Sovetinin qərar və sərəncamlarının icrasını dayandırmaq, habelə Dağlıq Qarabağ Mutar Vilayət Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin, rayon və şəhər (respublika tabeliyindəki rayon və şəhər) xalq deputatları sovetləri icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək hüququna malik idi.

Nazirliklər, dövlət komitələri və xüsusi mərkəzi idarələr Azərbaycan SSR Nazirlər Sovetinə tabe olmaqla, onlara tapşırılmış idarəetmə sahələrinə rəhbərlik edir, həmin sahələrin vəziyyəti və inkişafı üçün məsuliyyət daşıyırlar. Nazir, Nazirlər Sovetinin müvafiq aktları ilə müəyyən edilmiş səlahiyyət daxilində nazirlik miqyasında maddi və pul vasitələri üzərində sərəncam vermək, nazirliyə tabe olan müəssisə və idarələrin fəaliyyətinə aid bütün məsələləri həll et-

mək hüququna malikdir. Nazirlikdə təşkil edilmiş kollegiya kollektiv rəhbərliyi həyata keçirməklə əlaqələndirmə əsasında mühüm məsələləri həll edirdi. Kollegiyanın qərarı nazirin əmri ilə icra edilirdi. Onun üzvləri Nazirlər Soveti tərəfindən təsdiq edilirdi.

Hökumətin tərkibinə daxil olan dövlət komitələri xüsusi səlahiyyətli dövlət idarəetmə orqanlarıdır. Nazirlik kimi komitə sədrləri də hökumətin üzvüdürlər. Müvafiq qanunlar, Nazirlər Sovetinin qərar və sərəncamları əsasında əmr və göstərişlər verən komitə sədri onların icrası üçün məsuliyyət daşıyır. Ən mühüm komitələrdən Dövlət Plan Komitəsi, Dövlət Maddi-Texniki Təchizat Komitəsi və s. planlaşdırma, əlaqələndirmə və nəzarət yolu ilə idarəetmə funksiyalarını icra edirdilər.

Dövlət komitələri də ümumittifaq (elm və texnika komitəsi) və ittifaq-respublika (dövlət plan komitəsi) dövlət komitələrinə bölünürdü.

Dövlət komitələrinin spesifik təyinatları ilə seçilən digər qrupunu Xalq Nəzarəti Komitəsi, Dövlət Təhlükəsizliyi Komitəsi, Mərkəzi Statistika Komitəsi təşkil edirdi.

Nazirliklər və dövlət komitələrindən başqa, dövlət mərkəzi idarə orqanları - baş arxiv idarəsi, baş geodeziya və xəritəçilik idarəsi, dini işlər üzrə şura və s. təsərrüfatın və mədəni quruculuğun ayrı-ayrı məsələlərinə rəhbərlik etmək üçün təşkil edilirdi.

Naxçıvan MSSR-in 30 may 1978-ci il Konstitusiyası Naxçıvan MSSR Ali Sovetinin doqquzuncu çağırış sessiyasında qəbul edilmişdi. SSRİ və Azərbaycan SSR konstitusiyaları əsasında hazırlanmış konstitusiya 10 bölmə, 16 fəsil və 163 maddədən ibarətdir. Birinci bölmə Naxçıvan MSSR ictimai quruluşu və siyasətinin əsaslarından bəhs etməklə üç fəsil və 27 maddəni özündə birləşdirir. 1-ci fəsil siyasi sistem, 2-ci fəsil iqtisadi sistem və 3-cü fəsil sosial inkişaf və mədəniyyətə dair ictimai münasibətləri tənzimləyirdi. Konstitusiyanın 4-cü maddəsinə müvafiq olaraq Naxçıvan Muxtar SSR Sovet dövləti olmaqla, onun bütün orqanları sosialist qanunçuluğu əsasında fəaliyyət göstərir, hüquq qaydalarını, cəmiyyətin mənafeyini, vətəndaşlrın hüquq və azadlıqlarının qorunmasını təmin edir. Muxtar respublikanın dövlət təşkilatları və ictimai təşkilatları SSRİ Konstitusi-

yasına Azərbaycan SSR Konstitusiyasına və Naxçıvan Muxtar SSR Konstitusiyasına və sovet qanunlarına əməl etməyə borcludurlar.

İttifaq və respublika konstitusiyalarında olduğu kimi, Naxçıvan Muxtar SSR konstitusiyasının 6-cı maddəsində yeganə Partiya kimi Sovet İttifaqı Kommunist Partiyasının rəhbər və istiqamətverici qüvvəsi təsbit edilirdi. Bununla yanaşı həmkarlar ittifaqları, ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı, kooperativ təşkilatları və başqa ictimai təşkilatlar öz nizamnamə və vəzifələrinə uyğun olaraq dövlət işlərinin və ictimai işlərin idarə olunmasında, siyasi məsələlərin, təsərrüfat məsələlərinin və sosial-mədəni məsələlərin həllində iştirak edirlər.

Naxçıvan Muxtar SSR iqtiadi sisteminin əasını sosialist dövlət mülkiyyəti təşkil edir. Kolxoz - kooperativ mülkiyyətinin inkişaf etdirilib, onun dövlət mülkiyyətinə yaxınlaşması nəzərdə tutulurdu. Naxçıvan Muxtar SSR Konstitusiyasının 28-ci maddəsində göstərilirdi ki, SSRİ-də müəyyən dilmiş vahid ittifaq vətəndaşlığına müvafiq olaraq Naxçıvan MSSR-in hər bir vətəndaşı Azərbaycan SSR və SSRİ vətəndaşıdır.

Konstitusiyanın III bölməsinin altıncı fəsli "Naxçıvan Muxtar SSR - Azərbaycan SSR tərkibində muxtar respublikadır" adlanırdı. Azərbaycan SSR Konstitusiyasının 72-ci maddəsində göstərilənlər istisna olmaqla, Naxçıvan MSSR öz ərazisində dövlət hakimiyyətini həyata keçirir.

SSRİ və Azərbaycan SSR qanunları Naxçıvan Muxtar SSR ərazisində məcburidir.

Naxçıvan Muxtar SSR-in razılığı olmadan onun ərazisi dəyişdirilə bilməz.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ali dövlət hakimiyyəti və idarəetmə orqanlarının səlahiyyətlərinə aşağıdakılar daxildir: Naxçıvan Muxtar SSR Konstitusiyasını qəbul etmək və onda dəyişiklik aparmaq; Naxçıvan Muxtar SSR Konstitusiyasına əməl olunmasına nəzarət etmək; Naxçıvan Muxtar SSR qanunvericiliyini; dövlət asayişini, vətəndaşların hüquq və azadlıqlarını qorumaq; sosial-iqtisadi, xalq maarifi, mədəniyyət və elm təşkilatları və idarələri-

nin, səhiyyə, bədən tərbiyəsi, sosial təminat və s. sahələrin və inkişafını təmin etmək, respublika əhəmiyyətli digər məsələləri həll etmək.

Naxçıva Muxtar SSR ərazi-inzibati cəhətdən rayonlara bölünürdü.

Naxçıvan Muxtar SSR Konstitusiyasının 92-ci maddəsində göstərilirdi ki, Naxçıvan Muxtar SSR-in **ali dövlət** hakimiyyəti orqanı Naxçıvan Ali Sovetidir. Qanunlar Naxçıvan Muxtar SSR Ali Soveti tərəfindən qəbul edilir və bütün muxtar respublika ərazisində məcburidir. Muxtar respublika Ali Sovetinin **deputatlarının sayı 110 nəfərdən** ibarətdir. Naxçıvan Muxtar SSR Ali Soveti Ali Soveti Rəyasət Heyətinin sədrini və onun 2 müavinini seçir. Muxtar respublikanın hər il 2 dəfə növbəti sessiyası keçirilir. Növbədənkənar sessiyalar Ali Sovetin Rəyasət Heyətinin təşəbbüsü və ya deputatların üçdə bir hissəsinin tələbi ilə çağırılır.

Naxçıvan MSSR-in Ali Sovetində qanunvericilik təşəbbüsü Ali Sovetin Rəyasət Heyətinə, Nazirlər Sovetinə, Ali Sovetin daimi və digər komissiyalarına, Ali Sovetin deputatlarına, ali məhkəmənin və prokurorun səlahiyyətlərinə aid edilirdi. İctimai təşkilatların da qanunvericilik təşəbbüsü ilə çıxış etmək hüququ var idi.

Naxçıvan MSSR-in **ali icraedici və sərəncam orqanı** Naxçıvan MSSR-in **Nazirlər Sovetidir.** Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR Ali Soveti qarşısında məsuldur və ona hesabat verir. Naxçıvan MSSR Nazirlər Soveti öz səlahiyyətləri daxilində rayon və şəhər xalq deputatları Sovetləri icraiyyə komitələrinin qərar və sərəncamlarını, Naxçıvan MSSR nazirliklərinin, dövlət komitələrinin, öz tabeliyindəki başqa orqanların aktlarını ləğv etmək hüququna malikdir.

Naxçıvan MSSR Nazirlər Soveti öz səlahiyyəti daxilində: xalq təsərrüfatına və sosial-mədəni quruculuğa rəhbərliyi təmin edir; elm və texnikanı inkişaf etdirir, tikinti, kənd təsərrüfatı müəssisələri və birliklərinin, nəqliyyat və rabitə müəssisələrinin, habelə respublika tabeliyində və yerli tabeliklərdə olan digər təşkilatların və idarələrin idarə olunmasını təşkil edir.

Naxçıvan MSSR Nazirlər Soveti öz səlahiyyətləri daxilində qərar və sərəncamlar verir, bunların yerinə yetirilməsi üçün qərarlar çıxarır, sərəncamlar verir, onların icrasını təşkil edir. Nazirlər Soveti öz tabeliyindəki başqa orqanların aktlarını ləğv etmək hüququna malikdir.

Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan SSR qanunu. Azərbaycan SSR Konstitusiyasının 84-cü maddəsinə müvafiq olaraq DQMV haqqında qanun DQMV-nin Xalq deputatlar Sovetinin təqdimatı ilə Azərbaycan SSR Ali Soveti tərəfindən 16 iyun 1981-ci ildə qəbul edilmişdi. 4 fəsil və 68 maddədən ibarət qanununda DQMV-nin statusu təsbit olunurdu. Birinci maddədə göstərilirdi ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan Sovet Sosialist Respublikası tərkibindədir. DQMV ərazi inzibati cəhətdən rayonlara bölünür. Muxtar Vilayətin xalq deputatları Sovetinin razılığı olmadan onun ərazisi dəyişdirilə bilməz. DQMV SSRİ Ali Soveti Millətlər Sovetində beş deputatla təmsil olunur. Qanunun 5-ci maddəsinə görə DQMV ərazisində yaşayan vətəndaşlar SSRİ, Azərbaycan SSR, muxtar vilayət xalq deputatları Soveti və digər yerli orqanlara keçirilən seçkilərdə iştirak edir.

Azərbaycan SSR Konstitusiyasının 113-cü maddəşinə müvafiq olaraq Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müavinlərindən biri Dağlıq Qarabağ Muxtar Vilayətindən seçilirdi.

DQMV haqqında Qanunun 9-cu maddəsinə görə Muxtar Vilayətin büdcəsi Azərbaycan SSR-in dövlət büdcəsinin tərkib hissəsidir.

DQMV-nin dövlət hakimiyyəti orqanı Muxtar Vilayətin Xalq Deputatları Sovetidir. Vilayət Soveti yerli əhəmiyyətli bütün məsələləri həll edir. DQMV-nin xalq deputatları 2 il 6 ay müddətinə seçilirlər. Muxtar Vilayət Xalq Deputatları Soveti iqtisadi, sosial, mədəni və digər sahələr üzrə kompleks məsələləri həll edir.

DQMV haqqında Azərbaycan SSR Qanununun 44-cü maddəsinə müvafiq olaraq Dağlıq Qarabağ Muxtar Vilayəti xalq deputatları Sovetinin icraiyyə komitəsi öz səlahiyyətləri daxilində muxtar vilayətdə icraedici və sərəncamverici orqan idi. 2 il 6 ay müddətinə seçilən muxtar vilayət İcraiyyə Komitəsi onu seçən DQMV Xalq Deputatları Soveti və Azərbaycan SSR Nazirlər Soveti qarşısında məsuliyyət daşıyır. İcraiyyə Komitəsi il ərzində bir dəfə müvafiq orqanlar qarşısında hesabat verir. DQMV-nin İraiyyə Komitəsi aşağı səlahiyyətli icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək hüququna malikdir. İcraiyyə Komitəsi nəzdində komissiyalar təşkil edilirdi.

DQMV haqqında Qanunun 61-ci maddəsinə görə icraiyyə komitəsinin şöbə və idarələri də yaradılırdı.

DQMV-nin vilayət məhkəməsi 5 il müddətinə seçilirdi. DQMV-də mühakimə icraatı muxtar vilayətin dilində və ya Azərbaycan dilində, yaxud müəyyən ərazidəki əhalinin əksəriyyətinin dilində aparılır. İşdə iştirak edən, mühakimə icraatının aparıldığı dili bilməyən şəxslərin işdəki materiallarla bütünlüklə tanış olmaq hüququ, məhkəmə işində tərcüməçi vasitəsilə iştirakı və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilirdi.

SSRİ və Azərbaycan SSR konstitusiyalarına müvafiq olaraq DQMV-nin prokuroru SSRİ baş prokuroru tərəfindən təyin edilirdi.

DQMV-nin Xalq Deputatları Soveti hüquqi şəxs səlahiyyətlərindən istifadə edirdi. Muxtar Vilayət İcraiyyə Komitəsi Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin təsdiq etdiyi gerbli möhürə malik idi.

Yerli hakimiyyət və idarəetmə orqanları. Azərbaycan SSR Konstitusiyasının 137-ci maddəsinə görə dövlət hakimiyyətinin yerli orqanlarına muxtar vilayət, şəhər, rayon, şəhərlərdəki rayon, qəsəbə, kənd xalq deputatları sovetləri aiddir. Yerli xalq deputatlar Sovetinin sessiyaları onların icraiyyə komitələri tərəfindən ildə ən azı dörd dəfə çağırılır.

Qəsəbə və kənd xalq deputatları sovetlərinin sessiyaları isə onların icraiyyə komitələri tərəfindən ildə azı altı dəfə çağırılır.

Yerli xalq deputatları sovetləri öz ərazisində dövlət, təsərrüfat quruculuğuna və sosial-mədəni quruculuğa rəhbərlik edir, iqtisadi və sosial inkişaf planlarını və yerli büdcəni təsdiq edirlər. Yerli sovetlərin daimi komissiyaları yaradılırdı.

Yerli xalq deputatları sovetlərinin sədrdən, sədr müavinindən, katibdən və üzvlərdən ibarət tərkibdə seçdikləri icraiyyə komitələri icra və sərəncamverici orqanlar idi. Sovetlərin səlahiyyətinə aid edilmiş bütün digər məsələlər icraiyyə komitələrində yerinə yetirildi.

Yerli xalq deputatları sovetlərinin icraiyyə komitələri özlərinin sahəvi orqanlarına – **şöbə** və **idarələrinə** malik idilər. Həmin orqanlar sovetlərin birinci sessiyasında təşkil edilirdi. Vəkalət müddəti qurtarmış sovetlərin icraiyyə komitələri yeni çağırışa qədər öz səlahiyyətlərini saxlayırdılar.

Məhkəmə sistemi. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının 21-ci fəslində məhkəmə orqanlarının quruluşu və fəaliyyəti təsbit edilirdi. 163-cü maddədə göstərilirdi ki, Azərbaycan SSR-də ədalət mühakiməsi yalnız məhkəmə tərəfindən həyata keçirilir. Azərbaycan SSR məhkəmələrinin quruluşu aşağıdakı kimi müəyyən edilirdi: Azərbaycan SSR Ali Məhkəməsi, Naxçıvan MSSR Ali Məhkəməsi, Bakı Şəhər Məhkəməsi və nəhayət, rayon (şəhər) xalq məhkəmələri.

Azərbaycan SSR Ali Məhkəməsi ali məhkəmə orqanı kimi Azərbaycan SSR-in məhkəmələrinin fəaliyyətinə nəzarət edirdi.

Azərbaycan SSR Ali Məhkəməsi Azərbaycan SSR Ali Soveti tərəfindən, Naxçıvan MSSR Ali Məhkəməsi Naxçıvan MSSR Ali Soveti tərəfindən, DQMV Vilayət Məhkəməsi DQMV Xalq Deputatları Soveti tərəfindən və rayon (şəhər) xəlq məhkəmələrinin xalq hakimləri rayon (şəhər) vətəndaşları tərəfindən gizli səsvermə ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında 5 il müddətinə seçilirdilər.

Azərbaycan SSR Ali Məhkəməsi Azərbaycan SSR Ali Soveti tərəfindən sədrdən, onun müavinlərindən, üzvlərdən və xalq iclasçılarından ibarət tərkibədə 5 il müddətinə seçilir. Azərbaycan SSR Ali Məhkəməsinin tərkibinə vəzifəyə görə Naxçıvan MSSR Ali Məhkəməsinin və DQMV Məhkəməsinin sədrləri daxildir. Bütün məhkəmələrdə mülki və cinayət işlərinə kollegial surətdə baxılırdı.

Rayon (şəhər) xalq məhkəmələrinin xalq iclasçıları vətəndaşların işlədikləri və ya yaşadıqları yerdə onların yığıncaqlarında açıq səsvermə yolu ilə 2 il 6 ay müddətinə seçilirdilər. Rayon (şəhər) məhkəmələrində işlər xalq iclasçılarının iştirakı ilə baxılırdı. Ədalət mühakiməsi həyata keçirilərkən xalq iclasçıları hakimin bütün hüquqlarına malik idilər.

Silahlı Qüvvələrdə mühakimə hərbi tribunallar tərəfindən həyata keçirilirdi.

Konstitusiyanın 172-ci maddəsində təqsirsizlik prezumpsiyası təsbit edilirdi: məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadan heç kəs cinayət etməkdə müqəssir sayıla bilməzdi.

Azərbaycan SSR Konstitusiyasının 21-ci fəslində nəzərdə tutulan, lakin konstitusiyanın heç bir maddəsinə daxil edilməyən arbitraj

orqanları (SSRİ Konstitusiyasının 163-cü maddəsində təsbit edilmişdi), Azərbaycan SSR Nairlər Soveti tərəfindən 1974-cü il mayın 24-də təsdiq edilmiş "Dövlət arbitrajı haqqında Əsasnamə"yə müvafiq olaraq təşkilatlar, idarələr və müəssisələr arasındakı mübahisələri onların səlahiyyətləri daxilində həll edirdi. Dövlət arbitrajı orqanı baş arbitrdən, onun müavinlərindən və arbitrlərdən ibarət təşkil edilir. Zərurət olanda məsləhətçilərdən və yardımçı heyətdən də istifadə edilirdi.

Naxçıvan MSSR Nazirlər Soveti və DQMV Xalq Deputatları Soveti İcraiyyə Komitəsi yanında baş arbitrlər həmin arbitrajların tabe olduqları müvafiq idarəetmə orqanları tərəfindən vəzifəyə təyin olunurdular.

Prokurorluq. Azərbaycan SSR Konstitusiyasının 22-ci fəslində prokurorluq orqanlarının sistemi və fəaliyyəti təsbit edilmişdi. Azərbaycan SSR ərazisində bütün nazirliklər, dövlət komitələri və baş idarələri, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları sovetlərinin icra və sərəncam orqanları, kolxozları, kooperativ təşkilatları və digər ictimai təşkilatlar, vəzifəli şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada icra olunmasına ali nəzarət SSRİ baş prokuroru, ona tabe olan Azərbaycan SSR prokuroru və aşağı prokurorlar tərəfindən həyata keçirilirdi.

Azərbaycan SSR Prokuroru, Naxçıvan MSSR və DQVM prokuroru SSRİ baş prokuroru tərəfindən təyin edilirdilər. Rayon və şəhər prokurorları Azərbaycan SSR prokuroru tərəfindən təyin olunur və SSRİ baş prokuroru tərəfindən təsdiq edilirdilər. Azərbaycan SSR prokuroru qanunvericilik təşəbbüsü ilə çıxış etmək hüququna malik idi.

Azərbaycan SSR-də hüququn inkişafı

Mülki hüquq. Nəzərdən keçirilən dövrdə Azərbaycan SSR mülki hüququnun mənbələrinə qanunlar (əsas qanunlar və cari qanunlar), fərmanlar, digər qüvvəli aktlar, müəssisə və birliklər haqqında əsasnamələr, təsərrüfat müqavilələri haqqında əsasnamələr və qaydalar, nəqliyyat nizamnamələri, mənzil qanunvericiliyi aktları, vətəndaşlara məişət xidməti qaydaları, Azərbaycan SSR Ali Məhkəməsinin Plenumlarının qərar və izahatları və s. daxil idi.

"SSR İttifaqının və müttəfiq respublikaların mülki qanunvericiliyinin əsasları" beşinci çağırış SSRİ Ali Sovetinin yeddinci sessiyasında 1961-ci il dekabrın 8-də qəbul edilmiş və 1962-ci il mayın 1-dən qüvvəyə minmişdir. Mülki qanunvericiliyin Əsasları giriş hissədən, 8 bölmədən və 129 maddədən ibarət idi. Əsasların müddəaları mülki qanunvericilikdə və xüsusilə də Mülki Məcəllədə geniş şərh edilirdi.

Mülki hüququn sistemi ən geniş sahələrdən olmaqla 5 böyük bölmədən, ümumi müddəalar, mülkiyyət hüququ, öhdəlik hüququ, mənəvi yaradıcılığın nəticələri (müəlliflik və ixtira hüququ, kəşf hüququ) və vərəsəlik hüququndan ibarət idi.

Mülki qanunvericiliyin Əsaslarına müvafiq olaraq Azərbaycan SSR Ali Soveti tərəfindən 1964-cü il sentyabrın 11-də Azərbaycan SSR Mülki Məcəlləsi qəbul edilir və 1965-ci il martın 1-dən qüvvəyə minir.

Mülki hüququn ümumi müddəalar hissəsində mülki qanunvericiliyin vəzifələrini müəyyən edən normalar, onların tənzim etdiyi münasibətlər, mülki hüquq və münasibətlərin əmələ gəlməsinin əsasları, mülki hüquqların müdafiəsi üsulları, mülki hüquq subyektlərinin hüquqi vəziyyəti və s. tənzimlənirdi.

Mülki hüququn vəzifəsi vətəndaşların maddi və mənəvi tələbatlarının daha dolğun ödənilməsinə kömək etməkdən ibarətdir. Mülki hüquq münasibətlərində spesifik xüsusiyyət kimi sovet dövlətinin iradəsi təsbit olunurdu. Lakin mülki hüquq münasibətlərinin əksəriyyətində həm də onların iştirakçılarının fərdi iradəsi ifadə olunurdu. Prinsipcə, mülki hüququn subyektləri hüquqlarına görə bərabərdirlər. Qeyri-əmlk xarakterli mülki hüquq münasibətləri kəşf, ixtira, səmərələşdirici təkliflərin müəlliflərinin şəxsi hüquqları hesab edilirdi. Vətəndaşların şərəf və ləyaqəti də mülki hüquqi qaydada müdafiə olunurdu.

Mülki dövriyyədən çıxarılmış şeylər mülkiyyət hüququnun obyekti ola bilməz.

Mülki hüququn subyektlərinə vətəndaşlar, dövlət, kolxoz-kooperativ, ictimai təşkilatlar, təsərrüfatlararası təşkilatlar və hüquqi şəxslərin hüquqlarından istifadə edən digər təşkilatlar daxildir. Qa-

nunla nəzərdə tutulan mülki hüquq qabiliyyətinə və mülki fəaliyyət qabiliyyətinə malik olan subyektlər mülki hüquq münasibətlərində iştirak edir. Qanunda göstərilmiş hallarda və qaydada şəxsin hüquq qabiliyyəti məhdudlaşdırıla bilər.

Azərbaycan SSR-in 1965-ci il Mülki Məcəlləsinin 14-cü maddəsinə əsasən həddi-büluğa çatmayan 15 yaşadək şəxslər fəaliyyət qabiliyyətinə malik deyildirlər. 18 yaşınadək şəxslərin isə fəaliyyət qabiliyyəti nisbi və məhduddur.

Hüquq münasibətlərinin subyektləri olan idarə müəssisə və təşkilatlarda subyekt kimi ayrı-ayrı fərdlər deyil, bütöv kollektiv çıxış edir və idarə, müəssisə və təşkilatlar hüquqi şəxs adlanırdı.

Azərbaycan SSR Mülki Məcəlləsinin 58-ci maddəsinə müvafiq olaraq bir şəxsin (nümayəndənin) etibarnamə, qanun, yaxud inzibati aktla ona verilmiş səlahiyyət əsasında digər şəxs (təmsil olunan) adından onun üçün bilavasitə mülki hüquqlar və vəzifələr yaranmasına, dəyişilməsinə və xitam olunmasına səbəb olan əqdlər bağlanması və s. hərəkətlər etməsidir. Mülki Məcəllənin 60-cı maddəsinə əsasən etibarnamə üçüncü şəxs qarşısında nümayəndəlik etmək üçün bir şəxsin başqasına verdiyi (keçirdiyi) səlahiyyətli yazılı ifadədir.

Mülki hüquq münasibətlərində qanunla müəyyən edilmiş müddət ərzində yerinə yetirilməyən öhdəliklər üzrə Mülki Məcəllənin 73-cü maddəsinə əsasən hüququ pozulmuş şəxsin ümumi iddia müddəti 3 il, dövlət təşkilatlarının, kolxozları və s. kooperativ və ictimai təşkiatların bir-birinə olan iddiaları üzrə bir il müəyyən edilmişdi.

Mülkiyyət hüququ. Mülki hüququn əsas institutlarından biri olan mülkiyyət hüququ əmlak xarakterli mülki hüquqlar sırasında əsas yer tutur. Mülkiyyət hüququ a) sahiblik, b) istifadə və c) sərəncamdan ibarət üç özəyə malikdir.

Mülkiyyətə sahib olmaq hüququ mütləq hüquq olmaqla şəxsin həmin əmlak və ya şey üzərində fiziki və yaxud təsərrüfat ağalığı etməsi mənasında olan faktdır. Mülkiyyətçi qanunsuz olaraq başqasının sahibliyinə keçmiş əmlakını tələb edib geriyə almaq hüququna malikdir.

Mülkiyyətdən istifadə hüququ mülkiyyətçinin istehsal, məişət və mədəni tələbatlarını ödəmək məqsədilə şeyin (əmlakın, əşyanın)

faydalı xassələrini götürməklə ondan mənfəət əldə etmək məqsədi daşıyan cəhət kimi dərk olunur.

Mülkiyyət üzərində tam sərbəst olaraq onu satmaq, dəyişdirmək, özgəninkiləşdirmək, bağışlamaq, vərəsəliyə vermək, hədiyyə etmək və s. kimi hüququ mülkiyyətçinin müstəsna sərəncam vermək hüququdur.

Azərbaycan sovet hüququnda mülkiyyəti əldə etməyin üsulları öz spesifikliyi ilə fərqlənirdi. Buraya istehsal prosesində yeni şeylərin yaradılması, həmçinin təbii artım, vicdanlı surətdə mülkiyyətçidən şey (əmlak, əşya) əldə etmək, tapılıb tələb olunmayan, habelə sahibsiz əmlakın dövlət ixtiyarına keçməsi, milliləşdirmə, müsadirə, həcz (rekvizisiya - məcburi alınan əmlak), qəsdən gizlədilmiş, sahibsiz sayılan, mülkiyyətçisini müəyyən etmək mümkün olmayan və ya mülkiyyətçisi qanuna əsasən mülkiyyət hüququnu itirmiş dəfinə aid edilirdi. Dəfinə maliyyə orqanına təhvil verilir və Azərbaycan SSR Mülki Məcəlləsinin 140-cı maddəsinə görə dəfinəni tapıb təhvil verən şəxsə həmin sərvətin 25%-i həcmində mükafat verilirdi.

İlk mülkiyyətçinin iradəsinə və yeni mülkiyyətçinin razılığı ilə alqı-satqı, dəyişmə, bağışlama və s. müqavilələr bağlamaqla əldə edilən mülkiyyət hüququ törəmə mülkiyyət hüququ adlanır. Qanuni və yaxud vəsiyyətnamə üzrə vərəsəlik yolu ilə, habelə inzibati aktlarla da (müəssisənin kooperativ təşkilatının dövlətə keçirilməsi haqda qərar və s.) törəmə mülkiyyət hüququ əldə edilə bilər.

Azərbaycan SSR-in 1965-ci il Mülki Məcəlləsində sovet mülkiyyətinin ənənəvi növləri əvvəlki kimi təsbit olunmuşdu. Burjuaziya cəmiyyətindən fərqli olaraq, sovet cəmiyyətində xüsusi mülkiyyətdən fərqlənən şəxsi mülkiyyət hüququ geniş təsbit edilirdi. Şəxsi mülkiyyətin səciyyəvi cəhəti onun istehlak xarakterli olmasında idi. Sovet hüququna görə xüsusi mülkiyyət başqasının əməyinin istismarı nəticəsində yaranmışdır. Şəxsi mülkiyyətin obyektini vətəndaşın öz şəxsi əməyi ilə qazandığı gəlir – pul vəsaiti, yaşayış evi, yardımçı ev təsərrüfatı, məişət avadanlığı, şəxsi istehlak və rahatlıq şeyləri təşkil edir. Şəxsi mülkiyyət və ona vərəsəlik qanunla qorunur.

Şəxsi mülkiyyətin obyektləri fərdi mülkiyyətə və kolxozçu həyətinin şəxsi mülkiyyətinə ayrılır.

Öhdəlik hüququ. Öhdəlik hüququ öhdəlikləri nizamlayan mülki hüquq normalarının məcmusudur. Öhdəlikdə həmişə iki tərəf (borclu və kreditor) iştirak edir. Müqavilələrdən yaranan öhdəliklərdə hər iki tərəfin həm hüquqları və həm də vəzifələri olur. Deliktlərdən yaranan öhdəliklərdə isə ziyan vuran tərəfdən ziyana düşmüş tərəf ziyanın ödənilməsini tələb etmək hüququna malikdir. Beləliklə, deliktlərdən yaranan öhdəliklərdə bir tərəf ancaq hüquqa (ziyana düşən) o biri tərəf (ziyan vuran), isə ancaq vəzifəyə malik olur.

Öhdəlik hüququ **ümumi** və **xüsusi** hissədən ibarətdir. Ümumi hissəyə öhdəliklərin anlayışı, onların əmələ gəlməsi əsasları, məzmunu və öhdəliklərin icrası qaydası, öhdəliklərin icrasını təmin etmə tələbinin güzəşti və borcun köçürülməsi, öhdəliyi pozmağa görə məsuliyyət və öhdəliklərə xitam verilməsi əsaslarını müəyyən edən normalar daxil idi.

Xüsusi hissədə ayrı-ayrı öhdəlik normaları tənzimlənirdi. Öhdəliklərin ayrı-ayrı növlərinə alqı-satqı, dəyişmə, bağışlama, tədarük, əmlak kirayəsi, podrat müqaviləsi, yük daşıma müqaviləsi və s. daxildir. Deliktlərdən əmələ gələn öhdəliklər, sosialist əmlakını xilas etmək nəticəsində əmələ gələn, həmçinin əmlakı əsassız əldə etmə və ya saxlamadan əmələ gələn öhdəliklər və Mülki Məcəllədə təsbit edilirdi.

Öhdəliklərin icrasının təmin edilməsində dəbbə pulu, girov, zaminlik, beh və təminat üsullarından istifadə edilirdi.

Azərbaycan SSR-in 1965-ci il Mülki Məcəlləsinin 39-cu maddəsində göstərilirdi ki, vətəndaşların və təşkilatların mülki hüquqlarının və ya vəzifələrinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitam olunmasına yönəldilmiş hüquqauyğun hərəkətlər əqd hesab olunur. Əqdlərin əksəriyyəti ikitərəfli olur. Belə əqdlərə müqavilə deyilir. Birtərəfli əqdlər müqavilə hesab olunmur. Bir tərəfin iradəsi əsasında (məsələn, vəsiyyətnamə tərtib etmək, miras qalmış əmlakı qəbul etməkdən imtina etmək, etibarnamə vermək, ödəmə tapşırığı, çek vermək və s.) bağlanan əqdə birtərəfli əqd deyilir.

Qanunvericilikdə qəbul olunmuş ümumi qaydaya əsasən əqdlər iki əsas formada – sözlə (verbal) və ya yazılı (literal) formada bağla-

nır. Yazılı əqdlər əsasən notariat orqanlarında təsdiq edildikdən sonra hüquqi qüvvəyə malik hesab edilirdi.

Azərbaycan SSR Mülki Məcəlləsinin 44-54-cü maddələrinə müvafiq olaraq qanunun tələblərinə müvafiq olmayan, yaxud da qanuna riayət etmədən bağlanan əqd dövlətin, cəmiyyətin və hüquqi şəxsin mənafelərinə zidd məqsədlə bağlanan əqdlər, həddi-büluğa çatmayan 15 yaşadək yeniyetmələr tərəfindən həddi-büluğa çatmayan 15 yaşından 18 yaşınadək şəxslər tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılan, öz hərəkətlərinin mənasını başa düşməyən şəxslərin bağladığı əqdlər, uydurma və yalan əqdlər, yanılma nəticəsində bağlanan əqdlər, hədələmə, zor işlətmək, aldatma yolu ilə bağlanan əqdlər, bir tərəf üçün son dərəcə əlverişli olmayan şərtlərlə bağlanan, yaxud çıxılmaz ağır vəziyyətə düşüb ehtiyac içərisində qalmaq nəticəsində bağlanan əqdlər etibarsız əqdlərdir.

Azərbaycan SSR-in 1965-ci il Mülki Məcəlləsində ilk dəfə olaraq 264-265-ci maddələr üzrə kənd təsərrüfatı məhsullarının kontraksiya (dövlət tərəfindən satın alınma) müqaviləsindən əmələ gələn mülki-hüquqi münasibətlər müqavilələrin bağlanması və icrası qaydasında tənzimlənirdi. Kontraksiya müqaviləsi kənd təsərrüfatı məhsullarını satın alan sosialist təşkilatları ilə həmin məhsulları istehsal edən kolxozlar, sovxozlar və digər dövlət təsərrüfatları arasındakı müqavilədir.

Azərbaycan SSR Mülki Məcəlləsinin 474-475-ci maddələrində müəlliflik hüququ haqqında müxtəlif məsələlər tənzimlənirdi. Müəlliflik hüququ (yaradıcılıq fəaliyyəti) ilk növbədə müəllifə məxsusdur. Müəllifin yaradıcılıq fəaliyyətinin nəticələrini dərk etməyə imkan verən hər hansı obyektiv formada (əl yazması, çertyoj, təsvir, kütlə qarşısında açıq ifa və s.) ifadə edilmiş əsərlər müəlliflik hüququnun obyektidir. Dövlət sərvəti elan edilmiş əsərlər müəllifin hüquq varisi olmaqla törəmə müəlliflik hüququna aid edilir. Müəllif öz ixtirası üçün öz hüququnu müəlliflik şəhadətnaməsi, yaxud patent olmaq yolu ilə müəyyənləşdirə bilər. Şəhadətnamə verildikdən sonra dövlət ixtiranı tətbiq etmək hüququ əldə edir.

Ailə və nikah hüququ. Ailə hüququ nikahdan və ailə münasibətlərindən əmələ gələn şəxsi və əmlak münasibətlərini tənzimləyir. Azərbaycan SSR Nikah və Ailə Məcəlləsi 1969-cu il dekabrın 26-da qəbul edilib. Ailə hüququnun əsas prinsiplərinə tək nikahlılıq (monoqamiya), nikah münasibətinə daxil olmanın azad və könüllü olması və s. aid edilirdi. Nikah faktı yalnız dövlət orqanlarında təsdiq edilirdi. Dini əsasda bağlanan kəbin hüquqi qüvvəyə malik deyildi. Nikahın pozulmasına (boşanma) azad və dövlət nəzarəti ilə məhkəmələrdə baxılırdı. Nikaha daxil olma yaşı hər iki tərəf üçün 18 yaş müəyyən edilirdi. Lakin müstəsna hallarda rayon (şəhər) xalq deputatları sovetinin icraiyyə komitəsi tərəfindən yetkinlik yaşına çatmayanların özlərinin (yaxud onlardan birinin) və ya onların valideynlərinin, yaxud himayəçilərinin (yetkinlik yaşına çatmayanların razılığı olduqda) ərizəsinə əsasən nikah yaşı bir il aşağı salına bilərdi.

Ərin və ya arvadın birinin ölməsi və ya qanunla müəyyən edilmiş qaydada məhkəmə tərəfindən ölmüş hesab edilməsi ilə nikah pozulur. Ər-arvadın birinin və ya hər ikisinin ərizəsi ilə VVAQ orqanlarında nikahın pozulması qaydası müəyyən edilirdi. Ər-arvadın yetkinlik yaşına çatmayan uşaqları olduqda və yaxud ər-arvad arasında mübahisə olduqda nikah məhkəmədə pozulur. Arvadın hamiləlik dövründə və uşaq doğulduqdan sonra bir ilə qədər müddət ərzində onun razılığı olmadan ər boşanma haqqında məsələ qaldıra bilməz.

Yetkinlik yaşına çatmamış uşaqları olmayan ər-arvad nikahın pozulmasına qarşılıqlı razılıq verərsə, nikah VVAQ orqanlarında pozula bilərdi. Lakin boşanma dərhal deyil, ər-arvad boşanmaq haqqında ərizə verdiyi gündən üç ay keçdikdən sonra rəsmiləşdirilirdi. 3 ay müddət ər-arvadın barışdırılması üçün imkan idi. Həmin müddət keçdikdən sonra boşanma rəsmiləşdirilir və nikahın pozulması haqqında ər-arvada şəhadətnamə verilirdi. Tərəflər nikahın pozulmasının qeyd edilməsi üçün dövlət rüsumu ödəyirdilər. Aliment bir qayda olaraq könüllü ödənilirdi. Aliment alan hər hansı səbəb üzündən və ya səbəbsiz alimenti almadıqda məhkəməyə müraciət etmək hüququna malik idi. Müraciət etmiş iddiaçının ərizəsinə mübahisə olmadıqda hakim təkbaşına baxırdı. Məcburi qaydada aliment almaq

üçün müraciət etmiş iddiaçıya prosessual güzəştlər edilir, dövlət rüsumundan azad edilən iddiaçının arzusu ilə həm cavabdehin, həm də iddiaçının yaşadığı yerdə məhkəmə aparılmasına nail ola bilərdi. Məhkəmə ən qısa müddətdə (10-20 gün) iddiaya baxıb qərar çıxarır və tədbir görürdü. Məhkəmənin aliment tutulması haqqında qərarı dərhal qüvvəyə minirdi.

Vərəsəlik hüququ. Vərəsəlik hüququ vəfat etmiş şəxsin əmlakının vərəsəlik hüququ üzrə keçməsi qaydasını müəyyən edən hüquq normalarına deyilir. Vərəsəlik hüququ normalarının çox hissəsi Azərbaycan SSR Mülki Məcəlləsinin V bölməsinə daxil edilmişdi. Mülkiyyətə vərəsəlik hüququ konstitusiya qanunu ilə qorunur.

Vərəsəlik hüququnun qanun üzrə aşağıdakı qaydaları müəyyən edilir: vərəsəliyin açılması vaxtının müəyyən edilməsi - mirası qalmış mərhumun ölümü günü; şəxs ölmüş elan ediləndə isə məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gün, yaxud məhkəmə qətnaməsində göstərilmiş gün; vərəsəliyin açılması yeri - miras qoyanın sonuncu daimi yaşayış yeri, bu yer məlum deyildirsə, əmlakın, yaxud onun əsas hissəsinin olduğu yer; vərəsə ola bilən şəxslərin dairəsi - mirası qalanın vəfat etdiyi vaxtda sağ olan şəxslər. Mirası qalanın vəfatından sonra doğulmuş uşaqları da qanun üzrə vərəsə hesab olunurdular.

Vəsiyyətnamə üzrə vərəsəliyə görə hər bir vətəndaş öz əmlakının hamısını və yaxud onun bir hissəsini qanun üzrə vərəsələrə və ya vərəsə olmayanlara, həmçinin dövlətə, yaxud ayrı-ayrı dövlət təşkilatlarına, kooperativ və ictimai təşkilatlara öz arzusuna müvafiq olaraq vəsiyyət edə bilərdi. Vəsiyyət yazılı formada tərtib edilir və notarius tərəfindən təsdiq edilir. Vəsiyyət edən istədiyi vaxt vəsiyyəti dəyişdirmək və ya ləğv etmək hüququna malikdir.

Əmək hüququ. Nəzərdən keçirilən dövrdə əmək hüquq münasibətləri qanunlar və digər aktlarla tənzimlənirdi. Azərbaycan SSR Əmək Qanunları Məcəlləsi Azərbaycan SSR Ali Soveti tərəfindən 1971-ci il dekabrın 10-da qəbul edilmiş və 1972-ci il iyulun 1-dən qüvvəyə minmişdir. Yeni əmək hüququnun mənbələrinə ümumittifaq əhəmiyyətli bir sıra mühüm aktlar daxil idi. SSRİ Ali Sovetinin Rəyasət Heyətinin "16 yaşdan 18 yaşa qədər olan fəhlə və qulluqçu-

lar üçün 6 saatlıq iş günü müəyyən etmək haqqında" 1956-cı il 26 may tarixli fərmanı, SSRİ Ali Soveti "Dövlət pensiyaları haqqında" 1956-cı il 14 iyul tarixli qanunu, SSRİ Ali Soveti Rəyasət Heyətinin "Yeniyetmələrin əməyinin mühafizəsini daha da gücləndirmək haqqında" 1956-cı il 13 dekabr tarixli fərmanı, SSRİ Ali Soveti Rəyasət Heyətinin "Əmək mübahisələrinə baxılması qaydası haqqında əsasnamə"nin təsdiq edilməsi haqqında 1964-cü il 20 may tarixli fərmanı və s. Yeni fərmanlara görə bütün fəhlə və qulluqçuların əmək haqqı azaldılmadan 7 və 6 saatlıq iş gününə keçirilirdi. 1966-67-ci illərdə iki istirahət günü ilə 5 günlük iş həftəsinə keçirildi. Lakin əvvəlki həftəlik iş müddəti saxlanılırdı. Azərbaycan SSR Əmək Qanunları Məcəlləsinin 20-ci maddəsinə əsasən əmək müqavilələri qeyri-müəyyən müddətə, 3 ildən çox olmamaq şərtilə, müəyyən müddətə və müəyyən işin görülməsi müddətinə bağlanır. Əmək müqaviləsi şifahi və yaxud yazılı formada bağlana bilər.

Əmək qanunlarına görə fəhlə və qulluqçular əmək haqqı almaq, hər il verilən ödənişli məzuniyyət, sağlam və təhlükəsiz əmək şəraitinə malik olmaq, qocaldıqda, habelə xəstələndikdə və əmək qabiliyyətini itirdikdə maddi təminat və s. hüquqlara malikdir. Qanunvericilikdə ilk dəfə olaraq fəhlələrə və qulluqçulara sanatoriya və istirahət evlərinə göndərilmək, mənzil şəraitini yaxşılaşdırmaq və s. sahələrdə imtiyaz və güzəştlər verilirdi.

Azərbaycan SSR Əmək Qanunları Məcəlləsinin 7-ci maddəsinə əsasən fəhlə və qulluqçular kollektivi adından çıxış edən həmkarlar ittifaqı fabrik, zavod və digər müəssisə və təşkilatların müdiriyyəti ilə kollektiv müqavilə bağlaya bilər. Kollektiv müqavilə, bir qayda olaraq, 100 nəfərdən artıq işçisi olan müəssisə və təşkiatlarla bağlanılır. Kollektiv müqavilədən əmələ gələn öhdəliklər hüquqi və mənəvi-siyasi cəhətlərə bölünür. Müqavilədəki öhdəliklərin yerinə yetirilməsi nəzarət həmkarlar ittifaqlarına həvalə edilir.

Torpaq hüququ. Azərbaycan SSR Torpaq Məcəlləsi 1972-ci ildə qüvvəyə minmişdir. Məcəllə respublika ərazisində torpaq münasibətlərini nizamlayan sistemləşdirilmiş qanunvericilik aktı idi. Əvvəlki dövrlərdə olduğu kimi, torpağın dövlətin müstəsna mülkiyyət

hüququnda olduğu təsbit olunurdu. Torpaq üzərində dövlət mülkiyyəti hüququnu pozan hər cür əqd etibarsızdır. Torpaq ancaq pulsuz olaraq daimi və ya müvəqqəti isifadəyə verilir.

Torpaq Məcəlləsində və digər qanunvericilikdə torpaqların qorunmasının hüquqi təminatları müəyyən edilirdi.

Kolxoz hüququ. Kollektiv təsərrüfat torpağın müştərək becərilməsi, əməyin ictimailəşdirilməsi, əməyə görə gəlir, ictimai və şəxsi mənafelərin düzgün əlaqələndirilməsi, kolxoz demokratiyasına ciddi əməl olunması və s. prinsiplər üzrə təşkil edilmiş təsərrüfat orqanı idi.

1969-cu il noyabrın 27-də üçüncü Ümumittifaq kolxozçular qurultayında Kolxozun Nümunəvi Nizamnaməsi təsdiq olunmuşdu. Nizamnamə kolxozların təsərrüfat müstəqilliyini və ya təşəbbüsünü xeyli genişləndirdi. Kolxozlara təhkim olunmuş dövlət torpağından, kolxozların istehsal alət və vəsaitlərindən düzgün istifadə olunması üçün zəruri təşkilati-hüquqi imkanlar yaranmışdı.

Nizamnamədə kənd təsərrüfatında ictimailəşdirmə səviyyəsinin yüksədilməsi, ictimai istehsalın inkişafı, kolxoz mülkiyyətinin möhkəmləndirilməsi, sosialist mülkiyyətinin iki formasının bir-birinə daha da yaxınlaşması, torpaqdan daha yaxşı istifadə olunması, kolxozlar tərəfindən dövlət kənd təsərrüfatı məhsullarının satışının artırılması, ixtisaslaşdırılmış kolxozlararası müəssisələrin yaradılması, kolxozların yardımçı müəssisələri və peşələri təşkil etmək və s. hüquqlar təsbit edilirdi.

Nizamnamənin xüsusi bölməsində kolxozçuların ictimai təşkilat məsələləri, əməyin ödənilməsi, ictimai fondların artmasını təmin etməklə yaxşı işə, ən yaxşı nəticələrə görə daha yüksək ödəniş təsbit edildi. Kolxozçuların kənd təsərrüfatı məhsullarına olan tələblərinin ödənilməsi qaydası və onlara ayda bir dəfədən az olmayaraq pul formasında əmək haqqı verilməsi müəyyən edildi. **SSRİ Ali Sovetinin 1964-cü il 15 iyul tarixli "Kolxoz üzvlərinə pensiya və müavinət verilməsi haqqında"** qanunu kolxozçuların pensiya təminatı üçün vahid qaydanı təsdiq etdi. Kolxozların idarə olunması quruluşu yeni nizamnamədə də təsbit olunurdu. Kolxozun **ali idarəetmə orqanı kolxoz** üzvlərinin **ümumi yığıncağıdır.** Onun səlahiyyətlərinə kolxo-

zun nizamnaməsini qəbul etmək, onda dəyişiklik və əlavələr etmək, kolxozun idarə heyətini, sədrini və təftiş komissiyasını seçmək və s. daxildir. Ümumi kolxoz yığıncağı kolxozun idarə heyəti tərəfindən ildə dörd dəfədən az olmayaraq çağırılır. **Kolxozun idarə heyəti** onun **icraedici və sərəncam orqanıdır.** İdarə Heyəti ümumi yığıncaqda müəyyən olunmuş tərkibdə üç il müddətinə seçilir. Təftiş komissiyası kolxozun idarə heyətinin və vəzifəli şəxslərin təsərrüfat və maliyyə fəaliyyəti üzərində nəzarəti həyata keçirmək üçün təşkil edilirdi.

Yerin Təki haqqında Məcəllə. 1976-cı il noyabrın 26-da Azərbaycan SSR Ali Soveti tərəfindən Yerin Təki haqqında Məcəllə qəbul edilmiş və 1977-ci il martın 1-dən qüvvəyə minmişdi. Məcəllə girişdən, 11 bölmədən, 86 maddədən ibarət idi. Giriş hissədə yerin təkindən istifadə edilməsi, məhsuldar qüvvələrin düzgün yerləşdirilməsi, ondan səmərəli istifadə edilməsi, onun mühafizə edilməsində yerli xüsusiyyətlər nəzərə alınmaqla qanunvericilik əsasları təsbit edilirdi.

Məcəllədə yerin təki üzərində mülkiyyət fondları, yerin təkindən istifadənin növləri və prinsipləri, yerin təkindən istifadə müddəti, ondan istifadə edənlərin hüquq və vəzifələri və istifadə hüququna xitam verilməsi əsasları və qaydası müəyyən edilmişdi.

Yerin təki ümumxalq mülkiyyətidir və yerin təki fondunu təşkil edir. Bu fonda işlənmiş və kəşf olunmamış mühüm iqtisadi əhəmiyyətli və xalq təsərrüfatı üçün əz əhəmiyyət kəsb edən yerin təki, istifadə edilən və ehtiyatda olan yerin təki, faydalı qazıntılar üçün ayrılanlar və s. daxildir.

Su Məcəlləsi. Azərbaycan SSR-də Su Məcəlləsi 1973-cü ildə qüvvəyə minmişdi. Sulardan istifadə və onları mühafizə sahəsində ictimai münasibətləri tənzimləyən qanunvericiliyin əsasları və normaları Su Məcəlləsində təsbit edilirdi. Sular dövlətin mülkiyyətidir. Sulardan istifadə və onların qorunması üçün məsuliyyət daşıyan xüsusi dövlət orqanları mövcuddur. Həmin orqanların hüquq və vəzifələri xüsusi əsasnamələrdə müəyyən edilirdi. Sular üzərində dövlət mülkiyyəti hüququnu açıq və ya gizli pozan hərəkətlər qadağandır. Sudan qanunsuz istifadə etməkdə və onun üzərində sərəncam verməkdə, icazəsiz hidrotexnika işləri aparmaqda, su obyektlərini

çirkləndirməkdə təqsiri olan vəzifəli şəxslər və vətəndaşlar məsuliyyətə cəlb edilirdi.

Meşə Məcəlləsi. Respublika ərazisində meşə münasibətlərini tənzimləyən Meşə Məcəlləsi Azərbaycan SSR-də 1979-cu ildən qüvvəyə minmişdi. Azərbaycan SSR-də Meşə Məcəlləsi yerli xüsusiyyətlər nəzərə alınmaqla qəbul edilmişdi. Meşələr əsasən dövlət əhəmiyyətli və kolxoz meşələrinə bölünür. Dövlət meşələrinə xalq təsərrüfatını odunla təmin edən, digər ehtiyacları ödəyən, həmçinin şəhər meşələri, təhkim edilmiş meşələr (yerli məqsədlər üçün) və qoruyucu meşələr daxildir. Meşələrin faydalı xassələrindən istifadə etməkdə vətəndaşlar sərbəstdirlər. Qanunvericilikdən kənara çıxmaqla meşələrdən istifadə etmək qadağan edilirdi.

Cinayət hüququ. Cinayət hüququ mövcud ictimai münasibətlər sistemi üçün təhlükəli əməllərin cinayət olmasını və cəzalandırılmasını müəyyən edən hüquq normalarının məcmusudur. Azərbaycan SSR Cinayət Məcəlləsi 1961-ci il martın 1-də qüvvəyə minmişdir. Cinayət Məcəlləsi Ümumi və Xüsusi hissədən ibarətdir. Ümumi hissədə Cinayət Məcəlləsinin vəzifələri və qüvvəsi, cinayət və cəzanın anlayışı, məhkəmə tərəfindən tətbiq edilən cəzalar və cəzanın təyin edilməsi prinsipi göstərilirdi. Xüsusi hissədə ayrı-ayrı cinayət növlərinin tərkibi və onlara tətbiq edilən cəza tədbirləri müəyyən edilirdi.

Cinayət hüququ cinayətləri dövlət əleyhinə, sosialist mülkiyyəti əleyhinə olan cinayətlərə, şəxsiyyət əleyhinə, vətəndaşların siyasi və əmək hüquqları əleyhinə, vətəndaşların şəxsi mülkiyyəti əleyhinə olan cinayətlərə, təsərrüfat cinayətlərinə, vəzifə cinayətlərinə, ədalət mühakiməsi əleyhinə olan cinayətlərə, idarəçilik qaydaları əleyhinə olan cinayətlərə və hərbi cinayətlərə bölürdü.

Cinayət Məcəlləsində ağır cinayətlərə görə 15 ilədək azadlıqdan məhrumetmə və ya ölüm cəzası vermək nəzərdə tutulurdu. Vətənə xəyanət, casusluq, banditizm, terror aktı, ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə ağır cinayətlərə aid edilirdi.

Böyük ictimai təhlükə törətməyən cinayətlərə görə cinayət məsuliyyətinin yüngülləşdirilməsi halları Cinayət Məcəlləsində inkişaf etdirilirdi. Belə ki, bəzi hallarda cinayət cəzasının inzibati və ictimai

təsir tədbirləri ilə əvəz olunması nəzərdə tutulurdu. Məhkəmə orqanlarına işin vəziyyətini, təqsirkarın şəxsiyyətini və ictimai təşkilatların, əmək kollektivlərinin vəsatətlərini nəzərə almaqla onun şərti məhkum olunması haqqında qərar çıxarmaq və şərti məhkum olunmuşu yenidən tərbiyə olunmaq üçün həmin təşkilatlara və ya kollektivlərə zaminliyə vermək hüququ verilirdi. Cinayət Məcəlləsinin 47-ci maddəsinə görə, cinayət etmiş şəxs və törədilmiş cinayət böyük ictimai təhlükə törətmirsə, həmin şəxs cinayət məsuliyyətindən azad edilib yenidən tərbiyə və islah olunması üçün vəsatət vermiş ictimai təşkilat və əmək kollektivinin zaminliyinə verilir. 1963-cü ildən rayon (şəhər) məhkəmələri, milis və prokurorluq orqanları bəzi azəhəmiyyətli cinayətlər üzrə işləri baxılmaq üçün yoldaşlıq məhkəmələrinə həvalə etmək hüququ aldılar.

Digər tərəfdən qatı cinayətkarlıqla mübarizə gücləndirilirdi. Xüsusilə böyük həcmdə dövlət əmlakını və ya ictimai əmlakı oğurlamağa görə, təhlükəli peşəkar cinayətkarlığa və ağır cinayətlərə görə məhkum olunmuş, azadlıqdan məhrumetmə yerlərində islah olunmaq üçün cəza çəkən məhbusları qorxuya salan və ya onun müdiriyyətinə hücum edən şəxslərə ölüm cəzası - güllələnmə tətbiq etmək nəzərdə tutulurdu. 1962-ci ildən bir qrup şəxs və ya təhlükəli peşəkar cinayətkar tərəfindən edilmiş zorlama, habelə ağır nəticələrə səbəb olmuş zorlama, eləcə də həddi-büluğa çatmamışların zorlanması, vəziyyəti xüsusilə ağırlaşdıran şəraitdə vəzifəli şəxsin rüşvət alması, milis işçisinin və xalq drujinaçısının, ictimai asayişin mühafizəsi üzrə xidməti fəaliyyətində onların həyatına qəsd etməyə görə ölüm cəzası tətbiq edilə bilərdi. Cinayət hüququ sistemində ölümlə cəzalandırılan əməllərin sayı Cinayət Məcəlləsində daha da artırılırdı.

Cinayət Məcəlləsində əmlakın müsadirə edilməsilə sürgün etmə cəzası da tətbiq edilirdi.

Cinayət qanunvericiliyində bəzi cinayət əməllərinə görə cəlbetmə müddətinin daimiliyi təsbit olunurdu. Belə ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1965-ci il 4 mart tarixli fərmanında göstərilirdi ki, nə vaxt edilməsindən asılı olmayaraq sülh və insanlıq əleyhinə cinayətlər etməkdə təqsirkar olan şəxslər cəzalandırılmalıdır. Müddət

daimiliyi prinsipi, xüsusilə İkinci Dünya müharibəsi illərində faşistlərə fəal surətdə kömək etmiş şəxslərin müəyyən edilərək cəzalandırılmasını nəzərdə tuturdu.

Mülki-prosessual hüquq. Nəzərdən keçirilən dövrdə Azərbaycan SSR-in yeni Mülki-Prosessual Məcəlləsi 1965-ci ildən qüvvəyə minir. Mülki işlərə məhkəmə tərəfindən baxılması və həll edilməsi, həmçinin məhkəmənin və digər orqanların qərarlarının icrası qaydası mülki-prosessual hüquq normalarında tənzimlənirdi. Mülki proses bir neçə mərhələdən ibarətdir: mülki işə başlama, işi məhkəmədə baxmağa hazırlama, məhkəmə baxışı, kassasiya instansiyasında icraat, yeni açılmış hallara görə məhkəmə qətnamələrinə yenidən baxılması, icra icraatı. Ailə, əmək, kolxoz və digər münasibətlərdən əmələ gələn mübahisələrə də mülki mühakimə icraatı qaydasında baxılır. İnzibati hüquq münasibətlərində məhkəməyə aid olan işlər mülki mühakimənin ümumi qaydaları ilə həll edilir.

Mülki prosesdə aşağıdakılar hüquq münasibətləri iştirakçılarıdır: a) birinci instansiya məhkəməsi, kassasiya və nəzarət instansiyaları məhkəmələri və məhkəmə icraçıları; b) işdə iştirak edən tərəflər, prokuror, qanunla başqalarının hüquqlarını müdafiə edən dövlət orqanları, həmkarlar ittifaqları, dövlət idarələri, müəssisələr, kolxozlar və digər kooperativ təşkilatları və ictimai təşkilatlar, ayrı-ayrı vətəndaşlar, inzibati hüquq münasibətlərindən əmələ gələn işlərdə və xüsusi icraatlı işlərdə ərizəçilər və maraqlı şəxslər; c) ədalət mühakiməsini həyata keçirməyə kömək edən şəxslər - şahidlər, ekspertlər, məhkəmə tərcüməçiləri, məhkəmə qərarları icra edildikdə əmlakı saxlayanlar və digər şəxslər.

Məhkəmə prosesi xalq iclasçılarının iştirakı ilə kollegial aparılırdı. Ədalət mühakiməsi üzvləri hakimlər və xalq iclasçıları seçilirdilər. Onların müstəqilliyi və ancaq qanuna tabe olması, mühakimə icraatının açıqlığı, mühakimənin milli dildə aparılması, vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi Mülki-Prosessual Məcəllədə təsbit edilirdi.

Cinayət-prosessual hüquq. Cinayət Prosessual Məcəllə cinayət işləri üzrə icraatın qaydasını və məzmununu və bu zaman əmələ gə-

lən hüquqi münasibətləri nizama salan sistemləşdirilmiş normalar məcmusudur. Azərbaycan SSR-in Cinayət-Prosessual Məcəlləsi 1961-ci ildə qəbul edilmişdi.

Cinayət - prosessual hüquq normaları cinayət işinin başlanması, ibtidai istintaq, məhkəmə baxışı ilə bağlı fəaliyyəti, həmin sahənin qaydasını, mahiyyətini və bu zaman əmələ gələn hüquq münasibətlərini nizamlayır. Cinayət-prosessual hüququn ümumi hissəsinə bütövlükdə cinayət işləri üzrə icraatın qaydası və mahiyyətini müəyyən edən normaların məcmusu: onun vəzifələri, icraatı, icra edən və orada iştirak edən orqanların və şəxslərin hüquq və vəzifələri, sübutetmə haqqında əsas müddəalar daxil idi. Xüsusi hissədə isə iş üzrə ayrı-ayrı icraat mərhələlərini nizama salan normalar məcmusu göstərilirdi. Cinayət prosesində müttəhim, onun müdafiəçisi, zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh və onların qanuni nümayəndələri iştirak edirdilər. Tərəflər və iştirakçıların hamısı bərabər hüquqlarla məhkəmə baxışında iştirak edə bilər və məhkəmə hökmündən şikayət edə bilərdilər.

Cinayət-prosessual hüququna təhqiqat orqanlarının, istintaq orqanlarının, prokurorun, müdafiəçinin, birinci instansiya, kassasiya instansiyası və nəzarət instansiyası məhkəmələrinin vəzifələri və səlahiyyətini, vətəndaşların, dövlət təşkilatlarının və ictimaiyyətin nümayəndələrinin – cinayət prosesi iştirakçılarının və vətəndaşların hüquq və vəzifələrini, sübutetmə predmetini və üsullarını, prosessual mərhələlərin və onları təşkil edən prosessual hərəkətlərin ardıcıllığını, qarşılıqlı əlaqəsini, vəzifələrini, qaydasını və mahiyyətini, prosessual qərarların çıxarılması qaydasını, icraat qaydasına əməl edilməsinin xüsusi təminatlarını və onun pozulmasına görə sanksiyaları tənzim edən normalar daxil idi.

Cinayət-prosessual hüquq normalarına ciddi əməl edilməsi vətəndaşların konstitusiyada təsbit edilmiş müdafiə hüququnun təmin edilməsində zəruri şərtlərdəndir.

XVI FƏSİL

Azərbaycanın dövlət və hüququ (1985-1991-ci illər)

Moskvanın "yenidənqurma" siyasəti və onun Azərbaycan üçün ağır nəticələri. 1985-ci ildən sovet rəhbərliyinə gətirilmiş M.S. Qorbaçov SSRİ-ni mövcud iqtisadi-siyasi böhrandan qurtarmaq üçün 1985-ci ilin aprelində "yenidənqurma" siyasətini elan etdi. "Yenidənqurma" siyasətini möhkəmləndirməkdən ötrü mərkəz demokratik islahatların aparılması, köhnə kommunist ideologiyasından ehkam kimi istifadə etməkdən imtina etmək və yeni yollar axtarmaq zərurəti qarşısında idi. Lakin böhran getdikcə dərinləşir və müttəfiq respublikalarda milli özünüdərk prosesi güclənirdi. Sonrakı illərdə kommunist partiyasının rəhbər və istiqamətverici rolunu təsbit edən sovet konstitusiyasının 6-cı maddəsində edilən dəyişiklik, prezidentlik institutunun yaradılması və digər tədbirlər imperiyanın süqut etməsinin qarşısını ala bilmədi.

1987-ci ilin yanvarında Sov. İKP MK Plenumunda M. Qorbaçov aşkarlıq xəttinin qəbul edilməsini elan etdi. O, 1988-ci ildə SSRİ Ali Sovetinin sədri vəzifəsini ələ keçirdikdən sonra Kommunist Partiyasının amirliyinə qarşı mübarizəyə başlayaraq hakim partiyanın idarə etdiyi rejimi labüd süqutdan xilas etməyə hazırlıq görürdü. 1989-cu ildə ilk dəfə olaraq çoxmandatlı sistem üzrə xalq deputatları sovetinə seçkilər keçirildi.

Moskva müxtəlif manevrlər edir, "yenidənqurma", "demokratiya" "aşkarlıq" adları ilə xalqı diskusiyaya çəkir və vaxt qazanmağa çalışırdı. M. Qorbaçovun ətrafına yığılmış ermənilər dərhal fürsətdən istifadə edərək öz çirkin, millətçi siyasətlərindən müsəlman türk dünyasına qarşı, xüsusilə də Azərbaycan SSR-in ərazi bütövlüyünə qarşı yönəlmiş niyyətlərini gerçəkləşdirməyə başladılar. Azərbaycan xalqı "yenidənqurma" siyasətindən həm iqtisadi, həm də siyasi baxımdan

ən çox zərər çəkən müttəfiq respublikalardan biri idi. Yerli rəhbərliyin Moskvadan göndərilən sifarişlərlə işləmək metodu onsuz da gərgin olan vəziyyəti bir az da çətinləşdirirdi. Xüsusilə də 1987-ci ilin noyabrında A. Aqambekyanın Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsinin məqsədəuyğunluğunu bildirməsi "Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan daşnak ermənilərı hərəkətə gətirdi. Yerevan və Xankəndində başlayan mitinqlərdən sonra azərbaycanlıların öz dədə-baba torpaqlarından qovulmasına və "türksüz Ermənistan" siyasətinin reallaşdırılmasına başlanıldı. Azərbaycanlıların deportasiyası kütləvi terror və qətllərlə davam etdirilirdi.

1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin sessiyası Azərbaycan SSR Ali Sovetinə DQMV-nin statusuna baxılması haqqında müraciət etdi. Moskva riyakarlıq edir, əslində isə özünün xeyir-duası ilə başlayan separatizmi dəstəkləyir, "süni" olaraq yaratdığı problemi "hər iki xalqın mənafeyinə" uyğun surətdə həll etməyə çalışırdı. Hər iki müttəfiq respublika rəhbərliyinin dəyişdirilməsi vəziyyətdən çıxmağa kömək etmədi. Əksinə 1988-ci il iyunun 21-də DQMV Xalq Deputatları Sovetinin sessiyası vilayətin Ermənistan SSR-ə verilməsini müzakirə etdi. 1988-ci ilin dekabrında Ermənistan SSR-də baş vermiş zəlzələ zamanı ermənilərə köməyə gedən təyyarə müəmmalı olaraq qəzaya düşdü. Həmin vaxtdan başlayaraq maraqlı qüvvələr ermənilərı güclü maliyyə və hərbi sursatla təchiz etməyə başladılar.

Moskva müttəfiq respublika kimi Azərbaycan SSR-in konstitusion hüquqlarını pozaraq 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını qəbul etdi. A. Volskinin başçılığı ilə mərkəzə tabe etdirilən "Xüsusi İdarə Komitəsi" (XİK) təşkil edildi. XİK-in köməyi ilə ermənilər silahlandırıldığı halda azərbaycanlıların öv tüfəngləri müsadirə edilirdi. Bakı rəhbərliyi DQVM üzərində nəzarəti tamamilə itirmək təklükəsilə qarşılaşmışdı. SSRİ Nazirlər Sovetinin 1989-cu il 6 may tarixli qərarı ilə DQMV-dəki idarə və müəssisələrin Azərbaycan SSR-in tabeliyindən çıxarılaraq mərkəzə verilməsi bu prosesi daha da sürətləndirdi. XİK dövründə

təkcə Xankəndindən 14 min nəfər azərbaycanlı çıxarıldı. 1987-88-ci illərdən təşkilatlanan milli-demokratik qüvvələrin səyi və təzyiqi nəticəsində 1989-cu il noyabrın 28-də Xüsusi İdarə Komitəsi ləğv edilir və Azərbaycan SSR-in muxtar vilayət üzərində alınmış hüquqları bərpa edilir. DQMV-nin idarə olunması SSRİ Ali Sovetinin xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR-in Təşkilat Komitəsinə (TK) tapşırıldı. 1989-cu il dekabrın 1-də Ermənistanın faktiki ərazi iddiaları hüquqi müstəviyə keçirildi və onun Ali Soveti "Ermənistan SSR-ini və Dağlıq Qarabağı birləşdirmək haqqında" qərar qəbul etdi. DQMV rəhbərliyinin təşəbbüsüylə muxtar vilayətin bütün idarə və müəssisələri Ermənistanın tabeçiliyinə verildi.

1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti DQMV və ona qonşu olan rayonlarda fövqəladə vəziyyət elan etdi. Cənubi Qafqazda nəzarəti itirməklə qarşılaşan Moskva 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya qoşun yeritdi və Azərbaycan xalqını sovet hərbi maşınının gücü ilə susdurmağa çalışdı. Bakıda və digər rayonlarda 131 nəfər qətlə yetirildi və 100-lərlə insan yaralandı.

Yalnız Bakıdakı qanlı hadisələrdən sonra Moskva DQMV-də ermənilərin tərk-silah edilməsinə başladı. 1990-cı il mayın 22-də SSRİ Nazirlər Soveti muxtar vilayətin iqtisadiyyatını idarə etmək hüququnu Azərbaycan SSR-ə qaytardı.

1990-cı il mayın 19-da Azərbaycan SSR Ali Sovetinin sessiyası respublikada **ilk prezidentlik institutu** təsis etdi və A. Mütəllibovu bu vəzifəyə seçdi. Həmin ilin sentyabrında Azərbaycan SSR Ali Sovetinə keçirilən seçkilərdə 360 deputat mandatından 30-nu demokratik qüvvələr əldə etdilər. Vətənə qayıdan H. Əliyev Naxçıvandan bitərəf kimi Ali Sovetə seçildi. H. Əliyevin də dəstəklədiyi bir sıra çox vacib dövlət atributları ilk dəfə olaraq Naxçıvan Muxar Respublikasının 1990-cı il payız sessiyasında qəbul edildi. 1991-ci il martın 17-də SSRİ-nin saxlanması ilə əlaqədar keçirilən referendumda isə Naxçavan Respublikası ümumiyyətlə iştirak etmədi.

1991-ci il sentyabrın 8-nə təyin edilmiş ümumxalq səsverməsilə keçirilən prezident seçkilərində A. Mütəllibov demək olar ki, alternativsiz seçildi. Azərbaycandakı prezident seçkiləri ərəfəsində-av-

qustun 19-da Moskva rəhbərliyindəki mühafizəkar qüvvələr Dövlət Fövqəladə Vəziyyət Komitəsi (DFVK) təşkil edərək dövlət çevrilişi etməyə cəhd göstərirdilər. Lakin Rusiyanın demokratik qüvvələri çevrilişin qarşısını ala bildilər.

Moskvadakı dövlət çevirilişi yatırıldığı zaman xalqın təkidi ilə Azərbaycan SSR **1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Bəyannamə"** qəbul etdi. Bəyannamədə göstərilirdi ki, Azərbaycan Respublikası Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərinini rəhbər tutaraq və onun iradəsini ifadə edərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir.

Demokratik hərəkatın və xalqın istəyinə müvafiq olaraq oktyabrın 3-də Azərbaycan Respublikası Ali Soveti buraxılır və iqtidarın və müxalifətin bərabər əsasda daxil olduğu 50 nəfər deputatdan ibarət **"Milli Şura"** təsis edilir. Oktyabrın 30-da isə "Milli Şura"nın səlahiyyətləri haqqında Ali Sovetin qanunu təsdiq edildi.

Azərbaycan dövlət müstəqilliyinin konstitusion əsaslarla təsbit olunması zərurəti gündəlikdə duran ən vacib məsələlərdən idi. Azərbaycan xalqının dövlət müstəqilliyi uğrunda mübarizəsi **1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın** qəbul edilməsilə nəticələndi.

1991-ci il dekabrın 8-də Brestdə (Belorusiya) Rusiya Federasiyası, Ukrayna və Belarus rəhbərlərinin iştirakı ilə "Müstəqil Dövlətlər Birliyinin" (MDB) yaradılması SSRİ -nin beynəlxalq hüququn subyekti kimi varlığına son qoydu.

Dekabrın 29-da Azərbaycan Respublikasında ümumxalq səsvermə silə 1991-ci il 18 oktyabr tarixli Konstitusiya Aktı təsdiq edildi.

Dövlət quruculuğunda dəyişikliklər (1989-1991-ci il). SSRİ məkanında baş verən proseslər, Ermənistanın Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətini özünə birləşdirmək cəhdi, Moskvanın ermənipərəst siyasət aparması Azərbaycan xalqını və demokratik qüvvələri mühüm əhəmiyyətli tədbirlər görməyə vadar edirdi. Azərbaycan SSR Ali Sovetinin sessiyası **1989-cu il sentyabrın 23-də**

"Azərbaycan Sovet Sosialist Respublikasının Suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanununu" qəbul etdi. Qanun Moskva ilə respublika arasındakı səlahiyyətlərin yeni həddini müəyyən edirdi. Qanunda bütövlükdə SSR İttifaqının könüllü surətdə verilmiş səlahiyyətlər istisna edilməklə, Azərbaycan SSR digər məsələlər üzrə, o cümlədən inzibati-ərazi dəyişikliyi etmək, referendum ilə ifadə edilmiş razılıq olmadan onun ərazisinin dəyişdirilməməsi (ittifaq tərəfindən) prinsipi, ümumxalq səsverməsi ilə SSRİ tərkibindən sərbəst çıxma, respublikanın müstəqilliyinin təmin edilməsi, dövlət büdcəsini işləyib hazırlamaq, daxili işlər və dövlət təhlükəsizliyi orqanlarına rəhbərlik etmək və s. sahələrdə tam müstəqil idi.

Azərbaycan SSR Konstitusiyasının 6-cı maddəsinin yeni redaksiyasında göstərilirdi ki, Azərbaycan Kommunist Partiyası və digər siyasi partiyalar, həmçinin ictimai təşkilatlar dövlətin siyasətinin hazırlanmasında, dövlət işlərinin və ictimai işlərin idarə olunmasında iştirak edirlər. Çoxpartiyalı sistemə keçidin əsasları Konstitusiyada ilk dəfə olaraq təsbit edilirdi.

Dövlət və ictimai quruculuq əleyhinə olan partiya, təşkilat və hərəkatların fəaliyyətinə dair Konstitusiyanın 7-ci maddəsində göstərilirdi ki, Azərbaycan SSR-in konstitusiya quruluşunu və bütövlüyünü zorla dəyişdirmək, onun təhlükəsizliyini sarsıtmaq, sosial, milli və dini ədavəti qızışdıran təşkilatların fəaliyyəti yolverilməzdir.

Azərbaycan SSR-in siyasi və iqtisadi suverenliyi haqqında 23 sentyabr 1989-cu il Konstitusiya Qanunu 1978-ci il Azərbaycan SSR Konstitusiyasının bir sıra maddələrinə dəyişiklik edirdi. Konstitusiyanın əvvəlki redaksiyasından fərqli olaraq 10-cu maddənin yeni redaksiyasında torpaq, yerin təki, sular, Xəzər dənizi sahilyanı şelfi və digər təbii ehtiyatlar Azərbaycan SSR xalqının milli sərvəti və Azərbaycan SSR-in dövlət mülkiyyəti hesab edilirdi. Təbii ehtiyatlar üzərində sərəncam vermək Azərbaycan SSR-in müstəsna hüququdur.

Naxçıvan MSSR, Dağlıq Qarabağ Muxtar Vilayəti mülkiyyətindən və inzibati-ərazi qurumları mülkiyyətindən ibarət olan Azərbaycan SSR mülkiyyəti Azərbaycan SSR-in dövlət mülkiyyəti kimi müəyyən edilirdi.

Konstitusiyanın VII fəsli "Azərbaycan SSR SSRİ-nin tərkibində müttəfiq respublikadır" ifadəsi ilə başlayır. Bu fəslin 68-ci maddəsinin yeni redaksiyasında göstərilirdi ki, Azərbaycan SSR suveren sosialist dövlətidir. Azərbaycan SSR-in suverenliyi Azərbaycan SSR tərəfindən öz ərazisinin hər yerində respublikanın bütün xalqının xeyrinə ali qanunvericilik, icra və məhkəmə fəaliyyətinin müstəqil həyata keçirilməsində də ifadə olunur. Moskvanın Dağlıq Qarabağı tədricən Ermənistana birləşdirmək istəyinin qarşısını almaqdan ötrü konstitusiyaya çox mühüm dəyişiklik edilir: Azərbaycan SSR-in konstitusiya-hüquqi statusu Azərbaycan SSR Ali Sovetinin razılığı olmadan dəyişdirilə bilməzdi. İttifaqla qarşılıqlı münasibətlər Azərbaycan SSR-in suverenliyinə və SSRİ-nin suverenliyinə əsaslanan müqavilə üzrə qurulur. Azərbaycan SSR-in səlahiyyəti yalnız Azərbaycan SSR-in könüllü surətdə SSR İttifaqına verdiyi məsələlərdə məhdudlaşırdı.

Yeni redaksiyanın 69-cu maddəsinə əsasən Azərbaycan SSR-in SSRİ-dən azad surətdə çıxmaq hüququ xalq səsverməsi (referendum) yolu ilə həyata keçirilə bilərdi. Bunun üçün Azərbaycan SSR vətəndaşlarının onda bir hissəsinin topladığı imza kifayət edirdi.

70-ci maddəyə əsasən Azərbaycan SSR-in suverenliyi Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR və DQMV də daxil olmaqla respublikanın bütün ərazisinə şamil edilirdi. Azərbaycan SSR-in ərazisi bütün əhalinin iştirakı ilə keçirilən xalq səsverməsi (referendum) ilə ifadə edilmiş razılıq olmadan dəyişdirilə bilməzdi.

Konstitusiyanın yeni redaksiyasının 72-ci maddəsinin 3-cü bəndində əvvəlki mətnindən fərli olaraq, muxtar respublikaların və muxtar vilayətlərin təşkil edilməsi və onların ləğv edilməsi Azərbaycan SSR-in ayrılmaz hüququ kimi təsbit edilirdi və qurumların təşkili və ya ləğvi SSRİ Ali Sovetinin təsdiqinə verilmirdi. Həmin maddənin yeni 13-cü bəndi Azərbaycan SSR-in ali hakimiyyət orqanlarına daxili işlər və dövlət təhlükəsizliyi orqanlarına rəhbərliyi təmin etməyi həvalə edirdi.

Azərbaycan SSR xalq deputatları Sovetlərinə seçkilərdən bəhs edən 86-cı maddədə seçkilərin keçirilməsi vaxtı, onların səlahiyyətlərinin qurtarmasına əvvəlki redaksiyadakı kimi ən azı iki ay deyil,

üç ay qalana qədər artırılırdı. 87-ci maddədə əhəmiyyətli dəyişiklik edildi: hakimlər istisna olmaqla xalq deputatları Sovetləri tərəfindən seçilən və ya təyin edilən vəzifəli şəxslər öz vəzifələrində dalbadal iki il müddətindən çox qala bilməzlər.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasından fərqli olaraq, yeni redaksiyada ilk dəfə olaraq xalq deputatları seçkilərini çoxmandatlı seçki dairələri üzrə keçirmək təsbit edilirdi (91-ci maddə). Aktiv seçki senzi 18 yaş və passiv seçki senzi 21 yaş müəyyən olunmuşdu. Lakin 18 yaşa çatmış vətəndaşlar yerli xalq deputatları sovetlərinə seçilə biərdilər. Deputatlar üçün ikidən çox Sovetin xalq deputatı olmaq məhdudiyyəti təsbit edilirdi. 92-ci maddədə təqsirsizlik prezumpsiyasının tələblərindən irəli gələn prinsiplərə əməl edilmirdi: belə ki, məhkəmənin ittihamedici hökmü olmadan, lakin qəti imkan tədbiri - həbsdə saxlama tədbiri seçilmiş şəxslər seçkilərdə iştirak etəmkdən məhrum edilirdilər. Xalq deputatlığına namizədlər göstərmək hüququnda yeni qayda müəyyən edilirdi. Bu hüquq əmək kollektivlərinə, ictimai təşkilatlara, orta ixtisas və ali təhsil müəssisələrinin kollektivlərinə, yaşayış yerlərində seçicilərin və qoşun hissələrində hərbi qulluqçuların yığıncaqlarına məxsusdur.

Konstitusiyanın yeni redaksiyasının 13-cü fəslinin 104-cü maddəsində Azərbaycan SSR-in ali dövlət hakimiyyəti orqanı olan Azərbaycan SSR Ali Sovetinin səlahiyyətləri müəyyən edilirdi. Azərbaycan SSR Ali Sovetinin yeni müstəsna səlahiyyətlərinə: Azərbaycan SSR konstitusiyasının qəbul olunması və onda dəyişiklik edilməsi; muxtar respublika və vilayətlərin təşkili və onların ləğv edilməsi; Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərinin və rayon bölgüsünün müəyyən edilməsi və dəyişdirilməsi; Azərbaycan SSR-in digər müttəfiq respublikalarla sərhədlərinin dəyişdirilməsi, Azərbaycan SSR ərazisinin dəyişməsinə səbəb olan hallarda SSRİ dövlət sərhədlərinin dəyişdirilməsi məsələlərinə baxılması; Azərbaycan SSR prezidentinin təqdimatı üzrə Azərbaycan SSR prokuroru vəzifəsinə namizədlik haqqında və Azərbaycan SSR prokurorunun vəzifədən azad edilməsi haqqında məsələyə baxılması; SSRİ xalq deputatları Qurultayının, SSRİ Ali Sovetinin, SSRİ prezidentinin qəbul etdiyi

aktlar SSRİ-nin səlahiyyəti hüdudlarından kənara çıxdıqda, Azərbaycan SSR-in suveren hüquqlarını pozduqda bunların qüvvəsinin dayandırılması və bunları ləğv etmək haqqında SSRİ xalq deputatları Qurultayı, SSRİ Ali Soveti, SSRİ prezidenti qarşısında məsələ qoyulması; SSRİ Nazirlər Sovetinin qərarları və sərəncamları SSR İttifaqının səlahiyyəti hüdudlarından kənara çıxdıqda, Azərbaycan SSR-in suveren hüquqlarını pozduqda bunların qüvvəsinin dayandırılması və bunları ləğv etmək məsələsinin qoyulması, habelə SSR nazirliklərinin, dövlət komitələrinin və baş idarələrinin aktları SSRİ və Azərbaycan SSR qanunlarına zidd olduqda onların qüvvəsinin dayandırılması; Azərbaycan SSR-in suverenliyi və ərazi bütövlüyü gözlənilməklə Azərbaycan SSR ərazisində fövqəladə vəziyyət elan olunması və prezident idarə üsulunun tətbiqi barəsində SSRİ prezidentinin təklifinə baxılması aid edilirdi.

Azərbaycan SSR Ali Soveti deputatlarının ümumi sayı 450 nəfərdən 360 nəfər xalq deputatına qədər azaldılırdı.

Azərbaycan SSR Ali Sovetinin deputatları iki səlahiyyət müddətindən çox seçilə bilməzdi (114-cü maddə).

Yeni redaksiyada Azərbaycan SSR-in Konstitusiya Nəzarəti Komitəsinin (maddlə 119-1) yaradılması və onun səlahiyyətləri müəyyən edilirdi. Azərbaycan SSR Konstitusiya Nəzarəti Komitəsi Azərbaycan SSR qanunlarının və digər aktların Azərbaycan SSR Ali Sovetinin müzakirəsinə verilmiş layihələrinin Azərbaycan SSR Konstitusiyasına uyğun olub-olmaması haqqında rəy təqdim edir. Ali qanunverici və icraedici orqanların, deputatların beşdə bir hissəsinin təklifi ilə qanunların və digər aktların konstitusiyaya uyğun olub-olmamasını müəyyən edir və rəylər təqdim edirdi.

Konstitusiyada qanunvericilik təşəbbüsü hüququ ənənəvi dövlət və hökumət orqanları, ictimai təşkilatlarla yanaşı, Azərbaycan SSR Elmlər Akademiyasına da verilirdi.

1990-cı il mayın 18-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Azərbaycan SSR prezidenti vəzifəsi təsis edildi. İki fəsildən və 18 maddədən ibarət **prezident seçkiləri haqqında qanun 1991-ci il iyun 26-da** qəbul edildi. Qanuna görə 65 yaş yuxarı, 35 yaş isə aşa-

ğı həddolmaqla yaş senzi müəyyən edilirdi. Eyni şəxs dalbadal iki müddətdən çox Azərbaycan SSR prezidenti ola bilməzdi. 15-ci maddəyə müvafiq olaraq seçkidə iştirak etmiş seçicilərin yarısından çoxunun səsini toplamış namizəd prezident seçilirdi. Azərbaycan Respublikasının yeni prezidentinin növbəti seçkiləri vəzifədə olan prezidentin səlahiyyətlərinin qurtarması vaxtına 90 gün qalmış təyin edilirdi. Prezident vəzifədən götürüldükdə və ya başqa səbəbə görə öz vəzifələrini icra edə bilmədikdə onun səlahiyyətləri Ali Sovetin sədrinə keçir və növbədənkənar seçkilər təyin edilirdi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı Azərbaycanda **III Respublikanın** mövcudluğunu rəsmiləşdirdi.Konstitusiya Aktının qəbul edilməsi faktiki olaraq köhnə konstitusiyanın qüvvədən düşməsi idi və yeni Konstitusiyanın hazırlanması üçün qanunvericilik bazası yaradırdı. 6 bölmədən, 32 maddədən ibarət Konstitusiya Aktında göstərilirdi ki, Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsini rəhbər tutaraq Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir.

Konstitusiya Aktında 1920-ci ilin aprelində RSFSR-in XI Qızıl ordusunun ADR-i devirməsi və müstəqil Azərbaycanı işğal etməsi faktı bildirilir və yeni müstəqil Azərbaycan Respublikası 1918-1920-ci illər mövcud olmuş Azərbaycan Demokratik Respublikasının varisi elan edilirdi. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsi imzalandığı andan etibarsız sayılırdı.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyası bu Konstitusiya aktının müddəalarına zidd gəlməyən yerlərdə qüvvədə qalırdı. Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə və s. zidd olmayan digər qanunvericilik aktlarının hamısı Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayırdı.

SSRİ-nin Azərbaycan Respublikası ərazisindəki bütün daşınar və daşınmaz mülkiyyəti Azərbaycan Respublikasının dövlət mülkiyyəti elan edildi.

Azərbaycan Respublikasının dövlət başçısı prezidentdir.

Konstitusiya Aktına görə qanunverici hakimiyyət Azərbaycan Respublikasının parlamentinə, ali icraedici hakimiyyət Azərbaycan Respublikası prezidentinə və məhkəmə hakimiyyəti müstəqil məhkəmələrə - Konstitusiya Məhkəməsinə, Ali Məhkəməyə və Ali Arbitraj Məhkəməsinə məxsusdur.

Konstitusiya Aktında mülkiyyətin üç əsas forması - dövlət mükiyyəti, xüsusi mülkiyyət və kollektiv mülkiyyət formaları təsbit edilirdi.

Siyasi münasibətlərdə demokratiya, aşkarlıq, pürializm və s. prinsiplər təsbit edilirdi.

1991-ci il oktyabrın 30-da Azərbaycan Respublikası Milli Məclisinin yaradılması haqqında Konstitusiya Qanunu qəbul edildi. Milli Məclisin tərkibi 50 nəfər deputatdan ibarət idi. Keçid dövründə Azərbaycan Respublikası Ali Sovetinin səlahiyyətləri Azərbaycan Respublikası Milli Məclisinə verilirdi. Milli Məclisin işinə deputat olmayan, lakin müxtəlif bilik və sahələr üzrə ekspert və mütəxəssislər cəlb edilirdi. Ali Sovetin Milli Məclisə daxil edilməyən deputatlarının həlledici səsləri alınır və onlara sessiyalarda məşvərətçi səslə iştirak etmək hüququ verilirdi.

1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Soveti **"Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv edlməsi haqqında"** Azərbaycan Respublikası qanununu qəbul etdi. Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsinin üçüncü hissəsi, 104-cü maddəsinin 2-ci bəndi, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 4-cü maddəsi əsas tutularaq Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayəti milli ərazi qurucu kimi ləğv edilirdi. Azərbaycan Respublikasında ermənilərin kiçik bir qrupu üçün milli-ərazi qurumunun saxlanılması, Ermənistan Respublikası ərazisindən isə azərbaycanlı əhalinin zorla köçürülməsindən sonra və hazırda orada bir nəfər də azərbaycanlının qalmadığı şəraitdə, digər tərəfdən Yu-

xarı Qarabağda azərbaycanlı əhaliyə qarşı zorakılığın artması, geniş miqyaslı terrorçuluq əməlləri törədilməsi, Ermənistandan göndərilən yaraqlı dəstələrin cinayətkarlıq hərəkətləri nəzərə alınaraq Azərbaycan Respublikası qanunlarına əməl edilməsi, Qarabağın dağlıq hissəsində Azərbaycan Respublikasının suveren hüquqlarını bərpa etmək, yaradılmış silahlı dəstələri tərki-silah etmək, Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarını, azadlığını və ləyaqətini qorumaq, millətlərarası münasibətləri nizama salmaq zərurəti əsas götürülərək və Azərbaycan xalqının iradəsi rəhbər tutularaq Dağlıq Qarabağın muxtariyyət statusu ləğv edilirdi.

XVII FƏSİL

Müstəqil Azərbaycan Respublikasının (III Respublika) dövlət və hüququ (1991-2003-cü illər)

Müstəqil Azərbaycanda III Respublikanın yaranması ictimai quruluş, dövlət idarəçilik formasının dəyişdirilməsi yeni sosial təbəqələrin formalaşması, hüquqi demokratik, dünyəvi dövlətin təşkil edilməsi, sosial-iqtisadi və hüquq islahatların aparılması zərurəti ilə şərtləşirdi. Say etibarı ilə III dəfə Respublika elan edilən Azərbaycanda aparılacaq islahatlar dövlət müstəqilliyinin möhkəmləndirilməsinə və onun müdafiəsinə yönəlmiş çox vacib idi. Lakin Müstəqil Azərbaycan Respublikasının elan edilməsindən sonra ölkə bir çox çətinliklərlə qarşılaşırdı. Ermənistanın işğalçılıq siyasəti və Moskvanın ermənipərəst mövqe tutması vəziyyəti daha da ağırlaşdırırdı. Bununla yanaşı müstəqil respublika tədricən beynəlxalq aləmin subyekti kimi tanınmağa cəhd göstərirdi. Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlət Türkiyə Respublikası idi. 1992-ci ilin martında Azərbaycan Respublikası BMT-yə üzv qəbul edildi.

1992-ci il fevralın 26-da ermənilər XX əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı törətdilər. Rusiyaya məxsus 366-cı atıcı alayın köməyilə həyata keçirilən Xocalı soyqırımında 613 nəfər öldürüldü, 478 nəfər yaralandı. 1275 nəfər əsir götürüldü. Yaranmış şəraitdə martın 6-da respublika prezidenti A. Mütəllibov istefa verməyə məcbur oldu.

1992-ci il iyunun 7-də yeni prezident seçkilərində AXC-nin sədri Əbülfəz Elçibəy prezident seçildi. 1992-ci ilin yayında yeni rəhbərlik Qarabağda ərazi bütövlüyünün bərpasında müəyyən müvəffəqiyyətlər əldə etsə də, 1993-cü ilin əvvəllərində uğursuzluqlar mərhə-

ləsi başlandı. Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı altı rayon işğala məruz qaldı. Xalq Cəbhəsi hakimiyyəti Heydər Əliyevi xalqın tələbi ilə Bakıya dəvət etdi. İyunun 15-də H.Əliyev Ali Sovetin sədri seçildi. 1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi prezident seçdi.

Yenidən respublika rəhbərliyinə qayıtmış H. Əliyev dövlətçiliyin möhkəmləndirilməsi üçün çox mühüm tədbirlər həyata keçirdi. 1994-cü il sentyabrın 20-də Azərbaycanın iqtisadi dirçəlişi üçün çox vacib olan "Əsrin müqaviləsi" imzalandı. 1995-ci il noyabrın 12 -də ümumxalq səsverməsi ilə müstəqil Respublikanın ilk Konstitusiyası qəbul edildi. Həmin vaxt Azərbaycan Respublikası Ali Sovetinə seçkilər keçirildi.

1998-ci il oktyabrın 11-də alternativ əsasda keçirilən seçkilərdə Heydər Əliyev qələbə çalaraq yenidən 5 il müddətinə Azərbaycan Respublikasının prezidenti seçildi. Prezidentin rəhbərliyi ilə hüquqi, iqtisadi və demokratik islahatlar dönmədən davam etdirilirdi. 2000-ci il noyabrın 5-də çoxpartiyalı sistem əsasında Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirildi. Xarici müşahidəçilərin iştirakı ilə keçirilən seçkilərdə hakim Yeni Azərbaycan Partiyası qələbə qazandı.

Azərbaycan Respublikası 2001-ci il yanvar ayının 25-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) tamhüquqlu üzvülüyünə qəbul edildi. Həmin gündən Azərbaycanın üçrəngli bayrağı ATƏT-in Strasburqdakı Parlament Assambleyasının önünüdə dalğalanır.

1992-ci il iyunun 3-də "Siyasi partiyalar haqqında" qanunun qəbul edilməsi Azərbaycan Respublikasında siyasi partiyaların fəaliyyəti üçün geniş imkanlar yaradırdı. Qanunda siyasi partiyaların fəaliyyəti, qeydiyyata alınması, siyasi partiyalarla münasibətdə dövlətin hüquq və vəzifələri, siyasi partiyaların ləğv edilməsi qaydası tənzimlənirdi. Həmin il noyabrın 10-da "İctimai birliklər haqqında" qəbul edilmiş qanun da siyasi partiyalar haqqında qanunda olduğu kimi müxtəlif münasibətləri müəyyən edirdi.

1992-ci il fevralın 25-də "Arbitraj məhkəməsi haqqında" qanun qüvvəyə mindi. Qanun dörd bölmədən və 40 maddədən ibarət idi. Ümumi müddəalar adlanan birinci bölmədə göstərilirdi ki, arbitraj məhkəməsi Azərbaycan Respublikasının və digər dövlətlərin birgə müəssisələri və beynəlxalq birlikləri, dövlət orqanları və başqa orqanlar arasında təsərrüfat mübahisələrini həll etmək yolu ilə öz səlahiyyətləri daxilində məhkəmə hakimiyyətini həyata keçirir. Arbitraj məhkəməsinin təşkili, fəaliyyət qaydası və səlahiyyətləri təsərrüfat prosessual məcəlləsi və digər qanunvericilik aktları ilə müəyyən edilir.

Arbitraj məhkəmələrinin sistemi Azərbaycan Respublikası Ali Arbitraj Məhkəməsi Naxçıvan MR-in Arbitraj Məhkəməsi və zərurət olan hallarda yaradılan şəhər arbitraj məhkəmələrindən həmçinin bölgə və bölgələr arası arbitraj məhkəmələrindən ibarətdir.

Ali hüquq təhsili və hüquq ixtisası sahəsində 5 ildən az olmayaraq stajı olan respublika vətəndaşları hakim seçilə bilərdilər. Arbitraj məhkəmələrinin səlahiyyət müddəti 10 il müəyyən edilirdi.

1992-ci il mayın 27-də "Hərbi tribunallar haqqında" Azərbaycan Respublikası qanunu qəbul edildi. Qanun fəsil və 25 maddədən ibarət idi. Hərbi tribunallar vahid məhkəmə sisteminə daxil edilməklə, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində fəaliyyət göstərirlər. Hərbi tribunallarda birinci instansiya məhkəməsində cinayət işlərinə hakimdən və iki nəfər xalq iclasından ibarət tərkibdə baxılır. Kassasiya və nəzarət qaydasında, yeni açılmış hallar üzrə işlər üçün isə üç hakimdən ibarət tərkib müəyyən edilirdi. Hərbi tribunal sədrdən, onun müavinlərindən, hərbi tribunalın üzvlərindən və xalq iclasçılarından ibarətdir. Azərbaycan Respublikası hərbi tribunalları Silahlı Qüvvələrdə, sərhəd və daxili qoşunlarda, qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrdə qanunçuluğu və hüquq qaydasını hər vasitə ilə möhkəmləndirməyə, hüquq pozuntularının qarşısını almağa hərbi qulluqçuların qanunları, hərbi andı və əsgəri nizamnamələri dəqiq və dönmədən icra etməsini təmin etmək vəzifəsini daşıyırdı. Qanunda birinci instansiya hərbi tribunallara podpolkovnik (ikinci dərəcəli kapitan) rütbəsi də daxil olmaqla bu rütbəyədək əsgəri rütbələri olan şəxslərin cinayət işləri, tabor komandiri

(ikinci dərəcəli gəmi komandiri) də daxil olmaqla bu vəzifəyədək olan vəzifələrdə çalışan şəxslərin və xidməti mövqeyinə görə onlara bərabər şəxslərin cinayət işləri aid edilirdi. Yuxarı instansiya kimi Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi Kollegiyasında polkovnik (birinci dərəcəli kapitan), general (admiral) əsgəri rütbələri olan, yaxud alay komandirindən başlamış yuxarı vəzifələrdə və buna bərabər vəzifələrdə çalışan şəxslərin cinayət işlərinə baxılırdı. Hərbi tribunallarda baxılmalı olan işlərə hərbi qulluqçuların, habelə toplanış keçərkən hərbi vəzifəlilərin törətdikləri bütün cinayət işləri, Milli Təhlükəsizlik Nazirliyi orqanlarının zabit heyətinin, çavuşlarının, əsgərlərinin törətdikləri bütün cinayət işləri, hərbi xidmət zamanı cinayət törətmiş, lakin təxris olunmuş şəxslərin cinayət işləri aid idi. Bir şəxs və ya bir qrup şəxs tərəfindən törədilmiş cinayətlərin biri hərbi, digəri mülki məhkəməyə aid edilərdisə, bütün cinayət işləri birləşdirilib hərbi tribunalda baxılırdı.

Müstəqil Azərbaycan Respublikası dövlətçiliyinin möhkəmləndirilməsi mərhələsində (1993-2003-cü illər)

1992-ci ildə hakimiyyətə gəlmiş Azərbaycan Xalq Cəbhəsi cəmi bir il hakimiyyətdə qaldı. Azərbaycanda müstəqil dövlətin bərpa edilməsində və dövlət quruculuğu sahəsində bir sıra tədbirlərin görülməsində AXC və xalq hərəkatının lideri Ə. Elçibəyin xidmətləri olmuşdur. Həmin dövrdə, yaranmış şəraitdə hakimiyyətə gələn H.Əliyev 1993-cü ildən sosial-iqtisadi və hüquqi islahatlara başladı. Həmin islahatların hüquqi əsasları müstəqil Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında (Əsas Qanunda) təsbit edilmişdi.

Azərbaycandakı quruculuq daim erməni təhlükəsi ilə üzləşirdi. 1993-cü ildən başlayaraq məkirli ermənilər havadarlarının köməyi ilə Azərbaycan torpaqlarını işğal edə bildilər. Təhlükəsizlik Şurası 30 aprel 1993-cü il tarixdə 822 saylı ilk qətnaməsini qəbul etdi. Qətnamə bütün işğalçı qüvvələrin Kəlbəcər rayonunda və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edirdi. Təhlükəsizlik Şurası 1993-cü il 29 iyul tarixli 853 saylı

ikinci qətnaməsi ilə erməni quldur dəstələrini Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal edilmiş bütün digər rayonlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir və təcavüzkarı cilovlamaq üçün ATƏM-in (ATƏT-in) Minsk Qrupunu səylərini davam etdirməyə çağırırdı. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişənin davam etməsi, Ermənistan silahlı qüvvələri tərəfindən Qubadlı rayonunun işğal edilməsi BMT Təhlükəsizlik Şurasının 14 oktyabr 1993-cü il 874 saylı daha bir – üçüncü qətnaməsinin verilməsi ilə nəticələndi. 1993-cü il 11 noyabr tarixli 884 saylı dördüncü qətnaməsində BMT Təhlükəsizlik Şurası işğalçı qüvvələrin Zəngilan rayonundan və Horadis şəhərindən birtərəfli surətdə çıxarılması və Azərbaycan Respublikasının bu yaxında işğal olunmuş rayonlarının qəsbkar qüvvələrdən azad edilməsi tələbi ilə çıxış edirdi. Lakin erməni təcavüzkarları beynəlxalq təşkilatların tələblərinə bu günə qədər məhəl qoymayaraq işğal etdiyi torpaqları tərk etmir. ATƏT-in Lissabon sammitin sənədlərinə əlavə olaraq ATƏT-in fəaliyyətdə olan sədrinin 3 dekabr 1996-cı il bəyanatında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin tərkib hissəsi olacaq 3 prinsipi tövsiyə edilmişdi. Ermənistan Respublikasından başqa bütün iştirakçı dövlətlərin müdafiə etdiyi sənədə aşağıdakı prinsiplər daxil edilmişdir:

- Ermənistan Respublikasının və Azərbyacan Respublikasının ərazi bütövlüyü;
- Dağlıq Qarabağın Azərbaycan tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən, ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu;
- məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla, Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyi.

İqtisadi islahatlar. Azərbaycanda bazar iqtisadiyyatının yaradılmasında özəl sektorun formalaşdırılması vacib şərtlərdəndir. 1993-cü il yanvarın 7-də Azərbaycan Respublikasında "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edildi. Qanun Azərbaycan Respublikasında dövlət mülkiy-

yətinin özəlləşdirilməsi prinsiplərini və təşkilati-hüquqi əsaslarını müəyyən edirdi. İnhisarçılıq fəaliyyətinin qarşısının alınmasında isə 4 mart 1993-cü il "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu müstəsna əhəmiyyət kəsb edirdi.

1994-cü il iyulun 1-də Müəssisələr haqqında Azərbaycan Respublikasının qanunu Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən müəssisələrin təşkilati-hüquqi formaları, onların yaradılması, idarə edilməsi və fəaliyyəti prinsiplərini müəyyən edir, müəssisələrin təsərrüfat müstəqilliyinə və hüquqi bərabərliyinə təminat verirdi.

Mülkiyyətçinin əmlak hüquqlarını müdafiə edən, müstəqil maliyyə nəzarəti sisteminin yaradılmasını nəzərdə tutan "Auditor xidməti haqqında" Azərbaycan Respublikası qanunu 1994-cü il sentyabrın 16-da qəbul edildi. Qanunda göstərilmişdi ki, təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək təsərrüfat münasibətləri sahəsində digər xidmətlər göstərmək auditor xidmətinin tərkib hissələridir.

İqtisadiyyatın struktur dəyişmələrinin mühüm istiqamətlərindən biri "Aqrar islahatların əsasları haqqında" 18 fevral 1995-ci il Azərbaycan Respublikası qanunu idi. 1995-ci ilin martında Dövlət Aqrar İslahatı Komissiyası yaradıldı. İslahatın vəzifələri torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərinin formalaşdırılmasından, müxtəlif növlü təsərrüfatların yaradılmasından ibarət idi.

1995-ci ilin payızında Azərbaycan Respublikasında iki çox mühüm tədbir keçirildi. Belə ki, 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikası Milli Məclisinə seçkilərlə birlikdə Azərbaycan Respublikasının Konstitusiyasının layihəsi ümumxalq səsverməsinə (referenduma) çıxarılmışdı. Buna qədər avqustun 12-də Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında Azərbaycan Respublikası qanunu qəbul edilmişdi. Qanuna görə Milli Məclisin deputatları 125 nəfərdən ibarət olmaqla 5 il səlahiyyət müddəti əldə edirdilər. Aktiv və passiv seçki hüququ müvafiq olaraq 18 yaş və 25 yaş müəyyən edilirdi. Milli Məclis deputatlarının 100 nəfəri majoritar qaydada, qalan 25 nəfəri isə proporsional qaydada, siyasi partiyaların

(siyasi partiyaların bloklarının) göstərdikləri namizədlərin siyahısına seçicilərin verdikləri səslərin nisbəti əsasında seçilirdi. 1995-ci il qanununa görə seçicilərin 50%-nin iştirak etdiyi seçki dairəsində seçkilər baş tutmuş sayılırdı.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası. Yeni Konstitusiyanın layihəsini hazırlamaq üçün Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət komissiya yaradılmışdı. Konstitusiya layihəsi ümumxalq müzakirəsindən sonra 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikası referendumunda qəbul edilmiş və noyabrın 27-dən qüvvəyə minmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Azərbaycan Respublikasının Konstitusiyası 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir. Konstitusiyada ümumi müddəalar adlanan birinci bölmənin "Xalq hakimiyyəti" fəslinin birinci maddəsinə müvafiq olaraq xalq Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi elan edilir. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Konstitusiyada referendumla müəyyən edilən iki mühüm məsələ təsbit edilir: 1) Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişiklik edilməsi; 2) Azərbaycan Respublikası dövlət sərhədlərinin dəyişdirilməsi.

Konstitusiya Azərbaycanı demokratik, hüquqi və dünyəvi və unitar respublika elan edir. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin bölünməsi prinsipini təsbit edən Konstitusiya qanunvericilik hakimiyyətini Milli Məclisə, icra hakimiyyətini Azərbaycan Respublikasının prezidentinə məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının müstəqil məhkəmələrinə həvalə edir. Hakimiyyətin hər üç qolu qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri hədlərində müstəqildirlər.

Azərbaycanın **dövlət başçısı** Azərbaycan Respublikası **prezidentidir.** Prezident Azərbaycan dövlətçiliyinin varisliyini qoruyur, ərazi bütövlüyünün, dövlət müstəqilliyinin, məhkəmə hakimiyyətinin müstəqilliyini təmin edir.

11-ci maddədə Azərbaycan Respublikasının ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi təsbit edilirdi. Respublika ərazisinə daxili sular, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsi (sektoru), hava məkanı daxildir. Konstitusiyaya görə Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz, Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

Əvvəlki Konstitusiyadan (1978-ci il Konstitusiyasında xüsusi mülkiyyət forması fiziki şəxslərə deyil, yalnız hüquqi şəxs qismində bəzi ictimai təşkilatlara məxsus olmuşdur) fərqli olaraq yeni Konstitusiyanın 13-cü maddəsinə dövlət mülkiyyətilə yanaşı, yeni mülkiyyət formaları da ilk dəfə daxil edilirdi. Bunlar xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti idi.

Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

Konstitusiyanın üçüncü fəslində dövlət insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatçısı elan edilir. Hər bir kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Bunlar bərabərlik hüququ, yaşamaq hüququ, azadlıq hü-

ququ, mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, nikah hüququ, şəxsi toxunulmazlıq hüququ, mənzil toxunulmazlığı hüququ, əmək hüququ, istirahət hüququ və s. ayrılmaz hüquqlardır.

Bərabərlik hüququ hamını qanun və məhkəmə qarşısında bərabər elan edirdi. Dövlət irqindən, milliyyətindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, mülki, dini, dil, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağan edilir.

Konstitusiyanın 49-cu maddəsi sərbəst toplaşmaq azadlığını müəyyən edirdi. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.

55-ci maddəyə müvafiq olaraq Azərbaycan vətəndaşları sırasından hər kəs dövlətin idarə olunmasında iştirak edə bilər.

63-cü maddədə təqsirsizlik prezumpsiyası təsbit edilirdi. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü elan edilməmişdirsə, təqsirsiz sayılır. Bu zaman: a) şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir; b) cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir: c) ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz; ç) məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz.

Konstitusiyada vətəndaşların hüquq və azadlıqları ilə yanaşı onların vəzifələri və borcu təsbit edilir. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməklə, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Qanunu bilməmək məsuliyyətdən azad etmir. Qanunla müəyyən edilmiş vergiləri ödə-

mək hər kəsin borcudur. Vətəni müdafiə hər bir vətəndaşın müqəddəs borcudur.

Azərbaycan Respublikası Konstitusiyasının 3-cü bölməsinin 5-ci fəslində dövlət hakimiyyətinin qanunvericilik budağının səlahiyyətləri müəyyən edilir. Azərbaycan Respublikasında ali qanunverici orqan olan Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyət müddəti 5 ildir. Azərbaycan Respublikasının Milli Məclisi 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

Milli Məclisin növbədənkənar sessiyası Azərbaycan Respublikası Milli Məclisi sədrinin, Azərbaycan Respublikası prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisinin 42 deputatının əsasında çağırılır.

Milli Məclisin deputatları toxunulmazlıq imunitetinə malikdirlər. Deputatın toxunulmazlığına yalnız Azərbaycan Respublikası baş prokurorunun təqdimatına əsasən Milli Məclisin qərarı ilə xitam verilə bilər.

Konstitusiyanın 64-cü maddəsində qanunverici orqanın səlahiyyətlərinə aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən etmək aid edilmişdir: Konstitusiyada təsbit edilmiş vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı; Azərbaycan Respublikası prezidentinin seçkiləri; Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu; referendum; məhkəmə quruluşu və hakimlərin statusu; prokurorluq; vəkillik və notariat; məhkəmə icraatı; məhkəmə qərarlarının icrası; bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu; fövqəladə vəziyyət rejimi; hərbi vəziyyət rejimi; dövlət təltifləri; fiziki və hüquqi şəxslərin statusu; mülki hüquq obyektləri; əqdlər; mülki müqavilələr, nümayəndəlik və vərəsəlik; mülkiyyət hüququ, o cümlədən dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin hüquqi rejimi, əqli mülkiyyət hüququ; digər əşya hüquqları; öhdəlik hüququ; ailə münasibətləri, o cümlədən himayəçilik və qəyyumluq; maliyyə fəaliyyətinin əsasları, vergilər, rüsumlar və ödənişlər; əmək münasibətləri və sosial təminat; cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi; müdafiə və hərbi qul-

luq; dövlət qulluğu; təhlükəsizliyin əsasları; ərazi quruluşu; dövlət sərhədi rejimi; beynəlxalq müqavilələrin təsdiqi və ləğvi; rabitə və nəqliyyat işi; statistika, metrologiya və standartlar; gömrük işi; ticarət işi və birja fəaliyyəti; bank işi, mühasibat, sığorta.

Konstitusiyanın 96-cı maddəsinə görə qanunvericilik təşəbbüsü hüququ Azərbaycan Respublikası Milli Məclisi deputatlarına, Azərbaycan Respublikasının prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur.

Qanunlar qəbul edildiyi gündən 14 gün müddətində Azərbaycan Respublikasının prezidentinə imzalamağa təqdim edilir. 1978-ci il Azərbaycan SSR Konstitusiyasından fərqli olaraq, yeni Konstitusiya üzrə baş prokuror qanunvericilik təşəbbüsünə malik deyildi.

Konstitusiyanın VI fəslində Azərbaycan Respublikasının **icra hakimiyyətinin Azərbaycan Respublikasının prezidentinə mənsub olması** təsbit edilir. Azərbaycan Respublikası prezidentliyinə namizədlər üçün tələb edilən senzə görə yaşı 35-dən aşağı olmayan, Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikası vətəndaşı Azərbaycan Respublikasının prezidenti seçilə bilər. Prezident seçkilərində səsvermədə iştirak edənlərin üçdə iki səs çoxluğu ilə 5 il müddətinə seçilən Azərbaycan prezidenti iki dəfədən artıq dövlət başçısı vəzifəsinə seçilə bilməz.

Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərinə dövlət həyatının ən mühüm məsələlərinin həll edilməsi daxildir. Azərbaycan Respublikasının prezidenti, icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır.

Nazirlər Kabineti Azərbaycan Respublikasının prezidentinə tabedir və onun qarşısında cavabdehdir. Nazirlər Kabineti Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim edir; Azərbaycan Respublikası

dövlət büdcəsinin icrasını təmin edir; dövlət iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir; nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir; dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci fəsində Naxçıvan Muxtar Respublikasının statusu ilə bağlı hüquqi münasibətlər tənzimlənir.: Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir; Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, Azərbaycan Respublikasının prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan Muxtar Respublikasının ərazisində məcburidir.

Azərbaycan Respublikası ərazi inzibati cəhətdən bir muxtar respublikadan (Naxçıvan MR) və rayonlardan ibarətdir. Yerlərdə icra hakimiyyətini rayon (şəhər) icra hakimiyyətinin başçıları həyata keçirirlər. İcra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının prezidenti vəzifəyə təyin edir və vəzifədən azad edir. Yerli icra hakimiyyətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının prezidenti müəyyən edir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan MR-in yuxarı icra orqanıdır. Naxçıvan MR-də aşağı icra orqanları rayon icra hakimiyyəti başçılarıdır.

Azərbaycan Respublikasının prezidentinin 16 iyun 1999-cu il fərmanı ilə **"Yerli icra hakimiyyəti haqqında" Əsasnamə** təsdiq edilmişdir. Dövlət quruculuğu sahəsində zəruri tədbirlərin ardıcıl olaraq həyata keçirilməsinin təmin edilməsi, habelə yerli icra hakimiyyətlərinin səlahiyyətlərinin, fəaliyyət dairəsinin müəyyən edilməsi üçün Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyəti başçısı aparatı, rayon tabeliyində olan şəhərlərdə, qəsəbə və kəndlərdə icra nümayəndəliklərinin quruluşu müəyyən edilirdi. Azərbaycan Respublikasının Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsinə uyğun olaraq icra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının prezidenti təyin və vəzifədən azad edir. Naxçıvan Muxtar Respubli-

kasında yerli icra hakimiyyətinin başçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikası prezidenti təyin edir.

Yerli icra hakimiyyəti başçıları bilavasitə və ya müvafiq yerli icra hakimiyyəti orqanları vasitəsilə səlahiyyətləri daxilində müvafiq ərazinin sosial-iqtisadi məsələlərini həll edir. "Əsasnamə"də yerli icra hakimiyyəti başçısı yanında rayonun, şəhərin və şəhər rayonunun iqtisadi, sosial-mədəni və digər yerli məsələlərinin müzakirə edilib baxılması və onların həllinə dair təkliflərin hazırlanması məqsədilə **daimi məşvərətçi orqan olan Şura** yaradılması nəzərdə tutulur. Şuranın tərkibi 15 nəfər müəyyən edilir. İcra hakimiyyəti başçısının yanında Şuranın iclasları iki dəfədən az olmayaraq keçirilir.

Azərbaycan Respublikası Konstitusiyasının IX fəsli yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin hüquqi statusunu təcbit edir. 142-ci maddəyə görə yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

Azərbaycan Respublikası prezidentinin **27 iyul 1999-cu il fərmanı ilə "Bələdiyyələrin statusu haqqında"** Azərbaycan Respublikası qanunu qüvvəyə minmişdir. 8 fəsil və 55 maddədən ibarət qanun bələdiyyələrin təşkil olunması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını müəyyənləşdirir. Bələdiyyə 8 qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Qanunda yerli əhəmiyyətli məsələlər, yerli rəy sorğusu, bələdiyyə mülkiyyəti, yerli vergi və ödənişlər, bələdiyyə qulluğu, yerli sosial müdafiə, yerli büdcə və s. məsələlər tənzimlənirdi.

Bələdiyyələrin nizamnamələri bələdiyyənin iclaslarında və ya vətəndaşların yığıncaqlarında qəbul edilir. Bələdiyyələrin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir. Bələdiyyələr hüquqi şəxsdir, onların öz möhürü, ştampı və bankda hesabı olur.

Bələdiyyənin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən, onun müavinlərindən və struktur bölmələrindən ibarətdir.

27 iyul 1999-cu ildə "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikası **Qanunu** qüvvəyə mindi. Qanuna görə 21 yaşı tamam olan vətəndaşlar bələdiyyələrə üzv seçilə bilərlər. Onların səlahiyyəti 5 il müəyyən edilir. İcra hakimiyyəti orqanlarında işləyən vəzifəli şəxslər, hakimlər, hüquq-mühafizə orqanlarının işçiləri, din xadimləri, hərbi qulluqçular bələdiyyə üzvü seçilə bilməzlər.

1999-cu il dekabr ayının 12-də ilk dəfə olaraq Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanları olan bələdiyyələrə seçkilər keçirilmişdir. Çoxpartiyalı sistem üzrə keçirilən seçkilərdə yerli özünüidarəetmə orqanlarının yaradılmasının əsası qoyuldu.

Müstəqil Azərbaycan Respublikasının daha da möhkəmlənməsi keçid dövrünü əhatə edən islahatların yekunlaşması, beynəlxalq öhdəliklərdən və dövlət hakimiyyət orqanlarının təkmilləşdirilməsindən irəli gələn dəyişikliklər zərurəiti ilə əlaqədar olaraq 24 avqust 2002-ci ildə "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının referendum aktının keçirilməsi barədə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 22 iyun 2002-ci il tarixdə 722 saylı fərman imzalayır. Ümumxalq səsverməsinə çıxarılmış referendum aktında iştirak edən seçicilərin 96%-dən çoxu referendum aktı layihəsinin bütün hissələrinin leyhinə səs verir. Konstitusiyanın 24 maddəsi üzrə edilmiş əlavə və düzəlişlər şərti olaraq 8 hissəyə bölünmüşdü. Birinci hissəyə daxil edilmiş dəyişikliklər Azərbaycan Respublikasının Avropa Şurası qarşısında öz üzərinə götürdüyü öhdəliklərdən irəli gələn dəyişiklikləri, ikinci hissəi Azərbaycan Respublikasının İnsan Hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmasından irəli gələn dəyişiklikləri, üçüncü hissə referendum keçirilməsinin təkmilləşdirilməsindən irəli gələn dəyişiklikləri, dördüncü hissə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə bağlı dəyişiklikləri, beşinci hissə Azərbaycan Respublikası prezidentinin seçkiləri ilə bağlı dəyişiklikləri, altıncı hissə dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin təmilləşdirilməsindən irəli gələn dəyişiklikləri, yeddinci hissə məhkəmə islahatlarının ke-

çirilməsindən irəli gələn dəyişiklər və nəhayət səkkizinci hissə "digər dəyişikliklər" əhatə edirdi.

Konstitusiyada edilən dəyişikliklər sırasında 105-ci maddəyə edilən düzəliş dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, həm keçmiş, həm də beynəlxalq təcrübədən istifadə olunmaqla icraedici-sərəncamverici orqan olan Nazirlər Kabinetinin statusu artırılırdı. Azərbaycan Demokratik Respublikasının varisi kimi müstəqil Azərbaycan Respublikasında da icraedici hakimiyyətin məsuliyyətinin artırılması tarixi təcrübədən irəli gələn zəruri şərtlərdəndir. (Bax! bu kitabın XII fəsil, səh. 268).

Azərbaycan Respublikasının prezidenti və onun yuxarı icra orqanı olan Nazirlər Kabineti dövlət və hökumətin vəhdətini təşkil edir. Belə ki, Nazirlər Kabineti Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim edir, Azərbaycan Respublikasının dövlət büdcəsinin icrasını təmin edir, dövlət iqtisadi proqramlarını həyata keçirilməsini təmin edir, nazirliklərə, digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, dövlət sosial təminat proqramını həyata keçirməsini təmin edir. Ona görə də prezidentin səlahiyyətlərinin müvəqqəti icra olunması idarəetməyə "yad" olan bir orqana - Milli Məclisin sədrinə verilməsi müəyyən çətinliklərlə bağlı ola bilərdi. Bu baxımdan 105-ci maddəyə edilən dəyişiklik çevik, fasiləsiz və rabitəli idarəetmə strukturunun mövcudluğuna xidmət edir. Vaxtilə C. Lokk tərəfindən irəli sürülmüş, Monteskye, T. Cefferson və s. görkəmli mütəfəkkirlər tərəfindən inkişaf etdirilmiş hakimiyyət "qollarının" bölgüsü prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 105-ci maddəsinə edilmiş düzəlişlə möhkəmləndirilirdi. Çünki, icraedici hakimiyyətin qısa müddətə də olsa (3 ay), qanunverici hakimiyyətin rəhbərinə verilməsi hakimiyyət bölgüsünün əsas prinsipinin - "müvazinətin" pozulması demək idi.

1998-ci il iyunun 30-da Azərbaycan Respublikası prezidenti **"Naxçıvan Muxtar Respublikasının Konstitusiyası haqqında"** Azərbaycan Respublikasının Konstitusiya Qanununu təsdiq etdi. Naxçıvan MR-in dördüncü Konstitusiyası 5 fəsildən və 50 maddədən

ibarətdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının əsasını Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda qəbul edilmiş Konstitusiyası təşkil edir.

Azərbaycan Respublikası tərkibində Naxçıvan muxtariyyatının əsaslarının yaranması tarixi hazırda qüvvədə olan 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars Rusiya-Türkiyə beynəlxalq müqavilələrində təsdiq edilirdi. Həmin beynəlxalq müqavilələrdə Naxçıvan Azərbaycanın tərkib hissəsi olmaqla onun sərhədləri müəyyən edilmişdi.

1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci və 1978-ci ildə üçüncü konstitusiyası qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasını qəbul etmiş Naxçıvan MR-in Milli Məclisi Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini ərazi bütövlüyünü qorumaq; haqq-ədalətə, qanuna əsaslanaraq Naxçıvan Muxtar Respublikasının əhalisinin layiqli həyat səviyyəsini təmin etmək; Naxçıvan Muxtar Respublikasında Konstitusiya çərçivəsində demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat vemək, qanunun aliliyini qorumaq məqsədini təntənəli surətdə bəyan edirdi.

Naxçıvan MR Konstitusiyasının ümumi müddəalar adlanan birinci fəslinin 1-ci maddəsinə əsasən Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır. Muxtariyyətin əsaslarını Azərbaycan Respublikası Konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasının öz səlahiyyətləri daxilində həll etdiyi məsələlər təşkil edir.

Naxçıvan MR-də dövlət hakimiyyətini təşkil edən orqanlara aşağıdakılar daxildir: qanunvericilik hakimiyyəti Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə; icra hakimiyyəti Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə; məhkəmə hakimiyyəti isə Naxçıvan Muxtar Respublikasının məhkəmələrinə məxsusdur.

Konstitusiyanın 6-cı maddəsinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir. Naxçıvan

Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının dövlət himnidir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 deputatdan ibarətdir. Ali Məclisin hər çağırışının səlahiyyət müddəti 5 il müəyyən edilir.

Naxçıvan MR-in Ali Məclisinin hər il iki növbəti sessiyası toplanır. Növbədənkənar sessiyalar Azərbaycan Respublikası prezidenti, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 deputatının tələbi əsasında və ya təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən çağırılır.

Naxçıvan MR-in Ali Məclisi səlahiyyətləri daxilində aşağıdakı məsələləri həll edir: Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili; Naxçıvan MR-in büdcəsinin təsdiqi; Naxçıvan MR-in baş nazirinin vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi; Naxçıvan MR Nazirlər Kabinetinin tərkibinin təsdiqi; Naxçıvan MR Nazirlər Kabinetinə etimad; Konstitusiyada nəzərdə tutulmuş hallarda Naxçıvan MR-in ali vəzifəli şəxsinin fərmanlarının təsdiqi; Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər.

Naxçıvan MR Konstitusiyasının 26-cı maddəsinə görə qanunvericilik təşəbbüsü hüququ Naxçıvan MR Ali Məclisinin deputatlarına, Naxçıvan MR-in baş nazirinə və Naxçıvan MR-in Ali Məhkəməsinə mənsubdur. Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyasından fərqli olaraq, yeni Konstitusiyada muxtar Respublika prokuroru qanunvericilik təşəbbüsündən məhrum edilirdi.

Naxçıvan MR Konstitusiyasının üçüncü fəsli icra hakimiyyəti orqanlarının statusunu müəyyən edir. Muxtar Respublika icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir. Naxçıvan MR-in baş nazirini Azərbaycan Respublikasının prezidentinin təqdimatına əsasən Naxçıvan MR-in Ali Məclisi təyin edir. Naxçıvan MR Nazirlər Kabinetinin səlahiyyətlərinə daxildir: muxtar respublika büdcəsini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim etmək; muxtar respublikanın iqtisadi proq-

ramlarını həyata keçirmək; muxtar respublikanın sosial proqramlarının həyata keçirilməsini təmin etmək; nazirliklər və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik etmək və onların aktlarını ləğv etmək; Azərbaycan Respublikası prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll etmək.

Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına, həmçinin Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aktlarına zidd olmamalıdır.

Ali Məclisin 35 səs çoxluğu ilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasında edilən dəyişiklik və əlavələr təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir (maddə 50). Həmin dəyişiklik və əlavələr Naxçıvan Muxtar Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

Azərbaycan Respublikası Konstitusiyası əsasında dövlət quruculuğu sahəsində qanunların qəbul edilməsi, islahatlar, dövlətçiliyin möhkəmləndirilməsi ardıcıllıqla davam edirdi.

1999-cu il martın 17-də **"Torpaq icarəsi haqqında"** Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin fərmanı qüvvəyə mindi. 5 fəsil, 31 maddədən ibarət olan qanunun Azərbaycan Respublikasında dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların icarəyə verilməsinin və icarə münasibətlərinin hüquqi əsaslarını müəyyən edir.

Torpağın alqı-satqısını nəzərdə tutan **"Torpaq bazarı haqqında"** Azərbaycan Respublikası qanunu 11 iyul 1999-cu ildə dərc edildi. Azərbaycan Respublikasında torpaq bazarının təşkilini və torpaq bazarında iqtisadi və hüquqi münasibətləri tənzimləyən qanun 5 fəsildən və 23 maddədən ibarətdir. Qanunda torpaq bazarında aşağıdakı əqdlərin həyata keçirilməsi nəzərdə tutulur: torpaq sahələrinin alqı-satqısı; torpaq sahəsinin nizamnamə (pay) fonduna verilməsi; torpaq sahəsinin girovu (ipotekası); torpaq sahəsinin dəyişdirilməsi; torpaq sahəsinin bağışlanması; torpaq sahəsinin vərəsəlik qaydasında başqasına keçməsi; torpaq sahəsi üzərində istifadə və icarə hüquqlarının başqasına keçməsi.

Məhkəmə hakimiyyəti. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsində və "Konstitusiya Məhkəməsi haqqında" 21 oktyabr 1997-ci il Azərbaycan Respublikasının qanununda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təyinatı, onun səlahiyyətləri təsbit edilir.

Azərbaycan Respublikası **Konstitusiya Məhkəməsinin 9 nəfər** hakimdən ibarət üzvləri **10 il müddətinə** seçilir. Səlahiyyət müddəti qurtardıqdan sonra Konstitusiya Məhkəməsi hakimi həmin vəzifəyə yalnız bir dəfə təyin edilə bilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin əsas məqsədi **Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etməkdir.**

Konstitusiya Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası Milli Məclisi təyin edir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin əsas vəzifələri Azərbaycan Respublikası prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında Azərbaycan Respublikasının 130-cu maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş məsələləri həll etməkdən, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 4-cü hissəsində göstərilmiş orqanların sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasını və qanunlarını şərh etməkdən və Azərbaycan Respublikası Konstitusiyası ilə nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirməkdən ibarətdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malikdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin ilkin rəyi olduqdan sonra Milli Məclis və ya Azərbaycan Respublikası prezidenti Konstitusiyanın mətnində dəyişiklik edilməsini referenduma çıxara bilər. Konstitusiyanın 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və ya 21-ci maddələrində dəyişikliklər edilməsi haqqında, 3-cü fəslində nəzər-

də tutulmuş müddəaların məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi referendumla qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərə dair qərar qəbul edə bilməz.

1997-ci il 10 iyunda "Məhkəmələr və hakimlər haqqında" qanun qəbul edildi. Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinə görə 30 yaşdan yuxarı ali hüquq təhsili olan və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən vətəndaşlar hakim ola bilərlər.

Azərbaycan Respublikasında "üçüncü hakimiyyət" olan məhkəmə sisteminə daxil olan məhkəmələr aşağıdakılardır: rayon (şəhər) məhkəmələri; Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının məhkəməsi; hərbi məhkəmələr; Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının hərbi məhkəməsi; Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair Azərbaycan Respublikasının iqtisad məhkəməsi; Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi; Azərbaycan Respublikasının İqtisad Məhkəməsi; Azərbaycan Respublikasının Ali Məhkəməsi.

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsində hakimlərin müstəqilliyi, yalnız qanunlara tabeliyi və səlahiyyətləri müddətində dəyişilməzliyi təsbit edilir. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir. Ədalət mühakiməsi təqsirsizlik prezumpsiyasına əsaslanır.

Məhkəmələrin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.

Müstəqil Azərbaycan Respublikasında ordu quruculuğu. 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan milli özünümüdafiə qüvvələri haqqında"qanun qəbul etdi. Könüllülük əsasında yaradılmış hərbi hissələrin mütəşəkkil silahlı qüvvələrə çevrilməsi üçün qanunun əhəmiyyəti var idi. Erməni daşnaklarının qarşısını almaqdan ötrü ilk batalyonların yaradılmasına başlanıldı.

1991-ci il dekabrın 25-də "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Ali Soveti Milli Şurası qanun qəbul et-

di. Qanunda Azərbaycan ordusunda hərbi nizam -intizamı artırmaq, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək, mütəşəkkil və bacarıqlı əsgər hazırlamaq dövrün ən vacib tələblərindən hesab edilirdi.

1993-cü il noyabrın 26-da "Silahlı qüvvələr haqqında" qanunun yeni redaksiyası və "Müdafiə haqqında" Azərbaycan Respublikası qanunu Milli Məclis tərəfindən təsdiq edildi. Qanuna görə Azərbaycan Respublikası dinc yaşamaq prinsipini əsas tutur və öz müdafiə qabiliyyətini təcavüzdən qorumaq üçüq müdafiəsini təşkil edirdi. Dövlət orqanlarına müdafiə sahəsində konkret vəzifələr tapşırılırdı.

1994-cü il yanvarın 6-da "Sərhəd qoşunları haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edildi. Sərhəd qoşunları Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsini və toxunulmazlığını təmin edir. Qanun sərhəd qoşunlarının maddi-texniki təminatı ilə bağlı konkrət tədbirlərin görülməsini müəyyən edir.

Müstəqil Azərbaycan Respublikasında hüququn inkişaf xüsusiyyətləri.

Qanunvericilik sisteminin təşkil edilməsi

Hüququn mənbələri. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır. Qanunvericilik sistemi aşağıdakı normativ hüquqi aktlardan ibarətdir:

- konstitusiya;
- referendumla qəbul edilmiş aktlar;
- qanunlar;
- fərmanlar;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları;
- mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

Yerli icra hakimiyyəti orqanları normativ xarakterli aktlar qəbul edə bilərlər.

Müstəqil Azərbaycan Respublikasında hüquqi islahatlar aparmaq, yeni ictimai münasibətlərdən və beynəlxalq öhdəliklərdən əmələ gələn hüquq münasibətlərini tənzimləmək üçün Azərbaycan Respublikasının yeni məcəllələri qəbul edilmişdir.

Azərbaycan Respublikasının **11 iyul 2000-ci il tarixli qanunu ilə "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi"** təsdiq

edilmiş və 1 sentyabr 2000-ci il tarixdən qüvvəyə minmişdir. İnzibati Xətalar Məcəlləsi ümumi və xüsusi hissələr üzrə 6 bölmə, 35 fəsil, 458 maddədən ibarətdir. Ümumi müddəaların daxil edildiyi birinci bölmədə Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi, onun vəzifələri və prinsipləri təsbit edilirdi. İnzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji sağlamlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ərtaf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir. İnzibati məsuliyyətin əsaslarını inzibati xətanın törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətəlrini daşıyan əməl (hərəkət və ya hərəkətsizlik) törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur və tənbeh edilir. İnzibati xətalar qanunvericiliyinin prinsipləri insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınmasına əsaslanır.

İnzibati məsuliyyətə cəlb olunmuş şəxs öz təqsirsizliyini sübut etməyə borclu deyildir.

İnzibati xəta anlayışına görə ictimai münasibətlərə qəsd edən hüquqazidd olan təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıq üzündən törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur. İnzibati xətalar törətməyə görə: xəbərdarlıq; inzibati cərimə; inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması; predmetin müsadirəsi; inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması; əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma; inzibati həbs və digər tənbeh növləri tətbiq edilir.

İnzibati Xətalar Məcəlləsinin xüsusi hissəsinə dövlət idarəçiliyinin konkret sahələrində ictimai münasibətləri tənzim edən inzibati hüquq nomaları daxil edilmişdi. Xüsusi hissənin III bölməsində inzi-

bati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanlara (vəzifəli şəxslərə) aşağıdakılar aid edilir: rayon (şəhər) məhkəmələri; yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (kollegial orqan); Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları (vəzifəli şəxslər).

Azərbaycan Respublikasının **28 dekabr tarixli 1999-cu il** tarixli qanunu ilə **"Azərbaycan Respublikasının Mülki Məcəlləsi"** təsdiq edilmiş və 1 sentyabr 2000-ci il tarixdən qüvvəyə minmişdi. Mülki Məcəllə ümumi və xüsusi hissələr üzrə 10 bölmə, 73 fəsil və 1325 maddədən ibarətdir. Ümumi hissədə Mülki Məcəllənin məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığının, onun iştirakçılarının bərabərliyi əsasında təmin edilməsi kimi göstərilirdi. Azərbaycan SSR Mülki Məcəlləsindən fərqli olaraq, yeni Məcəllədə müqavilələrin sərbəstliyi, xüsusi mülkiyyətin azadlığı müəyyən edilirdi.

Mülki Məcəllənin vəzifələri aşağıdakılardır: mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləmək; mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək; fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi həyatını və şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumaq; mülki dövriyyəni təmin etmək; sahibkarlıq fəaliyyətini dəstəkləmək; sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmaq.

Məcəllədə mülki hüquq münasibətlərinin obyektləri qismində əmlak və ya qeyri-əmlak dəyəri olan, qanunvericiliklə mülki dövriyyədən çıxarılmamış maddi və ya qeyri-maddi nemətlər nəzərdə tutulurdu. Mülki hüquq münasibətlərinin subyektləri aşağıdakı kimi müəyyən edilirdi: istər sahibkarlıq fəaliyyəti ilə məşğul olan, istərsə də məşğul olmayan hər hansı fiziki və ya hüquqi şəxslər mülki hüquq münasibətlərinin subyektləri ola bilərlər; dövlət hakimiyyəti orqanlarının və özünüidarə orqanlarının digər şəxslərə mülki hüquq münasibətləri, qanunda ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericiliklə tənzimlənir; mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanlı həyata keçirməyə borcludur.

Mülki Məcəllənin xüsusi hissəsi müqavilələrdən əmələ gələn öhdəliklərin tənzimlənməsilə başlayır. Qanundan əmələ gələn öhdəliklərlə mülki hüquq pozuntularından (deliktlər) əmələ gələn öhdəliklər fərqlənir. Mülki Məcəllədə qanun və vəsiyyətnamə üzrə vərəsəlik, mirasın bölüşdürülməsi tənzimlənir.

1999-cu il fevralın 1-də Azərbaycan Respublikası **Əmək Məcəlləsi təsdiq edildi.** 13 bölmədən, 48 fəsil və 317 maddədən ibarət Əmək Məcəlləsi 1999-cu il iyulun 1-dən qüvvəyə mindi. Azərbaycan Respublikasının Əmək Məcəlləsi işçilərlə işə götürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən hüquq münasibətlərini tənzim edir. Məcəllə fiziki şəxslərin əmək hüquqlarını və bu hüquqların həyata keçirməsini təmin edən qaydaların minimum normalarını müəyyən edir.

Əmək Məcəlləsi əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsi; mənafelərin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması; maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi; əsas əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərin icrasına hüquqi təminat yaradılması prinsiplərinə əsaslanır. Əmək Məcəlləsi aşağıdakı şəxslərə şamil edilmir: hərbi qulluqçulara; məhkəmə hakimlərinə; Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına və bələdiyyələrə seçilmiş şəxslərə; xarici ölkənin hüquqi şəxsi ilə həmin ölkədə əmək müqaviləsi bağlayıb əmək funksiyasını Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisədə (filialda, nümayəndəlikdə) yerinə yetirən əcnəbilərə; podrat, tapşırıq, komisyon, müəlliflik və başqa mülki-hüquqi müqavilələr üzrə işləri yerinə yetirən şəxslərə.

1999-cu il dekabrın 28-də Azərbaycan Respublikası Ailə Məcəlləsi təsdiq edildi. 8 bölmə, 28 fəsil və 195 maddədən ibarət məcəllə 2000-ci il iyunun 1-dən qüvvəyə mindi. Ailə ümumbəşəri prinsiplər üzrə quruldu. Ailə münasibətlərinin qadın və kişinin könüllü nikah ittifaqı əsasında qurulması və uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə edilməsi əsas vəzifələrdən idi.

Azərbaycan Respublikasında nikah yaşı kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş müəyyən olunurdu. Üzrlü səbəb olduqda müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilərdi. Nikah ümumi razılıq olduqda müvafiq icra hakimiyyəti orqanında, ümumi uşaqları olduqda və ya ər (arvad) nikahın pozulmasına razı olmadıqda nikah məhkəmə qaydasında pozulur.

Ailə Məcəlləsinin VIII bölməsinə əsasən vətəndaşlıq vəziyyəti aktlarının (VVAQ) qeydə alınması orqanlarının səlahiyyətinə doğum, ölüm, nikahın bağlanması, nikahın pozulması, övladlığa götürmə, atalığın müəyyən edilməsi, ata adının və soyadın dəyişdirilməsi daxildir.

1997-ci il dekabrın 30-da Azərbaycan Respublikasının Meşə Məcəlləsi təsdiq edildi. 10 fəsil və 90 maddədən ibarət Məcəllə Azərbaycan Respublikasının ərazisində meşə münasibətlərinin tənzimlənməsinin, meşələrdən istifadənin, onların mühafizəsinin, qorunmasının, bərpasının, ekoloji və ehtiyat potensialının yüksəldilməsinin hüquqi əsaslarını müəyyən edir.

Azərbaycan Respublikasının meşə fondu dağ və düzən meşələrindən ibarət olmaqla qoruq meşələri, kurort meşələri, xüsusi qiymətli meşə massivləri, şəhərlərin və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zolaqlarının meşələri, yabanı meyvə meşələri, dövlət qoruyucu meşə zolaqları və digər meşələr kateqoriyalarına bölünürdü.

1997-ci il dekabrın 26-da Azərbaycan Respublikasının Su Məcəlləsi təsdiq edildi. 4 bölmə, 17 fəsil və 105 maddədən ibarət Məcəllə Azərbaycan Respublikasında su obyektlərinin istifadəsi və mühafizəsi ilə bağlı hüquq münasibətlərini tənzimləyirdi. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi Azərbaycanın milli sərvəti olmaqla əhalinin həyat və fəaliyyətinin əsası kimi istifadə edilir və qorunur, flora və faunanın mövcudluğunu təmin edir. Məcəllədə sudan istifadə edənlərin hüquqları və vəzifələri, su obyektlərinin mühafizəsi, sudan ən zəruri və digər ehtiyaclar üçün istifadənin qanuni əsasları müəyyən edilirdi.

Azərbaycan Respublikasının **30 dekabr 1999-cu il tarixli qanunu ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsi** təsdiq edilmişdir. Ümumi və xüsusi hissələr üzrə 12 bölmə, 35 fəsil və 353 maddədən ibarət olan yeni Məcəllə 2000-ci il sentyabrın 1-dən qüvvəyə mindi. Azərbaycan SSR-in 1961-ci il Cinayət Məcəlləsindən fərqli olaraq yeni məcəllədə ağır cinayətlərə görə ölüm cəzasını nəzərdə tutan maddələr daxil edilməmişdir. Lakin köhnə Cinayət Məcəlləsinə məlum olmayan ömürlük həbs cəzası yeni Məcəllədə nəzərdə tutulurdu.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Cinayət Məcəlləsinin xüsusi hissəsində dövlət əleyhinə, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə, dövlətin konstitusiya quruluşunun əsasları əleyhinə cinayətlər ən ağır cinayətlər qrupuna aid edilir. Azərbaycan SSR Cinayət Məcəlləsindən fərqli olaraq, yeni Məcəllədə xüsusi mülkiyyət qanunla ciddi qorunurdu.

Azərbaycan Respublikasının **28 dekabr 1999-cu il** tarixli Qanunu ilə **Mülki-Prosessual Məcəllə təsdiq edilmişdir.** 50 fəsildən və 447 maddədən ibarət olan Məcəllə **1 sentyabr 2000-ci il** tarixdən qüvvəyə mindi. Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlardan irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiqi idi.

Aşağı məhkəmə instansiyasının qətnamə və qərarlarından ondan yuxarı instansiyaya apellyasiya şikayəti və həmin instansiyalardan yuxarı instansiyalara kassasiya şikayəti verilə bilərdi.

Mülki Prosessual-Məcəllədə məhkəməyə aid olan mübahisə qanunla, beynəlxalq müqavilələrlə və ya tərəflərin sazişi ilə nəzərdə tutulan hallarda, işdə işirak edən şəxslərin yazılı razılığı ilə münsiflər məhkəməsinin həllinə verilə bilərdi.

2000-ci il 14 iyulda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəllə Azərbaycan Respublikası Qanunu ilə təsdiq edilmiş-

di. 9 bölmə, 58 fəsil və 521 maddədən ibarət olan Cinayət-Prosessual Məcəllə 1 sentyabr 2000-ci ildən qüvvəyə mindi. Cinayət mühakimə icraatının vəzifələri aşağıdakılardan ibarətdir: şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq; həqiqi və ya ehtimal edilən cinayət törətməsi ilə əlaqədar şəxsiyyəti vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi hallarından qorumaq; cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq; cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək; cinayət törətməkdə ittiham olunan şəxslərin təqsirini müəyyən edərək onları cəzalandırmaq və təqsirsiz şəxslərə bəraət vermək məqsədilə ədalət mühakiməsini həyata keçirmək.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi 14 iyul 2000-ci ildə təsdiq edilmişdi. 8 bölmə, 21 fəsil və 182 maddədən ibarət Məcəllə 1 sentyabr 2000-ci ildən qüvvəyə minirdi. Cəzaların İcrası Məcəlləsinin məqsədi məhkumları islah etmək, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaqdan ibarətdir. Məcəllənin vəzifəsi cəzaların icrası və çəkilməsi qaydalarını və şərtlərini tənzimləməkdən, məhkumların islah edilmə vasitələrini müəyyən etməkdən, məhkumların hüquq və azadlıqlarını, qanuni mənafelərini qorumaqdan ibarətdir. Məhkumlar cəza çəkməkdən aşağıdakı əsaslarla azad edilirdilər: cəza müddəti qurtardıqda; hökmün ləğv edilməsilə əlaqədar işin icraatına xitam verildikdə; cəzadan şərti olaraq vaxtından əvvəl azad edildikdə; cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edildikdə; amnistiya və ya əhvetmə aktına əsasən; xəstəliyə və qanunvericilikdə nəzərdə tutulmuş digər əsaslara görə.

İstifadə olunmuş ədəbiyyat və mənbələr

Azərbaycan tarixi. 7 cilddə (I-III cildlər). B., 1998.

Azərbaycan tarixi. I-II cildlər. B., 1958

Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). B., 1994

Q.S. İsmayılov. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. B., 1981.

Azərbaycan tarixi üzrə qaynaqlar. B., 1989.

M.Məlikova, E.Bayramov. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi. B., 1984.

С.М.Кашкай. Из истории Маннейского царства. Б., 1977.

А.О.Маковельский. Авеста. Б., 1960.

И.Алиев. Очерк истории Атропотены. Б., 1989

M.Məlikova, E.Nəbiyev. Xarici ölkələrin dövlət və hüquq tarixi. B., 1997.

M.Məlikova, X.İsmayılov. Qədim dövrlərdə və erkən orta əsrlərdə Azərbaycanın dövlət və hüququ. B., 2001.

А.Рзаев. История политических и правовых учений Азербайджане. Б., 2000.

A.Fazili. Atropatena (e.ə IV - e.VII əsri) B., 1992

Z.M.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. B., 1989.

R.A.Əkbərov. VII-IX əsrlərdə Azərbaycanın ictimai quruluşuna dair. // Odlar Yurdu Universitetinin xəbərləri. B., 1997. № 2

Z.M.Bünyadov. Azərbaycan Atabəyləri dövləti. B., 1986.

V.Z.Piriyev. Hülakülər və Cəlarilər dövründə Azərbaycanda məhkəmə sistemi və mühakimə qaydaları. // Azərb. EA Xəbərləri. B., 1986.

В.З.Пириев. Мухаммад ибн Хиндушах Нахчивани о некоторых вопросах организации торговли. М.: Наука, 1980.

В.З.Пириев. Место духовенствав организационном управлении при Хулагуидов и Джелаиридах. Советское востоковедение. М., 1988.

В.З.Пириев. Государственный строй и система управления в Азербайджане при Хулагуидах и Джелаиридах. Б.: Элм, 1988.

В.З.Пириев. Городское управление в государстве Хулагуидов. В сб. ст. Позднефеодальные города в Средней Азии. Ташкент, 1990.

А.А.Ализаде. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Б., 1956.

S.M.Onullahi. XIII-XVIII əsrlərdə Təbriz şəhərinin tarixi. B., 1982.

S.M.Onullahi. "Əfzəl ət-təvarix" əsəri Azərbaycan tarixinin mənbəyi kimi. // Azərbaycan EA Xəbərləri (tarix, fəlsəfə, hüquq). B., 1978. N2.

E.Cəlilov. Azərbaycanın dövlət və hüququ (XIII- XIV yüzilliklər). B., 1995.

Quran-i Kərim. Z.Bünyadov və V. Məmmədəliyevin Azərbaycan dilinə tərcüməsi. B., 1997.

Quran-i Kərim. Nəriman Qasımoğlunun tərcüməsi. B., 1993.

A.Masse. İslam. B., 1964.

Nizamülmülk. Siyasətnamə. B., 1989.

Q.Kərimov. Şəriət və onun sosial mahiyyəti. B., 1987.

F.Məmmədova. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. B., 1993.

И.П.Петрушевский. Государство Азербайджана в XV в. Б., 1949.

O.Ə.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. B., 1993.

N.Cəfərli. Səfəvilər dövləti: hakimiyyət və idarəçilik orqanları. B., 2000.

N.Cəfərli. Səfəvilər dövləti: məhkəmə orqanları və hərbi təşkilatın quruluşu. B., 2000

А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII вв. Б., 1981.

M.Dəmirov. Car-Tala Qanunnaməsinə görə cinayət və cəza. // "Hüquqi dövlət və qanun" jurnalı. B., 1999. N 2.

А.Мильман. Политический строй Азербайджана в XIX - начале XX в. Б., 1996.

R.Əkbərov. Mixtar Qoşum Alban Qanunnaməsi hüququn mənbəyi kimi. Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri 2001-ci il № 6

R.Əkbərov. Xarici ölkələrin dövlət və hüquq tarixi (mühazirə kursu), "Qanun" Nəşriyyatı 2003

R.Əkbərov. Konstitusiya islahatı və səlahiyyətlərin bölgüsü. Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, 2003-cü il № 9-10

R.Əkbərov, E. Bayramov. XIX əsrin birinci yarısında Azərbaycanın dövlət quruluşu. // "Hüquqi dövlət və qanun jurnalı". B., 1999, N9.

T.Əzizov. Azərbaycan XX əsrin əvvəllərində. B., 1997.

B.Nəcəfov. Azərbaycan Demokratik Respublikası. B., 1992.

A.Hacıyev. Qars və Araz-türk respublikalarının tarixindən. B., 1994.

Азербайджанская Республика. Документы и материалы (1918-1920 гг). Б., 1998.

Азербайджанская Демократическай Республика (1918-1920 гг.). Законодательные акты. Б., 1998.

M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. B., 1990.

N.Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. B., 1990.

А.Балаев. Азербайджанское национальное-демократическое движение в 1917-1920 гг. Б., 1990.

А.Г.Алиев. Конституционное развитие Азербайджанской ССР. Б., 1976.

История государства и права Азербайджанской ССР. Б., 1973.

Z.Əsgərov. Naxçıvan Muxtar Respublikasının konstitusiya statusu. B., 2000.

Дж. Мовсумов. Судебная система в Азербайджане. Б., 1967.

S.Səlimov. Azərbaycan SSR mülki qanunvericilik tarixindən. B., 1969.

S.Səlimov. Sovet qanunvericiliyinin başlıca prinsipləri. // "Azərbaycan kommunisti" jurnalı. B., 1968. № 8.

S.Səlimov. Azərbaycan SSR mülki qanunvericiliyinin yaradılması (1920-1923-cü illərdə). Avtoreferat. B., 1970.

SSRİ dövlət və hüquq tarixi (II hissə). B., 1977.
Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). B., 1985.
Ş.Ə.Tağıyeva. XIX əsrin sonu və XX əsrin əvvəllərində İran kəndlilərinin vəziyyəti. B., 1969.
Azərbaycan SSR Qanunlar Toplusu. I-IV cildlər (1934-1984) B., 1986.
Azərbaycan Respublikası Qanunlar külliyatı. I- IV kitablar 1991-2000-ci illər, B.: Qanun, 2000.
Azərbaycan Respublikasının Konstitusiyası. B., 1996.
Azərbaycan Respublikasının Konstitusiyası. B., 2003.
Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. B., 2000.
Azərbaycan tarixi xəritələri. B., 1994.

QEYD ÜÇÜN

NƏŞR-

Səhnə QOLOĞLU

NƏŞRİYYAT REDAKTORU

Rəvşən QAZİYEV

KOMPÜTER TƏRTİBATI

Sahib QƏNİYEV

YIĞICI

Xəyal MİKAYILOV

KORREKTOR

Mehpara ƏSƏDOVA

Çapa imzalanmışdır: 25.09.2003
Formatı 60x84 1/16
Fiziki çap vərəqi 24,25 Şərti çap vərəqi 30,24
Tiraj 500. Sifariş 045.
Qiyməti müqavilə ilə.

QANUN NƏŞRİYYATI

Bakı, Azərbaycan, 370033,
Ağa Nemətulla küçəsi 44.
***Tel:** 67-79-56; **Faks:** 67-88-87*
***E-mail:** ms@azdata.net*
***Web:** qanun-az.com*